# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# ИЗВЕСТИЯ
## ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Серия гуманитарных, общественных и педагогико-психологических наук***

***Series of humanitarian, social and pedagogical-psychological sciences***

**2019, C. 67, № 4**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2019, C.67, №4**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.e.d., prof. V.H.Əliyev *(baş redaktorun müavini),* psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov *(baş redaktorun müavini),* f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

P.ü.f.d., dos. N.Ə.Abdullazadə, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.e.d., prof. M.M.Əmirov, p.ü.f.d., dos. N.T.Hüseynova, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. B.Ə.Xəlilov, f.e.d., prof. Z.A.Xəlilov, f.e.d., prof. N.M.Xudiyev, p.ü.f.d., prof. İ.N.İsayev, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, f.e.ü.f.d. N.Q.Aslanova *(məsul katib)*

**EDITORIAL BOARD**

Prof. Dr. V.Q.Aliyev *(ass. editor*), Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov *(ass. editor),* Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Ass. prof. Phd N.A.Abdullazadeh, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova. Ass. prof. Dr. Sh.Q.Aliyeva, Prof. Dr. M.M.Amirov, Ass. prof. Phd N.T.Huseynova, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. B.A.Khalilov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. N.M.Khudiyev, Prof. Phd I.N.Isayev, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Phd N.G.Aslanova (*executive secretary*)

***©ADPU, 2019***
***©АГПУ, 2019***
***©ASPU, 2019***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Ağasiyeva M.S.***
QANTƏMİRİN YARADICILIĞINDA BƏZİ SÖZLƏRİN SEMANTİKASI ……..….. 12
***Ələkbərova S.S.***
POETİK METAFORLARDAN KOQNİTİV METAFORLAR…………………...…….. 19
***Əliyeva X.T.***
NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNİN UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ ROLU ........................................................................ 30
***Əsgərli F.F.***
HÜSEYN CAVİD DRAMATURGİYASI ƏDƏBİ TƏNQİDDƏ .................................. 36
***Əzizova P.Ə.***
RÜBAİ MƏTNLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ ...................................................... 42
***Mahmudova Ş.Ə.***
UŞAQ ƏSƏRLƏRİNDƏ FOLKLOR NÜMUNƏLƏRİNİN TƏZAHÜRÜ .................... 50
***Nuriyeva S.H.***
İNGİLİS DİLİNİN ZƏNGİNLƏŞMƏ ÜSULLARI ....................................................... 57
***Qurbanov V.T., Ramizzadə N.R.***
MƏSƏLƏYƏ MÜASİR BAXIŞ …....................................................................... 63
***Rəsulova S.H.***
AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ TƏŞƏKKÜLÜNDƏ YENİ TİPLİ MƏKTƏB, MAARİFÇİ MÜHİT VƏ ANA DİLİ DƏRSLİKLƏRİNİN ROLU ...…....... 69
***Salifova A.Y.***
AZƏRBAYCAN ƏDƏBİ-BƏDİİ DİLİ VƏ SƏMƏD VURĞUN ..................................... 77
***Sultanova X.R.***
RAMİZ RÖVŞƏN YARADICILIĞINDA AĞAC KULTU ("BAŞI KƏSİK GÖZƏL KÖTÜK" ŞEİRİ ƏSASINDA) ................................................ 86

## *İctimai elmlər*

***Bağırova N.D.***
AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASINDA GÖRKƏMLİ MAARİFÇİ Q.R.MİRZƏZADƏNİN MATERİALLARINA DAİR .......... 92
***Əliyeva F.B., Nəbiyeva E.İ., Quliyeva G.Q.***
ÜMUMMİLLİ LİDER VƏ GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞDIRILMASI ...... 103
***Əliyeva R.Y.***
MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARININ "ƏRƏB BAHARI"NDA ROLU .................................................................................................................. 110
***Həsənov Y.L.***
YUNANISTANDA – QƏRBİ TRAKYADA YAŞAYAN TÜRKLƏRİN İCTİMAİ-SİYASİ TARİXİNƏ DAİR (1960-1990) ........................................................... 118
***İftixari A.H.***
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN QACARLAR DÖVLƏTİNDƏ İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ (İRAN TARİXŞÜNASLIĞINDA) ............................................ 127
***İslam X.***
"BAKI ŞƏHƏRİNDƏ DÖVLƏT UNİVERSİTETİNİN AÇILMASI HAQQINDA" QANUN LAHİYƏSİNİN MÜZAKİRƏSİ ARXİV SƏNƏDLƏRİNDƏ......................... 141

*Kazımbəyli İ.F.*
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANA TÜRKİYƏNİN HƏRBİ-SİYASİ DƏSTƏYİ ........ 149
*Mehdizadə G.Z.*
AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ-QƏRB ENERJİ VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFINDA TÜRKİYƏ VƏ GÜRCÜSTAN İLƏ STRATEJİ ƏMƏKDAŞLIĞI (XX ƏSRİN 90-cı İLLƏRİ) ........ 159
*Məmmədli H.G.*
AZƏRBAYCANIN MODERNLƏŞMƏSİNDƏ SİYASİ İDEOLOGİYALARIN ROLU 168
*Məmmədova E.K.*
QAZAX SULTANLIĞININ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ ........ 180
*Qəniyeva Z.M.*
TÜRK QADINLARININ AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATINDA TARİX BOYU MÖVQEYİNƏ DAİR ........ 187
*Quliyeva L.R.*
MÜASİR İQTİSADİYYATIN İNKİŞAFINDA REKLAMIN ROLU ........ 193
*Sadıqova İ.V.*
QARABAĞIN QƏDİM DÖVR ARXEOLOJİ ABİDƏLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR ........ 199
*Tajdehibonab M.K.*
MÜASİR DÖVRDƏ RUSİYA-POLŞA İQTİSADİ ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ ........ 210
*Alıyev R.A.*
XX ƏSRİN 70-ci İLLƏRİNİN İKİNCİ YARISINDA SUMQAYIT KİMYA SƏNAYESİNİN TARİXİ ........ 223

## *Pedaqoji-psixoloji elmlər*

*Əliyeva L.M.*
PSİXOLOJİ TƏSİR VƏ YARADICI FƏALLIĞIN QARŞILIQLI ƏLAQƏSİ ........ 230
*Əliyeva P.Z.*
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ YENİYETMƏLƏRDƏ MİLLİ XARAKTERİN FORMALAŞMASI ........ 238
*Əliyeva Ş.Q.*
MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA AQRESSİYA ƏLAMƏTLƏRİNİN QARŞISININ ALINMASI YOLLARI ........ 247
*Əsədova N.Q.*
VALİDEYNLƏRİN PEDAQOJİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR ........ 254
*Hüseynova Z.N.*
İSTEDADLI UŞAQLARLA İŞDƏ MÜƏLLİMİN PEŞƏ VƏ ŞƏXSİ KEYFİYYƏTLƏRİNƏ VERİLƏN PSİXOLOJİ TƏLƏBLƏR ........ 259
*İbrahimov F.N., Abdurahmanov V.Ə.*
TƏDRİS FƏALİYYƏTİNİN ANALİTİK VƏ EVRİSTİK MƏNTİQLƏRƏ UYĞUN İDARƏ OLUNMASI ........ 266
*İmanova P.İ.*
UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA TƏRBİYƏÇİ-UŞAQ MÜNASİBƏTLƏRİNİN GÖZLƏNİLMƏSİ ........ 276

***İsayeva Z.M.***
EMOSİONAL İNTELLEKT MODELLƏRİ VƏ KOMPONENTLƏRİNİN PSİXOLOJİ ƏSASLARI ........................................................................................ 282

***Məmmədova A.T.***
1920-1931-ci İLLƏRDƏ AZƏRBAYCANDA İBTİDAİ MƏKTƏBLƏR ÜÇÜN TƏDRİS PROQRAMLARININ HAZIRLANMASI ........................................................ 290

***Musayev D.M.***
TƏHSİL KOMPETENSİYALARININ FORMALAŞDIRILMASI – MÜASİR TƏLİMİN ƏSAS ŞƏRTİ .......................................................................................... 297

***Orucova G.Y.***
MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN HUMANİSTLƏŞDİRLMƏSİ MƏKTƏBDAXİLİ İDARƏERTMƏNİ HUMANİSTLƏŞDİRMƏNİN MÜHÜM ŞƏRTİ KİMİ ........................................................................................................ 303

***Verdiyeva M.Ə.***
KEYFİYYƏTLİ TƏHSİLDƏ MÜƏLLİM SƏRİŞTƏLİLİYİNİN ROLU ....................... 312

***Abdulkərimov M.C.***
RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ ........................................................................................................ 319

## *Sənətşünaslıq və memarlıq*

***Niftiyeva Ü.N.***
SÜLEYMAN ƏLƏSGƏROVUN “BİZİM VƏTƏN ÇÖRƏYİ” MAHNISININ MELODİK XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ ....……………...................................... 324

# СОДЕРЖАНИЕ

## Гуманитарные науки

*Агасиева М.С.*
СЕМАНТИКА НЕКОТОРЫХ СЛОВ В ТВОРЧЕСТВЕ КАНТЕМИРА .................. 12
*Алекберова С.С.*
ОТ ПОЭТИЧЕСКИХ МЕТАФОР К МЕТАФОРАМ КОГНИТИВНОГО ИЗМЕРЕНИЯ ........................................................................................................ 19
*Алиева Х.Т.*
РОЛЬ ПОЭМЫ «СОКРОВИЩНИЦА ТАЙН» НИЗАМИ ГЯНДЖЕВИ В МОРАЛЬНОМ ВОСПИТАНИИ ДЕТЕЙ ................................................................ 30
*Аскерли Ф.Ф.*
ДРАМАТУРГИЯ ГУСЕЙНА ДЖАВИДА В ЛИТЕРАТУРНОЙ КРИТИКЕ ........... 36
*Азизова П.А.*
ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ТЕКСТОВ РУБАИ ............................................. 42
*Махмудова Ш.А.*
ПРОЯВЛЕНИЯ ПРИМЕРОВ ФОЛЬКЛОРА В ДЕТСКОЙ ЛИТЕРАТУРЕ ............ 50
*Нуриева С.Г.*
МЕТОДЫ ОБОГАЩЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА ............................................. 57
*Гурбанов В.Т., Рамиззаде Н.Р.*
СОВРЕМЕННЫЙ ВЗГЛЯД НА ВОПРОС ………………………....…...................... 63
*Расулова С.Г.*
РОЛЬ ШКОЛЫ НОВОГО ТИПА, УЧЕБНОЙ СРЕДЫ И УЧЕБНИКОВ ПО РОДНОМУ ЯЗЫКУ В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ ........................................................................................................ 69
*Салифова А.Ю.*
АЗЕРБАЙДЖАНСКИЙ ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЙ ЯЗЫК И САМЕД ВУРГУН ..................…..........................................……...............................… 77
*Султанова Х.Р.*
КУЛЬТ ДЕРЕВО В ТВОРЧЕСТВЕ РАМИЗА РОВШАНА ....................................... 86

## Общественные науки

*Багирова Н.Д.*
О МАТЕРИАЛАХ ВИДНОГО ПРОСВЕТИТЕЛЯ Г.Р.МИРЗАЗАДЕ В КОЛЛЕКЦИИ МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ................................................ 92
*Алиева Ф.Б., Набиева Э.И., Гулиева Г.Г.*
ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР И ФОРМИРОВАНИЕ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ ……….........................................................................................… 103
*Алиева Р.Я.*
РОЛЬ СОВРЕМЕННЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В "АРАБСКОЙ ВЕСНЕ” ........................................................................................ 110
*Гасанов Ю.Л.*
ОБ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ИСТОРИИ ТУРОК, ЖИВУЩИХ В ЗАПАДНОЙ ФРАКИИ (1960-1990) – ГРЕЦИИ ……………......…............................ 118
*Ифтихари А.Г.*
ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ МУХАММЕДА АМИНА РАСУЛЗАДЕ В ГАДЖАРСКОМ ГОСУДАРСТВЕ (В ИСТОРИОГРАФИИ ИРАНА) 127

***Ислам Х.***
ОБСУЖДЕНИЕ ЗАКОНОПРОЕКТА «ОБ ОТКРЫТИИ ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА В БАКУ» В АРХИВНЫХ ДОКУМЕНТАХ ............................... 141
***Казымбейли И.Ф.***
ВОЕННО-ПОЛИТИЧЕСКАЯ ПОДДЕРЖКА ТУРЦИИ АЗЕРБАЙДЖАНУ В НАЧАЛЕ XX ВЕКА ............................................................................................ 149
***Мехтизаде Г.З.***
СТРАТЕГИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО С ТУРЦИЕЙ И ГРУЗИЕЙ В РАЗВИТИИ ЭНЕРГЕТИЧЕСКИХ И ТРАНСПОРТНЫХ КОРИДОРОВ ВОСТОК-ЗАПАД АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (90-ые ГОДЫ XX ВЕКА) ........... 159
***Мамедли Х.Г.***
РОЛЬ ПОЛИТИЧЕСКИХ ИДЕОЛОГИЙ В МОДЕРНИЗАЦИИ АЗЕРБАЙДЖАНА ............................................................................................ 168
***Мамедова Э.К.***
АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ ДЕЛЕНИЕ КАЗАХСКОГО СУЛТАНСТВА ............................................................................................ 180
***Ганиева З.М.***
О РОЛИ ТЮРКСКИХ ЖЕНЩИН НА ПРОТЯЖЕНИИ ВСЕЙ ИСТОРИИ В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНА ……...……… 187
***Кулиева Л.Р.***
РОЛЬ РЕКЛАМЫ В РАЗВИТИИ СОВРЕМЕННОЙ ЭКОНОМИКИ …………...… 193
***Садыгова И.В.***
О ХАРАКТЕРНЫХ ОСОБЕННОСТЯХ ДРЕВНИХ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ КАРАБАХА ............................................................................ 199
***Таждехибонаб М.К.***
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РОССИЙСКО-ПОЛЬСКОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА В СОВРЕМЕННУЮ ЭПОХУ .......... 210
***Алыев Р.А.***
ИСТОРИЯ ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ СУМГАИТА ВТОРОЙ ПОЛОВИНЫ 70-х ГОДОВ XX ВЕКА ............................................................ 223

## *Педагогико-психологические науки*

***Алиева Л.М.***
ВЗАИМОДЕЙСТВИЕ ПСИХОЛОГИЧЕСКИХ ЭФФЕКТОВ И ТВОРЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ………………………...……….............................………... 230
***Алиева П.З.***
ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА ПОДРОСТКОВ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ ……...……...…..............................……...….. 238
***Алиева Ш.Г.***
СПОСОБЫ ПРЕДОТВРАЩЕНИЯ СИМПТОМОВ АГРЕССИИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА ............................................................................ 247
***Асадова Н.Г.***
ФАКТОРЫ, ВОЗДЕЙСТВУЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОЙ КУЛЬТУРЫ РОДИТЕЛЕЙ ................................................... 254
***Гусейнова З.Н.***
ПСИХОЛОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ, ПРЕДЪЯВЛЯЕМЫЕ К ПРОФЕССИОНАЛЬНЫМ И ЛИЧНОСТНЫМ КАЧЕСТВАМ УЧИТЕЛЯ В РАБОТЕ С ОДАРЕННЫМИ ДЕТЬМИ ....................................................................... 259

***Ибрагимов Ф.Н., Абдурахманов В.А.***
УПРАВЛЕНИЕ ПРОЦЕССА УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТЬЮ СОГЛАСНО АНАЛИТИЧЕСКОЙ И ЭВРИСТИЧЕСКОЙ ЛОГИКЕ ............................................ 266
***Иманова П.И.***
СОБЛЮДЕНИЕ ОТНОШЕНИЙ ВОСПИТАТЕЛЯ И РЕБЁНКА В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ДЕТЕЙ ................................................................. 276
***Исаева З.М.***
ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ МОДЕЛЕЙ И КОМПОНЕНТОВ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА ...................................................................... 282
***Мамедова А.Т.***
РАЗРАБОТКА УЧЕБНЫХ ПЛАНОВ ДЛЯ НАЧАЛЬНЫХ ШКОЛ В АЗЕРБАЙДЖАНЕ В 1920-1931 гг. ................................................................................ 290
***Мусаев Д.М.***
ФОРМИРОВАНИЕ ОБРАЗОВАТЕЛЬНЫХ КОМПЕТЕНЦИЙ – ОСНОВНОЕ УСЛОВИЕ СОВРЕМЕННОГО ОБУЧЕНИЯ ............................................................. 297
***Оруджева Г.Я.***
ГУМАНИЗАЦИЯ ОТНОШЕНИЙ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ КАК НЕОБХОДИМОЕ УСЛОВИЕ ГУМАНИЗАЦИИ ВНУТРИШКОЛЬНОГО УПРАВЛЕНИЯ ................................................................................................... 30
***Вердиева М.А.***
РОЛЬ КОМПЕТЕНТНОСТИ УЧИТЕЛЯ В КАЧЕСТВЕННОМ ОБУЧЕНИИ ......... 312
***Абдулкеримов М.Дж.***
ИСПОЛЬЗОВАНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ ПО МАТЕМАТИКЕ ................................................................................ 319

## *Искусствоведение и зодчество*

***Нифтиева У.Н.***
ИССЛЕДОВАНИЕ МЕЛОДИЧЕСКИХ ХАРАКТЕРИСТИК ПЕСНИ «ХЛЕБ НАШЕЙ РОДИНЫ» С.АЛЕСКЕРОВА ...………........................................ 324

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Aghasiyeva M.S.***
THE SEMANTİCS OF THE SOME WORDS IN GANTAMIR'S ACTIVITY .......... 12
***Alekberova S.S.***
FROM POETIC METAPHOR TO COGNITIVE METAPHOR …............……....…... 19
***Aliyeva X.T.***
THE ROLE OF THE POEM "THE TREASURY OF MYSTERIES" BY NIZAMI GANJEVI IN THE MORAL EDUCATION OF CHILDREN …………………...…... 30
***Asgerli F.F.***
HUSEIN JAVID'S DRAMATURGY IN LITERARY CRITICISM ............................ 36
***Azizova P.A.***
LINGUISTIC ANALYSIS OF RUBAI TEXTS ……………………………………… 42
***Makhmudova Sh.A.***
DEMONSTRATION OF EXAMPLES OF FOLKLORE IN CHILDREN'S LITERATURE ……………………………………………………......……………… 50
***Nuriyeva S.H.***
METHODS OF ENGLISH ENRICHMENT PROCESS .............................................. 57
***Gurbanov V.T., Ramizzadeh N.R.***
A MODERN LOOKING TO THE QUESTION ......................................................... 63
***Rasulova S.H.***
ROLE OF A NEW TYPE OF SCHOOL, EDUCATIONAL ENVIRONMENT AND MOTHER TONGUE TEXTBOOKS IN THE FORMATION OF AZERBAIJANI CHILDREN'S LITERATURE ........................................................................................ 69
***Saliphova A.Y.***
AZERBAIJANI LITERARY AND ARTISTIC LANGUAGE AND SAMAD VURGUN ........................................................................................................................ 77
***Sultanova X.R.***
CULT OF THE TREE IN THE RAMIZ ROVSHAN`S WORK ……………………... 86

## *Social sciences*

***Baghirova N.D.***
ABOUT MATERIALS OF A PROMINENT EDUCATOR G.R.MIRZAZADE IN THE COLLECTION OF THE HISTORY MUSEUM OF AZERBAIJAN ....…...…...... 92
***Aliyeva F.B., Nabiyeva E.I., Guliyeva G.Q.***
NATIONAL LEADER AND FORMATION OF YOUTH POLICY ………....……..... 103
***Aliyeva R.Y.***
THE ROLE OF MODERN INFORMATION TECHNOLOGIES IN THE "ARAB SPRING" ........................................................................................................................ 110
***Hasanov Y.L.***
ON THE SOCIO-POLITICAL HISTORY OF TURKS LIVING IN WESTERN THRACE – GREECE (1960-1990) ...................................……………………..…..... 118
***Eftekhari A.H.***
MUHAMMAD AMIN RASULZADEH'S SOCIAL-POLITICAL ACTIVITY IN QAJAR'S GOVERNMENT (IN IRAN'S HISTORIOGRAPHY) ............................... 127

***Islam X.***
DISCUSSION OF THE LAW PROJECT "ON OPENING A STATE UNIVERSITY IN BAKU" IN THE ARCHIVE DOCUMENTS …………………………...……… 141
***Kazimbeyli I.F.***
THE MILITARY AND POLITICAL SUPPORT BY TURKEY TO AZERBAIJAN IN THE EARLY TWENTIETH CENTURY ……………………………………........ 149
***Mehdizadeh G.Z.***
STRATEGIC COOPERATION OF AZERBAIJAN REPUBLIC WITH TURKEY AND GEORGIA IN THE DEVELOPMENT OF EAST-WEST ENERGY AND TRANSPORT CORRIDORS (90'S OF THE XX CENTURY) .................................. 159
***Mammadli H.G.***
THE ROLE OF POLITICAL IDEOLOGIES IN THE MODERNIZATION OF AZERBAIJAN ……………………………………………………..……..…….. 168
***Mamadova E.K.***
ADMINISTRATIVE AND TERRITORIAL STRUCTURE OF THE KAZAKH SULTANATE ……………………………………………………..…………….. 180
***Ganiyeva Z.M.***
ABOUT THE ROLE OF TURKISH WOMEN THE ENTIRE HISTORY IN THE SOCIO-POLITICAL LIFE OF AZERBAIJAN ………………………………………. 187
***Guliyeva L.R.***
THE ROLE OF ADVERTISING FOR THE DEVELOPMENT OF THE MODERN ECONOMY ……………………………………………………………………… 193
***Sadigova I.V.***
ABOUT THE CHARACTERISTICS OF THE ANCIENT ARCHAEOLOGICAL MONUMENTS OF KARABAKH ………………………………………………… 199
***Tajdehibonab M.K.***
MAIN TRENDS OF THE RUSSIAN-POLISH ECONOMIC COOPERATION IN MODERN TIMES ……………………………………………………………….. 210
***Aliyev R.A.…***
THE HISTORY OF SUMGAYIT CHEMICAL INDUSTRY IN THE SECOND HALF OF THE 70'S OF THE XX CENTURY ......................................................... 223

## *Pedagogical-psychological sciences*

***Aliyeva L.M.***
PSYCHOLOGICAL EFFECTS AND INTERACTION OF CREATIVE ACTIVITY 230
***Aliyeva P.Z.***
FORMATION OF NATIONAL CHARACTER OF TEENAGERS IN CONDITION OF GLOBALIZATION ......................................................................................... 238
***Aliyeva Sh.G.***
WAYS TO PREVENT SYMPTOMS OF AGGRESSION AMONG PRESCHOOL CHILDREN ........................................................................................................ 247
***Asadova N.G.***
FACTORS AFFECTING THE FORMATION OF PEDAGOGICAL CULTURE OF PARENTS ........................................................................................................ 254
***Huseynova Z.N.***
PSYCHOLOGICAL REQUIREMENTS FOR PROFESSIONAL AND PERSONAL QUALITIES OF TEACHER IN WORK WITH TALENTED CHILDREN ................ 259

***Ibrahimov F.N., Abdurahmanov V.A.***
MANAGEMENT OF LEARNING ACTIVITIES IN ACCORDANCE WITH ANALYTICAL AND EVRISTIC LOGIC ..................................................................... 266
***Imanova P.I.***
COMPLIANCE WITH THE RELATIONS OF THE TEACHER AND CHILD IN THE FORMATION OF THE CHILD'S PERSONALITY ........................................... 276
***Isayeva Z.M.***
PSYCHOLOGICAL BASICS OF EMOTIONAL INTELLIGENCE MODELS AND COMPONENTS ........................................................................................................... 282
***Mammadova A.T.***
DEVELOPMENT OF CURRICULA FOR PRIMARY SCHOOLS IN AZERBAIJAN IN 1920-1931 yy. ..................................................................................... 290
***Musayev D.M.***
FORMATION OF EDUCATION COMPETENCIES – A MAIN CONDITION FOR MODERN TRAINING ........................................................................................... 297
***Orujeva G.Y.***
HUMANIZATION OF TEACHER-PUPIL RELATIONS AS AN IMPORTANT CONDITION FOR THE HUMANIZATION OF INTRA-SCHOOL MANAGEMENT ........................................................................................................... 303
***Verdiyeva M.A.***
THE ROLE OF TEACHER COMPETENCY IN QUALITY LEARNING .................. 312
***Abdulkarimov M.J.***
USE OF INTERACTIVE TEACHING METHODS IN LESSONS ON MATHEMATICS ........................................................................................................... 319

## *Art criticism and architecture*

***Niftiyeva U.N.***
STUDY MELODIK CHARACTERISTICS OF THE SONG "HOMELAND BREAD" BY S.ALESKEROV ...…...............................................................……...................….... 324

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 12-18
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 12-18
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 12-18

## Humanitar elmlər

*UOT 811.512.162*

***M.S.Ağasiyeva***
*Sumqayıt Dövlət Universiteti*
*agasiyeva1983@gmail.com*

# QANTƏMİRİN YARADICILIĞINDA BƏZİ SÖZLƏRİN SEMANTİKASI

***Açar sözlər:*** *Qantəmirin nəsr dili, sözlərin semantikası, leksik-üslubi xüsusiyyətlər, xalq danışıq dili*

Qantəmirin nəsr dilinin leksik-üslubi imkanları üzərində apardığımız tədqiqatda bu qənaətə gəldik ki, yazıçı öz əsərlərinin dilini ədəbi dil normaları çərçivəsinə salmamış, yaxud ədəbi dil bazası ilə məhdudlaşdırmamışdır. Onun əsərlərində poetik leksikanın əsas materialı kimi danışıq-məişət leksikası çıxış edir. Qantəmir ümumxalq dilini ədəbi-bədii müstəviyə çıxarmış və bu müstəvidə bu dilin imkanlarını nümayiş etdirmişdir. Müəllif danışıq ifadələri, vulqar sözlər, sinonimlər, frazeoloji birləşmələr kimi leksik vahidlərdən həm kommunikativ, həm də linqopoetik effekt yaratmaq üçün məharətlə istifadə edə bilmişdir.

Qantəmir əsərlərinə xalq danışıq dilinin qatlarından elə ifadələr seçib gətirmişdir ki, ümumxalq dilində kütləvi işləkliyə malik deyildir. Yazıçı sanki xalq dilinin yaddaşında mürgü döyən ifadələri oyadıb yenidən dilin hərəkətinə qoşmuşdur.

Qantəmirin nəsr dili üçün demokratizm xasdır. Xalq danışıq dilinin ifadələri Qantəmirin əsərlərində dilin canlılığını, təbiiliyini yaratmışdır.

***М.С.Агасиева***

## СЕМАНТИКА НЕКОТОРЫХ СЛОВ В ТВОРЧЕСТВЕ КАНТЕМИРА

***Ключевые слова:*** *язык прозы Кантемира, семантика слов, лексико-стилистические особенности, народная разговорная речь*

Исследования лексико-стилистических возможностей языка прозы Кантемира показывают что, язык произведений писателя выходит за рамки норм литературного языка, что говорит о том, что он не ограничивался только лишь базой литературного языка. Основным материалом поэтической лексики его произведений служит разговорно-бытовая лексика. Кантемир вывел общенародный язык на литературно-художественный уровень и показал возможности языка в этой плоскости.

Кантемир выбирал и использовал такие слова и выражения из глубинных пластов народной разговорной речи, какие не были широко

распространены в общенациональном языке. Писатель словно разбудил и привел в движение выражения, дремлющие в языке.

Для языка прозы Кантемира свойственен демократизм. Выражения из народного просторечья создают в языке произведений Кантемира живость и естественность.

***M.S.Aghasiyeva***

**THE SEMANTICS OF THE SOME WORDS IN GANTAMIR'S ACTIVITY**

***Keywords:*** *Gantemir's prose language, the semantics of the word, lexical stylistic features, people's collogual speech*

As a resul we came to conclusion by studying the lexical stylistic features of Gantemir's prose language that, writer didn't keep his trace's language in the frame of literal language norms, or not to limited by literal language base. Collogual domestic lexic is more active in his traces as the main materials of poetic lexic.

Gantemir had promoted common literal language on literal artistic board, and domenstrated all opportunites of this language n this board. Gantemir quoted some word combinations from people's collogual language, they have no any mass using meanings. Writer awake some word combinations which slumber in spoken language and give living them.

Demokratisim is character of Gantemir's prose language. People collogual expressings made language natural and living in any traces of Gantemir.

Azərbaycan ədəbiyyatında özünəməxsus yaradıcılıq yolu və tərzi olan sənətkarlardan biri də repressiyaya məruz qalmış yazarımız Qantəmir (Qafur Sədrəddin oğlu Əfəndiyev) olmuşdur. Onun nəsr dilinin lüğəvi bazası yeni leksik normaların yarandığı XX əsrin iyirminci illərinin ədəbi mənzərəsi ilə yanaşı, həm də dövrünün xalq danışıq dilini əks etdirir. Bu, elə bir dövr idi ki, Azərbaycanın "sovetləşmə"sindən sonra xalq dilinin o zamana qədər qeyri-ədəbi sayılan leksikonu ədəbi ünsiyyətə maneəsiz nüfuz etməyə başlayırdı; əsasən də bədii üslubda özünü göstərirdi. Çünki "bədii üslub müstəqil və zəngin funksional üslubi yükə malik dil hadisəsidir. Bədii üslub öz xüsusiyyət və əlamətləri ilə olduqca obrazlı, emosional-ekspressivdir. Bu üslub başqa funksional üslublara nisbətən xalq danışıq dilinə daha yaxındır" [4, s.216].

Qantəmirin nəsr dilinin leksik-üslubi xüsusiyyətləri üzərində apardığımız araşdırmanı əsasən onda xalq təfəkkürünün izlərini axtarmaq istiqamətində qurduğumuzdan yazıçının dilində o leksik vahidlər üzərində dayanacağıq ki, o bu araşdırma üçün material versin. Məsələn, *dərviş* sözünə nəzər salaq. Bu söz Qantəmirin nəsr dilində *dərviş kimi* ifadəsi şəklində ədəbi dildəki mənasından fərqli – yeni mənada işlənmişdir. Məsələn, *dərviş* sözü Azərbaycan dilinin daşıyıcısı olan və bu dili öyrənib bilən hər kəs üçün anlaşıqlı olduğu halda, *"dərviş kimi"* ifadəsinin semantikası yalnız linqvistik

izahla anlaşılmır. Ümumiyyətlə, hər bir dildə, o cümlədən də Azərbaycan türkcəsində elə ifadələr var ki, yalnız lüğəvi izahlarda anlaşılmır, onlar etnoqrafik əsasda izah oluna bilir. Belə ki bu ifadələrin semantikası daxilindəki leksik vahidlərin nominativ mənasından əlavə, xalq düşüncə tərzini, milli etnoqrafik xüsusiyyətləri məzmununa alır. Xalq danışıq ifadələrinin alt qatlarında xalq düşüncə tərzi, milli mental xüsusiyyətlər gizlənir.

"Vəsiyyət" əsərində müəllif dilində işlənən *"dərviş kimi"* ifadəsi də məhz etnoqrafik əsaslarla izah oluna bilən ifadədir. Bu ifadənin semantikasını anlamaq üçün "dərviş kimdir?" sualına cavab vermək lazımdır. İlk öncə onu deyək ki, dərviş Şərq müsəlman xalqlarına məxsus bir anlayışdır. Qədimdə bu xalqların həyatında qapı-qapı gəzərək yaxud meydanlarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbala hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub pul yığan adama dərviş deyirdilər [2, s.72].

Dilimizdə bu sözə istinadən dərvişanə, yəni dərviş kimi ifadəsi də formalaşmışdır ki, yoxsulluq, kasıblıq mənasını ifadə edir. Məsələn, *dərvişanə süfrə* nemətlərin bol olmadığı, kasıbyanə bir süfrə mənasını verir. Ancaq Qantəmirin işlətdiyi "*Çörəyimi yenicə yeyib qurtarmışdım ki, qonşumuz Hüseyn salamsız dərviş kimi qapını açıb içəri girdi"*. - cümləsində *"dərviş kimi"* ifadəsi bu mənanı vermir, belə ki, *kasıbyanə içəri giriş* yanaşma əlaqəsində semantik uyğunluq yoxdur. Azərbaycan dilinin izahlı lüğətlərində də özünün başqa izahını tapmamışdır. Bu ifadə yazıçının *dərviş* sözünün semantikasına yaradıcı şəkildə yanaşmasının nəticəsi kimi də onun dilinə daxil ola bilərdi. "Söz ustasının yenilik məharəti sözdə olan potensial mənalardan birini bədii məqsədə, üslubi maneraya uyğun fəallaşdırmaqda, hərəkətə gətirməkdə özünü göstərir. Yazıçının sözdəki potensial baza əsasında tamamilə yeni məna yaratması, ümumiyyətlə, mümkündür. Lakin bu çox nadir hadisədir" [6, s.5].

Qantəmir dilinə xalq danışıq dilinin zənginliklərindən gələn bu ifadəni dərvişlik anlayışının xüsusiyyətlərinə istinadən tekstoloji təhlil əsasında müəyyənləşdirmək lazımdır. Məlumdur ki, dərvişlər üçün həmişə, hər yerdə qapılar açıq olmuş, onların gəlişi gözlənilmədən, təklifsiz və dəvətsiz baş vermişdir. Xalq arasında "*Dərviş yabısı hər evin yolunu tanıyar*" atalar sözünün formalaşması da dərvişin yolunu hər qapıdan sala bilməsi ilə bağlı olmuşdur. Fikrimizcə, Qantəmirin dilində də *"dərviş kimi"* ifadəsi dərvişlik anlayışının bu xüsusiyyətinə əsasən, gözlənilməz və dəvətsiz gəlişi bildirmək üçün işlədilmişdir.

Nəzərə alsaq ki, müasir dilçilik koqnitiv paradiqmaya keçir və koqnitiv dilçilik dildə milli mentalitetin və milli təfəkkürün izlərini axtarır, onda Qantəmir dilinin dillə təfəkkürün dialektik bağlılığı istiqamətində araşdırmamızın aktuallığı bir daha təsdiqlənər.

Dildə milli təfəkkürümüzün izlərini müəyyənləşdirmək üçün müəllif dilində işlənmiş belə bir cümləyə diqqət edək:

*Bəy Sara xanımı çox əziz saxlayırdı, içəri həyətə başıpapaqlı keçə bilməzdi* [3, s.229].

“Şübhə yoxdur ki, dilin leksik quruluşuna daxil olan söz və ifadələrin bir çoxunu həmin xalqın adət və ənənələrinə bələd olmadan izah etmək çətindir” [1, s.113].

Milli təhtəlşüurumuzun alt qatında *papaq* arxetipi var. Milli təfəkkürdə bu arxetip namus, koqnitiv əlamətləri üzərində konseptləşmişdir. *Başıpapaqlı* sözünün semantik strukturu bu konseptə istinadən qurulmuşdur. Azərbaycan ictimai normalarına əsasən tarixən papaq geyim olaraq yalnız kişilərə aid olmuşdur. Bu sözün kökaltı həllində *kişi* sözü dayanır. Mənanın bu cür dolayısı ilə ifadəsi evfemizm adlanır. “Evfemistik sözlər vasitəsilə mənanın anlaşılması birbaşa deyil, dolayı yolla başa gəlir. Dinləyən şəxs söhbətin nə barədə getdiyini dərhal, həmin an başa düşmür, yalnız sonradan məsələ aydınlaşır, danışan şəxsin nə demək istədiyi dinləyənə çatır” [5, s.219].

Mətn kontekstində də bu cümləyə baxanda görürük ki, təhkiyəçi ərinin Sara xanımı kişi gözündən necə mühafizə etdiyini nəql edir və məqsədli olaraq öz təhkiyəsinə *kişi* sözünü yox, başıpapaqlı sözünü daxil edir. Sanki Murad bəyin kişi gözünə qoyduğu qadağanı o *kişi* sözünə qoyduğu qadağa ilə davam etdirir və bununla da təsirli təhkiyə əldə edir. Onu da qeyd edək ki, kişi başıpapaqlı əvəzlənməsi həm də müəllifin Sara xanım haqqında mümkün qədər nəzakətli danışmaq tərzi ilə əlaqədardır. Belə ki, yenə mətn kontekstinə baxanda görürük ki, Sara xanıma camaatın göstərdiyi böyük hörmətdən danışır və öz təhkiyəsi içinə də bu hörməti almaq üçün daha nəzakətli tərz seçir.

Ümumiyyətlə, milli düşüncəmizdə *baş* arxetipi vardır və o, insanın şəxsiyyəti, mənəviyyatının simvolu kimi leksik vahidlərə daxil olur. *Başıpapaqlı* ifadəsində də kişiliyin simvolu məhz başla əlaqələnir. “Zeynəb Tükəzbənova” hekayəsində də biz baş arxetipinin yenə mənəviyyat məsələsi kimi dildə öz əksini tapdığını görürük.

*Qız yetişib, əqlə-kamala dolub, daha bunu belə “başıaçıq” saxlamaq yaramaz. Bir halal südəmmiş tapıb başdan eyləməlidir* [3, s.216].

*Başıaçıq* sözü xalq danışıq dilindən gəlir. “Xalq nitqi sadə və qüdrətlidir, ona görə ki, o, özündə bir çox nəslin əqli işlərinin səmərəsini, fəlsəfəsini və xalqın tarixini ehtiva edir” [7, s.7]. *Başıpapaqlı* sözü kimi *başıaçıq* sözü də xalqımızın tarixi məişəti, həyat fəlsəfəsi ilə əlaqədardır. Diqqət edək ki, hər iki söz başın örtüyü anlamına söykənir. Birinci söz kişilərə aid olduğu halda ikinci söz qadınlarla bağlıdır. Kişinin baş örtüyündə papağın olmağı mütləqdirsə, qadının başörtüyü isə kişi kimi dəyərləndirilir. Qantəmirin qəhrəmanı Məşədi Nəcəf ərsiz qızı haqqında *başıaçıq* sözünü işlədir və onun düşüncəsinə görə ərsiz qadın örtüksüzdür.

Qantəmir bədii təsvirlərdə xalq düşüncə və ifadə tərzini əks etdirən bənzətmələrdən də istifadə etmişdir.

*Qonşudakı Lidiya xanım təzə, gənc və marmalat kimi bir qız idi* [3, s.342].

*Marmalat* sözü *marmelad* sözünün xalq tələffüz formasıdır. Marmelad meyvə püresindən hazırlanmış xüsusi şirniyyat növüdür. Ədəbi-bədii dilimizdə qadın gözəlliyinin təsviri üçün adətən, təbiətlə bənzətmələr yaradılır. Şirnilərlə bənzətmə qurmaq, məsələn, konfet kimi ifadəsi xalq danışıq tərzinə məxsusdur. Xalq danışıq tərzinə məxsus marmalat kimi ifadəsinin obrazların dilində yox, müəllif təhkiyəsində işlənməsi Qantəmirin ədəbi-bədii dil materialında xəlqiliyə güclü meyil etdiyini göstərir. "Bədii dildə xəlqilik xalq dilinin ən böyük nailiyyətinin bədii əsərdə təcəssüm etdirilməsidir" [1, s.218].

Danışıq-məişət leksikası da xalq dilinin zənginliyini və linqvistik xüsusiyyətlərini əks etdirən mənbələrdən biridir. Qantəmirin əsərlərində bu leksikadan yetərincə istifadə onun dilinin demokratizmini gücləndirmişdir. Bu leksika bəzən onun əsərlərinə loru danışıq dili şəklində də daxil olmuşdur. "Mənim tələbəm" hekayəsində qəhrəmanın nitqi xalq danışıq dilinin loruluğuna qədər enmişdir.

*Pivə gətirən qızın qolu dibə qədər açıq idi* [3, s.188].

Bu cümlədə *dibə* sözü obrazın nitqini loruladşdırmışdır. Bu söz yalnız qəhrəmanın nitqini lorulaşdırmır, həm də onun düşüncə tərzinin kobudluğunu ifadə edir. Müəllif əhli-kef həyat tərzi sürən qəhrəmanının yonulmamış ruhunun, zənənə qarşı acgöz münasibətinin bədii ifadəsini yaratmaq üçün onun nitqində bu məqamda *dibə* sözünü işlətmişdir.

Artıq qeyd etdiyimiz kimi, Qantəmirin yaradıcılığı dilimizin leksik bazasını tarixi aspektdə öyrənilməsi üçün material verən mənbədir. Yazıçının dilində elə sözlər də işlənmişdir ki, onlar müasir dilimizdə semantik derivasiyaya uğrayaraq yeni məna qazanmışlar.

*On beş dəqiqədən bəri müəllim və tələbələrin söhbətinə qulaq asan və dinməz-söyləməz tramvayda oturan cındır bir fəhlə sözə qarışdı və özü də müəllimə tərəf çıxdı* [3, s.151].

Bu cümlədəki *cındır* sözü müasir dilimizdə oxucu tərəfindən bu kontekstdə vulqar söz, yəni ki, fəhlənin şəxsiyyətini təhqir kimi başa düşülərdi. Qantəmirin dilində isə o, fəhlənin üst-başının vəziyyətini təsvir edir. Bunu sonrakı abzaslarda müəllifin dilindən verilmiş aşağıdakı cümlə də təsdiq edir.

*Onun tələbəsi üstü-başı hisli bir fəhlə qədər də deyildi* [3, s.151].

Demək, dilimizin yüzillik inkişafı mərhələsində *cındır* sözü insanın zahiri keyfiyyətlərin ifadəsindən daxili keyfiyyətlərinin ifadəsinə doğru yeni leksik çalar qazanmışdır.

Qantəmirin əsərlərinin leksikası nəinki ədəbi dilin, həm də ümumxalq dilimizin tarixi yaddaşıdır.

*Srağa gün gəlib sözümü dilcavabı dedim, dediniz ki, get ərizə yazdır gətir* [3, s.195].

*Diqqətlə oxuduqdan sonra ərizənin qulağına qırmızı mürəkkəblə yazdı, verdi əlimə* [3, s.194].

Bu cümlələrdə işlənmiş *ərizənin qulağı, dilcavabı* sözləri müasir dilimizdə işlənən *ərizənin kənarı və şifahi* sözlərinin qarşılığı kimi XX əsrin əvvəllərində xalq ünsiyyətində işlənmişdir. Qantəmirin "Düzəlmədi" hekayəsində bu sözlər obrazın loru danışığını və elmsiz tipini yaradır. *Dilcavabı* sözü yazı-pozu işlərindən yaxşı baş açmayan birinin *şifahi* sözünün semantikasını ifadə etmək üçün seçdiyi ən uyğun və sadə variantdır. Yaxud ərizənin yazılmasını və ona dərkənar qoyulmasını yalnız müşahidə edən insanı cəmiyyətdə bu işdə iştirak edə bilən insan əvəzlədikcə *ərizənin qulağı* birləşməsini də *ərizənin kənarı* birləşməsi əvəz etmişdir.

*–Elə şeirlər, elə şeirlər yazır ki... nə bilim yadımda deyil... o irəli nə yazmışdı... hə... dayan görüm, "bağçalar viran olsun sənsiz..."* [3, s.298].

Xalq deyim tərzində qurulmuş obrazın bu nitqində *irəli* sözü zaman anlamını bildirir. İstər müasir ədəbi dilimizdə, istərsə də xalq danışıq dilimizdə isə bu söz yalnız yer anlayışını ifadə edir. Demək, Qantəmir yaradıcılığına əsasən bu qənaətə gəlmək olur ki, *irəli* zərfi tarixən xalq dilində zaman zərfi kimi işlənmişdir.

Qantəmir nəsrinin yaranması elə bir tarixi dövrə təsadüf etmişdi ki, bu dönəmdə ədəbi dil normalarında, o cümlədən də leksik normada sabitləşmə prosesi hələ tam başa çatmamışdı. Bəzi leksik vahidlərin işlənmə məqamları dəqiq şəkildə öz yerini müəyyənləşdirməmişdi. Məsələn, biz Qantəmir yaradıcılığında *geniş* sözünün təyinedici söz kimi *nəfəs* sözünə yanaşdığını görürük.

*Geniş bir nəfəs aldım* [3, s.224].

Müasir dilimizdə bu semantikanın ifadəsində təyinedici vəzifədə *rahat* sözü iştirak edir.

Qantəmirin yaradıcılığında bəzi sözlərin semantikası üzərində apardığımız tədqiqatda bu qənaətə gəldik ki, sadəlik, yığcamlıq, mənalılıq və ifadəlilik Qantəmirin nəsr dilinin əsas xüsusiyyətlərindəndir. Yüzlərlə təbii xalq ifadələrindən istifadə edərkən yazıçının başlıca məqsədi xalqla öz dilində danışmaq, zəhmətkeş insanların asanlıqla anlayacağı bədii və obrazlı bir dildə yazmaq idi. O, özündən əvvəlki ədəbi irsi nəzərdən keçirərək bu qənaətə gəlmişdir ki, milli ədəbi dilimizi ancaq bu yolla – xalq dilinin tükənməz söz və ifadələri hesabına zənginləşdirmək olar.

**Elmi yeniliyi.** Qantəmirin yaradıcılığında sözlərin semantikası, leksik layları ilk dəfədir ki, linqvistik tədqiqata cəlb olunmuş, ədəbi dil tariximizin maraqları nöqteyi-nəzərindən araşdırılaraq dövrün dil prosesində yeri müəyyənləşdirilmişdir.

**Tətbiqi əhəmiyyəti.** Azərbaycan dilinin izahlı lüğətinin tərtibində, Azərbaycan ədəbi dili tarixinin semantik məsələlərinin araşdırılmasında, habelə təcrübi olaraq ali məktəblərin filologiya fakültələrində "Bədii dilin linqvistik təhlili" fənninin tədrisində, mütəxəssislərin Azərbaycan dilinin leksik xüsusiyyətlərini araşdırmalarında elmi mənbə kimi istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. *Axundov A.* Dil və üslub məsələsi. Bakı: Gənclik, 1970, 104 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, I c., Bakı: Şərq-Qərb, 2006, 744 s.
3. *Qantəmir*. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1972, 350 s.
4. *Qurbanov A.* Ümumi dilçilik: 2 cilddə, II c., Bakı: Nurlan, 2004, 531 s.
5. Müasir Azərbaycan dili: 3 cilddə, I c., Bakı: Elm, 1978, 324 s.
6. *Tofiq Hacıyev*. Satira dili. Bakı: ADU, 1975, 178 s.
7. *Пустовойт П.Г.* От слова к образу. Киев: Родянська школа, 1974, 192 с.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 19-29
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 19-29
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 19-29

*УДК 81*

***С.С.Алекберова***
*Азербайджанский университет языков*
*alekberova_sevda@bk.ru*

# ОТ ПОЭТИЧЕСКИХ МЕТАФОР К МЕТАФОРАМ КОГНИТИВНОГО ИЗМЕРЕНИЯ

***Ключевые слова:*** *метафора, когнитивная лингвистика, когнитивная поэтика, поэтическая метафора*

Поэтический язык обычно ассоциируется с метафорами, безусловно, является неотъемлемой частью распространенного мнения. Метафоры используются во всех видах литературы, но не так часто, как в поэзии. Это связано с тем, что метафорическое стихотворение предназначено для того, чтобы сообщать читателям сложные образы и чувства, а метафоры часто приводят сравнения наиболее эмоционально. Тем не менее, есть несколько эмпирических исследований, которые доказывают это. Анализ когнитивной концепции, который является результатом взаимодействия между текстом поэмы, восприятием и пониманием читателем его, на самом деле лежит в основе когнитивной поэтики. Роль метафоры в лингвистике и литературе, ее распознавание и понимание пользователями языка, безусловно, является сложной и интригующей областью изучения, которая требует междисциплинарного подхода. Концептуальная метафора и концептуальное картирование как в повседневном, так и в поэтическом языке подтверждается. Это изменение открыло дверь для обширных междисциплинарных исследований в этой области, что также привело к новой дисциплине под названием когнитивная поэтика.

***S.S.Ələkbərova***

## POETİK METAFORLARDAN KOQNİTİV METAFORLARA

***Açar sözlər:*** *metafora, kognitiv dilçilik, kognitiv poetika, poetik metafora*

Metaforlarla əlaqəli poetik dil, əlbəttə ki, xalq inancının ayrılmaz bir hissəsidir. Metaforlar ədəbiyyatın bütün sahələrində, lakin tez-tez poeziyada olduğu kimi istifadə olunur. Bu, metaforların tez-tez ən emosional müqayisə olunmasına gətirib çıxarır. Ancaq bunu sübut edən bir neçə empirik araşdırma var: poetika arasında qarşılıqlı təsirin nəticəsi olan oxucu anlayışı və anlayışı olan koqnitiv konsepsiyanın təhlili. Mətbuatda ədəbiyyatın rolu, dilin istifadəçilər tərəfindən tanınması və anlayışı əlbəttə ki, fənlərarası bir yanaşma tələb edən hərtərəfli tədqiqat mövzusudur. Konseptual metafor və konseptual xəritələşmə həm gündəlik, həm də poetik dildə təsdiqlənir. Bu dəyişiklik koqnitiv poetika adlanan yeni bir intizamla nəticələnmişdir.

**S.S.Alekberova**

# FROM POETIC METAPHOR TO COGNITIVE METAPHOR

***Keywords:*** *metaphor, cognitive linguistics, cognitive poetics, poetic metaphor*
Poetic language usually associated with metaphors is certainly an integral part of popular belief. Metaphors are used in all areas of literature, but not as often as in poetry. This is due to the fact that metaphors often lead to the most emotional comparison. However, there are several empirical studies that prove this. Analysis of the cognitive concept, which is the result of the interaction between the poem, the reader's perception and understanding. The role of metaphor in literature, its recognition and understanding by users of the language, of course, are the subject of comprehensive study, which requires an interdisciplinary approach. The conceptual metaphor and conceptual mapping is confirmed in both everyday and poetic language. This change led to a new discipline called cognitive poetics.

Интерес к метафоре уходит корнями в древнюю Грецию и Аристотеля, которые определили метафору как «применение странного термина, перенесенного из рода и примененного к виду или из вида и примененного к роду, или от одного вида к другому или по аналогии». (1, с.237). В когнитивной лингвистике метафора рассматривается как обычный ментальный механизм, который не следует путать с ее выражением, лингвистическим или иным. (2, с.5). Метафора часто не вербализируется, но может быть выражена с помощью жестов или других невербальных коммуникативных устройств или она может функционировать как единица мысли, принимая главенство предложения, которая воспринимается как основная единица мышления и перевода. (3, с.156-158). В литературных исследованиях метафора определяется как «язык речи, в котором одно описывается в терминах другого». (4, с.507) Она также считается основной фигурой в поэзии. Таким образом, в то время как долгое время метафора изучалась главным образом в области литературоведения как риторическая фигура, Франке называет недавний растущий интерес к метафоре «современная метафора возрождения» и во многом приписывает ее восстановлению риторики как философской дисциплины и обновленный взгляд на «язык обучения», «как онтологически определяющий мир, действующий в отношении происхождения вещей и их идентичностей» (5, с. 37). «Метафора, взятая в самом широком смысле, позволяет ученым проецировать на нее даже философские вопросы онтологии и эпистемологии и рассматривать их в «новом, специфически лингвистическом свете» (5, с.138). Однако, в отличие от Франке, мы более склонны связывать рост интереса к языку преподавания и растущее влияние метафоры (а также ее восприятия как

основной единицы мышления) с быстрым прогрессом когнитивной лингвистики в область гуманитарных наук, которая привела к междисциплинарному подходу к метафоре. Этот междисциплинарный подход противоречит распространенному мнению о том, что лингвистика и изучение литературы являются отдельными дисциплинами с четкими областями изучения, которые в большинстве случаев не пересекаются. Соответственно, ученые, участвующие в этих двух дисциплинах, должны по-разному мыслить, поскольку они не используют одни и те же методы, чтобы прийти к выводам в своих соответствующих областях обучения. Такое отношение, вероятно, вытекает из аргумента Платона о том, что «гурутивные или поэтические утверждения отличаются от истинного знания, которые впоследствии привели к старому спору между философией, эпистемологией и поэзией». (6, с.5-6). Появление когнитивной лингвистики и когнитивных наук в целом в последние два десятилетия двадцатого века объединило концепции независимых дисциплин, чтобы ответить на вопросы, связанные с человеческой концептуальной системой и тем, как работает наш разум. Этот сдвиг в центре изучения был довольно драматичным в лингвистике и связанных с ней дисциплинами. Хотя они были ориентированы на изучение различных аспектов формы, значения и использования языковых единиц. Лингвисты редко обращали свое внимание на то, что стоит за данным высказыванием, кроме того, в этом контексте нам необходимо повторить вопрос, который кратко ставит Гиббс «Почему поэтическое воображение имеет значение для когнитивной науки?» (7, с.1), и попытаться пролить больше света на взаимосвязь языка, образов и, в частности, метафоры и метонимии. Довольно рано мы остановились на метафоре в качестве центра нашего исследования, поскольку она позволила нам наиболее успешно сочетать когнитивную лингвистику и литературоведение в наших исследованиях и преподавании.

Восприятие и понимание метафоры радикально изменилось, когда Лакофф и Джонсон выдвинули свое утверждение о том, что метафоры являются фундаментальными и неотъемлемыми когнитивными механизмами, которые позволяют более эффективно осмысливать абстрактные концепции и, как таковые, могут быть пересмотрены. В повседневном языке используются в форме метафорических выражений, отражающих определенные концептуальные метафоры. Они утверждали, что все понятия, кроме персептивных и экспериментальных, на самом деле носят метафорический характер, и повседневное использование языка полна метафорических выражений, которые являются результатом метафорического мышления. Это имело далеко идущие последствия не только для когнитивной лингвистики и других когнитивных наук, но и для

литературных исследований, поскольку поэзия больше не рассматривалась как единственное хранилище метафорического языка. Действительно, даже прототипные метафоры, которые можно найти в литературных текстах, были переоценены с познавательной точки зрения. В своей области руководства к поэтической метафоре «More than Cool Reason» (1989), Лакофф и Тернер намеревались объяснить, что оригинальные и творческие поэтические метафоры имеют в основном те же свойства, что и те, которые можно найти в повседневном использовании языка, однако они расширены и разработаны другим способом, чтобы предложить новое понимание конкретной концепции (8). Чтобы применить результаты когнитивной лингвистики к анализу литературных текстов, мы опирались на когнитивную поэтику, систематическую теорию сознания, в которой литература является не просто периферийной, но центральной в понимании человеческой психологии. Основной принцип когнитивной лингвистики заключается в том, что язык является неотъемлемой частью человеческого познания и, как таковой, неотделим от других когнитивных способностей, таких как категоризация, визуальное восприятие, рассуждение, аналогичное мышление, воображение, метафорическое отображение и т. д. Кроме того, язык не является автономной функцией человеческой когнитивной системы, и, следовательно, его следует изучать наряду с другими умственными способностями. Этот радикально иной переход от генеративистского подхода к языку, основанный на предпосылке, что язык является врожденным и автономным, имел далеко идущие последствия для языковых теорий и моделей. Во-первых, одним из основных принципов когнитивной лингвистики является утверждение о том, что язык воплощен в том смысле, что он мотивирован и основан на телесном опыте человека, а также на нашем физическом, социальном и культурном опыте, в отличие от семантического объективизма. Лакофф резюмирует основные требования, стоящие за объективистским взглядом, следующим образом:

1. объекты и сущности в этом мире имеют свои собственные свойства, которые не зависят от того, как люди воспринимают и понимают их;

2. значение сущности или объекта представляет собой абстрактную связь между объективной реальностью и символическими представлениями, которые являются произвольными и бессмысленными сами по себе;

3. значение определяется буквальным определением, а «язык обучения» представляет собой отклонение буквального языка, которое может быть сведено к буквальному значению с использованием некоторых принципов, установленных формальной логикой (9, с.157).

Как утверждают Лакофф и Джонсон, наше физическое воплощение и образное структурирование в том, как мы воспринимаем наше чувство реальности, имеют решающее значение в нашем понимании мира. Согласно Джонсону, повторяющиеся паттерны определенного опыта и определенных схематических структур, которые обеспечивают согласованность нашего опыта, называются схемами изображений (10, с.19). Это, например: *контейнер, дорожка, центр-периферия, цикл, противосила, ссылка на сайт* и т. д. - список не полный, но их роль состоит в том, чтобы понять наш опыт, и они оказывают большое влияние на значение лингвистических элементов. Этот взгляд на язык имел важные последствия, поскольку он привел к стиранию четких различий между различными языковыми дисциплинами - для решения некоторых важных аспектов, связанных с изучением языка, таких как культура и знание языка, требовался междисциплинарный подход. Все эти лингвистические и экстралингвистические знания, которые активируются в процессе языкового производства и понимания, хранятся в рамках или в идеализированных когнитивных моделях, чтобы использовать термин Лакоффа, который обозначает согласованную организацию человеческого опыта или своего рода ментальный контекст, против которого мы можем понять концепцию (11, с.72). Как утверждает Филлмор, «слова представляют собой категории опыта, и каждая из этих категорий основана на мотивирующей ситуации, возникающей на фоне знаний и опыта» (12, с.112). Фреймы представляют собой связь между нашими знаниями об экстралингвистическом мире и данной концепцией. Они идеализированы, потому что они не означают чего-то, что действительно существует в объективном мире, как в хорошо известном примере понятия «мать», описанном Лакоффом (9, с.74), который охватывает целый ряд различных понятий, таких как биологическая мать, суррогатная мать, домашняя мать и т. д. Тем не менее, рамки являются основой динамического смысла конструирования, и они различаются в разных культурах. Некоторые элементы в кадре могут быть отображены на некоторые другие концепции или продолжены в пределах одного кадра, что происходит в метафорическом и метонимическом отображении. Другим следствием этого является то, что значение строится динамически онлайн в данной ситуации, и «ситуации могут быть истолкованы по-разному, поскольку разные способы кодирования ситуации составляют разные концептуализации» (13, с.2). Это становится еще более очевидным в любом коммуникативном событии, поскольку, как это имеет Лангеккер, каждое лингвистическое выражение на своем семантическом полюсе структурирует задуманную ситуацию (или сцену) посредством определенного образа. При концептуализации сцены для выразительных

целей говорящий (и, во-вторых, слушатель при реконструкции намерений говорящего) обязан сделать выбор и выбрать подходящие фокусные «настройки» и структурировать сцену в конкретный вопрос, устанавливает конструктивные отношения между ним и сценой, так структурированной. Следовательно, между концептуализатором языковой предикации и концептуализацией, составляющей эту предикативность, существуют конструктивные отношения (9, с.128). Эти аргументы могут быть легко применены к любому использованию языка, и, если мы примем во внимание литературные тексты, они представляют собой некое доказательство известной идеи, представленной в области литературных исследований, что «тексты не являются статическими контейнерами значения, «Как выразился Гиббс, «но обеспечьте писателю и читателю общую почву, из которой может возникнуть смысл, поскольку чтение требует постоянной ссылки на предшествующее знание речевой культуры, а не только на применение логических правил» (14, с.73). Следует отметить, что когнитивная лингвистика сочетает в себе различные теоретические модели и конструкции, многие из которых кажутся противоположными, поэтому некоторые когнитивные лингвисты предпочитают описывать ее как «движение» или «предприятие», а не как отдельную научную дисциплину (15, с.3). Тем не менее, они разделяют одну и ту же эпистемологическую позицию.

Когнитивная поэтика основана на пересечении когнитивных подходов и литературоведения как систематической теории разума, в которой литература занимает центральное место в понимании человеческой психологии, как отмечает Ван Оорт (16, с.238). Это прямой результат скоординированного междисциплинарного сотрудничества, которое возникло после публикации оригинальной работы Лакоффа и Джонсона Метафоры, которыми мы живем. Как указывают Гэвинс и Стин, «когнитивная поэтика предполагает, что чтения могут быть объяснены со ссылкой на общечеловеческие принципы лингвистики и когнитивной обработки, которые связывают изучение литературы с лингвистикой, психологией и когнитивными науками в целом» (17, с.2). В этом контексте когнитивная поэтика рассматривается скорее как парадигма, которая использует интерпретирующие концепции в отношении некоторой более общей структуры человеческого разума. Семино и Калпепер утверждают, что когнитивная поэтика обеспечивает «вид явного, строгого и подробного лингвистического анализа литературных текстов, который типичен для стилистической традиции, с систематическим и теоретически обоснованным распространением когнитивных структур и процессов, лежащих в основе производства и получения языка» (18, с.9). Брандт и Брандт предлагают использовать

вместо термина «когнитивная поэтика» термин «когнитивные литературные исследования», поскольку он более точно указывает на тот факт, что он охватывает все жанры или «способы» письма (19, с.124). Из-за своего лингвистического измерения познавательная поэтика может предложить лучшее понимание точного текстового анализа и в то же время систематически объединять различные элементы знания и веры. В этом смысле наиболее важные понятия для когнитивной поэтики включают в себя «черту и землю», прототипы, сценарии и схемы, ментальные пространства, дейксис и, конечно, концептуальную метафору и метонимию. Предполагая, что и писатели, и читатели придерживаются одних и тех же принципов познания, изучение любого использования языка, включая литературные тексты, может дать лучшее понимание того, как язык мотивируется различными принципами, и привести к лучшему пониманию любого дискурса. В этом смысле теория реакции читателя и эстетика восприятия, как часть литературных исследований, имеют особое значение для объединения когнитивной поэтики и литературы.

Что касается переосмысления самой концепции интерпретации литературного текста с точки зрения когнитивно-лингвистических подходов, Гамильтон справедливо отмечает: тексты являются материальными якорями для языковых форм общения, охватывающих время и пространство. Истории – это объекты, созданные развитым человеческим разумом, выполняющим сложные для объяснения, но простые в выполнении задачи картирования. Средой является язык, видимый материал для литературы, но ссылки и интерпретации являются концептуальными. Эта идея соответствует одному из основных предположений, лежащих в основе когнитивной лингвистики - литературные тексты представляют собой лишь одно из многих - типы дискурса, или использование языка, и «поэты используют в основном те же инструменты, которые мы используем» (8, с.11). Тем не менее, как лаконично замечает Фримен, «критерий когнитивной поэтики заключается не в том, чтобы показать, что ничто «не лежит за пределами когнитивной поэтики», а в том, насколько эффективно использование концептуального аппарата для освещения качеств поэтического текста». (20, с.453). Более того, многие из понятий, рассматриваемых в рамках когнитивной поэтики, уже были подробно описаны в других дисциплинах, в частности в литературной теории и когнитивных науках. Разумеется, что метафора и метонимия всегда рассматривались как символы речи, которые лежат в основе интерпретации и анализа литературного текста. Кроме того, как подчеркивает Фримен, «литературные критики давно знакомы с такими темами, как перспектива, точка зрения, предзнаменование и т. д., которые изучают когнитивные лингвисты» (21,

с.177). Что особенно проблематично, так это то, что часто кажется, что когнитивные поэты не включают в свои работы выводы ученых в области теории литературы. Это в корне противоречит их утверждению о том, что основной целью когнитивной поэтики является объединение когнитивной лингвистики и литературы. Некоторые авторы, такие как Ханс Адлер и Сабина Гросс предостерегают от буквального применения когнитивно-лингвистической терминологии к литературным исследованиям. В конечном счете, с этой точки зрения, когнитивизм становится и методом, и объектом исследования. В этом смысле то, чего принципиально не хватает в когнитивной поэтике, до сих пор является еще одним примером, который показал бы, каким образом когнитивная поэтика может быть применена при анализе литературных произведений. Отсутствие примеров применения когнитивной поэтики побудило нас попытаться интегрировать ее в нашу работу, поскольку мы понимаем, что при попытке обеспечить адекватную основу для анализа литературного текста когнитивный подход к интерпретации может сделать плодотворным и может служить «общей почвой для многих различных литературных теорий, какими бы несовместимыми они ни были друг с другом» (22, с.22). По сути, познавательная поэтика связана как с самим литературным текстом, так и с текстом как способом понимания концептуальных структур. Поскольку когнитивная лингвистика направлена на поиск механизмов, на которых основано языковое высказывание, а также на выявление принципов, позволяющих мотивировать выражение чувств, изучение литературных текстов может помочь осветить то, как человеческий язык выражает формы ума и чувства и мотивируется ими, как отмечает Фримен (23, с.170). Тем не менее вопрос о том, совпадают ли и в какой степени когнитивная поэтика и когнитивная лингвистика, остается открытым. Калпепер утверждает, что в когнитивной лингвистике преобладают работы некоторых ученых, таких как Лангакер, Ла-Кофф, Фоконье и Тернер, которые сосредоточились в основном на семантических категориях, грамматических конструкциях и метафоре, как это можно увидеть в Эванс и Грин, тогда как когнитивная поэтика фокусируется на интерпретации литературных текстов в более широком контексте человеческого разума. Эта более широкая структура, по-видимому, является существенной разницей между когнитивными подходами и литературными исследованиями, по крайней мере, в соответствии с когнитивными подходами к литературным исследованиям, которые имеют тенденцию принимать индивидуальный и особый подход к данному тексту и реакцию читателя на него, избегая Обобщения об общих свойствах, использовании и функциях конкретных элементов, найденных в тексте, например, метафор в литературе. С другой стороны,

литературоведы утверждают, что некоторые дисциплины в области литературоведения, такие как сравнительное изучение литературы, имеют дело именно с изучением отношений между авторами, темами и структурами, которые принадлежат к различным культурам или движениям. Брандт и Брандт (24, с.125) выдвинули верную точку зрения, утверждая, что сторона выражения языка предопределена в литературе и что литературные тексты предлагают уникальный лингвистический опыт, который когнитивная поэтика пытается развязать. Даже если когнитивная лингвистика и поэтика во многих отношениях представляют собой естественные союзники, междисциплинарное предприятие ни в коем случае не является простым предприятием, поскольку общеизвестно, что трудно обеспечить как строгие эмпирические методы, так и мощные интерпретационные концепции, которые будут применяться в соответствующих исследованиях. Одним из актуальных вопросов является то, как мы можем перейти от различных лингвистических форм метафор в литературном тексте к базовым концептуальным структурам, которые составляют предполагаемые междоменные отображения? Наиболее важными концепциями, которые разделяют эти две дисциплины, являются концепции контекста и фрейма, концепция прототипов, а также концептуальная метафора и метонимия, которую мы имеем. Очень важно, когда мы принимаем во внимание понятие культуры. Как предполагает Ковечеч, о культуре также можно думать как о «наборе общих представлений о мире, где наше понимание - это ментальные представления, структурированные культурными моделями или рамками» (25, с.135).

Если мы вернемся к вопросу, связывая когнитивные и лингвистические структуры и их актуальность для анализа литературного или переведенного текста, когнитивная поэтика, по-видимому, обеспечит эффективное применение концептуальных механизмов для точного определения конкретных качеств литературного, поэтического текста. В этом смысле кажется, что этот когнитивный подход может оказаться полезным в попытке сделать литературные исследования более эмпирическими, что, безусловно, является чем-то, что определенно необходимо в этих областях. Литература, несомненно, является специфической формой использования языка и познания.

**ЛИТЕРАТУРА**

1. *Aristotle*. (1927). The Poetics. Loeb Classical Library. Harvard University Press: Cambridge, MA.
2. *Barcelona, A.* (ed.) (2003). Metaphor and Metonymy at the Crossroads: A Cognitive Perspective. Mouton de Gruyter: Berlin, New York.
3. *Lakoff, G., Johnson, M.* (1980/2003). Metaphors We Live By. The University of Chicago Press: Chicago.
4. *Cuddon, J. A.* (1998). Dictionary of Literary Terms and Literary Theory. Penguin Books: London.
5. *Franke, W.* (2000). "The Contemporary Metaphor Renaissance."Philosophy & Rhetoric, 33/2: 137-153.
6. Griswold, C. L. (2014). "Plato on Rhetoric and Poetry", In: EdwardN. Zalta (ed.) The Stanford Encyclopedia of Philosophy.
7. *Gibbs, R. J.* (1994). The Poetics of Mind. Figurative Thought, Language, and Understanding. Cambridge University Press, Cambridge.
8. *Lakoff, G., Turner, M.* (1989). More Than Cool Reason. The University of Chicago Press: Chicago.
9. *Lakoff, G.* (1987). Women, Fire, and Dangerous Things: What Categories Reveal about the Mind. University of Chicago Press: Chicago.
10. *Johnson, M.* (1987). "The Body in the mind: The bodily basis ofmeaning, reason and Imagination." Chicago University Press:Chicago.
11. *Taylor, J. R.* (1989). Linguistic categorization. Oxford University Press: Oxford.
12. *Fillmore, C.* (1982). "Frame Semantics". Linguistics in the Morning Calm: Selected papers from SICOL 198. Seoul: Hanshin Publishing Company: 111-138.
13. *Lee, D.* (2001). Cognitive Linguistics: An Introduction. Oxford University Press: Oxford.
14. *Gibbs, R. J.* (1994). The Poetics of Mind. Figurative Thought, Language, and Understanding. Cambridge University Press, Cambridge.
15. *Evans, V. and Green M.* (2006). Cognitive Linguistics An Introduction. Edinburg: Edinburg University Press
16. *Van Oort, R.* (2003). "Cognitive science and the problem of representation." Poetics Today 24/2: 237 295.
17. *Gavins, J., Steen, G.* (2003).Cognitive Poetics in Practice. Routledge: London.
18. *Semino, E., Culpeper, J.* (eds.) (2002).Cognitive stylistics: Languageand cognition in text analysis. Amsterdam: John Benjamins Publishing.
19. *Brandt, L., Brandt, P. A.* (2005). Cognitive poetics and imagery. European Journal of English Studies, 9/2: 117-130.
20. *Freeman, M.* (2009b). "Reuven Tsur, Toward a Theory of cognitive Poetics (Second, expanded and updated edition)". Pragmatics and Cognition 17/2: 450-457.
21. *Freeman, M.* (2007). "Cognitive Linguistic Approaches to Literary Studies: Studies of the Art in Cognitive Poetics". In: Dirk Geeraerts and Hubert Cuyckens (eds.) The Oxford Handbook of Cognitive Linguistics. Oxford University Press: Oxford: 1175-1202.

22. *Turner, M.* (1991). Reading Minds: The Study of English in the Age of Cognitive Science. Princeton University Press: Princeton.
23. *Freeman, M.* (2009a). “Cognitive linguistic approaches to literary studies: State of the art in cognitive poetics.” In: Dirk Geeraerts and Hubert Cuyckens (eds.) The Oxford Handbook of Cognitive Linguistics. Oxford University Press: Oxford: 1175-1202.
24. *Brandt, L., Brandt, P. A.* (2005). Cognitive poetics and imagery. European Journal of English Studies, 9/2: 117-130
25. *Kövecses, Z.* (2006). Language, Mind, and Culture: A Practical introduction. Oxford University Press: Oxford

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 30-35
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 30-35
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 30-35

***UOT 82.(091)***

***X.T.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*xoshbaxt1965@mail.ru*

# NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNİN UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ ROLU

***Açar sözlər:*** *poema, söhbət, hekayə, şair, şah, peyğəmbər, qoca, vətənpərvər, haqsızlıq, ədalətli*

Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvi dünya xalqları mədəniyyətinin inkişafı tarixində böyük rolu olan sənətkardır. Nizaminin ilk irihəcmli əsəri "Sirlər xəzinəsi" poemasıdır. Nizami "Sirlər xəzinəsi" poemasında sələflərinin və müasirlərinin heç birinin etmədiyi tamamilə yeni ruhlu şeirin əsasını qoydu. Bu şeirin əsas məqsəd və qayəsi zalımı zülümdən çəkindirmək, insanları ictimai faydalı əməyə, gözəl əxlaqi sifətlərə çağırmaqdır. Şair inanır ki, özünün yüksək sənətkarlıqla ifadə edilmiş nəsihətləri zəmanəsinin adamlarının əxlaqına öz müsbət təsirini göstərəcək və onun arzuladığı ədalətli insan cəmiyyətinin qurulmasında xüsusi rol oynayacaqdır.

***Х.Т.Алиева***

# РОЛЬ ПОЭМЫ «СОКРОВИЩНИЦА ТАЙН» НИЗАМИ ГЯНДЖЕВИ В МОРАЛЬНОМ ВОСПИТАНИИ ДЕТЕЙ

***Ключевые слова:*** *поэма, разговор, рассказ, поэт, царь, пророк, старик, патриот, несправедливость, справедливый*

Великий азербайджанский поэт и мыслитель Низами Гянджеви – мастер, сыгравший большую роль в истории развития культуры народов мира. Первым масштабным произведением Низами является поэма «Сокровищница тайн». В поэме «Сокровищница тайн» Низами Гянджеви создал основу лирики в новейшем стиле, которую не смогли отобразить ни его современники, ни предшественники. Основная цель и идея этого произведения удержать угнетателя от притеснения, привлечь людей к общественно полезному труду, прекрасным нравственным качествам. Поэт верил, что его высоко виртуозно выраженные советы сильно подействует на мораль людей своего времени и сыграет большую роль в создании справедливого человеческого общества.

***X.T.Aliyeva***

## THE ROLE OF THE POEM "THE TREASURY OF MYSTERIES" BY NIZAMI GANJEVI IN THE MORAL EDUCATION OF CHILDREN

***Keywords:*** *poem, talk, story, poet, king, the prophet, old man, patriot, injustice, fair*

The great poet and thinker of Azerbaijan Nizami Ganjavi is an indispensable figure in the development history of world culture. Nizami's first work is "The treasury of mysteries" poem. In this poem of "The treasury of mysteries" Nizami laid the foundations of new spirited poem that none of his predecessors and contemporaries did. The main purpose of this poem is to prevent the oppressor from persecuting, to encourage people to the social, useful labour. The poet believed that his manifestations would have a positive impact on the morals of the people of his time and play a special role in establishing of fair human society that he wished.

Nizami "Sirlər xəzinəsi" poemasında sələflərinin və müasirlərinin heç birinin etmədiyi tamamilə yeni ruhlu şeirin əsasını qoydu. Bu şeirin əsas məqsəd və qayəsi zalımı zülümdən çəkindirmək, insanları ictimai faydalı əməyə, gözəl əxlaqi sifətlərə çağırmaqdır. Şair inanır ki, özünün yüksək sənətkarlıqla ifadə edilmiş nəsihətləri zəmanəsinin adamlarının əxlaqına öz müsbət təsirini göstərəcək və onun arzuladığı ədalətli insan cəmiyyətinin qurulmasında xüsusi rol oynayacaqdır.

"Sirlər xəzinəsi" poemasının birinci hekayəsində "Ümidsiz padşahın bağışlanması dastanı"nda şair bildirir ki, şah xalqın dərdinə şərik olan xalqı üçün çalışan, zülmü məhv edən olmalıdır. Özü əziyyət çəksə belə, şah rəiyyətin əziyyətinə razı olmamalıdır. Yoxsa, bunun əzabını bu dünyada və o biri dünyada alacaq:

Adil şah yuxusunda zalım bir soltan gördü,
Soruşdu: - Sənə Tanrı hansı cəzanı verdi?
Gündüzlər qan tökmüsən, ev yıxıb, zülm etmisən,
Gecə hansı əzabı çəkdin əvəzində sən? (5, s.93)

Şair qeyd edir ki, axirət, məşhər günü fikir etmək lazımdır, çünki orada insanın bu dünyada gördüyü işləri aydınlaşacaqdır. Dünyada zülm, əziyyət etmiş insanlar o dünyada öz bəd əməllərinin cəzasını çəkəcəklər. O dünya – axirət dünyası əbədi dünyadır, bu dünyada ədalətsizlik edənlər, "əbədi dünyada daimi olaraq Allahın mərhəmətindən məhrum ediləcəklər. Nizami göstərir ki, bəzi bəd əməllərə aludə olmuş kəslər əməllərinin pis olduğunu başa düşdükdə bu əməllərdən qayıtmalı, dünyada xeyirxah işlər görməlidirlər. Gənclər, uşaqlar pis işlər gördüklərini yada salıb öz pis əməllərini davam etdirməməli, tövbə etləməlidirlər. Belələrini, əlbəttə, Allah bağışlayır. "İnsan öz babası sayılan Adəmdən ibrət almalıdır". "Adəm də günah işlədiyinə görə cənnətdən qovulur,

lakin sonradan öz günahını başa düşdüyündən tövbə edir və Allah tərəfindən bağışlanır":

Üzr istəsən, suçundan birdəfəlik əl çəksən,
Dada yetər Tanrıdan lütflər görəcəklər (5, s.93).

Şair göstərir ki, şah və hakimlər xalqa zülm və əziyyət edərsə, tövbə edərək bu bəd əməllərdən qayıtmalıdırlar, əks təqdirdə onlar "ədəbi dünyada" cəzalarına çatacaqlar.

Y.E.Bertels Nizaminin "Sirlər xəzinəsi"ndəki tövbə məsələsinə diqqət yetirmiş və çox doğru olaraq bu nəticəyə gəlmişdir ki, şairin fikrincə, zülümkar şah və ya hakimin ölərkən tövbə etməsi tamamilə faydasızdır (2, s.178). Zülmkar hələ sağkən öz bəd əməllərindən çəkinib xeyirxah işlər görməlidir.

"Süleyman Peyğəmbərlə qoca əkinçinin hekayəsi" mənzum hekayəsində Süleyman Peyğəmbərin çöl səmtinə seyrə çıxması təsvir edilir. Süleyman çöldə işləyən əkinçi görür. Əkinçinin zəhməti Süleymanı kədərləndirir. Süleyman əkinçiyə deyir:

Süleymanın sözünü eşidən qoca əkinçi deyir:
Mən bilmirəm heç suyu varmı, yoxmu tarlanın?
Əkmək mənim işimdir, yetişdirmək Tanrının.
Bax, budur suyum mənim-alnımdan süzülən tər,
Lingim, belim, külüngüm-bu dırnaqlar, bu əllər (5, s.103).

Bəzi alimlər bu hekayənin əmək mövzusuna həsr edilməsini göstərirlər. Əslində burada şair cəmiyyətdə hər adamın öz işi olmasını, bir adamın peşəsinin başqasının bacarmadığını təsvir edir. Nizami göstərir ki, şahın işini zəhmətkeş, zəhmətkeşin işini isə şah bacarmaz. Hər bir adamın cəmiyyətdə öz vəzifəsi və rolu vardır. Süleyman deyir:

Hər eşşək çəkə bilməz İsa yükünü, qardaş!
Dövlətin işlərini qavraya bilməz hər baş.
Heç kəs gizlənə bilməz, bu göy qübbə altında.
Hər kəs öz mərdliyilə çatır şöhrətə, ada,
Hər kəs hansı sirrini saxlamağa qadirmi?
Ya naz çəkə bilirmi çinluyan bir saz kimi? (5, s.107-108)

Bu hekayədə Nizami üzünü gənclərə, uşaqlara tutaraq insanın qısa ömrünün ən gözəl çağı olan cavanlığı bihudə keçirməməyə çağırır. İnsan cavanlığında səylə işləməli, qocalıq günləri üçün azuqə toplamalıdır. Qocalıqda rahatlıq içində yaşamaq üçün şairin fikrincə, cavanlıqda əməklə məşğul olmaq lazımdır. Nizami Gəncəvi öz cavanlıq çağlarını ictimai-faydalı əməyə sərf etməyib sərxoşluq və ya cəmiyyətə xeyri olmayan işlərlə məşğul olanlara üz tutaraq cavanlığı qənimət bilib, zəhmətlə məşğul olmağa çağırır. Şairin fikrincə, insan uşaqlıqdan əməyə alışmalı, oxuyub savadlı olmalı, öz məqsədlərini əldə etmək üçün səylə çalışmalıdır.

"Firidun şahın ceyran ovu hekayəti"ndə şair əsasən təbiətə məhəbbətindən və heyvanların qorunmağından bəhs edir. Nizami əsərlərində məzmunu daha gözəl ifadə etmək üçün, onu yüksək bədii tərzdə oxucuya çatdırmaq üçün təsvirlərdən diqqəti cəlb edən sənətkarlıqla istifadə etmişdir. Şairin təsvirində təbiət və əşya öz təbii halında götürülür. Bu təsvirlərdə elə cazibədar, elə əsas cəhətlər göstərilir ki, sanki şair bir rəssam fırçası ilə təbiətin və ya əşyanın şəklini yaradır. Oxucu bu təsvirləri oxuyarkən özünü həmin təsvir edilən təbiətin hadisəsinin yanında təsvir edir:

Bir çəmənə gətirdi onu ovçu duyğusu,
Burda bir yavru gördü – gözəl ceyran yavrusu.
Qulaqları, gərdanı o qədər zərif, hamar...
Gözləri, qılçaları səndən mərhəmət umar.
Şah baxdı heyran-heyran, lapdan sıçradı ceyran,
Bircə göz qırpımında uzaqlaşdı ovçudan (1, s.129).

Əfsanəyə görə, hələ Firidun uşaq ikən çobanın yanında yaşayarkən İran taxtını Zöhhak adında bir adam zəbt etmişdi. Zöhhakın zülmündən təngə gələn bir nəfər dəmirçi Yavənin başçılığı ilə üsyan qaldırıb, Zöhhakı məhv edib, yerinə Firidunu İran taxtına oturtmuşdu. Firidun İran əfsanəsində ən adil, ən insaflı bir padşah sayılır. Hekayədə dostları ilə ova çıxan Firidun şahın çəməndə gözəl bir ceyran görməsi təsvir edilir. Şah ceyranın gözəlliyinə heyran qalır. Ovçuları görən ceyran canını qurtarmaq üçün qaçır. Şah ata minib ceyranı qovur. O, kamanı qaldırıb oxla ceyranı nişan alıb vurmaq istəyir. Lakin şahın atdığı ox ceyrana dəymir. Hirslənmiş şah öz atına və oxuna deyir:

Oxdan sorur: - Hanı bəs o kin dolu uçuşun?
Atdan sorur: - Hanı bəs o ildırım qaçışın?
Heç biri kara gəlmir, hər ikisi yorulmuş,
Otyeyən bir heyvanın önündə məğlub olmuş (5, s.129).

Ox dilə gəlib deyir ki, bu ceyran yavrusu sənin nəzərinin himayəsində irəliləyir. Kimin cürəti çatar ki, sənin diqqətinə, zirehinə tərəf ox tullasın?! Öz gözəlliyi ilə insanları heyran edən ceyran gərək ölməsin. Kim təbiətin gözəlliyini, zövqü-səfanı qoruyursa, o, səadətə qovuşacaqdır. Hər kim öz xalqına, bəşəriyyətə, sədaqətlə və təmənnasız xidmət etməyi bacarırsa, o, xəzinə sahibi olacaqdır:

Kainatın tacıdır xidmət edən kəhkəşan,
Hər şey xidmət kəməri bağlamışdır binadan (5, s.130).

Nizami bu hekayədə heyvanların və təbiətin gözəlliyini qorumağın əhəmiyyətini vurğulayır.

"Meyvə satanla tülkünün və cibkəsənin hekayəsi" mənzum hekayəsində Nizami az söz işlətməklə hekayənin qayəsini açmaqda böyük sənətkarlıq göstərir. Bu hekayə cəmi səkkiz beyt olduğu halda, burada meyvəsatan, tülkü və oğru surətləri verilmişdir. Burada əsasən ayıqlıq, zirəklik insan üçün əsas

keyfiyyətlər təbliğ edilir. Əsərdə meyvəsatanın malını qorumağı tülküyə tapşırması təsvir edilir. Oğru tülkünü aldadıb baqqalın malını əlinə keçirmək istəyir. Çox fikirləşib bir gün kələk işlədərək oğru özünü yuxuluğa vurur. Oğrunun yatdığını zənn edən tülkü də rahatca yatır. Tülkü ondan da hiyləgər olan düşmənin hiyləsinə aldanır, onu yuxuya verən oğru kisədəki pulları aparır. Hekayə tərbiyəvi əhəmiyyət kəsb edən sonluqla bitir:

Hər kəs ki, bu dünyada oturub salsa yataq,
Ya başı gedər əldən, ya başındakı papaq (5, s.87).

"Bülbül ilə qızılquşun dastanı" əsərində şair alleqoriyadan istifadə yolu ilə Bülbül və Qızılquşun söhbətini təsvir edir. Bülbül Qızılquşun yanına gəlib deyir:

Bu dünyaya gələli, səsinlə, cəh-cəhinlə
Heç kəsə bircə nəğmə bəxş etməmisən hələ.
Axı sən əyləşirsən sultanların əlində
Bir kəkliyin döşüdür gündəlik yeməyində (5, s.203).

Hekayədə bülbülün narazılığının səbəbi budur ki, digər quşlardan fərqli olraq heç vaxt səsi çıxmayan Qızılquşun yeri Sultan Səncərin sarayıdır. Şair Qızılquşun danışmamaq, susmaq kimi xasiyyətlərini bəyəndiyini və bunları məsləhət gördüyü kimi, həmişə nə görsə danışan, susmayan Bülbül simasında zülm və istismarı görüb dərk edən və susmağı bacarmayan, özü kimi mütəfəkkir adamları nəzərdə tutur. Nizami göstərir ki, belə adamlar susmağı bacarmamaq ucundan öz həyatlarını Bülbül kimi yoxsulluq və iztirabla keçirirlər. Qızılquş kimi susmağı bacaranlarsa, həmişə xəzinə üstündə olub, mənzilləri isə sultan saraylarıdır.

"Sirlər xəzinəsi" Nizami Gəncəvi yaradıcılığında xalq ifadə və məsələləri ilə zəngindir. Əsərdə elə parçalar vardır ki, bunların hər misra və beytində bir deyil, bəzən bir neçə aforizm, ifadə və məsəl, çoxmənalı söz işlənir. Əsərdə xalq ifadə və məsəllərindən geniş istifadə edilməsinin əsas səbəblərindən biri əsərin ideya istiqaməti ilə əlaqədardır. Poemanın ideyaca xalq mənafeyi ilə bağlılığı, şairin xalqın istək və arzularını ifadə etməsidir. Şairin xalqın güzəranının yaxşılaşmasını təmin edə bilən ədalətli hakimiyyət tələbi xalq ifadə və məsəllərindən istifadə yolu ilə daha artıq mənalanır, əsəri xalqla daha artıq yaxınlaşdırır. Nizami xalq yaradıcılığından aldığı bir məsəllə böyük fikri mənanı ifadə edərkən məna beytdən dəfələrlə geniş olur:

Kimin ki, xilqətində hikmət cövhəri vardır,
Hər şeyə çarə tapır, həmişə üz ağardır (5, s.180).

Nizami gəncləri vətənə sadiq, ata yurduna mehriban olmağa çağırırdı. Odur ki, onun qəhrəmanları öz əsas mübarizəsini vətən və xalq uğrunda aparırlar. O, öz qəhrəmanlarını böyük vətənpərvər olaraq gənclərin qarşısında canlandırır. Şair vətəninin tarixini yaxşl bilirdi. Xalqının mübariz keçmişini, şərəfli əməyini, gözəl ənənələrini sevir və tərənnüm edirdi. O, bu zənginlikləri

dastanlarda, nağıllarda dinləmiş, laylalarda eşitmiş, tarixi kitablarda oxumuş, qocaların söhbətindən, xalq yaradıcılığından öyrənmişdi. Şair bildirir ki, mən İraqa Atabəylərin yanına və ərəbdə Xəlifənin yanına getsəm, mənə xəzinələr bağışlayalar. Vətənim Gəncənin məhəbbəti məni buraxmır və hamı mənə deyir ki: Gəncəlisən Gəncədə ömür edərək al ilham. Nizaminin doğulduğu, ömrü boyu yaşadığı və vəfat etdiyi Gəncə şəhəridir. Dahi Nizami Gəncəvi söz dünyasının günəşidir. Bu günəş Azərbaycanı, bütövlükdə Şərq poeziyasını daima işıqlandırmaqdadır.

**ƏDƏBİYYAT**


1. *Araslı H.* Nizami və vətən. Bakı: Elm, 1942, 30 s.
2. *Бертельс Е.Э.* Низами и Физули. Избранные труды. М.: ИВЛ, 1962
3. *Hüseynov X.* Nizaminin "Sirlər xəzinəsi". Bakı: Elm, 1983, 130 s.
4. Nizami Gəncəvi Almanaxı. Birinci kitab. Bakı: Elm, 1984, 266 s.
5. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Lider, 2004
6. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1947, 175 s.

*UOT 82-09*

***F.F.Əsgərli***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*fizuli_1945 @ mail.ru*

# HÜSEYN CAVİD DRAMATURGİYASI ƏDƏBİ TƏNQİDDƏ

***Açar sözlər:*** *H.Cavid, dramaturgiya, ədəbi tənqid*

Müəllif müxtəlif illərdə H.Cavid dramaturgiyası haqqında söylənilən ziddiyyətli ədəbi tənqidi fikirlərə öz obyektiv münasibətini bildirmiş, yanlış baxışlara qarşı faktlar gətirərək dramaturji əsərlərin mahiyyətini açmağa çalışmışdır. Müxtəlif ziddiyyətli tənqidi fikirlərə münasibət bildirməyi qarşısına məqsəd qoymuşdur.

***Ф.Ф.Аскерли***

## ДРАМАТУРГИЯ ГУСЕЙНА ДЖАВИДА В ЛИТЕРАТУРНОЙ КРИТИКЕ

***Ключевые слова:*** *Г.Джавид, драматургия, литературная критика*

Автор попытался раскрыть суть драматических произведений, представив свои возражения против противоречивой литературной критике в отношении драматургии Гусейна Джавида на протяжении многих лет. Он стремится реагировать на критические противоречивые взгляды.

***F.F.Asgerli***

## HUSEIN JAVID'S DRAMATURGY IN LITERARY CRITICISM

***Keywords:*** *H.Javid, dramaturgy, literary criticism*

The author tried to uncover the essence of dramatic works by presenting his objections to the conflicting literary criticism of the dramaturgy of Husein Javid for many years. He seeks to respond to critical conflicting views.

XX əsrin üçüncü onilliyində Azərbaycan ədəbi mühitində ictimai-siyasi və ideoloji vəziyyət dəyişdikcə özünün yaradıcılıq manerasına sadiq qalan, gerçək həyat hadisələrini dərk etmək baxımından əsərlərinin mövzu, məzmun və formasına müxtəlif rakursdan yanaşan, müasir ədəbi prosesə münasibətdə fərqli nəzəri-estetik mövqedə dayanan sənət adamlarının yaradıcılıq siması daha aydın görünməyə başlayırdı. Məsələn, 20-ci illərin əvvəlində yaranmış bir sıra əsərlərdə inqilabi hərəkatın təsvirində kortəbii meyillər ön plana çəkilir, bitkin real obrazlar mücərrəd obraz fonunda zəif və solğun verilirdi. Sosializm quruculuğunun təbliğində belə bir fikir əsas rol oynayırdı ki, kapitalizm

dünyanı müflisləşdirir, onu zülmətə, səfalətə sürükləyir, sosializm isə xalqların mənəvi zənginliyini, dünyanın sönməz, əzəmətli gözəlliyini üzə çıxarır.

Bolşevik ideologiyasına layiqincə xidmət etməyən, ona bol mədhiyyələr yağdırmayan sənətkarlar "xarici və daxili düşmənlər" adı ilə "qara sıyahıya" salınır, siyasi repressiyanın aramsız təzyiqləri ilə üzləşirdilər. Ümumiyyətlə, bolşevik siyasətini tərənnüm etməyən qələm sahiblərinin yaradıcılıq laboratoriyasının altı üstünə çevrilir, onlara irad tutmaq üçün müxtəlif bəhanələr gətirilir, ədəbiyyat sahəsində proletarlaşmanın ləng, ağır getməsi bir sıra mütərəqqi sənətkarların millətçilik ruhlu yaradıcılığı ilə əlaqələndirilirdi. Şeirlərində "qəm, kədər motivləri" olan sənətkarların yaradıcılığı lağa qoyulur, inqilaba qarşı çıxan, milli ənənələri canlandırmaq istəyən və idealizə edən əsərlər mövcud hakimiyyətə qarşı sui-qəsd kimi qiymətləndirilirdi.

Bu təzyiqlərə məruz qalan sənətkarlardan biri də H.Cavid (1882-1944) olmuşdur. Öz bədii yaradıcılıq üslubu və sənətkarlıq məziyyətləri ilə müasirlərindən fərqlənən bu görkəmli sənətkar Azərbaycan dramaturgiyasında yeni ədəbi bir mühit yaratdı. İlk dəfə dramaturgiyaya kiçik həcmli "Ana" adlı mənzum pyesi ilə gəlsə də, illər ötdükcə bu sahənin təkrarolunmaz sənətkarına çevrilmişdir. "Şeyx Sənan", "İblis", "Topal Teymur", "Peyğəmbər", "Knyaz" və sair əsərlərində müəllifin bir sənətkar kimi püxtələşdiyinin şahidi oluruq. Lakin bu əsərlərə ədəbi tənqidin münasibəti mərhələli şəkildə birmənalı olmamışdır. H.Cavidin dramaturji yaradıcılığına yeni yanaşma tərzi ədəbi tənqidə geniş material vermişdir. Ayrı-ayrı illərdə tənqidçilər tərəfindən dramaturqun yaradıcılıq laboratoriyasına yanlış yanaşma yolu ilə lüzumsuz müdaxilələrin olması ilə də qarşılaşmalı oluruq. Daha çox təhrikçilik və sovet ədəbiyyatının təhlilinə üstünlük verməklə söz demək iqtidarında olanların tənəsinə tuş gələn, pantürkizm və panislamizmdə ittiham olunan H.Cavid "islaholunmaz şair" damğası ilə damğalansa da, görkəmli sənətkar öz orijinal ədəbi yolundan, yaradıcılıq üslubundan dönməmişdir.

Lakin 20-30-cu illərdə bolşevik siyasi ideologiyasının əsirinə çevrilmiş bir sıra tənqidçilər (Ə.Nazim, M.Ələkbərli və başqaları) yersiz hücum taktikasını əldə rəhbər tutaraq populist çıxışlar edir, milli ədəbiyyatımızın inkişafı qarşısına sipər çəkirdilər. 30-cu illərdə Ə.Nazim (1906-1941) H.Cavidi ittiham edərək onun dramaturji yaradıcılığına siyasi don geydirir, özünün proletar əqidəsinə söykənərək radikal tərzdə fikrini belə ifadə edirdi: "Hüseyn Cavid zahirən Cavaddan (Əhməd Cavadı nəzərdə tutur – F.Ə.) ayrı idi. O, özünün "sənət sənət üçün" tərəfdarı olduğunu, "partiyadan, siyasətdən həzz almadığını, bir şey anlamadığını" və "bənim tanrım gözəllikdir, sevgidir" deyirdi. Buna uyğun olaraq o, tematika etibarı ilə tarixə müraciət edir, bu gündən uzaqlaşır, "Peyğəmbər"lərin, "Topal Teymur"ların macəraları, "qəhrəmanlıqları" ilə məşğul olurdu. Lakin bu zahirən belə idi. Həqiqətdə isə Cavidin bu hərəkətləri burjua ziyalılarının bir manevrindən ibarətdi". O, bu

gündən uzaqlaşmaqla, "sənət sənət üçündür" şüarını müdafiə etməklə yalnız özünü və bir də sadəlövh oxucuları aldada bilərdi... (4, s.308).

Ə.Nazim "Bugünkü ədəbiyyatımız haqqında" (1926) adlı məqaləsində bu və ya digər mövzulara nüfuz edən yazıçıları qınaq meydanına çəkərək sovet ədəbiyyatının yeni istiqamətini pafoslu şəkildə təbliğ edərək yazırdı: "Şübhəsiz ki, məmləkətin son hadisələrindən, az da olsa, mütəəssir olan bu ədəbiyyat zümrəsi (o, yazıçıları siyasi-ideoloji baxışlarına görə zümrələrə ayırırdı – F.Ə.), təəssüflə de- məliyik ki, özünü bitərəf bir cəbhəyə doğru çəkir; ilhamını ya əski Ərəbistan çöllərindən (Hüseyn Cavid "Peyğəmbər"), yaxud əski türk istilalarından (Hüseyn Cavid "Topal Teymur") alır; yaxud da Qız qalalarından (Cabbarzadə) və ya "Göy göl"lərin füsunkar və simvolik mənzərələrindən ruhlanır (Cavad); məmləkətdə nə edildiyini, yıxılan və qurulan işləri, yaradılan yenilikləri guya görmək belə istəmir. Bu zümrə arasında yeganə yazıçı gənc Cəfər Cabbarzadədir ki, bir az həyat məsələləri onun əsərlərində görünür" (4, s.59-60).

XX əsrin 30-cu illərində ədəbiyyat bir neçə mənbədən qidalanaraq inkişaf edirdi. Bunlardan birincisi, kəmiyyətcə qismən az, keyfiyyət baxımından daha əhəmiyyətli yer tutan, milli ənənələrdən qidalanan ədəbiyyat nümunələri idi. Öz yaradıcılıq üslubuna sadiq qalan H.Cavid özünün bədii yaradıcılıq yolunu davam etdirir, partiyalı ədəbiyyat üçün müəyyən olunmuş məhdud ölçülərdən kənara çıxmalı olurdu. Məhz elə buna görə Ümumittifaq sovet yazıçılarının I qurultayında (1934) ədəbi fəaliyyətini bu istiqamətdə davam etdirən görkəmli sənətkarlar, o cümlədən H.Cavid ciddi surətdə tənqid olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqının təşkilat komitəsinin sədri M.Ələkbərli (1905-1937) qurultayda etdiyi məruzəsində H.Cavid haqqında bu ifadələri işlətməkdən çəkinməmişdir: "Çoxsaylı dram və şeirlər müəllifi, böyük şair-dramaturq Hüseyn Cavid olduqca ləng islah olunur. O, bədii yaradıcılığa başlayan gündən indiyəcən osmanlı romantik-klassiklərin (Əbdülhəqq Hamid və başqalarının) əsiri olaraq qalmışdır. Cavid demək olar ki, bütün əsərlərində pantürkizmi və panislamizmi təbliğ edir. 1923-cü ildə "Peyğəmbər" dramını yazıb ki, burada o, İslamın ilkin yaranışını və Məhəmmədi, 1926-cı ildə bitirdiyi "Topal Teymur" pyesində isə Teymuru və onun ideyası ilə Turan imperiyası bayrağı altında birləşən türk-tatar monqol xalqlarını ideallaşdırır" (8, s.123).

Lakin bu cür qərəzli, milli ədəbiyyat tarixinə yamaq olunan, olduqca cılız görünən yanlış fikirlər ədəbi tənqiddə bədii həqiqəti heç vaxt əks etdirə bilməzdi. Tənqidçi Q.Xəlilov bu məsələyə obyektiv yanaşaraq yazırdı: "...Cavidin təhsili, tərbiyəsi, yaşayıb-yaratdığı mühit, dövr bəzən o qədər mürəkkəb, dolaşıq, ziddiyyət və çətinliklərlə yoğrulmuşdur ki, bunlar onun şüurunda, dünyagörüşündə, yaradıcılığında bu və ya başqa şəkildə iz salmışdır. Lakin o, büdrəyəndə də, səhv edəndə də, bəzən yanlış təsirlərə düşəndə də

böyük sənətkar səmimiyyətini hifz etmişdir. Buna görə də tam halda H.Cavid sənəti insana, insanlığa, həm də zəif, saf, zəhmətkeş insana dərin məhəbbət və ləkəsiz səmimiyyətlə doludur. Bu sənətə əbədi həyat nəfəsi verən də budur. İnsana hörmət və məhəbbət motivi Cavid sənətinin ətinə, qanına hopmuş elə bir ali keyfiyyətdir ki, bunsuz Cavid dünyasını təsəvvür etmək mümkün deyildir" (3, s.59)

H.Cavidin şəxsiyyəti, sənəti və həyat yolu, yaradıcılığında ideal və reallığa münasibəti barədə öz fikrini bildirən tənqidçi belə bir nəticəyə gəlmişdir ki, Cavid həmişə, hər yerdə əzilənlərin, tərəqqi və işıq uğrunda mübarizə aparanların, yazıqların, köməksizlərin tərəfində durmuş, onların ən sədaqətli, ən etibarlı, qərəzsiz himayədarı, müdafiəçisi olmuşdur.

Ədəbiyyatşünas Ə.Sultanlı (1906-1960) "Hüseyn Cavid faciələri" adlı məqaləsində dramaturqun yaradıcılığına düzgün qiymət vermiş, sovet ideoloji senzurasından xilas olmaq üçün bəzi fikirlərini dövrə uyğunlaşdırmış, "millətçi, təəssübkeş şovinistlərə və müsavatçılara aldanmamış" deməklə, ilk milli demokratik müstəqil dövlətimizi təmsil edən siyasi baxışlarına bir qədər şübhə yaratsa da, bununla belə, H.Cavidin dramaturji yaradıcılığındakı fəlsəfi düşüncələrini tam aydınlığı ilə duymuş, "həyat həqiqətilə arzu və xəyal arasındakı ziddiyyət"ləri onun dram əsərlərinin hərəkətverici qüvvəsi hesab etmiş, "Ana", "Maral", "Şeyx Sənan"dakı xarakter və obrazların fəaliyyətinin obyektiv qiymətini vermişdir. Tənqidçi yazırdı: "H.Cavid orijinal təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi. Bütün bunlar H.Cavidin sənətkar ilə yaradıcılıq haqqında olan görüşlərindən irəli gəlmişdi" (7, s.101-159).

Ə.Sultanlı məqalənin sonunda belə bir fikir irəli sürürdü ki: "Peyğəmbər surəti əsərdə hər nə qədər insanlaşdırılsa da (!!! – F.Ə), hər nə qədər tarixi faktlarla göstərilsə də, əsər dövrün tələblərinə cavab vermirdi. Bu cəhətdən C.Cabbarlı dövrünün nəbzindən daha düzgün tutmuşdu. Müasir həyata bağlanaraq öz yaradıcılıq istedadından bacarıqla istifadə edirdi. H.Cavid yaradıcılığı ilə C.Cabbarlı yaradıcılığı arasında fərq günü-gündən dərinləşirdi" (7, s.154).

Ə.Sultanlı H.Cavidin "Peyğəmbər" əsərinin uğursuzluğundan (doğrudanmı belədir!!!) sonra da bir nəticə çıxarmadığını, bu əsərin arxasınca "Topal Teymur"u da yazdığını qeyd edir, "bu cəhətdən C.Cabbarlı dövrünün nəbzindən daha düzgün tutmuşdu" fikri ilə sosialist realizmi prinsiplərinin doğru yol olduğunu etiraf etməli olurdu. Fikrimizcə, dövrün siyasi-ideoloji prinsiplərinə istər-istəməz əməl etməyə məcbur olan görkəmli ədəbiyyatşünas alim məsələyə ayrı cür yanaşa da bilməzdi.

Lakin Ə.Sultanlı digər tərəfdən də sovet tarixçilərinin apardıqları tədqiqatın nəticələrindən doğan ümumi fikrə əsaslanaraq "Topal Teymur"da

Teymur obrazını təhlil edərək yazırdı: “Teymur başqa Şərq müstəbidlərindən fərqli olaraq maarifi, mədəniyyəti, elmi, sənaye və ticarəti himayə etmişdir. Öz sarayında alimləri, şairləri, arxitektorları toplamış, onların vasitəsilə mədəni yüksəlişə imkan yaratmışdır. Sülh vaxtında Teymurun qanun-qaydaya da böyük əhəmiyyət verdiyi tarixçilər tərəfindən qeyd olunur” (7, s.101-159).

Qeyd etmək lazımdır ki, Ə.Sultanlı da bəzi hallarda tədqiqatlarında sovet ideologiyasının təpgisindən xilas ola bilməmişdir.

Akademik M.Cəfərin “Hüseyn Cavid” (1960) və “Azərbaycan ədəbiyyatında romantizm” (1963) adlı monoqrafiyalarında araşdırılmış bir sıra əsərlər, o cümlədən, “Peyğəmbər” əsərinin təhlili bizə elə gəlir ki, obyektivlikdən bir qədər uzaq düşmüşdür. Doğrudur, 50-ci illərin ortalarında (1956) Stalinin şəxsiyyətə pərəstişi dövlət səviyyəsində güclü tənqidə məruz qalsa da, panislamizmin əks-sədası hələ də şüurlardan silinmədiyinə görə Peyğəmbəri ideal səviyyəyə qaldıran əsərin təhlilinə real mövqedən yanaşmaq cəhdi, göründüyü kimi, ədəbiyyatşünas-tənqidçilər tərəfindən hələ də mümkünsüz olmuşdur.

Tənqidçi M.Əlioğlu (1928-1973) H.Cavidin yaradıcılığındakı fəlsəfi motivləri təhlilə cəlb etmiş, onun varlıqla ideal arasındakı ziddiyyətləri üzə çıxarmağa çalışmış, ümumiyyətlə, romantiklərin qəddarlıq və fəsada biganə olan gözəl, rəhmdil və həlim ürəkli insanlar haqqında xəyal bəslədikləri fikrinə gəlmişdir. M.Əlioğlu rus tənqidçisi V.Vanslovun dediyi: “Onlar (romantiklər – F.Ə) insanla dünyanın ahəngdarlığını, bütün bəşəriyyətin qardaşlıq və birliyini, həyatın azadlıq və səadət mənbəyinə çevrilməsini, insanlığın xoşbəxtliyi naminə aparılan qəhrəmanlıq mübarizəsini, şəxsiyyətin mənəvi cəhətdən zənginləşməsini düşünürlər. Real varlıqda isə bir-biri ilə daim toqquşan və üz-üzə gələn ziddiyyətlər, köləlik, müsibət, istismar və qəddarlıq hökm sürür. Şəxsiyyət insafsızcasına alçaldılır. Bütün bunlar romantiklərdə idealın reallığını şübhə altına alır” fikrini tamamilə təsdiq edir və bu fikrə heç bir əlavə etmədən onunla razılaşırdı (2, s.189-192).

Ədəbiyyatşünas H.Qasımov “Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meyilləri” (1998) adlı monoqrafiyasında irəli sürülmüş bir sıra tənqidi baxışlara öz münasibətini bildirmişdir. H.Zeynallının XX əsrin 20-ci illərində qələmə aldığı əsərində (“Hüseyn Cavidin yazdığı “Peyğəmbər” haqqında mülahizələrim”) H.Cavidin “Peyğəmbər” dramının təhlili ilə və M.Əlioğlunun “Hüseyn Cavidin romantizmi” monoqrafiyasında şərh olunan fikirlərinə qarşı obyektiv mülahizələr söyləmişdir. Müəllif M.Əlioğlunun əsərindən gətirdiyi: “Tarixdən götürülən konkret mövzu və hadisələr, tarixi şəxsiyyət olan Məhəmməd, onun həyatı və ideoloji mübarizə fəaliyyəti... şairin ictimai-siyasi görüşlərinin və ədəbi-estetik prinsiplərinin ifadəsi üçün sadəcə bədii vasitədir” sitatına aydın fikir bildirir və göstərir ki, “tənqidçinin xoş məramlı niyyətinə qəti şübhəmiz olmasa da, H.Cavidin “Peyğəmbər” əsərinə bu

kimi üsullarla haqq qazandırmağın da tərəfdarı deyilik. Çünki bu mülahizələrdə naturanın əhəmiyyəti azaldılaraq "şairin ictimai-siyasi görüşlərinin sadəcə bir vasitəsi kimi qələmə verilir. Yuxarıdakı mülahizədə Peyğəmbərə aid edilən "ideoloji mübarizə fəaliyyəti" ifadəsi də yerinə düşmür" (5, s.8-52).

Tədqiqatçı Baloğlan Şəfiyevin heç bir məntiqə və arqumentə söykənməyən, vaxtı ilə sovet siyasi ideologiyasının təbliğ etdiyi bu yanlış fikirləri ilə heç cür razılaşmaq olmur. Onun "Peyğəmbər" pyesi haqqında qeydlər" məqaləsində oxuyuruq: "Bu əsərlər də ("Peyğəmbər" – F.Ə.) öz dövrlərinə görə heç də dini modernizə etmək və Məhəmmədi göylərə qaldırmaq məqsədi ilə yazılmamışdır. Əksinə, dinin mahiyyətini açmaqla, onun puç ideyalarını ifşa etmək arzusu ilə qələmə alınmışdır" (1, s.202-212).

Dramaturgiyanın problemləri teatr təfərrüatının qlobal sahələri ilə təmasda və üzvi əlaqədə təsəvvür edilir. Bu sahədə də bu və ya digər tənqidi yazılara da rast gəlmək mümkündür. Teatrşünas C.Cəfərovun "Cavid və teatr" adlı məqaləsi bu baxımdan xüsusilə xarakterikdir. Tənqidçi Y.Qarayev bu məqalənin əsas məziyyətlərindən söz açaraq Cavid teatrını Azərbaycan teatrı üçün yeni olan romantik-poetik bir teatr kimi mənalandırırdı. Həmçinin müəllif onu da qeyd edirdi ki: "Əsərdə dramaturq və teatr problemi bir qədər də cilalanır, şair və teatr problemi konkretliyi alır ki, bu problemi də cavidanşünaslıqda və bizim teatrşünaslıqda aktual hesab edirik"(6, s.55).

Müxtəlif araşdırmalardan və təhlillərdən də göründüyü kimi, H.Cavid dramaturgiyası münasibətdən asılı olmayaraq həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuş, onun bədii yaradıcılığına müxtəlif rakursdan yanaşılmışdır ki, bu da onun bir daha heç bir qələm sahibinə bənzəməyən orijinal əsərlər müəllifi olduğunu göstərir, Azərbaycan ədəbiyyatı və milli teatr tarixində özünəməxsus şərəfli yerini qoruyub saxlamışdır.

## ƏDƏBİYYAT

1. Cavidi xatırlayarkən. Bakı: Gənclik, 1982, 392 s.
2. *Əlioğlu M.* Məhəbbət və qəhrəmanlıq, Bakı: Yazıçı, 1979, 400 s.
3. *Xəlilov Q.* Tənqidçilik çətin peşədir, Bakı: Yazıçı, 1986, 389 s.
4. *Nazim Ə.* Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979, 374 s.
5. *Qasımov H.* Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meylləri. Bakı: Elm, 1998, 306 s.
6. *Qarayev Y.* Tənqid: problemlər, portretlər, Bakı, 1976, 211 s.
7. *Sultanlı Ə.* Məqalələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 325 s.
8. Первый всесоюзный съезд советских писателей (стенографический отчет), Москва: Советский писатель, 1990, 668 с.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 42-49
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, T. 67, № 4, c. 42-49
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 42-49

***UOT 81***

***P.Ə.Əzizova***
*Azərbaycan Tibb Universiteti*
*p.azizova@gmail.com*

# RÜBAİ MƏTNLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ

***Açar sözlər:*** *rübai, bayatı, heca, misra, qafiyə, fonem, leksem, klassisizm, arxaizm*

Məqalədə klassik poeziya nümunəsi sayılan, şərq ədəbiyyatında geniş yayılmış rübailərin ümumi linqvistik təhlili məsələsinə baxılmışdır. Tədqiqatda rübai, dübeyt, tuyuğ kimi poetik janrlar arasında paralellər aparılır. Təhlil göstərir ki, rübailər klassik janr kimi geniş yayılmış, yalnız farsdilli deyil, ərəb və türkdilli divan ədəbiyyatında istifadə olunmuşdur. Rübailərlə digər yaxın janr nümunələri arasında oxşar və fərqli cəhətlər vardır. Bizə gəlib çatmış yazılı divan ədəbiyyatında azərbaycandilli ilk rübailər Qazi Bürhanəddinin “Divan”ında qeydə alınır. Divanın nəşr olunmuş variantında Azərbaycan dilində 20 rübai yer almışdır. Linqvistik təhlil göstərir ki, bu rübailərin leksik-qrammatik xüsusiyyətləri müasir Azərbaycan dilinə çox yaxındır.

***П.А.Азизова***

# ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ТЕКСТОВ РУБАИ

***Ключевые слова:*** *рубаи, баяты, слог, стих, рифма, фонем, лексема, классицизм, архаизм*

В статье рассматривается лингвистический анализ рубаи, которые широко распространены в восточной литературе и являются примером классической поэзии. В исследовании проводятся сравнения между поэтическими жанрами, такими как рубаи, дубейт, туюг. Исследования показывают, что рубаи является широко распространенным классическим жанром не только в персидской, но и в арабской и тюркоязычных литературах. Существуют сходные и отличительные черты среди других жанров, тесно связанных с рубаи. В письменной литературе о диванах, дошедших до нас, первые азербайджаноязычные рубаи написаны в «Диване» Гази Бурханеддина. Опубликованная версия дивана содержит 20 рубай на азербайджанском языке. Лингвистический анализ показывает, что лексические и грамматические особенности этих рубаи очень близки к современному азербайджанскому языку.

**P.A.Azizova**

## LINGUISTIC ANALYSIS OF RUBAI TEXTS

***Keywords:*** *rubai, bayati, syllable, rhyme, phoneme, lexeme, classicism, archaism*

The article deals with the linguistic analysis of rubai, which are widely distributed in Eastern literature and are examples of classical poetry. In the study, comparisons are made between poetic genres such as rubai are dubeit, tuyug. Studies show that rubai are widely spread classical genre not only in Persian, but also in Arabic and Turkish literature. There are similar and distinctive features among other genres closely related to rubai. In the written literature on the "divane", that has reached us, it is known in Gazi Burhaneddin's "Divane", who was the first author of rubai. In the second volume of "Divane" there are 20 rubai 120 quatrains (rubai) in Azrbaijani language. Linguistic analysis shows that the lexico-grammatical features of these rubai are very close modern Azeri language.

"Linqvistik təhlil" anlayışı çoxcəhətliliyi, müxtəlif yozum və izahları ilə seçilir və bunun əsas səbəbi terminoloji söz birləşməsinin tərkib komponentlərinin özlərinin geniş əhatə dairəsinə malik olmasıdır. A.Qurbanov "Linqvistik təhlil" anlayışını izah edərkən yazmışdır: "Linqvistik təhlil dedikdə, müxtəlif mövzuya və sahəyə aid olmasına baxmayaraq, hər hansı mətnin dilçilik cəhətdən araşdırılması, elmi süzgəcdən keçirilib ümumi nəticələr çıxarılması nəzərdə tutulur" [1, s.32]. Müəllifin istifadə etdiyi "dilçilik cəhətdən araşdırılma" ifadəsi ümumi səciyyə daşıyır və bütün linqvistik qatları, yarusları əhatə edir. Şübhəsiz ki, fonetik, leksik, morfoloji, sintaktik cəhətdən araşdırma ilk növbədə yada düşməklə müəyyən iyerarxiyada aşkara çıxır. Təsadüfi deyil ki, A.Qurbanov konkret bədii əsərlər əsasında linqvistik təhlil nümunələri verərkən "fonetik təhlil", "leksik təhlil", "frazeoloji təhlil", "morfoloji təhlil", "sintaktik təhlil" kimi yarusları verilmiş ardıcıllıqla ayırmışdır [Bax: 1, s.66-70]. Bu düzümə "frazeoloji təhlil" daxil edildiyi kimi, şəxs adları təhlili məsələsi də ayrıca qoyulmuşdur.

Bədii mətnlərin linqvistik təhlili probleminin müxtəlif janrlarda yazılmış ədəbi nümunələr üzrə ayrılıqda öyrənilməsi, fikrimizcə, xüsusi elmi maraq kəsb edir və bu istiqamətdə aparılan tədqiqatların nəticələri sonradan janr oxşarlığı və yaxınlığı ilə seçilən bədii mətnlərin müqayisəli şəkildə araşdırılmasına imkan verəcəkdir. Bu məqsədlə məqalədə rübailərin linqvistik təhlili məsələsi qoyulur. Hesab edirik ki, bu təhlil türkdilli ədəbiyyatda qeydə alınan digər dördlük janrlarının (bayatı, mani, tuyuğ, laylay, tapmaca və s.) müvafiq təhlil materialları ilə müqayisəli araşdırmalar aparmağa imkan verəcəkdir.

Rübai klassik Şərq və Azərbaycan poeziyasında geniş yayılmış lirik şeir şəklidir. Bu şeir şəkli dördlükdür, yəni dörd misradan ibarətdir. Poetik bədii

mətnlərin ənənəvi linqvistik təhlilində ilk istifadə olunan xalq yaradıcılığı nümunələri və bu nümunələrdən də birinci olaraq bayatı və onlarla oxşarlığı olan laylay və tapmaca mətnlərinin tədqiqi prosesində aydın olur ki, bayatılar yalnız xalq yaradıcılığında deyil, müəllif yaradıcılığında da qeydə alınır. Müəllif bayatı ənənəsi bu gün daha çox davam etdirilir.

Poetik bədii mətnin linqvistik təhlilinə bayatı, tapmaca və layladan sonra rübailərin cəlb olunması bir sıra aspektlərdən məqsədəuyğundur. Bu iki janr üçün ümumi cəhət həm bayatı, həm də rübainin dörd misradan ibarət olmasıdır. Rübaini bayatıdan fərqləndirən əsas cəhət odur ki, rübailər 7 hecalı deyildir və onlar daha çox əruz vəznində qələmə alınır. Rübailər xalq yaradıcılığı nümunəsi deyil, müəllif əsəridir. Rübailərdə də bayatılar kimi üçüncü misra sərbəst buraxılır.

“Dil xəncərilə heç kəsi yaralama,
Tənə qılıncıyla könül paralama.
İnsaf yerində tut özün biganə,
Biganəni qovmu dostudan aralama!” [2, s. 247].

Üçüncü misranın sərbəst buraxılmasına rübailərdə bəzən əməl olunmur və bu qeyd edilən əlamətin rübainin təyini üçün əsas meyar olmadığını göstərir. Məsələn, İ.Nəsiminin aşağıdakı rübaisinin bütün sətirləri bir-biri ilə qafiyələnmişdir və qafiyə aaaa formasındadır.

Firqətin dərdi mənə *kar eylədi,*
Canımı yandırdı, *bimar eylədi.*
Gəl ki, şövqün halımı *zar eylədi*,
Aləmi sənsiz mənə *dar eylədi* [2, s.124].

İlk baxışdan belə görünür ki, rübaidə “eylədi” rədifindən istifadə edilmişdir. Əslində isə qafiyə analitik feillər əsasında aparılır. Burada qafiyə mövqeyində “kar eyləmək”, “bimar eyləmək”, “zar eyləmək”, “dar eyləmək” feillərindən istifadə edilmişdir. Mürəkkəb feillərdəki ikinci komponent eyni söz-forma olduğuna görə, o, rübainin rədifi təsəvvürünü yaradır. Azərbaycan dilində oxşar qəlibdən başqa feillər də işlənir. Məsələn, car etmək / car eyləmək.

Rədif şeirdə təsir gücünü, ekspressivliyi gücləndirmək üçün istifadə edilən vasitə olub qafiyədən sonra hər misrada istifadə olunan eyni sözdür. Şərq poeziyasında, o cümlədən də Azərbaycan poeziyasında rədif geniş yayılmış poetik vasitədir. İstər xalq yaradıcılığında, istər klassik, istərsə də müasir poetik nümunələrdə rədifə kifayət qədər rast gəlinir. Rədifin olması istənilən şeir növü üçün zəruri şərt deyildir. Qeyd olunduğu kimi, rədif şeirin təsir gücünü, ahəngdarlığını, ekspressivliyini artırır.

Türk tədqiqatçısı Burat Bekenın Mehmet Sait Çalkanın “Divan şeirində rübai” əsəri haqqında rəyində göstərir ki, rübailər ərəb və farsdilli ədəbiyyatda da geniş yer tutmuşdur. Bununla yanaşı, Mehmet Sait Çalkaya istinadla qeyd

edilir ki, türk ədəbiyyatı janrlarından olan dübeyt, tuyuğ, qitə ilə rübailər arasında oxşarlıqlar vardır. Bu nəzm şəkilləri bir-birinin əvəzinə istifadə edilmişdir. Bununla belə, rübailərlə həmin nəzm janrları arasında fərqlər də vardır. Ümumiyyətlə, divan ədəbiyyatında rübailər müəyyən çoxluq təşkil etmişdir [5].

Qazi Bürhanəddinin divanında tuyuğlar ayrıca bir bölmədə verilmişdir. Bu nəzm janrı da dördlük formasındadır.

“Özini əş-şeyx görən sərdar bolur,
Ənəlhəq dəvi qılan bərdar bolur.
Ər oldur həq yolına baş oynaya,
Döşəgdə ölən yigid murdar bolur” [3, s.627]

Divanda biri 10 misradan, digəri iki misradan ibarət olan iki tuyuğ qeydə alınmışdır.

“Nazik olur, xublarun bir neçəsi,
Ağzı püstə, boy uzun, bel incəsi” [3, s.627]

“Hər zəmanın bir nigarü şahi var,
Hər günün günəş, gecənin mahi var.
Oduna düşənə qalmadı qərar,
Yola çıxan kişinün allahi var.
Zarü zərd olan nizar olsa ola,
Çünki bu yolda anun bir ahi var.
Kim ki, həmdəmdür çəfavü cövr ilə,
Lacərəm hicr ilə bir həmrahı var.
Köhnəpuş oldı bu dəm yolında çan,
Haliyə nə isə şey-lillahi var” [3, s.628].

Fikrimizcə, tuyuğlar bilavasitə türkdilli nəzm janrı, rübailər isə şərq poeziyası üçün ortaq janrdır. Tuyuğlarla rübailərin həm forma, həm məzmunca müqayisəsi tuyuğların da ayrıca linqvistik təhlilini tələb edir.

Rübailər xalq yaradıcılığı nümunələri deyil, müəllif yaradıcılığının məhsuludur. Azərbaycan klassik poeziyasının yaradıcılarının hər birinin yaradıcılığında rübailər qeydə alınır. Azərbaycan poeziyasında ilk rübai yaradıcılığının XI əsrə aid olması faktı sübut edilmişdir. Şübhəsiz ki, daha əvvəllər yazılmış rübailər də olmuşdur. Bu rübailər ya dövrümüzə gəlib çatmamış, ya da hələlik aşkara çıxarılmamışdır. Azərbaycan klassik poeziyasının nümayəndələri uzun illər rübailərini fars dilində qələmə almışlar.

Azərbaycan poeziyasının görkəmli nümayəndələri, klassik söz ustalarımız, eləcə də elm xadimlərimiz – Xətib Təbrizi, Bəhmənyar, Qazi Bürhanəddin, Qətran Təbrizi, Nəsirəddin Tusi, Məhsəti, Xaqani, Nizami, Nəsimi, Füzuli, Xəyyam və başqaları rübailər yaratmışlar. Klassik Şərq poeziyasının dörd misralıq şeir janrında şairin dünyagörüşü, təbiət və cəmiyyətə

münasibəti, arzu və istəkləri, fikir və duyğuları, təbiət lövhələri və s. əksini tapır.

“Klassik Şərq poeziyası janrlarının hərəsinin öz əsl mövzu obyekti vardır. Məsələn, məsnəvi ilə ən çox epik poemalar, dastanlar, fəlsəfi traktatlar, saqinamələr; qəsidə ilə ən çox fəxriyyə, mədhiyyə, mərsiyələr yazılmış; qəzəllərdə vüsal zövqü, hicran dərdi təsvir edilmiş; qitələrdə ən çox didaktik nəsihətlər, ruhi iztirablar öz əksini tapmışdır. Rübailərin isə belə xüsusi mövzu obyekti yoxdur. Rübailərdə həm məhəbbət, vüsal, hicran, həm didaktik nəsihətlər, həm zəmanədən və vəziyyətdən şikayətlər, həm fəlsəfi hikmətamiz mülahizələr, həm təbiət mənzərələri, bir sözlə, şairin ümid və arzuları, hər bir ruhi təəssüratı geniş şəkildə əksini tapmışdır [2, s.4].

Beləliklə, Azərbaycan ədəbiyyatında ayrıca şeir janrı kimi rübailər tarixən geniş yayılmışdır. Hazırda Azərbaycan poeziyasında bu janr, demək olar ki, tədricən sıradan çıxmaqdadır. Buna baxmayaraq dil materialı və ədəbi nümunə kimi rübailərin fonetik, leksik və digər səviyyələrdə təhlili maraq doğurur.

Rübai mətninin fonetik təhlili bayatıların fonetik təhlili ilə eyni qaydada aparılır. Bir neçə rübainin fonetik təhlilini nəzərdən keçirək.

“Şol boyu rənaya verdim könlümü,
Şol gözü şəhlayə verdim könlümü,
Şol günəş simayə verdim könlümü,
Şol yüzü çün ayə verdim könlümü” [2, s. 124).

İ.Nəsiminin bu rübaisində “verdim könlümü” rədifi istifadə edilmişdir. Bütün misralar eyni “şol” sözü ilə başlanır. Bu baxımdan rübaidə təkrarlanan vahidlər çoxluq təşkil edir ki, bu da fonemlərin kəmiyyət xüsusiyyətlərinə, şübhəsiz, təsir göstərəcəkdir. Rübaidə işlədilmiş fonemlərin tezlikləri 1-ci cədvəldə verilmişdir.

Cədvəl 1

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ü | 13 | Ə | 6 | Ö | 5 | K | 4 | H | 1 |
| M | 9 | Ş | 6 | R | 5 | G | 2 | S | 1 |
| L | 9 | A | 5 | E | 4 | Z | 2 | | |
| N | 7 | İ | 5 | V | 4 | B | 1 | | |
| Y | 6 | O | 5 | D | 4 | U | 1 | | |

Fonemlərin işlənmə tezliyini göstərən cədvəldən göründüyü kim, təhlilə cəlb edilmiş rübaidə ən çox işlənən fonem “Ü” olmuşdur. Bu səs rübaidə 13 dəfə istifadə edilmişdir. İşləkliyə görə bu rübaidə “M” və “N” eyni ranqa malikdir, onların hər biri 9 dəfə işlənmişdir. Tezliyi 1 olan dörd fonem qeydə

alınır ki, bunlar "B", "U", "H", "S" fonemləridir. Rübaidə cəmi 22 fonemdən istifadə edilmişdir. Saitlərdən "I" rübaidə qeydə alınmamışdır.

Heca tipinə görə kəmiyyət göstəricilərini müəyyənləşdirərkən burada CVC tipinin çoxluğu müşahidə edilir. Rübaidə bu tipli 12 heca qeydə alınır. Ümumiyyətlə, qeydə alınan heca tipləri aşağıdakılardır: V, CV, CVC. Azərbaycan dilində heca tipləri çox olsa da, bu rübaidə yalnız üç tip vardır. Qeyd etmək lazımdır ki, rübaidə birinci üç misranın hər birində beş söz-forma, sonuncu misrada isə 6 söz-forma vardır. Misranın heca dərinliyi 12-yə bərabərdir.

Rübaidə "o" əvəzliyinin arxaik forması olan "şol" əvəzliyindən istifadə edilmişdir. Poetik nümunədə alınma ərəb-fars sözləri vardır: rəna, şəhla, sima və s.

"Dedim ləbinə ləli bədəxşandır bu,
Güldü, dedi: "Ey fəqir, böhtandır bu.
Bir daşə nə rəng ilə qılırsan nisbət,
Şirinü şəkərfəşanü xəndandır bu!"

Məcnun oda yandı şöləyi-ah ilə pak,
Vamiq suya batdı, eşqdən oldu həlak.
Fərhad həvəs ilə yelə verdi ömrün.
Xak oldular onlar, mənəm indi o xak" [2, s. 164].

Sonuncu rübaidə Şərq xalqları arasında məşhur olan aşiqanə dastanların kişi qəhrəmanlarının adları – Məcnun ("Leyli və Məcnun"), Vaməq ("Vaməq və Əzra"), Fərhad ("Fərhad və Şirin") istifadə edilmişdir. Hər üç aşiq eşqi yolunda özünü qurban vermişdir. Şair indi onların xak (torpaq) olduğunu qeyd edir və özünün sanki həmin aşiqlərin "xakindən" yarandığını yazır. Bu rübaidə dörd ünsür – od, su, hava (yel), torpaq (xak) öz yerini almışdır.

"Ey feyzrəsani-ərəbü, türkü əcəm!
Qıldım ərəbi əfsəhi-əhli–aləm.
Etdin fürsəhayi-əcəmi İsa dəm,
Məni türk zəbandan iltifat eyləmə kəm" [2, s. 166].

M.Füzulinin bu rübaisində Allaha müraciətlə İsa nəfəsli ərəb, fars və türk şairlərinin olduğunu qeyd edir. Şair qələmini ərəb və fars şeiriyyətində sınaqdan çıxarmışdır. Onun diləyi türk dilində əyər-əskiksiz yazmaq iltifatıdır.

İsa nəfəsi (İsa dəmi) birləşməsi başqa müəlliflərin rübailərində də istifadə olunur. Nəsimi yazmışdır:

"Sənin nəsimində var İsa dəmi,
Nəfsin dirildər İsa, Məryəmi.
Qapından hər zərrə Çəmin camıdır,
Eşqinin məstləri tutub aləmi" [2, s.128].

Şair yarının nəfəsində *İsa dəmini* görür və bu nəfəsin İsanı və Məryəmi də diriltmək qüdrətinə malik olduğunu deyir. Rübaidə əfsanəvi İran şahı Cəmşidin adı və onun camının adı keçir. Rəvayətə görə, Cəmşid bu cama baxaraq dünyanın hər bir yerini görə bilirmiş: Yarın qapısındakı hər zərrə Çəmşidin camıdır.

Klassik şeir nümunələrinin məzmununu izah etmək bir qədər çətindir. Çünki bu şeir nümunələrində mifoloji, tarixi şəxsiyyətlər, əşyalar və s. qeyd olunarkən onların arxasında duran mənaların açılması tələb olunur. Bu isə izah və şərh edənin bu sahədəki biliklərinin səviyyəsindən asılıdır. Təsadüfi deyil ki, klassik şeir nümunələrinin şərhini yazmaq da geniş yayılmışdır.

Klassiklərin əsərlərindəki rübailərin leksik təhlili göstərir ki, rübai janrında ərəb və fars sözləri çoxluq təşkil edir. Fikrimizcə, bu fakt bilavasitə rübai janrından qaynaqlanmır, ümumiyyətlə, klassik ədəbiyyata xas xüsusiyyət sayılmalıdır.

Azərbaycan dilində bizə gəlib çatan ilk yazılı nümunə XIII əsr şairi Həsənoğlunun qəzəlidir. Şairin "Divan"ı olsa da, həmin "Divan" hələ ki, tarixi yazılı abidə kimi tapılmamışdır. Divan ədəbiyyatında rübailər də yer alır və heç şübhəsiz ki, Həsənoğlunun da rübailəri olmuşdur. Azərbaycan dilində bütöv halda bizə gəlib çatan ilk divan Qazi Bürhanəddinin divanıdır. Bu əsər anadilli Azərbaycan divan ədəbiyyatının yazılmış və Həsənoğlu ilə Nəsimi yaradıcılığı arasında aralıq mövqedə duran ilk irihəcmli yazılı abidədir [3, s.3].

XIV əsrdə yazıb-yaratmış şairin divanında 20 rübai yer almışdır. Əldə olan ilk azərbaycandilli rübailər kimi Qazi Bürhanəddinin rübailərinin tədqiqi xüsusi önəmə malikdir. Onu da qeyd edək ki, şairin leksikası ayrıca tədqiqat obyekti olmuşdur [4].

Qazi Bürhanədiinin rübailəri eşq mövzusunda olub Azərbaycan rübai dilinin incəliklərini tam əhatə edir.

"Könlüm yenə ol Leyliyə Məcnun olamış,
Yaşum yenə yar yolına Ceyhun olamış.
Ləbləri çəkişmiş könlümi olamı
Baxdum aralarında məgər xun olamış" [3, s. 609].

Rübaidə 21 sözdən istifadə edilmişdir ki, onlardan üçü onomastik vahiddir (Leyli, Məcnun, Ceyhun). Müasir Azərbaycan dili üçün nisbi arxaikləşmiş iki söz – "ləb" və "xun" sözləri istisna olmaqla, digər sözlər ümumişlək leksik qata daxildir. Rübaidə "Məcnun olmaq", "Ceyhun olmaq" onomastik frazeologizmləri qeydə alınır. Qeyd etmək lazımdır ki, rübaidə istifadə edilmiş "çəkişmiş" feili sifəti "çəkişmək" feilindən əmələ gəlmişdir.

Qazi Bürhanədinin rübailərində "o" əvəzliyinin "ol" və "şol" variantlarının işlənməsi qeydə alınır.

"Ol göz ki, yüzün görməyə, göz demə ana,
Şol yüz ki, tozun silməyə, yüz demə ana.

Şol söz ki, içində, sənəma, vəsfün yox,
Sən badi-həva tut anı, söz demə ana" [3, s. 610].

Qeyd edilən variantlar Azərbaycan dilinin müvafiq tarixi dövrü üçün işlək fonetik variantlardır. Müasir dildə "ona" şəklində işlənən forma Qazi Bürhanəddinin rübailərində, demək olar ki, "ana" formasında, "mən" əvəzliyi "bən" fonetik variantındadır.

Ümumiyyətlə, rübailəri, eləcə də tuyuğları həm ənənəvi, həm də mətn dilçiliyi metodları ilə linqvistik təhlilə cəlb etmək, onların ümumfiloloji müqayisəsini aparmaq bu janrlar arasındakı oxşar və fərqli cəhətləri aşkara çıxarmağa kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. *Qurbanov A.* Bədii mətnin linqvistik təhlili. Bakı: Maarif, 1986, 380 s.
2. Rübailər aləmində. Bakı: Azərnəşr, 1989, 263 s.
3. *Bürhanəddin Q.* Divan. Bakı: Azərnəşr, 1988, 656 s.
4. *Qədimalıyeva A.F.* Qazi Bürhanəddinin dilinin leksikası: Filol. elm. nam. dis. ... avtoreferatı. Bakı, 2007, 24 s.
5. *Beken B.* Mehmet Sait Çalka. Divan şirinde rübai. Ankara: Kriter, 2015 / ergipark.gov.tr/download/article-file/181188

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 50-56
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 50-56
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 50-56

*UOT 82-053.2*

***Ş.Ə.Mahmudova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*shalale.makhmudova@mail.ru*

# UŞAQ ƏSƏRLƏRİNDƏ FOLKLOR NÜMUNƏLƏRİNİN TƏZAHÜRÜ

***Açar sözlər:*** *uşaq əsərləri, folklor, yaradıcı bəhrələnmə, lətifə, tapmaca, nağıl*

Təqdim olunan məqalədə folklorun Azərbaycan uşaq ədəbiyyatına müsbət təsirindən söhbət açılmışdır. Qeyd olunmuşdur ki, tanınmış ədəbiyyat nümayəndələri öz əsərlərində xalq yaradıcılığının bir sıra janrlarının motivlərindən bəhrələnərək gözəl əsərlər yaratmışlar. A.Bakıxanov, Q.Zakir, M.Ə.Sabir, M.Müşfiq, A.Şaiq, M.Seyidzadə, M.Rzaquluzadə, M.Dilbazi, T.Elçin, İ.Tapdıq, Z.Xəlil və başqaları şifahi xalq ədəbiyyatı nümunələrindən səmərəli şəkildə faydalanaraq uşaqların maraq dairəsinə uyğun əsərlər yazmışlar. Bu əsərlər rəngarəng poetik xüsusiyyətə malik olmaqla yanaşı, gənc nəslin təlim-tərbiyəsində ibrətamiz rola malikdir. Yazılı ədəbiyyatda folklorun demək olar ki, bütün janrlarına – layla, oxşama, bayatı, nağıl, əfsanə, rəvayət, lətifə, dastan, tapmaca, yanıltmac, atalar sözü, məsəllərə və b. müraciət edilmiş, bir-birindən gözəl, rəngarəng əsərlər yaradılmışdır. O da qeyd olunur ki, folklordan səmərəli istifadə yazılı ədəbiyyatın inkişafında əvəzsiz rol oynamışdır.

***Ш.А.Махмудова***

# ПРОЯВЛЕНИЯ ПРИМЕРОВ ФОЛЬКЛОРА В ДЕТСКОЙ ЛИТЕРАТУРЕ

***Ключевые слова:*** *детские произведения, фольклор, творческое обогащение, анекдот, загадка, сказка*

В статье рассматривается положительное влияние фольклора на детскую литературу в Азербайджане. Было отмечено, что известные литературные представители используя мотивы нескольких жанров народного творчества создали прекрасные произведения. А.Бакиханов, Г.Закир, М.А.Сабир, М.Мушфиг, А.Шаиг, М.Сеидзаде, М.Рзагулузаде, М.Дильбази, Т.Эльчин, И.Тапдыг, З.Халил и другие эффективно используя примеры устного народного творчества написали произведения, охватывающие интересы детей. Эти произведения наряду с поэтичностью по своей природе, так же играли определенную роль в воспитании молодежи. В письменной литературе можно увидеть все жанры фольклора, такие как колыбельная, баяты, сказки, легенды, рассказы, анекдоты, эпосы, загадки, скороговорки, пословицы и др.; были созданы красочные, отличающиеся друг от друга своей оригинальностью произведения. Также отмечается, что эффективное использование примеров фольклора сыграло незаменимую роль в развитии письменной литературы.

***Sh.A.Makhmudova***

## DEMONSTRATION OF EXAMPLES OF FOLKLORE IN CHILDREN'S LITERATURE

***Keywords:*** *children's works, folklore, creative enrichment, joke, riddle, fairy tale*

The article considers the positive impact of folklore on children's literature in Azerbaijan. It was noted that well-known literary representatives using motifs of several genres of folk art created beautiful works. A. Bakikhanov, G. Zakir, M. A. Sabir, M. Mushfig, A. Shaig, M. Seidzade, M. Rzaguluzade, M. Dilbazi, T. Elchin, I. Tapdyg, Z. Khalil and others effectively using examples folklore written works covering the interests of children. These works, along with poetry in nature, also played a role in upbringing young people. In the written literature, it is possible to see all genres of folklore, such as lulling, analogy, button accordions, fairy tales, legends, stories, jokes, epics, riddles, puzzles, proverbs, etc. colorful works that were different from each other by their originality were created. It is also noted that the effective use of folklore examples has played an indispensable role in the development of written literature.

Bu bir həqiqətdir ki, yazılı ədəbiyyat şifahi xalq ədəbiyyatı motivlərindən qaynaqlanmış, öz mövzusunu daha da zənginləşdirmişdir. Azərbaycan uşaq ədəbiyyatı nümunələrinə nəzər saldıqda folklor motivlərinin müsbət təsirinin şahidi oluruq. A.Bakıxanov, Q.Zakir, M.Ə.Sabir, M.Müşfiq, A.Şaiq, M.Seyidzadə, M.Rzaquluzadə, M.Dilbazi, T.Elçin, İ.Tapdıq, Z.Xəlil və başqaları şifahi xalq ədəbiyyatı nümunələrindən səmərəli şəkildə faydalanaraq uşaqların maraq dairəsinə uyğun əsərlər yazmışlar. Bu əsərlər üslubu, dili, qəhrəman seçimi və süjet xətti ilə uşaqların nəzər-diqqətini özünə cəlb edir, onlarda həmin əsərlərə qarşı böyük maraq oyadır, həmçinin gənc nəslin təlim-tərbiyəsində, estetik zövqünün formalaşmasında böyük rol oynayır. Tanınmış ədəbiyyatşünas-alim Cəfər Xəndan bu haqda deyir: “Folklor elə bir xəzinədir ki, ondan istifadə etmədən, yeni, zəngin söz xəzinəsi yaratmaq mümkün deyildir. Saysız-hesabsız əsrlərin sınağından çıxıb gələn folklor nümunələri öz ideya-bədii dəyərilə sənətin tacı mənziləsinə yüksəlir, xalqın özü kimi əbədi yaşayır” [4. s.387]

Folklor inciləri bir çox ədəbiyyatşünas alimlər tərəfindən toplanaraq dərc olunmuşdur. Bu sahənin ilk tədqiqatçıları H.Araslı, M.H.Təhmasib, Ə.Qarabağlı, M.Seyidov, X.Koroğlu, Ə.Axundov, V.Vəliyev, M.Həkimov, P.Əfəndiyev, A.Nəbiyev və başqaları olmuşlar.

Uşaq ədəbiyyatı dərsliklərinin müəllifləri yeri gəldikcə folklorun uşaq yazarlarının yaradıcılığına müsbət təsirini vurğulamışlar. Q.Namazov, X.Məmmədov, Z.Xəlil, F.Əsgərli, B.Həsənli, R.Yusifoğlu və digərlərinin

yazdıqları dərsliklərdə bu fikirlərə rast gəlmək mümkündür.

Yazılı ədəbiyyatda folklorun, demək olar ki, bütün janrlarına – layla, oxşama, bayatı, nağıl, əfsanə, rəvayət, lətifə, dastan, tapmaca, yanıltmac, atalar sözü, məsəllərə və b. müraciət edilmiş, bir-birindən gözəl, rəngarəng əsərlər yaradılmışdır. Bu əsərlərə misal olaraq A.Bakıxanovun "Avamın nöqsan axtarması", "Hind əfsanəsi", Q.Zakirin "Sədaqətli dostlar haqqında", "Dəvə və Eşşək", S.Ə.Şirvaninin "Aslan və iki öküz", "Bağdad xəlifəsi və Bəhlul", M.Ə.Sabirin "Molla Nəsrəddin və oğru", "Molla Nəsrəddinin yorğanı", "Yalançı çoban", A.Şaiqin "Qoçpolad", "Gözəl bahar", "Zəhmət və Zinət", "Tıq-tıq xanım", "Tülkü həccə gedir", M.Seyidzadənin "Gün çıx", "Maral", "Nərgiz", "Cırtdan", M.Müşfiqin "Şəngül, Şüngül, Məngül", "Kəndli və ilan", M.Dilbazinin "Tapın görək hansı quşam?", "Qurd və uşaqlar", "Qaranquş və qara ilan", "Göyçək Fatma", M.Rzaquluzadənin "Naxışlar", "El gücü", "Dəli ozan", "Ana ürəyi, dağ çıçəyi", T.Elçinin "Getdin, gördün", "Üç qardaş, bir bacı", İ.Tapdıqın "Bir evim var", "Dörd yoldaş", Z.Xəlilin "Cırtdanla Azmanın təzə macəraları" və s. uşaq ədəbiyyatı nümunələrini göstərmək olar. Bu əsərlərin hər birində folklora xas olan səlislik, axıcılıq, şirinlik kimi xüsusiyyətlər özünü büruzə verir.

Şifahi xalq ədəbiyyatının yumoristik məzmuna malik olan lətifə janrı yazılı ədəbiyyatda da geniş şəkildə vüsət tapmışdır. Lətifələrdəki dövrün eybəcərliklərini, ictimai həyatdakı yaramazlıqları göstərmək xüsusiyyəti yazılı ədəbiyyat nümayəndələrinin də əlində güclü vasitəyə çevrilmişdir. Azərbaycan yazılı ədəbiyyat nümunələrində, xüsusən, bu janrın Molla Nəsrəddin, Bəhlul Danəndə kimi qəhrəmanlarının iştirak etdiyi lətifə motivlərinə geniş şəkildə müraciət olunmuşdur.

Folklorun lətifə janrının motivlərindən bəhrələnən A.Bakıxanov "Avamın nöqsan axtarması" mənzum hekayəsini Molla Nəsrəddin lətifələrinin məzmunu əsasında qələmə alaraq nəzmə çəkmişdir. "Camaatın ağzını bağlamaq olmaz" adlı həmin lətifəyə diqqət yetirək:

"Bir gün Molla Nəsrəddin oğlunu eşşəyə mindirib, özü də onların yanınca piyada başqa bir kəndə gedirmiş. Yolda onların qabağına bir dəstə adam çıxır. Bu adamlar Mollaya baxıb deyirlər:

– Bura baxın! Balaca uşaq minib eşşəyə, qoca kişi piyada gedir. Bunu eşidən Molla oğlunu eşşəkdən düşürür, özü minir. Elə bir qədər getməmiş, yenə bir dəstə adama rast gəlirlər. Onlardan biri Molla ilə oğluna baxıb deyir:

– Yekə kişi minib eşşəyə, balaca uşaq bu uzaq yolu piyada gedir. Molla bunu eşidib oğlunu alır tərkinə, yoluna davam edir. Elə təzəcə yola düşmüşdülər ki, yenə bir dəstə adam onların qabağına çıxır. Adamlardan biri deyir:

– Belə də insafsızlıq olar... ata-oğul miniblər eşşəyə, yazıq heyvan yayın bu istisində nəfəs ala bilmir.

Molla bunu eşidən kimi eşşəkdən düşür, oğlunu da düşürür, heyvanı boş-boşuna qabaqlarına qatıb yola düzəlirlər. Bir azdan sonra yenə də bunların qabağına bir neçə nəfər çıxır. Adamlardan biri gülə-gülə deyir:

– Mən ölüm, bunlara baxın! Bu yekəlikdə eşşək boş-boşuna gedir, özləri isə piyada, toz-torpaq içində ayaq döyürlər.

Axırda təngə gəlmiş Molla eşşəyi öz dalına alıb deyir:

– Deyəsən mən belə eləməsəm, bu camaatın ağzını bağlaya bilməyəcəyəm” [9].

A.Bakıxanov “Avamın nöqsan axtarması” mənzum hekayəsində bu lətifəyə müraciət edərək əsərin daha da oxunaqlığına nail olmuşdur. Böyük sənətkar cəmiyyətdəki bu eybəcərliyə poetik çalar qataraq bu tip insanları tənqid atəşinə tutmuşdur.

Qoca nə eylədisə lağ etdilər hey ona,
Axırda təngə gəlib söylədi öz oğluna:
«Bu eşşək əcəb bizi qalmaqala salıbdır,
Töhmətdən qurtarmağa bircə çarə qalıbdır.
Eşşəyin qol-qıçını möhkəmcə bağlayaraq,
Mindirib dalımıza gülə-gülə aparaq.
Gəl mənfəət güdmədən edək bunu imtahan,
Xalqın acı dilindən qurtaraydıq bəlkə can.
Ey Qüdsi, sən ibrət al, bu kişidən ayıq ol,
Xalqın tənələrindən qurtarmaqçın sayıq ol.
Onlar, nə etsən, yenə tapacaqlar bəhanə,
Edəcəklər səni bil oxlarına nişanə.
Qulaq assan tənəyə, ya da yersiz mədhə sən,
Elə bil ki, dalına bir eşşək mindirmisən [2. s.233].

A.Bakıxanov bu tip insanlara çatdırmaq istəmişdir ki, başqalarının dediyi ilə oturub-durmaq, kənardan edilən lüzumsuz, əhəmiyyətsiz müdaxilələrə önəm vermək öz mövqeyinin olmamasından irəli gəlir.

Eyni lətifəyə A.Şaiq də müraciət edərək “Eşşək üstündə səyahət” adlı mənzumə qələmə almışdır.

Baxın iki axmağa,
Minib yazıq ulağa,
Hava isti, yük ağır,
Bax, heyvandan tər yağır.

Sonda ibrətamiz nəticəyə gələn ədib belə deyir:

“Diqqət verməyək buna,
Hər deyilən düz olmaz,
Yol sözsüz-sovsuz olmaz” [1. s.106].

Göründüyü kimi, A.Şaiq də öz növbəsində bu tip insanları duyuq salmaq istəmiş, onları öz sözünün ağası olmağa dəvət etmişdir.

Həm A.Bakıxanov, həm də A.Şaiq lətifəni nəzmə çəkərək buradakı ibrətamiz xüsusiyyətə malik olan bu fikri oxucuların diqqətinə çatdırmaq istəmişlər ki, insan bir işin təməlini qoyarkən başqalarının yox, öz ağıl və zəkası ilə hərəkət etməli, qəlbinin səsini dinləməli, heç kəsin diqtəsi olmadan məqsədi, amalı uğrunda çalışmalı, arzusuna çatmağa can atmalıdır.

Lətifə janrının qəhrəmanlarından biri də Bəhlul Danəndədir. Bəzi mənbələrdə VIII əsrdə, bəzilərində IX əsrdə Bağdadda yaşadığı, tarixi şəxsiyyət Harun ər-Rəşidin qardaşı olub, siyasət və səltənət taxtından üz döndərdiyi, özünü dəliliyə vurub, incə sözləri ilə xalq arasında şöhrət qazandığı rəvayət olunur. Ərəb folkloru surəti olan Bəhlul Danəndə, dünya folklorundakı “ağıllı axmaqlar”ın şərq prototipidir. Bəhlul Danəndə bir çox lətifə, didaktik şeir və hekayənin hökmdar, ruhani və varlılara qarşı çıxan hazırcavab, tədbirli və müdrik qəhrəmanıdır. Azərbaycan şifahi xalq ədəbiyyatında da Bəhlul Danəndənin adı ilə bağlı lətifələr var [7].

Yazılı ədəbiyyatda da bu obraza müraciət olunmuşdur. S.Ə.Şirvani “Bağdad xəlifəsi və Bəhlul” mənzum hekayəsinin mövzusunu Bəhlul Danəndə lətifələrindən götürmüşdür. “Hələ düzəlməyib” adlı lətifəyə diqqət yetirək:

“Bir gün Bəhlul Danəndə qardaşı xəlifə ilə gedirdi. Gördülər ki, göydən bir əl uzandı. Bəhlul onu görən kimi barmağını qaldırdı, əl o saat yox oldu. Xəlifə bu işə təəccüb eləyib Bəhluldan soruşdu: – Qardaş, bu sirdən məni agah elə, görüm o əl nə idi? Nə üçün sən barmağını qaldırdın, o yox oldu? Bəhlul dedi:

– O, sahibi-zamanın əli idi. Dedi ki, dünya düzəlibsə gəlim, mən də barmağımı qaldırıb ona dedim ki, zəhmət çəkib gəlmə, hələ beşdən biri də düzəlməyib. O da çıxıb getdi” [10].

S.Əzim isə bu lətifəni məzmun və ideya cəhətdən daha da zənginləşdirərək onu nəzmə çəkmişdir. Əsərdə göstərilir ki, Harun öz dəstəsiylə keçərkən dəryadan bir əl çıxdığını görür və heyrətlənir. Onun adamları həmin əli top-tüfəngə tutur, amma əl yox olmur. Axırda Bəhlul Danəndəni çağırırlar. O, iki barmağını dəryaya tərəf tutur və əl qeybə çəkilir. Harun bunun sirrini ondan soruşanda Bəhlul deyir:

Bu ki, beş barmaq olmuş idi əyan,
O işarə edirdi, ey sərvər,

Nə qədər ki, çətin ola işlər,
Beş könül cəm olsa asandır.

Mən iki barmağımı göstərməklə ona bəyan etdim ki, bu cahanda iki könlün cəm olması müşküldür. O ki qaldı, beş könül bir araya gələ. Odur ki, "bildi mənanı batdı dəryaya" [6. s.146-147].

Göründüyü kimi, müəllif lətifədən bəhrələnsə də, ona fərqli mövqedən yanaşmış, dövrü üçün daha vacib olan bir problemə işıq salmağa çalışmışdır. Əsərdə ibrətamiz məsələyə toxunan ədib gənc nəslə belə bir fikri təlqin edir ki, əgər el bir olarsa, insanlar bir ideya ətrafında birləşərsə, heç bir qüvvə onları məğlub edə bilməz. Burada birliyə, bərabərliyə işarə olunur.

M.Ə.Sabir də bir neçə əsərində lətifə motivlərinə müraciət etmişdir. Onun "Yalançı çoban", "Molla Nəsrəddin və oğru", "Molla Nəsrəddinin yorğanı" mənzum hekayələri buna misal ola bilər.

Yazarlarımızın bir qismi tapmaca janrına da böyük maraq göstərmişdir. M.Dilbazi, T.Elçin, Z.Cabbarzadə və başqaları bu janrın maraqlı nümunələrini yaratmışlar. Onlar tapmacalara müraciət etməklə uşaqlarda düşünmə qabiliyyətini formalaşdırmağa səy göstərmişlər.

M.Dilbazi sərçənin əlamətlərini sadalayaraq deyir:

Nə üçtelli durna, nə də
Haçaquyruq qaranquşam.
Bütün qışı cikkildəyib
Yem axtaran hansı quşam? [5, s.159]

T.Elçin buğda, arı, qarışqa və s. obyektlərin əlamətlərini sadalamaqla uşaqların dünyagörüşünü artıran, onların təfəkkürünün, məntiqinin inkişafına xidmət edən şeirlər yazmışdır. Aşağıdakı nümunəyə diqqət yetirək:

Görənlər bilir;
Götürdüyüm yük
Həmişə olur
Özümdən böyük.
Torpaqda dərin
Yuvam var-sərin.
Özüm çalışqan,
Adım? [8]

Z.Cabbarzadə də bir neçə əşya, təbiət hadisələri və canlıların xüsusiyyətlərindən istifadə edərək ritmik, oynaq formalı tapmaca nümunələri yazmışdır. Bir nümunəyə diqqət yetirək:

Çöldə, düzdə qaçaram,
Hər qapını açaram.
İstəsəm ağacları
Kökündən qopararam.

İstədiyim tərəfə
Adam da apararam.
Adımı tapın görək
Söyləyin nəyəm? [3, s.134]

Göründüyü kimi, şairlərimiz bu şeirlərdə tapmacaya məxsus elementlərdən istifadə etmişlər ki, bu da kiçik yaşlı uşaqların əqli inkişafına xidmət edir. Bu tipli şeirlər uşaqlar tərəfindən müsbət qarşılanır, onlarda bədii əsərə maraq, öyrənməyə, həmin tapmacanın cavabını tapmağa həvəs hissi oyadır, eyni zamanda, bu onlarda şən əhval-ruhiyyənin yaranmasına, zehni qabiliyyətin inkişafına səbəb olur.

Uşaqlar üçün yazılmış əsərlərin əksəriyyətinin məzmununu təşkil edən folklor janrlarından biri də nağıllardır. Nağıllar uşaq yazıçılarının ən çox müraciət etdiyi janrlardandır. Bu janr, xüsusən, özünün mifik obrazları ilə kiçik yaşlı uşaqların marağına səbəb olur. Heyvanlar və quşlar haqqında olan nağıllar da ədiblərimiz tərəfindən qələmə alınmışdır ki, bu əsərlər də dilinin şirinliyi, axıcılığı ilə seçilir və uşaqlar tərəfindən sevilərək mütaliə edilir. M.Müşfiqin "Kəndli və ilan", "Şəngül, Şüngül, Məngül", A.Şaiqin "Tıq-tıq xanım", M.Dilbazinin "Qurd və uşaqlar", "Göyçək Fatmanın nağılı", T.Elçinin "Dovşan, tülkü, canavar", "Qara leylək" və digər əsərləri bu qəbildəndir.

Qeyd etmək lazımdır ki, folklor janrları uzun illərdən bəri şair və yazıçılarımızın yaradıcılıqlarına müsbət təsir göstərən ən gözəl nümunələrdir. Folklordan səmərəli istifadə yazılı ədəbiyyatın inkişafında əvəzsiz rol oynamışdır. İnamla deyə bilərik ki, müdriklərimizin yaratdıqları bu nümunələr yazıçılarımız üçün hələ bundan sonra da ilham mənbəyi olacaqdır.

## ƏDƏBİYYAT

1. *Şaiq A.* Seçilmiş əsərləri: 5 cilddə, III c., Bakı, 2005, 536 s.
2. *Bakıxanov A.Q.* Seçilmiş əsərləri. Bakı 2005, 488 s.
3. *Cabbarzadə Z.* Seçilmiş əsərləri. Bakı, 2005, 224 s.
4. *Xəndan C.* Seçilmiş əsərləri: 3 cilddə, III c., Bakı: Çaşıoğlu, 2010, 456 s.
5. *Dilbazi M.* Seçilmiş əsərləri: 3 cilddə, III c., Bakı, 1983, 254 s.
6. *Şirvani S.Ə.* Seçilmiş əsərləri: 3 cilddə, III c., Bakı, 2005, 288 s.
7. https://az.wikipedia.org/wiki/Bəhlul_Danəndə
8. http://portal.azertag.az/az/node/5022
9. https://forgenc.net/47667-molla-nesireddin-letifeleri.html
10. https://kayzen.az/blog/letife/discussed/page6/?period=all

***UOT 81`373;001.4***

***S.H.Nuriyeva***
*Azərbaycan Dövlət Dəniz Akademiyası*
*akademiya@adda.edu.az*

# İNGİLİS DİLİNİN ZƏNGİNLƏŞMƏ ÜSULLARI

***Açar sözlər:*** *leksikologiya, zənginləşmə, alınma sözlər, frazeoloji ifadələr, birləşmə, atalar sözləri*

Məqalədə ingilis dilinin zənginləşmə üsulları, metodları göstərilir. İngilis dilinin zənginləşməsi ədəbi dilin alınma sözləri, ifadələri, frazeoloji birləşmələri, terminləri, söz birləşmələri, atalar sözləri vasitəsi ilə baş verir. Bu proses müntəzəm davam edir, əks halda dilin inkişafı dayanmış olur. Bu da mümkün deyil, çünki dilin leksikası əsasında ingilis dilinin zənginləşməsi, lüğət fondunun inkişafı dövrün əsas tələbi və nəbzidir.

***С.Г.Нуриева***

## МЕТОДЫ ОБОГАЩЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

***Ключевые слова:*** *лексикология, обогащение, заимствованные слова фразеологические выражения, соединение, пословицы*

В статье описаны методы и приемы обогащения английского языка. Обогащение английского языка происходит путем заимствованных слов, выражений, фраз, терминов, словосочетаний и пословиц литературного языка. Этот процесс продолжается, в противном случае развитие языка остановилось бы. Это также невозможно, потому что обогащение английского языка на основе языковой лексики и развитие словарного запаса являются основными требованиями и импульсом времени.

***S.H.Nuriyeva***

## METHODS OF ENGLISH ENRICHMENT PROCESS

***Keywords:*** *lexicology, enrichment, loan words phraseological expressions, compound, proverbs*

The article describes the methods and techniques of enriching the English language. The enrichment of the English language occurs through borrowed words, expressions, phrases, terms, phrases and proverbs of the literary language. This process continues, otherwise the development of the language would stop. It is also impossible, because the enrichment of the English language based on language vocabulary and the development of vocabulary are the basic requirements and the impulse of time.

Dilin daxili imkanları hesabına zənginləşmə əsas ümumxalq dilindən, dialektlərdən alınaraq ədəbi dildə işlədilən sözdüzəldici şəkilçilər, söz birləşmələri vasitəsi ilə aparılan sözlər nəzərdə tutulur.

Başqa dillərdən alınan sözlər hesabına bu mənbə birinciyə nisbətən daha az əhəmiyyətlidir. Amma dilin zənginləşməsində bu böyük rola malikdir.

Azərbaycan dilində ərəb, fars dillərindən alınan sözlər, ingilis dilində latın, yunan və fransız dillərindən alınan sözlər hesabına ingilis dilinin lüğəti zənginləşir.

Rus dilindən və rus dili vasitəsi ilə başqa dillərdən alınan sözlər də bu zənginləşməyə kömək edir.

Başqa dillərdən alınan sözlərin əksəriyyətinə dilimizin sözdüzəldici şəkilçiləri əlavə edilərək yeni sözlər əmələ gəlir. Burada söz kökləri alınma olsa da, söz yaratma prosesi dilin öz daxilində və qanunları əsasında getdiyi üçün bu yolla əmələ gələn sözlər də birinci mənbə ilə əlaqədar hesab olunur. Bilirik ki, dil və təfəkkür bir-biri ilə dialekt əlaqədə inkişaf edir. Dil olmadan insan təfəkkürü mövcud olub inkişaf edə bilməz. Deməli, dil olmadan insan ağlı obyektiv varlığı əks etdirə bilmədiyi kimi, müvəffəqiyyətlər əldə edib, onu nəsildən-nəslə də verə bilməzdi. Dilin "təbiət materiyası" olmasa, o zaman təfəkkür də əmələ gələ bilməz; çünki dil təfəkkür prosesinin maddi əsasını təşkil edir. Deməli, dil materialı olmadan fikirlər əmələ gələ bilməz və o, realizə oluna bilməz. Lakin buna baxmayaraq, əşyanın mahiyyəti ilə onu ifadə edən söz arasında heç bir əlaqə yoxdur. Heç bir şeyin adı onun təbiəti ilə əsla əlaqədar deyildir. Doğrudan da bu bir həqiqətdir ki, əşyaların təzahür formaları ilə onların mahiyyəti, təbiəti bilavasitə uyğun gəlsəydi, onda heç bir elm də olmazdı.

Buradan aydın deyə bilərik ki, dil materialı olmadan insanlar abstrakt təfəkkürü qeyd və təsbit edə bilməzlər.

Məlum olduğu üzrə, hər hansı bir dildə olan sözlərin cəmi, əsas lüğət fondu da buraya daxil olmaq şərti ilə o dilin tərkibini təşkil edir. Lüğət tərkibi dilin vəziyyətini, mənzərəsini əks etdirir: lüğət tərkibi nə qədər zəngindirsə, çoxşaxəlidirsə, dil də bir o qədər zəngin və inkişaf etmiş olur [1, s.236]. Bu inkişaf prosesində dilin lüğət tərkibindən müəyyən miqdar köhnəlmiş söz çıxır, bir sıra söz və ifadələrin mənası dəyişir, lakin dilin lüğət tərkibinə bu sözlərdən qat-qat artıq söz və ifadələr daxil olur və əlbəttə ki, bu onu zənginləşdirir. İngilis dilinin zənginləşməsindən danışarkən bunu qeyd etmək mütləqdir, yəni ingilis dili:

1. İngilis dilinin daxili vəsaiti.
2. Başqa dillərdən alınan sözlər hesabına inkişaf edir.

Bunu digər dillərin lüğət tərkibinin zənginləşməsi mənbələrindən, üsullarından danışarkən də söyləmişdik. Dünya dillərində olduğu kimi, ingilis

dilinin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsulları çoxcəhətli və mürəkkəbdir.

Hər hansı dilin lüğət tərkibinin zənginləşməsi və ya inkişafının əsas mənbəyini o dilin daxılı vəsaiti təşkil edir [1].

Burada leksik yolla yaranan sözlər, morfoloji və oxşarlıq (kalka) yolu ilə yaranan sözlər nəzərə alınmalıdır. Unutmamalıyıq ki, ümumxalq danışıq dili və onun müxtəlif sözdüzəltmə vasitələri istər dilimizin tarixi inkişafı prosesində, istərsə də müasir dilimizdə və ya ingilis dilində yeni sözlərin formalaşmasında və yaranmasında əsas olmuşdur. Çünki ümumxalq danışıq dili ədəbi dilin, istərsə də xarici ədəbi dilin inkişafı üçün əsas və tükənməz bir mənbədir. Bunlarsız hər bir ədəbi dil məhv ola bilər. Dilin daxili inkişaf qanunları, xüsusən onun ən çox müstəqillik, sabitlik, xəlqilik tələb edən əsas lüğət fondu və sözdüzəltmə qaydaları da xalqımızın və dilimizin tarixi ilə əlaqədar yaranıb inkişaf etmişdir. Lüğət fondunun əsas elementləri, onun uzun əsrlər boyu yaşaması, sabitliyi və lüğət tərkibinin inkişafı üçün baza olmasıdır. Dilimizin əsas lüğət fondu müstəqil inkişaf yolu keçmiş, ədəbi dilimizin lüğət tərkibinin artıb zənginləşməsində əsas mənbə olmuşdur. Bu ingilis dilində də belə olmuş, amma bir qədər fərqlidir. Belə ki, yaranan sözlər həm kəmiyyət, həm də məzmun və şəkilçiləri etibarilə alınma sözlərdən üstündür. Əsl alınma sözlər ədəbi dilimizin tarixi inkişafında həlledici rola malik olmuşdur, eləcə də ingilis dili. Cəmiyyət inkişaf edir. Bu inkişaf özü ilə yeni məfhumlar da yaradır, bunları ifadə etmək üçün sözlər lazımdır. Əsas lüğət fondundan istifadə etməklə yeni hadisə, anlayış və dəyişmələri ifadə etmək üçün başlıca yol dildə tarixən mövcud olan sözdüzəltmə formalarına əsaslanıb dilin tarixi inkişaf qanunlarına uyğun surətdə yeni sözlər yaratmaqdır. Yeni sözlər ona görə yaşamış, yaşayır və yaşayacaqdır ki, onlar tarixən dilimizdə mövcud olan sözdüzəltmə formalarına uyğun surətdə yaradılmışdır.

Əsas lüğət fondundan istifadə edərək yeni hadisə, anlayış və dəyişmələri ifadə edərək bəzi dildə mövcud olan sözdüzəltmə üsulları deyil, sözlərin təsadüfi qondarma və süni quraşdırılması ilə yaradılan söz və istilahlara da rast gəlmək olur ki, dildə belə sözlərin ömrü ya az olur, ya da heç olmur.

İngilis dilində əsas lüğət fondu zəminində yaranan və lüğət tərkibinin zənginləşməsinə səbəb olan sözdüzəltmə qaydaları onun daxili inkişaf qanunları ilə bağlıdır. Belə sözdüzəltmə qaydaları müxtəlif istiqamətlərdə öyrənmək olar. Hər bir nitq hissəsinə daxil olan söz qruplarının konkret məzmunu, qrammatik forması, sintetik quruluşu və bunların hər biri ilə əlaqədar olan sözdüzəltmə qaydaları da vardır [2, s.63].

Biz yuxarıda qeyd etmişik ki, dünya dilləri bir-biri ilə əlaqədə inkişaf etmiş və etməkdədir. Bu əlavə nəticəsində dünya dilləri qarşılıqlı surətdə bir-birinin lüğət tərkibini zənginləşdirdiyi kimi, bu və ya başqa qrammatik formalar da bir dildən başqasına keçərkən ilk əvvəl, əlbəttə, ayrılıqda deyil, sözlərlə

birlikdə bütöv halda keçir. Sonralar isə keçdiyi dilin daxilində yavaş-yavaş o dilin şəkilçiləri sırasına keçə bilir. Dünya dillərinin sırasında belə faktlar çoxdur.

İngilis dilinə keçmiş latın və yunan sözlərindən yeri gəldikcə, yeni sözdüzəltmə və birləşmə şəklində tərkiblər yaranmışdır. İngilis dilinin lüğət tərkibinin morfoloji yolla zənginləşməsindən danışarkən latın və yunan dilinin sözdüzəldici şəkilçilərindən də danışmaq lazımdır. Bu da ingilis dilinin lüğət tərkibini zənginləşdirir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, məxsus olan sözdüzəldici şəkilçilər həm dilimizin öz sözlərinə, həm də alınma sözlərə qoşulub, onların mənasına da təsir edə bilir. Həmin şəkilçilər alınma sözlərə qoşularaq onlardan yeni mənalı sözlər əmələ gətirir. Halbuki, başqa dillərin şəkilçilərinin əksəriyyəti dilimizə qoşulmur və onlar yeni mənalı sözlər də düzəldə bilmir. Bu da dilin sabitliyi və xarici təsirlərə qarşı böyük müqavimət göstərməsi ilə izah olunur.

Yeni söz və istilahların yaradılmasında kalka üsulunun da müəyyən rolu vardır. Oxşarlıq yolu ilə əmələ gələn yeni sözlər dilimizin öz daxili imkanları əsasında yaradılır. Buna görə də burada dilin daxili inkişaf qanunları həlledici rol oynayır. Kalka yolu ilə yeni sözlərin yaradılmasında həm öz sözlərimizdən, həm də dilimizin sözdüzəldici şəkilçilərindən geniş istifadə olunur.

Kalka yolu ilə yaradılan yeni söz və istilahlar hərfən tərcümə vasitəsi ilə dilə gətirilir. Bu proses zamanı tərcümə olunan söz həmin dildə (tərcümə edilən dildə) eyni məna verən sözlərə, yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır. Burada tərcümə edilən sözün tam qarşılığı verilməlidir. Belə olmasa, onu kalka adlandırmaq olmaz. Bu kimi tərcümələr eyni zamanda sərbəst tərcümə adlanır.

Bu və ya başqa bir dildə oxşarlıq (kalka) yolu ilə yaradılan hər hansı bir sözün kök və şəkilçiləri həmin sözün alındığı dilin kök və şəkilçilərinə uyğun olmalıdır. Kalka üsulu ilə yaradılan yeni söz və istilahlar həm morfolojı, həm də leksik yolla əmələ gəlir.

a) Morfoloji yolla yaradılan yeni sözlər həm öz sözlərimiz, həm də qəbul edilmiş ərəb və fars mənşəli sözlərə ingilis dilində yunan və latın sözlərə dilimizin sözdüzəldici şəkilçilərinin əlavə edilməsi ilə əmələ gəlır.

b) Kalka üsulu ilə yaradılmış sözlərin bir qismi də leksik-qrammatik yolla əmələ gəlir. İstər morfoloji, istərsə də leksik-qrammatik yolla yaradılan yeni söz və istilahlar dilimizdə yeni anlayışları ifadə etməyə xidmət edir.

Leksik-qrammatik yolla yaradılan yeni sözlər iki və daha artıq sözün birləşməsi və ya yanaşması ilə əmələ gəlir. Bunların bir qismi bitişik və bir qismi də ayrı yazılır. Bu sözlər müstəqil məna ifadə edir. Dilin zənginləşməsinin bir səbəbi də var, bu başqa dillərdən alınan sözlərdir. Bu sözlər ingilis dilinin lüğət fonduna ya vasitəsiz, ya da vasitəli keçir.

Başqa dillərdən alınan sözlər, əlbəttə, keçdiyi dildə əsas həlledici deyil, yardımçı, köməkçi rola malikdir. Bunu qeyd etmək lazımdır ki, alınma sözlərin miqdarı bir dildə çox, bir dildə isə az ola bilər. Belə sözlər keçdiyi dilə həm müsbət, həm də mənfi təsir edə bilər [3, s.5-9].

Əgər alınma sözlər ehtiyac nəticəsində daxil olduğu dilin lüğət tərkibinin zənginləşməsinə kömək edirsə, bu müsbət təsirdir. Əksinə, alınma sözlər ehtiyac nəticəsində deyil, zorla keçirilərsə, bunların miqdarı həddindən artıqsa, dili ağırlaşdırıb onu xalq üçün anlaşılmaz bir vəziyyətə salırsa, bu mənfı təsirdir. Belə halda dil öz vəziyyətini itirər və ölüb gedə bilər.

Doğrudur, bu və ya digər elmi, texniki, ictimai, siyasi söz və istilahı hər hansı bir dilin öz materialından yaratmaq mümkündürsə, o zaman onu mütləq həmin dilin öz daxilindən almaq lazımdır.

Hamı tərəfindən qəbul edilmiş beynəlmiləl sözləri işlətmək lazımdır, çünki belə sözlər eyni zamanda dilin lüğət tərkibinin zənginləşməsinə kömək edir. Bir dildən başqa bir dilə sözlərin keçməsi prosesı dünyanın bütün dillərinə xas olan bir prosesdir. Fikrimizi sübut etmək üçün bəzi nümunələr kifayət edir. Məsələn, rus dili. Bu dilə, onun lüğət tərkibinə türk, yunan, latın, fransız, holland, alman, ingilis və s. dillərdən bir çox sözlər keçmişdir.

Türk dilindən rus dilinə; məsələn; çulok, yupka, oçak, başmak, başlıq kabluk, karakul və s.

Yunan dilindən; məsələn: alfavit, apostrof, dialekt, ideya, istoriya, kafedra, leksikon və s.

Latın dilindən; məsələn: avtor, student, ekzamen, minist, diktatura və s.

Alman dilindən; məsələn: laqer, orden, soldat, oficer və s.

Fransız dilindən; məsələn: drap, palto, mebel, sup, kapitan və s.

Azərbaycan xalqının tarixi inkişafının müxtəlif dövrlərində ərəb, fars, eləcə də ingilis dilinin latın və yunan dillərindən alınma sözlər olduğunu müəyyənləşdirmək indi çox çətindir.

Tarixdən bizə məlumdur ki, torpağımızda 300 ildən artıq ərəblər, min ildən yuxarı farslar (ayrı-ayrı dövrlərdə) hökmranlıq etmiş və bunlardan hər biri dövlətimizin, xalqımızın mədəniyyətini və dilini korlamağa çalışmışdır. Ərəb feodalları öz dinlərini, əlifbalarını qılınc gücünə bizə qəbul etdirdikləri kimi, öz dillərini də dilimizə qarışdırırmışlar. Məhz buna görə də xalqımızın böyük mütəfəkkir filosofu M.Axundov yazmışdır:

“İran və Türkiyə ölkələrində yaşayan farsca və türkcə danışan islam xalqları yazıq xalqlardır. Çünki bizə qalib gələn dinlərini boynumuza bağlayan, dillərini dilimizə qatan ərəblər bizi məcbur etmişlər ki, öz ana dilimizdə yazılan əsərlərdəki mənanı anlamaq üçün ərəb dilinin qanun-qaydalarını da az-çox bilmiş olaq. Belə isə biz farsca yazılmış əsərlərin məzmununu anlamaq üçün üç dili bilməliyik. Lakin fransızlar, ingilislər və yunanlar təkcə öz ana dillərini bilməklə, bütün əsərləri oxuyub ifadə edə bilirlər” [4, s.176].

Əsrlər boyu ərəb və fars feodalları dilimizi korlamağa, pozub məhv etməyə çalışmalarına baxmayaraq xalqımız, dilimiz, dövlətimiz bu mübarizədə qalib gəlmişdir.

Lakin buna baxmayaraq Azərbaycan dili özünün qrammatik quruluşu və əsas lüğət fondunun sabitliyi nəticəsində öz varlığını, orijinallığını qoruyub saxlaya bilmişdir. Müasir dilimizdə işlədilən ərəb və fars mənşəli sözlər dilimizin tarixi inkişafının müxtəlif dövrlərində həm ədəbı dildə, həm də ümumxalq dilində işlədilərək gəlib bugünkü dövrə çıxmışdır.

Latın və yunan mənşəli sözlərin az bir hissəsi ümumxalq dilində deyil, yalnız ədəbi dilimizdə işlənməkdədir.

## ƏDƏBİYYAT

1. *Cahangirov M.P.* Azərbaycan milli ədəbi dilinin təşəkkülü: 2 clilddə, I c., Elm, 1988, 236 s.
2. *Cəfərov* M.Z. Dilimiz və terminologiyamız // Terminologiya məsələləri. Baki: Elm, 1984, s. 63
3. *Qasımov M.Ş.* Dərsliklərdə terminlər // Terminologiya məsələləri. Bakı: Elm, 1988, s.5-9
4. *Yadigar F.V.* Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı: Maarif, 1997, 176 s.
5. *Arnold I.V.* The English Word M.: Visşaya şkola, 1986, 295 p.

*UOT 378*

***V.T.Qurbanov, N.R.Ramizzadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*muasirdil-338@mail.ru*

# MƏSƏLƏYƏ MÜASİR BAXIŞ

***Açar sözlər:*** *müasirlik, tədqiqat, mövzu, yalançı elm, müddəalar, nəticələr*

Təhsil elmə, elm mədəniyyətə, mədəniyyət cəmiyyətə inteqrasiya etməlidir. “Təhsil millətin gələcəyidir” (H.Əliyev) ifadəsi bu mənada hikmətə çevrilmişdir. Təhsilin də, elmin də mədəniyyətə qovuşmağa can atması strateji xətdir. Ulu öndərin bu sözləri də ən dəyərli tərbiyə vasitəsi kimi diqqətdə saxlanmalıdır: “Mədəniyyəti yüksək olan xalq həmişə inkişaf edəcək, həmişə də irəli gedəcək”. Yuxarıda göstərilənlərə əməl etmək üçün bugünkü təhsilə də, elmə də, onların uğurlarına da, problemlərinə də müasirlik işığında baxmaq, obyektiv və subyektiv nöqsanları araşdırmaq lazımdır. Məqalədə bu kimi məsələlərdən danışılır.

***В.Т.Гурбанов, Н.Р.Рамиззаде***

## СОВРЕМЕННЫЙ ВЗГЛЯД НА ВОПРОС

***Ключевые слова:*** *современность, исследование, тема, лженаука, тезисы, результаты*

Образование должно интегрироваться в науку, наука в культуру, а культура в общество. Фраза «Образование – будущее нации» (Г.Алиев) в этом смысле стала мудростью. Это стратегическая линия, которую образование и наука стремятся интегрировать в культуру. «Нация с высокой культурой всегда будет развиваться, всегда будет двигаться вперед» – слова великого лидера должны быть в центре внимания как самое ценное средство воспитания. Чтобы соответствовать вышесказанному, необходимо взглянуть на сегодняшнее образование, науку, их успехи и проблемы в свете современности, исследовать объективные и субъективные недостатки. В статье повествуется о таких вопросах.

***V.T.Gurbanov, N.R.Ramizzadeh***

## A MODERN LOOKING TO THE QUESTION

***Keywords:*** *modernity, research, topic, pseudoscience, theses, results*

Education should integrate into science, science into culture, and culture into society. The phrase “Education is the future of the nation” (G.Aliyev) in this sense has become wisdom. This is a strategic line that education and science seek to integrate

into culture. "A nation with a high culture will always develop, will always move forward" – the words of a great leader should be in the spotlight as the most valuable means of upbringing. To comply with the above, it is necessary to look at today's education, science, their successes and problems in the light of modernity, to study the objective and subjective shortcomings. The article describes such issues.

Müasirlik işığı altında qoyulan mövzulara, həmin mövzularda müdafiəyə çıxarılan doktorant, magistrant dissertasiyalarına baxsaq, qəribə halların şahidi ola bilərik. Əvvəla, müasirlik işığı bu gün üçün aktual kriteri və ya prinsipdir. Bu prinsipə görə, seçilən tədqiqat mövzuları bu və ya digər dərəcədə elmin, mədəniyyətin, cəmiyyətin inkişafına kömək etməlidir.

Texniki, təbiət və humanitar-ictimai elmlər üzrə problemlərin həllinə dair tədqiqat mövzuları hazırlaya bilirikmi?

Müasirlik indiki vaxtda Avropadan əxz olunan və yaradılan fənn kurikulumlarından ibarətdir.

2008-ci ildən məktəblərimiz kurikulumun məzmun xətləri və standartları ilə işləyir. Bu kurikuluma interaktiv kurikulum deyilir. Dərsliklər, müəllim üçün metodik vəsaitlər də interaktiv təlim üçün hazırlanmışdır. Bu illər ərzində təlimin məzmunun şagirdlər tərəfindən necə mənimsənildiyi, müəllimlərin iş üsulu, təlim metodlarının optimal olub-olmaması ekspertlər, metodistlər və ya didaktlar tərəfindən müşahidə edilmiş, nəticələri ümumiləşdirilmişdir, eləcə də bu istiqamətdə elmi-praktik konfranslar keçirilmişdir. Deyə bilərsiniz ki, həm ölkədaxili və həm də beynəlxalq səviyyəli konfranslar az keçirilməmişdir. Elə isə niyə hər yerdə suallar verilir: "Sizin kurikuluma münasibətiniz necədir?" Sual çıxırsa, deməli, mənası var. Mənası da odur ki, bu sahədə müəyyən işlər görülməlidir.

Avropada kurikulum təhsil siyasəti uğurla gedir və təhsil də elmə, mədəniyyətə inteqrasiya olunur.

Gəlin baxaq: məktəb kurikulumla işləyir. Misal üçün, Azərbaycan dilindən təlimin məzmunu 4 məzmun xəttinə görə öyrədilir, ancaq seçim, qiymətləndirmə, dil qaydaları məzmun xəttinə görə testlə həyata keçirilir. Bu özü, obyektiv nöqsanlardan birincisidir.

İkincisi, dinləmə, anlama və danışma, oxu, yazı xəttini test üsulu qoyur bir kənara, seçim dil qaydası ilə keçirilir. Əgər oxu, yazı, danışıq yoxdursa, o necə Azərbaycan dili olur? Azərbaycan dili fənninin məqsədi şagirdləri bu dildə dinləməyə, anlamağa, danışmağa, oxumağa, yazmağa, yəni ünsiyyət üçün vacib olan şərtlərə yiyələnməyə hazırlamaqdır. Buna nə şübhə ola bilər? Hansı söz sinonimdir, hansı antonimdir, hansı omonimdir və omonimlər çoxmənalı sözlərdən nə ilə fərqlənir? və s. bunlar Azərbaycan dilçiliyinin öyrətdiyi sahədir. Bunlar nitq məsələləri deyil, dilçilik məsələləridir.

Avropa fəlsəfəsində dilçilikdən nitqə – mətn qurmağa getmirlər, əksinə, nitqdən normalara gedirlər. Bizdə isə uzun müddət abstrakt təfəkkürlə konkret nitqə cəhdlər etmişik, nəticəsi də olmayıb. İndi isə həmin ənənəni davam etdirməkdə israrlıyıq. 80 yaşlı dilçi deyir ki, məktəbin evini yıxmışıq. Axı necə? Dərsliklərdəki rabitəli mətnlər üzrə yazı, oxu, dil qaydaları əməliyyatları aparılır, mətnin məzmunu mənimsənilir və analoji mətn yaradılması həyati bacarıq hesab olunur. Bunun nəyi pisdir?

Şagirdlər dərslikdəki rabitəli mətnin məzmunu əsasında tədqiqatlar edirlər; bunlardan birincisi, mətnin məzmununun yığcam və ya geniş formada danışılmasıdırsa, bu, ifadədir. Əgər şagirdlər mətnin məzmununda qoyulan ideyaya uyğun münasibət bildirir və o münasibəti şifahi və ya yazılı formada həyata keçirirsə, bu, inşadır.

Mətnlər əsasında qurulan iş hər iki formada, həm şifahi və həm də yazılı yerinə yetirilirsə və nəticələr qiymətləndirilirsə, bu yol nitq – dil – nitq formulasına uyğun deyilmi?

Mətn üzərində imla, ifadə, inşa, məqsədli çalışmaların yerinə yetirilməsi savada aparan praktik yoldur. Azərbaycan dili dərslərində liderlərin vəzifələri qrupun fikrini öyrənib qiymətləndirməyə təqdim etməkdən ibarətdir. Bu proses təklər, cütlər, kiçik, böyük qrupların fəallığından ibarətdir. Belə rəngarəngliyi yalnız alqışlamaq lazımdır.

Opponentlərimiz dil didaktikasını dərk etməməklə axına qarşı çıxır, səhv fikir formalaşdırırlar. Üstəlik ənənəvi dərsliklər yazmaq istəyirlər. Dərslik müəllifliyi iddiasında olanlar dərsləri müşahidə edib fikir formalaşdırmaqdansa, konservativ düşüncələri ilə yeniliyə qarşı çıxmaqla təhsilin dişli çarxlarını sıradan çıxartmaq istəyir, əvvəlki dərslikləri idealizə edirlər.

Ljenauka deyilən bir yalançı mərəz də özünü göstərir. Bu sahənin "alimlər"inə yalançı elmi ideya strateqləri demək olar. Yeni elmi tədqiqatlar üçün mövzular müəyyənləşdirməyə mane olan da həmin "alimlər"dir. Onlar köhnə mövzuları, bu gün üçün heç bir aktuallıq kəsb etməyən, keçən əsrin 50-60-cı illərindən qalma mövzulardan köhnə prinsiplərlə də yazırlar. Nəticədə, Azərbaycanda təhsilin gah uğursuzluğundan, gah uğurundan danışırlar.

Metodik təfəkkürün necə olması elə binadan qaranlıq qalıb. Dil təlimi üçün qrammatikanı orta məktəbdə öyrənməni əsas hesab edənlər var.

Qrammatika təlimində şagirdlərə nitq mədəniyyəti normalarını aşılamağı əsas hesab edib dissertasiya mövzusu verirlər. Özləri dərk etmədiklərini yetirmək istədiklərinə ötürürlər. Bu, düzgün yol deyil. Qrammatika morfologiya və sintaksisdən, yəni dil məsələlərindən bəhs edir; nitqin yığcamlılığından, qiymətli söz seçməkdən, onu pardaxlamaqdan, səlis şəklə salmaqdan, ədəbi dilin normaları ilə oxumaqdan, danışmaqdan yox.

Bəs bu gün üçün ən aktual tədqiqat mövzuları hansılar ola bilər? İndi də bu suala cavab verməyə cəhd göstərək.

Azərbaycan dili orta məktəbdə dörd məzmun xətti üzrə öyrənilir. Bəs ali pedaqoji təhsildə bir məzmun xətt üzrə öyrədilirsə, bu, necə sistematik təhsil ola bilər? Bu, ekstensiv nəticələrə gətirib çıxarmazmı? Bəs Azərbaycan dilinin metodikası necə ola bilər ki, gələcək müəllimi dörd məzmun xətti üzrə hazırlasın, ancaq onun şagirdləri ali məktəbə bir məzmun xətti üzrə imtahanla qəbul olunsunlar?

Ali pedaqoji təhsildə tədris olunan Azərbaycan dili kurikulumu nə zaman yaradılacaq? Axı burada da təhsilin proqramı əvəzinə, təhsil kurikulumu, o cümlədən təhsilin məzmun standartları fəaliyyət göstərməlidir. Deməli, bu işdə də sistemli yanaşmaya ehtiyac duyulur.

Ali pedaqoji təhsil orta ümumi təhsildə qəbul olunmuş məzmunun necə çatdırılması əsasında fəaliyyət göstərir. Ona orta məktəb didaktikasına hesablanan fəaliyyət deyilir. Ali məktəbdə də Azərbaycan dili didaktikası olmalıdır. Bu barədə bir qədər ətraflı danışmaq lazımdır. Bunlar hansılardır:

- Şagirdin bilməli və bacarmalı olduğu
- Tələbənin bilməli və bacarmalı olduğu
- Orta məktəb müəlliminin bilməli və bacarmalı olduqları
- Ali məktəb müəlliminin bilməli və bacarmalı olduqları

Ali məktəb müəllimi üçün nümunəvi bir dərslik və ona da uyğun metodik vəsaitə ehtiyac duyulur**.** Odur ki, ali məktəb müəllimi öz işini bir qədər sistemsiz qurmalı olur. Orta məktəb müəllimi isə MMV-lər əsasında işləyir. Deməli, bu da bir sistemsizlikdir.

Bu qədər problemlər həllini gözləyə-gözləyə hazırda köhnə, vaxtı keçmiş məsələlərdən danışmaq elmə heç bir fayda vermir.

İndi də digər problematik məsələlərə toxunaq. Bunlar aşağıdakılardır:

1. Fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq dissertasiyalar qarşıya çıxırmı? Çıxır, lakin onların sayı bir o qədər də çox deyildir.
2. Dissertasiya yazmağa iddiaçılar hazırlaya bilirikmi?
3. Rəhbərlər magistrantları elmi tədqiqatlara hazırlaya bilirmi?

Yeri gəlmişkən, ən ciddi nöqsan magistrant hazırlığı ilə əlaqədardır. Məsələn:

Magistrantlara səriştəli, ixtisasını mükəmməl bilən müəllimlər dərs deməlidir.

Bu pillədə hansı fənlər tədris olunur? Bakalavr pilləsindəkilər təkrar olunmurmu?

Magistratura pilləsində nədən təhsil verilməlidir? Bakalavrda öyrənilən seçmə fəndən, ya tədqiqat aparmaqdan?

Magistratura təhsili birbaşa tədqiqatçı alim hazırlamalıdır. Dissertasiya yazmağı bacaran, dərslikləri, metodikaları, qabaqcıl təcrübəni ümumiləşdirən

dissertasiya. Bunların əhəmiyyətini dərk edirikmi? Bizi düşündürən bu kimi suallardır. Elə ona görə də dissertasiya mövzuları bəzən zamanla ayaqlaşmır.

Son bir ildə seminarlardan çətinliklə keçən fəlsəfə doktorluğu dissertasiyaları da var, doktorluq dissertasiyası da. Necə olur ki, iddiaçılar öz dissertasiyalarında seminar üzvlərinin suallarına cavab verə bilmirlər, könüllərindən isə akademiklik keçir. Nəsrəddin Tusi bu barədə vaxtilə demişdir:

“Çoxları dünyada çox şey etdilər.  
Kəşf etdim deyərək səs yüksəltdilər.  
Çətin bir işə rast gələn kimi  
Ona bir düyün də vurub getdilər”.

İndiki zamanda dərəcə almaq istək olub, alim kimi yetişmək yox. Odur ki, elmi təsnifatın mənasını bilməyən akademikliyə can atır. Yeri gəlmişkən, 2018-ci ildə seminarlarda müzakirə olunan dissertasiyaların, o cümlədən doktorluq dissertasiyalarının iddiaçılarının əksəriyyəti hansı mülahizələri müdafiəyə çıxardıqlarının fərqində olmamış, konkret nələri müdafiə etdiklərini söyləyə bilməmişlər.

Yalançı – ljenauka budur. İmmanuel Kanta görə, “Fastus – başqalarından öz ağlına, düşüncəsinə və yaxud da real xidmətlərinə görə deyil, yalnız xarici görkəminə görə üstünlük qazanmağa can atmaq mərəzidir” (1, s.56)

Seminar məhək daşıdır. Kim ki alim olduğunu orada sübut edə bilirsə, müdafiə zamanı da çətinlik çəkmir.

ADPU-da bu işə son 2-3 ildir ki, çox ciddi baxılır. Ancaq həmişə belə olmayıb, olmuş olsaydı, ljenauk namizədlər ikinci dəfə doktorluq müdafiə etmək eşqinə düşməzdi. Bəziləri də təbəssümlə deyirlər: Bilsəydim, bu işə baş qoşmazdım. Çünki tələbkarlıq çox güclüdür.

Elmin zirvəsi var, hər alim o zirvəyə çıxıb ideya generatoru ola bilməz. Bu, düzdür. Hər alim generator-moderator ola bilməz. Bəs alim lektor ola bilərmi? Əlbəttə, ola bilər; ancaq öz üzərində işləməklə, peşəsinin kapitanı olmağa can atması ilə.

Qeyd etməliyik ki, tələbələr içərisində gələcək alimlər görünür və bu bizi sevindirir. Onları seçmək elə bir çətinlik törətmir. Sadəcə bu işdə müəllimə seçim səlahiyyəti verilməlidir. Güclü yaddaşı, dərin müşahidəçilik qabiliyyəti, iti zehni və hərtərəfli təfəkkürü olan magistrantlarımızı təqdim etmək səlahiyyətimiz olmalıdır.

Əgər belə bir nüfuzla işləyə bilsək, əsl müəllimi alim kimi yetişdirmək mümkündür. Hər kəs öz səlahiyyəti daxilində sayıldıqca bu işləri yoluna qoymaq çətinlik yaratmaz. O zaman alim sevdasına istedadlılar düşər; hər kəs öz işini özü görər; mövzunu da özü seçər; nəyi müdafiə etdiyini də bilmiş olar.

Və ən nəhayət, elmi sferaya alim çıxar, əsl nəzəriyyəçi və praktik müəllim çıxar, ljenaukaya “yox” – deyilmiş olar.

Nəticələrimiz: 1) pedaqogika tarixindən hesabat səciyyəli materiallar toplamaqdansa, elmi kitabların təhlilini müdafiə mövzularına çevirmək lazımdır. Məsələn: akademik A.X.Mirzəcanzadənin “İxtisas kursuna giriş”, “Elmin humanitarlaşdırılması haqqında etüdlər”, professor Z.İ.Qaralovun “Tərbiyə” trilogiyasını, Vaqif Aslanovun səyyahların Azərbaycan haqqında əsərlərinin tərcümələrini, “Azərbaycan pedaqoji ensiklopediyası” (1; 2; 3; 4) və s. kimi mövzuları.

Bu cür əsərlərin öyrənilməsi əsl alim yetişdirməyin optimal yolu sayıla bilər. Çünki adları çəkilən kitablarda dünya elm nəzəriyyəsi, hüququ, qanunu, fəlsəfəsi, məzmunu, metodikası və s. vardır. Yeni elmi təhlillərin tətbiqi təhsilə yönəlməlidir; təhsil elmi nəzəriyyələri öyrətməli və millətin, xalqın mədəniyyətinə inteqrasiya etməlidir. Ümummilli liderimizin bu fikri necə də yerinə düşür: “Mədəniyyəti yüksək olan xalq həmişə inkişaf edəcək, həmişə də irəli gedəcək”. Bu fikir müasirlik işığında mayak olub uzaqdan da aydın görünür.

## ƏDƏBİYYAT

1. *Мирзеджанзаде А.Х.* Этюды о гумантаризации науки образования. Баку: Маариф, 1993
2. *Qaralov Z.İ.* Tərbiyə (prinsiplər, məzmun, metodika): 3 cilddə, III c., Bakı: Pedaqogika, 2003, 268 s.
3. *Aslan V.* Seçilmiş əsərləri: 4 cilddə, III c., Bakı, 2010, 551 s.
4. *Aslan V.* Seçilmiş əsərləri: 4 cilddə, IV c., Bakı, 2010, 539 s.

**PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 69-76**
**ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 69-76**
**TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 69-76**

***UOT 82-053.2***

***S.H.Rəsulova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*rasulova.s@mail.ru*

# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ TƏŞƏKKÜLÜNDƏ YENİ TİPLİ MƏKTƏB, MAARİFÇİ MÜHİT VƏ ANA DİLİ DƏRSLİKLƏRİNİN ROLU

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, uşaq ədəbiyyatı, məktəb, maarifçilik, ana dili, dərsliklər*

Azərbaycan uşaq ədəbiyyatı ədəbiyyatın müstəqil bir qolu kimi XIX əsrin II yarısında təşəkkül tapmışdır. Onun təşəkkül tapması müəyyən ədəbi-mədəni və pedaqoji amillərlə bağlıdır. Həmin amillər içərisində yeni tipli məktəblərin açılması, maarifçilik hərəkatı, ana dili dərsliklərinin yaranması öndə gəlir. Biz məqalədə göstərilən həmin məsələləri saf-çürük etməyə çalışmışıq. Bu istiqamətdə mütərəqqi fikirli Azərbaycan ziyalılarının gördükləri işləri də diqqət mərkəzində saxlamışıq.

***С.Г.Расулова***

# РОЛЬ ШКОЛЫ НОВОГО ТИПА, УЧЕБНОЙ СРЕДЫ И УЧЕБНИКОВ ПО РОДНОМУ ЯЗЫКУ В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ

***Ключевые слова:*** *Азербайджанская литература, детская литература, школа, просвещение, родной язык, учебники*

Азербайджанская детская литература была создана во второй половине XIX века как самостоятельная отрасль литературы. Его создание связано с определенными литературными, культурными и педагогическими факторами. Среди этих факторов на переднем ряду стоят открытие новых школ, движение просвещения и создание учебников по родному языку. Мы постарались отсортировать эти проблемы, изложенные в статье. Мы также сосредоточились на работе прогрессивных интеллектуалов в этом направлении.

***S.H.Rasulova***

## ROLE OF A NEW TYPE OF SCHOOL, EDUCATIONAL ENVIRONMENT AND MOTHER TONGUE TEXTBOOKS IN THE FORMATION OF AZERBAIJANI CHILDREN'S LITERATURE

***Keywords:*** *Azerbaijani literature, children's literature, school, enlightenment, mother tongue, textbooks*

Azerbaijan's children's literature was created in the second half of the 19th century, as an independent branch of literature. Its founding is related to certain literary, cultural and pedagogical factors. Among these factors are the opening of new schools, enlightenment movement, and the creation of mother tongue textbooks. We tried to sort out those issues outlined in the article. We have also focused on the work of progressive intellectuals in this direction.

Milli uşaq ədəbiyyatımızın təşəkkül tapdığı dövrə, yəni XIX əsrin 70-80-ci illərinə qədər Azərbaycan ədəbiyyatı ömrü min illə ölçülə bilən çoxəsrlik, zəngin və məhsuldar bir inkişaf yolu keçmiş, yüksək nailiyyətlər qazanmışdı. Halbuki həmin min ili aşan sürəkli bir zaman kəsimində milli dildə bilavasitə balalar üçün yazılı ədəbiyyatda bir dənə də dolğun bədii əsər yazılmamışdır. Sanki milli dildə yüksək səviyyəli söz inciləri yaradan qüdrətli istedad sahibləri balaca oxucuları büsbütün unutmuşdular. Beləliklə, milli arenada "kiçiklər üçün" söz sənəti nümunələri ərsəyə gətirmək təşəbbüsü əsrlərlə ləngimiş, unudulmuş, XIX əsrin 70-80-ci illərinin payına düşmüşdü. Bu ədəbi-tarixi ləngimənin, unutqanlığın səbəbi nədir və biz bunun səbəbini nədə və harada axtarmalıyıq?

Səbəb VII-VIII əsrlərdən başlayaraq ərəb, sonra isə fars dilinin ümumtürk, o cümlədən Azərbaycan mədəni-maarif, məktəb və təhsil mühitinə, pedaqoji həyatına daxil olub bütünlüklə onu öz təsiri altına almasında idi. İslam dini Azərbaycan ictimai-mədəni, elmi, pedaqoji gerçəkliyinə özü ilə bərabər ərəb dilini də gətirdi, XI-XII əsrlərdən etibarən fars dili də ədəbi-mədəni həyata, məktəb və maarif mühitinə sirayət etdi. Tədricən ərəb-fars assimilyatorlarının təsiri gücləndi. Xüsusilə elm adamları, şairlər, qələm sahibləri, cəmiyyətin seçilmişləri ("xəvvas"- S.R.), ziyalı zümrəsi və saray adamları həmin dillərdən istifadə etməyə başladılar. Xalqın bu seçilmiş elitası ilə onun dili və aşağı təbəqəsi (öz milli etnik doğmaları) arasında bir ögeyləşmə baş verdi. M.Ə.Rəsulzadə uzun əsrlər boyunca özünü göstərən həmin milli faciə və ögeyləşməni belə izah edir: "Azərbaycan xəlqi idarəcə gördüyü ağırlığı başqalarından deyil, öz cinsindən gördüyü üçün həqiqi məhkumiyyətini, mənəviyyatca başqa bir hərisin məhkumu olduğunu dərk etməyordu. O, get-gedə farslaşıyordu. Xəvvas təhsilini farsca görüyor, fars tərbiyəsi alıyor, fars kibi düşünüyor və kəndisinin, doğrudan-doğruya, iranlı olduğuna qane

oluyordu. Xəlqin həll və əqdini əlində bulunduran bu xəvvas kibi mənəviyyatına hakim olan üləma sinfi dəxi eyni ruhda, eyni tərbiyədə və eyni zehniyyətdə idi" (6, s.14).

M.Ə.Rəsulzadə N.Gəncəvi, X.Şirvani, Məhsəti və bu cür onlarla böyük istedad sahibi türklərin, hətta Sultan Süleyman Qanuni kimi qüdrətli türk hökmdarının "Sədi lisanı" qarşısında "əriyib" öz dilinə və keçmişinə "xor" baxdıqlarına təəssüf edirdi. Xalqın bu seçilmiş, yuxarı təbəqəsinin aşağı zümrə üzərində böyük təsir göstərdiyini, nəticədə etnik mənsubiyyətin bir cür, dili və yazısı başqa cür olan "tühaf bir millət" formalaşdığını acı-acı etiraf edirdi.

F.Köçərli də türk hökmdarlarının, ədib və şairlərinin fars-İran təsirinə qapıldıqlarından, bunun arxasınca onları təqlid edən məktəb və maarif mühitinin də fars tülünə büründüyünü, məktəblərdə fars dilində kitablardan dərs keçildiyini, kargüzarlıq işlərinin, rəsmi və qeyri-rəsmi məktublaşmaların fars dilində aparıldığını acı bir tarixi həqiqət kimi xatırladırdı (4, s.43-44). Müəllif onu da əlavə edirdi ki, məktəblərin fars təsirinə düşməsi o həddə gəlib çatmışdır ki, bütün məktəb kitabları, əsrlər boyu fars və ərəb dillərində olmuşdur.

Y.V.Çəmənzəminli uzun əsrlər boyunca Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni və pedaqoji gerçəkliyini sarmış bu bəlanı "əcəmilik möhürü" adlandırırdı. Məişətdən tutmuş mənəviyyata, adət-ənənəyə, dil və ədəbiyyata, təhsil və maarif işlərinə qədər hər yerdə "farslaşma"nın izlərinin, əlamətlərinin olduğunu söyləyirdi. Onun ədəbiyyatda və maarif-pedaqoji mühitdə daha ciddi fəsadlar yaratdığını, ana dilində yazı-pozu işlərini, kitabları, dərs və tədris vəsaitlərini məktəbə, təhsil arenasına yaxın buraxmadığını ürək ağrısı ilə xatırladırdı. Müəllif 1913-cü ildə (№494) "İqbal" qəzetində dərc olunan "Əcəmilik möhürü" məqaləsində yazırdı: "Tərbiyəmizə gəldikdə burada da haman təsirə rast gəlirik... Köhnə məktəbdə uşaqlar öz dilində oxuyub-yazmır, kitablar və yazılar fars dilində olur. Təbiidir ki, bu məktəblərdən çıxanlar özləri ilə həmişə bir farslıq daşıyırlar. Bunun üçün şairlərimiz fars ədiblərini təqlid edirlər" (2).

Həqiqətən də Azərbaycanda XIX yüzillikdə və XX əsrin əvvəllərində köhnə üsullu məktəblərdə (mollaxanalarda) tədris olunan kitablar, əsasən, ərəbcə Qurandan, həmçinin fars dilində yazılmış Ə.Firdovsi, Nizami, Sədi, Cəlaləddin Rumi, Ə.Cami, H.Şirazi və s. sənətkarların əsərlərindən ibarət idi. Bunlardan əlavə hamısı fars dilində olan aşağıdakı kitablar tədris edilirdi: "Tarixi-möcəm", "Tarixi-Nadir", "Camei-Abbas", "Təbiri-xab", "İnşayi-Mirzə Mehdi xan", "Əlifleyla", "Düzdi-qazi", "Gülsüm nənə", "Tərəssül", "Əmsali-loğman", "Sərbaz", "Əbvabil-cinan", "Töhfətül-məcalis", "Hilyətül-qülub", "Rüstəmnamə" və s.

Beləliklə, əsrlər boyunca Azərbaycan türkcəsi məktəbdən, tədris və maarif həyatından ayrı salınmış, sinif otaqlarına, məktəb kitablarına, tədris-metodiki vəsaitlərə yol tapa bilməmiş, bir sözlə, o, pedaqoji həyat və maarif

vasitələri üçün yad bir dilə çevrilmişdi. XIX əsrin ortalarına qədər bütün tarix boyunca Azərbaycan dilində nə bir dərs və tədris kitablarına, nə də ana dilində mövcud olan məktəbə, maarif müəssisəsinə rast gəlirik. Təəssüf ki, bu tarixi bir həqiqətdir. Belə bir acı həqiqət Azərbaycan ədəbi-mədəni mühitində uşaq ədəbiyyatının yaranma imkan və istəklərinin də önünə sədd çəkmiş, onun qarşısına bir "əcəmilik möhürü" vurmuşdu. Madam ki, bu dildə (ana dilində) nə məktəb, nə tədris, nə dərslik, nə də bir oxu kitabı mövcud deyildi, bunları meydana gətirməyə ehtiyac və zərurət də duyulmurdu, bu kitabları oxuyacaq məktəbli də yox idi (daha dəqiqi onun oxucusu da yox idi), onda bu kitablara daxil ediləcək əsərlər yazmağa da ehtiyac hiss olunmurdu. Belə əsərlər yazmaq sənətkarların maraq, istək və yaddaş dairəsinə stimul verəcək heç bir amillə bağlanmırdı.

Beləliklə, əsrlər boyunca ictimai-siyasi, ədəbi-mədəni gerçəklik, maarif və pedaqoji mühit, Azərbaycanda nəinki ana dilində təhsili, onunla paralel olaraq uşaq ədəbiyyatının yaranma imkan və şəraitini də yoxa çıxarmışdı. Belə bir tarixi reallıq yalnız XIX əsrin ortalarında meydana gəldi. Əlbəttə, bunun səbəblərini yığcam da olsa, izah etməyə ehtiyac vardır.

XIX əsrin əvvəllərində Azərbaycanın şimal hissəsi Rusiya imperiyası tərəfindən işğal edildi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Araz çayı sərhəd olmaqla Azərbaycan İran və Rusiya arasında iki hissəyə bölündü. Beləliklə, Şimali Azərbaycan Rus çarizminin bir müstəmləkə əyalətinə çevrildi. Çarizm siyasətçiləri müstəmləkə əyalətində öz məqsəd və siyasətinə müvafiq siyasi, iqtisadi, inzibati, mədəni, pedaqoji və maarif islahatlarına başladı. Maarif-pedaqoji islahatların bünövrəsi mərkəzi hökumətin 2 avqust 1829-cu ildə təsdiq etdiyi Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi ilə qoyuldu. Çox keçmədən Şuşada (1830), Nuxada (Şəkidə, 1831), Bakıda (1833), Gəncədə (1833), Naxçıvanda (1837), Şamaxıda (1837) rus dilində qəza məktəbləri açıldı (3, 74-75). Əsr boyunca nizamnamə bir neçə dəfə (1835, 1848, 1853, 1860, 1867 və s.) yeniləndi. Təhsil ocaqlarının sayı tədricən artdı və əsrin ikinci yarısında geniş bir şəbəkə halını aldı. Maarif müəssisələrinin növü və tipi müxtəlif idi: qəza məktəbləri, şəhər məktəbləri, progimnaziyalar, gimnaziyalar, sənət məktəbləri və s. Bunlar dövlət məktəbləri idi və maliyyə xərcləri də dövlət tərəfindən ödənilirdi.

XIX yüzilliyin 40-cı illərindən etibarən Azərbaycanda xüsusi şəxslər tərəfindən açılmış ana dili məktəbləri də fəaliyyətə başladı. Bunlardan Mirzə İsmayıl Qasirin Lənkəranda (1848), Seyid Əzim Şirvaninin Şamaxıda (1874), Məhəmməd Tağı Sidqinin Ordubadda (1892) və Naxçıvanda (1894), Mir Möhsün Nəvvabın Şuşada (90-cı illər) açdıqları ibtidai ana dili məktəblərini buna misal göstərmək olar.

1876-cı ildə Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) fəaliyyətə başladı, 1879-cu ildə həmin seminariyanın

tərkibində müsəlman (Azərbaycan) şöbəsi yaradıldı. Çox keçmədən həmin şöbənin nəzdində ibtidai məktəb də yaradıldı və Azərbaycanda yeni tipli məktəb və maarif hərəkatının fədakar mücahidlərindən olan Aleksey Osipoviç Çernyayevski həmin məktəbə müəllim təyin edildi.

80-ci illərdən etibarən Rusiya müsəlmanları arasında, o cümlədən Azərbaycanda "Üsuli-cədid" ("yeni üsullu") hərəkatı başladı. Bu, təhsil və təlimdə müasir, yəni Avropa və rus təlim sistemini və üsulunu əsas götürən yeni tipli məktəb və maarif hərəkatı idi. "Üsuli-cədid" hərəkatı Azərbaycan ictimai-mədəni və pedaqoji gerçəkliyində Avropa yönümlü, müasir məzmunlu maarif həyatının canlanmasında, təhsil işlərinin genişlənməsində və gurlaşmasında əvəzsiz rol oynadı.

Zaqafqaziyada yeganə ali məktəb olan (həmin tarixi dövrdə) Aleksandrovski Müəllimlər İnstitutunun ilk məzunları, cəfakeş maarif fədailəri Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov 1887-ci ildə Bakıda rus-müsəlman ("rus-tatar") məktəbi açdılar. Bu, ana dilində fəaliyyət göstərən ibtidai məktəb idi. Təhsil ocağı tezliklə xalq arasında və rəsmi dairələrdə böyük nüfuz qazandı. Sonrakı illərdə bu tipdə yeni məktəblər də təsis edildi. 1897-ci ildə belə məktəblərin sayı 17-yə çatmışdı.

XX əsrin əvvəllərində məktəb və maarif həyatı daha da gurlaşdı, təhsil ocaqlarının sayı artdı. 1914-cü ildə Azərbaycanda ümumilikdə 942 təhsil ocağı fəaliyyət göstərirdi ki, bunlardan 920-si ibtidai məktəb idi.

Beləliklə, XIX əsrin 30-cu illərindən etibarən Azərbaycanda fəaliyyətə başlayan və getdikcə şəbəkəsi genişlənən yeni tipli – Avropa tipli məktəblər ölkənin milli-mədəni, ədəbi, maarif-pedaqoji həyatına misilsiz yeniliklər, mütərəqqi hadisələr bəxş etdi. Şimali Azərbaycanın üzünü son əsrlərdə tənəzzülə, cəhalətə, hərtərəfli mənada ağır məhkumiyyətə və geriliyə düçar etmiş islam şərqindən ayırıb Avropa sivilizasiyasına və mədəniyyətinə döndərdi. Çarizmin müstəmləkəçilik niyyətlərindən asılı olmayaraq yeni yaranan ictimai-mədəni, iqtisadi, maarif və ədəbi atmosferin təsiri ilə milli məkanda geniş mənada vüsətli inkişafa start verildi. Bu inkişaf bütün sahələri – iqtisadiyyatı, təsərrüfatı, ictimai həyatı, ədəbiyyatı, pedaqoji gerçəkliyi və s. əhatə etdi. Milli şüurun dirçəlişi, milli özünüdərk prosesi baş verdi. Demokratik fikirli, milli düşüncəli, vətənini və xalqını sevən, onun gələcəyini, müstəqilliyini və hürriyyətini düşünən fədakar bir ziyalı dəstəsi yetişdi. Bu ziyalıların səyi ilə milli ideal və səadət uğrunda mübarizə ideyası önə keçdi. Azərbaycan xalqı bir millət kimi formalaşdı. Milli mətbuat, milli teatr pərvəriş tapdı.

Ədəbi proses yeni mütərəqqi bir istiqamətə səmt aldı. Orta əsrlərin artıq öz ömrünü başa vurmuş və müasir dövrün tələblərinə cavab verməyən doktrinasından ayrılıb daha əlverişli bir məcraya yönəldi. Maarifçi-realizm təşəkkül tapdı, bir sıra ədəbi janrlar (povest, roman, dram, komediya, faciə,

vodevil və s.) yarandı.

Ümumiyyətlə, XIX əsrin II yarısı və XX əsrin əvvəlləri Azərbaycan xalqının həyatında milli intibah dövrü kimi səciyyələnir. Bu dövr onun həyatında, tarixi taleyində müstəsna dərəcədə əhəmiyyətli bir epoxa kimi diqqəti cəlb edir. Əlbəttə, bütün bu hadisələrin gerçəkləşməsində yeni tipli məktəbin, yeni ruhlu təhsil və maarif ocaqlarının misilsiz rolu olmuşdur. Daha doğrusu, haqqında danışdığımız epoxada Azərbaycanda islahatların, mütərəqqi yeniliklərin başlanğıcında, stimulverici nöqtəsində məktəb dayanırdı. Y.Qarayev o zaman Azərbaycan ziyalılarının "milli tərəqqi" proqramını həyata keçirmək ideyasınının reallaşması üçün məhz məktəbdən başlamaq lazım gəldiyinin tarixi zərurət olduğunu ifadə edərək söyləyir: "Bunlardan ən böyüyü xalqı maarifləndirmək, "bəsirət və elm sahibi etmək" ideyası idi. Axundovun ardıcılları onu da doğru və vaxtında dərk edirlər ki, islahata lap başdan – dünyəvi və dini sxolastikanın yayıldığı və xalqı yoluxdurduğu əsas mərkəzdən – mədrəsə və mollaxanadan başlamaq lazımdır" (5, s.120).

Azərbaycan milli intibahının "sübh çağında" (F.Köçərli), yəni XIX əsrin son rübündə baş verən əlamətdar ədəbi hadisələrdən biri də milli uşaq ədəbiyyatının yaranması idi. Bu mühüm yeniliyi də ortalığa çıxaran yeni tipli məktəbin ehtiyacları və diktəsi oldu. Belə ki, XIX yüzilliyin 30-cu illərində rəsmi dairələrin icazəsi və istəyi ilə təsis edilən dövlət məktəblərinin proqramına yerli xalqın dili – Azərbaycan dili də daxil edildi. Bu fənn həmin təhsil ocaqlarında tədris olunmağa başladı. Beləliklə, tarixdə ilk dəfə Azərbaycan dili məktəbə qədəm qoydu, pedaqoji səhnəyə ayaq basdı və onun sferasına daxil edildi. Təbii ki, fənnin tədrisi üçün kitablara (dərslik, dərs vəsaiti, oxu kitabları və s.) ehtiyac yarandı. Çünki bunlarsız, ilk növbədə isə dərslik olmadan fənnin tədrisi mümkün deyildi. Belə kitabların ərsəyə gəlməsindən ötrü şagirdlər üçün (başqa sözlə, uşaqlar üçün) əsərlər lazım idi. Belə əsərlər ana dilində mövcud deyildi. İndi ədəbi və pedaqoji həyatda onları yaratmaq zərurəti ortalığa çıxdı. Bu yük təbii ki, pedaqoqların, şair və ediblərin üzərinə düşürdü. Həmin zərurəti dərk edən ziyalılar, qələm sahibləri işə girişməli, bu sahədəki boşluğu doldurmalı oldular. Əsrin 70-ci illərindən ana dilində ibtidai məktəblərin açılması ilə deyilən zərurət daha da aktuallaşdı və yeni təşəbbüslər tələb etdi.

Ona da əlavə edək ki, yeni tipli məktəblərdə Azərbaycan dilinin (tatar dilinin) tədrisinə başlanması hələ o demək deyildi ki, həmin hadisənin ertəsi günü milli uşaq ədəbiyyatı nümunələri yarandı. Əlbəttə, yox. Əslində bunu dərhal yerinə yetirmək də mümkün deyildi. Elə buna görə də həmin hadisənin gerçəkləşməsi naminə münbit torpağa düşən dənin "cücərib boy atmasını" gözləmək lazım gəldi. Bir neçə onillik sonra, XIX əsrin 70-ci illərində deyilən əlamətdar hadisə reallığa çevrildi. Maarifçi mühit belə bir şərəfli missiyanı, nəhayət ki, gerçəkləşdirməyə imkan verdi.

Ana dili fənninin tədrisi üçün ilk dəfə dərslik yaratmaq təşəbbüsü XIX əsrin 30-cu illərindən başlayır. 1839-cu ildə Nikolay Dementyevin rus məktəblərində "Tatar dili"nin (Azərbaycan dilinin) tədrisi üçün iki ibtidai məktəb dərsliyi meydana gəlir:

1. "Yazı nümunələri" (Əlifba);
2. İlk oxu üçün "Təmsillər və povestlər".

Birinci kitab əlifba dərsliyi idi və burada bədii mətnlər verilməmişdi. İkinci kitab isə oxu üçün nəzərdə tutulduğundan buraya 9 təmsil və 11 hekayə daxil edilmişdir. Məsələn: "Tülkü və qurd", "Dəvə və tikan", "Bülbül və qarışqa", "Sövdagər və höcətçi", "Zərgər və qoşun adamı", "Üç rəiyyət" və s. Bu təmsil və hekayələr ayrı-ayrı mənbələrdən götürülmüş kiçik bədii nümunələr idi. Orijinal səciyyəyə malik olmadığından biz uşaq ədəbiyyatımızın tarixini həmin əsərlərdən başlaya bilmirik. Lakin diqqətəlayiq cəhət orasındadır ki, bu, tarixdə ana dilinin tədrisi üçün meydana gələn ilk dərslik idi. N.Dementyev dərsliyin müqəddimə hissəsində yazırdı: "Mənim məqsədim Zaqafqaziya məktəblərində bu dilin (Azərbaycan dilinin – S.R.) tədrisində bu vaxta qədər olmayan rəhbərlik yaratmaqdır" (1, s.36).

Ana dili dərsliyi yaratmaq sahəsində növbəti təşəbbüs Tiflis gimnaziyasının Azərbaycan dili müəllimləri M.Ş.Vazehə və İ.İ.Qriqoryevə məxsusdur. "Kitabi-türki" («Татарская хрестоматия азербайджанского наречия») adlanan bu müntəxabatı müəlliflər 1850-1852-ci illər ərzində tərtib edib hazırladılar. Müntəxabat iki hissədən ibarət idi. Tiflisdə onu mətbəə çətinliklərinə görə çap etdirmək mümkün olmadı. Onun birinci hissəsi 1855-ci (M.Ş.Vazehin ölümündən sonra), ikinci hissəsi isə 1857-ci ildə nəşr olundu (7, s.66-76).

"Kitabi-türki"yə daxil edilən əsərlərin bir qismini bədii mətnlər, digər hissəsini isə elmi-publisistik nümunələr təşkil edirdi. Bədii əsərlər janr etibarı ilə hikmət və nəsihətlərdən, məzhəkələrdən və təmsillərdən ibarət idi. Bunlar ərəb və fars dillərində olan mənbələrdən əxz edilib sadə şəkildə Azərbaycan dilinə tərcümə və ya iqtibas edilmişdi. Əksəriyyəti şərq xalqlarına aid qaynaqlardan (şifahi və yazılı ədəbiyyata aid mənbələrdən) götürülmüşdü. Bədii mətnlərin həcmi çox da böyük deyildi. Bunlar birtipli, yığcam, gəzəri süjetlər idi. Bəzi süjetlərə müxtəlif xalqlarda rast gəlmək olardı. Müntəxabata M.Füzulinin "Leyli və Məcnun" poemasından da bəzi parçalar salınmışdı.

Dörd bölmədən ibarət dərsliyin birinci bölməsini "Hikmət və nəsihətlər" təşkil edirdi. İkinci bölmə "Məzhəkələr" adlanırdı. Burada 24 lətifə yer almışdı. Üçüncü bölməni təmsillər təşkil edirdi və bunlar "Əxlaqi hekayələr" başlığı altında toplanmışdı. Təmsillər əxlaqi-didaktik mövzuda idi. Dördüncü bölmə İran və Qafqaz tarixinə dair elmi-kütləvi materiallardan ibarət idi. Həmin məlumatlar müəllifi bəlli olmayan "Dərbəndnamə"dən, Mirxondun tarix kitabından və "Qarabağnamə"lərdən götürülmüşdü. Bütün mətnlər sadə və

aydın bir dilə malik idi.

Təəssüf ki, biz milli uşaq ədəbiyyatımızın təşəkkül tarixini bu nümunələrdən başlaya bilmirik. Çünki N.Dementyevin dərsliyində olduğu kimi, burada da heç bir orijinal süjet və məzmuna malik bədii və elmi-publisistik nümunə yox idi. Bütün mətnlər müxtəlif mənbələrdən alınmışdı və onları orijinal uşaq əsərləri kimi qəbul etmək mümkün deyildi. Lakin bu dərsliklər milli uşaq ədəbiyyatının yaranacağının ilk müjdəçiləri idi.

Biz bu məziyyəti XIX əsrin ortalarında meydana çıxmış Azərbaycan dilinin qrammatikasına aid mötəbər elmi kitab və dərsliklərdə də görürük. Belə əsərlərdən P.İ.Romanovun "Tatar əlifbası" ("Татарский буквар", 1856), M.N.Şirvaninin "Kitabül-nəsayeh" (1857), M.P.Budaqovun "Türk-tatar-Azərbaycan dili üçün praktik rəhbərlik" ("Практическое руководство турецко-татарско-азербайджанского наречия", 1857), M.Ə.Vəzirovun "Tatar-azərbaycan dili dərsliyi" ("Учебник татарско-азербайджанского наречия", 1866), L.M.Lazarevin "Türk dilinin müqayisəli müntəxabatı" və s. göstərmək olar. Bu kitablar sırf elmi qrammatika dərslikləri olsa da, burada bəzi bədii mətnlər də verilirdi. Lakin həmin mətnlər də orijinal deyildi, hansı mənbədənsə əxz edilmişdi. S.Ə.Şirvaninin "Rəbiül-ətfal" və "Tacül-kütüb" dərsliklərində isə bir sıra orijinal bədii nümunələr vardır. Məhz həmin əsərlər Azərbaycan uşaq ədəbiyyatının ilk orijinal nümunələri hesab oluna bilər. Biz uşaq ədəbiyyatımızın tarixini də həmin nümunələrdən başlaya bilərik.

## ƏDƏBİYYAT


1. Azərbaycan pedaqoji antologiyası: 3 cilddə, II c., (XIX əsr - XX əsrin əvvəlləri – tərtib edəni: Əhmədov H.). Bakı: Maarif, 2011
2. *Çəmənzəminli Y.V.* Əcəmilik möhürü. "İqbal" qəz., Bakı, 1913, № 494
3. *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014
4. *Köçərli F.* Seçilmiş əsərləri. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1963, 341 s.
5. *Qarayev Y.* Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 258 s.
6. *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
7. *Ениколопов И.К.* Поэт Мирза Шафи. Баку: Азернешр, 1938, 109 с.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 77-85
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 77-85
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 77-85

*UOT 811.512.162*

***A.Y.Salifova***
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*
*a.salifova@mail.ru*

# AZƏRBAYCAN ƏDƏBİ-BƏDİİ DİLİ VƏ SƏMƏD VURĞUN

***Açar sözlər:*** *linqvistika, antroponim, semantika, antiteza, omonim, sinonim, antonim, orfoqrafiya*

Məqalədə əsas məqsəd Səməd Vurğunun dilimizin inkişafı istiqamətində xidmətlərinin, dil və dilçilik haqqında fikirlərinin tədqiq edilməsi və sistemləşdirilməsindən ibarətdir. Bu tədqiqat işində S.Vurğunun təqdim etdiyi yeniliklər və dilin zənginləşdirilməsinin tükənməz imkanlarının uğurla istifadə edilməsi araşdırılır. S.Vurğun ustad yazıçı kimi şöhrət qazanmış, hər bir sözün mənalı və məzmunlu işlədilməsinə çalışmışdır. Böyük şair yerində işlədilmiş hər bir sözü ən dəyərli yadigar adlandırmışdır. Buna görə də o, poetik yaradıcılıq nümunələrini təsirli, obrazlı və ifadəli nitqdə yazmış, hər sözünün ağızda, dildə gəzməsini istəmiş, öz arzusuna, istəyinə çata bilmişdir.

***А.Ю.Салифова***

## АЗЕРБАЙДЖАНСКИЙ ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЙ ЯЗЫК И САМЕД ВУРГУН

***Ключевые слова:*** *лингвистика, антропоним, семантика, антитеза, омоним, синоним, антоним, орфография*

Основная цель работы состоит в том, чтобы исследовать и систематизировать услуги Самеда Вургуна по развитию родного языка и его мысли о языке и лингвистике. В работе исследуются новшества, представленные С.Вургуном и успешное использование неисчерпаемых возможностей обогащения языка. Самад Вургун прославился как мастер-писатель, стараясь осмысленно использовать каждое слово. Каждое слово, произнесенное на месте великий поэт оценивал дорогим наследием. Поэтому поэтические творческие образцы он писал на трогательной, образной и выразительной речи, желая прославления каждого слова из уста в уст, добился своих желаний.

***A.Y.Saliphova***

## AZERBAIJANI LITERARY AND ARTISTIC LANGUAGE AND SAMAD VURGUN

***Keywords:*** *linguistics, antroponim, semantics, antithesis, homonym, synonym, antonyms, orthography*

The main goal of the work is to investigate and systematize the services of Samad Vurgun on the development of the native language and his thoughts on language and linguistics. The paper explores the innovations presented by S. Vurgun and the successful use of the inexhaustible possibilities of enriching the language. Samad Vurgun became famous as a master writer, trying to meaningfully use every word. Each word pronounced on the spot by a great poet was valued by an expensive heritage. Therefore, he wrote poetic creative patterns in touching, figurative and expressive speech, wishing to glorify each word from word of mouth, he achieved his desires.

Görkəmli şairimiz S.Vurğunun geniş elmi maraq dairəsi diqqəti cəlb edir. Onun fenomenal dilçilik biliyi olmuşdur. Ona görə də qüdrətli şairin həyat həqiqəti ilə güclü yaradıcılıq fantaziyasının bütövlüyündən yoğrulmuş yaradıcılıq nümunələrində bədii dilin imkanlarından geniş şəkildə istifadə edilmişdir. Səməd Vurğun bədii dil, onun məna zənginliyi, leksik-semantik incəlikləri ilə bağlı görüşləri, düşüncələri olduqca əhatəli və əhəmiyyətlidir. Bu məsələnin ayrıca tədqiqat mövzusu kimi araşdırılmasına zəruri ehtiyac duyulur. Səməd Vurğunun əsərlərinin dil və üslub xüsusiyyətləri, müxtəlif janrlarda qələmə aldığı sənət nümunələrini bəzəyən sözlərin məna zənginliyi, onlarda parlaq əksini tapmış böyük hikmət, dərin müdriklik insanı heyran edir.

S.Vurğunun filologiya sahəsində fəaliyyəti çox genişdır. O, qədim tarixi dəyərləri özündə yaşadan, qoruyub saxlayan, xalqımızın müxtəlif sahələrdə əldə edə bildiyi uğurları gələcək nəsillərə ötürən Azərbaycan dilinin məna dolğunluğunu, ifadə gözəlliyini həmişə təblig etmiş, bu əvəzsiz sərvətin inkişafı yolunda yorulmadan çalışmışdır.

O, zəngin söz xəzinəsi, xarici yad təsirlərə güclü müqavimət göstərən, şəffaflığı, nisbi sabitliyi ilə seçilən qrammatik quruluşu olan bu dilin xalqımızın böyük ideallar uğrunda apardığı məqsədyönlü mübarizədə böyük, həm də əvəzsiz rol oynadığını vurğulamış, qədim əfsanələrimizin, tərbiyəvi nağıllarımızın, böyük mənəvi dünyamızın, xalqın yüksək əməllərini, arzularını, danılmaz həyat həqiqətlərini dolğun, həm də çox parlaq şəkildə əks etdirən əsərlərin dilimizin qüdrətli bədii imkanları hesabına yarandığını göstərmişdir.

Səməd Vurğunun nitqində şifahi və yazılı ədəbiyyatımıza aid nümunələrin tacı səviyyəsində dayanan sözlər, ifadələr yetərincədir.

Səməd Vurğunun 1935-ci ildə qələmə aldığı “Azərbaycan” şeirinin dillər əzbəri olmasının mühüm bir səbəbi də bu şeirin qədim tarixli dilimizin leksik-semantik sisteminin parlaq və möhtəşəm bir göstəricisi olması, keçən yüzilliyin 30-cu illərində-müasir Azərbaycan ədəbi dilinin leksik normalarının qərarlaşdığı dövrdə meydana çıxmış bu yüksək bədii sənət nümunəsninin dilimizin leksik-semantik sistemini daha da zənginləşdirməsi, dolğunlaşdırmasıdır. “Azərbaycan” şeirinin lüğət tərkibi dilimizin poetik gücündən, möhtəşəmliyindən xəbər verir. Bu şeirin lüğət tərkibi Azərbaycan

dilinin şirinliyini, leksik normativliyini, sosial-semantik canlılığının təbiiliyini, axıcılığını göstərir.

S.Vurğunun yaradıcılığında obrazlılıq, bədiilik qədər elmilik də güclüdür. Onun dil haqqında söylədiyi fikirlər, elmi mülahizələr poetik səsləndiyi üçün tez yadda qalır. O, dili qiymətli xəzinə adlandırmış, bu ən yetkin ünsiyyət vasitəsini insanı ətraf aləmə hakim edən qüvvə saymışdır. Haqlı olaraq göstərmişdir ki, dildən kənarda insan idrakından, təfəkküründən söhbət gedə bilməz. Şair dili insanın daxili aləmini, mənəvi-əxlaqi keyfiyyətlərini, həyata baxışını, dünya ilə bağlı düşüncələrini əks etdirən güzgü adlandırmışdır.

S.Vurğun yazırdı ki, xalqın müdrikliyini, hikmətini, milli qürurunu üzə çıxaran, gerçəkləşdirən ən mühüm vasitə dildir. Şair dildə güclü, dərin məntiq, dolğun fəlsəfi məna görürdü. Elə buna görə də misraları hikmət dünyasından xəbər verir:

"Soyuq məzara da zinədir insan"(S.Vurğun)

Günəşi örtsə də qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var.

Oxucum! Belədir aqil babalar,
Bir dastan yaradır ikicə sözlə.

Qızılı udsa da qara torpaqlar,
Yenə qiymətini özündə saxlar.

Şairin xalqdan ilham alaraq yaratdığı belə misralarda sözün əhəmiyyəti, təsir gücü çox qabarıq və parlaq əks olunmuşdur. Buna görə də S.Vurğunun söz haqqında linqvistik fikirləri həyati xarakter daşıyır.

S.Vurğunun əsərlərinin əlyazmalarını gözdən keçirəndə aydın görünür ki, bu əsərlərin dili üzərində çox zəhmət çəkilmişdir. Onlarda yüzlərlə söz dəyişikliklərinə rast gəlirik. Belə nəticəyə gəlmək olur ki, şair dil vasitələrinə son dərəcə ciddi yanaşmağı məqsədəmüvafiq hesab etmişdir. S.Vurğunun bədii yaradıcılığı ilə elmi yaradıcılığı ayrılmazdır. Aşağıdakı misralarda dərin elmi düşüncələr öz əksini tapmışdır:

Hər kiçik sözün də öz dünyası var,
Yarımçıq olsa da mənasız olmaz.
Tonlardan ağırdır sözün nəfəsi,
Yalnız şeirin dili belə danışır.
Onun hikmətində Allah gücü var,
Əzəldən belədir sözün hünəri,
O, daşa dil verir, torpağa qanad,
Onunla ucalır xəyal şəhpəri,
Önündə diz çökür bütün kainat. (S.Vurğun)

Böyük və ölməz şairin dilə dair qiymətli nəzəri fikirlərini əməli işləri təsdiqləmişdir. O, ayrı-ayrı dil vahidlərinin mənasında və işlənmə tərzində imkan daxilində yenilik yaratmağa çalışmışdır.

Fərdi üslub yaratmaqdan ötrü ən çox dil üzərində "axtarmaq", "yaratmaq" prinsipinin əsas şərt olduğunu demişdir. S.Vurğun bədii əsərlərdə sözlərdən ehtiyatla istifadəyə xüsusi diqqət yetirmişdir:

Ancaq düşündürür məni hər zaman,
Yazılmış bir şeir, bir yeni dastan. (S.Vurğun)
Bəzən qoyulmayır hər söz yerinə,
Şeirimiz oxşayır biri-birinə.
Eyni xəritələr, eyni şəkillər,
Xəyala açmayır yeni bir səhər. (S.Vurğun)

Söz üzərində düşünməyə vərdiş etmiş istedadlı şairin əsərlərinin bədii dilin gözəl nümunələri olmasının səbəbi də budur. Onun dilində ahəngdarlıq, axıcılıq vardır. Böyük şair sənət adamları üçün ədəbi-bədii dili kamil bilməyi vacib saymışdır. Lazımsız təkrarları, yersiz sözçülüyü pisləmiş, az sözlə dərin mənalar ifadə etməyi sevmişdir. Şair ədəbi dilin tələblərinə cavab verən bədii əsərləri əsl sənət nümunəsi adlandırmışdır.

S.Vurğunun klassik ədəbiyyatda dil məsələləri barədə söylədikləri xüsusi yer tutur. S.Vurğun Azərbaycan ədəbiyyatı klassiklərinə dərin hörmətlə yanaşan, onların əsərlərini davam etdirən, klassiklərin dili və üslubu barədə mənalı fikirlər söyləyən sənətkar olmuşdur.

Şairin klassiklərimizlə bağlı yazdığı elmi məqalələri elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. S.Vurğun "Böyük Azərbaycan şairi" adlı məqaləsində dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığını təhlil etməklə yanaşı, dil barədə də düşüncələrini əks etdirmişdir. O, doğma dilini məhəbbətlə sevən Nizaminin Şirvanşah Axsitan tərəfindən incidildiyini, mənəvi sarsıntıya məruz qaldığını, milli hüququnun pozulduğunu göstərir. Belə ki, Axsitan Nizamini dərin məhəbbətlə sevdiyi, ürəkdən bağlandığı ana dilindən əl çəkməyə məcbur etmişdir. Şair belə məqalələri ilə klassik ədəbiyyatımızda milli dilimizin vəziyyəti barədə aydın, real məlumat verir. O dövrdə doğma dilimizə bəslənilən yad, düşmən münasibəti qamçılayır. S.Vurğun klassik Azərbaycan şairi Nizaminin vətənpərvərliyini doğma, milli dilinə olan sonsuz məhəbbətini, onun qələbəsi uğrunda çalışmasını, bu yolda əzab-əziyyətlərə mərdliklə sinə gərməsini inandırıcı göstərməklə yanlış təsəvvürləri ustalıqla baltalaya bilmişdir.

S.Vurğun klassik yazılı ədəbiyyatı dilə aid məsələləri öyrənmək üçün əhəmiyyətli mənbə adlandırmışdır. Şair klassiklərin dil ənənələrinə xüsusi əhəmiyyət vermiş, həmin ənənələri sənətkarlıq məktəbi kimi qiymətləndirmiş, klassiklərin yaradıcılığının formalaşmasında ana dilinin leksik və qrammatik materialının əsas rol oynadığını yazmışdır.

Şair klassik ədəbiyyatı möhtəşəm bir binaya, həmin ədəbiyyata məxsus dil vasitələrini isə bünövrəyə, divarlara, qapılara, pəncərələrə bənzətmişdir. S.Vurğun M.Füzuli kimi klassiklərin əsərlərinin lüğət fondunda və qrammatik quruluşunda özünü göstərən xəlqiliyi yüksək qiymətləndirilmişdir.

Görkəmli sənətkar bədii dil və ədəbi dil anlayışlarının eyniləşdirilməsi, qarışdırılması əleyhinə çıxmışdır. Ədəbi dilə aid xüsusiyyətlərin bədii dilə şamil edilməsini səhv hesab etmişdir. Yəni bədii dilin keyfiyyətcə ədəbi dildən fərqləndiyini göstərmişdir. O, ədəbi dildən fərqli olaraq bədii dilin sərbəst xarakter daşımasını təbii və qanunauyğun hal saymışdır. Tam sərbəstliyin bədii dilin inkişafına müsbət təsir göstərməsini xüsusi vurğulamışdır. Klassik ədəbiyyata aid bədii əsərlərdə də dilin estetik-emosional funksiyasının çox qabarıq şəkildə təzahür etdiyinə diqqəti yönəltmişdir. İstedadlı şair klassik poeziyanın hakim olduğu dövrlərdə bədii və ədəbi dil barədə fikir söyləyənlərə çox diqqətli, ehtiyatlı olmağı məsləhət bilirdi. O, yazırdı ki, klassik ədəbiyyatda müşahidə olunan hər fərdi-bədii xüsusiyyətə ədəbi dil tarixi faktı kimi yanaşılmamalıdır. Məşhur sənətkar təcrübəli və geniş bilikli dilçi həssaslığı ilə klassik ədəbiyyata dair nümunələrdə qabarıq tərzdə təzahür edən fərdi əlamətləri ədəbi dilin ünvanına yazmağı elmi naşılıq, səhv adlandırılmışdır.

Doğrudan da şairin fikri tamamilə həqiqətdir. Məsələn, müasir Azərbaycan dilində yarışmaq feilinin qarşılıqlı növ olmadığı müəyyənləşdirilmişdir. Klassik ədəbiyyatımızın tanınmış nümayəndəsi M.P.Vaqif isə göstərilən feili qarşılıqlı növdə işlətmişdir:

Eşq oduna yarışmadıq ayrıldıq.

Bu fakt gözəllik nəğməkarı M.P.Vaqifin fərdi yaradıcılıq məhsuludur. Yəni həmin fakt heç də XVIII əsr ədəbi dilimizdə belə sözün işlənməsini təsdiq edə bilməz. S.Vurğunun ədəbi dil və bədii dil barədə mülahizələri müasir dilçilik elminin tələblərinə cavab verir. Şair doğru söyləmişdir ki, ümumxalq dilindən klassik ədəbiyyatın nümayəndələri də eyni səviyyədə istifadə etməmişlər. Bədii dilin fərdi səciyyə daşımasının qanunauyğunluğu haqqında şairin söylədiyi fikir danılmaz həqiqətdir. Ədəbi dildə işlənməsi qəbul edilməyən, normal sayılmayan formaları bədii əsərlərdə görəndə S.Vurğun bir çoxları kimi təəccüblənməmişdir.

Məsələn, o, "şeirimizin könül dastanı " adlandırdığı Vaqifin dilində rast gəlinən, lakin ədəbi dilimizdə olmayan birləşmələri məqbul saymışdır. Klassik ədəbiyyatda şair və yazıçıların müəyyən həddə dildən azad, sərbəst istifadə etmələrinə, dil vasitələrinə novatorcasına yanaşmalarına müsbət münasibət bəsləmişdir. Buna görə də Azərbaycan ədəbi dilində olmayan bir çox söz birləşmələri M.P.Vaqifin aşağıdakı misralarında təbii qarşılanmışdır:

Bilməm kimə dərdim keçəsi......
Sevənin sevəndən könlü bulaşmaz...
İndən belə ölsəm arzu çəkmərəm...
Vaqif deyir çox peşmana yetişdim...

S.Vurğun ədəbi dillə bədii dilin fərqləndiyini göstərmişdir. Doğurdan da bu baxımdan onlar fərqləndirici əlamətləri ilə bir-birindən seçilir. Görkəmli sənətkarın həyatın, cəmiyyətin inkişafı ilə əlaqədar ədəbi dilin yüksələn xətt üzrə irəliləməsi, təkmilləşməsi və zənginləşməsi haqqında fikri də əhəmiyyətlidir. Həqiqətən belədir. Ədəbi dilin normaları, üslubları zaman keçdikcə inkişaf edir. Bədii dildə isə inkişaf, dəyişmə başqa istiqamətdə gedir, yəni inkişaf, dəyişmə düz xətt üzrə olmur. Çox vaxt özündən əvvəlkinin bir növ inkarı əsasında yaranır. Ancaq onu da deyək ki, bədii dil də inkişafdan, dəyişmədən kənarda qalmır. Bədii dilin spesifik inkişaf xüsusiyyətləri, orijinal əlamətləri böyük maraq doğurur.

S.Vurğun sinonimlərdən yüksək sənətkarlıqla istifadə etməklə şeirilərində nitqi ağırlaşdıran təkrarın, bədiiliyin, şirinliyin, axıcılığın pozulmasının qarşısını almışdır. Məsələn, şairin bir şeirində dünya anlayışının ifadə edilməsinə diqqət yetirərək:

Cahan dəyişmişdir, dönmüşdur əvət;
Topraqdan almışdır ön qüvvəsini
Bu yerdə nə hicran, nə qayğı, nə qəm,
Böyük fikirlərlə məşğuldur aləm,
Söylə nə göstərim bu günə dair?
Bu yeni dünyanın yolçusu şair.
Başqa bir misala müraciət edək:
Bu kitab andırır şeiri, sənəti
Sözlərin incidir, aldı qırmızı
Bu kitab al donlu günəşə bənzər
Onun qucağında isinir vətən.(S.Vurğun)

Misralardakı qırmızı və al sinonimləri eyni keyfiyyətin ifadə edilməsində təkrarın qarşısını almışdır. S.Vurğunun “Adsız qəhrəman” şeirinin sonunda bir-birinin ardınca gələn misralara diqqət yetirək:

Siz ey Odlar ölkəsinin adsız ölən ərənləri,
İnsan oğlu bu aləmə göz açdığı gündən bəri,
Azadlığın məşəlinə qurban olmuş pərvanətək.
Lakin ellər baş endirir qəhrəmanlar güzarına,
Adsız ölən igidlərin o pərişan məzarına.
Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.(S.Vurğun)

Şeirdə ərənlər, qəhrəmanlar və igidlər sinonim sözlərdir. Onlar mənaca eyni cərgədə durur. Burada eyni sözün təkrar üç dəfə işlədilməsi üslubi baxımdan nöqsan sayıldığı üçün sinonimlər cərgəsinə müraciət olunmuşdur.

S.Vurğun sinonimləri münasib şəkildə seçmiş və çox ustalıqla işləmişdir. Birinci misradakı ərənlər sözü müasir dilimiz üçün arxaikləşmişdir. Sinonimlər cərgəsində rast gəldiyimiz qəhrəmanlar, igidlər sözləri köhnəlmiş arxaik sözün anlaşılmasında həlledici rol oynamışdır.

Bəzən sinonim olan arxaik sözün çox çətin anlaşıldığı, yalnız mətnə görə müəyyənləşdirilməsinin mümkünlüyü qeyd olunur:

Kəsildi düşmənin dörd bir tərəfi;
Hərami nəslinin pozuldu səfi.

misralarında "hərami" sözünün arxaikliyini və "düşmən" mənasında işləndiyini demək olar. Misrada işlədilən düşmən və hərami sözləri yaxın məna bildirdiklərinə görə sinonimlərdir. Sinonim sözlərin işlədilməsində də müəyyən qanunauyğunluq vardır. Belə ki, mətndə bir neçə sinonim olduqda, onlardan daha çox əhatəli, ümumi xarakter daşıyan, daha çox işlədilən əvvəlcə gəlir. Məhdud səciyyəli, az rast gəlinən sinonim isə sonra işlədilir:

Sən nəsən ? Hər zaman, hər an çalxalanan,
Bu darğın qəlbimin həyəcanısan
Məqsədim olmamış nə şöhrət, nə şan
Məncə yaratmağa yaranmış insan.(S.Vurğun)

Böyük şairimiz oxucusunda ekspressiv-emosional hiss yaratmağı sinonimlərin nəzəri cəlb edən üslubi xüsusiyyətlərindən biri saymışdır. Ona görə də şeirlərindəki sinonimlər bizi, yəni oxucuları həyəcanlandıra, təsirləndirə bilir. Cümlənin həmcins üzvləri kimi çıxış edən sinonimlər o qədər məharətlə işlədilmişdir ki, heç bir ifadə ağırlığından danışmaq mümkün deyildir. Şair belə sinonimlərdən poeziyasında təsir obyektlərini genişləndirmək, oxucuda yüksək poetik təsir oyatmaq üçün istifadə etmiş və misralarının bədiiliyini artıra bilmişdir:

Mən gözəllik aşiqiyəm yarandığım gündən bəri:
Bizim nə <u>mələkdir</u>, nə <u>huridir</u> , <u>nə də pəri</u> (S.Vurğun)

Gülüb oynadığım toyda, mağarda
Qızların qolbağı yadıma düşdü (S.Vurğun)

Sən ay mədən torpağından qüvvət alıb gülən diyar.
İgid ərlər meydanısan, qəhrəmanlar yuvasısan.(S.Vurğun)

S.Vurğunun poeziyasında bədii-təsvir vasitələrindən biri də antonimlərdir. Şeirlərdə antonimlərin rolunun böyük və müxtəlif olduğu qəbul edilmişdir. Təzadları dildə gerçəkləşdirən antonimlər şairin şeirlərində sinonimlər kimi sözün mənasını dəqiqləşdirməyə xidmət göstərmişdir. Antonimlərin qiymətvericilik keyfiyyəti görkəmli ustada onlardan şeirində bədiiliyi artırmaq üçün istifadə etmək imkanı yaratmışdır. S.Vurğun yazır:

Bir səs qulağıma gəlir hər zaman
Sənin dostun da var, düşmənin də var (S.Vurğun)

Antonimlərin poetik nitqdə antiteza yaradan qüvvətli poetik vasitə olduğu məlumdur. Antitezanın mahiyyəti təzad təşkil edir. Poetik nitqdə antitezaya çox rast gəlirik. Bədii nitqdə antiteza müxtəlif təzadlı müqayisələrin göstəricisidir. Onu da deyək ki, antitezanı yaradan yalnız antonimlər deyildir. Bədii əsərlərdə müəyyən obraz və hadisələrin müqayisəsi prosesində antitezanın əmələ gəlməsi müşahidə olunur.

Antonimlərlə müqayisədə antiteza termini daha geniş anlayış bildirir. İstedadlı şairin şeirlərində antitezanın – təzadlı müqayisələrin müxtəlif növlərinin daha çox bağlı işləndiyini deyə bilərik. O, zidd münasibətləri qabarıq və obrazlı vermək üçün antitezaya müraciət etmişdir:

Görünür, ikiymiş dünyada vətən,
Biri zalımların kef yuvasıdır,
Biri məzlumların qəm havasıdır. (S.Vurğun)

S.Vurğunun poeziyasında antitezaya emosional-qiymətverici vasitəsi kimi baxılması böyük rol oynamışdır:

Onda da qanunlar eyni cəlladdır.
Yaşayan ölümdür, ölüm həyatdır. (S.Vurğun)

Əsərlərinin bədii təsvir və ifadə vasitələri ilə zənginliyi S.Vurğunun yüksək obrazlı təfəkkürə, tükənməz yaradıcılıq fantaziyasına malik sənətkar olduğunu bir daha nümayiş etdirir. S.Vurğun bədii dili zənginləşdirən, həyat hadisələrini təsirləndirən, obrazları səciyyələndirən orijinal metaforlar yaratmağa böyük əhəmiyyət vermişdir:

Ulduzlar havanın bağrını dəlir,
Qayalı dağlardan duman yüksəlir.
Xəyalım gecəni salama gəlir,
Çapdırır atını birbaşa dünya.(S. Vurğun)

Burada metaforun gözəl nümunələrinə rast gəlinir: ulduzlar dəlir, havanın bağrını, xəyalım salama gəlir, çapdırır atını kimi ifadələr ən gözəl metafor nümunələridir.

S.Vurğun məntiqli, fəlsəfi məzmunlu şeirlərində bədii sözün qüdrətinə söykənərək hikmətli fikirlərini böyük ustalıqla ifadə etməyi bacarmışdır. Şairin yaradıcılığı məna xəzinəsini xatırladır:

Kimindir bu oba, bu söhbət, bu saz?
Kimindir bəzəkli gəlin kimi yaz?

Ritorik sual ifadəliliyi gücləndirməyə xidmət etmişdir. Bu isə bədiiliyin artması ilə nəticələnmişdir. Ustad sənətkar yazır:

O sərin buludlar, o boylu çinar
Həp sənə gülümsər, sənə çırpınar. (S. Vurğun)

Sifətin, ismin məcazi mənaları əsasında obrazlılıq, ifadəlilik yaradan leksik metaforlar formalaşır.

S.Vurğunun poeziyasında ədəbi-bədii dil normalarına ciddi əməl olunmuşdur. Onun poeziyasında dil vahidlərinin – vasitələrinin bədiiliyi, gözəlliyi onun sadəliyində, təbiiliyində, yüksək və zəngin mənalılığında, xəlqiliyindədir. Böyük şair bu sahədəki uğurları öz istedadı, zəhməti, yaradıcılıq axtarışları ilə qazanmışdır. Onun poeziyasındakı sintaktik vahidlər-ismi birləşmələr, həm sintaksis, həm də bədii nitq nəzəriyyəsi poetika üçün dəyərli faktlardır.

Bildiyimiz kimi, sözün morfoloji xüsusiyyətlərinin araşdırılması, sözlərin dəyişilməsi, düzəldilməsi qaydaları morfologiyada müəyyənləşdirilir. Onun öyrəndiyi məsələlərin əhatə dairəsi genişdir. Məsələn morfoloji vasitələr S.Vurğunun aşağıdakı misralarında işlənmiş, şeirin bədiiliyini formalaşdırmaqda və gücləndirməkdə təsirli rol oynamışdır:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan! (S.Vurğun)

Misralardakı şəxs-xəbərlik, eləcə də hal kateqoriyalarının morfoloji göstəricilərinə də belə yanaşmalıyıq, yəni şeirdəki bədiiliyin yaranmasında onların da özünəməxsus payı vardır. Morfoloji vasitələr sanki poeziyanın açarıdır, dilidir. Onu da qeyd etmək lazımdır ki, morfoloji vasitələr termini geniş anlayış bildirir. Yəni burada ancaq şəkilçilərdən söhbət getmir. Nitq hissələri də morfoloji vasitələr sırasındadır. Böyük şairin şeir və poemalarında bədiiliyi, yəni obrazlılığı, ifadəliliyi və emosionallığı artırmaqdan ötrü müxtəlif nitq hissələrindən məharətlə istifadə olunur.

Buradan bir daha aydın görünür ki, S.Vurğun Azərbaycan ədəbi-bədii dilinin zənginləşməsində müstəsna rola malik bir şəxsiyyət olmuşdur. Həmin məsələ ilə bağlı təsdiqedici faktlar çoxdur.

## ƏDƏBİYYAT


1. *Xəlilov B.* Dil, ədəbiyyat, mədəniyyət. Bakı: Bakı Çap evi, 2013, 484 s.
2. *Vurğun S.* Seçilmiş əsərləri: 5 cilddə, V c., Bakı: Şərq-Qərb, 2005, 384 s.
3. *Vurğun S.* Əsərləri: 6 cilddə, VI c., Məqalə, məruzə, nitq, təbrik və oçerklər (1947-1959-cu illər). Bakı: Elm, 1972, 453 s.
4. *Yusifov Y.* Sözün qüdrəti. Bakı, Yazıçı, 1983, 282 s.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 86-91
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, T. 67, № 4, c. 86-91
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 86-91

***UOT 82.(091)***

***X.R.Sultanova***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*sultanovaxanim@gmail.com*

# RAMİZ RÖVŞƏN YARADICILIĞINDA AĞAC KULTU (“BAŞI KƏSİK GÖZƏL KÖTÜK” ŞEİRİ ƏSASINDA)

***Açar sözlər:*** *arxetiplər, diaxronik, sinxronik, mifoloji yaddaş, metafora, simvollar, ağac kultu, sokral obraz*

Məqalədə XX yüzil Azərbaycan poeziyasındakı mifopoetik ənənələrin problemlərindən bəhs olunur. Bir həqiqət olaraq ağac kultu estetik kateqoriya kimi təqdim olunur və bu Azərbaycan xalq şairi Ramiz Rövşənin yaradıcılığında tədqiqata cəlb edilir. Tədqiqatda xüsusən türk eposunun və türk ədəbiyyatının şedevrlərindən, eyni mifologemin çoxşaxəli inkişafını təmin edən müqayisəli materialdan istifadə olunur.

***Х.Р.Султанова***

## КУЛЬТ ДЕРЕВО В ТВОРЧЕСТВЕ РАМИЗА РОВШАНА

***Ключевые слова***: *архетипы, диахронный, синхронный, мифологическая память, метафора, символы, культ дерева, сокральный образ*

В статье рассматриваются проблемы мифопоэтических традиций в азербайджанской поэзии XX века. Культ дерева как сущая данность представляется в категории эстетической и прослеживается в творчестве азербайджанского народного поэта Рамиза Ровшана. В работе используется большой сравнительный материал, в частности из шедевров тюркского эпоса и турецкой литературы, что придает разработке разнонаправленность и разноосмысленность одной и той же мифологемы.

***X.R.Sultanova***

## CULT OF THE TREE IN THE RAMIZ ROVSHAN`S WORK

***Keywords:*** *archetyps, diachronic, synchronous, mythological memory, metaphor, symbols, wood cultivation, socket image*

In the article are conserned the problems of creating mythopoetic traditions in the Azerbaijan poetry of the XX century. The idea of using “the tree” as a symbol of esthetic in the works of outstanding poet Ramiz Rovshan. In the work is used the material comparing particullaly from the masterpiece of Turkic epic and Turkish literature. It gives the working various ways and various meanings of the same mythology.

XX əsr ədəbiyyatında baş verən proseslərin izlənməsi və bədii nümunələrin təhlil olunaraq yeni rakursdan öyrənilməsi son dərəcə aktualdır. Qeyd etmək lazımdır ki, bu dövrün ədəbi mənzərəsi maraqlı və çoxşaxəlidir.

Poetik nümunələrində müəllif fikir və duyğularının ifadə orijinallığı hiss və həyəcanın oxucuya sirayət olunması məqsədilə müəlliflərin müxtəlif simvol və işarələrə birbaşa mifoloji görüşlə müraciət etmələrini labud edir.

Mif dünyasının işarələrlə, sakral obrazlarla dərki və təxəyyülündə yeni bir dünya yaratmaq qabiliyyəti olan insanlar ilk insan təxəyyülünün məhsulunu dərk edib qiymətləndirərək onlardan öz əsərlərində məhsuldar şəkildə istifadə etməklə ədəbiyyatımızın müxtəlif janrlarında olduğu kimi, poeziya nümunələrində də yaşatmışlar. Ümumiyyətlə, poeziyada mifopoetik görüşlərin canlandırılması şair təfəkkürünün məhsuludur. Sənət aləminin digər sahələrində çalışan şəxsiyyətlər də dəfələrlə mifologiyaya müraciət edib rəngarəng əsərlər yaradırlar. Eləcə də şairlər fikir və duyğularını misralara çevirərək sözlə ifadə etdikləri bənzətmə, metafora, arxetiplər, simvollar, xronotoplar və s. vasitəsi ilə oxuculara daha inandırıcı formada təsir edərək onları müxtəlif mövzular ətrafında düşünməyə vadar edirlər. P.Bəkirqızının fikrincə, "Mifoloji substrat yazıçıya daha geniş fəlsəfi-estetik ümumiləşdirmələr aparmaq imkanı verir, yəni ədəbiyyat yalnız gündəlik problemlərdən deyil, eyni zamanda əbədi mənəvi dəyərlərdən danışmaq fürsəti qazanır. Bu mənada bədii mətndə mifolojiləşmə hadisəsi sadəcə ədəbi-estetik dünyanın canlandırılması kimi anlaşılmamalıdır, o həm də ümumbəşəri məsələlər barəsində düşünmək imkanı deməkdir"(1, s.227).

Şairlər çox zaman mifləri öz ilham mənbəyi hesab edərək xüsusi ideyalarını, özlərinin tarixə və gələcəyə olan baxışını tərənnüm edirlər. Bu problemə hər bir sairin fərdi yanaşma tərzi, fərdi üslubu olmuşdur. Lakin bütün fərdi yanaşmalara baxmayaraq əksər mifoloji motivləri olan poeziya nümunələrində mifoloji görüşlər vərəsəlik hüququnu qazanıb və hər bir dövrdə həyat reallıqları ilə səsləşərək müasir poeziyada möhtəşəm izini saxlamışdır.

XX yüzil Azərbaycan poeziyasında mifoloji görüşlərin müəyyən transformasiyaya uğrayaraq təzahür etməsi qanunauyğun prosesdir.

Mifoloji düşüncənin ilkin obyekti olan təbiət cisimləri, onlarla bağlı hadisələr, mifologiyada kök salmış inanclar sistemi poeziyamızın ruhunda bu və ya digər şəkildə duyulur. Poeziyada çox zaman göy və yer cisimlərinin, təbiətin canlı və cansız aləminin tərənnüm olunması mifopoetik görüşləri əks etdirir. Yunq və yunqçuların tədqiqatlarından məlum olur ki, mifoloji təfəkkürün qalıqları bir çox hallarda sənətkarın özünün də xəbəri olmadan əsərə keçərək bədii təsir gücünü artıra bilir. Bu cəhətdən türk mifologiyasında inanclar sistemində yer almış ağac kultu XX yüzil Azərbaycan poeziyasında da diqqətəlayiq yer tutur.

Mifologiya elminə məlum olduğu kimi, bir çox kult simvolikaları ilə yanaşı ağac kultu türk həyat tərzi, onun mifik dünyadurumu, dövlət quruculuğu və hegemoniyası ilə sıx bağlıdır. Ağacın türk mifoloji kosmoqoniyasının əsas yaradıcı ünsürlərdən olması, onun ritual-mifoloji ənənədə kultlaşmasını təmin etməsi haqda M.Seyidovun, R.Qafarlının, S.Rzasoyun, A.Hacılının, İ.Vəliyevin, R.Əliyevin, R.Əlizadənin, C.Bəydillinin və başqalarının əsərlərində qeyd olunmuşdur. Azərbaycan alimləri belə bir qənaətə gəliblər ki, "həyat ağacı" rəmzi bizim köklərimizə gedib çıxır.

Elmə məlum olduğu kimi, bu kultun səciyyəvi xüsusiyyətlərindən biri onun antropomorf cizgiləri daşımasıdır. İlkin kosmoqonik başlanğıcı təşkil edən təbiət ünsürləri insan siması kəsb edə bildiyi kimi, ağaclar da insanlaşmışdır. Miflərin poetik strukturunda ağacların antropomorflaşması aydın şəkildə görünür.

Qardnerə görə, mifologiya "təbiət varlıqları və onlarla əlaqəli hadisələri insanlaşdırmaq surəti ilə anlatma şəklidir" (Encyclopaedia of religion and ethics, IX, s.117)

Ağacın dünya modeli funksiyasını yerinə yetirməsi onun ilkin mifoloji kosmoqoniyada – dünyayaratmada iştirakı deməkdir. Bu da onun əcdad funksiyasını şərtləndirir.

O, bir kosmoqoniya elementi kimi, yaradılış və kosmoqonik valideyn olmaq prosesini modelləşdirir.

Ağacla bağlı əski mifik elementlərə əsasən, ağacın digər başqa funksiyaları da mövcuddur. S.Neklyudov yazır ki, "motiv fondunun elementi nə qədər qədimdirsə, bir o qədər geniş semantik təbəqəyə və böyük potensiallı semantik bağlılıqlara malikdir" (5, s.227)

Azərbaycan və digər türkdilli xalqların pərəstiş etdikləri ağaclara and içməsi, ona qurban kəsmələri faktları ağac-meşə iyəsinin (ruhunun) bu günə qədər yaşamasına və bu iyənin qoruyuculuq funksiyasına yönəlmiş xüsusiyyətləri müəyyənləşdirməyə imkan verən çoxsaylı misallar vardır.

Müxtəlif xalqların həyatında ağacın rolu müstəsna önəm kəsb edib. İnsan övladı su, hava kimi nemətlərdən əlavə ağacsız həyatın mümkünsüzlüyünü dərk edərək onu müqəddəs bilib və bu bədii düşüncələrdə yer tutaraq gələcək həyatı, dünyagörüşünü istiqamətləndirərək formalaşdıran bir inanc sistemi olub. Xalqın təfəkküründə ağacı kəsmək, qol-budağını qırmaq günah sayılır. Və bu işi görən şəxsin lənətlənərək bir çox bəlalara düçar olduğuna inanılıb (2).

Ağaca olan inancın insanların mənəvi dünyasında, düşüncəsində minilliklər keçərək bu günə qədər gəlib çatması bir çox söz ustadları kimi, Ramiz Rövşənin də yaradıcılığında əks olunub. Şairin "Başı kəsik gözəl kötük" şeri yuxarıda qeyd olunanların bariz nümunəsidir. Bu şeir özündə dioxronik (keçmiş haqqında məlumat) və sinxronik (bugün, gələcəyə münasibət)

aspektləri birləşdirir. Göründüyü kimi, burada mifin poeziyaya daxil olması səviyyəsi mifopoetik təfəkkür tərzində nümayiş olunur:

Başı kəsik gözəl kötük,
Bu dağı sənə kim çəkdi?
Baltanı sənə kim vurdu,
Bıçağı sənə kim çəkdi? (4).

Mifik düşüncədən qaynaqlanan bədii təfəkkürə görə, başı kəsilmiş kötük dünya düzəninin pozulması, kosmik xaosu göstərən bir motivdir. Miniatürlərdə, təsvirlərdə, xalça üzərində, rəsmlərdə əlində bel olan bağbanın təsvir olunması Cənnət obrazının təcəssümü olduğu kimi, ağacı kəsən balta, bıçaq isə qəddarlıq əlamətidir. Burada mifoloji lay bədii mətndə yeni mənaları aşkarlamağa kömək edir. Balta, bıçaq, körpə ağac, ucalıq arxetipləri belə mənalardandır. Mifik düşüncədə mistik mahiyyət daşıyan bu şeirdə müəllif Tanrı tərəfindən lənətlənmiş baiskarları özü də qarğıyır. Ağacın sorğulanması, əzizlənməsi, salamlaşma, ümidverici ifadələrin işlənməsi kimi mifoloji konstruksiyaların fəallığı şeirin mifik özəlliyini təşkil edir.

Bu dağı sənə kim çəkdi?
Baltanı sənə kim vurdu,
Bıcağı sənə kim çəkdi?

Və yaxud

İpək-ipək yarpaqların
Küləklərlə talandımı?
Bilək-bilək budaqların
Ocaqlarda qalandımı?
Küsdünmü taleyin acılığından?
Zalımlar keçmədi qocalığından.
Yıxılmış ucalığından
Başı kəsik gözəl kötük.

Bildiyimiz kimi, kosmik dünya modellərindən görünür ki, məhz agac insanla Tanrı, Yer ilə Göy, itirilmiş doğmaların ruhları arasında əlaqə yaradan varlıq kimi qəbul olunur. O, bir növ, nəsillər arasındakı mənəvi əlaqənin qorunmasını təmin edir.

Şair "Başı kəsik gözəl kötük" şeirində cəmiyyətin sosial-mədəni, ictimai-siyasi həyatında baş verən hadisələrin dərki üçün mifopoetik düşüncədən istifadə edir. Burada mifik düşüncə və poetik düşüncə arasında mütənasiblik təfəkkürü yaranır.

Gözəl kötük sızıldama, göynəmə,
Nə baltalar, nə bıcaqlar qalacaq.

Ucalıqdan yıxılsan da qəm yemə,
Sən yıxılan ucalıqlar qalacaq,

- deyərək kötüyün gücünə (dünya ağacının kökünə) inandığından haqqın bərqərar olacağına, itirilmişlərin qaytarılmasına əmin olduğunu israr edir:

Ümidli gözlər dikilər,
Körpə agaclar yekələr,
Yekələr, qalxar, dikələr
Sən yıxılan ucalıqdan.

Şair müqəddəs saydığı bu kötüyü əcdadı, anası (Əyilim, köksünə başımı qoyum, Gecələr laylamı çalasan mənim) və dağılmış yurd ocağının dirəyi (Böyründə bir evin daşını qoyum, / Evimin dirəyi olasan mənim) hesab edir.

Mifoloji düşüncə milli mentalitetin əsasında dayanır. Ona görə də lirik qəhrəman körpə yaşlarından eşitdiyimiz ən müqəddəs varlıq olan anasının laylasını dinləmək istəyir. Layla şeirdə psixoloji təsir vasitələrindən biri kimi göstərilir. O, tək hər bir kəsin ruhunun dərinliyinə nüfuz edən uşaqlıq xatirəsi yox, həm də genetik təfəkkürün mayasında yurd salmış mifoloji elementdir. Layla – yaranış, dirçəliş, böyümə rəmzi kimi qəbul olunur. Şair şeirdə hisslərinin səmimiliyini, əslini, həqiqiliyini məhz layla ilə büruzə verir.

N.Mehdi “Sənətin arxeologiyası. Sənətin arxitektonikası” kitabında qeyd etdiyi kimi, “Əsl gerçəklər insan qatının (ruhunun) dərinliklərində olur. Ona görə də əsl bilmək dünyadan nələrsə almaq deyil, ruhunun güzgüsünün üstündəki tozu silib həqiqətləri arada görməkdir” (3, s.21-22).

Bildiyimiz kimi, Freydin, Yunqun, ritual-mifoloji məktəbin nümayəndələrinin və digər araşdırıcıların gəldikləri qənaətə görə, “bədii mətnin əsasında əski insan təsəvvürlərinin və miflərin xeyli qalıqları səpələnmişdir. Bu qalıqlar əksər hallarda sənətkarın özünün xəbəri olmadan əsərə keçsə də, burada onlar fəal konstruktiv, emotiv gücünü artıran işlər görürlər” (3, s.20).

Burada R.Rövşən bəlkə də qeyri-ixtiyari layladan söz açarkən həyatı yarımçıq qoyulmuş agacı yüksək prizmada seyr edərək onu sözün həqiqi mənasında müqəddəsləşdirir, həyat verən ana, sevilən bir obraz kimi görür və onu bir növ ölümsüzləşdirir.

Əslində mifik düşüncələrdə qeyd olunduğu kimi, təbiətin də insanda olduğu kimi, yaradılış, yaşama, yoxolma dövrü var. Hər bir yaranan sonda yox olmalıdır. R.Rövşən isə başı kəsik kötüyü bədii dilin mifik yaddaşında yaşayan alqışıyla ölümsüzləşdirmək məqsədilə ona nəslinin davamçısı olan övlad diləyir. Hətta maraqlı və orijinal bir bədii fənd işlədərək,-

Məndən sənə salam olsun,
Başı kəsik gözəl kötük!
Balam olsa, balan olsun,

- söyləyir. O, yenidən boy atması, cücərməsi mümkünsüz ağaca öz balasını bala əvəzi verməklə "Dünya ağacı"nı ucalıqda saxlayır. Şair ağacı deyil, onun təsəvvür etdiyi ucalığı sakrallaşdırır. Burada "ucalıq" arxetipi şeirin mühüm işarə sistemi kimi təqdim olunur.

Tədqiqata cəlb etdiyimiz şeirin mif kontekstində təhlili imkan verir ki, biz onun mahiyyətini düşüncə tipindən qalma mifoloji konstruksiyalarda müəyyənləşdirək. R.Rövşənin "Başı kəsik gözəl kötük" şeirində ağac kultu ilə əlaqəli təhlilimizə əsasən belə nəticəyə gəlmək olar ki, XX yüzil Azərbaycan poeziyasının maraq doğuran xüsusiyyətlərindən biri də mifopoetik şüur elmentlərinə qayıdışla bağlıdır. Bu bağlılıq strukturuna mifoloji süjet və obrazlar sisteminin ciddi təsir göstərdiyi R.Rza, R.Behrudi, R.Rövşən və s. kimi müəlliflərin əsərlərində müəyyən etmək və XX yüzil Azərbaycan poeziyasında tarixi refleksiyanın, geriyə qayıdışın müəllif təxəyyülünün keçmişlə əlaqəsini aşkarlamaq, gələcək inkişaf üçün vacibliyini önə çəkməkdən ibarətdir.

## ƏDƏBİYYAT

1. *Bəkirqızı P.* Mifologiya və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015, 247 s.
2. regionplus.az/az/articles
3. *Mehdi N.* Sənətin arxeologiyası. Sənətin arxitektonikası. Bakı: Qanun, 2007 344 s.
4. *Rövşən R.* Başı kəsik gözəl kötük / https://kayzen.az/blog.
5. *Неклюдов С.Ю.* О некоторых аспектах исследования фольклорных мотивов // Фольклор и этнография: у истоков фольклорных сюжетов и образов. Л.: Наука, 1984, 302 с.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 92-102
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, T. 67, № 4, c. 92-102
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 92-102

## İctimai elmlər

*UOT 94 (479.24)*

***N.D.Bağırova***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*nbaqirova@mail.ru*

# AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASINDA GÖRKƏMLİ MAARİFÇİ Q.R.MİRZƏZADƏNİN MATERİALLARINA DAİR

***Açar sözlər:*** *Qafur Rəşad Mirzəzadə, "Məktəb" jurnalı, maarifçi, uşaq ədəbiyyatı, "Azərbaycan coğrafiyası", "Qafqaz coğrafiyası"*

Məqalə görkəmli Azərbaycan pedaqoqu, maarifçisi, coğrafiyaçı Q.R.Mirzəzadənin Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunda qorunan materialları əsasında yazılıb. Materiallar arasında onun şəxsi kolleksiyasından olan, görkəmli şəxslərin xatirə yazıları ilə fotoşəkilləri, ailə üzvlərinin xatirələri, daha çox maraq doğurur.

Milli məktəblərin dərsliklərlə təmin olunması sahəsində Qafur Rəşadın xidmətləri böyükdür. İlk coğrafiya dərsliklərinin yaradıcısı olan Qafur Rəşad "Qafqaz coğrafiyası", "İbtidai coğrafiya" və s. adlar altında 18 dərslik və vəsait yazıb nəşr etdirmişdir. Bununla yanaşı, milli uşaq ədəbiyyatının inkişafında da Qafur Rəşadın xidmətləri böyükdür. O, Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının (1911-1920) və uşaqlara məxsus ədəbiyyat nəşr edən eyniadlı birinci mətbəənin təsisçisidir. Cümhuriyyət dövründə nəşr olunmuş "Məktəb" jurnalı uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində müsbət rol oynamışdır.

***Н.Д.Багирова***

# О МАТЕРИАЛАХ ВИДНОГО ПРОСВЕТИТЕЛЯ Г.Р.МИРЗАЗАДЕ В КОЛЛЕКЦИИ МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *Гафур Рашад Мирзазаде, журнал «Мектеб», просветитель, детская литература, «География Азербайджана», «География Кавказа»*

Статья написана на основе ценных материалов видного азербайджанского педагога, просветителя, географа, Гафура Рашада Мирзазаде, хранящихся в Фонде Документальных Источников Национального Музея Истории Азербайджана. Наибольший интерес в коллекции представляют фотографии из личной коллекции с дарственными надписями известных личностей, а также воспоминания членов семьи о Г.Р.Мирзазаде.

Г.Р.Мирзазаде сыграл большую роль в обеспечении национальных школ учебниками. Он является автором первых учебников по географии, таких как «География Кавказа», «Общая география» и др., опубликовав вместе с этим 18 учебников и учебных пособий. Вклад Гафура Рашада в развитие национальной детской литературы также велик. Он является основателем второго детского журнала "Школа" (1911-1920) в Азербайджане и первым издателем детской литературы. Журнал «Школа», издаваемый в период Азербайджанской Республики, сыграл положительную роль в воспитании детей в духе национальной независимости и государственности.

***N.D.Baghirova***

## ABOUT MATERIALS OF A PROMINENT EDUCATOR G.R.MIRZAZADE IN THE COLLECTION OF THE HISTORY MUSEUM OF AZERBAIJAN

***Keywords:*** *Qafur Rashad Mirzazade, magazine "Mekteb", educator, textbooks, "Geography of Azerbaijan", "The geography of the Caucasus"*

This article was written on the basis of materials of a prominent Azerbaijani teacher, educator, geographer, Gafur Rashad Mirzazade stored in the Fund Documentary Sources of the National Museum of History of Azerbaijan. The greatest interest in the collection are photographs from the personal collection with inscriptions of famous personalities, as well as the memories of family members of G.R.Mirzazade.

Qafur Rashad has a great role in providing textbooks to national schools. Qafur Rashad, the author of the first geography textbooks, wrote "Caucasian Geography", "Primary Geography" and others. He has published and published 18 textbooks and manuals. Qafur Rashad's contribution to the development of national children's literature is also great. He is the founder of the second children's magazine "School" (1911-1920) in Azerbaijan and the first children's publisher of children's literature. The School Magazine, published in the republic, has played a positive role in bringing up children in the spirit of national independence and statehood.

XX əsrin əvvəllərində Azərbaycan Rusiya imperiyasının müstəmləkəsi olaraq qalırdı. Mədəniyyət ləng inkişaf edirdi. Lakin buna baxmayaraq bütün tarixi dövrlərində inkişafı ilə seçilən Azərbaycan mədəniyyəti öz qədim ənənələrini saxlayır və davam etdirirdi. Milli şüurun oyanmasında xaricdə təhsil almış gənclərimiz mühüm rol oynayırdı. Məhz onların səmərəli işləri nəticəsində bir çox məktəblər açılır, dərsliklər və proqramlar hazırlanırdı. Maarifin inkişafında mühüm rolu 1906 ilin avqustunda keçirilmiş Azərbaycan müəllimlərinin I Qurultayı tuturdu. Burada ibtidai icbari təhsil, ana dilində təhsilin aparılması və s. məsələlər müzakirə edilmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın tanınmış maarifçilər nəslinin səyləri sayəsində gələcəyə böyük bir yol açıldı. Bu yol ölkədə elm, sənət və mədəniyyətin inkişafına təkan verməklə, həm milli, həm də dünyəvi dəyərlərin önəmini dərindən anlayan təhsilli şəxslərin yetişməsinə imkan yaratdı.



*Qafur Rəşad Mirzəzadə*
*(1884-1943)*
**(3, inv. №308/2)**

Bu dövrdə ölkədə maarifçilik ideyalarının yayılmasında xüsusi xidmətləri olan şəxslər sırasında maarif xadimi, naşir-mühərrir, publisist, tərcüməçi, coğrafiyaşünas Qafur Rəşad Ələkbər oğlu Mirzəzadə də var idi.

Həyatını müəllimlik peşəsinə həsr etmiş Qafur Rəşadın ən mühüm xidmətlərindən biri milli məktəblərin dərsliklərlə təmin olunması sahəsindəki dəyərli fəaliyyətidir. İlk coğrafiya dərsliklərinin yaradıcısı olan Qafur Rəşadın eyni zamanda milli uşaq ədəbiyyatının inkişafında da böyük xidmətləri var. O, həmçinin Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının (1911-1920) və uşaqlara məxsus ədəbiyyat nəşr edən eyniadlı birinci mətbəənin təsisçisidir.

Ölkəmizin elmi-mədəni ocaqlarından biri olan Milli Azərbaycan Tarixi Muzeyinin zəngin fondlarından biri olan Sənədli Mənbələr Fondunda Azərbaycanda maarifçilik tarixinə, görkəmli elm, maarif xadimlərinın fəaliyyətinə dair müxtəlif səpgili zəngin materiallar toplanmışdır. Belə ki, Fondun 308 №-li kolleksiyası Qafur Rəşad Mirzəzadənin materiallarından ibarətdir. Burada onun əmək fəaliyyətini əks etdirən şəkillər, sənədlər, xatirələr öz əksini tapmışdır. 1884-cü ildə may ayının 6-da Şamaxı rayonunda kasıb, savadı olmayan Ələkbər kişinin ailəsində dünyaya gələn Qafur Rəşad artıq 7 yaşında ibtidai təhsilini mollaxanada, daha sonra 1894-cü ildə altı illik şəhər məktəbində almşıdır.

Qafurun şəhər məktəbində oxuduğu üçüncü ildə boyaqçı Ələkbərin maddi vəziyyəti xeyli çətinləşmişdi. O, artıq Qafurun məktəb xərcini vermək iqtidarında olmadığından onu məktəbdən çıxarmaq istəyirdi. Lakin Qafur yaxşı

oxuduğu üçün məktəbin müdriyyəti onun xərcini hökumət hesabına ödəyir.

1901-ci ildə 17 yaşlı Qafur Şamaxı şəhər altı illik məktəbi bitirir. Təhsilini davam etdirməyə maddi imkanı olmadığından o, müəllimlik etmək qərarına gəlir. Daha sonra 1920-22-ci illərdə Qafur ikiillik Ali Pedaqoji İnstitutda oxuyur, 1923-cü ildə isə Azərbaycan Politexnik İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olur, 1927-ci ildə 43 yaşında ikən oranı bitirir.

Müxtəlif mənbələrdən Qafur Rəşadın müəllimlik və maarifçilik fəaliyyətinə nəzər saldıqda görürük ki, o 18 yaşı tamam olmadan 1902-ci ildə Lahıc kəndinə müəllim təyin olunur. Birinci üç ildə kənddə xüsusi məktəb binası olmadığından dərslər darısqal bir evdə keçirilirdi. Sonralar maarifə çox həvəs göstərən kənd əhalisinin köməyi ilə məktəb üçün yeni bina tikilir və gənc müəllimin iş fəaliyyəti xeyli yaxşılaşır. Bundan sonra məktəbə gələn uşaqların sayı ilbəil artır, yaşlılar belə savadlanmağa həvəs göstərirdilər. Bundan ruhlanan Qafur öz təşəbbüsü ilə yaşlılar üçün axşam kursları təşkil edir.

Qafur Lahıcda boş vaxtlarını mütaliə ilə keçirir. O, türk, fars, və rus dillərində çoxlu kitablar oxuyur və biliyini artırır. 1906-cı ildən sonra nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı Qafuru çox sevindirir. O, bu jurnalı müntəzəm alır və axşam kursları müdavimləri üçün oxuyurdu. Lahıc kəndində layiqli bir müəllim kimi fəaliyyət göstərən Qafur kənd əhalisinin dərin hörmətini qazanmışdır (4, s.7).

1905-ci ildə Bakıda bir sıra maarif və mədəniyyət ocaqları yaranmışdır. Belə ocaqlardan biri də "Nəşr-maarif" xeyriyyə cəmiyyəti idi. Bu cəmiyyət müəllimləri hazırlamaq üçün "Darulmüəllimin islam" (seminariya) adlı bir məktəb açmışdı.

Qafur Rəşad Lahıc məktəbində müəllimlik edərkən ara-sıra Bakıya gələrək müəllimlərin yığıncaqlarında iştirak edirdi. Bakı ziyalıları arasında bilikli və bacarıqlı bir müəllim kimi tanınan Qafur Rəşad 1907-ci ilin sonlarında "Nəşr-maarif" cəmiyyəti tərəfindən Bakıya dəvət olunur. "Nəşr-maarif" cəmiyyətinin başında duranlar bu istedadlı müəllimin bacarığından dini qanunların təbliğatı üçün istifadə etmək istəmişlər. O, əmr üzrə azəri dili müəllimi vəzifəsinə təyin olunduğu halda, ona şəriətdən dərs deməyi təklif etmişlər. Əlacsiz qalan Qafur üç ay şəriət dərsi deyəndən sonra ərizə verib bir müddət seminariyadan uzaqlaşır.

Qafur Rəşad 1916-cı ildə ana dilindən dərs demək üçün Bakı II realnı məktəbinə, iki il sonra isə Bakı I realnı məktəbinə dəvət edilir. O dövrdə bu məktəbdə A.Şaiq, C.Cəbrayılbəyli, X.Kələntərli kimi təcrübəli müəllimlər çalışırdı. 1919-cu ildə 50-ə qədər sinfi olan Bakı I realnı məktəbində yalnız bircə milli sinif vardı. Bu sinfin rəhbəri A.Şaiq, coğrafiya müəllimi isə Qafur Rəşad Mirzəzadə idi.

Q.R.Mirzəzadənin pedaqoji fəaliyyəti XX əsrin əvvəllərindən başlayır ki, bu zaman təlim işində hələ də XVIII əsrdən qalma sual-cavab üsulu əsas yer

tuturdu. Uşağın biliyini yalnız sual-cavabla yoxlayarkən çox vaxt uşaq müəllimə verdiyi cavabın mahiyyətini başa düşmürdü. Bu üsul 1915-ci ildə I Ümumrusiya müəllimləri qurultayında pisləndi və qəbul edilən yeni proqrama əyani vasitələrdən istifadə etmək məsələsi ön plana çəkildi. Lakin coğrafiya təlimindəki bu yeni istiqamət Azərbaycanda yalnız 20-ci illərdə geniş surətdə tətbiq edilməyə başladı. Coğrafiya təlimində yeni üsulların ən qabaqcıl tərəfdarı olan Qafur Rəşad: “Bu günün coğrafiyası keçmişin coğrafiyası kimi, şagirdlərdə cansız isimlər, uzun rəqəmlər əzbərləməkdən ibarət deyildir. Bu günün coğrafiyası şagirdlərin ruhunu oxşayan, onları özünə cəlb edən müşahidələr, mülahizələr, mühakimələr coğrafiyasıdır” (2), – deyirdi.




***Azərbaycan tələbə gənclərindən ibatət qrup. Mərkəzdə Q.R.Mirzəzadə***
**(3, inv. №308/3)**

Qafur Rəşad ekskursiyalardan istifadə etməyə çox böyük əhəmiyyət verərək yazırdı: “Müəllim mümkün mərtəbədə şagirdləri uzaq və yaxın tənəzzöhrlərə (ekskursiyalara - N.B.) aparıb onların müşahidələri barəsində məruzələr yazdırmalıdır....Bütün dünyadan bəhs edən coğrafiya uzaq və yaxın tənəzzöhrlər tələb edir” (2). O, coğrafiya dərsində istifadə edilən əyani vasitələrdən xəritəni daha üstün tuturdu.

1920-ci il aprel inqilabından sonra Qafur Rəşad ikinci dərəcəli milli məktəbdə çalışırdı. Onun özünəməxsus müəllimlik metodikası vardı. O, keçdiyi mövzunu öz dövrünün xarakterik hadisələri ilə canlı surətdə əlaqələndirməyi bacarırdı.

Qafur Rəşad sonrakı illərdə də Bakının bir sıra orta məktəblərində müəllimlik fəaliyyətini davam etdirərək, Baki Hərbi məktəbində uzun müddət

çalışmışdır. O zaman Azərbaycanda fəaliyyət göstərən Dövlət Universiteti indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin köhnə binasında yerləşirdi. Yeni inkişafa başlayan bu elm ocağında dərs deyən milli kadrların sayı az olmaqla, heç birinin elmi dərəcəsi yox idi. Belə müəllimlərdən biri də Qafur Rəşad Mirzəzadə idi. O, öz tərcümeyi-halında 1926-cı ildə Universitetdə çalışdığını qeyd edir. Deməli, ali məktəbdə coğrafiyadan ana dilində ilk mühazirə oxumaq şərəfi ona nəsib olmuşdur.

1929-cu ildə bu tanınmış müəllim iqtisadi coğrafiyadan mühazirə oxumaq üçün Zaqafqaziya Pambıqçılıq İnstitutuna, 1932-ci ildə isə Bakıda yeni açılmış Sənaye Akademiyasına dəvət olunur. 1934-cü ildə sənaye sahələri üçün iqtisadçı müəllimlər hazırlamaq məqsədilə Azərbaycan Qırmızı Bayraqlı Sənaye İnstitutunda iqtisadiyyat fakültəsi açılır. Bu yeni müəssisənin müəllimlərindən biri də Qafur Rəşad Mirzəzadə idi. O, burada 3 il çalışmış və iqtisadçı müəllimlərin hazırlanmasında çox böyük əmək sərf etmişdir.

Q.R.Mirzəzadənin elmi əsərlərinin yaranma tarixçəsinə nəzər saldıqda qeyd etmək olar ki, 1905-ci il inqilabından sonra "xalq dərdi" Azərbaycan demokrat ziyalılarını düşündürən ən böyük məsələ idi. Qafur Rəşad hələ gənc yaşlarından xalq dərdinə şərik olur.

M.Ə.Sabir, A.Səhhətlə tez-tez görüşən Qafur Rəşad xalqının geriliyinin səbəblərini araşdırır və onun tərəqqi yollarını müəyyən etməyə çalışırdı. Dövrünün mütərəqqi adamları ilə sıx əlaqələrin nəticəsində onun "Oyanız qardaşlar!" əsəri yaranır (5). Qafur Rəşad əsərində qeyd edir ki, xalqı qəflət yuxusundan oyatmaq üçün məktəblərin sayını artırmaq, mətbuatı genişləndirmək, mollaxanaları bağlamaq, qızları oxutmaq, mövhumat və xurafatla ciddi mübarizə aparmaq lazımdır. 1908-ci ildə Lahicdan Bakıya köçüb gələn Qafur Rəşad həmin əsərini burada çap etdirməyə müvəffəq olur.

Qafur Rəşadın maarifçilik fəaliyyəti çox geniş idi. İnqilabdan əvvəl azəri dilinin qrammatikasını dərslik kimi işləyənlərdən biri də Qafur Rəşad olmuşdur. Onun müəllim Məmmədsadıq Axundzadə ilə birlikdə tərtib etdiyi "Rəhbəri sərf" kitabından Azərbaycan məktəbləri uzun müddət (1910-1921-ci illərə qədər) istifadə etmişdir. Həmin kitab dilinin səlistliyinə və ifadələrin dəqiqliyinə görə özündən əvvəlki qrammatika dərsliklərindən xeyli fərqlənirdi.

Şagirdlərin məktəbdənkənar maariflənməsi məsələsi də Qafur Rəşadı həmişə düşündürmüşdür. Məlumdur ki, şagirdin yalnız bir dərs kitabından geniş bilik qazana bilməsi qeyri-mümkündür. Bunu nəzərə alan Qafur Rəşad şagirdlər üçün məktəbdənkənar ədəbiyyat yaradılması sahəsində də səylə çalışmışdır. O, məktəblilər üçün bir sıra kiçik hekayələr yazmışdır ki, bunlardan: "Yeddiyaşar", "Barmaq boyda uşaq", "Baha oturar", "Bir-birinizə məhəbbət edin" və s. göstərmək olar.



حاجی اسرافیل آیدمیروف

***Q.R.Mirzəzadənin “Oyanız qardaşlar” əsərinin titul vərəqi.1908-ci il***
**(3, inv.№308/6)**

Ədəbiyyatı ürəkdən sevən və Şərq şerlərinə çox yaxşı bələd olan Qafur Rəşad dövrünün qabaqcıl maarifçiləri A.Səhhət, A. Şaiq, M. Hadı ilə yaxından dost idi və onların ədəbi yığıncaqlarında fəal iştirak edirdi. Həmin bu faktı Q.R.Mirzəzadənin Fondda saxlanılan kolleksiyasında Abbas Səhhətin arxa tərəfində Q.R.Mirzəzadəyə xatirə yazısı ilə fotoşəkli təsdiq edə bilər.





***Görkəmli yazıçı Abbas Səhhət***
***(şəklin arxa tərəfində Q.R.Mirzəzadəyə xatirə yazısı var)***
**(3, inv.№308/1)**

XX əsrin əvvəllərində rus, erməni, gürcü dillərində uşaq və gənclər üçün xüsusi jurnallar buraxılırdı. Azərbaycanın qabaqcıl müəllimlərindən Sultan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Nəriman Nərimanov da azəri uşaq və gəncləri üçün belə bir jurnal təsis etmək fikrinə düşürlər. Lakin çar hökuməti buna imkan vermir.

1906-cı ildə azəri ziyalıları “Dəbistan” adlı bir uşaq jurnalının nəşr edilməsinə müvəffəq olur. Lakin pulsuzluqdan süqut edən “Əkinçi” qəzeti kimi “Dəbistan” jurnalı da çox davam edə bilməyib tez bağlanır.

Bu jurnalların bağlanması müəllimlərini məyus etmişdi. Bir qədər sonra isə Qafur Rəşad uşaqlar üçün jurnal buraxmaq fikrinə düşür. O, hesab edir ki ki, xalqın gələcəyi gənc nəslin tərbiyəsindən çox asılıdır.

Qafur Rəşad tanıdığı bir neçə ortabab tacirə müraciət edib jurnalın təşkili üçün maddi yardım istəyir, lakin onun bu müraciəti cavabsız qalır. O, “Qafqaz coğrafiyası” əsərinin satışından hasil olan pulla və götürdüyü borcla bir kitab mağazası açıb onun qazancı ilə uşaq jurnalı nəşr etmək qərarına gəlir.

Bu kitab mağazası “Məktəb” adlanır. Onu Qafur Rəşadın kiçik qardaşı Ağa Kərim Mirzəzadə idarə edirdi.

Qafur Rəşadın təşəbbüsü ilə mətbuat tariximizdə şərəfli yer tutan, minlərlə azəri uşaq və gənclərin maariflənməsində müsbət rol oynayan “Məktəb” jurnalı yaranır. Həmin jurnalın bir neçə nüsxəsi Sənədli Mənbələr Fondunda qorunub saxlanılır.



***“Məktəb” jurnalı. 1912-ci il***
**(3, inv.№3/29)**

Bu jurnalın 1911-ci il noyabrın 29-da çıxan ilk nömrəsində N.Nərimanov yazırdı: “Şükür olsun ki, bu axırıncı illərdə məktəblər artır, camaatda məktəbə az da olsa bir rəğbət, bir ehtiyac hissi oyanır, məktəblər

artdıqca başqa ehtiyaclarımız da meydana çıxır. O cümlədən bu gün ən möhtac olduğumuz şeylərdən biri də uşaqlara məxsus bir məcmuə olduğu şübhəsizdir. Doğrudan da bu böyük ehtiyacımızı hər kəs bilib təsdiq etməkdədir. Bu xidmət üçün çalışmaq lazımdır. Əcəba bunun üçün kim çalışmalıdır?. Şübhəsiz ki, bunun üçün uşaq ataları və bilxassə möhtərəm müəllim və müəllimələr çalışmalıdırlar. Biz isə arada bir vasitə ola bilərik.... Biz gedən yol qaranlıq, daşlı-torpaqlı, iti tikanlarla səpələnmiş olarsa, sizin həyatınzın yolu işıq, təmiz, yumşaq görünür.... Ağızlarımız bağlı, fikirlərimiz dağınıq, halımız qayət pərişan idi... Bizim qüvvətimiz mənfur müharibələrə sərf olundu, sizin qüvvətiniz isə bütün təhsilə, elmə sərf olunacaqdır"(4, s.15).

Qafur Rəşad alınan təbriklərə cavab olaraq jurnalın ilk nömrəsində onun məqsədi haqqında yazırdı: "Bizim "Məktəb" məcmuəsini nəşr etməkdə məqsədimiz millət balalarının hüsn-əxlaq və məlumatlı olmalarına acizanə bir xidmətdir".

"Məktəb" jurnalına nəzər saldıqda qeyd etmək olar ki, burada o zamanın ən qabaqcıl azəri şair və yazıçıları iştirak edirdilər. Onlardan N.Nərimanovu, A.Şaiqi, H.Cavidi, A.Səhhəti, S.S.Axundovu qeyd etmək vacibdir. Jurnal dünyanın ən məşhur filosofları, şairləri və onların əsərləri haqqında məlumat verirdi. Onun səhifələrində Aristotel, Platon, Sokrat, Firdovsi, İbn Sina, Hafiz, Sədi haqqında da tez-tez yazılara rast gəlmək olur. Jurnal oxucularının böyük ehtiyacını ödəmək üçün ingilis, fransız, alman, rus, ərəb, fars və başqa xalqların ədəbiyyat və incəsənət incilərindən alınmış parçalar da çap edirdi. Jurnalda L.Tolstoyun, A.Puşkinin, N.Qoqolun, İ.Turgenevin, İ.Krılovun və digər rus şair və ədiblərinin əsərlərindən nümunələri görmək olar.

Qafur Rəşad bütün qüvvəsini məktəb jurnalının məzmunlu çıxmasına sərf edir. O, jurnalda redaktor, tərcüməçi, hətta korrektor kimi çalışırdı. Jurnalın abunəçilərə göndərilməsi işində ailə üzvləri ona kömək edirdi. Buna baxmayaraq jurnal yenə də öz xərcini ödəmir və Qafur Rəşad hər ay qardaşı Ağa Kərimdən jurnala yardım alırdı.

"Məktəb" jurnalı Qafur Rəşadın və demokratik ziyalıların hümməti ilə yaranıb və təqribən 9 il ömür sürdü.

Qafur Rəşadın coğrafiyaşünaslıq fəaliyyətinə nəzər saldıqda qeyd etmək lazımdır ki, onun coğrafi irsi çox zəngin olub ümumi həcmi 120 çap vərəqindən artıqdır. Qafur Rəşad ümumi coğrafiya və ölkələr coğrafiyası üzrə bir sıra əsərlərin müəllifi olmaqla, sırf elmi-metodiki mahiyyət daşıyan əsərlər də yazmışdır. Qafur Rəşad 1909-cu ildən etibarən coğrafi əsər yazmağa başlamış və bu işini 1943-cü ilə qədər davam etdirmişdir. Bu müddət ərzində o, 20-dən artıq coğrafi əsər yaratmış və demək olar ki, dörd əsərindən başqa hamısı çap edilmişdir. Bunlar "Qafqaz coğrafiyası" (1910), "İbtidai coğrafiya" (1922), "Ümumi coğrafiya" (1923), "Coğrafiya terminləri lüğəti" (1923),"SSRİ-nin iqtisadi coğrafiyası" (1941), "Xəritə üzərində əməli iş" (1943) əsərləridir (1,

s.119).

Həyatın bütün və hərtərəfli inkişafının işıqlandırılmasında coğrafiya kitabının böyük əhəmiyyətini qeyd edərək Qafur Rəşad "Azərbaycan coğrafiyası" adlı əsərində göstərir: "Buradakı məlumat yalnız statistika deyil, dinamika halında da təsəvvür edilərək, hər sahədəki tərəqqi və inkişafımızı mümkün dərəcədə göstərmişdir".

Qafur Rəşadın həyat müşahidəsi və təcrübəsi çox geniş idi. O, uzun müddət, 29 il səyahət etmişdir. O, Azərbaycanın bütün rayonlarında, Orta Asiya, Sibir, Gürcüstan, Orta Asiya, Ukrayna və Belarusiyada olmuş, son səyahəti isə 55 yaşında ikən Urala olmuşdur.

Qafur Rəşad 17 yaşına qədər Şamaxıda, 24 yaşına qədər Lahıcda və ömrünün qalan 35 ilini Bakıda yaşamışdır. Ömrünün son iki ilində o, müəllimlik etməklə yanaşı, Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəb İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.



**Q.R. Mirzəzadənin "Qafqaz coğrafiyası"**
**kitabının titul vərəqi. 1909-cu il**
**(3, inv.№308/6)**

Q.R.Mirzəzadənin vəfatı ilə bağlı Fondda saxlanılan ailə üzvlərinin xatirələrində qeyd olunur: "Xalqımızın Hitler Almaniyası ilə savaşının ən qızğın vaxtında kənd təsərrüfatına rəhbərlik edə biləcək adama tələbat xeyli artmışdı, bu zaman 1943-cü ilin may ayında o, partiyanın çağırışına səs verərək Şamaxı rayonuna göndərilmişdir. Burada o, gücünü əsirgəməyərək, canını qorumayaraq kənd təsərrüfatı işinə rəhbərlik etmiş və ən çətin şəraitdə onu müvafiq vəziyyətə qaldırmışdır. Ailəsindən ayrı qaldığına görə o, qida rejimini pozmuş, xeyli yorulmuş, bu da onun səhhətində fəsad vermiş və o, yüksək

hərarətlə Bakıya xəstəxanaya çatdırılmışdır. 1943-cü ilin noyabr ayına qədər o, xəstəxanada qalmışdır. Bizim təkidlərimizə baxmayaraq o, bizlərə əziyyət verməmək üçün evə getməyə razılıq vermir və yalnız noyabr ayının 6-da ağır vəziyyətdə biz onu evə gətirməyə müvəffəq oluruq. Burada ailə üzvlərimizin, qohum və tanışlarımızın arasında noyabr ayının 27-də o, vəfat edir" (3, inv.№308/5).

Qafur Rəşad Mirzəzadə təkcə maarifçi və alim deyil, həm də cəsarətli bir vətəndaş, alovlu təbliğatçı idi. O, hələ 1911-ci ildə "Ümumi coğrafiya, I hissə" adlı əsərində çarizm üsuli-idarəsini tənqid edərək yazırdı ki, xalqdan toplanılan pullar, həyatın pisləşməsinə deyil, onun xoş günə çıxmasına sərf edilməlidir.

O, xalqda mənfur çarizmə qarşı nifrət oyatmaqda, inqilabi qələbəyə qarşı həmişə inam yaratmaq işində böyük rol oynamışdır.

Qafur Rəşad Mirzəzadə maarifçi və alim olmaqla yanaşı, 41 il dərs demişdir. Lakin onun ən böyük xidməti coğrafiya sahəsində olmuşdur. Qafur Rəşad bizim mədəniyyət tariximizdə ana dilində ilk coğrafiya kitablarının banisi kimi tanınır.

Zamanın ən mürəkkəb dövrlərində Azərbaycan xalqının göz açmasında, həqiqəti anlamasında, onun doğru yol seçməsində başqa maarifçilər kimi, onun da zəhməti az olmamışdır. Bütün qüvvəsini xalqının elmi inkişafına və maariflənməsinə sərf edən Qafur Rəşad Mirzəzadənin adı bu gün də böyük iftixar hissi ilə çəkilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, II c., Bakı, 2005, 472 s.
2. *Qafur Rəşad.* Coğrafiya: 4 qismdə, II q., Bakı, 1924, 117 s.
3. Milli Azərbaycan Tarixi Muzeyi. Sənədli Mənbələr Fondu.
4. *Yüzbaşov R.* Məşhur coğrafiyaşünas Qafur Rəşad Mirzəzadə. Bakı, 1968, 31s.
5. *Намазова С.Т.* Выдающийся азербайджанский педагог Гафур Рашад Мирзазаде // Вестник КазНУ. Серия «Педагогические науки», №2 (36), 2012, с.17-19
6. *Namazova S.T.* Pedaqoji irsimizdən: Qafur Rəşid Mirzəzadə. Bakı: Elm və təhsil, 2014, 197 s.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 103-109
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, T. 67, № 4, c. 103-109
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 103-109

*UOT 32*

***F.B.Əliyeva, E.İ.Nəbiyeva, G.Q.Quliyeva***
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*fazilkaazerinka@mail.ru*

# ÜMUMMİLLİ LİDER VƏ GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *gənclik, Azərbaycan Respublikası, gənclər siyasəti, dövlət proqramı, nailiyyətlər, inkişaf*

Məqalədə ümumilikdə intellektli, vətənpərvər gənc nəslin yetişdirilməsinin xalq, dövlət üçün əhəmiyyətindən, həmçinin Azərbaycan Respublikasında dövlət səviyyəsində gənclərə göstərilən qayğı və diqqətdən bəhs olunur. Belə ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün də ölkədə həyata keçirilən əsas dövlət siyasətlərindən biridir. Son illər ölkəmizdə gedən demokratik dəyişikliklər və görülən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına müsbət təsir göstərmişdir. Hələ 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmiş “Dövlət gənclər siyasəti haqqında” Fərman dövlət gənclər siyasətinin həyata keçirilməsinə, uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istiqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır. Başlıca məqsəd vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılmasıdır. Nəticə olaraq Azərbaycan gəncləri ictimai həyatın bütün sahələrində yaxşı mənada seçilirlər. Onlar respublikanın siyasi, iqtisadi, mədəni həyatında yaxından iştirak edir və əhəmiyyətli rola malikdirlər.

***Ф.Б.Алиева, Э.И.Набиева, Г.Г.Гулиева***

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР И ФОРМИРОВАНИЕ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ

***Ключевые слова:*** *молодежь, Азербайджанская Республика, молодежная политика, государственная программа, достижения, развитие*

В статье отмечается важность воспитания интеллектуального, патриотичного молодого поколения для народа и государства, а также заботы и внимания к молодежи на государственном уровне в Азербайджанской Республике. Таким образом, государственная молодежная политика, заложенная великим лидером Гейдаром Алиевым, является одной из основных государственных политик, осуществляемых сегодня в стране. Недавние события в стране и принятые меры ускорили создание политических, социально-

экономических, организационных и правовых условий для всестороннего развития молодежи и оказали положительное влияние на рост их общественно-политической активности. Указ о «Государственной молодежной политики», подписанная нашим общенациональным лидером Гейдаром Алиевым в 1999 году, направлена на реализацию государственной молодежной политики, обучение детей и молодежи, научное изучение процессов, происходящих в жизни молодежи, и решение проблем, с которыми сталкиваются дети, подростки и молодежь. Основная цель – формировать современное молодое поколение. В результате, азербайджанская молодежь хорошо формировалась во всех сферах общественной жизни. Они тесно вовлечены и играют важную роль в политической, экономической, культурной жизни республики.

***F.B.Aliyeva, E.I.Nabiyeva, G.Q.Guliyeva***

## NATIONAL LEADER AND FORMATION OF YOUTH POLICY

***Keywords:*** *youth, Azerbaijan Republic, youth policy, state program, achievements, development*

The article notes the importance of educating the intellectual, patriotic young generation for the people and the state, as well as the care and attention to youth at the state level in the Republic of Azerbaijan. Thus, the state youth policy laid down by the great leader Heydar Aliyev is one of the main state policies implemented in the country today. Recent events in the country and the measures taken have accelerated the creation of political, socio-economic, organizational and legal conditions for the comprehensive development of young people and had a positive impact on the growth of their social and political activity. The decree on the “State Youth Policy”, signed by our national leader Heydar Aliyev in 1999, is aimed at implementing the state youth policy, educating children and young people, scientifically studying the processes occurring in the life of young people, and solving the problems faced by children, adolescents and youth. The main goal is to shape the modern young generation. As a result, Azerbaijani youth were well formed in all spheres of public life. They are closely involved and play an important role in the political, economic, cultural life of the republic.

Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu gün Azərbaycanda sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin

rəhnidir [6]. Dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarının, potensialının səmərəli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir.

Çox sevindirici haldır ki, təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Dövlət Gənclər siyasəti bu gün Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Belə ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olub. Gənclərlə iş, milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması ümummilli liderimizin gündəlik işinə çevrildi.

Hələ SSRİ-nin mövcudluğu dövründə Azərbaycan SSR-nin rəhbəri işləyərkən ümummilli lider Azərbaycanın gələcəyi haqqında düşünmüş, onun yüksəkixtisaslı zabit kadrlara ehtiyacını nəzərə alaraq bir sıra tədbirlər görmüşdür. 1972-ci ildə onun bilavasitə təşəbbüsü və təkidi ilə Bakıda xüsusi hərbi məktəb – Cəmşid Naxçıvanski adına məktəb açılmışdır. Azərbaycan milli ordusunun yaranmasında və təşəkkül tapmasında bu məktəb çox böyük xidmətlər göstərmiş, hər il onun 800-900 nəfəri Sovet İttifaqının ali hərbi məktəblərinə göndərilirdi. İndi ordumuzda xidmət edən zabitlərin çoxu həmin dövrdə hazırlanan zabitlərdir. Bir qədər sonra isə Azərbaycan Dövlət Pedaqoji Universitetində respublikamızda ilk dəfə milli zabit-müəllim hazırlayan İbtidai hərbi hazırlıq və fiziki təlim fakültəsi təşkil edilmişdir. 1978-1980-ci illərdə həmin fakültənin maddi-texniki bazası yaradıldı və 1981-ci ildə ilk tələbə qəbulu elan edildi. Qeyd etməliyik ki, fakültəni bitirən məzunlara leytenant hərbi rütbəsi verilirdi. Ulu öndərimiz Azərbaycanda belə bir fakültənin yaranmasının ikinci böyük əhəmiyyətini gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsinin geniş miqyasda təbliğ edilməsinə ciddi təsirində görürdü [2].

1970-1980-ci illərdə on minlərlə gəncin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsi yüksək ixtisaslı 15 minə yaxın kadr ordusunun yaradılmasına səbəb oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə respublikamızdan kənarda SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-ə yaxın ixtisas üzrə 15 min azərbaycanlı təhsil almışdır. Bu gün Heydər Əliyevin milli kadrları ölkədə ən yüksək mövqelərdə çalışırlar [5].

1993-cü ildə Ümummilli lider H.Əliyevin Azərbaycana qayıdışından sonra gənclərin problemlərinin həlli vacib dövlət məsələləri ilə bir sırada

prioritet yer aldı. Əgər sovet Azərbaycanına rəhbərliyi dövründə H.Əliyev gənclərə daha çox kadr potensialı kimi baxırdısa, müstəqil Azərbaycana rəhbərliyi dövründə isə o, onları artıq dövlətin idarə edilməsində aparıcı qüvvə kimi görürdü.

Ümumilikdə, Azərbaycanın Ümummilli lideri H.Əliyev tərəfindən müəyyən olunan və həyata keçirilən gənclər siyasəti özündə beş mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi;
- gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi;
- gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi;
- dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması;
- gənclərin Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası ilə təmin olunan imkanlardan maksimum istifadə etmələri üçün möhkəm əsasın yaradılması [3].

Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir.

1993-cü ilin 22 sentyabrında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən, Respublika Ali Sovetinin sədri, ümummilli lider Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmüş, Azərbaycan gəncliyini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı. Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-da bu siyasəti həyata keçirəcək yeni dövlət quruluşunun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunması, gənclərin sosial-iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi, gənc nəslin hərtərəfli inkişafı üçün şəraitin yaradılması olmuşdur. Respublikada çoxsaylı gənclər təşkilatlarının fəaliyyət göstərdiyi bir şəraitdə onların işini əlaqələndirmək zərurəti getdikcə özünü daha çox göstərirdi. Bu işi təmin etmək məqsədilə Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə 1996-cı ilin 2 fevralında keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda gənclərin bütün kateqoriyalarını: tələbələri, hərbiçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını təmsil edən 2 mindən çox nümayəndə iştirak

etmişdir. Forumun işində respublika Prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, gənclərin irad və təkliflərini dinləmiş, bütün Azərbaycan gəncliyinin problemlərini yaxından öyrənmişdir [4].

Ulu öndər 1997-ci ildə sərəncam imzalayaraq 2 fevralı "Gənclər Günü" elan etdi. Artıq 20 ildən çoxdur ki, ölkəmizdə bu gün böyük təntənə ilə qeyd edilir. Ulu öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanla müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratmış, gənclərin dövlət quruculuğu işinə geniş cəlb olunmasına və ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Gənclərin cəmiyyətin inkişafı və onun problemlərinin həllində rolunun, ölkənin gələcəyi naminə onların məsuliyyətinin artırılması, paytaxt və regionlarda yaşayan gənclərin nümayəndələri arasında fikir mübadiləsi üçün şəraitin yaradılması, gənclər təşkilatları ilə dövlət qurumları və hökumət strukturları arasında qarşılıqlı fəaliyyətin asanlaşdırılması məqsədilə 1999-cu il mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi [1]. Bu günə qədər Azərbaycan gənclərinin 8 forumu keçirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi.

Sevindirici haldır ki, gənclər siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət gənclər siyasətində istedadlı gənclərin müəyyən edilməsi, dəstəklənməsi və inkişafına böyük diqqət ayrılır. Təhsilli, yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda dövlətin oynadığı rol bu gün daha aktualdır. Gənclərin intellektual inkişafının dəstəklənməsi istiqamətinə xüsusi diqqət ayrılmışdır. Azərbaycan gənclərinin beynəlxalq səviyyədə tanıdılması və onların inkişafının stimullaşdırılması məqsədilə istedadlı tələbə, gənc alim, yaradıcı gənclərin beynəlxalq mübadiləsi dəstəklənmiş, xaricdə keçirilən yarış, müsabiqə layihə təqdimatında iştirakı təmin edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə imzaladığı Azərbaycan Gəncliyi Dövlət Proqramlarının təsdiq edilməsi haqqında sərəncamları da gənclərə dövlət qayğısının artırılmasına xidmət edir. Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi,

yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində çoxsaylı tədbirlər həyata keçirilməkdədir.

Cənab Prezident gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamı da gənclərə dövlət qayğısının davamı idi. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Prezident fərmanları bu istiqamətdə görülən mühüm tədbirlərdəndir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir. Prezident İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin növbəti sübutu idi. Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq görərik ki, orada gənclər əksəriyyət təşkil edir [1].

Beləliklə, göründüyü kimi, Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin gənclər siyasəti onun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında yeni keyfiyyət səviyyəsində ardıcıl olaraq böyük nailiyyətlərlə davam etdirilir. Əminliklə demək olar ki, Azərbaycan Gəncliyin Ulu öndərimizin siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməsi bir daha onu sübut edir ki, ölkəmiz daha böyük qələbə və uğurlara imza atacaq və ölkənin gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması, onların ictimai-siyasi fəallığının artırılması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitlərin yaradılmasını sürətləndirmişdir. Azərbaycan

gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bu gün gənclər dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, digər təşkilatlarda təmsil olunurlar və cəmiyyətin inkişafına öz töhfələrini vermək imkanına malikdirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan gənclərinin II Forumu. 2-3 mart 1999-cu il, Bakı: Azərbaycan, 2000, 224 s.
2. *Baxşəliyev R.* Heydər Əliyev və gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi / “Respublika” qəz., 2010, 27 may, №113, s.7
3. *Cəfərov A.M., İmaməliyev. E.B.* Azərbaycanın ictimai həyatında gənclərin rolu. MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. Bakı, 2012, 100 s.
4. *Cəfərov H.* Heydər Əliyev və Azərbaycan gəncliyi / “Palitra” qəz., 2013, № 59, s.7
5. *Paşayev Z.* Öndər / “Xalq” qəz., 2014, №88, s.3
6. Gənclər gələcəyimizin qurucularıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018, 40 s.
7. *Yusifli R.* Dövlət gənclər siyasəti Azərbaycanda prioritet sahələrdən biridir / “Respublika” qəz., 2016, 5 mart, № 51, s.5

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 110-117
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 110-117
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 110-117

*UOT 32*

***R.Y.Əliyeva***
*AMEA Hüquq və İnsan Haqları İnstitutu*
*aliyevaraya1@gmail.com*

# MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARININ "ƏRƏB BAHARI"NDA ROLU

***Açar sözlər:*** *"Ərəb baharı", müasir informasiya texnologiyaları, sosial şəbəkələr, İŞİD, Yaxın Şərq.*

Tunisdə başlayan Yaxın Şərq və Şimali Afrikanı bürüyən "Ərəb baharı"nın belə kütləvi və regional xalq hərəkatına çevrilməsində şübhəsiz ki, müasir informasiya texnologiyalarının, xüsusilə, sosial medianın rolu böyük olmuşdur. Hətta bu yeni məcraların çıxışlar zamanı təşkilatlanma və kommunikasiya vasitəsi kimi istifadə olunması baş verən üsyan dalğalarını "sosial media inqilabı" kimi də adlandırmağa imkan verir. "Ərəb baharı"nın gedişində sosial media dövlətlər arasında olan fiziki sərhədləri aradan qaldıraraq ümumi məqsədləri digər ölkələrə yaymış və ərəb coğrafiyasının gündəmini zəbt edərək vahid fikir formalaşdırmışdır. Nəticədə isə bir çox ölkələrdə həyəcanlar başladı, "diktator"lar devrildi və proses hələ də davam edir.

***Р.Я.Алиева***

# РОЛЬ СОВРЕМЕННЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В «АРАБСКОЙ ВЕСНЕ»

***Ключевые слова:*** *"Арабская весна", современные информационные технологии, социальные сети, ИГИЛ, Ближний Восток.*

Большую роль в превращении «Арабской весны» в Тунисе, на Ближнем Востоке и в Северной Африке в такое массовое и региональное массовое движение, несомненно, сыграли современные средства массовой информации, особенно социальные сети. Использование этих новых возможностей даже в качестве средства организации и коммуникации позволяет нам называть волны восстаний «революцией социальных сетей». Во время «арабской весны» социальные сети нарушив физические границы между государствами, распространяя свои цели на другие страны и захватив повестку дня арабской географии сформировали единую идею. В результате во многих странах был поднят ажиотаж, диктаторы были свергнуты и данный процесс продолжается и по ныне.

**R.Y.Aliyeva**

# THE ROLE OF MODERN INFORMATION TECHNOLOGIES IN THE "ARAB SPRING"

***Keywords**: "Arab Spring", modern information technology, social networks, ISIS, Middle East.*

The role of modern information technology, especially social media, surely has been significant for the "Arab Spring", which began in Tunisia and covered the Middle East and North Africa in becoming such a massive and regional movement. Even the use of these new facilities as a means of organizing and communicating during the speeches allows us to call the waves of revolt as a "social media revolution". During the "Arab Spring", social media spread common goals to other countriesby eliminating the physical boundaries between states and formed a single idea by conquering the Arabian geographical agenda. As a result, alarms commenced in many countries, "the dictators" have been overthrown, and the process is still ongoing.

## Giriş

Texnoloji inkişafla bağlı olaraq gündən-günə kütləvi informasiya vasitələrinin fərdlərə təsiri artmaqda və dünyanı yenidən formalaşdırmaqdadır. Radio və televiziya ilə yanaşı güclü bir potensiala sahib olan internet şəbəkəsi də demək olar ki, informasiya məkanında sərhədləri ortadan qaldırmış güclü inteqrasiya mühiti yaratmışdır. Sistemli bir şəkildə özünü yeniləyən və əhatə dairəsini genişləndirən internet texnologiyaları böyükdən kiçiyə hər kəsin diqqətini çəkərək çağımızın ən önəmli kommunikasiya vasitəsinə çevrilmişdir. Son on ilə nəzər salsaq görərik ki, başda sosial media olmaqla internet çıxışları beynəlxalq münasibətlər və dünyada gedən proseslərə təsirdə televiziya və qəzet kimi ənənəvi media vasitələrini geridə qoymuşdur.

## Müasir informasiya texnologiyalarının "Ərəb baharı"nın meydana gəlməsi və inkişaf dinamikasına təsiri

Müasir kommunikasiya vasitələrinin yeni əsrdə əsas aktor kimi çıxış etməsinin səbəblərini aşağıdakı üstünlükləri ilə əlaqələndirə bilərik:

1. Kommunikasiyanın çoxcəhətli olması tək mənbədən alıcıya deyil, eyni zamanda alıcıdan mənbəyə də bilgi axınını təmin edir. Göndərilən məlumat digər istifadəçilərlə birgə qarşılıqlı müzakirə oluna bilir.
2. Zaman və məkan anlayışını aradan qaldırması. Artıq internet istifadəçiləri günün istənilən vaxtında harada olmalarından asılı olmayaraq internet şəbəkələrinə qoşularaq yeniliklərdən məlumatlana bilirlər.
3. İnformasiyanın paylaşıldığı mühitin daha azad və sərbəst olması.

2011-ci ildə meydana çıxan "Ərəb oyanışı" olaraq da adlandırılan "Ərəb baharı" bölgədə domino effekti yaradaraq "diktatura" rejimlərinə qarşı olan

etirazları geniş miqyasda yaymışdır. Bu etirazlar tək Yaxın Şərqdə deyil, həmçinin bütün dünyada əks-səda vermişdir.

“Ərəb baharı”nın yaranması və yayılmasında müasir informasiya texnologiyalarının, xüsusilə sosial medianın rolu haqqında yanaşmalar iki istiqamətdə özünü göstərir:

1. Passiv təsirə malik olmuşdur. Çünki sosial media mühitində insanlar arasında pərakəndəlik olur ki, bu da üsyanların məqsədinə çata bilməsi üçün mühüm şərt sayılan mərkəzləşmənin qarşısını alır. Eyni zamanda sosial mediada olan məlumat çoxluğu diqqət mərkəzinin tez-tez dəyişməsinə səbəb olur. Bunlar isə “Ərəb baharı”nda özünü göstərən mövcud reallıqlarla səsləşmir.

2. Aktiv rola malikdir. “Ərəb baharı”nın baş verməsi və yayılmasında müasir informasiya texnologiyalarının rolu böyükdür, hansı ki, bu məqalədə aktiv istiqamət üzrə izah verilmişdir.

Sosial medianın “Ərəb baharı”nın inkişaf dinamikasına təsirinin müsbət istiqamətdə olması bir sıra araşdırmalarda da təsdiqini tapmışdır. “Dubai School of Government" qrupunun 2011-ci ilin yanvar ayında hazırladığı “Ərəb sosial media hesabatı" da sosial medianın istifadəçilərin fikirlərinin formalaşmasında mühüm rol oynadığı qənaətinə gəlinmişdir [1]. Həmin qrup tərəfindən 2011-ci ilin may ayında yeni bir hesabat hazırlanmışdır. Hesabatda yer alan Misir və Tunisdən olan istifadəçilərin “Facebook” sosial şəbəkəsini hansı məqsədlə istifadə etməsi haqqında anketin nəticələrindən aydın olur ki, misirli istifadəçilərin təxminən 85 faizi, Tunisli istifadəçilərin isə təxminən 86 faizi “Facebook” sosial şəbəkəsini “hərəkətləri təşkil etmək və istiqamətləndirmək", “ölkə daxilindəki mövcud vəziyyətlə bağlı məlumat yaymaq" məqsədilə istifadə edirlər [2]. Həmin tarixə nəzər salsaq aydın görə bilərik ki, 2011-ci ilin yanvar və may ayları arasında Tunis və Misirdə “Ərəb baharı”nın dağıdıcı dalğaları özünü daha qabarıq şəkildə göstərmişdir. Ölkə prezidentləri olan Zeynalabdin ben Əli və Hüsnü Mübarək istefa vermiş, xalqın etirazları yüksək səviyyəyə çatmışdır. Məqsədlərinə çatdıqlarını düşünən hər iki ölkə vətəndaşları əllərindəki imkanlardan istifadə edərək öz sevinclərini dünyaya çatdırmaq, bir-birlərindən xəbərdar olmaq və müəyyən hərəkətləri həyata keçirmək üçün təşkilatlanmaq məqsədilə sosial medianın üstünlüklərindən istifadə etmişlər.

“Ərəb baharı”nda sosial media başda olmaqla müasir informasiya texnologiyaları önəmli aktor kimi çıxış etsə də, bu təsir hər bir ölkədə müxtəlif şəkildə özünü göstərmişdir. Bunu ölkələr üzərindən izah etsək, daha aydın olar.

“Ərəb baharı”nın meydana gəldiyi Tunis bölgədə sosial medianın daha az təsirli olduğu ölkələrdəndir. Əhalisinin 67 faizi internet istifadəçisi olduğu halda onlar arasında sosial şəbəkə istifadəçilərinin sayı daha azdır [3]. Buna səbəb ölkədə sosial media istifadəsinə qarşı yönəldilən maneələr idi. Tunisdə sosial media çıxışların başlamasında deyil, daha çox onun gedişində etirazçıları əlaqələndirərək mərkəzləşdirilməsində böyük xidmət göstərmişdir. Bu da

etirazların artan templə inkişafına şərait yaradaraq onun təsir dairəsini genişləndirmişdir. Tunisdə ilk çıxışlar daha yüksək rifah əldə etmək məqsədilə 4 yanvar 2011-ci ildə başladı. Nəticədə, on gün sonra 14 yanvar 2011-ci il tarixdə Tunis prezidenti Zeynalabidin ben Əli istefa edərək ölkədən qaçdı. Bu hadisələr uzunmüddətli diktatura rejimində yaşayan ərəb ölkələri üçün bir ümid işığı oldu və çıxışlar digər ölkələrə də yayılmağa başladı.

Misir inqilab gedişində sosial medianın ən çox təsir gücünə malik olduğu ölkələrdən biridir. Əhalisinin 14.7 faizinin internet istifadəçisi olduğu Misirdə baş verən çıxışları "sosial media inqilabı" adlandırsaq, daha doğru olar [3]. Bu ölkədə hələ etirazlardan əvvəl sosial mediadan istifadə geniş yayılmışdı. Xalq bu virtual kommunikasiya vasitəsindən istifadə edərək mövcud rejimə qarşı fikirlərini səsləndirir, müxalif qüvvələr isə insanlara öz səsini çatdırırdı. Nəticədə isə sosial media insanların kütləvi formada mərkəzləşib meydanlara tökülməsinə şərait yaratdı. Misirdə inqilab xüsusilə "Facebook" sosial şəbəkəsi üzərindən idarə olunurdu. Eyni zamanda Misirdə etirazçıların daha çox insanı öz sıralarına cəlb etməsində sosial media ilə yanaşı, cümə namazlarından sonra əhali arasında paylanan əl broşürlərinin də önəmli rolu olmuşdur.

Liviyada gərginləşən vəziyyətin və 17 fevral 2011-ci il tarixdə başlayan xalq həyəcanlarının qarşısını almaq üçün prezident Müəmmər Qəzzafi müəyyən cəhdlər göstərməyə çalışsa da, "Ərəb baharı"nın alovu onu da "taxtından" saldı. Liviyada sosial media fəaliyyətinin ən yüksək nöqtəsinə Müəmmər Qəzzafinin öldürüldüyü videonu dünyaya yaymaqla çatdı [4]. Qəzzafi anadan olduğu Sirt şəhərindən çıxarkən NATO tərəfindən həyata keçirilən əməliyyatla dayandırılmış və silahlı müxalifət qüvvələri tərəfindən öldürülmüşdür. Bu anlar cib telefonu vasitəsilə qeydə alınaraq bütün dünyaya yayılmışdır.

Əhalisinin 34.2 faizinin internet istifadəçisi olduğu Suriyada müxalifət sosial mediadan aktiv şəkildə istifadə etmişdir [5]. Bəşər Əsəd və BƏƏS partiyasının ölkəyə xarici jurnalistlərin daxil olmasına yaratdıqları maneələr sosial medianı, xüsusilə, xəbər paylaşımı üçün önəmli bir platforma, xarici media üçün isə ölkədə baş verən proseslərdən xəbərdar ola bilmək üçün bir mənbə halına gətirmişdir. Beləliklə, "Facebook", "Twitter" və "Youtube"də davamlı olaraq ölkə daxilində baş verən proseslərlə bağlı xəbər paylaşan müxalif qüvvələr öz səslərini bütün dünyaya çatdırmağı bacardılar. 15 mart 2011-ci ildə Suriyada başlayan etirazlar qarışıq və çoxtərəfli olması ilə digərlərindən fərqlənirdi. Burada Suriya xalqının maraq və istəkləri ilə bərabər ABŞ və Rusiya başda olmaqla Türkiyə, İran kimi dövlətlərin də maraqları toqquşur. Bu da həll prosesini mümkünsüz hala gətirir. Rusiya Bəşər Əsədi bu regionda son ümid yeri kimi görür və bunun üçün də onun hakimiyyətini dəstəkləyir. ABŞ insan haqlarının boğulmasını əsas gətirərək özünün dəstəklədiyi "demokratik" idarəçiliyin yaradılmasını istəyir. Türkiyə isə sərhədlərinin təhlükəsizliyi məsələsini ortaya ataraq öz mənafeyinə uyğun olan

variantı tapmağa çalışır. Ümumiyyətlə, böyük dövlətlərin maraq və gözləntiləri "Ərəb baharı"nın inkişaf istiqamətlərini müəyyənləşdirir.

Başda Tunis, Misir, Liviya, Suriya, Bəhreyn, Yəmən kimi ölkələrdə görünən "Ərəb baharı" bütün dünyaya müasir informasiya texnologiyaları və sosial paylaşım şəbəkələri vasitəsilə yayılmışdır. Sosial medianın "Ərəb baharı"na birbaşa təsir etməsi elmi araşdırmalarla da sübuta yetirilmişdir. Vaşinqton Universitetində aparılan "Ərəb baharında sosial medianın rolu" adlı araşdırmada Şimalı Afrikadan Yaxın Şərqə yayılan azadlıq və demokratiya hərəkatını sosial medianın sürətləndirdiyi nəticəsinə gəlinmiş və onun azadlığın əldə edilməsində çox təsirli bir silah olması qənaəti vurğulanmışdır [6].

Misirin keçmiş prezidenti Hüsnü Mübarəkin istefa etdiyi həftə boyunca paylaşılan tvitlərin sayı 2300-dən 230.000-ə qədər yüksəlmiş və bu mövzulu tvitlər sosial şəbəkənin gündəmini zəbt etmişdir. Tvitlərin sayının bu cür sürətlə artmasını mütəxəssislər "kəpənək effekti" ilə izah edirlər. Çünki "Twitter"dəki paylaşımların əhatə dairəsi digər şəbəkələrdən daha genişdir və bu da müxalif qüvvələrin işini asanlaşdırır.

Baş verən proseslərin genişlənməsinin qarşısını almaq üçün kütlənin göstərdiyi reaksiya və etirazlar çox vaxt radio və televiziya üzərindən azad və geniş şəkildə yayımlanmırdı. Ancaq internet daha azad bir mühit yaratdığı üçün istifadəçilər sosial şəbəkə üzərindən "Ərəb baharı" ilə bağlı bütün proses və yeniliklərdən xəbərdar ola, bu barədə öz fikirlərini yaza və görüntülər paylaşa bilirdilər. Belə qarışıq vəziyyətdə insanların sosial media vasitəsilə əlaqə saxlaması, yeniliklərdən xəbərdar olması, birlik və bərabərlik nümayiş etdirməsi etirazların daha da dərinləşməsinə səbəb oldu. Çünki müxalif qrupların özlərini tam şəkildə ifadə etdikləri və məqsədlərini ortaya qoya bildikləri yeganə platforma sosial şəbəkələr idi. Xalq birlik və mübarizə ruhunu burada görüb hiss edərək coşdu. Həmçinin baş verən olayların sosial mediada yer alması digər ölkələrin xalqlarını da hərəkətə gətirdi. Qonşuluğundakı hadisələri bütün gerçəklikləri ilə oxuyan insanlarda "eyni dini və coğrafiyanı bölüşürük, yaxın dillərdə danışırıq, onlar edə biliblərsə biz də bacara bilərik" fikri formalaşmışdır. Eyni zamanda müasir informasiya texnologiyalarının inkişafı ilə bağlı olaraq hadisələrin baş verdiyi anda sosial media üzərindən yayılması, fərqli ölkələrdən olan insanların ortaq məqsədli qruplarda gizli şəkildə öz fikirlərini bölüşərək fəaliyyət istiqamətlərini müəyyənləşdirmələri bütün regionlarda üsyanların demək olar ki, eyni anda başlamasına, bununla da geniş miqyas alaraq daha dağıdıcı və təsirli olmasına gətirib çıxardı. Bunun nəticəsidir ki, bəzi ölkələrdə hakimiyyət dəyişiklikləri baş verdi.

**Müasir informasiya texnologiyalarının "Ərəb baharı" çərçivəsində özünü göstərən terror təşkilatlarının fəaliyyətinə təsiri**

Ərəb oyanışının baş verdiyi ərazilərdə üsyan dalğalarının təsiri ilə idarəçilik strukturlarının sıradan çıxması, ölkələrdə olan sabitliyin aradan qalxması regionda olan azlıqların, fərqli maraqlar güdən qrupların fonunda bir sıra terror qruplaşmalarının baş qaldırmasına səbəb oldu. Təbii ki, müasir informasiya texnologiyaları bu məsələyə də təsirsiz qalmamış və proseslərin hərəkətverici qüvvəsi kimi özünü göstərmişdir.

İnternet qlobal terrorizm üçün çox önəmli bir vasitədir. O terrorist qruplar arasında planlama, idarəetmə, nəzarət və kommunikasiyanın təmin olunması üçün geniş imkanlar yaradır. Terror təşkilatları öz tərəfdaş kütlələrini böyütmək və diqqət çəkmək məqsədilə xüsusilə sosial şəbəkələrdən geniş istifadə edirlər. Bir növ sosial media onların işlərini asanlaşdırır, desək, yanılmarıq. Bu pəncərə vasitəsilə terror təşkilatları insanlar arasında rahat şəkildə öz məlumatlarını yaya və PR apara bilirlər. Bir neçə onillik öncə hər hansı bir qrup bildirişlərini yaymaq və gücünü nümayiş etdirmək üçün ya televiziya binasına, ya da onun yayım tezliyinə daxil olmalı idi. Bu isə kifayət qədər təhlükəli və maliyyə tələb edən bir iş idi. İndi isə bunun üçün bir neçə sosial şəbəkə hesabı və sayt yaratmaq kifayət edir. Həmçinin bu texnologiyalar terror qruplaşmalarının maliyyə ehtiyaclarını ödəmək üçün kibercinayətkarlıq yolu ilə müxtəlif şəxslərin bank hesablarından gizli şəkildə pul köçürülməsini də təmin edir. Bu faktı "Ərəb baharı" gedişində önəmli bir faktor kimi özünü göstərən İŞİD üzərindən aydın izah edə bilərik.

İŞİD siyasi arenada göründüyü ilk vaxtlardan sosial medianın imkanlarından bacardığı qədər geniş istifadə etməyə çalışmışdır. Aparılan araşdırmalar bu yöndə bəzi maraqlı faktları üzə çıxarır. Amerikada "RAND Corparation" tərəfindən "Twitter" sosial şəbəkəsində 770 min istifadəçinin 23 milyon ərəbcə tvitinin analiz edilməsi nəticəsində hazırlanan hesabata görə İŞİD tərəfdarı olan istifadəçilərin say göstəriciləri ona qarşı olanlardan altı dəfə azdır [7]. Lakin paylaşımlara nəzər salarsaq, İŞİD-ə tərəfdar məzmunlu yazıların sayca çox olduğunu görərik. Bu da insanlarda psixoloji yanılma yaradır. Onlar bu terrorist təşkilatın gücünün və tərəfdaşlarının əslində olduğundan daha çox olmasını düşünərək ona qarşı vahimə və ya simpatiya hissi keçirirlər. Hesabata görə, tvitlər arasındakı say fərqinin bu formada olmasına əsas səbəb tərəfdar olan qrupun sosial media üzərindən sistemli şəkildə fəaliyyət göstərməsidir. Heç bir hadisənin baş vermədiyi normal günlərdə İŞİD tərəfdarları ona qarşı olanlardan 50 faiz çox paylaşım edir. Buunla da sosial mediada öz həmfikirlərinin çox olması kimi fikir yaratmağa nail olurlar.

İnternet sayəsində virtual məcralardan davamlı olaraq istifadə edən təşkilat özünə və ya üzvlərinə qarşı olan insanlara tətbiq etdiyi bənzərsiz şiddət

növlərini sosial media hesablarından paylaşaraq şiddəti təbii hala gətirmişdir. Baş kəsmək, maşının arxasına bağlayaraq sürümək, qəfəsin içində boğmaq kimi işgəncə görüntülərini İslamın cəzalandırma metodları olaraq normal bir hal kimi göstərən İŞİD-in bu yolla çatmaq istədiyi məqsədlər aşağıdakılar kimi qruplaşdırıla bilər:

1. Sözdə özünün qüdrətini sübut etmək, başda siyasi aktorlar olmaqla ölkələrin təhlükəsizlik strategiyalarına meydan oxumaq.

2. Sistemli fəaliyyət sayəsində daim gündəmdə qalmaq. Beləliklə, tərəfdaşlarının güvən və rəğbətini qazanmaq, onların təşkilat sıralarını tərk etməsinə imkan verməmək.

3. Daha çox insanla əlaqə qurmaq və onların hesabına öz sıralarını genişləndirmək.

Araşdırmalar göstərir ki, İŞİD-in sosial mediada yaratdığı bu məğlubedilməz imic fərqli ölkələrdən olan bir çox yeniyetmə və gənci özünə çəkir. Cəmiyyətdə xor görülən, kiçildilən insanlar, xüsusən də yaşadıqları ölkələrdə xoş qarşılanmayan miqrant gənclər öz güclərini sübut etmək, qarşılaşdıqları haqsızlıqlara cavab vermək məqsədilə İŞİD-ə qoşulurlar [8].

Kiçik bir müqayisə aparsaq sosial media üzərində İŞİD-ə dair müzakirələrin Əl-Qaidəninkindən daha çox olduğunu görə bilərik. Çünki İŞİD sosial mediada psixoloji hiylələrdən məharətlə istifadə edərək insanları manipulyasiya edir. “Bunu paylaşın!“, “Bunu dəstəkləyin!“ kimi söz oyunlarından istifadə edərək öz “uğurlarını“ yayır və tərəfdarlarının sayını artırır. Təbii ki, bu kimi hiylələrə fikir verməyən gənclər bu böyük tamın bir parçası olaq niyyəti ilə dolayı yolla ona xidmət etmiş olurlar. Əl-Qaidə isə “YouTube”da uzun müzakirə videoları yayaraq bir növ süstlük yaratmış olur və gəncləri özündən uzaqlaşdırır.

İŞİD digər sosial şəbəkələrə nisbətdə “Facebook”dan daha az istifadə edir. Çünki, “Facebook” istifadəçiləri əsasən bağlı profillərdən istifadə etdiklərindən ancaq ətraflarındakı insanlarla əlaqə qura bilirlər. Lakin bununla belə yenə də təşkilat bu şəbəkə üzərindən təbliğat apararaq öz tərəfdarlarının sayını artırmağa çalışır. “Facebook” bunun qarşısını almaq üçün İŞİD tərəfdarı olan bir çox hesabı silmişdir. Buna cavab olaraq İŞİD facebookun qurucusu M.Zukerbergi təhdid edən video yayımlasa da, digərləri kimi bu görüntülər də internet üzərindən silinmişdir. Daha sonra təşkilat özünün “5elafabook.com“ adlı “Facebook” saytını qursa da, onun da ömrü bir gündən çox çəkmədi [9].

Müasir informasiya texnologiyaları və sosial media “Ərəb baharı”nın yaranması və inkişafında mühüm rola malik olsa da, bu prosesi sırf onların adı ilə bağlamaq doğru olmazdı. Çünki ərəb xalqının baş qaldırmasında ölkə daxilindəki ziddiyyətlər, sosial qruplar arasındakı fərqlər, idarəçilik sistemlərindəki çatışmazlıqlar birbaşa rol oynamışdır. İnformasiya texnologiyaları isə bu dəyişikliklərin həyata keçirilməsində bir vasitə olmuşdur.

## ƏDƏBİYYAT

1. Mourtada, Racha, Fadi Salem, and Dubai School of Government. “Arab Social Media Report.” 1, (01.2011).
2. Mourtada, Racha, Fadi Salem, and Dubai School of Government. “Arab Social Media Report.” 2, (05.2011).
3. “Internet Users Statistics for Africa.March 31 , 2019.” https://www.internetworldstats.com/stats1.htm (01.05.2019).
4. https://www.alarabiya.net/articles/2011/10/20/172836.html (18. 01. 2020).
5. "Internet Usage in the Middle East.March 31, 2019 " https://www.internetworldstats.com/stats5.htm#me (01.05.2019).
6. "Sosyal medyanın Arap Baharı'ndaki rolünün bilimsel kanıtı." (23.10.2017), http://www.esiber.com/sosyal-medya/sosyal-medyanin-arap-baharindaki-rolunun-bilimsel-kaniti/ (03.05.2019).
7. RAND Corporation " Examining ISIS Support and Opposition Networks on Twitter" (s.9,10), 2016.
8. "Gençlerin IŞİD'e Katılma Nedeni Horlanmak" (16.02.2016), https://www.amerikaninsesi.com/a/genclerin-isid-e-katilma-nedeni-horlanmak/3193540 (07.05.2019).
9. İŞİD Facebook'a el attı”,10.03.2015), https://www.google.com/amp/s/m.sabah.com.tr/dunya/2015/03/10/isid-facebooka-el-atti/amp (10.05.2019).

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 118-126
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 118-126
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 118-126

***UOT 94***

***Y.L.Həsənov***
*Sumqayıt Dövlət Universiteti*
*ali200808@rambler.ru*

# YUNANISTANDA – QƏRBİ TRAKYADA YAŞAYAN TÜRKLƏRİN İCTİMAİ-SİYASİ TARİXİNƏ DAİR (1960-1990)

***Açar sözlər:*** *Türkiyə, Yunanıstan,* ***Q****ərbi Trakya türkləri*

Məqalə Yunanıstanda - Qərbi Trakyada yaşayan türklərin 1960-1990-ci illərdə ictimai-siyasi tarixini əhatə edir. Türkiyə-Yunanıstan münasibətləri fonunda Yunanıstanın Qərbi Trakyada yaşayan tüklərə dair siyasəti faktlarla izah edilir. Xüsusilə, Kipr problemi və onunla bağlı olaraq Yunanıstanda hakimiyyətdə olan hökumətlərin Qərbi Trakya türklərinə dair təzyiq siyasəti, bu siyasət nəticəsində Qərbi Trakya türklərinin əsrlərdir yaşadığı vətənlərini tərk etməsi haqqında məlumat verilir.

Məqalədə həmçinin göstərilən xronoloji çərçivədə Qərbi Trakya türklərinin təhsil, türk dilində oxuma, 1968-ci ildə işlək hala gətirilən Türkiyə-Yunanıstan mədəniyyət protokolu, türk şagirdləri üçün yunan məktəblərinin açılması, 1984-cü ildə Qərbi Trakya Türk Müəllimlər Birliyinin bağlanması, liseylərdə türkcə oxudulan dərslərdən yunanca imtahan məcburiyyəti qərarının qəbul edilməsi, bütün bunlara baxmayaraq Yunanıstanda türklərin öz hüquqları uğrunda daha fəal mübarizəyə başlamalarından bəhs edilir. Daha sonra məqalədə 1981-ci ildə Avropa Birliyinə tam üzv olan Yunanıstanda türk etnik azlığın hüquqlarına dair yarıtmazlığın düzələcəyinə ümidin artmasına baxmayaraq bir çox əsas hüquqların yenə də əldə olunmaması, əksinə, 15 noyabr 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyətinin elan edilməsindən dərhal sonra yunan dövlətinin sərt addım atması, 1989-cu ildən etibarən türk azlığın seçib-seçilmə hüququnu əlindən almaq üçün müxtəlif yollara əl atması haqqında məlumat verilmişdir. Son olaraq məqalədə, XX əsrin 90-cı illərində türk azlığın ictimai-siyasi vəziyyətinin ümumi mənzərəsi verilmişdir.

***Ю.Л.Гасанов***

# ОБ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ИСТОРИИ ТУРОК, ЖИВУЩИХ В ЗАПАДНОЙ ФРАКИИ (1960-1990) – ГРЕЦИИ

***Ключевые слова:*** *Турция, Греция, Турки Западной Фракии*

В статье освещается общественно-политическая история турок Греции - Западной Фракии в период с 1960 г. по 1990 г. На фоне отношений Греции и Турции с помощью фактов объясняется политика Греции в отношении турок живущих в Западной Фракии. В частности, обращается внимание к проблеме Кипра, и связанная с этим политике давления на турок Западной Фракии, правительств, которые правили на тот момент в Греции, и на то, что в результате

этой политики турки Западной Фракии покинули территории, где проживали на протяжении веков.

В статье также в данной хронологической рамке рассказывается о вопросах образования турок Западной Фракии, правах получения образования на турецком языке, протоколе о турецко-греческой культуре, вступивший в силу в 1968 году, открытии греческих школ для турецких учащихся, закрытии Союза учителей западной Фракии в 1984 году, принятии решения об обязательном проведении в лицее экзаменов в греческом языке по предметам которые учащийся изучали на турецком языке, и о том, что не смотря на все перечисленное турки в Греции начали бороться за свои права еще более активно. Далее в статье обращается внимание на то, что, несмотря на растущую надежду на урегулирование прав турецкого этнического меньшинства в Греции, который стал полноправным членом Европейского союза в 1981 году, многие основные права еще не были получены, напротив была замечена жесткая позиция правительства Греции сразу после объявления Турецкой Республики Северного Кипра 15 ноября 1983 года, которая предпринимала начиная с 1989 года различные шаги для отказа турецкому меньшинству в праве выбирать и быть избранными. В заключении, даётся общая картина социально-политического положения турецкого меньшинства в 1990-х годах XX века.

***Y.L.Hasanov***

**ON THE SOCIO-POLITICAL HISTORY OF TURKS LIVING IN WESTERN THRACE – GREECE (1960-1990)**

***Keywords:*** *Turkey, Greece, Western Thrace Turks*

This article deal with socio-political history of the Turks living in Greece - Western Thrace between 1960 and 1990. It explains the policy of Greece towards Turks people of the Western Thrace against the background of relations between Greece and Turkey based on some facts. In particular, the West Thrace Turks have been abandoned for centuries related to the problem of Cyprus and connected with Greece government, the policy of pressure on the West Thrace Turks, as a result of this policy.

The article also depicts the chronological framework of Western Thrace Turks' education, study in native Turkish language, protocol of the Turkish-Greek culture come into force in 1968, the opening of Greek schools for Turkish students, the closing of the Western Thrace Turkish Teachers' Union, teaching Turkish language in high schools. The decision to pass the test is due to the fact that, in spite of all this, the Turks in Greece began to actively fight for their rights.

Then, the article points out that despite the growing hope for a regulation of the rights of the Turkish ethnic minority in Greece, a full member of the European Union in 1981, host of essential rights were not yet achieved, contrary to the Greek government's immediate stance after the declaration of the Turkish Republic of Northern Cyprus on November 15, 1983. It was reported that the Turkish minority had

taken diverse steps since 1989 to take over the right of election, and in the 1990s, the overview of the socio-political situation of the Turkish minority.

Qeyd etmək lazımdır ki, 1929-cu il Ədirnə müqaviləsinə əsasən yaranan yunan dövləti tarixinin sonrakı dövrlərində Osmanlı dövlətini və Türkiyə Cümhuriyyətini daim özü üçün təhdid hesab etmişdir. Yunanıstanın Türkiyəyə münasibəti əsasən belə idi: Türklər Şərqdən Asiyaya hücum edib Bizans ərazilərini ələ keçirərək Qərbə doğru irəlilədilər, Kiçik Asiyadakı Yunanıstanın yox olmasına səbəb oldular. Bugünkü Yunanıstanda yaşayan yunanları əsarətdə saxladılar. Əvvəllər yunanlara aid olan torpaqlar üzərində yaşayan türklər Yunanıstanın bütövlüyünü təhdid edirdilər. Bunun bariz nümunəsi kimi son illərdə də Kipri işğal etdilər [1, s.21- 23]. Türklərə görə isə bu münasibət bir az fərqli olmuşdur: yunanlar daim sərhədlərini genişləndirmə siyasəti yürütmüşdülər. Kiçik milli dövlət olaraq yaranan Yunanıstan Türkiyə əraziləri hesabına 1881-ci, 1913-cü, 1923-cü və 1947-ci illərdə daim genişlənmişdir. Bu istiqamətdə Yunanıstanın 1897-ci, 1919-1922-ci və 1974-cü illərdə uğursuz cəhdləri də olmuşdur. Bu reallıq ümumilikdə hər iki xalqın bir-birinə olan münasibətini xarakterizə edir desək, yanılmarıq. Bu baxımdan Türkiyə-Yunanıstan münasibətləri fonunda 1960-1990-cı illərdə Qərbi Trakyada yaşayan türklərin ictimai-siyasi tarixi necə olmuşdur? sualı aktuallıq kəsb edir.

1960-1990-cı illərdə Türkiyənin yunanlara yönəlik ölkə içində yeritdiyi siyasət Yunanıstandakı türklərin vəziyyətini daha da ağırlaşdırarkən rəsmi Ankara Yunanıstandakı türklərin hüquqlarının təmin edilməsinə dair əsaslı bir mövqe nümayiş etdirməmişdir. 1960-cı və 1970-ci illərdə Türkiyə-Yunanıstan münasibətləri Kipr problemi ilə əlaqəli olsa da, bunun Qərbi Trakya türkləri üzərində birbaşa təsiri olmuşdur. Əsasən Yunanıstan 1955-ci ildən sonrakı dövrdə türk azlığa yönəlik təzyiq siyasətini başlatsa da, 1960-cı illərdə bu siyasətini daha da sərtləşdirmişdir. 1960-cı, xüsusən, 1963-cü ildə Makariosun Kiprdəki konstitusion quruluşu dəyişdirmə cəhdi ilə Türkiyə-Yunanıstan əlaqələri qarşıdurma vəziyyətinə gəlmiş və hər iki ölkədə yaşayan etnik azlıq bunun mənfi təsirinə məruz qalmışdır [2, s. 153]

Yunanıstanda türklər təkcə Qərbi Trakyada deyil, Rodos və İstanköy başda olmaqla Onikiadalarda da yaşayırdılar (XX əsrin əvvəllərində Onkiadalardakı türklərin sayı 20 min olduğu halda, Yunanıstanın türk azlığa tətbiq etdiyi müxtəlif təzyiq siyasəti nəticəsində hazırda sayları 6 min nəfərdir). Ancaq Yunanıstan 1923-cü ildə Lozanna sülh müqaviləsi imzalandığı zaman Onikiadaların İtaliyanın hakimiyyəti altında olmasını bəhanə edərək (1947-ci ildə Paris sülh müqaviləsinə əsasən Yunanıstana verilmişdir) buradakı türklərin etnik azlıqlara dair statusunu tanımadı [3].

Yuxarıda qeyd etdiyimiz kimi Yunanıstandakı türklərə yönəlik siyasətin sərtləşməsində Kipr problemi və buradakı türk qətliamları ilə əlaqədar Türkiyə

faktorunun da təsiri olmuşdur. Belə ki, Kipr məsələsində haqlı olaraq Yunanıstanın güzəştlərə getməsini təmin etmək üçün ölkə içində bəzi tədbirlərə əl atan Türkiyə əvvəlcə İstanbulda yerləşən Fənər yunan patriarxlığını ölkə xaricinə çıxartmaq istəsə də, beynəlxalq təzyiqlərin olacağını bildiyindən bunu tətbiq etməmişdir. Başqa bir variant olaraq Türkiyədəki yunanlar (rumlar) ön plana çıxardılaraq bu istiqamətdə bir sıra qərarlar qəbul edildi. Əvvəlcə iki ölkə arasındakı 1930-cu il 30 oktyabr tarixli "Məskunlaşma, ticarət və dəniz naviqasiyası" müqaviləsi birtərəfli olaraq ləğv edildi. Müqaviləyə əsasən türk hökumətinin 1964-cü il qərarı ilə 8 600 yunan vətəndaş Yunanıstana dönmək məcburiyyətində qalmış, eyni zamanda Bozcaada və Gökcəadada edilən milliləşdirmələr də burada yaşayan yunanların (rumların) Yunanıstana dönməsilə nəticələnmişdir [4, s.79-80].

1964-cü ildəki Türkiyənin bu addımları Yunanıstan hökumətini əks tədbir görməyə sövq etmiş, nəticədə, etnik azlıqlara dair qarşılıqlılıq prinsipi ortadan qaldırılmışdır. Bunun nəticələri Qərbi Trakya türkləri üçün ağır olmuşdur. Təzyiqlər, ayrı-seçkilik siyasəti və türk azlığın statusuna zidd addımlar 1950-ci illərin çətinliklərindən çox olmuş və iki ölkə arasında ciddi problemlər yaratmışdır [5, s.467-507].

Soyuq müharibə dövründə eyni tərəfdə yer alan və NATO-da müttəfiq olan iki ölkənin ciddi problemlərlə qarşılaşması və etnik azlıqların çətin şərtlərə məruz qalması soyuq müharibənin ortaya çıxardığı şəraitə əks idi. Elə bu səbəbdən də Türkiyə-Yunanıstan əlaqələri beynəlxalq şəraitin gətirdiyi faktorlardan ayrı, öz xarakteri və tarixi ölçüləri ilə ələ alınmalıdır. Bu ölçülər də Qərbi Trakya türklərinə birbaşa təsir etmişdi. Xüsusilə Kipr məsələsindəki vəziyyət bu insanların həyatlarına mənfi yön vermiş, ciddi köç hərəkətlərinə səbəb olmuş və əsrlərdir yaşadıqları torpaqlardan qopmaları ilə nəticələnmişdi.

1950-ci illərdə başlayan Kipr problemi, 1967-ci ildə Yunanıstanda hərbi çevrilişlə xuntanın hakimiyyətə gəlməsi buradakı türklərə qarşı təzyiq siyasətini son həddə çatdırmışdır. Bu proses Yunanıstanda 1970-ci ildən etibarən sistematik şəkildə türk adının rəddi – qəbul edilməməsi siyasəti ilə davam etdirilmışdır [3].

1960-cı illərin sonuna doğru Qərbi Trakyada yaşayan türklərə təhsil sahəsində təzyiqlər daha da artmış, türk məktəbləri ifadəsi müfəttişlik tərəfindən qadağan edilmişdir. İşin təəccüb doğuran tərəfi odur ki, bu heç bir qanuna əsaslanmadan edilmişdir. 1963-cü ildə məktəblərdə aparılan təbliğat nəticəsində Türkiyədən gətirilən türkcə kitabların məktəblərdə istifadəsinə qadağa qoyulmuşdur. Səbəb olaraq kitabların içində olan türk lirası ifadəsinin olması göstərilmişdir. Belə vəziyyət 1966-cı ilə qədər davam etmiş, daha sonra bu məhdudiyyət aradan qaldırılmışdır. Sonrakı illərdə Türkiyədən gətirilən kitabların Qərbi Trakya türk müəllimləri birliyi tərəfindən düzəldildikdən sonra nəşri üsuluna keçilmişdir. 1964-cü ildə orta məktəblərin adlarına dair problemlər yaranmışdır. Məsələn,

Cəlal Bayar liseyinin adı Komotini liseyi adı ilə əvəz edilmişdir. 1965-ci ildə isə məktəblərdə türkcə yazıların, türkcə məktəb qəzetlərinin ləğvi əmri verilmişdir [6, s.59]. 1966-cı ildə Sələniki şəhərində Sələniki Özəl Pedaqoji Akademiyası adı ilə bir ali məktəb qurulmuşdur. Bu ali məktəbə ilk mərhələdə tələbə tapılması çətinliyi olsa da, bəzi vədlər verilməsi ilə fəaliyyətinə başlanmış, tələbələri ilk əvvəllər mədrəsə məzunlarından ibarət olmuşdur. Qeyd etdiyimiz kimi Kiprdə baş verən hadisələr həyatın bütün sahələrində olduğu kimi, Yunanıstanda yaşayan türklərin ictimai-siyasi həyatına da çox ciddi təsir etmişdir [6, s.59-60]. Xüsusilə, 1967-ci ildə bu ölkədə hərbi xuntanın hakimiyyətə gəlməsi buradakı türklərin həyatını daha da çətin vəziyyətə salmışdır. Hərbi xuntanın hakimiyyətə gəlməsi ilə əncümən seçkiləri dayandırılmış, üzvlər təyin edilməyə başlanmışdır. Dərsliklərin çatışmaması və müəllimlərin təyinatındakı çətinliklər çoxalmış, həmçinin türk məktəblərinin bağlanması halları da olmuşdur. Qərbi Trakya türkləri ilə əlaqəli 1952-ci ildə imzalanan mədəniyyət protokolunda iki ölkə arasında qurulması nəzərdə tutulan işçi komissiya 1968-ci ildə işlək hala gətirilmişdir. İki ölkə arasındakı gərginliklərə baxmayaraq komissiyada 1968-ci ildə Türkiyə-Yunanıstan mədəniyyət protokolu imzalanmış və türk azlığın təhsili ilə bağlı məsələlər gündəmə gəlmişdir [4, s.79-81]. Bu protokolla yeni kitablar, dərs vəsaitləri gətirilərək məktəblərdə istifadə edilməyə başlanmışdır. Lakin bu protokolla türk məktəblərində türkcə yazıların bərpasına imkan verilməmişdir. 1960-cı illərin sonunda bəzi bölgələrdə yunan məktəbləri açılmış, sonra isə türk uşaqların bu məktəblərə göndərilməsi üçün xalqa böyük təzyiq göstərilmişdir.

1970-ci illərdə də Qərbi Trakya türklərinə yönəlmiş təzyiq siyasəti Yunanıstan tərəfindən davam etdirilmişdir. Ancaq Türkiyə Qərbi Trakyadakı soydaşları ilə əlaqəli problemə Türkiyədəki tez-tez dəyişən hökumətlərin də təsiri ilə lazimi diqqət göstərə bilməmişdir [4, s.81]. 1975-ci ildə türk ibtidai məktəblərində proqrama əxlaq bilgisi dərsi salınmışdır. Bu dərsin salınması ilə yunanca dərslərin saatı da artırılmışdır. 1976-cı ildə Qərbi Trakyadakı bütün türk məktəbləri Kavaladakı ümumi müfəttişliyə tabe etdirilmiş, məcburi təhsil 9 ilə çatdırılmışdır. Ancaq Qərbi Trakya türk liseylərinə getmək istəyənlər üçün bu 9 illik məcburi sistem tətbiq olunmamışdır. Məcburi təhsil yunan məktəblərinə getmək üçün tətbiq edilmişdir. Türkcə təhsilə davam etmək istəyənlər məcburi təhsildən yararlanmamışlar. Həmçinin qeyd etmək lazımdır ki, bu dövrdə Yunanıstanın türk azlığın təhsilinə dair siyasətində tutduğu yol nə türkcə, nə də yunancanın doğru öyrədilməməsi siyasəti olmuşdur. Oxşar vəziyyət digər Balkan dövlətlərində də mövcud olmuşdur. 1980-ci illərdə Yunanıstanda gimnaziyalar fəaliyyətə başlamış, Qərbi Trakyada türk şagirdləri üçün yunan məktəbləri açılmışdır. Bu məktəblərə xalq rəğbət göstərməsə də, bu gün də fəaliyyət göstərməkdədirlər. Yuxarıda qeyd etdiyimiz türk azlığa qarşı olan bu siyasətin beynəlxalq platformada ilk dəfə olaraq dilə gətirilməsi 1983-

cü ildən başlanmışdır [6, s.60]. Yunanıstanda türklərin təhsilinə dair dövlətin sərt tədbirlərinin davamı nəticəsində 1984-cü ildə Qərbi Trakya Türk Müəllimlər Birliyi bağlanmış, liseylərdə türkcə oxudulan dərslərdən yunanca imtahan məcburiyyəti qərarı qəbul edilmişdir. Bütün bu çətinliklərə baxmayaraq 1980-ci illərin sonlarında Yunanıstan türkləri hüquqları uğrunda daha fəal mübarizəyə başlamışdılar [6, s.60].

Qələmə aldığımız xronoloji çərçivəni müqayisə etdikdə, Yunanıstanda qalan türk azlığın nisbətən dinc yaşadığı dövr kimi 1954-1972-ci illər arasında olan dövrü qeyd etmək mümkündür [7]. Hətta 1954-cü ildə çıxan 3065 saylı qanun ilə Qərbi Trakyada olan bütün türk azlığın ibtidai məktəblərinin rəsmi lövhələrində türk ibtidai məktəbi ifadəsinin yer alması məcburi olmuşdur [7]. Həmçinin o dövrdə verilən bütün ibtidai məktəb diplomlarında və bütün rəsmi sənədlərdə bu ifadə yer almışdır. Bu vəziyyət 1972-ci ildə çıxan 1109 saylı qanun hökmündə qərarnamə ilə türk ibtidai məktəbi milli azlıq ibtidai məktəbi ifadəsi ilə əvəzlənmişdir [7]. Yunanıstanda hərbi xuntanın hakimiyyətdə olduğu 1967-1974-cü illər də demokratiya və insan haqlarından bəhs etmənin mümkün olmadığı bir dövr idi [7]. Bu dövrdə radiodan türkcə xəbər dinləyərkən polis tərəfindən polis məntəqəsinə götürülmə və hətta döyülmə faktının olması vəziyyətin ağırlığından xəbər verirdi. 1974-cü ildə xunta hakimiyyətinə qarşı verilən mübarizədə qalib gəldikdən 7 il sonra Yunanıstan təkrar demokratiyaya keçdi. Buna baxmayaraq 1974-1981-ci illər Türkiyə ilə Yunanıstan arasındakı münasibətlər Kipr problemi ilə bağlı gərgin olmaqda davam edirdi. Qərbi Trakyada türk etnik azlığa yönəlmiş təzyiq və təqib siyasəti ilə əlaqədar olaraq Türkiyəyə sığınan və köç edən türklərin sayı xeyli artmışdır. 1960-1980-ci illər arası dövrdə ölkədən qaçan və yaxud da 1955-ci ildəki Yunanıstandakı vətəndaşlıq qanununun 19-cu maddəsinə istinadən vətəndaşlıqdan çıxarılan 20 min Qərbi Trakya türkünün Türkiyəyə gəldiyi təxmin edilməkdədir [4, s.81]. 1967-ci ildə Yunanıstanda hakimiyyəti ələ keçirən polkovniklər xuntasının sərt etnik azlıq siyasəti bölgədən türklərin köçünə səbəb olmuşdur. Qərbi Trakya türklərinin köçünün əsas istiqaməti Türkiyə olsa da, hərbi xuntanın hakimiyyəti dövründə işçi köçü şəklində Qərbi Avropaya da yönəlmişdi. Qərbi Avropaya türk işçi köçünə bənzər formada davam edən bu köç 1973-cü ildə miqrant qəbulunun dayandırılmasından sonra (Kiprə Türkiyə qoşunlarının müdaxiləsinin də təsiri ilə) ailə birləşmələri şəklində davam etmişdir. Yunanıstan vətəndaşlarının 1988-ci ildə Avropa Birliyi daxilində sərbəst hərəkəti hüququna qovuşması ilə ikinci və daha böyük bir köç axını başlayır. Hal-hazırda bu köçlər nəticəsində 25 min nəfərlik Qərbi Trakya türkünün Avropada yaşadığı təxmin edilməkdədir [8, s.419-433].

1981-ci ildə Avropa Birliyinə tam üzv olan Yunanıstanda etnik azlığın hüquqları məsələsindəki yarıtmazlığın düzələcəyinə ümid artmışdır. Ancaq türk etnik azlıq 1981-1991-ci illər arasında bir çox əsas hüququnu yenə də əldə edə

bilməmişdir. 15 noyabr 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyətinin elan edilməsindən dərhal sonra yunan dövləti etnik azlığa qarşı bəzi sərt addımlar atmış, türk və türkcə ifadələrinin qadağan edilməsi qərarını qəbul etmişdır [7]. Belə ki, o dövr Yunanıstanın xarici işlər naziri Yannis Kapsis, 16 noyabr 1983-cü ildə Gümülcinə Türk Gənclər Birliyi, Qərbi Trakya Türk Müəllimlər Birliyi və İskeçə Türk Birliyi adlı dərnəklərin bağlanması üçün mülki məmurların tədbir görməli olduğunu ifadə etmişdir. Gümülcinə və İskeçə Valiləri, 1984-cü ildə adlarında türk ifadəsi olduğundan göstərilən dərnəklərin bağlanması üçün məhkəməyə müraciət etmişdilər [7].

Yunanıstan məhkəmələri üzvlərinin türk və adlarında türk ifadəsinin olmasını əsas gətirərək 1927-ci ildə qurulan İskeçə Türk Birliyi, 1928-ci ildə qurulan Gümülcinə Türk Gənclər Birliyi və 1936-cı ildə qurulan Qərbi Trakya Türk Müəllimlər Birliyinin bağlanmasına qərar vermişdir. Qərar 1987-ci ilin sonunda qüvvəyə minmişdir. Beləliklə, 1987-ci ildə Yunanıstan məhkəməsinin qərarı ilə türk etnik azlığın türklüyü inkar edilmiş oldu. Yunanıstanın bu dövrdə türk etnik azlıq üzərindəki təzyiqlərini artırması nəticəsində 1987-ci ilin ilk 8 ayında 246 türk Türkiyəyə sığınmışdır [4, s.93]. Qərbi Trakya türkləri adlarında türk ifadəsi olduğundan cəmiyyətlərinin bağlanmasını Qərbi Trakya türklərinin milli mənsubiyyətinə endirilmiş bir zərbə olaraq qəbul etmiş və bu haqsız tətbiqə kəskin reaksiya vermişdir. 29 yanvar 1988-ci ildə polis maneəsinə rəğmən Gümülcinədə təşkil olunan etiraz yürüşünə minlərcə türk qatılmış və milli mənsubiyyətlərinin Yunanıstan dövləti tərəfindən qəbul olunmasını tələb etmişlər [4, s.93]. Vəziyyət o yerə gəlmişdir ki, Qərbi Trakya türklərinin liderlərindən olan doktor Sadik Əhməd və Gümülcinə müftisi İbrahim Şərif bir seçim nitqində türkük dedikləri üçün 18 ay həbs cəzasına məruz qalmışlar [7].

Yunanıstan 1989-cu ildən etibarən türk azlığın seçib-seçilmə hüququnu əlindən almaq üçün müxtəlif yollara əl atmışdır. Məsələn, Sadiq Əhməd ilk dəfə olaraq 1989-cu və 1990-cı illərdə keçirilən erkən seçkilər nəticəsində Yunanıstan parlamentinə müstəqil etnik azlıq olaraq millət vəkili seçilməyə müvəffəq olmuşdur. Ancaq 24 sentyabr 1990-cı ildə Yunanıstanda seçki qanununda edilən dəyişikliklə yenilənən səslərin 3%-lik ölkə həddi tətbiqinin müstəqil namizədlər üçün də keçərli olmasına dair seçki siyasəti Qərbi Trakyadakı türk azlığın Yunanıstan parlamentinə müstəqil təmsilçi göndərmək imkanını praktiki olaraq əlindən almış oldu [3]. Digər tərəfdən, seçki üçün Türkiyədən gələcək Yunanıstan vətəndaşı olan Qərbi Trakya türklərinin ölkəyə girişi əngəllənmişdir. 29 yanvar 1990-cı ildə Qərbi Trakyada dirənişin ildönümündə eks millət vəkilləri doktor Sadik Əhməd və İbrahim Şərifin həbsinə etiraz etmək üçün yürüşə çıxan türklərə yunan fanatların hücumları nəticəsində gərginlik daha da artmışdır. Bu hadisələrdən sonra Qərbi Trakya məsələsi Türkiyəni bərk narahat etmiş və Türkiyənin Milli Təhlükəsizlik Şurasında müzakirə edilmişdir [4, s.94-95]. Nəticədə, dövlətin xüsusilə milli

mənsubiyyət və digər etnik azlıq haqları məsələsində türk azlığa etdiyi təzyiq beynəlxalq ictimaiyyətin diqqətini çəkmiş, bir çox beynəlxalq təşkilatlar Qərbi Trakya türkləri ilə əlaqəli hesabatlar yaymışlar. Bu irəliləyişin ardından Yunanıstan 1991-ci ilin mayında tam hüquqlu vətəndaşlıq və qanunlar qarşısında bərabərlik siyasəti elan etmək məcburiyyətində qalmışdır. Yuxarıda da bildirildiyi kimi, bu siyasətin qismən tətbiqi ilə etnik azlığın vətəndaşlıq haqları məsələsində qismən rahat bir dövrü yaşadığını söyləmək olar. Ancaq əsas etnik azlıq haqlarının yenidən verilməsi məsələsində heç bir irəliləmənin olmadığını bir daha təkrarlamaq lazımdır [7].

1981-ci ildən Avropa Birliyinin üzvü olan Yunanıstanda yaşayan Qərbi Trakya türkləri 1991-ci ildə elan edilən “Qanunlar qarşısında bərabərlik” siyasəti istiqamətində bəzi əsas vətəndaşlıq hüquqlarından qismən istifadə edərkən həm də milli, ikili və beynəlxalq saziş və müqavilələrlə təminat altına alınan milli azlıq hüquqlarından istifadə etməkdə çətinlik çəkirlər [9, s.147-179, 7]. Qismən tətbiq olunan “Qanunlar qarşısında bərabərlik” siyasəti sayəsində Qərbi Trakya türkləri bu gün daşınmaz əmlak alış-satışı, iş yeri açma sənədi, azad səyahət etmə, kənd təsərrüfatı maşınları alma, idarə etmə, sürücülük vəsiqəsi alma, ev inşa və təmir etmə icazələrini alma, daşınmaz əmlak alma və məhdud kredit alma kimi əsas vətəndaşlıq hüquqlarından istifadə edə bilirlər. Ancaq həm Lozanna sülh müqaviləsi, həm Türkiyə və Yunanıstan arasında imzalanmış olan razılaşma və protokollar, həm də beynəlxalq insan və milli azlıq normalarına rəğmən Qərbi Trakya türkləri bu gün əsas etnik azlıq hüquqlarından hələ də istifadə edə bilmirlər [7]. 1960-1990-cı illərdə Yunanıstan türklərin milli mənsubiyyətini inkar etmə siyasətini yürütmüşdür. Yəni Yunanıstan Qərbi Trakya türklərini “Trakya müsəlmanları” olaraq tanımış və Qərbi Trakya türklərinin türklüyünü qəbul etməmişdir.

Nəhayət ki, 1999-cu ildə xarici işlər naziri Papandreu Yunanıstanın milli azlıqlarla əlaqəli beynəlxalq səviyyədə qəbul olunmuş normaları tətbiq edəcəyini və milli kimlik haqlarını tanıyacağını bəyan etmişdir. Bu bəyanat bəzi siyasi dairələrdə və mətbuatda nazir əleyhinə olduğu qədər türk milli azlıq ilə əlaqəli bu münasibəti müdafiə etməyə cürət edən ictimai təşkilatlar əleyhinə də geniş bir etiraza yol açmışdır. Bəzi siyasətçilər “hər kəs özünü istədiyi kimi müəyyən etmə haqqına sahibdir” açıqlamalarını edərkən milli mənsubiyyət baxımından fərdi tərifə hörmət etdiklərinə, ancaq qrup təyin etməsinə qarşı olduqlarını da söyləyirdilər. Yəni Yunanıstanda “mən türkəm” demək olardı, ancaq 20 nəfər bir araya gələrək “Biz türkük, bunun üçün də bir dərnəkdə birləşmək istəyirik” deyə bilməzdilər [7].

Beləliklə, qeyd olunan illərdə Yunanıstanın həm siyasi, həm də diplomatik sahədə mövqe dəyişikliyinə getmə meylində olduğunu görürük. Ancaq məqalədə də qeyd etdiyimiz kimi, başda Kipr olmaqla bir sıra problemlər Türkiyə-Yunanıstan əlaqələrinin normal məcraya düşməsinə mane

olmuşdur. Lakin buna baxmayaraq Türkiyə ilə Yunanıstan arasında mehriban qonşuluq, sülh və əməkdaşlıq əlaqələrinin gün keçdikcə artdığı müşahidə olunur. Məsələn, Türkiyədə İstambuldakı yunan (rum) azlığa yönəlmiş müxtəlif islahatlar həyata keçirilmişdir. Qərbi Trakya türkləri Yunanıstandan da bənzər siyasi addımların atılmasını gözləyir. Odur ki, iki ölkə arasındakı əlaqələrin yaxşılaşmasını və hər sahədə inkişafını ən çox Qərbi Trakya türkləri arzulayır və dəstəkləyir. Çünki siyasətçilərin və diplomatların daha yaxşı bir gələcək üçün atacaqları səmimi və müsbət addımlar xalqlar tərəfindən hər zaman təqdir edilməkdədir.

Yuxarıdakı faktlardan bu qənaətə gəlmək olar ki, Yunanıstandakı türklər XX əsrin I yarısında olduğu kimi, XX əsrin II yarısında da ictimai-siyasi sahədə öz hüquqlarının təmin olunması üçün mübarizə aparmış, dincliyin nə olduğunu bilməmişlər. Lakin problem həlli çətin olan məsələlərdən olduğundan gözlənilən nəticələr əldə edilməmişdir. Buna baxmayaraq Türkiyə və Yunanıstan arasındakı əlaqələrin tarixi və digər məsələlər sübut edir ki, iki dövlət arasındakı etnik azlıqlar məsələsi ikitərəfli əlaqələrdə daim gündəmdə olmuşdur.

## ƏDƏBİYYAT


1. *Milas H.*. Daha İyi Türk – Yunan İlişkileri İçin Yap Yapma Klavuzu. İstanbul, Tarih Vakfı Yayınları, 2002, 71 s.
2. *Fətəliyev M.* İkinci Dünya müharibəsindən sonra Kipr məsələsi və Türkiyə // Tarix və onun problemləri, №2, 2014, s.147-156
3. http://www.mfa.gov.tr/bati-trakya-turk-azinligi.tr.mfa
4. *Özlem K.* Türkiye'nin Balkan Türkleri Politikasının Analizi (1991-2014) / Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı Doktora Tezi, Ədirnə, 2015, 342 s.
5. *Öztürk İ.M.* Soğuk savaş döneminde Batı Trakya Türk azınlığı (1945-1960). Tarih okulu dergisi (TOD), Eylül (Sentyabr) 2014, Yıl 7, sayı XIX, 501 s. https://www.academia.edu/30706641/SO%C4%9EUK_SAVA%C5%9E_D%C3%96NEM%C4%B0NDE_BATI_TRAKYA_T%C3%9CRK_AZINLI%C4%9EI_1945-1960
6. *Hurşit Ş.* https://www.academia.edu/5968224/LOZAN_ANTLASMASINDAN_GUNUMUZE_BATI_TRAKYA_TURKLERI_EGITIM_TARIHI, 276 s., + tablolar 171 s.
7. http://www.tasam.org/tr-TR/Icerik/24675/bati_trakya musluman_turk azinligi
8. *Şentürk C.* Batı Trakya türklərinin Avrupaya göçleri, bulundukları ülkelerdeki yaşam koşulları ve kimlik alqılamaları // Uluslararası Sosyal Araştırmalar Dergisi, 2008
9. *Cin T.* Batı Trakya Türklerinin Hukuki Statüsü Sorunları ve Avrupa Birligi // Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, C., 11, Sayı:1, 2009

**PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 127-140**
**ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 127-140**
**TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 127-140**

***UOT 94 (479.24)***

***A.H.İftixari***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*arasheftekhari@yahoo.com*

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN QACARLAR DÖVLƏTİNDƏ İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ (İRAN TARİXŞÜNASLIĞINDA)

***Açar sözlər**: Azərbaycan, Rəsulzadə, Məşrutə inqilabı, demokratiya, mətbuat, İran*

Məhəmməd Əmin Rəsulzadənin həyatı, yaradıcılığı və ictimai-siyasi fəaliyyəti haqqında yüzlərlə kitab və elmi məqalə yazılmışdır. M.Rəsulzadə – müasir Azərbaycan dövlətçiliyinin əsasını qoyan türk, müsəlman, humanist, jurnalist, siyasətçi, sosial-demokrat və dahi dövlət xadimi 1909-cu il 25 yaşında olarkən Bakıdan Təbrizə getmiş və Cənubi Azərbaycanın digər şəhərlərində olmuş, Məşrutə hərəkatında yaxından iştirak etmişdir. O, Tehranda "İran-e nov" qəzetini nəşr etdirmişdir və 1910-cu ildə "İran Demokrat partiyasının" yaradıcılarından olmuşdur. Məqalədə M.Ə.Rəsulzadənin 1909-1911-ci illərdə 27 ay ərzində Qacarlar İranında apardığı ictimai-siyasi fəaliyyətinin istiqamətləri, Məşrutə hərəkatı haqqında yazdığı məqalələri və İran tarixşünaslığında onun haqqında söylənmiş fikirlər bəyan və təhlil olunur.

***А.Г.Ифтихари***

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ МУХАММЕДА АМИНА РАСУЛЗАДЕ В ГАДЖАРСКОМ ГОСУДАРСТВЕ (В ИСТОРИОГРАФИИ ИРАНА)

***Ключевые слова:** Азербайджан, Расулзаде, движение Мешруте, демократия, пресса, Иран*

О жизни и о политической и общественной деятельности тюрка, мусульманина, гуманиста, интеллектуала, журналиста, политика, социал-демократа, революционера и яркого государственного деятеля Мухаммеда Амина Расулзаде, который основал современную азербайджанскую государственность, написаны сотни научно-литературных произведений. В 1909 году будучи в возрасте 25 лет он приехал из Баку в Тебриз, а затем посетил другие города Южного Азербайджана. Принимал активное участие в Движении Мешруте. Он в Тегеране опубликовал газету «Иран-е Нов» и был одним из основателей «Демократической партии» Ирана в 1910 году. В статье описываются и анализируются направления общественно-политической деятельности М.Расулзаде в Каджарском Иране в течение 27 месяцев (1909-1911 гг.), статьи, написанные о движении Мешруте и сделанные заявления о нем в иранской историографии.

***A.H.Eftekhari***

**MUHAMMAD AMIN RASULZADEH'S SOCIAL-POLITICAL ACTIVITY IN QAJAR’S GOVERNMENT (IN IRAN’S HISTORIOGRAPHY)**

***Keywords:*** *Azerbaijan, Rasulzadeh, Constitutional revolution, democracy, social-political activity, press, Iran*

There are most of hundreds books and scientific articles have been written about the political life of the great open minded and literary works activities statesman of the Azerbaijani people Muhammad Amin Rasulzadeh. When he was 25 years old went from Baku to Tabriz and other cities in southern Azerbaijan, and participated closely in constitutional revolution. He published "Iran-e Nov" newspaper in Tehran and he was one of the founders of the "Iran’s Democratic Party" in 1910. The article describes and analyzes M. Rasulzade's social-political activities in Qajar’s Iran during the 27 months stay there. Oslo In the article, the views of the writers about him in the Iran's historiography is explained.

## Giriş

Müasir dövrdə Azərbaycan dövlətçiliyinin əsasını qoyan türk, müsəlman, humanist, ziyalı, jurnalist, siyasətçi, sosial-demokrat, inqilabçı və dahi dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Rəsulun nəvəsi və Bakının Novxanı kəndinin tanınmış mollası Axund Hacı Ələkbər Rəsulzadənin oğlu, 1884-cü il yanvarın 31-də Novxanıda anadan olmuş və 1955-ci il martın 6-da Ankarada vəfat etmişdir. İlk təhsilini kəndin məktəbində almış, məktəbi bitirdikdən sonra təhsilini Bakının texniki məktəbində davam etdirmişdir. M.Ə.Rəsulzadə 1909-cü ildə əmisi Əbdüləzizin böyük qızı Ümmülbanu Rəsulzadə (1888-1939) ilə evlənmişdir. Onların böyük qızları Lətifə 1910-cu ildə, kiçik qızları Xalidə 1916-cı ildə, oğlanları Rəsul 1918-ci ildə (1937-ci ildə 19 yaşında olarkən güllələnir) və Azər isə 1920-ci ildə anadan olmuşlar. M.Ə.Rəsulzadə 1909-cu il 25 yaşında olarkən Bakıdan Təbrizə və Cənubi Azərbaycanın digər şəhərlərində olmuş, Məşrutə hərəkatında yaxından iştirak etmişdir. O, Tehranda “İran-e nov” qəzetini nəşr etdirmişdir və 1910-cu ildə “İran Demokrat Partiyasının yaradıcılarından olmuşdur. Məqalədə M.Ə.Rəsulzadənin 1909-1911-ci illərdə 27 ay ərzində Qacarlar İranında apardığı ictimai-siyasi fəaliyyətinin istiqamətləri, Məşrutə hərəkatı haqqında yazdığı məqalələri və İran tarixşünaslığında onun haqqında söylənmiş fikirlər bəyan və təhlil olunur.

## 1. Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığı və ictimai-siyasi fəaliyyətinə ümumi bir baxış

M.Ə.Rəsulzadənin yaradıcılığı, həyatı və siyasi-ictimai fəaliyyəti haqqında yüzlərlə elmi-ədəbi əsərlər yazılmış və onlarla sənədli filmlər çəkilmişdir.

M.Ə.Rəsulzadə irsinin tədqiqində Şirməmməd Hüseynov, Şamil Qurbanov, Nəsiman Yaqublu, Nəsib Nəsibzadə, Mövsüm Əliyev, Xalid İbrahimli, Cəmil Həsənli, Müstəqil Ağayev, Vaqif Sultanlı, Aydın Balayev və başqalarının gördüyü işləri xüsusi qiymətləndirmək lazımdır. Azərbaycandan kənarda M.B.Məmmədzadə, M.Ə.Rəsuloğlu, H.Baykara, Ə.Qaraca, Ə.Yurdsevər, İ.İhsan, T.Svyatoçovski, S.N.Tağızadə, C.Heyət, K.Arran, F.M.Aküzüm, S.Mehmet və b. onun sosial-siyasi, sosial-fəlsəfi yaradıcılığına obyektiv şəkildə yanaşmışlar [8, s.14]. İranda və Güney Azərbaycanda isə onun haqqında yazanlardan R.Rəisniyanın [55], H.Abadiyanın [43], F.Adəmiyyətin [44], M.M.Tabatabainin [58], S.H.Tağızadənin [51], K.Bayatın [49], T.Atabəkinin [46] adlarını çəkmək olar.

M.Ə.Rəsulzadənin ilk siyasi fəaliyyəti 1902-ci ildən rus müstəmləkəçiliyinə qarşı gizli şəkildə yaratdığı “Müsəlman Gənclik Təşkilatı” qurumunun təsisi ilə başlanmışdır. 1903-cü ildə başçılıq etdiyi Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyini yaradır. 1904-cü ildə Rusiyanın sosial-demokrat hərəkatının təsiri altında, Mir Həsən Mövsümovun, Məmməd Həsən Hacınskinin və M.Ə.Rəsulzadənin təşəbbüsü ilə Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı yaradılır. M.Əzizbəyov, N.Nərimanov, S.M.Əfəndiyev və başqa inqilabçılar 1905-ci ildən bu təşkilatın üzvü olmuşlar. Təşkilatın bir qolu da az sonra Qacar İranında yaranmış və Məşrutə hərəkatına istiqamət verən qüvvəyə çevrilmişdir. M.Ə.Rəsulzadənin Azərbaycanda və müxtəlif ölkələrdə yaratdığı və yaranmasında iştirak etdiyi təşkilatların sayı 16-a çatır.

Beynəlxalq münasibətlər baxımından qeyd etməliyik ki, onun siyasi-ictimai həyatı XX yüzilliyin birinci yarısında baş vermiş dəhşətli müstəqillik mübarizələri, qanlı inqilablar və fəlakətli dünya savaşları kimi böyük hadisələrlə üst-üstə düşür. M.Ə.Rəsulzadə o dövrün inqilabi və qeyri-sabit vəziyyətindən asılı olaraq müxtəlif dövlətlərin ərazisində siyasi-köçkün həyatı sürmüşdür. Onun siyasi-ictimai məfkurəsindən qaynaqlanan Azərbaycan məsələsi bütün siyasi fəaliyyətlərinə hakim idi. O səbəbdəndir ki, dövrün məşhur dövlət xadimləri və siyasi-ictimai şəxsiyyətləri ilə müxtəlif dərəcəli ziddiyyətləri, dostluqları, görüşləri və yazışmaları olmuşdur. Misal üçün M.Ə.Rəsulzadənin 1904-cü ilin iyununda siyasi fəaliyyət üçün Bakıya gəlmiş İ.V.Stalin ilə yaxın dostluq münasibətləri olmuşdur. Belə ki, sonralar Stalinin onun Bayıl məhbəsindən qaçırılmasında önəmli rolu olmuşdur. M.Ə.Rəsulzadənin Almaniyanın dövlət başçısı Adolf Hitlerlə birbaşa görüşü və münasibəti olmamışdır. Lakin bu əlaqələr Almaniyanın Şərq Nazirliyinin SSRİ Millətləri üzrə Baş İdarəsinə başçılıq edən professor Qerhard Von Mende və Almaniyanın Moskvada səfiri olmuş Şulenberq vasitəsi ilə olmuşdur. M.Ə.Rəsulzadənin 1906-cı ildə yaratdığı “Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyi” təşkilatı “Müsəlman Demokratik Müsavat Cəmiyyəti” adı ilə gizli fəaliyyət göstərirdi. Bu təşkilatın bir xətti də Qacar İranında başlanan Məşrutə

hərəkatı inqilabçıları ilə sıx əlaqədə olmuşdur [55, s. 9].

M.Ə.Rəsulzadənin siyasi jurnalistika fəaliyyəti də çox zəngindir. Belə ki, Azərbaycan, türk, fars, alman və s. dillərində yazmış və müxtəlif ölkələrdə nəşr etdirmiş cəmi 1150 elmi-təhlili məqalənin və mətləbin, 27 kitabın (onlardan 6-sı Azərbaycanda, 11-i Türkiyədə, 4-ü Fransada, 2-si Almaniyada, 2-si Polşada, 2-si İranda), 6 tərcümənin (fars və rus dillərindən) və 9 şeirin müəllifidir [33, s.504]. Onun ilk məqaləsi 1903-cü il mayın 2-da "Şərqi-Rus" qəzetində çap edilmişdir. 1904-1905-ci illərdə M.Ə.Rəsulzadənin redaktorluğu ilə "Hümmət" qəzetinin 5-6 sayı çap edilir. Belə ki, 1917-ci il iyulun 3-dən isə qəzet N.Nərimanovun redaktorluğu ilə yenidən Bakıda nəşrə başlayır. Ümumiyyətlə, M.Ə.Rəsulzadə 1903-cu ildən başlayaraq Azərbaycanda və baska ölkələrdə nəşr olunan 40-dan çox qəzet və jurnalda, o cümlədən "Şərqi Rus", "Hümmət", "Dəvət Qoç", "İrşad", "Təkamül", "Yoldaş", "Füyuzat", "Tərəqqi", "Volna", "İrane nov", "Türk Yurdu", "İqbal", "Şəlalə", "Bəsirət", "Dirilik", "Yeni İqbal", "Qurtuluş", "Açıq söz", "Müsavat", "İstiqlal", "Azərbaycan", "Yeni Qafqasiya", "Azəri Türk", "Odlu Yurd", "Bildiriş", "Prometey", "Vsxod", "Roçnik Tatarski", "Qortsı Kafkaza", "İstiqlal", "Qurtuluş", "Müsavat", "Azərbaycan", "Türk Yurdu", "Birləşik"də öz məqalə və yazılarını nəşr etdirmişdir.

## 2. Məhəmməd Əmin Rəsulzadənin İrandakı ictimai-siyasi və ədəbi fəaliyyəti

Xatırladaq ki, araşdırdığımız mövzu ilə əlaqədar olaraq M.Ə.Rəsulzadənin ilk məqaləsi 20 fevral 1906-cı il tarixində "İrşad" qəzetində çap edilmişdir. Bu məqalədə Qacar İranında baş vermiş hadisələr haqqında, o cümlədən Müzəffərəddin Şah tərəfindən Məşrutə fərmanının təsdiq edilməsi və ədalətxananın təsisi haqqında xəbər və təhlillər dərc edilmişdir [29]. M.Ə.Rəsulzadə sonralar Tehranda olarkən 1909-cu il avqustun 23-dən 1911-ci ilin iyununadək müasir tipli "İran-e nov" qəzetini də nəşr etdirmişdir və ölkəni tərk etdikdən sonra qəzetin nəşri 1911-ci ilin dekabr ayınadək davam etdirilmişdir. Qeyd edək ki, M.Ə.Rəsulzadə Qacarlar İranında olarkən "Ahad" (insanlar) qəzetini nəşr etdirmiş və "Bir xan" adlı kiçik romanında özünün Təbrizdəki əhvalatını da yazmışdır.

M.Ə.Rəsulzadə Azərbaycanda apardığı siyasi fəaliyyətinə görə Rusiya dövləti tərəfindən təqib olunurdu. Nəhayət, 1909-cu il 18 mart tarixində 25 yaşında olarkən "Tərəqqi" qəzetinin müxbiri olaraq Bakıdan Rəştdə, oradan Təbrizə və Cənubi Azərbaycanın digər şəhərlərində olmuş, Məşrutə hərəkatında yaxından iştirak etmiş və Səttarxanla yaxından görüşmüşdür. M.Ə.Rəsulzadə Səttarxanı belə vəsf edir: "Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqla fanatizm ediyor. Bütün hərəkətini,

vücudunu, zori-bazusunu millətə sərf etmiş olan bu adam özünün təkrarən bəyan etdiklərinə görə Nəcəf üləması hökmi-müqəddəslərinə tabe olub, onlar nə əmr edirsə, bir an təxir etməsizin icraya hazırdır [35].

M.Ə.Rəsulzadənin "Tərəqqi" qəzetində çap etdirdiyi məqalələrindən aydın olur ki, Təbrizdə, Urmiyada, Ərdəbildə, Mərəndə, Tehranda və b. şəhərlərdə cərəyan edən hadisələri yaxından müşahidə və təhlil etmişdir. Bu hadisələri əks etdirən 50 ədədə yaxın "İran məktubları", "Yol təəssüratı" və "İran işləri" kimi başlıqlar altında öz yazılarını əsasən "Tərəqqi" qəzetində çap etdirmişdir [33, s.446-450]. Qeyd edək ki, onun Qacarlar İranı ərazilərinə gedişi, marşrutu və tarixi haqda müxtəlif fikirlər söylənmişdir ki, bizim tədqiq etdiyimiz mövzunun mahiyyətinə heç bir xələl gətirmir [55, s.25-27, 44, s.97, 33, s.21].

M.Ə.Rəsulzadə 1910-cu ildə bir qrup ziyalı, o cümlədən S.H.Tağızadə, H.Nəvvab, S.Mirzə İskəndəri, Həkimülmük, Tərbiyət qardaşları və b. ilə birgə "İran Demokrat Partiyası"nı yaradır. Nəhayət, 1911-ci ilin iyununda müxalif qüvvələrin səyi nəticəsində və Rusiya səfirliyinin tələbi ilə Qacar ərazilərindən qovulur və gizli olaraq Astara-Lənkəran yolu ilə Bakıya gəlib bir müddətdən sonra İstanbula gedir.

M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və Ziya Göyalp ilə birgə "Türk Ocağı" qurumunda çalışıb və "Türk yurdu" dərgisində maraqlı məqalələrlə çıxış etmişdir. 1913-cü ildə çar Rusiyasında verilən ümumi əfvdən sonra Bakıya qayıdır və mübarizəsini davam etdirir. 1917-ci ildə Müsavat Partiyasının sədri seçilir, 1918-ci ilin may ayının 28-də Azərbaycanın İstiqlal Bəyannaməsi elan olunandan sonra "Azərbaycan Milli Şurası"nın sədri seçilir və müsəlman Şərq dünyasında ilk demokratik dövlətin banisi olur. 1920-ci il aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal olunur. Həmin ərəfədə M.Ə.Rəsulzadə həbs edilir və Moskvaya aparılır. 1922-ci ilin aprelində Leninqrada gedərək, oradan Finlandiya, oktyabr ayında isə İstanbula gedir. 1931-ci ilin sentyabrında Türkiyəni tərk etmək məcburiyyətində olur və oradan Polşa dövlətindən sığınacaq alır. Polşada olarkən siyasi fəaliyyəti ilə bağlı Parisdə və Berlində səfərdə olmuşdur. 1939-cu ilin sentyabr ayında Polşanın Almaniya və SSRİ qoşunları tərəfindən işğalı nəticəsində oranı tərk edib 1944-cü ilin avqustunadək Rumıniyada, 1945-ci ildə Avstriyada, 1945-46-cı illər Almaniyada və nəhayət, 1947-ci ildən 1955-ci il mart ayının 6-da vəfatınadək Türkiyədə yaşamışdır. M.Ə.Rəsulzadə Ankarada vəfat etmiş və oranın Əsri qəbiristanlığında dəfn edilmişdir.

Məqalənin yuxarıda qeyd olunan ümumi giriş hissəsini nəzərə alaraq M.Ə.Rəsulzadənin 1909-1911-ci illərdə Qacarlar İranında apardığı ictimai-siyasi fəaliyyətini aşağıda qeyd olunan başlıqlar altında sadalamaq olar:

1. M.Ə.Rəsulzadənin Məşrutə hərəkatı haqqında yazdığı məqalələrinin təhlili.

2. Qacar İranında ictimai-siyasi fəaliyyətinin istiqamətləri.
3. İran tarixşünaslığında M.Ə.Rəsulzadə haqqında söylənmiş fikirlər.

M.Ə.Rəsulzadənin Qacar və Pəhləvi hakimiyyətləri dövründə baş vermiş siyasi-ictimai olaylar haqqında yazdığı əsərlərinin nəşri onun bütün siyasi həyatı dövründə (1903-1955) davam etmişdir [3; 4; 5; 12]. Lakin bu əsərlərin əksəriyyəti o dövrdə Rusiya və Osmanlı ərazilərində baş vermiş inqilabların təsiri nəticəsində Qacarlar ərazisində cərəyan edən Məşrutə inqilabının hadisələrini özündə əks etdirir [14; 30; 38; 40]. Qeyd edək ki, bu əsərlərdə Məşrutə inqilabından əlavə İran ərazısında baş vermiş digər önəmli məsələlərə də diqqət yetirilmişdir [1; 11; 25; 31; 39].

Bildiyiniz kimi, XIX yüzilliyin ikinci yarısından başlayaraq intibah dövründən başlanmış Avropa ölkələrində sürətlə gəlişməkdə olan fəlsəfi, ictimai, siyasi, iqtisadi, hərbi, texniki və s. proseslər istər-istəməz geri qalmış Şərq ölkələrinə, o cümlədən Osmanlı dövlətinə, çar Rusiyasına və Qacarlar İranına da öz təsirini göstərmişdir. Belə ki, XIX əsrin ikinci yarısından başlanmış demokratik proseslərin gedişi nəticəsində ötən əsrin əvvəllərində Qacarlar İranında get-gedə siyasi-iqtisadi və sosial ziddiyyətlər kəskinləşmiş və nəhayət, Məşrutə inqilabı (1905-1911-ci illər) adı ilə xalqın azadlıq hərəkatına çevrilmişdir. İnqilab ərəfəsində xarici dövlətlərin təcavüzü, kütləvi etirazlar, küçə nümayişləri, mitinqlər, qarşıdurmalar, əksinqilab hadisəsi, fəlakətlər və qanlı hadisələr baş vermişdir. Nəhayət, hadisələri izləyən və xalqın istəklərindən qaça bilməyən Müzzədffərədin Şah güzəştə getməyə və məşrutə fərmanına qol çəkməyə məcbur olmuşdur. Xalqın təzyiqi nəticəsində Şah 1906-cı il sentyabrın 9-da Məclisə seçkilər haqqında fərman imzalamışdır. Müzəffərəddin Şah 1907-ci il yanvarın 8-də vəfat edir və oğlu Məhəmmədəli Şah səltənət taxtında oturur [52, s.42].

Məhəmmədəli Şah hakimiyyətə gəldikdən sonra Rusiya və İngiltərənin köməyinə arxalanaraq inqilabın bütün uğurlarına qarşı mövqe tutmuşdur. Onun əmri ilə 1908-ci ilin iyununda Tehranda hərbi vəziyyət elan edilmiş, konstitusiya müdafiəçiləri təqib edilmiş və 1908-ci il iyun ayının 23-də rus komandanı Liyaxovun başçılığı ilə Milli Məclis topa bağlanmışdır. Beləliklə, əksinqilab baş vermiş, əncümənlər bağlanmış, Milli Məclis buraxılmış, demokratik qəzetlərin nəşri dayandırılmış, siyasi-ictimai vəziyyət daha da kəskinləşmiş və kiçik istibdad dövrü başlanmışdır. Qeyd edək ki, bu xəyanətlərin həyata keçirilməsində və Səttarxanın ölümündə birbaşa iştirak edən ARF-nin (erməni inqilab federasiyası) üzvü Yeprimxanın və onun silahlı dəstələrinin iştirakı və rolu danılmazdır [54, s.523]. Bütün bunlara reaksiya olaraq Təbrizdə üsyanlar qalxmış, Gilan fədailəri və bəxtiyari dəstələri Tehrana daxil olurlar və Məhəmmədəli Şah isə Rusiya səfirliyinə sığınmağa məcbur olur.

1909-cu il iyulun 16-da Milli Şura yaranır və şuranın fövqəladə iclası keçirilir. İclas Məhəmməd əli Şahın devrilməsi və onun 14 yaşlı oğlu Əhməd Mirzənin Şah elan olunması barədə qərar çıxardır və müvəqqəti hökumətin yaradılması, konstitusiyanın bərpası və ikinci Məclisə seçkilərin keçirilməsi barədə də qərarlar verilir. E.Abrahamiyanın fikrincə, o ərəfədə M.Ə.Rəsulzadənin ənənəvi fars dilini danışmaqda problemi olduğuna görə onun Milli Məclisə aday (namizəd) olması üçün maneə kimi hesab edilirdi [41, s.104] .

M.Ə.Rəsulzadənin Qacarlar İranında olduğu müddət yuxarıda sadalanan dövrün təxminən 27 ayını (mart 1909 - iyun 1911) əhatə edir. Onun Qacarlar İranına gedişindən öncə "İrşad" və "Tərəqqi" qəzetlərində çap etdirdiyi məqalələrinin məzmunu onun inqilabçılar və ziyalılarla əlaqədə olduğunu və orada sürən olayların mahiyyətini yüksək səviyyədə dərk etdiyini əks etdirir. M.Ə.Rəsulzadənin "İrşad" qəzetində çap etdirdiyi "İranda hürriyyət" [29], "İranda inqilab" [30], "İranda yanvarın doqquzu" [28], "İran işləri" [27] və "Edam cəzası" [26] adlı məqalələri mahiyyət baxımından xeyli zəngindir. O, xalqın  müqəddəs istəyi olan və Məşrutə inqilabının əsaslarından biri sayılan azadlıq mövzusu haqqında yazır:

"Hürriyyət, azadlıq və sərbəstliyin nə əndazədə ziqiymət olmağına hər bir yerdə dəlil, bürhan istəsələr də ... Böylə bir bahalı, qiymətli, iranlıların mövhumi kimyaları dərəcəsində qiymətdar olan hürriyyət, bir elə hürriyyət ki, onu ələ gətirmək üçün Avropa dövlətlərinin hamısında zəhmətlər çəkib, qanlar töküb, xanimanlar dağıdıb, yüz illərcə, min illərcə səy və küşişdən sonra hasil etdikləri hürriyyəti İran milləti bir cüzi təşəbbüs ilə almağa müvəffəq oldu.

Çoxları, bu millət öldü dəxi dirilməz – deyib duryordu. Amma bir az fikir edilirsə iranlıların qabiliyyət və istedadi-fitriyyələrinə bir nəzər edilərsə, tarixi-mədəniyyətlərinə imani-nəzər olunursa srağa günkü farsi vərəqəmizdə mündərici-dəsti xətti-hümayunun surəti hər bir bədbin şəxsi şəkk və şübhədən ari etsin gərək.

Ey iranlı qardaşlarımız!.. sizin məqsudə yetmənizdə hər kəs şəkk edirsə, etsin. Mən özlüyümdə şəkk etmirəm: Sizin əslafınızın tarixi bunu göstərib əlaniyyə diyor ki, zöhkarlar zülmünə düçar olduqda gavələr, əfqanlar talanına giriftar olanda nadirlər olduğu kimi, bu dəfə dəxi istibdad bəlasına aludə varsınızsa da ittihadi-milliyyə, məhsusati-amiyyə sağ olsun! Yaşasın İranda hürriyyət! Yaşasın İranda qanuni-əsası!" [29]. M.Ə.Rəsulzadə o dövrün vəziyyətini dərindən başa düşərək səslənən umudsuz və neqativ düşüncələrin əksinə Məşrutə inqilabına dair və İran xalqının aktivliyini belə izah edirdi:

"İranda həyat ölüb, İran nizam və qanuna müstəid deyil, İran ölmüş, İran viran olmuş  kimi sözlər bu axır vaxtda adi bir sözlərdən, aramızda mütədavildir. Hər kəs İran dedikdə, məxrubə, səkənəsi bihiss, hüquq və qanun qanmayan. Hər bir zülm və təəddiyyə səbr və təhəmmül edən bir heyət nəzərə

gətirir. Hər kəs "İran" dedikdə "viran" sözünü aşkar əlavə etməsə də ürəyindən keçiriyor. "İran" – deyə hər kəsin ürəyində pələng ürəkli millət qəhrəmanlarından ari bir zülm və istibdad meşəsidir yad edilir. Iranın barəsində bir vaxta kimi məsəlli əqidələr nə qədər olsa da səza və rəva idi. Çünki, bədbəxt İran və İran milləti zalim və qəddar vüzəraların, üməraların müləqqib-bülməmaliklərin, xan xəvaninin təhti təzyiqi və istibdadlarından öylə pərakəndə, öylə pərişan olmuş ki, viranədən başqa bir şey ilə onu təmsinə etmək hərgiz yaraşmaz...

Haydı iranlı qardaşlar, yeriyiniz, yeriyiniz də heç bir şeydən vahimə etməyiniz. Allah cəmaət iləndir. Bərəkət də cəmaətdədir. Cəmaət öylə bir qüvvədir [müttəhid olsa] ki, heç bir maneə və işğallıq qabağında dayanmayıb, tutduğu yol ilə gedəcək, gedib də sərmənzilə yetişəcəkdir.

Neçə vaxt bundan iləri hürriyyət gününün tüluini İran üfüqündən görəcəyin, "İrana hürriyyət" – deyə bir bənd yazdıq. Şükr Allaha ki, İran hürriyyətpərvərləri bizi allatmadılar, indi də "İranda inqilab" – deyə yazmağa səbəb oldular. Inşallah vaxt gələr "İranda qanuni-əsasi" – namində bir bənd yazmağa dəxi müvəffəq olarız. Ürəyimizdə bəslədiyimiz arzu iştə bu..." [30].

M.Ə.Rəsulzadənin "Tərəqqi" qəzetində çap etdirdiyi 50-dən çox məqalələrinin adı və məzmunu diqqəti daha artıq cəlb etmişdir. Məqalələrin adından və çap tarixindən aydın olur ki, onların bir hissəsi Bakıda olduğu zaman, qalan hissəsi isə Qacarlar İranına getdikdən sonra qələmə alınmışdır. Onun qəzetdə çap etdirdiyi "İran işlərinə dair", "Təbrizdən", "İran məktubları", və s. adlı məqalələri, yuxarıda qeyd olunduğu kimi, oradan göndərilən xəbərlər əsasında, Qacarlar İranında sürən əhvalatın şərhinə və təhlilinə həsr edilmişdir. Lakin M.Ə.Rəsulzadənin "Tərəqqi" qəzetində öz müşahidələri əsasında çap etdirdiyi məqalələrinə xüsusi diqqət yetirmək lazımdır. Səbəb ondadır ki, məqalələri araşdırarkən onun bir sıra önəmli mövzuları yaxından izlədiyi və proseslərə qoyduğu təsirləri aydın olur. Örnək üçün qəzetin 28 iyul 1909-cu il tarixli mətləbindən aydın olur ki, orada Məhəmmədəli Şahın borclu olduğu, borcuna görə məhkəməyə veriləcəyinin elanı və şahın əleyhinə məhkəməyə şikayətlərin verilməsi xəbərlərinin yayıldığı, istibdad dövründə xalqı şaha qarşı yönəltmək baxımından  xeyli önəm daşıyır [36].

Qəzetin 5 avqust 1909-cu il "Tehran vəqayei" adlı digər bir məqaləsində, Tehranda baş vermiş əhəmiyyətli hadisələr diqqətlə oxucuya təqdim olunur. Məsələn, Məhəmmədəli Mirzənin peşmanlıq xəbərinin yayımı, İran hökumətinin rus səfarətinə müraciəti, "Həblülmətin" qəzetinin bağlanması, Qəzvində iki minə yaxın rus qoşununun ixtiyarında 10 ədəd topun və 2 ədəd pulyemyotun olduğu və bir-bir adları çəkilmiş Parlaman vəkilliyinə namizədlərin siyahısı diqqəti çəkir. Qeyd edək ki, qəzetdə yayımlanan xəbərlərin lazimi təhlili də verilmişdir [37].

M.Ə.Rəsulzadə Tehranda olarkən 1909-cu il avqustun 23-dən 1911-ci il

mayın ortalarınadək öz redaktorluğu ilə "İrane-nov" qəzetini də nəşr etdirmişdir. Müasir İran demokratik hərəkatı və mətbuatı tarixində xüsusi yer tutan bu qəzet get-gedə öz əhəmiyyətini tapmış və sentyabr ayından başlayaraq M.Ə.Rəsulzadənin iştirakı ilə yeni yaranmış "İran Demokrat Partiyası"nın rəsmi orqanına çevrilmişdir. Bu qəzetdə M.Ə.Rəsulzadə "M.Əmin", "R-zadə", "Rəsulzadə", "M.Ə.Rəsulzadə", "Niş" kimi imzaları ilə 31 yazı və 200-dən artıq müxtəlif imzasız yazıları çap edirmişdir. Həmçinin onun 1910-cu il Tehranda "Mühafizəkar və ya sosialist mühafizəkar partiyaların tənqidi" əsəri [56] və 1911-ci il Ərdəbildə "Səadəti bəşər" kitabı fars dilində çap edilmişdir [31].

M.Ə.Rəsulzadənin "İran-e nov" qəzetində çap etdirdiyi məqalələrinin mövzuları və məzmunları hər bir oxucunu təfəkkürə doğru sövq edir. Orada nəşr edilən "Bizim məramımız", "Hazırkı vəziyyətin icmalı", "İranın indiki siyasi vəziyyəti və ya dərəbəylik", "Yeni tərzi hərəkət", "Həzrəti "Niş" dən izahat", "Heyvanların konserti" və "Mətbuat azadlığı". Mühafizəkar və ya sosialist-mühafizəkar partiyalarının tənqidi" kimi elmi və tənqidi məqalələri, o dövrün siyasi-ictimai vəziyyətinin mahiyyətini tamamilə özündə əks etdirir. Məşhur ingilis alimi Edvard Bravn bu qəzetin əhəmiyyəti haqında yazır ki, "Bu Avropa tipli qəzet Çar Rusiyasının təcavüzlərini rüsvay etdiyinə görə böyük əhəmiyyət daşıyırdı" [48, s.252]. Həmçinin İran tarixçisi M.M.Tabatabai bu qəzeti kiçik istibdad dövründən sonra nəşr olunmuş ən yaxşi farsdilli siyasi qəzet adlandırır [58, s.205]. Xatırladaq ki, qəzet xalq arasında böyük nüfuza malik idi. Belə ki, 1910-cu il mart ayı (günəş ili 1288-ci ildən 1289-cu ilə keçən gün) bayram ərəfəsində rusların Təbrizdəki törətdikləri cinayətlərinə və işğalçılıq siyasətinin davamına qarşı etiraz olaraq xalqa müraciətində bayram şənliklərini keçirməmək tələb edilmişdir və xalq bu müraciəti ürəkdən alqışlamışdır.

Qəzet haqqında yazan alimlərdən İran tarixçisi H.Abadiyan tədqiq etdiyi 179 səhifəli əsərinin 120 səhifəsini "İran-e nov" qəzetində nəşr olunan məqalələrin şərhinə və təhlilinə ixtisas vermişdir [43]. H.Abadiyan qəzetin antirus mövqeyindən nəticələr çıxarıb M.Ə.Rəsulzadə ilə yanaşı, digər yazarları İngiltərə mənafeyi istiqamətində çalışdıqlarını bəyan edir. O, qəzetin Hind farslarından himayə etdiyini [16, s.3-4], qədim İran tarixinə önəm verdiyini [22, s.3] və Senat Məclisinin qurulması ilə müxalif olduğunu [18, s.1] vurğulayaraq ittihamlar irəli sürür. Həmçinin subyektiv baxışla M.Ə.Rəsulzadəni pantürkizm adlandırmışdır. Halbuki qəzetin 110-cu nömrəsində yazılır: "mənafe və xeyirxahlıq tələb edir ki, İran dövləti modern və müstəqil olsun, İngilis dövlətinin verdiyi rəsmi təəhhüdünə əsasən işlərə müdaxilə etməmək və ərazi bütövlüyü prinsipinə hörmət etmək gözlənilir, gərək heç bir şəraitdə rusların məsləki və xəyalları güclənməsin və təhmil olunmasın [19, s.1].

H.Abadiyan qəzeti tənqid edərək etnik məsələlər haqqında qeyd edir ki,

“artıq xalqı parçalamaq və onları müsəlman, cuhud, zərdüşt, türk və fars adlandırmaq dövrü başa çatıbdır, bu bölgü istibdaddan qaynaqlanır” [43, s.63]. Halbuki qəzetin 134-cü nömrəsində tam əksinə olaraq, qeyd olunur ki, “bu gündən İranda nə müsəlman, nə zərdüşt, nə erməni, nə cuhud, nə türk, nə fars sözü olmamalıdı, təkcə bir İran vardır! Biz bir millətik” [23, s.1].

M.Ə.Rəsulzadənin Türkiyə və Avropa ölkələrində siyasi-mühacir həyatını yaşayan illərdə də Qacar və Pəhləvi İranı haqda dəyərli məqalələri olmuşdur. Bu məqalənin təhlili gələcək yazılarımızda veriləcəkdir.

M.Ə.Rəsulzadənin Qacar İranında apardığı ictimai-siyasi fəaliyyətinin istiqamətləri, onun bütün siyasi həyatında inandığı və irəli sürdüyü siyasi-ictimai, sosial-fəlsəfi, etik və estetik baxışlarından qaynaqlanır. Bir sözlə demək olar ki, M.Ə.Rəsulzadənin siyasi-fəlsəfi düşüncəsi, Türk dünyasında ilk dəfə olaraq irəli sürülmüş “türkləşmək, islamlaşmaq və müasirləşmək” – Əli bəy Hüseynzadənin fikirləri ilə üst-üstə düşür. Lakin M.Ə.Rəsulzadənin məfkurəsində yaşanan Azərbaycançılıq, demokratiya, ədalətli toplum, qadınların hüququ [57], antiistibdad və inqilabçılıq kimi dəyərli ideyaları, onu başqalarından fərqləndirir. M.Ə.Rəsulzadə bütün həyatı boyunca, habelə Qacarlar İranında olarkən və tariximiz üçün yuxarıda sadaladığımız ideyaların müdafiəçisi olmuşdur. Onun hətta düşmənləri və tənqidçiləri də yüksək əxlaqi, humanist, siyasi, fəlsəfi və ictimai xüsusiyyətlərə malik olduğunu etiraf edirlər. M.Ə.Rəsulzadə məktəbinin mahiyyətini aydın şəkildə onun “İran-e nov” qəzetində çap etdirdiyi məqalələrinin adından da öyrənmək mümkündür. Orada nəşr etdiyi “Bizim məramımız” [21], “Hazırkı vəziyyətin icmalı” [22], “Bizim rəsmi dilimiz yoxdur” [20], “Biçarə mətbuat” [23], “Heyvanların konserti” [24] kimi məqalələri siyasi və fəlsəfi cəhətdən xeyli əhəmiyyət daşıyır.

Tarixçi F.Adəmiyyət Məşrutə inqilabı haqqında yazdığı əsərinin [44] yarısını “İran demokrat partiyası”nın mütəfəkkiri M.Ə.Rəsulzadəyə həsr etdiyi əbəs deyil. F.Adəmiyyət M.Ə.Rəsulzadənin dərin bilgiyə və təfəkkür sisteminə malik olduğunu vurğulayaraq onun dörd siyasi-fəlsəfi məqaləsini – “Demokratiyanın gələcəyi”, “İnqilabi sosializmin iflası”, “Rusiyanın siyasi vəziyyəti” və “Etedaliyyun firqəsinin tənqidi”ni təhlil etmişdir. O, M.Ə.Rəsulzadə tərəfindən izah olunmuş demokratiyanın üç böyük əsasını, yəni azadlığı, müsavatı və milli hakimiyyəti təsdiq edir [44, s.170-194]. Həmçinin “İnqilabi sosializmin iflası” əsərində bəyan olunan “Avropada sosializmin inkişafı marksizmin sosialızmə olan nüfuzunu azaldaraq yeni fikirlərin inkişafına müsbət təsir göstərmişdir” fikrini təsdiq edir [44, s.215].

M.Ə.Rəsulzadə “Rusiyanın siyasi vəziyyəti” məqaləsində Stalinin bürokratiyasini məhkum edir və xatırladır ki, SSRİ-nin ictimai quruluşu nə sosializmdir, nə demokratiyadır və nə fəhlələrin hakimiyyətidir, əksinə, azlıqda olan bir partiyanın hakimiyyətidir. Bu məsələ F.Adəmiyyətin əsərində öz əksini tapmışdir [s.263]. Əsərdə qeyd olunur ki, M.Ə.Rəsulzadənin fikrincə,

"kommunistlərin səhv siyasətləri Avropada faşizmin yaranma səbəblərindən biri olmuşdur" mövzusu onun dərin tarixi bilgiyə malik olduğunu sübut edir [44, s.268].

Qeyd edək ki, müasir İran tarixşünaslığında M.Ə.Rəsulzadə haqqında söylənmiş müsbət fikirlərin sayı həddən artıqdır. Misal üçün, S.H.Tağızadə yazır ki, belə kişiləri olan xalq xoşbəxt xalqdır [51, s.466]. Həmçinin N.Pərvin M.Ə.Rəsulzadəni F.Axundovun, Ə.Talıbovun və Ə.Ağayevin kənarında İranlıların ümumi əqidələrini formalaşdıran şəxsiyyət kimi təqdim edir [50, s.326]. Lakin haqsız olaraq bir sıra fars şovinizmi məktəbinə qulluq edən İran tarixçiləri [45; 47; 49] M.Ə.Rəsulzadə və Azərbaycan tarixi haqqında öz məntiqsiz və qərəzli fikirlərini yaymağa can atırlar.

Xatırladaq ki, İran tarixşünaslığı adlanan məsələ təxminən XIX əsrdən meydana çıxmış və onun əsası Avropa şərqşünasları tərəfindən qoyulmuşdur. Orada olan irançılıq, ariçilik, farsçılıq, antitürk, antiislam və antiərəb konsepsiyaları aydın şəkildə özünü əks etdirir. Bu ideyalar əslində müstəmləkəçi dövlətlərin Şərq ölkələrinə qarşı geniş talan planlarının nəzəri hissəsini təşkil edir. Bir sözlə desək, İran tarixşünaslığı məsələləri müasir İranın bir milli dövlət kimi yaranması ilə sıx əlaqədardır və onun ideoloji əsaslarını təşkil etmişdir. Bu məktəbin yerli banilərindən Mirzə Məlkəmxanın, Cəlaləddin Mirzə Qacarın, Mirzə Ağaxan Kirmaninin, Mirzə Fətəli Axundzadənin, Məhəmmədəli Fruğinin, Həsən Pirniyanın, Əhməd Kəsrəvinin, Mahmud Əfşarın, İnayətullah Rzanın və b. adlarını çəkmək olar.

İran tarixşünaslığında Azərbaycan tarixinin, dilinin və şəxsiyyətlərinin saxtalaşdırılması istiqamətində çox cəhdlər edilmiş və bu gün də davam etməkdədir. O dırnaqarası əsərlərdə Azərbaycan türklərinin köçəri olduqları, Azərbaycan xalqının farsdilli olduğu və Azərbaycan sözünün M.Ə.Rəsulzadə tərəfindən oğurlandığı kimi iddialar irəli sürülür. Onlar həyasızcasına Dağlıq Qarabağ ərazilərini erməni ərazisi kimi təqdim etməkdən də heç çəkinmirlər [49, s.13; 47 s.323]

İran şovinist tarixçiləri tərəfindən M.Ə.Rəsulzadəyə qarşı irəli sürülən ittihamların əsas məzmunu zahirdə Azərbaycan Xalq Cümhuriyyətinin adı ilə bağlıdır. Onlar AXC-nin Qacarlar dövləti ilə bərabər 20 dövlət tərəfindən tanınmasını və bu cümhuriyyətin haqlı olaraq qədim Azərbaycan torpaqlarının bir parçasında yarandığını inkar etməyə can atırlar [45]. Lakin bütün bunlara baxmayaraq AXC haqqında yazılmış məqalələr toplusundan ibarət olan bu kitabda çap olunmuş M.Ə.Rəsulzadənin "İran və biz" və "Azərbaycan və İran" adlı məqalələrində bütün iddiaların cavabları verilmişdir. [45, s.77-92]. Qeyd edək ki, bu mübahisələr o dövrdə nəşr olunan "İran" və "Azərbaycan" qəzetlərində çap edilmişdir. Bu mövzu haqqında ilk dəfə olaraq 1930-cu ildə çap edilmiş Ə.Kəsrəvinin "Şəhryarane gomnam" kitabında da rastlaşırıq [53, s.260]

**Nəticə**

M.Ə.Rəsulzadənin bütün ictimai-siyasi fəaliyyəti, həyatı boyu qazandığı uğurları və qoyduğu strateji xətti onun bütün dostları ilə bərabər hətta düşmənləri tərəfindən də təsdiq edilir. Azərbaycan dövlətçiliyinin əsasını qoyan bu dahi şəxsiyyət sürgün həyatını yaşayarkən yorulmadan öz müqəddəs missiyasını davam etdirmişdir. Bu fəaliyyətin bariz nümunəsi 1909-1911-ci illər ərzində Qacarlar İranında apardığı ictimai-siyasi fəaliyyəti və Məşrutə hərəkatında yaxından iştirak etməsindən ibarətdir. M.Ə.Rəsulzadənin İrandakı ictimai-siyasi fəaliyyəti və yazdığı məqalələrinin təsiri müasir Azərbaycan və İranın azadlıq hərəkatı tarixinin ən parlaq səhifələrindən hesab edilir. İran tarixşünaslığında Rəsulzadə haqqında söylənmiş tarixi fikirlər onun bariz nümunəsidir. O, səbəbdəndir ki, M.Ə.Rəsulzadının ideyalarının öyrənilməsi, təbliği və onların bütün ictimai-siyasi proseslərdə tətbiq edilməsi günümüz üçün ən vacib məsələlərdəndir.

**ƏDƏBİYYAT**


1. İranda rus çarizmi / "Açıq söz", qəz., № 468, 9 may 1917
2. Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2005
3. İran böhran içində / “Açıq söz” qəz., № 26, 2 noyabr, 1915
4. Azərbaycan və İran / “Azərbaycan” qəz., 28 aprel, 2019, N168
5. İran və biz / “Azərbaycan” qəz., 8 aprel, 2019, № 152
6. *Əlizadə A.S.* Məhəmməd Əmin Rəsulzadə və İslam. Bakı, 2003
7. *Balayev A.* Məhəmməd Əmin Rəsulzadə. Bakı, 2011.
8. *Ələkbərov F.* Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı: YYSQ-2014, 317 s. ss.77-78. http://www.yysq.org
9. *Ələkbərov F.* Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı, 2007
10. Azərbaycan xatiratından (Təbriz) / “İqbal” qəz., № 835, 9 yanvar, 1915
11. Erməni məsələsi ətrafında / “İqbal” qəz., № 786, 10 noyabr, 1914
12. İran məclisi-millisinin açılması / “İqbal” qəz., № 796, 24 noyabr, 1914
13. İran böhranı / “İqbal” qəz., № 914, 16 aprel, 1915
14. Səttar xan / “İqbal” qəz., № 786, 10 noyabr, 1914
15. Biçarə mətbuat / “İrane-nov” qəz., № 113, 17 yanvar, 1910
16. “İrane-nov” qəz., № 12, 7 sentyabr, 1909
17. “İrane-nov” qəz., № 26, 23 sentyabr, 1909
18. “İrane-nov” qəz., № 99, 27 dekabr, 1909
19. “İrane-nov” qəz., № 110, 13 yanvar, 1910
20. Bizim rəsmi dilimiz yoxdur / “İrane-nov” qəz., № 99, 27 dekabr, 1909
21. Bizim məramımız / “İrane-nov” qəz., № 1, 23 avqust, 1909
22. Hazırkı vəziyyətin icmalı / “İrane-nov” qəzeti, № 4, 26 avqust1909
23. “İrane-nov” qəzeti, № 134, 6 fevral, 1910
24. Heyvanların konserti / “İrane-nov” qəz., № 213, 25 may, 1910
25. Daşnaksutyunçuya rədiyyə / “İrşad” qəz., № 171, 21 iyul, 1906

26.Edam cəzası / "İrşad" qəz., № 208, 4 sentyabr, 1906
27.İran işləri / "İrşad" qəz., № 186, 8 avqust, 1906
28.İranda "yanvarın doqquzu" / "İrşad" qəz., № 159, 7 iyul, 1906
29.İranda hürriyyət / "İrşad" qəz., № 51, 20 fevral, 1906
30.İranda inqilab / "İrşad" qəz., № 145, 24 iyun, 1906
31.Rəsulzadə M.Ə. Seadete-bəşər, Ərdəbil, 1911
32.*Yaqublu N.* Azərbaycan Milli İstiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, 2001
33.*Yaqublu N.* Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı: Kitab Klubu MMC, 2013, 504 s.
34.Hökuməti-Osmaniyyə ilə İran arasında maddi və mənəvi rabitələr / "Səbilürrəşad"(Doğru Yol) qəzeti, № 31 (213) 20 sentyabr; 14 oktyabr, 1912
35."Tərəqqi" qəz., № 116, 28 may, 1909
36."Tərəqqi" qəz., № 168, 28 iyul, 1909
37."Tərəqqi "qəz., № 174, 5 avqust, 1909
38.İran işləri. Axırıncı vaqiələr / "Təkamül" qəz., № 9, 17 fevral, 1907
39.İran türkləri. İstanbul // Türk Yurdu, № 4, 1911; N 2, 6, 9, 10, 12, 24, 1912
40."Yeni qafqasiya", "İrandakı türkmən üsyanının mənası", il-2, say 18, 23 zilkadə 1343, s. 1-4
41.*Ervand A.* Iran between two revolutions. Princeton University Press 1982, ISBN-10: 0691101345, 561 p.
42.*Afary J.* The Iranian Constitutional Revolution 1906-1911. Columbia University Press, 1996

**Fars dilində**

1. بیانی خان حسین، رسول زاده، فرقه دمکرات و تحولات معاصر ایران، موسسه مطالعات تاریخ معاصر ایران، چاپ اول، 1731 ، 131 ص.
2. آدمیت فریدون. فکر دموکراسی اجتماعی در نهضت مشروطیت ایران. تهران پیام 1354.
7. آذربایجان در موج خیز تاریخ با قدمگاه وهیات تهران فشی رازه، چاپ اول، 1711، 132 ص.
4. شلینگ تورج، آذربایجان در ایران معاصر، ترجمه محمد کریم اشراق، تهران توس، چاپ اول، 1731، 283 ص.
5. ابراهیمیان بهرام, روابط ایران و جمهوری آذربایجان, نگاه آذری ها به ایران, تهران, دفتر مطالعات سیاسی و بین المللی, 1781، 411 ص.
1. براون ادوارد. تاریخ مطبوعات و ادبیات ایران در دوره مشروطیت، ترجمه محمد عباسی، تهران، معرفت، 1335.
3. بیات کاوه بحران قره باغ تهران انتشارات پروین, چاپ اول، 1732، 151 ص.
8. پروین ناصرالدین. تاریخ روزنامه نگاری ایرانیان و دیگر پارسی نویسان، تهران، نشر دانشگاهی، 1379.
1. تقی زاده سید حسن. زندگی طوفانی به کوشش ایرج افشار، انتشارات علمی، چاپ دوم: 1372.
11. کسروی احمد تاریخ مشروطه ایران، جلد 1 تهران، امیرکبیر، چاپ شانزدهم، 1717، 111 ص.
11. کسروی احمد. شهریاران گمنام تهران نشر نگاه، چاپ دوم، 1788، 748ص.
12. کسروی احمد تاریخ هجده ساله آذربایجان تهران، امیر کبیر، جلد 2، 2573، 111-451 ص.
17. رسول زاده محمد امین. گزارش هایی از انقلاب مشروطیت ایران، ترجمه رحیم رئیس نیا، تهران شیرازه 1377.

14. رسول زاده محمد امین. تئوری فرقه اعتدالیون یا اجتماعیون اعتدالیون تهران, مطبعه فاروس، 1728.

15. علیزاده محمدعلی، باغدار دلگشا علی، بررسی مطالبات اجتماعی زنان در جراید عصر مشروطه، فصلنامه علمی پژوهشي زن و جامعه، سال هفتم، شماره یکم، بهار 1715، صص 211-218.

11. محیط طباطبایی محمد، تاریخ تحلیلی مطبوعات ایران، تهران، بعثت، چ اول، 1366.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 141-148
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 141-148
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 141-148

***UOT 94 (479.24)***

***X.İslam***
*Bakı Dövlət Universiteti*
*xoshgedem-islam@rambler.ru*

# "BAKI ŞƏHƏRİNDƏ DÖVLƏT UNİVERSİTETİNİN AÇILMASI HAQQINDA" QANUN LAHİYƏSİNİN MÜZAKİRƏSİ ARXİV SƏNƏDLƏRİNDƏ

***Açar sözlər:*** *respublika, dövlət universiteti, parlament, təhsil*

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik tarixində misilsiz bir hadisə idi. Onun mövcudluğu milli həyatın hər sahəsinə nüfuz etmişdi. Azərbaycan Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin: təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirmişdi. Müharibələr və daxili qarmaqarışıqlıq nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi kimi sahələrdə hökumət tərəfindən mühüm quruculuq tədbirləri görülürdü. Bunlardan ən önəmlisi "Bakı şəhərində dövlət universitetinin açılması haqqında" qanunun qəbul edilməsi oldu. Bu dövlət 23 ayliq fəaliyyətinin 10 ayı ərzində gərgin əməyinin bəhrəsi olaraq Azərbaycan xalqına milli sərvət – universitet bəxş edə bildi.

***Х.Ислам***

# ОБСУЖДЕНИЕ ЗАКОНОПРОЕКТА «ОБ ОТКРЫТИИ ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА В БАКУ» В АРХИВНЫХ ДОКУМЕНТАХ

***Ключевые слова***: *республика, государственный университет, парламент, образование*

Создание Азербайджанской Демократической Республики явилось беспрецедентным событием в истории национальной государственности азербайджанского народа. Его присутствие проникло в каждый аспект национальной жизни. Азербайджанская Республика уделяла особое внимание развитию национальной культуры: образования, литературы и искусства. В областях войны и внутренней неразберихи правительство приняло важные меры в таких областях, как восстановленная сеть школ, адаптация школ к новым условиям, национализация образовательных учреждений и помощь национальному искусству. Самым важным из них было принятие закона об открытии государственного университета в Баку. В результате его неустанного труда в течение 10 месяцев 23-месячной деятельности национальное богатство азербайджанского народа смогло обеспечить университет.

**X.Islam**

## DISCUSSION OF THE LAW PROJECT "ON OPENING A STATE UNIVERSITY IN BAKU" IN THE ARCHIVE DOCUMENTS

***Keywords:*** *republican, state university, parliament, education*

Establishment of the Azerbaijan Democratic Republic was an unprecedented event in the history of national statehood of the Azerbaijani people. His presence penetrated every aspect of national life. The Republic of Azerbaijan paid particular attention to the development of national culture: education, literature and art. In the areas of war and internal confusion, the government took important measures in the areas such as the rehabilitated network of schools, adaptation of schools to new conditions, nationalization of educational institutions, and assistance to national art. The most important of all was the adoption of the Law on" Opening a State University in Baku". As a result of its tireless labor for 10 months of its 23-month activity, the national wealth of the Azerbaijani people was able to provide university.

1918-ci ildə müstəqillik qazanan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Daxildə bolşeviklərin ermənilərlə əlbir olaraq yaratdıqları qarışıqlıqlara və ölkə iqtisadiyyatının çətin vəziyyətinə baxmayaraq AXC milli mədəniyyətin, təhsilin inkişafına xüsusi əhəmiyyət verirdi. Azərbaycan hökuməti xalqın maariflənməsi üçün ciddi addımlar atmış, məktəbləri milliləşdirmiş, icbari təhsil və məktəblərdə ana dilində təhsilin aparılması sahəsində tədbirlər görmüşdür. Bu tədbirlər içərisində daha önəmlisi Qafqazda ilk Avropa tipli ali məktəbin – Bakı Dövlət Universitetinin yaradılması oldu. Şərqdə ilk demokratik dövlətini yaradan Azərbaycan xalqı şərqdə ilk ali məktəbin də yaradıcısı oldu. Maliyyə, kadr çatışmazlığına baxmayaraq milli hökumət 23 ayliq fəaliyyətinin 10 ayı ərzində gərgin əməyinin bəhrəsi olaraq Azərbaycan xalqına milli sərvət – universitet bəxş edə bildi.

Universitet bir sıra səbəblərlə bağlı olaraq meydana gəldi. Çar Rusiyasının hakimiyyəti dövründə Tiflisdə universitet açılma məsələsi dəfələrlə müzakirə olunsa da, müstəmləkə siyasətinin amansız düşüncələri buna imkan verməmişdir. 1917-ci il fevral inqilabından sonra Tiflisdə "Rus universitetinin" açılması ilə bağlı komissiya yaradıldı. Bu komissiyaya görkəmli alim, cərrah, pedaqoq Vasili İvanoviç Razumovski rəhbərlik edirdi (9, s.42). Komissiya universitetin layihəsini hazırlayıb Cənubi Qafqaz hökumətinə təqdim edir. V.İ.Razumovski xatirələrində bu haqda yazırdı: "işimiz bitənə yaxın Qafqaz Rusiyadan ayrıldığını elan etdi və ermənilər, gürcülər və türklərdən ibarət qarışıq hökumətlər yaradıldı. Türklərin Xalq maarif naziri Fətəli xan Xoyski idi. Biz Tiflisdə "Rus universiteti"nin açılması üçün apardığımız işdən istifadə

etməyi həmin hökumətə təklif etdik. Nazir bizi dinlədi, Qafqazda rus universitetinin təsis edilməsini rəğbətlə qarşıladı. Lakin əlavə edib dedi: "Bəs niyə Tiflisdə? Tiflisdə Politexnikum var, indi də gürcü universiteti? ...bəlkə universiteti Bakıda açmaq daha düzgün olardı?" O, bizim məlumat məktublarımızı nəzərdən keçirmək üçün götürdü və bizim məqsədimiz barədə nazirlər Şurasına məlumat verəcəyini vəd etdi" (8, s.110). Həmin vaxtdan Azərbaycan hökuməti xalqin taleyində universitetin oynayacaği rolun əhəmiyyətini düzgün qiymətləndirərək əməli tədbirlərə başladı. Ə.Topçubaşov, Ə.Ağayev, F.Xoyski, N.Yusifbəyli, B.Cavanşir və s. dövlət quruculuğunu daha möhkəm təməllərlə həyata keçirmək və müstəqilliyi qorumaq üçün mili kadrların hazırlanması üçün universitetin yaradılması qərarına gəlmişdilər. XX əsrin əvvəllərində yeni yaranmış Azərbaycan dövləti üçün universitet yaradılması o qədər də asan iş deyildi. Bunun üçün ana dilində dərs deyə biləcək kadrlarla yanaşı, maliyyə çətinliyi və maddi-texniki çatışmazlıq hökuməti düşündürən amillərdən idi. Maarif naziri və dini işlər naziri N.Yüsifbəyli bu işi reallaşdırmaq üçün bütün qüvvələri səfərbərliyə almışdı. V.İ.Razumovski yazırdı "1919-cu ilin əvvəlində Azərbaycan hökumətinin xalq maarif naziri Həmid bəy Şaxtaxtinski Tiflisə gəldi. O, Tiflis "Rus universiteti"ni Bakiya köçürmək təklifi ilə gəlmişdi, yaxşı binalar, maddi təminat və s. vəd etdi". 1919-cu ilin sonunda V.İ.Razumovski Bakıdan alınan təklifin daha məqsədəuyğun olmasını bildirərək təklifi qəbul edir. Tiflisdə universitet şurasının iclasında professor bildirir: "Azərbaycan hökuməti universitetin açılması üçün 5 milyon manat, universitet kitabxanası üçün 300 min rubl vəd edir. Universitetə tam yararlı klinika və avadanlıqla təmin edilmiş xəstəxana və s. verməyi də öhdəsinə götürür" (12). Professorlar N.A.Dubrovski, L.A.İşkov, İ.S.Stoviç və V.İ.Razumovskinin rəhbərliyi ilə Azərbaycan hökuməti ilə danışıqlar aparmağa və yerli şəraitlə yaxından tanış olmaq üçün Bakıya gəlirlər. Azərbaycan hökuməti ilə danışıqlardan aydın olur ki, hökumət universitetin açılması üçün bütün fədakarlığa hazırdır. Bu haqda V.İ.Razumovski qeyd edirdi: "Aydın oldu ki, Azərbaycan hökuməti başda N.Yusifbəyli olmaqla Bakıda universitetin açılmasına ciddi şəkildə maraqlıdır. Cəmiyyətin bütün siniflərinin… əhval-ruhiyyəsi universitetin dərhal açılmasına köklənib" (12).

1919-cu il mayın 1-də xalq maarif naziri Həmid bəy Şaxtaxtinski V.İ.Razumovskiyə teleqram vurur və bildirir ki, Bakıda yeni universitet açılır, hökumət ondan universitetin təşkilini öz üzərinə götürərək komissiya yaratmasını xahiş edir. Bunun ardınca Azərbaycan hökuməti universitet təsis etmək üçün sənədləri hazırlamaq Xalq maarif nazirliyi tərkibində komissiya yaradılması haqqında 8 maddədən ibarət əsasnamə qəbul edir (9, s.34). Komissiyanın tərkibinə professorlar N.A.Dubrovski, L.A.İşkov, İ.S.Stoviç V.İ.Razumovski, Xalq maarif nazirliyindən əvvəcə İ.İrzayev, sonra

M.A.Şaxtaxtinski, Bakı şəhər bələdiyyəsindən Ə.Orucəliyev və Neft sənayeçiləri qurultayı şurasından N.A.Şaparov və Məlik bəy Sultanov daxil edilir. Bu komissiyanın əsas vəzifəsi "Bakı şəhərində dövlət universitetinin açılması haqqında" qanun layihəsini, onun nizamnaməsini, ştatnı smetasını hazırlayıb parlamentin təsdiqinə vermək idi. 1919-cu il mayın 19-da hökumət Xalq maarif nazirliyi nəzdində komissiya tərkibini təsdiq edir (8, s.123).

BDU-nun yaradılması ilə bağlı layihə ilk dəfə 21 iyul 1919-cu il parlamentin 57-ci iclasında Həsən bəy Ağayevin sədrliyi və Mehdi bəy Hacınskinin katibliyi ilə müzakirəyə çıxarıldı. 21 avqust 1919-cu il parlamentin 67-ci iclasında təhsil komissiyasının sədri Mehdi bəy Hacınski qanun layihəsi haqqında geniş məruzə etdi. Məruzədə Mehdi bəy Hacınski universitetin açılması ilə bağlı bir sıra problemlərə toxundu. Mehdi bəy Hacınski: Bakıda universitetin açılması haqqında məsələ böyük gurultu yaratmışdı. Bunun lehinə və əleyhinə olanlar çoxdurlar. Hökumət bir komissiya təşkil etmişdir və o komissiyaya məşhur professor V.İ.Razumovski rəhbərlik edir. Bu komissiyaya əlavə olaraq bir nəfər maarif nəzarətindən, Bakı bələdiyyəsi və neft şurası tərəfindən də bir nümayəndə daxil edilmişdir. Komissiya universitetin nizamnaməsini tərtib edib hökumətə təqdim etmişdi. Universitetin nizamnaməsi 72 fəsildən ibarətdir. Bu fəsillər ümumilikdə daxili işlərə aiddir. Bu layihələr parlamentin fraksiyalarında müzakirə olunmuşdur. Lakin burada iki fikir formalaşib. Universitetin açılması tərəfdarı olanlar layihənin tez bir zamanda həyata keçirilməsini arzu edirlər. Digər əleyhinə olanlar vaxtın müsaid olmadığını və bu layihənin böyük xərc tələb edəcəyini bildirirlər. Lakin komissiya üzvləri şəxsən qərar verdilər ki, universitet açılsın. Maliyyə-büdcə komissiyası da universitetin açılmasına tərəfdardır. Cənubi Qafqazda-Azərbaycanda belə bir təhsil ocağının yaradılması vacibdir. Bunun üçün şərait də vardır. Bakıda mövcud olan kommersiya məktəbinin elmi laboratoriyasından istifadə oluna bilər, tibb şöbəsi üçün alətləri Mixaylovski və Qaraşəhərin xəstəxanalarından əldə etmək mümkündür. Universitet üçün bir illik xərc olaraq beş milyon istənilir" (1). Parlamentdə müzakirələr zamanı maliyyə çətinliyi ilə bağlı olaraq universitetin açılımasının bir qədər yubadılması məsələsi təklif olunur və səs vermə zamanı 28 nəfər lehinə, 17 nəfər əleyhinə səs verir (1). Məsələnin yenidən müzakirə olunması qərar alınır. Universitetin açılması əleyhinə olanlar tədrisin rus dilində aparılması, universitetə dəvət almış professorların tələbələr arasında ruslaşdırma təbliğatı aparacağı məsələsini qaldırırlar və ən əsası, milli kadrların ana dilində tədris apara biləcəyinə qədər gözləməyi təklif edirlər. Müzakirələrə müdaxilə edən Məmməd Əmin Rəsulzadə universitetin açılmasını tezləşdirmək üçün parlament üzvlərini bu məsələyə xüsusi diqqət verməyə çağırır və öz nitqində bunları söyləyir: Hər şeydən əvvəl biz hamımız bunu etiraf edirik ki, Azərbaycan daxilində elmi mütəxəssislər yoxdur. Universitetin açılması üçün ilk növbədə, dövlətin yardımı

daha vacibdir. Bu cür adamların yoxluğu hər cəhətdən təsirini göstərir. Ona görə bir an əvvəl elmi mütəxəssis adamları yetişdirmək dövlətin vəzifəsidir. Əlbəttə, yaxşı olardı bu təhsil ocağında professor və müəllimlər ana dilində təhsil verəydilər. Lakin tədris rus dilində aparılacaq, çünki tələbələrimiz rus məktəblərində rusca dərs almışlar. Əlbəttə, biz daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün Avropaya tələbələr göndərəcəyik. Fəqət eyni zamanda məmləkət daxilində bir fənn və elm ocağı yaratmaq vacıbdir. Çünki universitet yalnız tələbə yetişdirmir, eyni zamanda bir tərəfdən təlim etməklə, digər tərəfdən məmləkəti öyrənir, onun əhval və xüsusiyyatını təhlil və tədqiq edir. Bu nöqteyi-nəzərdən universitetə xaricdən bir çox alimlər və professorlar cəlb ediləcəkdir. Onlardan qorxub ehtiyat etmək lazım deyil. Onlar burada bir rus mədəniyyəti ocağı yaradıb tələbələri ruslaşdırmayacaqlar. Universitetə dəvət etdiyimiz adamlar üzərində hökumət nəzarəti olacaqdır. Elm bitərəfdir. Dünyada rus elmi deyil, beynəlmiləl bir elm var. Biz bu beynəlmiləl elmi, hər bir millətin dilindən eşitdiyimiz kimi, rus professorlarının dilindən öyrənə bilərik. Çünki bizə elmi Çində belə olsa öyrənməyi tövsiyə etmişlər. Universitetin faydalarından biri də budur ki, burada məmləkətin gizli qalmış bir çox xüsusiyyətləri öyrəniləcəkdir. Digər tərəfdən, xaricə getməyə imkanı olmayan tələbələr burada elm öyrənmək imkanında olacaqlar. Zamanla universitet milliləşəcək. Bununla bərabər orada türk dili ümumi surətdə məcburi olaraq keçiriləcək və öyrədiləcəkdir. Heç bir millət tarixən ilk addımında milli bir universitetə sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək sonradan inkişaf etmişdir. Universitet hər hansı dildə olursa-olsun açıb oxumalıyıq. Çünki bu universitet ilə biz öz gənclərimizi ziyalandırıb istədiyimiz milli professorlarımıza tədricən sahib olacağıq" (1). Müzakirələrdə çıxış edənlər (Yusif Əhmədov, Abdulla bəy Əfəndiyev, Muxtar Əfəndizadə, Əliheydər Qarayev, Qara bəy Qarabəyli) M.Ə.Rəsulzadənin fikri ilə razılaşmadıqlarını bildirdilər və qeyd etdilər ki, hələ ki, ibtidai məktəblər ilə kifayətlənmək lazımdır, universitetin açılması üçün lazımi şərait yetişməlidir (1). Bu etirazlı çıxışlara cavab olaraq Ağamalıoğlu Səmədağa öz fikrini belə əsaslandırır: "Biz parlamenti açandan bu vaxtacan belə bir mühüm qanun bizim müzakirəmizə verilməmişdir. İndi onu da saxlamaq istəyirlər. Ayda ildə bir namaz, onu da şeytan qoymaz. Məndən qabaq M.Ə.Rəsulzadə bütün dəlillərlə sübut etdi ki, bizə universitet açmaq vacibdir və zamanı gəlibdir. Burada söylədilər ki, universitet 18 milyon pul aparır, ona görə o ağır xərci camaatın üstünə yükləmək olmaz. Ancaq unutmaq olmaz ki, elm, təhsil insanların gözünü açır. Universitet açmaq bir işə sərmayə qoymaqdır. Bu universitet bir palıd ağacına oxşayır, basdırarsan, iyirmi ildən sonra qollu-budaqlı çıxacaq. Professorlar özləri gəlib işləmək istəyirlər. Mən təəccüb edirəm nə üçün onları əldən buraxaq. Əgər indi universitet açmasaq, sonra heç aça bilməyəcəyik. Zaman gələcək bizim pulumuz olacaq, amma professorlar olmayacaq. Deməli vaxt

gəlib" (1).

Maarif naziri R.Kaplanov bildirir ki, universitet yalnız müəllim yetişdirmək və ziyalı gənclər meydana gətirmək üçün lazım deyil. Bizə millətin ruhunu yüksəldəcək bir elm ocağı lazımdır ki, o da universitetdən başqa bir şey deyildir. Bu yaxınlarda 100 nəfər gənci xaricə oxumağa göndərəcəyik. Lakin bu universiteti Bakıda açsaq, 3-4 milyonluq millət içərisindən bizim arzu etdiyimiz elm və təhsil nəticəsində alimlərimiz mükəmməl surətdə oradan çıxacaqdır və bəlkə professorlarımız da yetişəcəkdir. Bu gün biz pulu yox, universitetin nə olursa-olsun bütün var qüvvəmiz ilə açılmasını düşünməliyik. Əlbəttə, bizim universitet Paris və ya Berlin universitetləri kimi yüksəkdə ola bilməyəcək. Lakin 5-6 ildən sonra bizim yaxşı mütəxəssislərimiz olacaq. Əminəm ki, bu universitet bizim gələcəkdə milli istiqbalımızı təmin edəcək bir məbəd, elm ocağı olacaqdır" (1). Beləliklə, "Bakı şəhərində dövlət universitetinin açılması haqqında" qanun layihəsi Azərbaycan Parlamenti tarixində vacib qanunlardan biri hesab olunaraq əksəriyyət səs ilə qəbul olunur.

Parlamentin 25 avqust 1919-cu il 68-ci iclasında universitetin nizamnaməsi və muxtariyyət məsələsi müzakirəyə çıxarılır. Müzakirələrə öz münasibətini bildirən Məmməd Əmin Rəsulzadə çıxış edir: "Əgər nizamnamədə göstərilən qaydalara uyğun olaraq xaricdən professorlar dəvət ediriksə, onlara daxili muxtariyyət də verməliyik. Bu nizamnamə universitet daxilində elmi muxtariyyətdir. Elmlə məşğul olmayan insanların universitetin daxili məsələlərinə qarışması arzu edilən deyil. Bu məsələlərlə bağlı Xalq maarif nazirliyinə bəzi səlahiyyətlər veriləcək. Əgər muxtariyyət verilməsilə bir təhlükə mövcud olarsa, bu təhlükənin qarşısını maarif nazirliyi öz səlahiyyət ilə dərhal alacaqdır. Sonda universitetlə bizim aramızda Çin səddi olmayacaq" (2). Daha sonra müzakirələr universitetin hansı binada yerləşəcəyi məsələsi ətrafında aparılır. Deputatlar (Ağa Aşurov, Qara bəy Qarabəyov, Rəşid bəy Kaplanov, Muxtar Əfəndizadə) müzakirə zamanı bildirilər ki, universitet üçün yeni bina tikilməsi vacibdir. Bu məsələdə yekdil fikir olmadığı üçün müzakirə yarımçıq saxlanılr. Yenidən müzakirələr universitet üçün ayrılacaq büdcəyə həsr olunur. Məsələyə aydınlıq gəritmək üçün universitetin rektoru vəzifəsinə dəvət olunan professor V.İ.Razumovskiyə söz verilir. O, çıxışında bildirir: "Universitetin açılması böyük tarixi hadisədir. Mən çox sevinirəm ki, parlamentdə təmsil olunan bütün partiyalar bunun tərəfdarıdır. Bu layihə nəinki Azərbaycan, bütün müsəlman dünyası üçün böyük tarixi hadisədir. İndi isə büdcə məsələsinə diqqət edək. Deputatlar universitet üçün 1.5 milyonun hara xərclənəcəyi ilə maraqlanırlar. İlk növbədə bizim üçün kafedralara ləvazimatlar lazımdır. Təkcə kitabxana üçün təqribən 1 milyon manat lazımdır. Tarix-filologiya fakültəsindən əlavə, Şərq tarixi kafedrasının açılması da nəzərdə tutlub. Qalan pul digər maddi təchizatın alınmasına sərf olunacaq. Bu pul əlbəttə azdır. Lakin universitetin açılması üçün ilk addım üçün hələki yetərlidir"

(2). Əliheydər Qarayev, Arşaq Malxazyan, Əhməd Cövdət, Qara bəy Qarabəyli universitetdə müəllim-professor heyətinin maaşları məsələlərinə toxundular. Müzakirələrin sonunda müəllim heyətinə 4-8 min manat arası maaşların ödənilməsi qərara alındı. Əliheydər Qarayev diqqəti univertsitetə daxil olmaq istəyən şəxslər məsələsinə yönəltməyi vurğulayır və təklif edir ki, orta məktəbləri yarımçıq qoyub və ya hər hansı səbəbdən bitirməyə müvəffəq olmayanların universitetə daxil olmasına imkan verilsin. Bu təklifə müsbət münasibət bildirən Ağabəyov, Əhməd Cövdət Pepinov, Qara bəy Qarabəyli orta məktəb proqramından kiçik bir imtahanla gimnaziyanın 6-cı və ya 7-ci sinfindən üzürlü və üzürsüz səbəblərdən yarımçıq qalanların universitetə daxil olması fikrinə razılıq edirlər və müzakirə səsə qoyularaq qəbul edilir (2).

Parlamentin 1919-cı il 28 avqust-22 sentyabr ayına qədər keçirilən iclaslarında "Bakı şəhərində dövlət universitetinin açılması haqqında" qanun layihəsi, onun nizamnaməsi, ştatı, smetası yenidən müzakirə olunur (3; 4; 5; 6). Azərbaycan parlamentinin 29 sentyabr 1919-cu il 79-cu iclasında universitetin təşkili ilə bağlı qanun layihəsinin üçüncü fəsli yenidən müzakirəyə çıxarılır. Əhməd Cövdət Pepinov universitetə daxil olma şərtlərini deputatlar qarşısında sadalayır və bildirir: "Universitetə daxil olmaq istəyən şəxs Azərbaycan təbəəsi olmalıdır. Qızların universitetə daxil olma fikrinə hələ ki bəzi professorlar etiraz edirlər. Lakin komissiyanın son təklifi budur ki, kişi gimnaziyasının 6-cı, 7-ci sinfini, realnı məktəbin 6-cı sinfini, Aleksandrovski müəllim kurslarını bitirmiş tələbə və talibələr universitetə qəbul edilsinlər". Parlament iclasında universitet nizamnaməsinin 45-ci maddəsi uzun mükarə olunur. Sonda bütün təklifləri nəzərə alaraq Əhməd Pepinov qanun layihəsinin 45-ci maddəsinə təklif olunan qeydləri oxuyur: 1) kişi gimnaziyasının 5-ci və 6-cı sinfini, realnı məktəbin 6-cı sinfini bitirənlər; 2) Aleksandrovski qız məktəbinin pedaqoji kursunu bitirənlər; 3) Darülmüəllimi bitirmiş şəxslərə müəyyən ediləcək xüsusi elmlərdən imtahan vermək şərtilə univeritetə daxil olmaq ixtiyarı verilir. Təklif səsə qoyulur: lehinə 39, əleyhinə 8, səs verməyən 6 nəfər (7). Beləliklə, Universitet nizamnaməsinin 45-ci maddəsi etiraz olmadığı üçün əksəriyyət səslə qəbul olunur. Səsvermə bitdikdən sonra Sultan Məcid Qənizadə Hacı Zeynalabdin Tağıyevin vəsiyyəti ilə bağlı çıxış edir və bildirir ki, bu gün universitet nizamnaməsi oxunub təsdiq olundu. Yeni təməl qoyduğumuz universitet iki böyük məktəbdə – kommersiya və gimnaziya binalarında yerləşəcək. Amma universitetin özünün əzəmətli binasının olması vacibdir. Mart ayında Lənkəranda baş verən hadisələr zamanı Hacı Zeynəlabdin Tağıyevin övladı Məhəmməd bir faciə ilə öldü. Cənazədən sonra Hacı adamların hüzurunda uca səslə dedi: Həzarət! Mən hazırlaşırdım ki, oğluma toy edim. Lakin qəza belə gətirdi ki, oğlum əlimdən getdi. Ona görə mən oğlumun yadigarı olaraq, millətin xeyri üçün, gələcəkdə cavanlar xoşbəxt olsunlar deyə istəyirəm ki, burada bir universitet təsis olunsun. Onun təsisindən ötəri mən öz passajımı

universitetə bəxş edirəm.” Təklifim budur ki, bu gün bir komissiya yaradılsın və həmin passaj universitetin istifadəsinə verilsin (7). Beləliklə, 3 aylıq gərgin müzakirələrdən sonra Sultan Məcid Qənizadənin sədrliyi, Əhməd Cövdət Pepinovun katibliyi ilə Azərbaycan Parlamenti 1919 sentyabrın 29-da 79-cu iclasında “Bakı şəhərində dövlət universitetinin açılması haqqında” qanun layihəsini qəbul edir. Qanun layihəsində universitetin 4 fakültədən ibarət olması, şərq şöbəsi ilə birlikdə tarix-filologiya, hüquq, tibb, fizika-riyaziyyat fakültələrinin olması göstərilirdi (7). Şərqdə ilk dəfə qadın təhsilinə aid maddənin bu qanuna daxil edilməsi müsəlman aləmində böyük əks-səda doğurdu. 1919-cu il noyabrin 15-də 43 nəfər professor və müəllim heyəti ilə, ümumilikdə, 104 nəfərlə universitet ilk tədris ilində şənbə günü açıldı (10, s.78). “Azərbaycan” qəzetində (1919-cu il 17 noyabr nömrəsi) dərc edilmiş bir məqalədə yazılırdı: “Azərbaycan Darülfünü bir türk darülfünüdür. Türk parlamenti, türk hökuməti tərəfindən türk gələcəyi üçün açılmışdır. Darülfünün həyat və məşğuliyyətə başlaması tarixi olan 15 noyabr yeni bir tərəqqi dövrünün açılmasının bir ibtidası olacaqdır ”(8, s.111).

Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə çıraq tutan möhtəşəm elm abidəsi – milli sərvətimiz Bakı Dövlət Universiteti uzun illərin tarixi sınaqlarından keçərək ana dilinin qorunmasında, milli mənlik şüurunun formalaşıb inkişaf etməsində, demokratik ideyaların yayılmasında, milli azadlıq hərəkatının başlanması, gedişi və uğurla başa çatmasında, dövlətçiliyimizin qorunub saxlanılması və möhkəmlənməsində misilsiz rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Arxiv, siy.895, siy. I, iş 133, vər. 1-31
2. Arxiv, F. 895, siy. 1, iş 135. vər. 1-30
3. Arxiv, f. 895, siy. 1, iş 138, vər. 1-29
4. Arxiv, f. 895. siy. I, iş 9, vər. 64-65
5. Arxiv, f. 895, siy. I, iş 9, vər. 63
6. Arxiv, f. 895, siy. 1, iş 108, vər. 1-21
7. Arxiv, f.895, siy.1, iş 119, vər.1-20
8. Azərbaycan Xalq Cumhuriyyəti Ensklopediyası: 2 cilddə, I c., Bakı: Lider, 2004
9. Audrey L. Altstadt The Azerbaijani turks: power and identity under Russian rule. Stanford,Calf. Hoover Insititution Press, Stanford University, 1992, pp.365
10. Азербайджанская Демократическая Республика (1918—1920). Законодательные акты. (Сборник документов). Баку, 1998, 356 c.
11. Rəsulzadə M.Ə.Azərbaycan Cumhuriyyəti. Bakı: Elm, 1990, 96 s.
12. Разумовский Василий Иванович - хирург, первый ректор Университета: 1857 - 1935 https://www.ourbaku.com/index.php/

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 149-158
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 149-158
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 149-158

*UOT 94(479.24)*

***İ.F.Kazımbəyli***
*Azərbaycan Dillər Universiteti*
*ibrahimkazimbeyli@gmail.com*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANA TÜRKİYƏNİN HƏRBİ-SİYASİ DƏSTƏYİ

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, hərbi, siyasi, ictimai, dövlət*

XX əsrin əvvəllərində Cənubi Qafqazda ictimai-siyasi vəziyyət qeyri-müəyyən və böhranlı vəziyyətdə qalmaqda davam edirdi. Qafqaz seyminin müsəlman fraksiyasınn üzvləri düzgün olaraq Azərbaycanın yaxın gələcəkdə mövcud tarixi taleyindən rahatsız olaraq müəyyən işlər, tədbirlər görməyi düşünürdülər. Özlərinə hərbi-siyasi dayaq axtararaq çoxluq Türkiyəyə güvənməyi düzgün hesab edirdi.

Bəhs olunan dövrdə Transqafqazda vəziyyət çox gərgin və böyük güclərin nüfuzlarının toqquşduğu bir ərazi idi. Bütövlükdə Cənubi Qafqazı, xüsusilə Şimali Azərbaycanı özlərinin nüfuz dairələrinə keçirməyə, Rusiya və Türkiyəni buradan sıxışdırmağa çalışan Qərb dövlətləri, ilk növbədə isə İngiltərə və ABŞ yaranmış şəraitdən istifadə edərək öz təsir dairələrini genişləndirməyə çalışırdılar.

1918-ci ilin yayında Osmanlı dövləti ilə Rusiya arasında neft Bakısına və bütövlükdə Azərbaycana sahib olmaq uğrunda gedən gərgin mübarizə Türkiyənin qələbəsi ilə başa çatdı. Bakı uğrunda mübarizədə özünəməxsus yeri olan Almaniya və İngiltərə dövlətləri mövcud şərtlər daxilində Türkiyənin bu uğuru ilə barışmalı oldularsa da, Bakıya öz ərazisi kimi baxan Sovet Rusiyası neft şəhərinin itirilməsi ilə qətiyyən barışa bilmədi. Biz bunun ağır nəticəsini aprel işğalında yaşamalı olduq. Türkiyə dövləti isə bu kəs çox təəssüf ki, Azərbaycanı bolşevik işğalından qoruya bilmədi.

***И.Ф.Казымбейли***

# ВОЕННО-ПОЛИТИЧЕСКАЯ ПОДДЕРЖКА ТУРЦИИ АЗЕРБАЙДЖАНУ В НАЧАЛЕ XX ВЕКА

***Ключевые слова:*** *Азербайджан, Турция, военный, политический, общественный, государство*

В начале XX века социально-политическое положение на Южном Кавказе продолжало оставаться неопределенной и кризисной. Члены мусульманской фракции Кавказского сейма, беспокоясь о ближайшей исторической судьбе Азербайджана, приняли решение предпринять определенные меры и действия. В поисках военно-политической поддержки для себя, многие по праву считали Турцию опорой.

В этот период ситуация в Транскавказе была очень напряженной и

территория являлась столкновением крупных держав. Основной целью западных государств было заманить Южный Кавказ, особенно Северный Азербайджан, в свою сферу влияния. Западные государства, пытаясь вытеснить Россию и Турцию, также стремились расширить свое влияние, используя условия, созданные Соединенными Штатами.

Летом 1918 года напряженная борьба между Османской империей и Россией за нефтяной Баку и весь Азербайджан закончилась победой Турции. Германия и США, которые занимали особое место в этой борьбе, были вынуждены примириться с этим успехом Турции, но Советская Россия, которая рассматривала Баку как свою территорию, не могла смириться с потерей нефтяного города. Тяжелые последствия этого мы пережили в апрельской оккупации XX века. Турецкое государство, к сожалению, на этот раз не защитило Азербайджан от большевистской оккупации.

***I.F.Kazimbeyli***

## THE MILITARY AND POLITICAL SUPPORT BY TURKEY TO AZERBAIJAN IN THE EARLY TWENTIETH CENTURY

***Keywords**: Azerbaijan, Turkey, military, political, public, state*

The socio political situation in the South Caucasus in the early twentieth century was still uncertain and critical. Being concerned about existed historical fate of Azerbaijan in near future, the Muslim fraternity members of Caucasus unity rationally decided to do certain works and take some measures. Many of them considered to be right to trust Turkey in search of military and political support.

During that period the situation in Transcaucasus was strained and it was a collided place of great powers interests. Western Countries, firstly England and the USA taking advantage of the current situation tried to expand their circles of control and wanted to seize as a whole the South Caucasus especially Nothern Azerbaijan and dislodge Russia and Turkey.

In the summer, in 1918 to possess Azerbaijan as a whole, the struggle between Russia and Ottomon state over Baku for its oil ended with the victory of Turkey. Though the states like Germany and England which had specific place in the struggle over Baku, had to reconcile with the victory of Turkey within existed terms, but Soviet Russia which considered Baku as its own territory couldn't accept the loss of oil city at all. We had to experience with its severe results during aprel occupation. But this time unfortunately Turkey couldn't save Azerbaijan from Bolshdevik invasion.

XX əsrin əvvəllərində Azərbaycanın quzeyində bir sıra çox mühüm hadisələr baş vermişdir. Rus çarizminin müstəmləkə ucqarlarından olan Azərbaycanda təsərrüfat həyatının bütün sahələrində kapitalist istehsal münasibətləri inkişaf edirdi. Azərbaycan milli burjuaziyasının iqtisadi gücü və siyasi fəallığı artırdı. Rusiyada baş verən siyasi proseslər, xüsusən birinci rus inqilabının təsiri altında Azərbaycanda Milli demokratik hərəkat geniş vüsət

almışdı.

Azərbaycanda inqilabi hərəkatın yüksəldiyi dövrdə kənddə sinfi mübarizə xeyli gücləndi. Kəndlilərin mübarizəsi getdikcə daha da kütləvi və şüurlu xarakter alırdı. Azərbaycanın ayrı-ayrı qəzalarında kəndli üsyanları alovlanırdı. Kəndlilər çar hökumətinin sərəncamlarını yerinə yetirməkdən imtina edirdi. Vergi və mükəlləfiyyətlərdən boyun qaçırır, dövlət məmurlarına qarşı silahlı müqavimət göstərirdilər.

1905-ci ilin yay və payızında Zaqatala dairəsində güclü kəndli çıxışları oldu. Mövcud idarə sisteminə qarşı qaçaq hərəkatı geniş vüsət alırdı. Milli azadlıq hərəkatının qızğın çağında Azərbaycan xalqı erməni-daşnak təhlükəsi ilə üzləşdi.

XX əsrin başlanğıcında erməni millətçilərinin "Böyük Ermənistan" uğrunda hərəkatı gücləndi. "Daşnaksütyun" partiyasının başçılıq etdiyi bu hərəkatın mahiyyəti Türkiyə, Azərbaycan, Gürcüstan və İran əraziləri hesabına erməni dövləti yaratmaqdan ibarət idi.

Mərkəz Tiflisdə yerləşən "Daşnaksütyun"un Cənubi Qafqazın çox yerində, o cümlədən Azərbaycanın Bakı, Gəncə, Şuşa və bir sıra başqa şəhərlərində təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatların ən güclüsü Bakıda yerləşirdi. Erməni kapitalistləri bu iyrənc terrorist bir təşkilata hər cürə maliyyə dəstəyi göstərir, müsəlman – türklərə qarşı silahlandırırdılar.

Erməni-müsəlman ədavətinin qızışdırılmasında erməni kilsə xadimləri mühüm rol oynayırdılar. Onlara Eçmiədzindən (üç kilsə) ümumi rəhbərlik edilirdi. Ermənilərin kilsə fəaliyyətini hərtərəfli öyrənən bir rus diplomatı yazırdı: "Erməni din xadimlərinin fəaliyyəti "Allah Kəlamlarını" çatdırmaqdan çox, müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir" [9, s.108].

Daşnakların məqsədi azərbaycanlıları öz doğma torpaqlarından çıxarmaq və həmin yerlərdə gəlmə erməniləri yerləşdirməkdən ibarət idi. Bu iyrənc təşkilat XIX əsrin sonlarından yaranmış, qısa müddətdə hərbi-siyasi cəhətdən təşkilatlanmışdır. Azərbaycanlı əhaliyə qarşı onların açıq qətlləri, terror və soyqırımları 1905-1907-ci illər inqilabının başlanmasından yararlana bildilər.

Çar hökumətinin açıq və gizli daşnaklara hər cürə dəstək verməsinə baxmayaraq Cənubi Qafqazın aborogenləri olan azərbaycanlılar gəlmə ermənilərə ciddi müqavimət göstərirdilər. Əslində münaqişənin ilk anından hər iki tərəfə aydın oldu ki, çar hökuməti millətlərarası toqquşmaların nəinki qarşısını almaq istəmir, əksinə, ölkədə milli azadlıq hərəkatını və inqilabi mübarizəni boğmaq üçün bu qarşıdurmadan istifadə edirdi.

Bakıda qanlı fevral hadisələri ilə başlanan erməni-müsəlman münaqişəsi tez bir zamanda Cənubi Qafqazın bütün ərazilərinə yayılaraq iki ilə yaxın davam etdi. Terror, qətl-qarət erməni daşnaklarının başlıca mübarizə üsulu idi.

Rusiyada 1917-ci ilin fevral inqilabı nəticəsində çarizm devrildi, müvəqqəti burjua hökuməti təşkil edildi. Bundan sonra Azərbaycanda da gizli fəaliyyət göstərən siyasi partiyalar, təşkilatlar açıq işə keçdilər və yeniləri yaradıldı.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında misilsiz rol oynamış “Müsavat” partiyası 1917-ci ilin martında açıq fəaliyyətə başladı. Mart ayının 29-da milli hərəkata vahid rəhbərlik etmək məqsədilə “Müsəlman Milli Şurası” yaradıldı. Bu təşkilatda Azərbaycanın müsəlman əhalisinin bütün təbəqələri, siyasi partiya və təşkilatları təmsil olunurdu.

Fikrimizin əvvəlinə qayıdaq. Artıq I Dünya müharibəsi ərəfəsində Osmanlı Türkiyəsi özü üçün vacib olan bir məsələni yəqin etdi ki, ermənilər onları yox, Rusiyanı müdafiə edəcəkdir. Rusiya ermənilərə vəd vermişdi ki, müharibənin gedişi Rusiyanın xeyrinə istiqamətlənəcəyi təqdirdə onlara Osmanlı ərazisində muxtariyyət veriləcək.

I Dünya müharibəsi ərəfəsində çar II Nikolayın Qafqaza gəlişi, ermənilərə Osmanlılara qarşı əməkdaşlıq təklif etməsi vəziyyəti daha da çətinləşdirirdi.

Tiflisdə çar II Nikolayın müraciətində deyilirdi: “Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin!” Bu çıxışdan sonra həm silahlı erməni dəstələri, həm də “erməni ideoloqları” erməni kilsəsindən Osmanlılara qarşı xeyir-dua almış oldular.

Məlum olduğu kimi, 1914-cü il noyabrın 1-də rus ordusu Qafqaz istiqamətində Osmanlı sərhədlərini keçdi. Qars, Ərdahan və Batum ətrafında döyüşlərdə hər iki tərəf böyük itki verdi. Sarıqamış əməliyyatında sərt qış və rus qoşunlarının yüksək hazırlığı türklərin çox böyük itki vermələri ilə nəticələndi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğınların törədilməsi üçün şərait yaratdı. Erməni ideoloqlarının uzun illər boyu təbliğ etdikləri “Böyük Ermənistan” planının reallaşması üçün şərait yaranmışdı.

1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi [7, s.76].

Həmçinin Cənubi Qafqaza marağı olan dövlətlər erməni kartından öz məqsədləri üçün bu coğrafiyada möhkəmlənmək istəyirdilər. Sözsüz ki, belə bir siyasi oyunbazlığın aparıldığı bir coğrafiyada Osmanlı Türkiyəsinin də öz maraqları vardı. Birincisi bəzi dövlətlərin erməniləri müdafiə adı altında və onların vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə çalışmaları, bununla həm də Osmanlı imperiyası üçün bilavasitə müəyyən təhlükə yaratmaları, ikincisi ermənilərin Türkiyə və Azərbaycan torpaqları hesabına “Böyük Ermənistan” yaratmaq niyyətləri və s. dayanırdı.

1918-ci ilin əvvəllərindən başlayaraq ermənilərin İrəvan quberniyasının müsəlman kəndlərinin əhalisinə qarşı törətdikləri özbaşınalıqlar Osmanlı hərbi qüvvələrinin əməliyyatlara başlamasına səbəb oldu. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət qeyri-müəyyən və böhranlı halda qalmaqda davam edirdi.

Azğınlaşmış və vəhşiləşmiş erməni quldurları dinc azərbaycanlı əhalini qırıb çatmaq üçün ən amansız üsullara əl atırdılar. Bir faktı qeyd etmək yerinə düşər ki, ilk soyqırımlarının başladığı ərazilərimizdən biri iqtisadi-siyasi mərkəz Bakı idi. 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 12 min nəfərdən artıq türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər [3]. Mart hadisələrində erməni ziyalıları, gəncləri də iştirak edirdilər. İstintaq komissiyasının sənədlərində göstərilir ki, erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "Vətəndaş borcu"nu yerinə yetirirdi [1, v.791]. Bakıda baş vermış faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdur. Epidemiya tüğyan edərək minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdır.

Qədim Azərbaycan şəhəri Şamaxı və eyni adlı qəzada ermənilər tərəfindən törədilən amansızlıqlar barədə 7 cild 925 vərəqdən ibarət istintaq materialları toplanmışdır. Şamaxıda törədilən qırğınları bədxah, qaniçən, cəllad S.Lalayan və T.Əmirovun dəstələri həyata keçirirdi. Bütün müsəlmanlar yaşayan evlər, 13 məscid şəhərdə yandırılmışdır. Minlərlə dinc sakin qətlə yetirilmişdir. Təhqiqat komissiyasının sənədlərində göstərilir ki, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlı qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur [2].

Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı, bolşevik əsgərləri də iştirak edirdi. Erməni cəlladları hakimiyyətsizlikdən məharətlə istifadə edərək Qubada böyük bir qırğın həyata keçirdilər. Bu qırğınlarda əsas məqsəd Azərbaycanda müsəlman əhalini məhv edərək sovet rejimi qurmaq idi. Çünki sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda "Böyük Ermənistan" dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Təki Azərbaycan deyilən dövlət qurumu yaranmasın [7, s.82]. Qısa müddətdə erməni talanları bütövlükdə Azərbaycan qəzalarını bürümüş oldu.

Türkiyənin Azərbaycana hərbi-siyasi yardım (xüsusilə Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrinə) göstərməsi işi AXC yarandıqdan sonra daha da fəallaşdı. Azərbaycanın idarəçiliyini öz üzərinə götürmüş Milli Şura, Türkiyə ilə və ümumən regionda geosiyasi vəziyyəti düzgün qiymətləndirə bildi. Qısa bir müddət ərzində inanılmaz səviyyədə böyük işlər həyata keçirildi.

Azərbaycan və onun ərazi bütövlüyü məsələsi, müstəqilliyinin təminatı,

yaranmış qaçqınlar problemi, sosial-iqtisadi vəziyyətin ağırlığı AXC hökumətini bir növü tələsdirirdi və bəzən də güzəşt məsələsində dilemma qarşısında qoyurdu.

1918-ci il iyunun 4-də Osmanlı dövləti Cənubi Qafqazın hər üç respublikası ilə "Sülh və dostluq haqqında" müqavilələr bağladı. Bu müqavilənin 4-cü maddəsində Türkiyənin Azərbaycana hərbi-siyasi yardımı baxımından çox böyük əhəmiyyət kəsb edirdi. Bu maddədə qeyd olunurdu ki, əgər ölkə təhlükəsizliyi ilə bağlı hər hansı bir vəziyyət yaranarsa, Türkiyə hökuməti Azərbaycan hökumətinə silahlı qüvvə ilə yardım göstərməyi öz öhdəsinə götürür. Müqavilənin 3-cü maddəsində Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrinin ərazi mənsubiyyətinin obyektiv olaraq həll olunmasını təmin etmək məsələsi təşkil edirdi.

Batum müqaviləsinin şərtləri və AXC hökumətinin Türkiyəyə müraciəti, həm də ermənilərin Naxçıvan bölgəsindəki azğınlıqları Osmanlı dövlətini qəti tədbirlər görməyə vadar etdi.

1918-ci ilin aprel ayında Mehmet Vehib paşa Bakını tutmaq və müsəlmanları xilas etmə üçün qoşunlar göndərməyi vacib hesab edirdi. Həmçinin həmin ilin may ayının sonu – iyun ayının əvvəlləri Azərbaycana, ən əsası isə Naxçıvan və Zəngəzura qoşun göndərməsi zərurəti ortaya çıxırdı.

Qafqaz İslam ordusunun Baş komandiri təyin olunan Nuru Paşa 20 böyük və kiçik rütbəli zabitdən ibarət bir neçə bölüklə Mosuldan yola düşərək 1918-ci il mayın 9-da Təbrizə çatdı. Bir neçə gün sonra isə Naxçıvana gəlmişdir [12, s.35]. O, yerli əhali ilə görüşmüş, ermənilərin hücumlarının qarşısının alınması istiqamətində lazımi tapşırıqlarını vermiş, qarşıda olacaq çətinlikləri nəzərə alaraq burada hərbi gücün artırılması istiqamətində ciddi işlər aparmışdır.

Andronikin quldur dəstələrinin bölgədə törətdikləri azğınlıqları görən Türkiyə 1918-ci ilin yayında Naxçıvan bölgəsinə lazımi qədər qoşun – Kazım Qarubəkir paşanın komandalığı altındakı silahlı qüvvələrin ön hissələrini yeritdi, burada onun qərargahı quruldu [10, s.59].

Bir haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, xüsusilə Azərbaycan sovet tarixşünaslığında Türkiyə-Azərbaycan münasibətləri məsələsinə birtərəfli tarixi faktlara söykənmədən mövcud ideoloji əsaslara söykənərək fikir bildirmişlər. Qısqanclıq və qərəz açıq hiss olunurdu.

1918-ci ilin sonları üçün Azərbaycanda beş türk diviziyasının olması da artıq I Dünya müharibəsində məğlubiyyətə uğrayan və öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşan Türkiyənin belə bir ağır şəraitdə də azərbaycanlılara kömək etdiyini təsdiqləyir. Osmanlı qoşunlarının Naxçıvana gəlişi Bakı Xalq Komissarları Sovetini (XKS) ciddi surətdə narahat etmişdi. S.Şaumyan çıxışlarında İ.Stalinə və V.Leninə göndərdiyi teleqramlarda [14] Türkiyə qoşunlarının Azərbaycana gəlməsini Sovetlər üçün verə biləcəyi

nəticələrdən, özünün gördüyü tədbirlərdən bəhs edirdi.

Osmanlı ordu qərargahının 1918-ci il 1 iyul tarixində yaydığı məlumatda göstərilirdi ki, ermənilər Zəngəzur və Qarabağ ətrafında olan uç heyətdən ibarət olan xüsusi hərbi dəstəsi Culva və Ordubad üçün təhlükə yaradırdı [10, s.62].

Osmanlı hərbi birləşmələri birləşmiş bolşevik-daşnak qüvvələrinə qarşı mübarizənin heç də asan olmayacağını bilirdilər. Ona görə də ilk olaraq Azərbaycanın ayrı-ayrı bölgələrinə mülki və hərbi məsləhətçi kimi adamlar göndərildi. Qəza və nahiyələrdə yerli əhalidən ibarət bəzi qurumlar, hərbi birləşmələr, milli taborlar yaradılmışdı. Osmanlı hərbi birləşmələrinin hərbi-siyasi dəstəyi nəticəsində qısa müddətdə nizam-intizam bərpa edilmiş, Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ məntəqələri ilə Zəngəzurun şərq hissəsini əhatə edən geniş bir ərazidə idarə və komandanlıq yaradılmışdı. Azərbaycanın türk hərbi birləşmələrinin nəzarətinə keçməsini almanlar belə qəbul edə bilmirdilər. Alman əsirlərini geri almaq bəhanəsi ilə Bakı bolşevikləri ilə anlaşmaq üçün göndərdikləri xüsusi heyətin cəbhəni keçə bilməməsi səbəbilə başqa bir heyəti təyyarə ilə Tiflisdən Bakıya göndərmişlər [5].

Azərbaycanın istiqlaliyyəti və ölkənin bütövlüyünün qorunması, strateji əhəmiyyəti, iqtisadi nailiyyəti və s. üçün Bakının azad edilməsinin dünənimiz üçün də, bu günümüz üçün də çox böyük tarixi əhəmiyyəti ciddi nəzərə alınmalıdır. Bütün bunlara çatmaq üçün Bakıya qədər olan ərazilərə nəzarət və təşəbbüsü əldə etmək zamanı idi. Bunu isə bəhs etdiyimiz tarixi şəraitdə yalnız Qafqaz İslam Ordusunun ümumi komandanlığı ilə etmək mümkün idi. Sentyabrın 12-ə qədər 15-ci diviziyanın digər 56-cı alayı və 36-cı diviziyanın 10-cu alayı da ümumi birləşmələrə qoşulmuşdur. Xeyli sayda silah-sursat ələ keçirilmişdi. Düşmən Bakı üzərinə olan hücumu şimaldan daha çox gözləyirdi. Bunun üçün hərbi birləşmələrin çox hissəsi Yanardağ-Binəqədi bölgəsinə toplanmışdı. Sentyabrın 13-dən 14-ə keçən gecə 36 alay və Azərbaycan könüllüləri 15-ci diviziya komandanın rəhbərliyi ilə Şimal cəbhəsini tərk etmişdi. Digər qüvvələr, yəni Rumıniya cəbhəsindən gələn və mükəmməl halda olan 15-ci diviziyanın 56-cı alayı, 5-ci diviziyanın alayları və 36-cı diviziyanın 107-ci alayı şəhərin qərb hissəsində dəmir yoluna yaxın yerlərdə toplaşmışdılar. Əsas məqsəd bolşevik-daşnak birləşmələrinin fikrini şimala yönəltməklə, hücumun bu istiqamətdə olacağını onlara çatdırmaq idi. Sübh çağı Bakının qərb yamacları artıq tamamilə hərbi birləşmələrimizin əlinə keçmişdi. Bu istiqamətdə az itki ilə birləşmiş qoşunlarımız çıxmış, lakin şimal istiqamətində itkilər olmuşdu.

1918-ci il sentyabrın 15-də günün ikinci yarısında əvvəlcə 56-cı alay şəhərə daxil olmuş və mühüm obyektlər ələ keçirilmişdi. Bundan sonra Qafqaz İslam Ordusu Şimal Qafqaz və Qarabağa istiqamətlənmişdi [7, s.456]. Ordunun

Bakı cəbhəsində olmasından istifadə edən ermənilər Qarabağda üsyan qaldırmışlar. Bu məqsədlə Cəmil Cahid bəyin rəhbərliyi altında beşinci Qafqaz diviziyasından iki alay Qarabağa göndərilmişdir [7, s.456].

Bakının azad edilməsindən sonra şəhər daxilindəki silah-sursat və ləvazimat anbarları müəyyən edildi. Zavod və fabriklər hərbi məqsədlər üçün fəaliyyət göstərməyə başladı. Ordunun hərbi forması yeniləndi. Azərbaycanın böyük oğlu Hacı Zeynalabdin Tağıyev öz fabrikinin məhsullarından əsgərlər üçün 80 min metr, zabitlər üçün 20 min metr parça hədiyyə etmişdi.

Düşmənin Xəzər dəniz donanması: "Qars" və "Ərdəhan" adında iki hərbi gəmi və ələ keçirilmiş bir neçə paroxod Bakının qarşısında Nargin adasının arxasında idi. Bakını dənizdən qorumaq üçün silahlı birləşmələrdən istifadə edilərək möhkəmləndirmə işlərinə başlanmışdı. Azərbaycana tabe olmayan və erməni birləşmələrinin ixtiyarında olan Lənkəran cəbhəsinə qarşı Salyanda bir neçə hərbi birləşmə hazırlanırdı.

Yuxarıda qeyd etdiyimiz kimi, ermənilərə qarşı polkovnik Cəmil Cahid bəyin başçılığı ilə göndərilən iki alay (5-ci diviziyadan – İ.K.) Əsgəranla üzbəüz olan Ağdamda toplanmışdı. Bakının azad olunması ərəfəsində ermənilər Ağdam ilə Şuşa qalası arasındakı Əsgəran yolunu bağlayaraq qalada qalan 20 minə yaxın müsəlmanları mühasirəyə almış və Qarabağdakı müsəlman kəndlərini talan və qırğına məruz qoymuşdur.

1918-ci ilin sentyabrın əvvəllərində Osmanlı hərbi birləşmələri ilə yerli qüvvələr Əsgəran və Şuşa qalasını mühasirədən xilas etmişlər.

Bakının azad olunmasından sonra (1918-ci il 15 sentyabr) Gəncədəki Azərbaycan hökuməti Bakıya köçərək Fətəli xan Xoyskinin rəhbərliyi altında ölkəni idarə etməyə davam etmişdi. Azərbaycan hökumətində bütün nazirliklər mövcud olsa da, hərbi nazirlik rəsmi yaranmamışdı. Beləliklə, Azərbaycan Hərbi Nazirliyinin işləri əslində Qafqaz İslam Ordusu rəhbərliyi altında idarə olunurdu. Azərbaycanın müxtəlif məntəqələrinə məntəqə komandiri kimi göndərilən Osmanlı zabitləri müharibə davam etdiyi müddətdə yerli mülki təşkilatlara da rəhbərlik edirdilər. Bakı və Gəncədə vilayət təşkilatları yaradılmışdı. Azərbaycan hökumətinin razılığı ilə Bakı rəhbərliyinə Osmanlı zabiti Fəthi bəy təyin olunmuşdu. Bakıda Baş Polis idarəsi (ümumi təhlükəsizlik), polis, jandarma qurumları yaradılmışdı.

1918-ci ilin payızında Osmanlı Türkiyəsinin Azərbaycan Respublikasına, onun ayrı-ayrı bölgələrinə hərbi-siyasi yardımı daha da artdı. Bu işdə Azərbaycan hökumətinin üzvü AXC-nin Osmanlı dövlətində, Ermənistan və Gürcüstanda fövqəladə nazir elçisi Ə.Topçubaşovun siyasi-diplomatik görüşləri mühüm rol oynamışdı.

Ə.Topçubaşovun ən böyük xidmətlərindən biri də İstanbul konfransında, Antanta ölkələrinin İstanbuldakı nümayəndələrinə çox dəyərli bir sənəd-memorandum təqdim etməsi oldu [4, v.4].

Həmin memorandumda Güney Qafqaz xalqlarının yaxın keçmişdəki dövlətçiliyi qısa, lakin çox məzmunlu, tarixi faktlara söykənərək şərh olunmuşdur. Sənəddə Rusiya müstəmləkəçiliyi dövründə olan idarəçiliyin xüsusiyyətləri açıqlanmış, fevral inqilabından sonrakı siyasi proseslər, regionun etnik tərkibi və hazırda buradakı millətlərarası qarşıdurmanın səbəbləri göstərilmişdir. Sənəddə həmçinin Andronikin quldur dəstələrinin Azərbaycanın Zəngəzur və s. qəzalarını faktiki olaraq işğala məruz qoymaları, zaman-zaman Rus çarizmi tərəfindən İrandan (əslində çox hissəsi tarixi Cənubi Azərbaycan ərazimizdən – İ.K.) və Türkiyədən buraya köçürülən ermənilərdən istifadə etmələri, həmin ərazilərdə müsəlman əhalisinə qarşı zorakılıqlar və vəhşiliklər törətmələri, AXC hökumətinin isə 1918-ci il oktyabrın əvvəlində qeyd olunan qəzalara hərbi hissələr yeridib orada qayda-qanunun bərpasına çalışmaq istəməsi kimi məsələlərə də geniş yer verilmişdir [4, v.4-5].

M.Ə.Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” əsərində yazırdı ki, Türk əsgərlərinin missiyası AXC-nin müstəqilliyinə heç bir zaman xələl gətirməmişdir [11, s.39-40].

F.Xoyski isə qeyd edirdi: “Daxili işlər o qədər pərişan olan bir zamanda hökumət daxildə qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz vardı, nə silahımız biltəbii daxildən düzəltmək mümkün deyildi. Binaən ileh xarici bir qüvvəyə lüzum görülərək türklərə müraciət edildi. Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaqt olsa hüququmuz müdafiəsi üçün bizə bir qədər əsgər verməli idilər. Bizə xaricdən qüvvə almaq üçün başqa bir millət və dövlətə müraciət etmək bəzi şəraitdən dolayı mümkün deyildi; müraciət etsəydik də bir nəticə hasil olmazdı: ona görə də dindaş və millətdaşınız olan Türkiyəyə müraciət edildi” [8].

Belə tutarlı faktlar tarixi ədəbiyyatlarda, arxiv sənədlərində, raportlarda, məktub və müraciətlərdə kifayət qədərdir. Bir faktla fikrimizi yekunlaşdırmaq və əsaslandırmaq kifayətdir.

Naxçıvan Milli Komitəsinin sədri Cəfərqulu xan qeyd edirdi: “Türklər getdilər, yenə bizdə müsəlman kənd və qəsəbələrin məhv edilməsi, heç bir günahı olmayan azərbaycanlı qadın və uşaqların döyülməsi və öldürülməsinin qanlı səhifələri təkrar olunmağa başladı. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddar ölümə məhkum edilmiş 10 minlərlə müsəlmanın ürəkparçalayan qışqırıq və nalələri göyə yüksəldi” [10, s.67].

1918-ci ilin noyabrında Bakıya gələn İrəvan müsəlmanlarının nümayəndələri də Osmanlıların bölgəni tərk etməsi ilə bağlı əhalinin narahatçılığını və kədərini çatdırırdılar [13].

Fikrimizi belə bir gerçək həqiqətlə bitirməyə çalışırıq ki, Türkiyənin özünün hərbi-siyasi vəziyyətinin həddindən artıq ağır olan bir dövründə siyasi-diplomatik, ən başlıcası isə hərbi yardımı ilə torpaqlarımızın bütövlüyünə, xalqımızın kütləvi soyqırımından xilas edilməsinə çalışmışdı. Bu hərbi-siyasi

yardım əhali tərəfindən, həmçinin AXC nümayəndələri tərəfindən yetərincə dəyərləndirilmişdir. Bizim babalarımız bu hadisələri (bəziləri – İ.K.) bəzən sevinc, bəzən kədərlə tez-tez xatırlayır, kişilər vardı – böyük kişilər, deyirdilər!

Azərbaycan-Türkiyə münasibətləri bu gün də kifayət qədər möhkəm sosial-iqtisadi, siyasi, milli-mənəvi bağlar üzərində qurulub. "Bir millət iki dövlət" prinsipləri dövlətlərarası və eyni kökdən olan qardaş xalqlar tərəfindən qarşılıqlı şəkildə qorunur.

**ƏDƏBİYYAT**

1. ARDA, fond 100. siy. 2, iş 791, v.791
2. ARDA, fond 1061, siy. 2, iş 85, 87, 100
3. ARSPİHDA, fond 277, siy. 2, iş 16, v.18
4. ARSPİHDA, fond 277, siy. 2, iş 37, v. 4-5
5. ATESE arxivi, BDH kolleksiyası, k. 3823, d. 22, f. 6-8
6. ATESE arxivi, k. 3823, d. 22, f. 6-14 (sənədin arxasındakı qeyd).
7. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Nurlan NPM, 2008, 696 s.
8. "Azərbaycan" qəzeti, 9 dekabr 1918-ci il
9. *Əzizov T.Ə.* Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.
10. *Musayev İ.M.* "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)". Bakı: Bakı Universiteti, 1996, 328 s.
11. *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhuriyyəti, Bakı, 1990
12. Türk dünyası tarih dergisi, 1992, №62
13. "Azərbaycan" qəz., 4 noyabr 1918-ci il
14. "Бакинский рабочий" qəz., 21 may 1918-ci il

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 159-167
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 159-167
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 159-167

***UOT 94 (479.24)***

***G.Z.Mehdizadə***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*gunel.mehdizade@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ-QƏRB ENERJİ VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFINDA TÜRKİYƏ VƏ GÜRCÜSTAN İLƏ STRATEJİ ƏMƏKDAŞLIĞI (XX ƏSRİN 90-cı İLLƏRİ)

***Açar sözlər:*** *Şərq-Qərb enerji dəhlizi, Şərq-Qərb nəqliyyat dəhlizi, TRASEKA, enerji ehtiyatlarının nəqli, Azərbaycan-Gürcüstan-Türkiyə*

Məqalədə əsas diqqət 1990-cı illərdə Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafında Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti ilə strateji əməkdaşlığına verilmişdir. Şərq-Qərb enerji və nəqliyyat dəhlizləri layihələrinin Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması yolu ilə reallaşdırılması strategiyasının işlənib hazırlanması və “Böyük İpək Yolu” layihəsinin həyata keçirilməsi məsələləri tarixi faktlarla qeyd edilmişdir. Azərbaycan, Türkiyə və Gürcüstan arasındakı strateji əməkdaşlığın regiondakı geostrateji aktivliyə təsiri məsələləri öyrənilmişdir.

***Г.З.Мехтизаде***

# СТРАТЕГИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО С ТУРЦИЕЙ И ГРУЗИЕЙ В РАЗВИТИИ ЭНЕРГЕТИЧЕСКИХ И ТРАНСПОРТНЫХ КОРИДОРОВ ВОСТОК-ЗАПАД АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (90-ые ГОДЫ XX ВЕКА)

***Ключевые слова:*** *энергетический коридор Восток-Запад, транспортный коридор Восток-Запад, ТРАСЕКА, транспортировка энергоресурсов, Азербайджан-Грузия-Турция*

В статье основное внимание уделяется сотрудничеству Азербайджанской Республики с Турецкой Республикой и Республикой Грузия, которая имеет стратегические партнеры в развитии энергетических и транспортных коридоров Восток-Запад в 1990-х годах. Разработка стратегии реализации восточно-западных энергетических и транспортных проектов путем транспортировки запасов каспийского углеводорода на мировые рынки и реализации проекта «Великий шелковый путь» отражена в исторических фактах. Изучалось влияние стратегического сотрудничества между Азербайджаном, Турцией и Грузией по геостратегической деятельности в регионе.

**G.Z.Mehdizadeh**

# STRATEGIC COOPERATION OF AZERBAIJAN REPUBLIC WITH TURKEY AND GEORGIA IN THE DEVELOPMENT OF EAST-WEST ENERGY AND TRANSPORT CORRIDORS (90'S OF THE XX CENTURY)

***Keywords:*** *East-West energy corridor, East-West transport corridor, TRACECA, transportation of energy resources, Azerbaijan-Georgia-Turkey*

The article is dedicated on cooperation of the Republic of Azerbaijan with the strategic partners - Republic of Turkey and Georgia in the development of East-West energy and transport corridors in the 1990′s. Setting strategy Eastern - Western energy and transport projects with transportation of Caspian hydrocarbon resources to world markets, realization of "Great Silk Road" project had been reflected with historical facts. The influence of Azerbaijan-Turkey-Georgia strategic cooperation on geostrategic activity in the region also has been studied.

XX əsrin sonları dünya nizamının yenidən qurulduğu, yeni suveren respublikaların meydana çıxdığı və beynəlxalq münasibətlər sisteminin dəyişərək yeni forma aldığı bir dövrdür. Azərbaycan Respublikası da müstəqillik əldə etdikdən sonra bu sistemin tərkib hissələrindən birinə çevrilmişdir. Ölkənin suverenliyinin qorunub saxlanılması üçün zərurətə çevrilən addımlar məhz bu yeni sistemdə düzgün xarici siyasət aparmaq, ölkə maraqlarını qoruyub saxlamaq üçün region və dünya ölkələri ilə əməkdaşlıq etmək olmuşdur.

SSRİ-nin çökməsi və yeni müstəqil dövlətlərin müstəqillik qazanması prosesi bölgədə və ümumilikdə postsovet məkanında vəziyyəti kökündən dəyişdirdi və yeni beynəlxalq münasibətlər sistemini yaratdı. Bu, əsasən Xəzər bölgəsində özünü daha aşkar göstərdi. Onilliklər boyu Rusiya və İrana məxsus bölgənin siyasətinə Azərbaycan, Türkmənistan və Qazaxıstan da qoşuldu və bölgənin beynəlxalq əlaqələrində də yeni bir mərhələ başladı. Mərkəzi Asiya və Qafqaz ölkələri İttifaq mərkəzinin himayəsindən çıxaraq beynəlxalq münasibətlər orbitinə daxil oldular. Müstəqillik qazanan hər iki regionun nəqliyyat maraqları və Avrasiyanın mərkəzində tranzit marşrutlarının qovşağına çevrilməsi planları üst-üstə düşür [6, s.280].

Azərbaycan Respublikası unikal bir coğrafi-strateji mövqeyə malikdir. ərazisindən nəhəng nəqliyyat dəhlizləri keçərək onun strateji çəkisini artırmış olur. Bu nəqliyyat dəhlizlərini inkişaf etdirmək, onlardan yararlanmaq və eyni zamanda ölkə iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində onlardan səmərəli faydalanmaq ağıllı strategiya tələb edir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat arteriyalarının kəsişməsində olan Azərbaycan XX əsrin sonlarında öz enerji strategiyasını həyata keçirtmək üçün bir neçə seçim qarşısında qalmışdır. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli, çatdırılması

məsələsi uzun illər müzakirə olunmuş, hansı marşrutlarla bu işin reallaşdırılması, çəkiləcək neft-boru kəmərlərinin hansı ölkələrin ərazisindən keçəcəyi istiqamətində müəyyənləşdirmələr aparılmışdır. O dövrdə ölkə başçısı Heydər Əliyev enerji ehtiyatlarının daşınmasında diversifikasiya siyasəti yeridərək neft və qazın bir deyil, bir neçə boru kəməri vasitəsilə daşınmasının doğru olduğunu bildirmiş, o dövrə qədər mövcud olan Şimal marşrutu ilə yanaşı, neftin və qazın daşınacağı yolun əsasən Gürcüstan və Türkiyə ərazisindən olmaqla Şərq-Qərb nəqliyyat marşrutu vasitəsilə daşınmasına nail olmuşdur.

Azərbaycan Respublikası enerji resurslarının ixracı istiqamətində, həmçinin "Böyük İpək Yolu" layihəsinin reallaşdırılması ilə Şərq-Qərb enerji və nəqliyyat layihələrini həyata keçirtmək üçün öz strategiyasını qurdu və neft və təbii qazın dünya bazarına çıxardılması üçün, eləcə də qərbə iqtisadi yolların açılması üçün müvafiq marşrut seçildi. Bu hədəf regionda güclü üçlüyün əməkdaşlığını yaratdı – Azərbaycan, Türkiyə, Gürcüstan əsl işgüzar birlik formalaşdırdılar. Bu birlik çərçivəsində ciddi transregional layihələri reallaşmağa başladı. İlk olaraq Bakı-Supsa boru kəməri, daha sonra isə daha böyük həcmli Bakı-Tbilisi-Ceyhan və gələcəkdəki siyasi və iqtisadi proseslərin təbii nəticəsi kimi Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars dəmiryolu magistralları reallaşdı.

Türkdilli ölkələr arasında Azərbaycanla Türkiyənin əlaqələri hər ikisinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bir-biri ilə etnik, mədəni, ümumi dil nöqteyi-nəzərindən bağlı olan iki ölkə arasındakı ikitərəfli münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da dərinləşmiş və genişlənmişdir. Azərbaycan və Türkiyənin regiondakı geosiyasi və iqtisadi hadisələrə birgə münasibətləri, həyata keçirdikləri transregional iqtisadi layihələr iki dövlət arasındakı əməkdaşlıq keyfiyyətinin səviyyəsini və onların mövqeyini nümayiş etdirir. Sovet İttifaqının çökməsi Türkiyə üçün tarixi bir fürsət olaraq dəyərləndirilirdi. Türkiyə Cümhuriyyətinin bu dövrdəki siyasəti Cənubi Qafqazdan İran körfəzinə, Adriatik dənizindən Çin Səddinə uzanan Türk dünyasını əhatə edən bir geniş bölgədə regional bir güc olmağa can atmaq kimi xarakterizə edilir [15, s.141]. İlk növbədə, bölgənin Şərq ilə Qərbin, Şimal ilə Cənubun kəsişməsində yerləşməsi və zəngin karbohidrogen resurslarına malik olması onun strateji dəyərini artırır və regiona nəzarət uğrunda gedən geosiyasi rəqabəti stimullaşdırır. İstər regiona qonşu olmasından, istərsə də regionda xüsusi maraqlara malik olmasından irəli gələrək Türkiyə Cənubi Qafqaz uğrunda gedən "nəhəng geosiyasi oyunların" birbaşa iştirakçısıdır [7, s.70]. Azərbaycanı Türkiyə Cümhuriyyəti ilə bağlayan yuxarıda qeyd etdiyimiz çox vacib faktorlardan olan dostluq, qardaşlıq bağları ilə yanaşı, burada Azərbaycan Respublikasının strateji və iqtisadi maraqlarını nəzərdən qaçırtmaq olmaz. Azərbaycan Respublikasının yeritmiş olduğu Şərq-Qərb nəqliyyat və

enerji dəhlizlərini inkişaf etdirmək siyasətində seçmiş olduğu yolun, yəni enerji ehtiyatlarının qərb bazarlarına daşınma yollarının məhz Gürcüstan və Türkiyə Cümhuriyyətləri ərazisindən keçməsi ölkəmizin maraqlarının qorunması istiqamətində atılmış uğurlu addım kimi qiymətləndirilməlidir. Burada həmçinin Azərbaycanın tranzit imkanlarının artırılması üçün də şərait yaradılmış olur.

Beynəlxalq prosesdə aparıcı iştirakçıların geosiyasi strategiyasında fəal oyunçu rolunda Azərbaycanın güclənməsi Rusiyanın Zaqafqaziyada mövqelərinin zəifləməsi ilə əlaqədardır. Azərbaycanın yeni suveren statusunu möhkəmləndirmək arzusu böyük qlobal və regional siyasi qüvvələrin ölkəni təsir dairəsinə cəlb etmək üçün səylərinin artırılmasına səbəb olmuşdur. Hal-hazırda Azərbaycan dünyanın demək olar ki, aparıcı geosiyasi oyunçularını cəlb edir. Dünyanın bir çox aparıcı dövlətlərinin xüsusi maraqları təkcə burada böyük karbohidrogen ehtiyatlarının mövcudluğuna deyil, eyni zamanda regionun tədricən dünyada rəqib qüvvələrin geostrategiyasında açar yerinə çevrilməsi ilə bağlıdır. Bölgədəki gərginliyin artması geosiyasi vəziyyətin geostrategik rəqabətə səbəb olan qaçılmaz nəticəsidir.

Bu gün Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri hər iki ölkə arasında olan tarixi köklər üzərində qurulmuşdur və tarixi ənənələrin davamıdır. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti "tək millət, iki dövlət" vurğusu çərçivəsində bir-birlərini prioritetli və təbii tərəfdaşlar olaraq dəyərləndirmişlər. Türkiyə Azərbaycan Respublikasının dövlət müstəqilliyini keçmiş Sovet İttifaqı respublikalarından daha öncə 9 noyabr 1991-ci ildə tanıyan ilk ölkədir [13, s.60]. 90-cı illərdə bu ölkələr arasında qurulan əlaqələrin inkişafında bu dövrdəki dövlətlərin dövlət başçıları Heydər Əliyev və Süleyman Dəmirəl arasındakı şəxsi dostluq da önəmli rol oynamışdır.

Azərbaycanın Türkiyə üçün geostrateji önəmi də çoxdur. Azərbaycan Türkiyəni Mərkəzi Asiya ilə bağlayan bir ölkədir. Belə bir geostrateji məntəqədə möhkəmlənmək üçün Türkiyə Azərbaycan və Gürcüstan ilə sıx əməkdaşlıq etməyi xarici siyasətinin önəmli tərəflərindən biri kimi irəli sürmüşdür [8].

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. Bu şirkətin müqavilədən aldığı pay 6,75 % idi [12, s.281]. Qeyd edək ki, 19 neft müqaviləsindən 4-də və ya 21%-də Türkiyə pay almışdır.

Bu dövrdə qarşılıqlı ziyarətlər və keçirilən görüşlərdə imzalanan anlaşmalar, razılaşmalar siyasi, sosial, iqtisadi və ticarət sahələrini əhatə edən və əlaqələri dərinləşdirən razılaşmalar idi. Bunlar arasında xüsusilə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 1997-ci ilin 5 mayında

imzalanmış və ikitərəfli münasibətləri "strateji ortaqlıq" səviyyəsinə daşıyan "Strateji Ortaqlıq və İşbirliyi Bəyannaməsi" üzərində diqqətlə dayanılması lazım olan razılaşmalardandır. Bu razılaşmanı Heydər Əliyev belə qiymətləndirirdi: "Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında sənədin imzalanması indiyədək əlaqələrimizin inkişafı yolunda atdığımız addımların ən dəyərlisi olacaqdır" [4, s.277]. Bu razılaşma Azərbaycanın Xəzər neftinin xarici bazarlara Türkiyə üzərindən çatdırılmasını, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi problemi səbəbiylə qınanması və işğal etdiyi torpaqlardan çəkilməsini özündə ehtiva edir. Bu müqavilənin müəyyən etdiyi çərçivəyə uyğun biçimdə 29 oktyabr 1998-ci ildə imzalanan "Ankara Bəyannaməsi" [2] isə Azərbaycan üçün çox əhəmiyyətli olan enerji məsələsini ikitərəfli münasibətlərin mərkəzinə yerləşdirmiş və Bakı-Tbilisi-Ceyhan layihəsi kontekstində enerji işbirliyini regional işbirliyi layihəsinə çevirmişdir.

Türkiyə və Azərbaycan prezidentlərinin Gürcüstan, Qazaxıstan və Özbəkistan liderləri ilə, ABŞ Enerji naziri ilə birgə imzalanan "Ankara Bəyannaməsi" Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına daşımaq üçün Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) xəttinin Əsas İxrac boru Xəttinin reallaşmasını nəzərdə tuturdu. Bu sənəd ilə Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinə Gürcüstanın da qatılması ilə üçtərəfli münasibətlər formalaşmış, Cənubi Qafqazın ümumi geostrategiyasında yeni bir baxış bucağı təmin edilmişdir. Boru xətləri, quru yollar, dəmiryol şəbəkələrinə dair ticari və iqtisadi razılaşmalarla Cənubi Qafqazda formalaşan Azərbaycan-Gürcüstan-Türkiyə oxlu strateji bir tarazlığın təsirləri bu tarixdən açıq izlənməyə başladı. Belə bir tarixi, siyasi və iqtisadi oxun yaradılması Azərbaycan və Gürcüstan Respublikalarının gözləntilərinin qarşılanması baxımından regional bir ittifaqın yaradılması önəmli haldır. Bu bəyannaməyə ARDNŞ-nin prezidenti Natiq Əliyev belə qiymət verirdi: "Xəzər dənizi regionunda karbohidrogen istehsal edən ölkələrin mənafelərini və maraqlarını hərtərəfli qane edən Şərq-Qərb dəhlizinin hər iki tərəfə tranzit daşınma baxımından Transxəzər və Transqafqaz boru kəmərləri sistemində müstəsna rolu olan Bakı-Supsa Qərb boru kəmərinin istismara verilməsi, eyni zamanda 1998-ci il oktyabrın 29-da Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkiyə və Özbəkistan prezidentlərinin imza etdiyi Ankara bəyannaməsinin gerçəkləşməsi istiqamətində atılan bir addımdır" [3, s.7].

Müasir dünyada enerji amili ilə təhlükəsizlik, iqtisadi inkişaf və əməkdaşlıq arasında balans getdikcə artmaqdadır. Cənubi Qafqazda enerji amilinin regional və ya transkontinental təhlükəsizlik üçün strateji dividentləri kifayət qədər yüksək qiymətləndirilir. Etiraf etmək lazımdır ki, bu gün dünya miqyasında enerji resurslarının tükənməsi yaxın gələcəkdə qlobal enerji təhlükəsizliyi problemini ön plana çəkir. Enerji mənbələrinə çıxış müxtəlif

bölgələrdə hətta silahlı toqquşmalarla müşayiət olunur. Cənubi Qafqazda da enerji amili regional təhlükəsizliklə sıx vəhdətdədir. "Əsrin müqaviləsi"nin imzalanması Cənubi Qafqazda klassik və transmilli risklərin hələ də mövcud olması səbəbindən Azərbaycan neftinin istismarı və Qərbə daşınması prosesinə Türkiyə öz enerji təhlükəsizliyinin təmin olunmasının mühüm hissəsi kimi baxır [11, s.110].

18 noyabr 1999-cu ildə İstanbulda Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan Respublikası arasında Xəzər neftinin Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə daşınmasına dair anlaşma imzalandı. ATƏT-in İstanbulda keçirilmiş Zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihələrindən biri hesab edilən və mübahisəli müzakirələrə səbəb olan "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair saziş" imzalandı. Bu sazişin Azərbaycan, Gürcüstan Respublikaları, Türkiyə Cümhuriyyəti və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu. Anlaşmanın imzalanmasından sonra Türkiyə Cümhuriyyətinin doqquzuncu prezidenti Süleyman Dəmirəlin 14-15 yanvar 2000-ci il Tbilisi səfəri və 9 may 2000-ci ildə İstanbulda imzalanan protokollar Türkiyə-Gürcüstan-Azərbaycan münasibətlərinin regional bir ölçü forması qazandığını göstərir [9, s.2-18].

Bu anlaşma ilə iqtisadi münasibətlər, Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti, dəniz, quru və hava daşınmaları şəbəkələri ilə qarşılıqlı regional bir işbirliyi qurulmuş, Qafqazın regional siyasi arenasında Gürcüstan tranzit bir ölkəyə çevrilmişdir. Bu vəziyyət Gürcüstan prezidenti E.Şevardnadze tərəfindən 2001-ci il oktyabr ayında Vaşinqtonda "Gürcüstan Rusiyanın cənub qanadı deyil, əksinə Gürcüstan Türkiyənin şərq qanadıdır" şəklində dəyərləndirilmişdir [10, s.279].

Azərbaycan Respublikasının bölgədə suverenlik qazandıqdan sonra həyata keçirtdiyi nəqliyyat və enerji layihələri siyasəti bütövlükdə təkcə böyük "güc"ləri deyil, həmçinin region dövlətlərinin də burada maraqlarının formalaşmasına gətirib çıxartdı. Belə ki, Azərbaycan Respublikasının həm Şərq-Qərb nəqliyyat, həm də enerji layihələrinin yolları Ermənistanla məlum münasibətlərə görə Gürcüstan Respublikası ərazisindən həyata keçirildi. Burada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi rol oynadığı kimi, qardaş Gürcüstan Respublikası ilə tarixi dostluq ənənələri də az əhəmiyyət daşımır. Gürcüstan Respublikası regionda Azərbaycan Respublikasının ən yaxın müttəfiqlərindən biridir. SSRİ dağıldıqdan sonra hər iki ölkədə baş verən proseslər, daxili və xarici vəziyyətin oxşarlığı, ümumi maraqların olması və digər amillər iki ölkə arasında geniş əməkdaşlıq əlaqələrinin qurulmasına təkan verdi. Azərbaycanın bu ölkə vasitəsilə Xəzər dənizinin enerji resurslarının

dünya bazarına çıxarılması və Avropa ilə Asiyanın birləşdirilməsi məqsədilə "Tarixi İpək Yolu"nun bərpası kimi bir neçə ortaq maraqların olması, həmçinin müştərək transregional layihələrdə iştirak münasibətlərin vacibliyini bir daha sübut edir.

18 fevral 1997-ci ildə "Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannamə" imzalanmışdır. İmzalanan bu sənəd istər Gürcüstan üçün, istərsə də Azərbaycan üçün ciddi proqram olmaqla gələcək əməkdaşlığın aydın və dəqiq yolunu müəyyənləşdirir [5, s.417].

Təbii ki, çətin iqtisadi vəziyyətdə olan Gürcüstan Respublikasına belə transregional layihələrdə iştirak etmək, tranzit ölkələrdən biri olmaq həm iqtisadi, həm də eyni zamanda siyasi üstünlüklər verir. Azərbaycan Respublikasının Avropa İttifaqının dəstəyi ilə mərkəz rolunda oynadığı həm enerji, həm də nəqliyyat layihələri Gürcüstanın da nəqliyyat-kommunikasiya sisteminin demək olar ki, bütün sahələrinin inkişafına, infrastrukturun yaxşılaşmasına, müasir beynəlxalq standartlar səviyyəsinə çatdırılmasına, investisiya mühitinin yaxşılaşmasına və s. təsir göstərir. Ona görə də Gürcüstan Respublikası bu layihələrin reallaşmasında maraqlı olmuşdur. Gürcüstan regionda əldə etdiyi geosiyasi dəyərdən maksimum güzəştlər qazanmaq üçün istifadə etməklə, Azərbaycan və Türkiyənin daxil olduğu layihələrin mərkəz ölkəsi olaraq sadəcə Cənubi Qafqaz üçün deyil, Şərq-Qərb layihələrində də əhəmiyyət qazanmış oldu. Qara dənizdə limanları olan Gürcüstan Azərbaycanın neft və digər məhsullarının açıq dənizlərə çıxışı üçün əhəmiyyətli rol oynadı.

Şərq-Qərb nəqliyyat yollarının ən əhəmiyyətli layihələrindən biri Avropa İttifaqının layihəsi olan TRASEKA-dır. Azərbaycan və Gürcüstanın 1993-cü ildə, Türkiyənin isə 2000-ci ildə üzv olduğu TRASEKA proqramı üzv ölkələrin rabitə və nəqliyyat xətlərinin inteqrasiyasını dəstəkləyir. Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin həyata keçirilməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən "Avropa-Qafqaz-Asiya Transqafqaz" nəqliyyat dəhlizi (TRASEKA) proqramının dəstəyi ilə 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpasına dair Bakıda keçirilmiş beynəlxalq konfrans Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığın genişlənməsinə yeni stimul verdi.

Asiya-Avropa arasındakı TRASEKA nəqliyyat xətti, Azərbaycan-Gürcüstan-Türkiyədən keçir və bu üç ölkəni birləşdirir. TRASEKA dəhlizi Şərqi Avropadan başlayıb (Bolqarıstan, Rumıniya, Ukrayna), Türkiyəyə, Qara dənizdən keçib Gürcüstandakı Poti və Batumi limanlarına çatır, Cənubi Qafqaz nəqliyyat şəbəkələrindən keçərək bu bölgəni quru yolu ilə Türkiyəyə bağlayır. Bu ölkələrin nəqliyyat şəbəkələri ilə Özbəkistan, Qırğızıstan və Tacikistandan

Çin və Əfqanıstan sərhədinə gedib çatır. Asiya-Sakit okean regionundan başlayan və Orta Asiya, Qafqaz və Avropada sona çatan yük daşımalarındakı artım yeni nəqliyyat dəhlizinin inkişafından irəli gəlir. Bu, eyni zamanda TRASEKA ölkələrinin bazara çıxmalarına və bazarın genişlənməsinə və Trans-Avropa şəbəkələri ilə bağlanmasına gətirib çıxarmaqdadır [14]. Üç prezident – Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri adından gələcək nəsillərə müraciətdə deyilirdi ki, "layihənin həyata keçirilməsi və istismar zamanı hazırda bəşəriyyətin bu sahədə eldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq-Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır" [1, s.3].

Beləliklə, bölgədə Azərbaycan, Gürcüstan və Türkiyə Cümhuriyyətindən ibarət bir halqa formalaşmağa başladı. Bölgədəki siyasi və iqtisadi prosesləri yaxından izləyən analitiklər Şərq-Qərb dəhlizinin inkişafında bu üçlüyün rolunu yüksək qiymətləndirmişlər. Bu üç ölkənin 1990-cı illər boyunca ortaq şəkildə həyata keçirdikləri layihələr və birgə fəaliyyətlərinin nəticələri 2000-ci illərdə görülməyə başlandı. Hər üç ölkənin, xüsusilə də Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikasının artan siyasi və iqtisadi imkanları və fəal siyasi hərəkətləri ilə, qarşılıqlı siyasi təcrübə ilə də dəstəklənən strateji bir ittifaq qurma yanaşması günümüzdə adıçəkilən bölgə layihələrinin gerçəkləşməsinə imkan verir. Müstəqillik qazandıqdan sonra keçən 27 illik bir dövrdə Azərbaycan və Gürcüstan qarşı-qarşıya qaldıqları problemlərin varlığına baxmayaraq məhz həyata keçirilən layihələrin sayəsində dövlətlərarası iqtisadi və siyasi sistemin tam və ayrılmaz bir parçası halına gəlmişlər. Başqa sözlə, 1990-cı illərin ikinci yarısı ikitərəfli əlaqələr kontekstində Türkiyə-Azərbaycan və Gürcüstan-Azərbaycan, Türkiyə-Gürcüstan ikitərəfli əlaqələrinin üçlü perspektiv zəmininin hazırlandığı bir dövrdür. Bu ölkələr arasında üçtərəfli əlaqələrin strateji birliyə çevrilməsində itələyici güc kimi iqtisadi və ticarət əlaqələri böyük rol oynayır.

Bu nöqteyi-nəzərdən Azərbaycan-Gürcüstan-Türkiyə üçlü mexanizmi Qafqazdan, Xəzərdən başlayaraq Qara və Aralıq dənizlərinə çatan bu bölgədə sülh, sabitlik və rifahı təmin edən fürsətlərdən biri olaraq görülməkdədir. Mərkəzi Asiya ölkələrinin enerji qaynaqlarının da Qərb bazarlarına daşınmasını nəzərdə tutan alternativ boru xətlərinin Azərbaycan bağlantısı ilə Türkiyə və Gürcüstan ərazisindən keçməsi ehtimalı hər iki ölkənin enerji güvənliyinin təmin olunması və bu ölkələrin enerji şəbəkəsi olma siyasətinin nəticəsidir. Göründüyü kimi, Azərbaycan neftinin və qazının dünya bazarına çıxarılması, regional və Avropa bazarlarına çıxarılması üç dövlət arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün əsas yaradır.

## ƏDƏBİYYAT


1. “Azərbaycan” qəz., 19 sentyabr, 2002-ci il
2. Ankara Bəyannaməsi. /28.10.1998, s.711/ http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
3. Bakı-Supsa neft kəməri və Supsa terminalı işə başladı! // İqtisadiyyat və həyat, 1999, №3-6, 7-8 s.
4. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyənatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. IX kitab, B.: Azərnəşr, 2000, 466 s.
5. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyənatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. VIII kitab. B.: Azərnəşr, 1998, 488 s.
6. *Qəribov A.* Azərbaycan-Mərkəzi Asiya münasibətləri. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu. Bakı: “Poliart” MMC, 2017, 904 s.
7. *Nəcəfov Z.* Türkiyənin müasir Cənubi Qafqaz strategiyasının əsas prioritetləri // Strateji təhlil (Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal), say 4 (11), 2014, s.69-83
8. Türkiyənin müasir Cənubi Qafqaz strategiyasının əsas prioritetləri/ http://www.stj.sam.az/post/t%C3%BCrkiy%C9%99nin-m%C3%BCasir-c%C9%99nubi-qafqaz-strategiyas%C4%B1n%C4%B1n-%C9%99sas-prioritetl%C9%99ri
9. *Çelikpala M., Veliyev C.* Azerbaycan-Gürcistan-Türkiye Bölgesel İşbirliğinin Başarı Örneği, CİES (Center for İnternational and European Studies, Police Brief, March 2015, s.2-18
10. *Demirağ Y.* Türkiye-Gürcistan İlişkileri. Türkiye’nin Avrasya Macerası 1989-2006 (Avrasya Üçlemesi II). Ankara: Nobel Yayın Dağıtım., 2007, 296 s.
11. *İnan K.* Dış politika, İstanbul, Timaş yayinlari. 1997, 160 s
12. *Mesimov A.* “Bağımsızlık Yıllarında Azerbaycan – Türkiye İlişkileri” // Avrasya Dosyası, (Azerbaycan Özel), C: 2, S: 1, İlkbahar 2001, s. 274-285
13. *Şimşir B.* Azerbaycan: Azerbaycan’ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan İlişkileri, Ankara: Bilgi Yayınevi, 2011, 768 s.
14. TRACECA – Avrupa-Kafkasya-Asya Ulaşım Koridoru, http://www.traceca.org.tr/
15. Between Euphoria and Realpolitik: Turkish Policy toward Central Asia and the Caucasus. Turkey’s Foreign Policy in the 21st Century: A Changing Role in World Politics. Burlington: Ashgate, s. 139-160

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 168-179
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 168-179
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 168-179

*UOT 32*

***H.G.Məmmədli***
*AMEA Fəlsəfə İnstitutu*
*hulya.mammadli@yahoo.com*

# AZƏRBAYCANIN MODERNLƏŞMƏSİNDƏ SİYASİ İDEOLOGİYALARIN ROLU

***Açar sözlər:*** *modernləşmə, siyasi ideologiya, mühafizəkarlıq, liberalizm, azərbaycançılıq*

Məqalədə Azərbaycanda modernləşmə siyasətinin ideya əsasları araşdırılır, Azərbaycanın siyasi, iqtisadi, sosial transformasiyasında liberal və mühafizəkar dəyərlərin nisbəti təhlil olunur. Əsaslandırılır ki, hər bir ölkənin modernləşmə modeli unikal olmaqla özünəməxsus ideoloji çalarlara malik konsepsiya məzmunu daşıyır. Bu baxımdan Azərbaycanın modernləşmə modeli də milli maraqlara və dəyərlərə istinad edən konsepsiya kimi müxtəlif ideoloji prinsipləri özündə əks etdirir. Fərqli ideoloji prinsiplərin sintezi olan və ümummilli ideya kimi qəbul olunan azərbaycançılığın mahiyyətinə dair elmi ədəbiyyatdakı ayrı-ayrı yanaşmalar təhlil olunaraq onun ümumi konturları göstərilir.

Belə qənaətə gəlinir ki, mövcud olan elmi tədqiqatlara baxmayaraq Azərbaycan modernləşməsinin, onun ideya əsaslarının və eləcə də azərbaycançılığın mahiyyətinin və məzmunun daha əhatəli və sistemli tədqiq olunmasına, milli ideologiyanın ölkənin inkişaf konsepsiyası ilə və cəmiyyətdəki transformasiya prosesləri ilə daha dərindən əlaqələndirilməsinə və uzlaşdırılmasına ehtiyac vardır.

***Х.Г.Мамедли***

# РОЛЬ ПОЛИТИЧЕСКИХ ИДЕОЛОГИЙ В МОДЕРНИЗАЦИИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *модернизация, политическая идеология, консерватизм, либерализм, азербайджанизм*

В статье рассматриваются идеологические основы политики модернизации в Азербайджане, анализируется соотношение либеральных и консервативных ценностей в политической, экономической и социальной трансформации страны. Модель модернизации каждой страны уникальна и несет концептуальное содержание с уникальными идеологическими оттенками. В связи с этим модель модернизации Азербайджана также отражает различные идеологические принципы, как концепцию, основанную на национальных интересах и ценностях. Проанализированы различные подходы в научной литературе к сущности азербайджанства, который является синтезом различных идеологических принципов и рассматривается как национальная идея, также

представлены его общие контуры.

Делается вывод, что, несмотря на существующие научные исследования, необходимо более всестороннее и систематическое изучение модернизации Азербайджана, его идеологических основ, а также сущности и содержания азербайджанства, а также более глубокой интеграции и гармонизации национальной идеологии с концепцией развития страны и трансформационных процессов в обществе.

***H.G.Mammadli***

**THE ROLE OF POLITICAL IDEOLOGIES IN THE MODERNIZATION OF AZERBAIJAN**

***Keywords:*** *modernization, political ideology, conservatism, liberalism, Azerbaijanism*

The article explores the ideological basis of modernization policy in Azerbaijan, and analyzes the correlation of liberal and conservative values in its political, economic and social transformation. Each country's model of modernization is unique and carries the conceptual content with its specific ideological shades. In this regard, the model of modernization of Azerbaijan also reflects various ideological principles, as a concept that is based on national interests and values. Different approaches in the scientific literature on the essence of Azerbaijanism, which is a synthesis of different ideological principles and considered as a national idea, are analyzed and its general outlines are presented.

It is concluded that despite the existing scientific research, there is a need for a more comprehensive and systematic study of the modernization of Azerbaijan, its ideological foundations, as well as the essence and content of Azerbaijanism, and the deeper integration and harmonization of national ideology with the country's development concept and transformation processes in society.

Azərbaycan Respublikası öz müstəqilliyi dövründə siyasi, iqtisadi, sosial-mədəni baxımdan böyük bir inkişaf, transformasiya yolu keçmiş və hazırda da bu proses davam etməkdədir. Ölkənin inkişafının əsasında dayanan başlıca konsepsiya, eləcə də onun ideoloji prinsipləri elmi ədəbiyyatda, ictimaiyyət arasında daim diqqət mərkəzində saxlanan, geniş müzakirə mövzusuna çevrilən problemdir. Azərbaycanda bu problemin aktuallaşmasına aşağıdakı obyektiv və subyektiv amillər, eləcə də mühüm tarixi faktorlar təsir göstərmişdir:

- Keçmiş Sovetlər Birliyinin dağılması ilə yenidən müstəqilliyinə qovuşan respublikalarda, o cümlədən Azərbaycanda yeni siyasi, sosial-iqtisadi münasibətlər sisteminin yaradılması zərurəti;
- İflasa uğramış sosializm və kommunizm ideologiyalarından imtina nəticəsində ideoloji boşluğun yaranması;

- Azərbaycanda tarixən mövcud olan, xüsusən də XIX-XX əsrlərdə meydana gələn ideya istiqamətləri və hərəkatların yeni müstəqil dövlət quruculuğunun ideoloji əsaslarına, inkişaf prinsiplərinə dair elmi və ictimai diskussiyalara təsir göstərməsi;
- İnkişaf etmiş ölkələrlə müqayisədə özünü göstərən siyasi, iqtisadi, sosial inkişaf fərqlərinin aradan qaldırılması zərurətindən doğan müasirləşmə çağırışlarının güclənməsi;
- Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nizamnamə və konvensiyalarından irəli gələn öhdəçiliklərlə milli dövlət maraqlarının uzlaşdırılması;
- Qloballaşmaya açıq ölkə olan Azərbaycanda ümumbəşəri mənəvi-mədəni dəyərlərin mənimsənilməsi ilə yanaşı, milli identikliyin qorunub saxlanması zərurəti.

Siyasi və sosial-iqtisadi inkişaf baxımından ən qabaqcıl standartlara uyğun dövlət quruculuğuna nail olmaq məqsədilə bir sıra inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, Azərbaycanda da modernləşmə xətti yürüdülməkdədir. Prezident İlham Əliyev 2009-cu ilin mayında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə mərasimdəki niqtində söyləmişdir: "Azərbaycan dövləti müstəqil dövlətdir, Azərbaycan dövləti öz milli və dini ənənələrinə sadiq dövlətdir. Eyni zamanda, Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir və Azərbaycanın müasirləşməsi, modernləşməsi işində biz bundan sonra da öz səylərimizi qoyacağıq. Ölkəmizi inkişaf etmiş ölkələrin sırasına daxil edəcəyik" [15].

Akademik R.Mehdiyevin "...Dünyada gedən qərbləşmə prosesində Azərbaycanın modernləşməsi necə olmalıdır? Qərbləşməni rədd edərək və milli "Mən"i qoruyub saxlayaraq modernləşə bilərikmi?" [3] sualı dövrün reallıqlarının ortaya çıxardığı və cavab tapılması vacib olan bir problemi aktuallaşdırır.

Prezident İlham Əliyev milli modernləşmənin xarakterik cəhətlərini lakonik şəkildə ifadə etmişdir: "Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin əlamətidir. Bununla bərabər dünyada mövcud olan və bizim üçün məqbul sayılan ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunur. Azərbaycanda geniş modernləşmə siyasəti aparılır. Həyatımızın bütün istiqamətlərində modernləşmə əlamətlərini görə bilirik. Biz bundan sonrakı dövrdə də bu siyasətə sadiq qalacağıq" [16].

S.Həsənovanın fikrincə, son illərdə Prezident İlham Əliyevin həyata keçirdiyi modernləşmə kursu, dövlət tərəfindən iqtisadi liberallaşmanın, vətəndaş cəmiyyətinin inkişafının dəstəklənməsi, hüquqi və demokratik dövlət quruculuğu onu göstərir ki, demokratikləşmə realdır, lakin özünəməxsus xüsusiyyətlərə malikdir. Müəllifin fikrincə, Qərbdə meydana gələn liberal

əxlaqi dəyərlərin universallığına gəlincə, modernləşmə və qloballaşmanın təsirilə bütün dünyada əxlaqi-mənəvi cəhətdən yekcins, eyni dəyərlərə malik cəmiyyətin formalaşmasını söyləmək doğru deyil, müxtəlifliklər hər zaman olacaqdır, lakin ümumbəşəri humanist dəyərlər və bir-birinin dəyərlərinə qarşılıqlı hörmət yolu ilə konsolidasiyanın yaradılması mümkündür [13, s.59-65]. Bu fikirlər onu təsdiqləyir ki, modernləşmənin ideoloji əsaslarını formalaşdırarkən hansısa hazır modeli götürmək əvəzinə yeni, orijinal, milli ideoloji bazanın formalaşdırılması daha məqsədəuyğundur.

Azərbaycanın modernləşmə modelinin xüsusiyyətlərinə nəzər saldıqda başlıca olaraq ənənəviliklə müasirliyin, başqa sözlə, konservativ və liberal dəyərlərin uzlaşdırılması və tədrici keçid, transformasiya xəttinin yürüdüldüyünü söyləmək olar. Eyni zamanda siyasi sistemin, iqtisadiyyatın modernləşməsinə paralel olaraq cəmiyyətin mənəvi sferasında da buna uyğun liberal dəyərlərin tədricən mənimsənilməsi baş verməlidir.

Bunun təsdiqi olaraq professor İ.Məmmədzadənin yanaşmasını nümunə göstərə bilərik: "XX əsr öncə mobil inkişafın ideoloji istiqamətdə proqnozlaşdırılması nümunəsinin, sonra isə postsovet məkanında liberal layihələrin iflasını nümayiş etdirdi. Bu səbəbdən də modernizasiyamızın ideologiyası sözdə və əməldə cəmiyyətin əməyə, bərabərliyə və azadlıqlara olan ehtiramını bərpa etməlidir. Ölkə vətəndaşlarının mədəni və mənəvi cəhətdən tərbiyəsi bu ideologiyanın əsasını təşkil etməlidir" [6, s.7].

Qeyd olunduğu kimi, Azərbaycanda siyasi və iqtisadi islahatlar əsasən liberal xarakter daşıyır. Lakin dövlət siyasətində müəyyən mühafizəkarlıq elementləri də özünü göstərməkdədir. Məsələn, bildiyimiz kimi, müasir beynəlxalq münasibətlər sistemi dövlətlərin suveren hüquqlarının bir hissəsinin beynəlxalq və hökumətlərarası təşkilatlara, qurumlara verilməsi ilə nəticələnir. Bunun ən qabarıq nümunəsi üzv dövlətlərə xas bir sıra dövlət institutlarının təmərküzləşdirildiyi Avropa İttifaqıdır. Azərbaycan Respublikası da özünün xarici siyasətində BMT, MDB, Avropa İttifaqı, Avropa Şurası, QDİƏT, NATO kimi aparıcı beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq yolunu tutmuşdur. Lakin milli dövlət suverenliyinin və xarici siyasət müstəqilliyinin qorunması başlıca prinsip olaraq qalmaqdadır. Bunun ən bariz sübutu Azərbaycanın 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olmasıdır. 1961-ci ildə keçmiş Yuqoslaviyada yaradılan Qoşulmama Hərəkatı rəsmi olaraq heç bir iri güc blokunun tərəfində, yaxud əleyhinə olmayan, qlobal güclərin geosiyasi mübarizəsində özünün tərəfsizliyini, suverenliyini və təhlükəsizliyini təmin etməyə çalışan dövlətləri birləşdirir. Qloballaşma proseslərinin milli dövlətlər qarşısında yaratdığı çağırışlara baxmayaraq Azərbaycan özünün milli dövlət maraqlarını və siyasi müstəqilliyini ən yüksək səviyyədə qorumağa çalışır.

İqtisadi sahədə isə bildiyimiz kimi, Azərbaycan bazarları xarici məhsulların üzünə açıqdır. Bununla belə, yerli istehsalın rəqabətə tab gətirməsi

və güclənməsi məqsədilə dövlət tərəfindən orta və kiçik sahibkarlığın inkişafına dəstək, subsidiyaların ayrılması, “Made in Azerbaijan” brendinin dünyada təbliği və bu kimi digər müsbət anlamda proteksionist tədbirlər həyata keçirilir.

Hər iki sahədə müəyyən dərəcədə mühafizəkar, daha dəqiq desək, ehtiyatlı yanaşmanın səbəbi milli dövlət maraqlarının qorunması və cəmiyyətinin rifahının təmin olunmasıdır.

Belə bir fikri qəbul etmək olar ki, hər bir siyasi inkişaf prosesi kimi, modernləşmənin də uğurla həyata keçirilməsi üçün açıq şəkildə bəyan edilmiş, razılaşdırılmış və xalq tərəfindən qəbul edilmiş ideoloji prinsipləri olmalıdır. Bu prinsiplər dövlətin atdığı hər bir addımın və fəaliyyətin ölçü kriteriyası kimi çıxış etməli və onun nə dərəcədə qoyulmuş məqsədlərə çatmasını müəyyən etməlidir [9, s.151].

Bəzi tədqiqatçıların fikrincə, cəmiyyətimizdə ictimai şüurun, o cümlədən onun nəzəri-ideoloji səviyyəsinin yeni cəmiyyət quruculuğu tələblərindən geri qalması, "ideoloji qıtlıq halı" tam aradan qaldırılmamışdır [10, s.72].

Buna başlıca səbəb kimi, cəmiyyətin uzun illər ərzində tamamilə fərqli ideologiyaya bağlı olması, onun təbliği və geniş yayılması halına alışmasını göstərmək olar. Keçid dövrünün özü ilə gətirdiyi müvəqqəti iqtisadi və sosial problemlər, eləcə də beynəlxalq təcrübədə Qərb dövlətlərinin apardıqları "ikili standard" siyasəti liberal, plüralist, demokratik cəmiyyət ideyasına ictimaiyyət arasında bağlılığın möhkəmlənməsinə mənfi təsir göstərmişdir.

Beləliklə, cəmiyyətimizdə geniş yayılmış ideyalardan suverenlik, demokratiya, sosial ədalət, milliləşmə, tolerantlıq, neokonservatizm və başqalarını misal göstərmək olar [1, s.5-8].

Milli ideya və milli ideologiyadan bəhs edərkən bu anlayışların mahiyyət etibarilə bir-birindən fərqləndiyini nəzərə almaq lazımdır. Akademik R.Mehdiyevin vurğuladığı kimi, elmi ədəbiyyatda onların eyniləşdirilməsi hallarına tez-tez rast gəlmək olar. Halbuki onların funksiyaları müxtəlifdir: milli ideyanı strategiya kimi səciyyələndirmək olar, ideologiya isə ideyanın reallaşdırılmasına kömək edən taktikadır. İdeologiya milli ideyanın cəmiyyətdə yayılması metodları və vasitələridir. O, milli ideyanın daşıyıcısıdır. Reallıq dəyişir, onun təqdim edilməsinin metodları və formaları da dəyişməlidir. Təşkilatçılıq xüsusiyyəti olan ideologiya cəmiyyətin mənəvi həyatının ən mühüm strukturudur, lakin ondan yalnız milli məsələlərin həlli, milli ideyanın reallaşdırılması üçün zəruri mexanizm kimi istifadə etmək lazımdır [4, s.19-36].

Son zamanlar bir sıra alimlər (R.Mehdiyev, Ə.Tağıyev, D.İsmayılov və b.) bu və ya digər ideologiyanın cəmiyyətimiz üçün daha məqbul olması barədə geniş elmi mülahizələr irəli sürmüşlər. İdeoloji sahədə ciddi elmi monoqrafiyaların müəlliflərindən olan Ə.Tağıyev keçid dövrünün vəzifələrinin yalnız demokratik quruluşla deyil, yumşaq avtoritarizmin vasitəsilə yerinə

yetirilə bilməsinin mümkünlüyünü istisna etmir [12, s.23].

D.İsmayılov azad bazar iqtisadiyyatı və insan hüquq və azadlıqları prinsiplərini əsas götürərək qeyd edir ki, bizim ideologiyamız azadlığa, dövlətçiliyə, ədalətə, türkçülüyə, azərbaycançılığa, müasirliyə və dünyəviliyə əsaslanan bir ideologiya olmalıdır [2, s.105].

Akademik R.Mehdiyev isə əsasən neokonservativ istiqamətin [5, s.23] Azərbaycan cəmiyyəti üçün münasibliyini təhlil etmişdir. Onun fikrincə, müasir ideoloji cərəyan olaraq neokonservatizm cəmiyyətə ailənin və dinin mənəvi prioritetlərini, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə və qarşılıqlı köməyinə, hüquqlara hörmət bəslənilməsinə, möhkəm dövlət intizamına əsaslanan sosial sabitlik təklif edir [3, s.11].

Həmin doktrinaya uyğun olaraq, "dövlət cəmiyyətin bütövlüyünün qorunub saxlanmasına, qanunçuluq və hüquq qaydası əsasında fərdlər üçün lazımi həyat şəraitinin təmin edilməsinə, vətəndaşlara siyasi assosiasiyalar yaratmaq imkanı verilməsinə, vətəndaş cəmiyyəti təsisatlarının inkişaf etməsinə çalışmalıdır. Neokonservatizm əsla o demək deyildir ki, şəxsi azadlıqlar, insan hüquqları, sərbəst iqtisadiyyat və siyasi demokratiya, xalqların öz mədəniyyətini qoruyub saxlamaq hüququ və cəmiyyətin əmək qabiliyyəti olmayan üzvlərinin sosial hüquqları kimi anlayışlar kənar edilir" [3, s.11].

Akademik R.Mehdiyevin fikrincə, neokonservatizm həmin anlayışların universallığını qəbul edir və bu baxımdan liberalizm və sosializm ilə qovuşaraq ideoloji ahəngdarlıq yaradır. Neokonservatorun liberaldan fərqi ondadır ki, birinci ənənəvi dəyərlərin ictimai inkişaf üçün əhəmiyyətini qəbul etdiyi halda, digəri onlara məhəl qoymur və ya ən yaxşı halda onlara ikinci dərəcəli əhəmiyyət verir. İslahatlar yetişmişsə və cəmiyyətin dayaqlarının möhkəmlənməsinə kömək edə bilərsə, neokonservatizm onlara tərəfdar olmaqla yanaşı, keçmişin həsrətini çəkməkdən tamamilə imtina edir və keçmişin ən yaxşı ənənələrinə söykənərək radikal islahatlar ideologiyasına çevrilir.

Akademik hesab edir ki, Azərbaycanda mühafizəkar-liberal sistem tamamilə tarazlaşdırılmışdır, o, bir tərəfdən, güclü dövlət hakimiyyətini və hüquq qaydasını, digər tərəfdən isə iqtisadi fəaliyyət sərbəstliyini dəstəkləyir. Bu sistemdə dövlətpərəst meyillərin və dövlət təməllərinin, milli və universal elementlərin müştərək mövcudluğuna nail olunmuşdur. Liberalizm müəyyən dinamik ruh gətirmiş, mühafizəkarlıq bu ruhu radikal sapmalardan qorumuşdur. Sosial-demokratizm isə çalışmışdır ki, eqalitar prinsiplər, yəni hüquq bərabərliyi prinsipləri unudulmasın. Heydər Əliyevin nadir dövlət idarəçiliyi qabiliyyəti ondadır ki, o, həmin ideoloji müştərəklikdən (uyğunlaşmadan və qismən də qarşılıqlı əvəzetmədən) müstəqil, demokratik Azərbaycan quruculuğunda məharətlə istifadə etmişdir.

Göründüyü kimi, R.Mehdiyev neokonservatizmi müxtəlif ideologiyaların sintezi, onların Azərbaycan reallıqları üçün ən münasib

cəhətlərinin bir arada cəmləşməsi kimi görür. Bu yanaşmanı kifayət qədər rasional hesab etmək olar, çünki o, milli ideologiyanı dünyada qəbul olunmuş hər hansı "izm"in çərçivələri ilə məhdudlaşmağa məcbur etmir, ona elastiklik və çeviklik verir. Hər bir dövlət, onun xalqı, tarixi, sosial-mədəni xüsusiyyətləri unikaldır, deməli onun milli ideologiyası da özünəməxsus cəhətləri ilə seçilməlidir. Bu baxımdan məhz azərbaycançılıq ideologiyası Azərbaycan dövlətinin və xalqının maraqlarına, tələbatlarına ən uyğun ideoloji əsas kimi götürülə bilər.

Məlum olduğu kimi, azərbaycançılığın ideya təməlləri XIX-XX əsrlərin maarifçilik dövrü və Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik prinsipləri ilə bağlıdır. Bu ideyanın ideologiya kimi təkmilləşməsində isə Ümummilli lider Heydər Əliyevin "azərbaycanlı" kimliyini formalaşdırması və populyarlaşdırması mühüm rol oynamışdır.

Milli ideya kimi azərbaycançılığın müəyyənləşdirilməsi onun termin, anlayış olaraq da geniş ictimaiyyət tərəfindən "izm"lərə nisbətən daha rahat qavaranılmasına imkan yaradır. "Azərbaycançılıq" termini mahiyyət etibarilə ilk növbədə, vətənpərvərliyin, dövlətçiliyin vurğulanmasıdır. Bu, elmi ədəbiyyatda nasionalizm (Hitlerin Nasional-sosialist Alman Fəhlələri partiyası ilə qarışdırmamalı) və ya millətçilik (etnik müstəsnalığa söykənən milliyyətçiliklə qarışdırmamalı), başqa sözlə, milli dövlətçilik ideyasına uyğundur. Hesab edirik ki, qloballaşma proseslərinin, postmodernist dəyərlərin və kosmopolit düşüncə tərzinin yayıldığı indiki dövrdə milli dövləti və həmçinin, milli kimliyi qoruyub saxlamağın başlıca vasitəsi vətənpərvərlik, dövlətçilik ideyalarının milli şüurda yaşadılmasıdır.

Məsələnin fəlsəfi aspektlərinə gəlincə, professor İ.Məmmədzadənin fikrincə, cəmiyyət onu digər cəmiyyətlərdən fərqləndirən dəyərlər, ruh, özünün "yüksək tarixi təcrübəsi" ilə maraqlanmırsa, yaxud onlara marağını itirirsə, o, tənəzzülə uğrayır. O, özünə qapandıqda, dəyərlər, mədəniyyətlər və şüurların qarşılıqlı təsirinə diqqət yetirmədikdə, yaxud, əksinə, özəllikləri, fərqləri yox edən mədəni bərabərçilik (sovetləşdirmə, radikal qloballaşma və qərbləşmə), yaxud fərdiləşdirmə prosesinə fəal surətdə qoşulduqda da tənəzzülə məruz qalır. Bu baxımdan azərbaycançılığın fəlsəfi mahiyyətinə diqqəti çəkən alim belə qənaətə gəlir ki, Azərbaycan tarix fəlsəfəsinin inkişafı azərbaycançılıq ideologiyası sahəsində tədqiqatların inkişafını, vətənpərvərliyin (əxlaq və etikanın) tərbiyəsinə diqqət yetirilməsini şərtləndirir [7, s.27]:

1. Azərbaycançılıq ideologiyası üçün fəlsəfə, birinci növbədə, dövlətin, cəmiyyətin həm xaricində, həm daxilində müasir dövrün əsas çağırışları, təhdidlər və cəmiyyəti birləşdirən mənafe və dəyərlər haqqında ümumi biliklər verir. Eyni zamanda (iqtisadiyyatda, siyasətdə, humanitar sahələrdə) Azərbaycan milli xarakterini, aparıcı idarəetmə prinsiplərini nəzərə alan, cavabları şərtləndirən ideoloji prinsiplər dəqiq təsbitini tapır. Onlar sonradan

elmi araşdırmalarda, ictimai biliklərdə, ictimai elmdə, böyüməkdə olan nəsillərin indi və gələcəkdə azərbaycanlıları birləşdirən vətənpərvərlik ruhunda təlim-tərbiyəsi sistemində gerçəkləşərək Azərbaycanın transformasiyasını və modernləşməsini təmin etməyə qadir olmalı, zəruri tarixi, mənəvi, dini, sosial-aksioloji təsəvvür və biliklər verməlidir.

2. Keçmiş haqqında biliklər müasir Azərbaycan cəmiyyətinin birliyinə xidmət etməli, identikliyin pozulmasına imkan verməməlidir. Onlar ölkənin müxtəlif inkişaf mərhələlərində, forma və rejimlərdən asılı olmayaraq dövlətçiliyin bütövlüyünün, onun əldə edilməsində gələcək nəsilləri ictimai və mədəni islahatlarda yaradıcılığa, kreativliyə can atmaqdan məhrum etməyən tarixi şəxsiyyətlərin rolunun fəlsəfi-tarixi və elmi cəhətdən əsaslandırılmış dərki ilə üzvi vəhdət təşkil etməlidir.

3. Müstəqilliyin dövlət əsaslarının sivilizasiyanın tələblərinə cavab, vahid xarakterini qoruyub saxlamağa isə imkan verəcək dərəcədə cəmiyyətin etnik və dini müxtəlifliyində konsensusun əldə edilməsinə, tarixi köklərin tanınmasına imkan yaradılmalıdır.

4. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin mənəvi irsi, Azərbaycan Prezidenti İlham Əliyevin siyasət fəlsəfəsi və strategiyası bu məqsədlərə çatmaq üçün zəruri zəmin yaradır.

5. Azərbaycan Prezidenti İlham Əliyevin modernləşmə xətti, Azərbaycanda postsənaye cəmiyyətinin və güclü dövlətin qurulması strategiyası ümummilli liderin ideyalarının ardıcıl transformasiyası və həyata keçirilməsidir. Bu transformasiya post-sənaye cəmiyyətinə doğru hərəkət, güclü sosial siyasətə, innovasiya və informasiya texnologiyalarının inkişafına əsaslanan milli vətəndaş cəmiyyətinin inkişafı və tərəqqisinə səmtləşmiş iqtisadiyyata və bilik cəmiyyətinə keçid strategiyası vasitəsilə təmin olunur. Burada habelə siyasi, iqtisadi transformasiyalar və ictimai biliklərin, elmin, təhsilin və mədəniyyətin (mənəviyyatın) inkişafı arasında ayrılmaz əlaqə vurğulanır.

Azərbaycançılığın mühüm tərkib elementlərindən olan tolerantlıq və multikulturalizm isə nəinki ölkəmiz, bütövlükdə dünya üçün sabitlik və inkişaf baxımından önəm daşıyır. Azərbaycanda dövlət siyasətinin bu əsasda yürüdülməsi konkret tədbirlərdə öz əksini tapmışdır. 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunmuşdur.

Azərbaycan dövləti və Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə mədəniyyətlər arasında dialoqun qurulması məqsədilə "Bakı prosesi" təşəbbüsü irəli sürülmüşdür. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsi heç də təsadüfi deyil. Ölkəmizdə fərqli milli, dini mənsubiyyəti olan icmalar, müxtəlif millətlərin nümayəndələri qarşılıqlı əməkdaşlıq və mehriban şəraitdə tarix boyu yaşamış və bu gün də yaşayırlar.

"Bakı prosesi" çərçivəsində ilk dəfə 2008-ci ilin 2-3 dekabr tarixlərində Bakıda keçirilmiş Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin

"Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsinin iştirakı ilə yeni bir formatın əsası qoyuldu. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda Azərbaycanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, beləliklə də, sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin və bu prosesin uğurla davam etdirilməsi məqsədilə Azərbaycan tərəfindən təklif edilən "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulmuşdur.

"Bakı prosesi"nin davamlılığını təmin etmək məqsədilə 2009-cu ilin 13-15 oktyabr tarixlərində Bakıda keçirilmiş islam ölkələri mədəniyyət nazirlərinin VI konfransına Azərbaycanın təşəbbüsü ilə islam ölkələri ilə yanaşı, 10-dan artıq Avropa dövləti də dəvət olundu. Azərbaycan tərəfindən atılan bu addımlar beynəlxalq tədbirlərin iştirakçılarının tərkibinin müəyyənləşdirilməsinə yeni ənənələr gətirmiş oldu. Konfrans çərçivəsində tədbirdə iştirak edən Avropa Şurasına üzv dövlətlərlə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında "Mədəniyyətlərarası dialoq" mövzusunda dəyirmi masa keçirilmiş və birgə kommunike qəbul edilmişdir.

2010-cu ildə isə bu regional təşəbbüs qlobal hərəkata çevrilməyə başladı. 2010-cu ilin 23 sentyabrında BMT Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşəbbüsü elan edildi. Nəticədə, 7-9 aprel 2011-ci il tarixlərdə Bakıda 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu yüksək səviyyədə təşkil edildi [8, s.4-5] və ənənəvi hal aldı.

Azərbaycan həm də qısa müddət ərzində Birinci Avropa Oyunlarının (2015) və Dördüncü İslam Həmrəyliyi Oyunlarının (2017) keçirildiyi ölkədir. Bu, o deməkdir ki, Azərbaycanda həyata keçirilən modernləşmə siyasətinin təsir dairəsi ölkə sərhədlərindən çox-çox uzaqlarda əks-səda doğurur.

Nəzəri baxımdan yanaşdıqda B.Parexin izahına əsasən, multikulturalizmə görə heç bir siyasi doktrina və ya ideologiya insan həyatı barədə tam həqiqəti təsvir etmir. Liberalizm, mühafizəkarlıq, sosializm, millətçilik ideologiyalarının hər biri müəyyən mədəniyyəti təmsil edir, hər birinin yaxşı həyat barədə öz təsəvvürləri və öz çatışmazlıqları var. Bu səbəbdən də mədəniyyətlərarası dialoq bu prosesdə iştirak edən bütün mədəniyyətlər üçün faydalıdır. Dialoq mədəniyyətlərə öz məhdudiyyətlərini görməyə, onları azaltmağa və daha geniş düşünməyə imkan yaradır [14, s.80-92]. Həqiqətən də məhz qarşılıqlı əlaqə, dialoq şəraitində mədəniyyətlər daha da zənginləşir, yeni çalarlar qazanır, ən əsası isə daha tolerant və humanist olur.

Azərbaycan müxtəlif mədəniyyətlərə açıq ölkə olmaqla bərabər, biz bu sahədə də dövlətin mühafizəkar siyasətini müşahidə edə bilərik. Bunun ən qabarıq nümunəsi Azərbaycan mədəniyyət incilərinin UNESCO-nun maddi və qeyri-maddi irs siyahılarına salınması və onların qorunması üçün digər tədbirlərin görülməsidir. Bakı şəhərinin tarixi mərkəzi olan İçərişəhər memarlıq kompleksi 2000-ci ildə, Qobustan dövlət tarixi-bədii qoruğu isə 2007-ci ildə Ümumdünya irsi siyahısına salınmışdır. Habelə Azərbaycan xalçatoxuma və xalçaçılıq sənətinin, muğam, aşıq sənətinin, tar ifaçılıq sənətinin, kəlağayısının, dolma hazırlama və paylaşma ənənəsinin, lavaşın, Lahıc misgərlik sənətinin və s. UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınması dövlət səviyyəsində milli mədəniyyətin və dəyərlərin qorunub saxlanmasına göstərilən diqqət sayəsində mümkün olmuşdur. Məhz bu mühafizəkarlıq mövqeyi azərbaycançılıq ideologiyasının tərkib elementlərindəndir.

Azərbaycançılığın konsepsiya kimi işlənib hazırlanmasında xidmətləri olan N.Şəmsizadənin fikrincə, milli ideologiya tipi kimi azərbaycançılığın şərtləri bunlardır: maarifçilik yolu ilə inandırma, tarixi əsaslandırma, təşkilatlandırma, istiqamətləndirmə və yenini yaratma [11].

Onun fikrincə, azərbaycançılıq dövlətçilik yolu ilə siyasi status alır və bu zaman aşağıdakı prinsipləri irəli sürür:

- Milli-siyasi özünüdərkə və siyasi şüurun təkamülünə yardım edir.
- İctimai münasibətləri sistemləşdirir, cəmiyyətin siyasi strukturlaşmasını təmin edir.
- Tarixi proseslərin xarakterinə istinadən dövlətin legitimliyini əsaslandırır.
- Cəmiyyətə uyğunlaşmır, onu yenidən yaradır, tarixi prosesləri izah edir və proqnozlaşdırır.
- Bütün bunlar əsasında uğurlu idarəçilik elmi kimi intensiv təkamül keçirir.

Beləliklə, əksər tədqiqatçılar Azərbaycanın inkişafı, modernləşməsi baxımından ən uğurlu ideoloji təməl olaraq azərbaycançılıq ideologiyasını əsas göstərirlər. Yanaşmalardakı əsas fərq isə azərbaycançılığın tərkib elementləri, onun prinsip və hədəfləri ilə bağlıdır. Başqa sözlə desək, azərbaycançılıq elə bir məfhum, anlayışdır ki, onun mahiyyətini yalnız bir cümlə ilə ifadə etmək mümkün deyil. Bu anlayış özündə dəyər və baxışların, ideya və məqsədlərin bütöv bir kompleksini cəmləşdirir.

Azərbaycançılığın mahiyyətinin dərk olunmasında subyektiv amillərin rolu özünü kifayət aydın göstərir, yəni fərddən asılı olaraq bu anlayış müxtəlif məzmunlarda qavranılır. Termin olaraq "azərbaycançılıq" dedikdə, hər kəs Azərbaycan üçün faydalı, zəruri bildiyi dəyər, prinsip və hədəfləri önə çəkir. Bu fərqlərin meydana gəlməsi isə təbii və hətta qarşısıalınmaz haldır.

Ona görə də vahid ideologiya ətrafında birliyin, müəyyən fikir

həmrəyliyinin yaradılması məqsədilə azərbaycançılığın ən ümumi konturlarını cızmaq olar. Ən ümumi və hər kəsin məqbul saya biləcəyi prinsiplər olaraq dövlətçilik, vətənpərvərlik, müasirləşmə, inkişaf, milli identikliyin, mənəvi və mədəni dəyərlərin qorunması, tolerantlıq, multikulturalizmi göstərə bilərik.

Bütün sadalananları nəzərə alaraq Azərbaycanın milli modernləşmə modelini "azərbaycançı modernləşmə" adlandırmağı təklif edirik. Azərbaycançı modernləşmə ideya-fəlsəfi cəhətdən azərbaycançılığın mahiyyətini təşkil edən dəyər və prinsiplərə əsaslanmaqla inkişafı, müasir dünya ilə ayaqlaşmağı, milli dəyərləri qoruyub saxlamağı və milli dövlətçiliyi möhkəmləndirməyi nəzərdə tutur. Milli modernləşmə modelini liberal, mühafizəkar, neokonservativ və s. deyil, məhz azərbaycançı modernləşmə adlandırmaqda məqsədimiz cəmiyyət daxilində ideoloji qütbləşmə (məsələn, ABŞ-da demokratlarla respublikaçılar, Rusiyada mühafizəkarlarla liberallar arasında siyasi-ideoloji qarşıdurma yaşanır) yarada biləcək terminlərdən qaçmaq və milli birliyi möhkəmləndirən modernləşmə konsepsiyası irəli sürməkdir. Bu konsepsiyanın məhz azərbaycançı modernləşmə adlandırılmasının çatışmayan cəhəti isə onun gələcəkdə inkişaf modeli kimi xaricə ixracının çətinləşməsidir. Çünki bu ad yalnız bir ölkəyə – Azərbaycana şamil edilə bilər. Bu model həm ad, həm də məzmun olaraq Azərbaycan üçün nəzərdə tutulmuşdur. Azərbaycanın modernləşmə modeli başqa ölkələrə məhz milli model olması ilə nümunə ola bilər. Bu, o deməkdir ki, modernləşmə xətti yürüdən ölkələr yamsılama təfəkküründən azad olaraq özlərinin milli modelini formalaşdırmaqla daha uğurlu inkişafa nail ola bilərlər.

Yekun olaraq aşağıdakı nəticələrə gəlirik:

1. Azərbaycan özünün modernləşmə siyasətində beynəlxalq təcrübədən yararlanmaqla özünün tarixi, mədəni irsindən də faydalanmalı, siyasi, iqtisadi, mədəni qloballaşma proseslərində iştirak etməklə bərabər özünün milli identikliyini, suverenliyini qoruyub saxlamağa çalışmalıdır. Bunun üçün ənənəvilik və müasirliyi, ən müxtəlif ideoloji cərəyanların bir sıra xüsusiyyətlərini, milli dövlətçilik prinsiplərini özündə birləşdirən azərbaycançılıq ən uğurlu ideoloji modeldir.
2. Milli ideologiya dedikdə, heç də statik, dəyişməz, doqmatik ideya və prinsiplər toplusunu deyil, əksinə, dövrün tələblərinə, qlobal, regional və milli çağırışlara, inkişaf prosesinin gedişatına, dövlətin mənafelərinə uyğun olaraq daim dəyişən, yeniləşən, dinamik bir ideoloji sistemi nəzərdə tuturuq.
3. Azərbaycançılıq ideologiyası da daim yenilənməyə, zənginləşməyə və zamanın tələblərinə uyğunlaşmağa açıq olmalıdır. Bu isə tədqiqatçılardan bu sahədə yeni-yeni təhlillər aparmağı, cəmiyyətin

"ideoloji nəbzini" mütəmadi olaraq yoxlamağı, ölkəmiz üçün ən mükəmməl konsepsiyanın işlənib-hazırlanmasına daim səy göstərməyi tələb edir.

**ƏDƏBİYYAT**


1. Cəmiyyət. İdeologiya. Təfəkkür / Red. heyəti sədri Y.Rüstəmov, Bakı, 2004, 202 s.
2. *İsmayılov D.* Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, 344 s.
3. *Mehdiyev R.* Yeni dünya nizamı və milli ideya. Bakı: Şərq-Qərb, 2016, 280 s.
4. *Mehdiyev R.* Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi // Elmi əsərlər, Bakı, 2011, №1 (16), s. 446
5. *Mehdiyev R.* Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001, 276 s.
6. *Məmmədzadə İ.* Azərbaycansayağı modernləşmə haqqında // Azərbaycan bu gün və sabah. Bakı, 2008, № 2, s. 6-9
7. *Məmmədzadə İ.* Müasir dünya fəlsəfəsi kontekstində Azərbaycan fəlsəfəsinin əsas prioritetləri haqqında // Elmi əsərlər, 2015, №2 (25), 331 s.
8. "Mədəniyyət" qəz., Bakı,13 may 2015, s. 4-5
9. *Nəsibov E.* Azərbaycanın siyasi modernləşməsi prosesində Heydər Əliyevin rolu / Ümummilli lider Heydər Əliyev və milli dövlətçiliyimizin inkişafı məsələləri. Elmi-nəzəri konfransın materialları. Bakı, 2006, 364 s.
10. *Səttarov M.* İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı, 2000, 198 s.
11. *Şəmsizadə N.* Azərbaycançılıq dünya azərbaycanlılarının milli ideologiyasıdır / "Xalq" qəz., 10 aprel 2006, s. 3-4
12. *Tağıyev Ə.* Milli ideya və ideologiya: problemlər və onların şərhi. Bakı: 2000, 99 s.
13. *Гасанова С.* Проблема переоценки нравственных ценностей в эпоху глобализации и модернизации // Elmi əsərlər, Bakı, 2011, №1 (16), 446 s.
14. *Парех Б.* Переосмысляя мультикультурализм: культурное разнообразие и политическая теория / Хрестоматия по дисциплине современная политическая философия: либерализм, коммунитаризм, мультикультурализм / Под ред. М.Б.Хомякова, Екатеринбург, 2007, 158 с.
15. https://azertag.az/xeber/AZARBAYCAN_PREZIDENTI_ILHAM_ALIYEVIN_NITQI-441055
16. http://www.president.az/articles/2709?locale=en

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 180-186
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 180-186
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 180-186

***UOT 94 (479.24)***

***E.K.Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*suleymanova.elmira1954@mail.ru*

# QAZAX SULTANLIĞININ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

***Açar sözlər:*** *Odlar Yurdu, Qazax, Şəmsədil, Borcalı*

Məqalədə XVII-XIX əsrlədə Azərbaycan Respublikasının Qazax, Ağstafa, Tovuz, qismən Gədəbəy rayonları, indiki Ermənistan Respublikasının İcevan (Karavansaray), Noembriyan (Barana), Berd (Şəmşəddin), Krasnoselsk (Qaraqoyunlu), Dilican rayonlarının ərazisində, indiki Gürcüstan Respublikasının Marneuli (Borçalı bölgəsi) rayonun bir hissəsində mövcud olmuş Qazax sultanlığının inzibati-ərazi bölgüsünün mahiyyəti və sistemi tədqiq olunur.

Tarixi faktların, sənədli mənbələrin, elmi tədqiqatların, toponim və etnonim adlarının analizi bu ərazilərdə qədim zamanlardan türk inzibati-ərazi bölgüsünün və idarəçiliyin mövcudluğunu sübut etməyə imkan verir. Sənədlərin tədqiqi araşdırmaları göstərir ki, bu ərazilər ilkin sivilizasiya dövründən oğuz türklərə məxsusdur.

***Э.К.Мамедова***

# АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ ДЕЛЕНИЕ КАЗАХСКОГО СУЛТАНСТВА

***Кючевые слова:*** *Страна Огней, Газах, Шамшадиль, Борчалы*

В статье исследуется сущность и система административно-территориального деления и управления в Казахском султанстве, существовавщего с XVII до XIX веков на территории Казахского, Акстафинского, частично Кедабекского районов Азербайджанской Республики, Иджеванского (Каравансарай), Нояберянского (Барана), Бердского (Шамшаддин), Красносельского (Гарагоюнлу), Дилижанского районов Армянской Республики, некоторой части Марнеульского района (Борчалы) Грузинской Республики.

Анализ исторических фактов, документальных источников, исторических исследований, а также названий топонимов и этнонимов, позволяет установить наличие здесь издревле тюркской системы административно-территориального деления и управления. Материалы анализа указывают на принадлежность этих территорий с самых очагов цивилизации тюркам-огузам.

**E.K.Mamadova**

## ADMINISTRATIVE AND TERRITORIAL STRUCTURE OF THE KAZAKH SULTANATE

***Keywords:*** *Land of Fires, Gazakh, Shamshadil, Borchali*

The article examines the nature and system of administrative-territorial division and management in the Kazakh sultanate, which existed from the XVII to the XIX centuries in the Kazakh, Agstafa, partially Kedabek districts of the Azerbaijan Republic, Ijevan (Karavansaray), Noyberyansky (Baran), Berdsky (Shamshaddin), Krasnoselsky (Garagoyunlu), Dilijan districts of the Armenian Republic, some part of the Marneuli district (Borchali) of the Georgian Republic.

Analysis of historical facts, documentary sources, historical studies, as well as names of toponyms and ethnonyms, allows to establish the existence here since ancient times of the Turkic system of administrative-territorial division and management. The materials of the analysis indicate the belonging of these territories from the very foci of civilization to the Oguz Turks.

“Azərbaycan” adlanan Ana vətənimiz – Odlar Yurdunun torpaqları yalnız Azərbaycan Respublikasının indiki sərhədləri hüdudlarında olmamışdır. Geniş əraziyə malik olmuş Azərbaycanın sahəsi hələ qədim zamanlardan XIX əsrin birinci rübünə qədər təxminən 421,6 min km$^2$-dən ibarət idi (7, s.36). Buraya Cənubi Azərbaycanın 280 min km$^2$, Azərbaycan Respublikasının 86,6 min km$^2$, Cənubi Dağıstanın 10 min km$^2$, Ermənistan Respublikasının (Qərbi Azərbaycan) 29 min km$^2$, Türkiyə Respublikasının Qars vilayəti 6 min km$^2$, Gürcüstan Respublikasının şimal-şərqində yerləşən 10 min km$^2$ ərazilər daxil idi.

Göründüyü kimi, Azərbaycanın tarixi coğrafiyası müasir Şimali İranın, Azərbaycan, Naxçıvan Muxtar, Ermənistan respublikalarının və eləcə də Türkiyə Cümhuriyyətinin Qars vilayəti, Rusiya Federasiyasında – Dağıstanın cənub hissəsi (Dərbənd) və Gürcüstanın şimal-qərb rayonlarının ərazisi ilə əhatə olunurdu.

Burada Vətən torpağımızın hər bir guşəsinə xalq tərəfdən ad qoyulmuşdur. Bu adlar da Vətən torpağının hər parçası kimi doğma və əzizdir. Ona görə ki, bu adlarda xalqın tarixi ünvanı həkk olunmuşdur. İlk növbədə, burada ulu babalarımız əvvəlcə qəbilə, sonralar tayfa, tayfa ittifaqı, etnos kımi məlum olan adları bu və ya digər etnonimin yaranmasında öz xüsusiyyətlərinin əksini tapır, həmçinin həmin yerin təbii görünüşü və relyefi əcdadlarımızın öz dadı-duzu, şirinliyi ilə zəngin idrak və təxəyyülünün məhsulu olan toponimlərdə daha geniş təsəvvür yaradır və oykonimə çevrilir.

Bu torpaqlarda dədə-babadan Azərbaycan türkləri yaşayıb-yaratmışlar. Bu torpaqlarımızda oğuz igidlərinin hay-harayını, döyüşən qılıncların

sədalarını, axan suların şırıltısını, şahanə atların nal səslərini "Kitabi-Dədə Qorqud"un koloritli, pak və təravətli sətirlərindən aydın eşidirik.

İkinci bir həqiqət odur ki, ölkəmizin ərazisində yaşayış yerin, xalqların, millətlərin, qəbilələrin, qəbilə birliklərinin və etnik birliklərin və şəxs adlarından törəmiş coğrafi adlar bütövlükdə türk mənşəli sözlərdir. Azərbaycan onomastikasının müxtəlif sahələrindən – toponim, etnonim, oykonim, antroponim və s. şəkildə işlənilən bu xüsusi adlar ölkəmizin hər guşəsindən keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır, tarixin canlı şahidləridir.

Türk mənşəli koloriti ilə dolu dövrlərdən biri də XVIII əsrin ikinci yarısında mövcud olmuş xanlıqlar dövrüdür. Bu dövrdə ölkənin siyasi quruluşunda mərkəzləşmiş monarxiya dövləti feodal-pərakəndə monarxiyalarla əvəz edilır. Həmin dövrdə Azərbaycanin tarixi ərazisində 20 xanliq, 8 sultanlıq, 5 məliklik və Car-Balakən camaatları kimi iri, orta və xırda feodal dövlət qurumları yaranır. Bunlar:

Bakı, Qarabağ, Şəki, Şamaxı, Gəncə, Dərbənd, Quba, Salyan, Cavad, Lənkəran, Naxçıvan, İrəvan, Təbriz, Qaradağ, Maku, Xoy, Sərab, Salmas, Urmiya, Ərdəbil xanlıqlardır;

Ərəş, İlisu, Qəbələ, Qazax, Şəmşəddil, Pəmbək, Şoraqel, Borçalı, Çors Qarabağlar sultanlıqlardır;

Xaçın, Vərəndə, Cöləbörd, Dizaq, Gülüstan məlikliklərdir;

Car, Çalakən, Muxax, Tala, Saxur, Kaxet, Çənik camaatlarıdır.

Bu dövlət qurumlarının hökmdarları xan, sultan, məlık titulları daşıyırdı və feodal nərdivanı çərçivəsində xan titulu yuxarıda durduğu üçün həmin XVIII əsrin ikinci dövrü həm də xanlıq Azərbaycanı dövrü kimi adlanır.

Xanlıq Azərbaycanın siyasi quruluşunun tərkib hissəsi olan Qazax tarixən Azərbaycanın "qərb qapısı" kimi adlandırılırdı. Ölkəmizin inzibati-ərazi sistemində Qazax vaxtilə oymaq, sultanlıq, sonralar isə qəza mərkəzi olmuşdur. 1909-cu ildən şəhər statusu almış, hazırda isə rayon mərkəzidir.

Gürcü (8, s.55) və erməni (2, s.11-15) tədqiqatçıları Qazax torpaqlarını əzəli, əbədi gürcü və erməni torpağı kimi qələmə verirlər. Bu da əsrlər boyu Azərbaycanla, sonralar isə sultanlıq dövründə onun ərazisinin taleyinin bir hissəsi Gürcüstanla, o biri hissəsi isə Ermənistanla sıx bağlı olan müddətin nəticəsidir.

Tarixi Qazax geniş bir ərazini əhatə edirdi. Bu əraziyə:

- Azərbaycanın indiki Qazax, Ağstafa, Tovuz, qismən Gədəbəy rayonları,
- indiki Ermənistanın bir hissəsi – Karavansaray (İcevan), Barana (Noembriyan), Şəmsəddin (Berd), Qaraqoyunlu (Krasnoselsk), Dilican
- indiki Gürcüstanın Borçalı bölgəsi daxil idi.

Əsrlər ərzində bu diyar sasanilərin, bizansların, ərəblərin, türk-səlcuqların, gürcülərin, monqolların, timurilərin təsiri altında olmuşdur (4, s.134) . Lakin bütün mənbələrdə (istər folklor, istərsə də yazı) Qazağın varlığı Azərbaycanın tarixi ərazisinin ayrılmaz hissəsi kimi göstərilir. Bütün bu dövrlərdə bölgənin kimə tabe olmasına baxmayaraq o, türk məskəni sayılırdı. Demək olar ki, bütün orta əsr salnaməçiləri bu ərazini türklərin yaşadığı yer kimi təsvir edir. Türklərin tarixən burada cəm şəkildə məskun olduğu halda, Qazağın ərazisi sultanlıq yaranana qədər el, oba, mahal, bölgə, vilayət və s. Anlayışları da işlənilirdi. Məsələn, gürcü salnaməçiləri bölgəni "Didi Türkoba" ("Böyük türk obası") adlandırırdılar. Bu diyarın türk keçmişini türkdilli toponimikası da təsdiq edir (5, s.24).

«Qazax» termini həm toponim, həm də etnonim formasında işlənilir. «Qazax» toponimi ta qədimdən Cənub Qafqazda yaşayan türk tayfalarından birinin «qazaxların» adı ilə bağlıdır. Yazı mənbələrdə ilk dəfə «Qazax» adına ərəb tarixçisi Al-Kufinin əsərində, VII əsrin hadisələrini təsvir edən zaman rast gəlinir. Onun adı böyük bir türk qəbiləsinin adı ilə bağlı idi.

Mərhum akademiklər Z.M.Bünyadovun (1, s.35) və V.F.Minorskinin (6, s.75) rəylərinə əsasən, Qazax Azərbaycanın qədim yaşayış məntəqələrindən biri olsa da, onun şəhər kimi əsası VIII əsrdə ərəb sərkərdəsi Mərzban İbn Məhəmməd tərəfindən qoyulmuşdur. Artıq IX-X əsr qaynaqlarında Qazax adı ilə bu yaşayış məntəqəsinin müsəlman şəhəri kimi mövcudluğu barədə xeyli məlumatlar vardır.

XII əsrdə qazaxlı tayfası bölgədə böyük siyasi qüvvəyə çevrilir. Çünki bu zaman qıpçaq xaqanın qızı ilə evlənən gürcü çarı IV Davidin 1118-20-ci illərdə Qazax-Borçalı torpaqlarında Gürcü çarlığının sərhədlərinə 45 min qıpçaq ailəsinin yerləşdirilməsinə təşəbbüs göstərmişdir. Köçürülmüş qıpçaqlar arasında əksər hissəni qazax tayfaları təşkil edirdi. Onlar vaxtilə şimali Qazaxıstan çöllərindən qərbə tərəf hərəkət edib Dunay çayına qədər geniş ərazilərdə məskunlaşmış və burada qıpçaq xaqanın hərbı qulluğunda xıdmət edirdilər. XII əsrdə qıpçaq xaqanı Atrark onların böyük qismını gürcü çarı IV Davidin hərbi xidmətinə göndərmişdi. Burada həmin tayfalar yerli qazaxlı tayfası ilə birləşıb böyük bir hərbi-siyasi qüvvəyə çevrilmışdi. Belə yolla artmış qazaxlı tayfası güclü hərbi potensial kimi imtiyazlara malik idi, vergilərdən azad idi, gürcü çarları tərəfindən həm xarici düşmən ilə mübarizədə, həm də bəzi itaət etməyən feodallar ilə mübarizədə istifadə olunurdu. Hətta eyni zamanda gürcü çarları gürcü əhalisinin böyük bir hissəsini hərbi xidmətdən azad etmişdi.

XV əsrdə Qazax ölkə kimi mənbələrdə göstərilir. Artıq təqribən XV əsrin sonlarında Qazax sultanlığı yaranır. XVI əsrdən Səfəvilər imperiyası dövründən başlayaraq Qazax sultanlığı Qarabağ bəylərbəyliyinə daxil idi. Ümumiyyətlə, Qazax sultanlığının hakimləri sultan titulu daşıyırdılar

və irsi hakimiyyətə malik idilər. Qazax sultanlığına 3 feodal sülaləsinin nəsli rəhbərlik etmişdir:

- Şıxlinskilər,
- Sübhanverdilər,
- Kosa Mirzəlilər

1-ci feodal sülaləsi Şıxlinski nəslinə "Qazaxlı" və ya "Alqazaxlı" da deyirdilər. Bu sülalənin hakimləri – Nəzər xan, Şəmsəddin xan, Mirəli bəyin dövrü Qazax sultanlığının ən nüfuzlu dövrüdür. XVI əsrin 80-cı illərində osmanlı və gürcü ordusunun təzyiqi ilə səfəvilər Azərbaycanı tərk etdikdə Bayat, Qaçar, Qaramanlı və başqa tayfalardan fərqli olaraq Qazaxlar öz ərazilərini tərk etmədilər. Sultanlığın başçısı Nəzər xan türklərin hakimiyyətini qəbul etmiş və bununla da ölkənin müstəqilliyini əldə saxlamışdır. İkinci dəfə Azərbaycan, o cümlədən Qazax mahalı yenidən səfəvilərin hakimiyyəti altına keçəndən sonra da Nəzər xan hakimiyyətdə qalmışdır. Hətta onun xələfi Şəmsəddin xan 1605-ci ildə I Şah Abbasdan xan rütbəsi almışdır.

XVIII əsrin əvvəllərində Osmanlılar yenidən hücum edib Qazaxı aldıqdan sonra Qazaxda inzibati ərazi bölgüsü aparmışlar. Belə ki, Qazax sancaq elan edilərək 4 nahiyəyə bölünmüşdür:

- Axtata
- İncə
- Türk
- Cuvar

Osmanlı sultan III Əhmədin (1703-1730) fərmanı ilə Qazax Sancaqbəyisi Qazax hakimi Mirəli bəy təyin olunmuşdur.

1728-ci ildə Osmanlı hökumətinin tərtib etdiyi "Dəftəri müfəssəli əyaləti Tiflis" dəftəri 1046 səhifədən ibarət olub hazırda İstanbulda Başkanlıq arxivində saxlanılır. Bu dəftərin 63 səhifəsi Qazax sancaqlığına aiddir. Dəftərə görə Şixlınskilərin hakimiyyəti dövründə Qazax sancaqlığında 205 kənd, 10 qışlaq və 5 köçəri tayfa qeydə alınmışdır.

II feodal sülalə səfəvi sərkərdəsi Sübhanverdi xanın hakimiyyəti dövrünü əhatə edir. Osmanlı sultanı III Əhmədin (1703-1730) dövründə qazaxlılar osmanlıların tərəfinə keçdiyinə görə Səfəvilər yenidən Qazaxı geri alarkən "Qazaxlı" tayfasını rəhbərlikdən azad etmiş, onların əvəzinə Sübhanverdi xan adlı sərkərdəni Qazaxa sultan təyin etmişlər. Həmin dövrdə Qazax sultanlığı yenidən Qarabağ bəylərbəyliyinə tabe edildi. Sübhanverdi xan Qazax sultanlığına Səfəvilər dövlətinin süqutuna qədər hakimlik edirdi.

III feodal sülalənin nəsli Salahlıda bəylik edən Kosa Mirzəlı ağanın nəslidir. Bu sülalənin hakimiyyətə gəlməsi 1736-cı ildə Nadir şahın Muğanda özünü şah elan etməsi ilə bağlıdır. Qarabağ bəylərbəyi Uğurlu xan Ziyad oğlu Nadir şahın hakimiyyətinə öz etirazını bildirdi. Bu səbəbdən Nadir şah taxta

əyləşdikdən sonra onun nüfuzunu zəiflətmək üçün Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarını Qarabağ bəylərbəyinin tərkibindən çıxarmış və onları öz vassalı Kaxetiya çarı Teymurazın tabeliyinə vermişdir.

1752-ci ildə Qazax sultanlığı II İraklini məğlub edən Şəki xanlığına birləşdirildi, lakin Şəki xanı Hacı Çələbinin vəfatından sonra sultanlıq yenidən II İraklinin vassallığına keçdi və ərazi Qazax-Şəmsədil sultanatı adı ilə adlandırılmağa başladı. II İraklinin fərmanı ilə 1774-cü ildə Qazax sultanlığına rəhbərliyə Salahlıda bəylik edən Kosa Mirzəli ağanın nəslindən olan Pənah bəy rəhbər (vəkil) təyin edilmişdir (bu tayfa sonralar Vəkilov familiyasını qəbul etmişdir). Bununla sultanlığın III feodal sülaləsinin hakimiyyəti başladı.

1795-ci ildə İran şahı olan Ağa Məhəmməd Qacar şahın qoşunları Gürcüstana hücum edəndə qazax azərbaycanlıları gürcülərin tərəfində çıxış etmiş və onlarla birlikdə zəhmli şahın qoşunu ilə cəsarətlə döyüşmüşlər. 1801-ci ildə Qazax-Şəmsəddil sultanatı Gürcüstan ilə birgə Rusiyanın tərkibinə qoşulmuşdur. Qazax-Şəmsəddil sultanatı 1819-cı ildə ləğv olunmuş və onun ərazisi Qazax və Şəmsəddil distansiyalarına bölünmüşdür.






Göstərdiyimiz kimi, türklərin qədim yaşayış məntəqələrindən biri Qazax Azərbaycanın "qərb qapısı" olmuş və olmaqdadır. Lakin Qazağın tarixi ərazisi vaxtı ilə parçalandığına görə bu gün onun ərazisi şimal-şərqdən Gürcüstanla, şərqdən və şimaldan Ağstafa rayonu ilə, cənub və cənub-qərbdən Ermənistanla öz tarixi əraziləri ilə həmsərhəddir. Halbuki vaxtilə onun ərazısı indiki Tovuz, Ağstafa, Qazax rayonlarını, Gürcüstanın Qardabani rayonunun bir neçə kəndini və sovet dövründə Ermənistana verilmiş keçmiş Azərbaycan torpaqları olan Dilican dərəsi və Göyçə gölünə qədər əraziləri əhatə edirdi. Bu həqiqətləri biz unutmayaq ki, unudulmayaq.

## ƏDƏBİYYAT


1. *Bunyadov Z.M.* Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, 424 s.
2. *Еремян С.Т.* Армения и сопредельные страны в 591-653 гг, в 701-862 гг, в 862-953 гг. Карты. Ереван, 1983
3. *Мюнши И.* Тарих-и алем ара лит. Тегеран, 1914
4. *Петрушевский И.П.* Очерки истории феодальных отношений в Азербайджане и Армении в XV – начале XIX вв. Л., 1949
5. *Ömərli V.* Qarayazı: 2 hissədə, I hissə. Bakı, 2001
6. *Минорский В.Ф.* История Ширвана и Дербента. М., 1975, 75 с.
7. *Məmmədova E.K.* Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2016
8. *Мусхелишвили Д.Л.* Из исторической географии Восточной Грузии. Тбилиси, 1982

***UOT 390***

***Z.M.Qəniyeva***
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*zehra.qeniyeva@mail.ru*

# TÜRK QADINLARININ AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ HƏYATINDA TARİX BOYU MÖVQEYİNƏ DAİR

***Açar sözlər:*** *qadın, əsər, münasibət, mövqe, Azərbaycan*

Məqalədə müasir Azərbaycan cəmiyyətində qadınların yeri və rolu müzakirə olunur. Bu baxımdan qadının məqsədini, sosial vəziyyətini və cəmiyyətdəki rolunu anlamaq üçün tarixi və fəlsəfi yanaşma təhlil edilir. Tədqiqat göstərir ki, nəcib qadın obrazı nəinki sosial vəziyyətə xələl gətirmədi, həm də siyasi proseslərdə çox əhəmiyyətli rol oynadı.

***З.М.Ганиева***

## О РОЛИ ТЮРКСКИХ ЖЕНЩИН НА ПРОТЯЖЕНИИ ВСЕЙ ИСТОРИИ В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова***: *женщина, произведение, отношение, положение, Азербайджан*

В статье рассматривается вопрос о месте и роли женщины в современном азербайджанском обществе. В этой связи анализируется историко-философский подход к пониманию предназначения женщины, её социального статуса и роли в обществе. Исследование показывает, что образ благородной женщины не только не была ущемлена в социальном статусе, но могла играть весьма значительную роль в политических процессах.

***Z.M.Ganiyeva***

## ABOUT THE ROLE OF TURKISH WOMEN THE ENTIRE HISTORY IN THE SOCIO-POLITICAL LIFE OF AZERBAIJAN

***Keywords:*** *woman, composition, attitude, position, Azerbaijan*

The article examines the issue of a woman’s place and role in the modern Azerbaijan society. In this connection the historical and philosophical approach to the understanding of a woman’s mission, her social status and role in the society is analyzed. The research shows that the noble woman “goryanka” not only was not infringed in social status, but in fact was able play a very significant role in the political process.

Ən qədim zamanlardan cəmiyyətin mahiyyətini, əsasını qadına münasibət təşkil edir deyə, belə bir fikir formalaşmışdır. Bu da təsadüfi deyildir. Cəmiyyətdə, yalnız kişinin qadına, qadının kişiyə münasibəti deyil, ümumiyyətlə, qadının mövqeyi, xüsusi rolu, qadına olan münasibət həmişə ön planda olmuşdur.

Qədim Çin filosofu Konfutsi (e.ə. 551- e.ə. 479) demişdir: "Qadın dünyanın ən gözəl və qiymətli varlığıdır".

İstər dini, istər dini-fəlsəfi anlamda qadına münasibət, qadının cəmiyyətdəki mövqeyi daima diqqəti cəlb etmişdir. Əgər Bibliya əfsanələrində ilk bəşəri qadın kişi timsalında təmsil olunursa, şumerlərdə və əski türklərdə dünyanın ana başlanğıcı əsas götürülür. Qədim türklərdə göy kişi timsalı kimi başa düşülürsə, torpaq ana timsalı kimi qəbul edilir. Bu fəlsəfi düşüncə şumerlərdə və eyni zamanda Misirdə də əsas götürülmüşdür [4].

Herodot özünün Tarix kitabında İskit qadınlarının döyüşkənliyindən, cəsarətindən yazır və iskit qızlarının döyüşdə üç düşmən öldürmədən evlənmədiyini vurğulayırdı.

Tarixin atası olan Herodotun kitablarında Azərbaycan cəmiyyətində qadına münasibətə yer verilməsi diqqətə alınan cəhətlərdəndir. "Tomiris əfsanəsi"ndə Tomirisin yüksək nüfuzu, cəmiyyətdə tutduğu yüksək mövqe, cəmiyyəti məharətlə idarə etməsi, vətənini qoruması təkcə həmin dövrdə deyil, eləcə də bütün zamanlarda Azərbaycan xalqının tarixində ən yüksək örnək, şərəf və ləyaqət timsalıdır. Yeri gəlmişkən bir şeyə diqqət yetirmək yerinə düşər. "Tomiris" adı ilə bağlı müxtəlif fikirlər olsa da, bu adın "dəmir" sözü ilə bağlı olması faktı maraqlıdır. Belə bir sual meydana gəlir ki, bəs nə üçün qadına möhkəmlik rəmzi olan dəmir adı verilsin? Bunu dastandakı Tomiris obrazı aydın surətdə cavablandırır. Əgər Tomiris kimi bir sərkərdənin dövrünün tarixi, ictimai-siyasi vəziyyətini diqqətə alsaq, məlum olar ki, o dövrdə qadının hakimiyyətə gəlməsi heç də qeyri-adi bir hal olmamışdır.

Tomirisin çox qüdrətli sərkərdə olan, başçılıq etmək iqtidarında ola bilən övladının olmasına baxmayaraq ərindən sonra onun hakimiyyətə gəlməsi Azərbaycan cəmiyyətində qadının yüksək mövqe tutmağının təsdiqidir.

İslam peyğəmbəri Məhəmməd Peyğəmbərdən soruşurlar ki, öncə kimə ehtiram göstərək? Cavab verir: "Anaya". Bəs sonra kimə? Yenə deyir: "Anaya". Yalnız dördüncü dəfə soruşduqda o, "Ataya" cavabını verir. Bəli, İslam Peyğəmbərinin qadına, anaya münasibəti çox yüksək idi. Müqəddəs kitabımız olan Qurani-Kərimə görə, "Cənnət anaların ayaqları altındadır".

Allah-təala Quranda qadınlar barəsində "Nisa" adlı ("Qadınlar" surəsi) bir surə nazil edib. Burada qadınların hüququ, evlənmə, iffət, idarəetmə, ailə saxlamaq və cəmiyyətin ilkin bünövrəsini yaxşı qurmaq, yəni ailə mühiti, ər-arvad və cəmiyyətin digər üzvlərinin bir-birləri qarşısında olan hüquq və vəzifələri barəsində qanunlara riayət etməyə aid lazımi hökmlər verilib.

Quranın digər surələrindəki ayələrdə də həmçinin bu mövzuda çoxlu göstərişlər qeyd edilir [1].

Azərbaycan-türk dünyasının yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud"da deyilir: "Ana haqqı, Tanrı haqqıdır". Ananın, qadının bu dərəcədə yüksək tərənnüm olunduğu "Qurani-Kərim"dən sonra ikinci belə mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Bu kəlamlar bəşər mədəniyyətində qadınların yerini ətraflı əks etdirir. Müdriklər söyləmişlər ki, elm və tərbiyənin ibtidası qadınlardan başlayır. "Kitabi-Dədə Qorqud" dastanı belə qadınları tərənnüm etmiş, tarixdə yaşatmışdır. Türk qadınları və onların xələfləri Tuti Bikə, Qürrətüleyn, Ceyran xanım, Həcər kimi qadınlar tarix səhifələrində qalmış Məhəmməd Zehni Əfəndinin "Məşahirün-nisa", Rzaəddin ibn Fəxrəddinin "Məşhur xatunlar", Mahmud Mirzə Qacarın "Nəqle məclis", Bəhriyyə Uçokun "Müsəlman dövlətlərində qadın hökmdarlar", Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrat-e həsan" və digər əsərlərdə yaşayırlar [2; 3].

Lakin uzun illər antimüsəlman, antitürk ruhlu bəzi mürtəce xristian, Qərb alimləri müsəlman-türk mühitində qadının kölə vəziyyətində yaşadığını müxtəlif məqsədlərlə səsləndirmiş, əsassız olaraq təhrif etmişlər. Lakin hələ orta əsrlərdə Azərbaycan-türk dünyasında qadın hökmdarların, xeyriyyəçi zərif cinsin nümayəndələrinin həyatda olduqlarını onlar xəyallarına gətirə bilməmiş, yaxud gətirmək istəməmişlər. Tarix boyu ictimai-siyasi həyatda müəyyən mövqe tutmuş Qadın övladına müəllim və tərbiyəçi olmuşdur.

XI əsr şairi Qətran Təbrizi öz yaradıcılığında hərəmxana barədə qeyd etmişdir. Hərəmxana orta əsrlərdə varlı ailələrin və xüsusən hökmdarın evi daxilində xüsusi xacələr tərəfindən qorunan qadınlara və kənizlərə aid olan otaq idi. Sonrakı dövrlərdə çoxarvadlılığın aradan qalxması ilə bərabər belə evlərdə bu cür guşələr də ləğv olmuşdur.

Türk qadını öz ağlı və gözəlliyi ilə böyük Azərbaycan klassiki Nizami Gəncəvini düşündürmüş, hökmdar bərdəli Nüşabənin surətini yaratmışdır. Qəzəl janrının Şərq dünyasında məşhur şairi Hafiz Şirazi türk gözəlini vəsf edərkən həyatını təhlükəyə atmış, sonra fateh Əmir Teymurun rəğbətini qazanmışdır.

Orta əsr şairlərinin yaradıcılığına diqqət yetirdikdə, əsərlərində mükəmməl qadın obrazları yaratdıqlarının şahidi oluruq. Nizami yaradıcılığında Məhin banu, Nüşabə, Leyli, Şirin kimi obrazlar ağlı, vəfası, böyüklüyü, müdrikliyi və insanpərvərliyi ilə yüksək mövqe tutan obrazlardır. Nizami qəhrəman qadın obrazlarını heç də kişidən aşağı səviyyədə görmür, əksinə onları bərabərləşdirir və müstəqil, hazırcavab, gözəl, mətin, kişinin həmdəmi kimi təqdim edir. Əfzələddin Xaqani isə ana əməyini yüksək qiymətləndirərək yazır:

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim heç bu şöhrəti.

Onun ruzisilə xoş olar halım,
Onun duasıyla gülər iqbalım.

İstər Nizami Gəncəvinin, istərsə də başqa yazıçı və şairlərimizin əsərlərində qadına münasibətin bariz nümunələrini göstərmək mümkündür. "Sirlər Xəzinəsi", "Xosrov və Şirin", "İsgəndərnamə"də elə örnəklər mövcuddur ki, onlar Azərbaycanda qadınlıq şərəfi və ləyaqəti haqqında ən yüksək fikirlər söyləmək üçün bizə zəngin dəlillər verir.

Nəsimi yaradıcılığında əsasən lirik mövzular əksəriyyət təşkil etdiyindən əsərlərində gözəllərin vəsfi mühüm yer tutur. Onu qeyd edək ki, "Nəsimi lirikasında" romantik məhəbbət ən yüksək formada tərənnüm olunur. Qadın vəfalı, sədaqətli könül həmdəmi kimi təsəvvür edilir. Aşiqə isə tövsiyə olunur ki, belə incə, zərif və vəfalı varlığın etibar və etiqadını doğrultsun, onun yolunda hər cür fədakarlığa hazır olsun". Nəsimi qadına ən gözəl, incə bir məxluq kimi baxır. Romantik ruhlu Nəsimi qadına qəmər üzlü, gül yanaqlı, ənbər saçlı, həq sifətli nigar, pəri, dildar, dilbər, huri və s. kimi xoş sözlərlə müraciət edir. Hətta Nəsimiyə görə, "Qadın ən gözəl və ən yüksək bir varlıqdır. Onun camalı "ilahi hüsnün" təcəllisidir." Ümumiyyətlə, orta əsr müəllifləri qarşılıqlı məhəbbət hisslərini əsas götürərək ailə xoşbəxtliyi və səadətinin də əsasının məhz bunda olduğunu dönə-dönə qeyd edirlər. Belə ki, ailə həyatı qurmaq istəyən hər bir qadın və kişi arasında qarşılıqlı istək, qarşılıqlı sevgi hissi olarsa, o da öz bərabərində qarşılıqlı hörməti, qarşılıqlı güvəni, ehtiramı və həmçinin güzəşti də gətirər.

Bildiyimiz kimi, ailə əski türklərdə önəmli və dəyərli mövqeyə malikdir. Türklərdə ailənin təməlini qadın təşkil edir. Türk qadını daim ailəsində söz sahibi olmuş və yoldaşına daima dəstək olmuşdur. Bu hələ miladdan öncə də belə idi. Avropa, Afrika, Ərəbistanda qadınlar kölə kimi satılsa, qız övladı bəyənilməsə, sevilməsə də türk qadını daima hürr, azad olmuşdur. Qədim türklərdə qadının ailədə sözü keçərli olduğu qədər siyasi və iqtisadi əlaqələrdə, dövlətin idarəsində də söz sahibi olmuşdur. Qadınlar gözəl qılınc oynadar, at minər və güləşərdilər. Qadınlar savaşda, döyüşdə də iştirak edərdi. Uzun əsrlər boyu türk qadını daima əlindən gələn və hətta bacarmadığı işlərin belə öhdəsindən gəlməyi ilə seçilmişdir. Məişətdə digər işlərlə yanaşı, xalça toxumaqla, tikmə sənəti və başqa işlərlə də məşğul olurdular. Bir sənət kimi toxuculuğu qadınlar qızlarına da öyrədirdilər. Ona görə də ailə daxilində qızlar öz cehizlərini müəyyən vaxta qədər hazırlamış olurdular.

Döyüşçü qadınların yüksək mövqeyə malik olduğunu sübut edən faktlara Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı rast gəlinmişdir. 2004-cü ildə arxeoloq Bəhlul İbrahimli Xarabagilanda, Plovdağ adlanan ərazidəki abidələrdə araşdırmalar apararkən döyüşçü (şahzadə) qadın məzarı aşkar etmişdir. Qəbrin böyüklüyü, qadının döyüş əsləhəsi, həmçinin müxtəlif muncuqlardan, tuncdan olan bəzəkləri ilə birgə dəfni onun yüksək

nüfuzundan xəbər verirdi. Mərhumun sol çiynindən içərisində ucluğu dəvə gönü və çaxmaqdaşından düzəldilmiş 14 qarğı ox olan sadaq asılmışdı. Deməli, tarixiliyi, min illər boyu qoruyub saxlayan türk irqi qadına həm döyüşçü, həm də ana kimi yüksək qiymət vermişdir. Azərbaycan türkünün ər və arvad haqqında dediyi heç bir dialektdə, heç bir mədəniyyət və heç bir dildə olmayan belə bir ifadə vardır: "Həyat yoldaşı". Yəni həyatın bütün cəhətlərini bölüşənlər, həyatının hər anında yanında olub bir-birinə hər işdə yoldaşlıq edənlər [7].

Dünyanın bir çox yerində qadının heç bir hüququ olmadığı çağda türk qadınının miras haqqı vardır. Bundan savayı hər bir qadının özünəməxsus mülkü və mülkdən istədiyi kimi istifadə etmək haqqı vardı.

Qədim türklərdə Qadına münasibət nəzərəçarpacaq dərəcədə ehtiramlı, cəngavər səciyyəli idi. Yurta daxil olan oğul əvvəlcə anasına, yalnız bundan sonra atasına təzim edirdi. Orxon kitabələrində Kültiginin qadın qohumlarının ölüm təhlükəsi qarşısında qaldığı Ordanı necə müdafiə etməsi böyük pafosla təsvir olunur. Qadınların hüquqsuz vəziyyətdə olduqları xalqlarda – məsələn, Hindiquşdakı patanlarda düşmənlər onlara əl qaldırmırdılar [3, s.64].

Ümumiyyətlə, qadına münasibət məsələsi qədim dövrlərdən bilavasitə özünü göstərir. Görkəmli tədqiqatçı S.A.Tokarev qeyd edir ki, ailə mənəviyyatına və cinslər arasındakı münasibətlərə islami baxışlarda patriarxal nəslin, quruluşun təsiri özünü əks etdirirdi. Qadın tabe olan varlıq hesab olunurdu. Lakin buna baxmayaraq Quranda qadının insani və vətəndaşlıq hüquqları da tanınır. Kişinin qadına qarşı olan hədsiz zülmkarlığı qınanılır, mülki və irsi hüququnun olduğuna işarə edilir. Ailədə atanın sözü əsas olsa da, lakin bu bütünlüklə orta əsrlərdə qadınların sosial statusunun yoxluğu demək deyildir. Sadəcə qızlar erkən yaşlarından ərə verilirdi və burada əsas qayğı anaya məxsus olurdu.

Görkəmli fransız tarixçisi, tədqiqatçı alim Qustav Lebon bir neçə məsələni bəyan etdikdən sonra yazır: "Qadın məqamının süqutunun İslamla əlaqəsi yoxdur. Çünki İslam qadının məqamını dəyərləndirib və ona üstünlük vermişdir... İslam bu mövzuda doğru və düzgün addım atmış ilk dindir". Sonra o, müxtəlif millətlərin və İslam dininin qadınlarla rəftarını müqayisə edib belə nəticəyə gəlir ki, İslam o cür ağır şəraitdə qadının məqamını ucaldıb, onun təbii hüququnu özünə qaytarıb. Maraqlısı budur ki, qadın barəsində müxtəlif millətlərdən məsəllər gətirib: Məsələn, çin atalar sözlərində deyilir: "Arvadının sözünü eşit, ancaq heç vaxt inanma". Ruslarda: "On qadının birlikdə bədənində bir ruhdan başqa ruh yoxdur". İtaliyanlarda: "Dəliləşmiş və dəliləşməmiş at üçün mahmız (atı idarə etmək üçün ayağa keçirilən dəmir) lazım olduğu kimi yaxşı və pis qadın (döymək) üçün də ağac lazımdır". İspanlarda isə: "Pis qadından qaç qurtar və həmçinin yaxşı qadına da etimad etmə" kimi məsəllər var. Sonra Rum, Yunan və hindlilərin təəssüfləndirici hadisələrindən bir neçə

misallar gətirir. Bu misallarda bildirilir ki, doğurdan da onların qadınla rəftarı, insani rəftar deyil [6, s.507-509].

Monoqamiya istismarının hökm sürdüyü cəmiyyətlərdə bu həm qadının iqtisadi, mədəni və siyasi cəhətdən hüquqsuzluğuna səbəb olmuş, həm də ər və arvadın bir-irinə vəfasızlığı ilə səciyyələnmişdir.

Xüsusən də həyat yoldaşlarından söz düşəndə kişilər adı ilə deyil, əksər vaxtlarda "uşaqların anası", "filankəsin qızı" – deyə bəhs edərdilər. Eləcə də kişilər barəsində qadınlar "uşaqların atası" deyərdilər. Belə müraciət qaydası hələ orta əsr mənbəsi olan "Kitabi-Dədə Qorqud" dastanından bəlli olur. Belə ki, elə o zamanlardan qadınlara müraciət edilərkən onların adı çəkilməz, kimin qızı idisə o adla da (xan qızı) xatırlanardı. Bu xüsusiyyət xalq düşüncə tərzinə elə sirayət edib ki, hətta XX əsrin ortalarında belə bəzi ailələrdə qadın həyat yoldaşının adını çəkməyib ona "ə", "ağa" və s. – deyə müraciət edib. Ümumiyyətlə, o dövrdə böyüklərə ağa, qağa, lələ, bəy, xanım, banu və s. deyə müraciət edilmişdir.

Tarix boyu hər kəs türk qadınlarının necə ziyalı, müdrik, ağıllı, cəsarətli, ən əsası namuslu olduğunu, tarixə qızıl hərflərlə ad salmış oğullar yetişdirdiyinin şahididir. Azərbaycanda ziyalı, vətənin adını daima ucaldan qadınlarımız da çoxdur. Biz bunlarla fəxr və qürur hissi keçirdirik. Azərbaycan öz ziyalı qadınları ilə seçilir.

Sonda müəllif olaraq bunu qeyd etmək istərdim ki, tarix boyunca hər bir fərd kimi hüquqlara sahib ola bilməyən qadınlar hal-hazırda ən üst səviyyədə imkanlara malikdirlər.

## ƏDƏBİYYAT


1. *Tabatabai A.M.H.* Əl-mizan: 7 clilddə, III c.,1037 s.
2. Etimadüssəltənə. Xeyrati-həsan. Bakı: Nurlan, 2009, 152 s.
3. *Qumilyov L.N.* Qədim türklər. B: Gənclik, 1993, 536 s.
4. *İştiharidi M.M.* İslamda qəhrəman qadınlar. https://ehlibeyt-moize.ucoz.ru/publ/ki_tabxana/i_slami_ki_tabxana_41_50_kitab/27-1-0-3040
5. *Süleymanlı M., Ağaoğlu Ə.* "İslama görə və islamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar, Bakı, 2008, 75 s.
6. http://kitab.nur-az.com/az/lib/view/266/1/40825/QADIN-QUR-ANDA/
7. http://strateq.az/arashdirma/575/islamdan-onc%C9%99-turk-qadini.html

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 193-198
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 193-198
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 193-198

*UOT 33;659*

***L.R.Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*felsefe.sosial.adpu@gmail.com*

# MÜASİR İQTİSADİYYATIN İNKİŞAFINDA REKLAMIN ROLU

***Açar sözlər:*** *reklam, rəqabət, yeni iqtisadiyyat, İnternet-reklam*

Məqalədə müasir iqtisadiyyatın spesifik aspektləri və orada reklamın yeri nəzərdən keçirilmişdir. İnternet-reklamın səmərəliliyinin təhlili aparılmışdır. Məqalədə həmçinin reklamın dünya iqtisadiyyatı, həmçinin müxtəlif ölkələrin iqtisadiyyatı, o cümlədən Azərbaycan iqtisadiyyatında rolunun düzgün qiymətləndirilməsi və reklam vasitələrinin optimal seçilməsinin çox vacibliyi nəzərdən keçirilmişdir.

***Л.Р.Кулиева***

## РОЛЬ РЕКЛАМЫ В РАЗВИТИИ СОВРЕМЕННОЙ ЭКОНОМИКИ

***Ключевые слова:*** *реклама, конкуренция, новая экономика, Интернет-реклама*

Статья посвящена рассмотрению особенностей новой экономики и места рекламы в ней. Анализируется эффективность Интернет-рекламы. В статье также рассматривается важность правильной оценки роли рекламы в мировой экономике, а также для экономики разных стран, в том числе экономики Азербайджана, и оптимального выбора рекламных средств.

***L.R.Guliyeva***

## THE ROLE OF ADVERTISING FOR THE DEVELOPMENT OF THE MODERN ECONOMY

***Keywords:*** *advertising, competition, new economy, Internet-advertizing*

The article considers specific aspects of new economy and a place of advertizing in it. The analysis of efficiency of Internet-advertizing is performed. The article also examines the importance of properly evaluating the role of advertising in the global economy, as well as the economy of different countries, including the economy of Azerbaijan, and the optimal choice of advertising tools.

İstənilən dövrdə müasir bazar iqtisadiyyatının kökündə rəqabət dayanır. Rəqabət sahibkarları bazarda daha effektiv hərəkətlərə (təsirlərə) məcbur edir.

Sağlam rəqabətin formalaşmasında isə reklamın rolu böyükdür. Bu barədə Lyudovik Metsel demişdir: "Reklam – ticarətin mühərrikidir". Belə ki, malların

və xidmətlərin səmərəli reklam edilməsi biznesin müvəffəqiyyətinin əsasını təşkil edir. Yəni məhsul çox reklam olunduqca, o daha çox tanınır və buna müvafiq malların və xidmətlərin satışından əldə olunan gəlir artır. Reklam malların və xidmətlərin bazara yeridilməsi vasitəsidir. O, yeniliklər haqqında istehlakçıları məlumatlandırır, vahid iqtisadi məkanın formalaşmasına kömək edir və rəqabət mübarizəsinin aparılması vasitələrindən ən başlıcasıdır [4].

Bütün bunlarla yanaşı, reklamın rolu da iqtisadiyyatda baş verən dəyişikliklərə uyğun dəyişir. Belə ki, iqtisadiyyatda baş verən dəyişikliklərə uyğun reklametmənin prioritetli üsulları, reklamın nüfuzetmə dairəsi, onun xarakteri və digər dəyişikliklər baş verir.

Hal-hazırda dünya iqtisadiyyatı, həmçinin müxtəlif ölkələrin iqtisadiyyatı, o cümlədən Azərbaycan iqtisadiyyatı, istehsalın maddi amillərinə əsaslanan ənənəvi iqtisadiyyatdan "gizli kapitala", yəni qeyri-maddi aktivlərə əsaslanan informasiya iqtisadiyyatına transformasiya edir. Bu şəraitə uyğun olaraq reklamın rolunun düzgün qiymətləndirilməsi və reklam vasitələrinin optimal seçilməsi çox vacibdir.

İndi isə yeni iqtisadiyyatın mahiyyətinə və reklamın onda hansı rolu oynamasına diqqət yetirək.

Yeni iqtisadiyyat – ictimai inkişafın intellektual cəhətdən inkişafına əsaslanır və qabaqcıl informasiya texnologiyalarının istifadəsini nəzərdə tutur. Bura internet-qərarlar, konsaltinq, innovasiyalar, təhsil, internet-treydinq, internet-marketinq və s. aiddir. Yeni iqtisadiyyatın formalaşmasının əsasını informasiya-kommunikasiya sahələri və vençur biznesi təşkil edir [2].

Yeni iqtisadiyyat üçün internet vasitəsilə yer kürəsinin əhəmiyyətli hissəsini əhatə edən qarşılıqlı əlaqələrin ümumdünya sisteminin yaradılması, yəni qlobal informasiya cəmiyyətinin inkişafı xarakterikdir.

Yeni iqtisadiyyat sahibkarlıq üçün geniş imkanlar açır. Sərhədləri silir, böyük auditoriyanı əhatə etməyə şərait yaradır. Coğrafi məsafələrlə bağlı yaranan maneələr aradan qalxır. Bazarlar, həmçinin orada rəqabət aparan şirkətlər tez bir şəkildə qloballaşır. Şirkətlər yerləşdiyi ölkələrdən kənarda daha çox satışlar həyata keçirə bilirlər. Əməkdaşlıq üçün coğrafi yaxınlıq bir o qədər önəmli deyil.

İstənilən informasiya bütün dünya üzrə yayıla bilir. Alıcılar, rəqiblər və innovatorlar ani dövrdə bir-biri ilə əlaqə yarada bilirlər. Texnologiya dəyişiklikləri, xüsusilə informasiya və rabitə texnologiyalarında baş verən dəyişikliklər, informasiya dövrünün yaranmasına gətirib çıxarmışdır.

Yeni iqtisadiyyatın mərkəzində istehlakçı dayanır. Bu, XX əsrin ikinci yarısında marketoloqların seqmentlərə ayırdıqları həmin istehlakçı deyil. Yeni iqtisadiyyatın istehlakçısı – bu konkret tək müştəridir [6].

Yeni iqtisadiyyatın hərəkətverici qüvvəsi istehlakçıdır. İstehlakçının diktəedici hakimiyyəti bir sıra çoxdan inkişaf edən tendensiyalar sayəsində

günü-gündən artır. Birincisi, məhsulların və xidmətlərin çatışmazlığı onların çoxluğu ilə əvəz olunmuşdur. Bunun əsas səbəbi müəssisələrdə məhsuldarlığı kəskin artıran yeni texnologiyaların yaranmasıdır. İkincisi, qloballaşma nəticəsində bir neçə şirkət eyni alıcıları fəth etməyə çalışır. Həmçinin qloballaşma alıcıların daha çox məlumatlandırılmasına və inkişaf etməsinə səbəb oldu. Belə ki, yeni informasiya texnologiyaları alıcılara rəqabət aparan məhsulları tapmağa, təhlil etməyə və sonda əsaslandırılmış seçim etməyə şərait yaradır. Müasir alıcı bilir ki, onun seçim etmək və buna uyğun diktə etmək hüququ var. Buna görə də bu gün alıcılar alternativ variantlar axtarırlar, təklifləri müqayisə edirlər və sonda onlara tam uyğun olan variantı seçirlər. Üçüncüsü, bir çox məhsullar virtual olmuşdur və sürətli texnologiya dəyişiklikləri məhsulların həyat dövrünün kəskin azalmasına gətirib çıxarmışdır. Nəticədə, bazarda çox oxşar təkliflər meydana çıxır və məhsulların fərqli yollarla alıcılara təklif edilməsi (reklam edilməsi) çox çətinlik yaradır. Nəticədə, bütün bu hadisələr yeni iqtisadiyyatın yaranmasına gətirib çıxarmışdır. Belə ki, keçmiş iqtisadiyyatda təchizatçılar dominantlıq edirdilər, müasir yeni iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi isə alıcılardır.

Yeni iqtisadiyyatda digər vacib məsələ qeyri-maddi aktivlərin payının və rolunun artmasıdır. Yeni iqtisadiyyat maddi istehsala deyil, ideyalara əsaslanır. Kommunikativ resurslara tələb daha da artmışdır. Bu halda istehlakçılarla əlaqələrin qurulmasında əsas yeri reklam tutur. Belə ki, reklam bu və ya digər strategiyaların köməyilə markanın və ya brendin əsas xüsusiyyətlərini istehlakçı şüuruna yeridir.

"Yeni iqtisadiyyatın" məhsuldar qüvvəsi menecmentin və marketinqin sosial-iqtisadi texnologiyalarını özündə birləşdirir. Məhz marketinqin və menecmentin müasir texnologiyaları məhsuldarlığın və istehsalın yeni amillərinin effektivliyini artıraraq "yeni iqtisadiyyatın" bütün mexanizmini işə salan rıçaq hesab olunur. Bu amillər – qeyri-maddi amillərdir. Bura ölçülə bilməyən sərvətlər – "duyulmayan aktivlər", "gizli kapital", mütəxəssislərin intellektual kapitalı, marka, imic, şirkətin nüfuzu və s. daxildir [6].

Qeyd etmək lazımdır ki, texnologiyaların yüksək səviyyəsi və əməyin avtomatlaşdırması müasir iqtisadiyyatda maddi istehsal problemini həll etmişdir. Bununla yanaşı, yeni iqtisadiyyatda mürəkkəb və xüsusi əhəmiyyətli məsələ satışın təşkil edilməsidir. Bu məsələ məhsulların reallaşdırılmasına kömək edən kommunikasiyaların əhəmiyyətini daha da artırır. Bu zaman reklam öz xüsusiyyətlərinə görə birinci yerdə durur.

Müasir cəmiyyətin həyatını reklamsız təsəvvür etmək mümkün deyil. Reklam – insan fəaliyyətinin dinamik, tez transformasiya edən sferasıdır [7].

Müasir dövrdə reklamın xarakteri, onun məzmunu və forması cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə əlaqədar müəyyən dəyişikliklərə məruz qalır.

Müasir cəmiyyətdə reklamın rolu nə ticarət kommunikasiyaları, nə də bazar fəaliyyəti ilə məhdudlaşmır. Reklamın əhəmiyyəti iqtisadiyyatın və ictimai həyatın bütün sahələrində günü-gündən artır.

Buna görə də müasir dövrdə hər bir müəssisə reklamın məhsuldar vasitələrinin istifadəsinin yeni üsullarını tapmağa çalışır. Daima təşkilatlar öz mallarının və xidmətlərin reklam edilməsinə ehtiyac duyurlar, amma həmişə bu məqsədə çatmaq üçün kifayət qədər vəsaitlərə malik deyillər.

Qeyd etmək lazımdır ki, bununla yanaşı, yeni iqtisadiyyat şəraitində reklamın yeni və daha ucuz vasitələri meydana çıxır. Belə ki, texnologiyanın inkişafı, internet və mobil rabitə şəbəkələrinin hər yerdə istifadə edilməsi sərhədlərin silinməsinə gətirib çıxarır. Bu isə yeni iqtisadiyyat üçün yeni imkanlar açır. Yəni müasir dövrdə daha az xərclə məhsulların reklamını lokal səviyyədə deyil, bütün dünya səviyyəsində həyata keçirmək mümkündür.

Müasir dünyada məhsulun yaradılması anından başlayaraq onun satılmasına qədər olan hər bir mərhələ aktiv reklam kompaniyası ilə müşayiət olunur. Çünki reklam vasitələrindən düzgün istifadə etmək bacarığı olmadıqda bazara fəal təsir etmək və satış bazarında rəqabət mübarizəsində müvəffəqiyyəti təmin etmək mümkün olmur.

Məlumdur ki, reklam olmadıqda bazarda məhsula qarşı heç bir reaksiya olmur. Reklam məlumatı məhsulun satışını stimullaşdırır. Məhsul istehsalçısı reklam məlumatını yerləşdirdiyi andan başlayaraq istehlakçılar bu məlumata reaksiya verirlər və rəqiblər meydana çıxırlar. Məhz bu prosesdə effektiv marketinq üçün əhəmiyyətli olan əks-əlaqə – kommunikasiya yaranır. Buna görə də marketinq tədbirlərinin səmərəli reallaşdırılmasında istənilən kompaniya üçün reklam ən təsirli alət hesab olunur. Qeyd etmək lazımdır ki, yalnız bəzi təşkilatlar öz marketinq fəaliyyətində reklamdan səmərəli istifadə etmək qabiliyyətinə malikdirlər. Tədqiqatlardan məlum olur ki, reklam kampaniyalarının əksəriyyəti plansız və xaotik şəkildə həyata keçirilir. Bu isə onların səmərəliliyini aşağı salır.

O cümlədən düzgün və planlı qurulmuş reklam kompaniyası markanın (brendin) tanınmasına səbəb olur. Belə reklam kompaniyasına qoyulmuş vəsait markanın gələcək uğuruna yönəlmiş vəsait kimi dərk edilir. Qeyd etmək lazımdır ki, marka (brend) müasir şəraitdə şirkətin aktivlərinin strukturunda ən əhəmiyyətli qeyri-maddi aktivdir. Məlumdur ki, "gizli kapital" yeni iqtisadiyyatda çox böyük əhəmiyyət kəsb edir.

Reklam həmçinin buraxılan məhsulun təkmilləşdirməsinə daima təkan verir və sağlam rəqabətin əsas amilidir. Reklam olmadan bazara təsir etmək və bazardakı mövqeyi möhkəmləndirmək mümkün deyil. Lakin yadda saxlamaq lazımdır ki, reklam mal və xidmətlərin keyfiyyətsiz olmasını kompensasiya etməməlidir. Hər şeydən əvvəl, o, mal və xidmətlər haqqında olan informasiyanın istehlakçıya çatdırılma vasitəsidir. Bir məsələni daim diqqətdə

saxlamaq lazımdır ki, insanlar reklam məlumatlarını müxtəlif cür qəbul edirlər. Buna görə də reklamın əsas məqsədi – öz potensial alıcısını qıcıqlandırmamaq, məhsulun bütün üstünlükləri barədə olan məlumatları ona çatdırmaq, alıcıda maraq yaratmaq və istehlakçıya düzgün markanın (brendin) seçilməsində kömək etməkdir.

İndi isə iqtisadiyyatda reklamın rolunu müəyyən etdikdən sonra reklamın bu və ya digər vasitələrindən istifadənin aktuallığına nəzər salaq.

Reklamın nəşri üçün bu gün müxtəlif üsullar mövcuddur. Müasir reklam vasitələri olduqca müxtəlifdir. Əsas reklam vasitələrinə aşağıdakıları aid etmək olar:

1. Zahiri (küçə) reklam;
2. Nəqliyyatda edilən reklam;
3. Çap edilmiş reklam – bu çap nəşrlərində yerləşdirilmiş reklam materiallarıdır;
4. Radioda reklam;
5. Televiziyada reklam – bu potensial istehlakçıların cəlb edilməsinin ən yaxşı yoludur. Lakin belə reklam daha çox xərc tələb edir;
6. Birbaşa poçt reklamı – bu, reklam vərəqələrinin gələcəkdə müştəri ola biləcək şəxslərə çatdırılmasıdır;
7. İnternet-reklam. Bu, müasir dövrdə reklamın yeni və perspektivli vasitələrindən biridir. Belə ki, internet istifadəçilərinin sayı hər il durmadan artır. Bu isə potensial müştərilərin artımı deməkdir. Buna görə də əksər reklam şirkətləri reklamın bu növünə son vaxtlar daha çox diqqət yetirirlər. Geniş miqyaslı auditoriyanın olması və internet-resursların hər gün artması bu reklam vasitəsinin müsbət xüsusiyyətidir [1].

Bəşəriyyət yeni əsrə – rəqəmli informasiya əsrinə qədəm qoyduqdan sonra internet, kompüter texnologiyaları, mobil rabitə və mobil texnologiyalar daha çox istifadə olunur. Müasir dövrdə internet əsas informasiya vasitəsi hesab olunur. Mobil telefon isə yalniz rabitə vasitəsi deyil. Buna görə də yeni əsrdə internet-reklam və mobil rabitələrdə edilən reklam daha aktual olmuşdur [3].

Reklamın ənənəvi vasitələrində olduğu kimi, internet və mobil reklamın da qarşısında aşağıdakı tələblər durur:

- reklam müraciətinə diqqətin cəlb edilməsi. Diqqətin cəlb edilməsi üçün reklam müraciəti düzgün tərtib edilməli və reklam uyğun yerdə yerləşdirilməlidir;
- reklam predmetinə maraq yaradılması. Burada əsas məsələ istifadəçinin diqqətini reklama cəlb etmək və onda maraq oyatmaqdır. Buna görə də auditoriyaya yönəlmiş müraciət forması düzgün seçilməlidir;
- reklam edilən məhsuldan istifadə etmək arzusunun stimullaşdırılması;
- hərəkətə yönəltmə. Reklam istifadəçini Web-sayta keçib, əlavə məlumatlara baxmağa yönəltməlidir [5].

Qeyd etmək lazımdır ki, birbaşa marketinq dedikdə, konkret məqsədli auditoriyaya yönələn və onun ehtiyaclarının təmin olunmasına istiqamətlənən marketinq başa düşülür. İnternetdə həyata keçirilən birbaşa marketinqin əsas aləti istifadəçilərin elektron poçt ünvanına (e-mail) və mobil telefonlarına elanların və müraciətlərin göndərilməsidir.

İnternet-reklam və mobil reklamın əsas rolunu və yerini müəyyən etdikdən sonra onların üstünlüklərini qeyd edək. Belə ki, bu tip reklam malın sürətli və ucuz irəliləyişini təmin edir, elastikdir, reklamın səmərəliliyini daha tez müəyyən etmək mümkün olur. Banner reklamında məzmun (mesajlar) istifadəçinin axtarışının mövzusu ilə əlaqəli olur. Beləliklə, potensial müştərilərin seçilməsini təmin edir və marağı olmayanlar üçün reklamın nümayişini məhdudlaşdırır. Sms-reklam isə operativlik və məqsədli auditoriyanın seçilməsi baxımından üstündür.

Bütövlükdə, reklamın bu vasitəsinin üstünlükləri elan verənlərin böyük axınını təmin edir. Buna görə də hal-hazırda internet-reklam liderlik edir. Bir proqnoz olaraq onu deyə bilərəm ki, gələcəkdə də internet-reklam məhsulların satılmasında əvəzolunmaz rol oynayacaqdır.

Son nəticə kimi qeyd etmək lazımdır ki, reklamın iqtisadiyyatda və təşkilatların fəaliyyətindəki rolu bazarda, cəmiyyətdə və bütövlükdə, dünyada baş verən dəyişikliklərə uyğun dəyişilir. Belə ki, müasir iqtisadiyyatda geniş tətbiq edilən internet və mobil reklam XX əsrdə mövcud deyildir.

## ƏDƏBİYYAT


1. *Nəsibov V.N.* Reklam menecmenti: Dərslik. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2010
2. *Авдокушин Е.Ф.* Новая экономика // Современные наукоемкие технологии, 2010, №10, с. 223-225 / URL:www.rae.ru
3. *Дегтярева А.В.* Формирование системы контроля и надзора в сфере рекламы и недобросовестной конкуренции: диплом.работа. Финансовый университет при Правительстве РФ, Москва, 2014
4. *Добрикова Т.С.* Роль рекламы в современном обществе / Т. С. Добрикова, А. М. Ковалева // Молодой ученый, 2012, № 12, с.201-203
5. *Керимова Ч.В.* Учетно-аналитическое обеспечение разработки и реализации рекламных проектов: дис. ... канд. экон. наук. Финансовый университет при Правительстве РФ, Москва, 2012
6. Новая экономика. Основные черты новой эры быстрых перемен// сайт Вадима Котельникова / URL: http://www.cecsi.ru/coach/new_economy.html
7. *Песоцкий Е.* Современная реклама. Теория и практика. Ростов-на-Дону: Феникс, 2011, с.315
8. Цифровая реклама вытесняет аналоговую. Ассоциации Коммуникационных Агентств России. / URL: http://www.advertology.ru/article125226.htm

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 199-209
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 199-209
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 199-209

*UOT 902*

***İ.V.Sadıqova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*imaibrahim@mail.ru*

# QARABAĞIN QƏDİM DÖVR ARXEOLOJİ ABİDƏLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***Açar sözlər:*** *Qarabağın arxeologiyası, Quruçay mədəniyyəti, Qarabağın antik dövr mədəniyyəti, Qarabağın xristian məbədləri*

Məqalə Qarabağın qədim dövr arxeoloji maddi mədəniyyət nümunələrinin tədqiqinə həsr edilmişdir. Məlumdur ki, Qarabağın qədim dövrü ilə bağlı aşkar edilən maddi mədəniyyət nümunələri olduqca zəngindir. Məqalədə xronoloji ardıcıllığa uyğun olaraq bölgənin qədim və orta əsrlərə aid maddi mədəniyyət nümunələrinə dair bir necə abidələri haqqında məlumatlar verilmişdir. Müqayisəli şəkildə təhlil edilən bu abidələrin zənginliyi, bir daha sübut edir ki, bunlar yerli əhaliyə məxsusdur. Məqalədə Qarabağ ərazisinin qədim və orta əsrlərə aid müxtəlif tipli arxeoloji abidələrlərindən bəhs edilir. Bunun da səbəbi bir tərəfdən Qarabağın əlverişli təbii coğrafi şəraitə malik olmasıdırsa, digər tərəfdən də IV əsrdən başlayaraq bütün Albaniyada (qədim Azərbaycanda) olduğu kimi, burada da bir sıra iqtisadi, ictimai-siyasi və dini dəyişikliklərin baş verməsidir. Məhz IV əsrdən başlayaraq artıq Qarabağ ərazisində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir. Məqalədə bütün bu məsələlər öz əksini tapmışdır.

***И.В.Садыгова***

# О ХАРАКТЕРНЫХ ОСОБЕННОСТЯХ ДРЕВНИХ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ КАРАБАХА

***Ключевые слова:*** *археология Карабаха, Куручайская культура, Карабахская античная культура, Христианские храмы Карабаха*

Статья посвящена изучению древней археологической материальной культуры Карабаха. Найденная в Карабахе древняя археологическая материальная культура очень богата. В статье приводятся сведения о древней и средневековой материальной культуре по хронологической последовательности в ряде памятников данного региона. Сравнительный анализ этих памятников еще раз доказывает их принадлежность к местному населению. В статье рассматриваются различные археологические памятники древнего и средневекового Карабаха. Находящийся в благоприятных географических условиях в Карабахе, как и во всей Албании (древний Азербайджан) с IV века начинает происходить ряд экономических, социальных, политических и религиозных изменений. Так как уже с этого времени в Карабахе

сформировались феодальные отношения и христианство стало государственной религией как основной идеологией феодализма. Все эти вопросы в статье нашли своё отражение.

***I.V.Sadigova***

## ABOUT THE CHARACTERISTICS OF THE ANCIENT ARCHAEOLOGICAL MONUMENTS OF KARABAKH

***Keywords:*** *archeology of Karabakh, Gurchay culture, Karabakh antique culture, Christian temples of Karabakh*

In the article is dealt with study of ancient archaeological material of culture in Karabakh. It is well known that the material culture revealed in ancient times in Karabakh is rich. The article provides information about a number of monuments of the region about the ancient and medieval material culture in chronological sequence. A comparative analysis of these monuments once again proves their belonging to the local population. In the article is dealt with various archaeological monuments of the ancient and medieval types of Karabakh. This is due to the fact that Karabakh has favorable natural geographical conditions and has experienced a series of economic, social, political and religious changes here, as in Albania (former Azerbaijan) since the 4th century. Since the fourth century, feudal relations have been formed in the Karabakh region, and Christianity has become the state religion as the basic ideology of feudalism. All these questions in the article are reflected.

Tarixi Azərbaycan ərazisinin əzəli torpaqlarından olan Qarabağ yüzillikləri əhatə edən böyük arxeoloji irsə malikdir. Qədim insan sığınacaqları, ilkin əkinçilik məskənləri, ulularımızın zəngin dünyagörüşündən xəbər verən dəfn yerləri, zirvələrə sığınan qala və istehkamlar, yalçın qayalara həkk olunmuş sirli təsvirlər, möhtəşəm şəhərlərin xarabalıqları əski dövrlərin maddiləşmiş yaddaşı olmaqla, bu misilsiz irsin əsasını təşkil edir. Qarabağın təbii-coğrafi şəraiti, buranın ən qədim insan məskənləri xəritəsinə daxil olmasına səbəb olmuş və mövzunun elmi aktuallığını şərtləndirmişdir. Azərbaycan arxeoloqların indiki Füzuli şəhəri yaxınlığında dünyada ən qədim insan məskənlərindən olan Azıx və Tağlar mağarasını aşkar etməsi Azərbaycan arxeologiyasında mühüm elmi əhəmiyyət kəsb etməkdədir. Quruçay və Köndələnçayın bir növ suayrıcında olan Azıx mağarası bir neçə iri salondan ibarət olub uzun bir dövrdə ibtidai insanların düşərgəsi olmuşdur. Qazıntılar zamanı buradan ibtidai insanların həyat şəraitini özündə əks etdirən, həm də təxminən 1,5-2 milyon il bundan əvvəlki dövrdə Azərbaycanın fauna və florasını özündə əks etdirən zəngin maddi mədəniyyət qalıqları aşkar edilərək müxtəlif elmi fərziyyələrin meydana çıxmasına səbəb olmuşdur. 1968-ci ildə mağaranın salonlarından birində qazıntı aparılarkən oradan dünyada beşinci hadisə kimi qeydə alınan ən qədim insan çənəsinin bir hissəsi tapıldı. Elmi

ədəbiyyatda "Azıxantrop" (Azıx adamı) kimi qeydə alınmış bu tapıntı demək olar ki, nəinki Azərbaycanın, eləcə də Qafqazın ən qədim sakini olmuşdur. Azıx adamı oddan istifadə etməyi, onu saxlamağı bacarmış, alət hazırlamaq üçün keyfiyyətli daş mədənləri aşkar etmiş, heyvan ovlamağın müxtəlif sirlərinə bələd olmuşdur. Azıx adamı və onun həm daşları arxeoloqların Quruçay mədəniyyəti adlandırdıqları, bəşər tarixində ən qədim olan bir mədəniyyətin yaradıcıları olmuşlar (12, s.6). Bu mədəniyyətin başlıca xüsusiyyətləri ondan ibarət idi ki, Quruçay vadisində yaşayan ibtidai insanların mövcud daşlardan silah və alət hazırlamaq üçün xüsusi daş seçmə metodları, alət hazırlama texnologiyası, heyvan ovlama üsulu və bütünlükdə təbiətlə təmas metodu mövcud olmuşdur. Elmi hipotezalar sübut edir ki, bu xüsusiyyətlər təkcə daş dövrü üçün deyil, eneolit və tunc dövrləri üçün də xarakterik olan uzun bir təkamül yolu keçmişdir (11, s.7). Daş dövrünün yüksək texniki cəhətlərini mənimsəmiş Azıx və Tağlar mağaralarının ən üst təbəqəsinin sakinləri e.ə. V-IV minilliklərdə bəşər tarixi üçün ən böyük nailiyyət olan mis-daş dövrünə qədəm qoydular və beləliklə də, dünyanın qədim mədəni mərkəzlərinə məxsus olan iki böyük hadisənin, yəni ilk ictimai əmək bölgüsünün yaranması və ana nəslini ata nəslinin əvəz etməsi kimi bəşəri proseslərin iştirakçıları oldular. Qarabağ ərazisində yerləşən, Füzuli şəhəri yaxınlığında dünyada ən qədim insan məskənlərindən olan Azıx, Tağlar mağaralarının mövcud olması dediklərimizi əyani surətdə sübut edir (5, s.8). Üst yura (Yura – kelt dilində meşə deməkdir), yaşıl əhəngdaşından əmələ gəlmişdir. Mağaranın bir-birinə dar keçidlərlə birləşdirilən altı salonu və iki tərəfdən giriş yeri olmaqla, on təbəqə aşkar edilmişdir (18, s.183). Azıx qədim insan düşərgəsinin VII-X təbəqələrində aşkar olunmuş Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir (6, s.30).

Qarabağın qədim arxeoloji irsini özündə yaşadan Xocalı abidələri öz növləri baxımından, onların xarakterik xüsusiyyətləri və maddi-mədəniyyət qalıqlarının zənginliyi etibarilə hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E.Resler, rus şərqşünası M.Xanıkov, ingilis F.Bayer, fransız A.Berje və başqaları tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrinə apararaq muzeyləri bəzəmişlər. Azərbaycan alimləri tərəfindən Xocalı abidələrinin tədqiqinə 1920-ci illərdə başlanmışdır. Burada ilkin tədqiqat işləri aparmış Azərbaycanın görkəmli alimi Ə.Ələkbərov Xocalı abidələri kompleksini Azərbaycan abidələri haqqında təsəvvür əldə etmək üçün açar adlandırmışdır. Əsasən e.ə. XVII-XIII əsrləri əhatə edən Xocalı abidələri kompleksi yaşayış yerlərindən, daş qutu qəbirləri, müxtəlif tipli kurqanlardan, siklop tikililər, kromlexlərdən ibarətdir. Adını çəkdiyimiz mədəniyyətə aid yaşayış yerləri, bir qayda olaraq, çay kənarlarında, təbii coğrafi cəhətdən əlverişli yerlərdə, xüsusilə strateji cəhətdən müdafiəsi qismən asan olan təpələr üzərində salınırdı. Yaşayış yerlərində evlər əksər hallarda

yarımqazma halında olub yuxarı hissəsi yonulmamış çay daşlarından palçıqla suvamaq yolu ilə tikilirdi. Evlərin əksəriyyəti çox gözlü olub bütün tayfa üzvlərinə aid olurdu. Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir ki, çox vaxt tayfa evləri uzunsov olub, düzbucaqlı formada inşa edilmişdir. Bəzən uzunluğu 17-18 metr, eni isə 8-10 metr olan bu cür evlər xüsusi arakəsmələr vasitəsi ilə bir neçə hissəyə bölünmüşdür. Evin divarlarında xüsusi baca yerləri düzəldilirdi. Onun içərisində ərzaq saxlamaq üçün ya quyu qazılırdı, yaxud da iri təsərrüfat küpləri basdırılırdı. Tunc dövrünün sonu və dəmir dövrünün əvvəllərində, yəni e.ə. II minilliyin sonunda artıq bu cür evlərin döşəmə və divarları xüsusi ağ maddələrlə suvanır və böyük ailə evləri kiçik ailə evləri ilə əvəz olunur. Danışdığımız dövrdə möhrədən hörülmüş evlərə və formaca dairəvi olan yarımqazma evlərə də təsadüf edilmişdir. Bütün bunlar primitiv şəkildə olsa da, yerli əhalinin müxtəlif tikinti texnikasına malik olmasını parlaq surətdə sübut edir. Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin böyük bir qismini də siklop tikililəri təşkil edir. Əsasən yüksək təpələrdə və alçaq dağlarda bina edilmiş bu abidələr yerli əhali tərəfindən hazırda "Qalaça", "Örtük daşı", "Hasar", "Düzülü daş" və s. adlanır. Siklop tikililərinin xarakterik cəhəti ondan ibarətdir ki, bu abidələr yonulmamış iri daşlardan suvaqsız olaraq müəyyən bir plana riyayət olunmadan tikilirdi. Bu tikililər bəzən iki və hətta üçqat divarla əhatə olunurdu. Hər bir divarın arasındakı məsafə 5-10 m-ə qədər olurdu. Siklop tikililərində qapı yerləri üç sal daşdan düzəldilib üstündən hörgü davam etdirilirdi. Siklop tikililərini tədqiq etmiş alimlər onların nə vaxt meydana gəlməsi və nə məqsədlə bina edilməsi üzərində xeyli mübahisə etmişlər. Bu abidələr əsasən e.ə. II minillikdə və I minilliyin əvvəllərində mövcud olmuşdur. Onların dövrü qəti müəyyən edilmişdirsə, lakin onların vəzifəsi, yəni nə məqsədlə tikilməsi hələ də mübahisəlidir (11, s.9). Bəzi alimlər onların daimi yaşayış yeri və ya böyük ticarət yolları üzərində müdafiə məntəqələri, bəziləri siklopların böyük bir qismini müqəddəs yer olub, ibadətgah məqsədilə bina edildiyini, bəziləri bağ-bostan yeri olduğunu, daha başqaları isə bu tikililəri köçərilərin mal-qara saxlamaq üçün inşa etdiklərini söyləyirlər. Lakin son tədqiqatların nəticələrindən aydın olmuşdur ki, bütün Kiçik Qafqaz dağlarının köç yolları kənarında inşa edilmiş siklop tikililərinin heç də hamısı eyni məqsəd güdməmişdir və başlıca olaraq üç məqsəd daşımışdır: 1) iri ticarət yolları üzərində bu yolları müdafiə etmək məqsədilə; 2) düşmən hücumları zamanı əhalini müvəqqəti mühafizə etmək məqsədilə; 3) müqəddəs yerləri əbədiləşdirmək məqsədilə bina edilmişdir. Onların bir çoxu sonralar yaşayış məskəni kimi və yaxud da köçərilərin öz mal-qarasını saxlamaq üçün istifadə edilmişdir. Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin həyat tərzini və mədəni inkişaf səviyyəsini öyrənmək üçün həmin mədəniyyətə məxsus qəbir abidələri və qəbirlərdən toplanmış maddi mədəniyyət qalıqları böyük əhəmiyyət kəsb edir (4, s.60). Adıçəkilən mədəniyyət sahiblərinin bir

neçə tip qəbir abidəsi olmuşdur ki, onların da böyük bir qrupunu kurqan qəbirləri təşkil edir. Xocalı arxeoloji abidələrinin Azərbaycan üçün yeganə olan üç mühüm tip arxeoloji abidəsini qeyd etmək çox vacibdir. Bunlar Menhislər, kromlexlər və kurqanlardir ki, bunlarin da içərisində akad. İ.İ.Meşşaninov tərəfindən muəyyən edilmiş Xocalıda tədqiq olunan 11 saylı kurqandan tapılan, üzərində mixi yazısı olan, e.ə. VIII əsrə aid, Assuriya çarı Adadnirarinin adı yazılmış müncuq xususilə qeyd edilməlidir. Bu, Azərbaycan ərazisində aşkar edilmiş ən qədim yazıdır (3, s.7). Elmi ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti kimi tanınmış qədim mərhələ özlüyündə iki minillik bir tarixi dövrün, tunc dövrünün arxeoloji təsdiqidir. Rayonda bir dünya, 81 ölkə və 24 yerli əhəmiyyətli abidə qeydə alınıb. Qarabağın hər guşəsində qala və qalaçalar, müdafiə istehkamları, məbəd və türbələr var (8, s.93). Qarabağın qədim dövrü ilə bağlı aşkar edilən maddi mədəniyyət nümunələri olduqca zəngindir. Xronoloji ardıcıllığa uyğun olaraq bölgənin orta əsrlərə aid maddi mədəniyyət nümunələrinə dair bir necə abidə haqqında məlumat vermək yetərli olardı. Tədqiq edilən dövrlərdə Qarabağın iqtisadiyyatında əkinçilik mühüm yer tutmaqla yanaşı, əhalinin böyük hissəsi aqrar sahədə çalışırdı. Əvvəlki dövrlərdən fərqli olaraq əkinçiliyin müxtəlif sistemləri uğurla tətbiq olunurdu. Yazlıq və payızlıq səpini keçirilən ikitarlalı və üçtarlalı əkin sahələri mövcud idi (2, s.194). Dəmyə əkinçiliyi ilə yanaşı, dağətəyi və qismən də dağlıq rayonlarda arxlar, düzən rayonlarda isə (Mil-Qarabağ və Muğan düzənliklərində) Kür və Araz çaylarından çəkilmiş kanallar (Govurarx) vasitəsilə suvarılan, yəni süni suvarmaya əsaslanan əkinçilik də geniş yayılmışdır. Mil və Muğan düzlərində aparılan arxeoloji qazıntılar və kəşfiyyat axtarışları zamanı Araz çayından başlayaraq Mil düzündə Qarqarçayı, Muğan düzündə isə Bolqarçayı birləşdirən Govurarxın intensiv şəkildə istifadə olunduğu sübuta yetirilmişdir (13, s.34). Xüsusilə, Mil düzündə Beyləqan kimi möhtəşəm şəhərin IX əsrdən başlayaraq sürətlə inkişaf etməsi və XI-XII əsrin əvvəllərində öz inkişafının çiçəklənmə dövrünü keçirməsi, şübhəsiz ki, bu ərazilərdə suvarma əkinçiliyinin geniş vüsət aldığı şəraitdə mümkün olmuşdur (1, s.94). Bunu da nəzərə çatdıraq ki, bu vəziyyət Azərbaycana xas məhəlli xüsusiyyət olmayıb, bütün Müsəlman Şərqi üçün səciyyəvi idi. Süni suvarmaya əsaslanan əkinçiliyin yüksək inkişaf etdiyi ərazilərdə şəhərlərin sıx şəbəkəsinin, sürətli inkişafının şahidi oluruq. Mil düzünün təsərrüfat həyatında Govurarxın rolu olduqca böyük idi. Onun uzunluğu 60 km, eni bəzi yerlərdə 4-5 m-dən çoxdur. Ərəb tarixçisi əl-Bəlazuri hələ IX əsrdə Beyləqan ətrafında olan arxlardan birinin ərəb canişinlərindən Adi ibn Əmir Kendi adını daşıdığını qeyd edir. Y.A.Paxomov haqlı olaraq ehtimal edir ki, burada söhbət qədim arxların genişləndirilməsindən və yaxud yeni arxın çəkilməsindən gedə bilər (20, s.22). Xatırladaq ki, Mil düzündə indi də Hindarx adlı böyük bir yaşayış məskəni mövcuddur. Tədqiq edilən dövrdə də Qarabağın hakim sinfinin yuxarı təbəqəsi

şəhərdə yaşayır, kənd nahiyəsində istehsal olunan izafi məhsul şəhərə axır və burada bölüşdürülürdü. Orta əsrlərdə sənətkarlığın əkinçilikdən və şəhərin kənddən ayrılmasına baxmayaraq şəhərlər yenə də özünün yarımaqrar quruluşunu itirmirdi. Heç təsadüfi deyildir ki, orta əsr müəllifləri Azərbaycan haqqında məlumat verərkən bəzən şəhərlə onun kənd nahiyəsi arasında fərq qoymurlar (7, s.108). Məsələn, X əsr ərəb coğrafiyaşünas-səyyahı İbn Havqəl yazır ki, "...Arranda Bərdə, əl-Bab və Tiflisdən (başqa) böyük şəhərlər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiyə, Şərvan, Abxaz, Şəbəran, Qəbələ, Şəki, Gəncə, Şəmkir və Xunan isə mühüm olmayan vilayətlərdir, şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, geniş, yararlı təsərrüfat sahələrinə malikdir" (15, s.110). Miladidən öncəki dövrlərdən başlayaraq Qarabağ şəhərlərinin yüksəlişi ölkənin iqtisadi həyatında sənətkarlığın mövqeyini artırır. Şəhərlər kəndin sənətkarlıq məhsullarına və əmək alətlərinə olan tələbatını daha çox ödəməli olurdular. Hər bir şəhər öz ətrafındakı kəndləri sənətkarlıq məhsulları ilə təchiz edirdi. Tarixşünaslığın araşdırılmasından məlum olur ki, belə şəhərlərin əhatə etdiyi ərazi, yəni lokalizasiyası indiki rayonların ərazisindən böyük deyildi. Məsələn, Qəbələ şəhəri sabiq Qəbələ mahalını, Dərbənd təxminən müasir Xudata qədər olan ərazini əhatə edirdi. Burdan cənubda Şabran və Şirvan şəhərləri yerləşirdi. Bakı Abşeronu təchiz edirdi. Orta əsrlərdə Lahican adlanan ərazi Şamaxıya yaxın idi. Mil-Qarabağ düzənliyində və Kür-Araz ovalığında Şəmkir, Gəncə, Bərdə, Beyləqan, Muğan düzündə Muğan, Varsan, Bərzənd və başqa şəhərlər var idi.

Qarabağın qədim dövr xristian abidələrinə misal olaraq Ağdam rayonunun Sofulu kəndində Govurqalada qazıntılar zamanı aşkara çıxarılmış birnefli məbədi qeyd etmək olar. Məbəd daşdan tikilib. Məbədin ibadət salonu (62 m$^2$) və ona şimal-şərq tərəfdən bitişik olan xidmət otaqları var. İbadət salonunun şərq qurtaracağında yarımdairəvi absidaşı və mehrab üçün kürsülük (səcdəgahı) mövcuddur. İbadət salonu və kürsülük yaxşı yonulmuş daşla səliqəli döşənmişdir. Bəzi döşəmə daşlarında qazıma xətlərlə həndəsi fiqurlardan ibarət ayin əhəmiyyətli təsvirlər verilmişdir. Məbəddən çoxlu xaç təsvirli daşlar, daş və gipsdən həndəsi fiqurlar və nəbati təsvirli memarlıq hissələri tapılmışdır (14, s.167-182). Qədim dövrə aid xristian qəbirləri Şəki rayonunda Kiş məbədi ərazisindəki qəbiristanlıqda da tədqiq olunmuşdur. Burada sadə torpaq qəbirlərlə yanaşı, katakomb qəbirlər də aşkarlanmışdır. Bəhs olunan dövrdə üstündə xaç və başqa məişət təsvirləri olan qəbir daşları meydana gəlib yayılmışdır. Alban xaçdaşları Kəlbəcər, Gədəbəy, Laçın, Ağdam və Yuxarı Qarabağ ərazisində qeydə alınmışdır. Bu dövrdə tarixi alban vilayəti olan Sünikdə menhirləri xatırladan qəbirüstü xaç daşlarının ucaldılması faktı da diqqəti cəlb etməyə bilməz. Onun hündürlüyü 2,5 m-ə çatır. Aşağıda eni 1,4 m, yuxarıda 1,6 m-dir. Üstü yarımdairəvi tağ formasında tamamlanır. Üzərində nəbati və astral naxışlar fonunda alban xaçı qabardılmışdır. Qeyd edək ki, bəhs

olunan dövr alban xaç daşlarının səciyyəvi cəhətlərindən biri onların bədii tərtibatında xristian ikonoqrafiyasının müsəlman bəzək elementləri ilə çulğalaşmasıdır (16, s.252). Beləliklə, arxeoloji tədqiqatlar bəhs olunan dövrdə müsəlman dəfn adətinin Qarabağ ərazisində geniş yayıldığını, qəbirlərin üstünə sənduqə, baş və sinədaşıları kimi xatirə abidələri qoyulduğunu göstərir. XI əsrin sonlarından başlayaraq xatirə abidələrinin mürəkkəb növlərindən olan türbələrin inşasına başlanılır. XI-XII əsrlərdə onlar daha geniş yayılır. Bəhs olunan dövrdə Qarabağın dağlıq bölgələrində həmçinin xristian adəti ilə dəfn qalmaqda idi. Monqol ağalığı dövründə Qarabağda urbanizasiya prosesi özünün növbəti inkişaf mərhələsini keçirirdi. Monqol yürüşlərinin nəticəsi olaraq bir sıra şəhərlər qarət və dağıntılardan bir daha özünə gələ bilməyib tam tənəzzül edir. Yazılı qaynaqlardan bəlli olur ki, "kağız istehsalı üzrə ixtisaslaşmış Kağızqonan XIII əsrin sonu – XIV əsrin əvvəllərində böyük kəndə çevrilmiş, sakinləri artır, əsasən, əkinçiliklə məşğul olurdu" (17, s.72). Qarabağda monqol yürüşlərinin nəticələri aradan qaldırılandan sonra yenidən dirçəliş müşahidə olunurdu. Bu zaman Qarabağ bütövlükdə bütün müsəlman Şərqinin inkişaf etmiş regionlarından sayılırdı. Bunu sübut edən amillərdən biri də, həmin dövrlərdə saxsı qabların, evlərin və s. maddi mədəniyyət nümunələrinin naxışlanması qaydaları da xüsusi əhəmiyyət kəsb etməyə başladı. Onlar əsasən marqanes, mis və kobalt oksidindən almış olduqları şirələr vasitəsilə rəngarəng bədii lövhələr yarada bilmişlər. Marqanes naxışlı qablar daha çoxdur. Anqob üzrə, yaxud mavi yerlikdə naxış işləmələrini salıb qabı şəffaf, yaşıl, mavi, firuzəyi, az hallarda isə sarı şirlə şirələyirdilər. Bu tip qabların bədii tərtibatında həndəsi naxış elementlərindən çərxi-fələk, dairə, burulğan, xətli naxışlar, nəbati naxışlardan üçləçəkli qönçələr, şaxələnən budaqlar, kol, yarpaq təsvirləri geniş yayılmışdır. Marqanes naxışlı qablar içərisində qarışıq, yəni eyni zamanda həm nəbati, həm həndəsi, həm də zoomorf təsvirlə bəzədilmiş nümunələr kəmiyyət etibarı ilə çoxluq təşkil edir. Bütövlükdə, son orta əsrlərin şirli saxsı məmulatının bədii tərtibatında nəbati naxışlardan geniş istifadə edilirdi. Təsvir motivləri stilizə olunaraq bir çox hallarda tanınmaz hala salınırdı. Daha çox uçan quşların təsviri verilmişdir. Lakin onlar güclü stilizə olunaraq yarpaq naxışına yaxınlaşdırılmışdır. Nisbətən aydın çəkilmiş quş təsvirlərinə də rast gəlinir. Şirli qablarda dekor bir qayda olaraq konsentrik bölümə malikdir. Adətən kompozisiyanın mərkəzində qabın dibinə salınmış xonça, daha sonra qabın divarındakı ornamental qurşaqlar yerləşir. Kompozisiyanı qabın ağzının kənarındakı haşiyə tamamlayır. Bəzi hallarda radial bölümlü kompozisiyalara rast gəlinir. Mərkəzdən kənarlara şüa şəklində yayılan zolaqlar qabın daxili səthini 6 sektora bölür. Həmin sektorlarda epiqrafik və nəbati naxışlar növbələşir. Son orta əsrlərin bədii keramikasından bəhs edərkən yerli fayans qabların zəngin naxışlanması diqqəti çəkir. Təbriz şəhərində XVI əsrdə istehsal olunmuş fayans nimçənin mərkəzində dairəvi xonçada qızılbaş geyimli,

yaraşıqlı, ritmik bir hərəkətlə rəqs edən rəqqasə və onu sazla müşayiət edən gənc oğlan təsvir edilmişdir (1, s.273). Təsvirlər nəbati fonda verilmişdir. Nimçənin divarında nəbati ornamental qurşaq yerləşdirilmişdir. Kompozisiyanı nəbati xarakterli haşiyə tamamlayır. Belə qabların başqa çür formasına Qarabağda rast gəlinir. Bəhs olunan dövrdə metalın bədii işlənməsində Qarabağda metalişləmə məktəbi öncül mövqe tuturdu. İnkişaf etmiş qədim dövrə aid xristian məbədləri başqa abidələrdə də, o cümlədən Qarabağ bölgəsində yerləşən Amaras-Ağoğlan şəhər yerində də tədqiq olunmuşdur. Antik dövrdən yaşayış məskəni kimi mövcud olan Amarasda IV əsrdə məbəd tikilmiş və bura Qafqaz Albaniyasının dini mərkəzlərindən birinə çevrilmişdir. IX əsrdə burada monastır kompleksi inşa edilmişdir. Arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, X əsrdə məbəddə yenidənqurma işləri aparılmış, onun sahəsi əvvəlkinə nisbətən xeyli geniş götürülmüş və qərbə doğru uzadılmışdır. Məbədin X əsrdə yenidən qurulmasına başlıca səbəb ilk ərəb işğalı zamanı Amaras ərazisinin qanlı döyüş meydanına çevrilməsi və döyüş zamanı məbədin qismən dağıdılması olmuşdur. Məbədin sahəsi dəyişilsə də, o, öz əsas formasını saxlamışdır. Məbədin üstü tağ formasında örtülmüşdür. Qazıntılardan məlum olmuşdur ki, məbəd uzunsov bazilik formasında olmaqla, daxilində uzunluğu 15,9 m, eni isə 11 m-dir. Hər iki tərəfdən iki olmaq şərtilə dörd sütunla üç hissəyə ayrılmışdır. Məbədin döşəməsi daşdandır. Onun şərq tərəfində döşəməsi 1,2 m yüksəklikdə mehrab yerləşir. Mehrab adi qaydada oval formalıdır. Mehrabın eni 1,2 m, hündürlüyü isə 2 m olan pəncərəsi vardır. Mehrabın cənub və şimal tərəfində cübbəxanalar yerləşir. Cübbəxanaların yanında, yəni hər iki tərəfdən mehraba qalxmaq üçün xüsusi pilləkənlər düzəldilmişdi (9, s.55-57). Müəyyən edilmişdir ki, X-XIV əsrlər arasında məbədin daxili quruluşu dəyişməmişdir. Lakin məbədin divarlarında X əsrdə yenidənqurma zamanı ilk məbədin naxışlı daşlarından istifadə olunmuşdur. Amarasda yalnız dini abidələrdə təsadüf olunan memarlıq bəzəyi kimi işlənmiş bir qrup naxış diqqəti cəlb edir. Amaras məbədinin qapısı üzərində isə ağac təsviri verilmişdir. Məlum olduğu kimi, ağac təsviri xristianlığın hələ ilk dövrlərindən bir növ dəbdə olmuşdur. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Amarasın memarlıq abidələri içərisində dini abidələri nə qədər dəbdəbəli tikilmişdirsə, yaşayış evləri bir o qədər zövqsüz inşa edilmişdir. Qədim Alban xristian dini memarlığının maraqlı abidələrindən biri də Kəlbəcər rayonunun Vəng kəndində Tərtərçayın sol sahilində yerləşən Xudavəng monastırıdır. Buradakı kompleksə baş kilsə, bir neçə bazilika, yaşayış binaları, təsərrüfat tikililəri, kiçik sovməələr daxildir. Məbəd müdafiə divarları ilə əhatə olunmuşdur. Kompleksin ən qədim tikilişi baş məbədin şimalında inşa edilmiş "alban bazilikası"dır. Uzunluğu 16 m, eni isə 4,2 m olan bu məbəd uzun bir salondan ibarətdir və quruluş etibarilə ilk bir nefli xristian bazilikalarını xatırladır. Mehrabın sağ və solunda cübbəxana vardır. Daşdan əhəngli məhlulla

tikilmiş bu dini tikili VIII-IX əsrlərə aid edilir. Baş kilsənin özü istər həcm-məkan, istərsə də plan quruluşuna görə assimmetrik həllə malikdir ( 16, s.226). X-XV əsrlərdə ilk bazilika məbədin yanında bir sıra düzbucaq biçimli kilsə və sövmələr tikilmişdir. Xaçın knyazı Həsən Vaxtanq oğlunun hakimiyyəti illərində burada günbəzli kilsə inşa olunmuşdur. Xudavəng monastr kompleksində mühafizə olunmuş ən qədim yazı da Həsən Vaxtanq oğlu tərəfindən 1182-ci ildə həkk etdirilmiş və onun monastıra gələrək rahib həyatı qəbul etməsi haqqında məlumat verir. Xudavəng monastır kompleksində XIII əsrin əvvəlində inşa olunmuş mülki bina-sarayın salonu alban memarlığının unikal tikililərindən hesab oluna bilər. Kvadrat biçimli salonun mərkəzində bazalt daşdan yonulmuş dörd sütun, onların üzərində tağlar vardır (10, s.65-74).

Əsası ilk orta əsrlərdə qoyulmuş, bəhs olunan dövrdə də istifadə edilən alban xristian məbədləri Kəlbəcər rayonunun Kəşdək, Kilsə kəndlərində də qeydə alınaraq tədqiq edilmişdir. Dövrümüzə qədər salamat qalmış xristian məbədləri arasında Gədəbəydəki Həmşivəng məbəd kompleksi də diqqətəlayiq abidələrdəndir. Kompleks memarlar tərəfindən araşdırılmışdır (19, s.111).

Araşdırılan elmi fərziyyələr əsasında məlum olur ki, Qarabağ ərazisi qədim və orta əsrlərə aid müxtəlif tipli arxeoloji abidələrlə olduqca zəngindir. Bunun da səbəbi bir tərəfdən Qarabağın əlverişli təbii coğrafi şəraitə malik olmasıdırsa, digər tərəfdən də IV əsrdən başlayaraq bütün Albaniyada (qədim Azərbaycanda) olduğu kimi, burada da bir sıra iqtisadi, ictimai-siyasi və dini dəyişikliklərin baş verməsidir. Məhz IV əsrdən başlayaraq artıq Qarabağ ərazisində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir. Bütün ilk orta əsrlr dövründə Qarabağ ərazisində feodalizm üçün xarakterik olan müxtəlif növlü abidələrlə yanaşı, dini ideoloji baxımdan olduqca rəngarəng abidələr kompleksinə də təsadüf olunur. Bunun da başlıca səbəbi ondan ibarətdir ki, ilk orta əsrlərdə yerli əhalinin ideologiyasında ciddi pərakəndəlik mövcud olmuşdur. Bir tərəfdən əhalinin aşağı təbəqəsi arasında hələ də ibtidai dini təsəvvürlər sisteminin qalıqları güclü idi, digər tərəfdən isə xristianlıq dininin özünün daxilində üç cərəyan arasında (monofizitlər, diofizitlər və nestorianlar) ciddi mübarizə gedirdi. Nəticə etibarilə bütün Azərbaycanda olduğu kimi, Qarabağda da VII əsrdən etibarən ərəblər tərəfindən işğaldan sonra əhalinin əsas hissəsi arasında islam dininin yayılması geniş vüsət almışdır. Qarabağın dağlığ hissəsində yaşayan və nisbətən azlıqda qalan xristian əhalisi isə öz dini taleyini erməni Qriqorian kilsəsinə bağlamalı oldu. Bu baxımdan IX-X əsrlərdən başlayaraq Qarabağın dağlıq hissəsində yaşayan yerli əhali arasında alban dilli epiqrafik abidələr, düzən hissədə ərəb-fars dilli epiqrafik abidələr yayılmağa başlayır. Buna müvafiq olaraq düzən hissədə müsəlmanlara, dağlıq hissədə isə Şərq xristianlığına məxsus abidələr yaranır. Ümumiyyətlə, orta əsrlərə aid Qarabağın abidələrindən danışarkən onu üç mərhləyə bölmək olar: I dövr – ilk orta əsrləri,

II dövr – IX-X əsrləri, III dövr isə – XIII əsr və ondan sonrakı dövrləri əhatə edir. Əgər I dövr bu ərazidə bir sıra möhtəşəm şəhərləri, o cümlədən Bərdə, Amaras, Aquen və başqa qalaların yaranması ilə xarakterizə edilirsə, II dövr feodalizmin sürətli inkişafı dövrünə təsadüf etməklə, əsasən feodal qəsrlərinin, o cümlədən Laçınqala, Oğlanqala, Qarqar qalası kimi şəhər-qalalarının meydana gəlməsi ilə fərqlənir. Nəhayət, III dövr Qarabağda, xüsusilə onun dağlıq hissəsində Alban ənənələrinin yenidən canlanması ilə səciyyələnir. Bu isə həmin ərazidə Mehranilər sülaləsinin davamçıları tərəfindən idarə olunan Xaçın feodal hökmranlığının yaranması və kilsə tikintisinə geniş meydan verilməsi ilə bağlıdır. İnkişaf etmiş orta əsrlərdə kilsə memarlığının ən möhtəşəm abidələri olan Xəznə (Qandzasar), Müqəddəs Yelisey, Amaras və s. kimi məbəd-monastır komplekslərinin yaranması ilə diqqəti cəlb edir. Bu abidələrin bir qismi hələ ilk orta əsrlərdə yaranmasına baxmayaraq onlar ikinci təkmil həyata məhz XII-XIII əsrlərdən başlamışdır (11, s.21). Bu istiqamətdə elmi araşdırmaların aparılmasının da xüsusi elmi səciyyəvi xüsusiyyətləri vardır.

Beləliklə, Qarabağın qədim dövr arxeoloji abidələrinin səciyyəvi xüsusiyyətlərinin öyrənilməsi, xalqın maddiləşmiş yaddaşı olan bəşər övladının keçdiyi uzun tarixi yolu özündə ehtiva edir. Bu arxeoloji mədəni irs, yenidən yaradılması və istehsalı mümkün olmayan, qorunub gələcək nəsillərə ötürülən, keçmişin maddi obyektləri olub müasir dünyanın mühüm, unikal dəyərlərindəndir. Bu baxımdan Qarabağın ululardan yadigar qalan hər bir ibtidai insan düşərgəsi, erkən əkinçilərin yaşayış yeri, qədim və orta əsr şəhərgahı, istehkam tikilişi, qəbir və xatirə abidəsi, dekorativ-tətbiqi sənət nümunələri xalqın dünya mədəni irs xəzinəsini zənginləşdirən sərvətlərdəndir.

## ƏDƏBİYYAT


1. Azərbaycan arxeologiyası: 6 clddə, VI c., Bakı: Şərq-Qərb, 2008, 471 s.
2. Azərbaycan tarixi. Bakı: Elm, 1998, 380 s.
3. *Baxşəliyev V.* Azərbaycan arxeologiyası. I c., Bakı, 2006, 486 s.
4. *Bünyadov Z., Yusifov Y.* Azərbacan tarixi (ən qədim zamanlardan XX əsrədək): 3 cilddə, I c., Bakı: Azərnəşr, 1994, 496 s.
5. *Cəfərov Ə.Q.* Azərbaycan arxeologiyası. Daş dövrü: 6 cilddə, I c., Bakı: Şərq-Qərb, 2008, 445 s.
6. *Cəfərov Ə.Q.* İnsanlığın səhəri. Bakı: Azərnəşr, 1994, 80 s.
7. *Əhmədov Q.M.* Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979,198 s.
8. *Əliyev İ.H.* Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı: Elm, 1989, 420 s.
9. *Göyüşov R.B.* Amaras-Ağoğlan. Bakı: Elm", 1975, 140 s.
10. *Göyüşov R.B.* Xudavəng məbədi və onun yazılarına dair // Azərb. EA xəbərləri (TFH seriyası), 1972, № 3, s.65-74
11. Göyüşov R.Qarabağın keçmişinə səyahət. Bakı: Azərnəşr, 1993, 83 s.

12. *İsmayılov Q.S.* Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 51 s.
13. *İsmayılzadə P.Ə.* Muğanın təsərrüfat həyatı. Bakı: Xəzər Universiteti, 2009, 240 s.
14. *Vahidov R.M.* Govurqalada arxeoloji qazıntılar // AMM, VI c., Bakı, s.167-182
15. *Vəlixanlı N.M.* IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 170 s.
16. *Ахундов Д.А.* Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Элм, 1986, 311 с.
17. *Гейдаров М.Х.* Города и городское ремесло Азербайджана XIII-XVII веков. Баку, 1982, 283 с.
18. *Гусейнов М.М.* Азыхская пещера – многослойный памятник ашельского периода в СССР, АО 1971, Москва, 1972, 183 с.
19. *Мамедова Г.Г.* Зодчество Кавказской Албании. Баку: Чашыоглу, 2004, 224 с.
20. *Похомов Е.А.* Краткий курс истории Азербайджана. Баку, 1956

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 210-222
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 210-222
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 210-222

*UOT 338*

***M.K.Tajdehibonab***
*Azərbaycan Dillər Universiteti*
*m.tajdehibonab@gmail.com*

# MÜASİR DÖVRDƏ RUSİYA-POLŞA İQTİSADİ ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Rusiya, Polşa, Avropa Birliyi, iqtisadi əlaqələr*

XXI əsrdə Rusiya-Polşa iqtisadi münasibətlərində yeni istiqamətlər meydana gəldi ki, bu da daha çox Polşanın daxili və xarici siyasi həyatında baş verən önəmli hadisələrlə bağlı olmuşdur. İki ölkə arasında siyasi münasibətlərdə olan gərginlik iqtisadi münasibətlərə öz mənfi təsirini göstərməkdədir.

Məqalədə XXI əsrin əvvəllərindən başlayaraq Rusiyanın Polşa üçün yalnız böyük bazara malik ticarət tərəfdaşı olaraq qalması, yəni qarşılıqlı iqtisadi münasibətlərdə Polşa hakim dairələrinin ticarət əlaqələri ilə kifayətlənməsi və geniş iqtisadi əməkdaşlığın dəstəklənməməsi araşdırılmışdır.

Müəllif həmçinin müasir dövrdə Polşa və Rusiyanın biri birinə ehtiyacı olsa da Rusiya-Polşa iqtisadi münasibətlərinin demək olar ki, ticarət əlaqələri çərçivəsindən kənara çıxmadığını qeyd etmişdir.

***М.К.Таждехибонаб***

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РОССИЙСКО-ПОЛЬСКОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА В СОВРЕМЕННУЮ ЭПОХУ

***Ключевые слова:*** *Россия, Польша, Европейский Союз, экономические отношения*

Новые тенденции возникли в российско-польских экономических отношениях, которые были связаны с важными событиями во внутренней и внешней политической жизни Польши в XXI веке. Напряженность в политических отношениях между двумя странами также оказала негативное влияние на экономические отношения.

В статье рассматривается тот факт, что Россия остается только торговым партнером с Польшей с начала XXI века, то есть отсутствие торговых отношений между правящими кругами Польши во взаимных экономических отношениях и отсутствие поддержки широкомасштабного экономического сотрудничества.

Автор также отметил, что, хотя Польша и Россия нуждаются друг в друге в наше время, российско-польские экономические отношения не выходят за рамки торговых отношений.

***M.K.Tajdehibonab***

## MAIN TRENDS OF THE RUSSIAN-POLISH ECONOMIC COOPERATION IN MODERN TIMES

***Keywords:*** *Russia, Poland, European Union, economic relations*

In the XXI century new trends in the Russian-Polish economic relations appeared, which has been mostly associated with the significant events occurring in Poland's domestic and foreign political life. The tension in political relations between the two countries has a negative impact on economic relations.

The issue of Russia’s remaining as a major trading partner for Poland with a great market, which means that the Polish dominant circles being satisfied with trade relations in mutual economic relations and the lack of support for large-scale economic cooperation from the beginning of the XXI century was studied in the article.

The author also noted that, although Poland and Russia need each other in modern times, the Russian-Polish economic relations are almost beyond the scope of trade relations.

XXI əsrdə Rusiya-Polşa iqtisadi münasibətlərində yeni meyillər, yeni istiqamətlər meydana gəldi ki, bu da daha çox Polşanın daxili və xarici siyasi həyatında baş verən önəmli hadisələrlə bağlı olmuşdur. 1989-cu ildən sonra Polşanın ən vacib xarici siyasət prioritetlərindən biri Avropa Birliyinə (AB) tam inteqrasiya olmaq olmuşdur və Avropa Birliyinə daxil olmaq ərəfəsində Polşa artıq İttifaqın on əsas ticarət tərəfdaşları arasında yer tutmuşdur. Belə ki, 2003-cü ildə Polşanın Aİ ilə ticarət dövriyyəsi 60 milyard avro təşkil edirdi və Polşanın ixracının və idxalının təxminən 70%-i Avropa Birliyi ilə ticarətin payına düşürdü [16, s.166]. 2004-cü ildə Polşanın AB-yə qoşulması və sərhədlərin açılması ilə gömrük əngəlləri aradan qaldırıldı, bununla da malların əlavə test və sertifikatlaşdırılmasına ehtiyac qalmadı, polşalı sahibkarlar və ixracatçılar üçün AB əmtəə və maliyyə bazarlarına çıxış asanlaşdı, ticarət və nəqliyyat xərcləri azaldı. Polşa xarici ticarətinin aktivləşdirməsi nəticəsində 2004-2009-cu illərdə Polşa iqtisadiyyatı onun açıqlığı baxımından AB-nin "köhnə" ölkələrinə yaxınlaşdı və hətta qısa bir zamanda AB-nin "köhnə" ölkələri üçün xarakterik olan bu göstəricinin orta səviyyəsini ötüb keçdi. 2001-2010-cu illərdə Polşanın xarici ticarəti cari qiymətlərlə 4,2 dəfə, eyni zamanda 2004-2010-cu illərdə 2,8 dəfə artdı [16, s.166]. 2006-2009-cu illərdə Polşanın ixracat bazarında 15 ən fəal tərəfdaşından 13-ü, idxalda isə 10-u Avropa İttifaqına daxil olan ölkələr olmuşdur [21, s.104; 22, s.106; 23, s.113; 24, s.113]. Bununla yanaşı, Şərq ölkələri və ilk növbədə, MDB ölkələri ilə də ənənəvi iqtisadi əlaqələr qalmaqda idi. Avropa İttifaqının üzvü kimi Polşa MDB ölkələri ilə, xüsusən də Rusiya ilə yaxınlığından öz mövqelərinin gücləndirilməsi üçün istifadə edirdi və bu istiqamətdə onun ticarət maraqları ilə

siyasi meyilləri arasında bağlılıq var idi.

2000-ci illərdə Polşanın xarici siyasət və xarici iqtisadi əlaqələr strategiyasında Rusiyaya ayrılan yer əhəmiyyətli dəyişikliklərə uğramamışdır, belə ki, Polşa Rusiya Federasiyasını özünün yaxın, strateji tərəfdaşı saymırdı. Xarici siyasi prioritetlər sırasında Polşa üçün Rusiya Aİ ölkələri və ABŞ-dan sonra üçüncü yerdə dururdu. 2000-ci illərdə Rusiya-Polşa münasibətlərində yaxşılaşma dövrləri münasibətlərin pisləşməsi dövrləri ilə əvəz olunaraq əyri xətt üzrə inkişaf etməkdə davam etmişdir. Münasibətlərin pisləşməsi hər iki ölkənin mövqeyindəki ziddiyyətlərlə və qarşılıqlı maraqların üst-üstə düşməməsi ilə bağlı idi.

2000-ci ilin əvvəlində Rusiya-Polşa arasında yaranan siyasi gərginlik iqtisadi əlaqələrə də mənfi təsirini göstərdi. 2000-ci ildə Yamal-Avropa qaz boru xəttinin ikinci növbəsinin çəkilişi məsələsində Rusiya ilə Polşa arasında anlaşılmazlıq yarandı. Rusiya tərəfi bu xətti Ukraynadan keçmədən Polşa ərazisi ilə aparmağı təklif etdi və Rusiya rəsmiləri Polşanın bu layihədən imtina etməsinə cavab olaraq onu başqa marşrutla, hətta Baltik dənizinin dibi ilə reallaşdıracaqlarını bildirdilər. Ancaq o vaxt Polşada Rusiyanın bu bəyanatı ciddiyə alınmadı.

2002-ci ilin yanvarında V.V.Putinin Polşaya səfəri münasibətlərdə qarşılıqlı etimadın yaranmasında böyük rol oynadı. Səfər çərçivəsində "Polşa-Rusiya" II İqtisadi Forumunda çıxışı zamanı V.Putin iki ölkə arasında iqtisadi münasibətlərin əsas cizgilərini müəyyən etdi. Rusiya prezidenti çıxışında Polşa ilə mehriban qonşuluq, bərabərlik və işgüzar praqmatizm prinsipləri əsasında qarşılıqlı əlaqələrin inkişaf perspektivlərindən, bu əməkdaşlığı miqyaslı, strateji, uzunmüddətli qarşılıqlı münasibətlərə çevirmək zərurətindən və dostluq münasibətlərinin tarixi qaçılmazlığından danışdı [7]. Qarşılıqlı əlaqələrdə dinamizmi artırmaq məqsədi ilə artıq 2002-ci ilin aprelində Rusiya-Polşa Biznes şurası yaradıldı. Biznes şurası bir neçə işçi qrupları yaratmışdı ki, onlar maliyyə, enerji, tikinti, nəqliyyat, ticarət və gəmiqayırma sahəsində layihələr hazırlamaqla məşğul olurdular [1].

XXI əsrin başlanğıcında V.Putinlə A.Kvasnevskinin şəxsi kontaktlarına əsaslanan Rusiya-Polşa münasibətlərində artıq 2003-cü ildən "sərinləşmə" başladı ki, bu işdə həm Rusiya-ABŞ münasibətlərindəki ziddiyyətlərin, həm də hər iki ölkə hökumətlərinin iqtisadi qərarlarının təsiri olmuşdur. 2003-cü ilin əvvəllərində Rusiya tərəfi Polşadan idxalın məhdudlaşdırılması haqqında nota verdi. Əslində bu nota Polşanın Rusiyadan daş kömürün idxalına qoyduğu məhdudlaşmaya cavab idi [14, s.21]. 2003-cü ilin fevralında Rusiyanın Baş Naziri M.Kasyanov Polşaya səfər etdi, ancaq arzulanan nəticə əldə olunmadı və bir çox mübahisəli məsələlər həll edilməmiş qaldı.

Beləliklə, 2004-cü ildən başlayaraq iqtisadi münasibətlər sahəsində soyuqlaşma başladı. Qarşılıqlı münasibətlərdə gərginliyin əsas səbəblərindən

biri Polşanın Avropa Birliyinə üzvlük məsələsi idi. Hər iki tərəf Polşanin İttifaqa üzvlüyünün mümkün mənfi fəsadlarının minimuma endirilməsinə çalışırdı və artıq 2003-cü ilin oktyabrında Rusiya ilə Polşa arasında viza rejiminin tətbiq olunması nəticəsində çelnok ticarəti kəskin şəkildə aşağı düşdü, fərdi turistlərin və kiçik sahibkarlığın sayı azaldı. Nəticədə, Polşa iqtisadiyyatı hər il 1 milyard dollar maliyyə itkisi ilə üzləşməli oldu. 2005-ci ildə mövcud problemlərə daha bir problem əlavə edildi: bu Rusiya qazının Almaniyaya nəqlini təmin edəcək Baltik Qaz Kəmərinin Polşa ərazilərini keçmədən nəql edilməsi məsələsi idi. Hələ 2001-ci ildən Polşa rəhbərliyi karbohidrogen xammalının Polşaya çatdırılması proyektlərini dəstəkləyirdi və bu istiqamətdə işlər aparılırdı. 2003-cü ildə A.Kvasnevki Şimali Avropa Qaz boru xəttini dəstəkləsə də, 2005-ci ilin yayından bu proyektə münasibət dəyişdi. Eyni zamanda Rusiya kompaniyalarının da maraqlarının reallaşmasında çətinliklər yarandı [14, s.22].

Rusiya və Almaniyanın Baltik Qaz kəmərinin çəkilişi ilə bağlı qəbul etdiyi qərarlar bu ölkələrin milli maraqlarına cavab verirdi. Rusiyanın Ukraynadan yan keçərək Polşa əraziləri ilə qaz boru kəməri çəkmək kimi təklifini dəstəkləməyən Polşa özü bu layihədən kənarda qaldı və hesab edirik ki, Baltik Qaz kəmərinin çəkilişi məsələsi Polşada milli maraqların necə başa düşülməsi xüsusiyyətlərini bir daha nümayiş etdirdi. Beləliklə, qaz kəmərinin çəkilişi məsələsində Polşanın mövqeyini rasional hesab etmək olmazdı və sərgilənən mövqe Rusiyada düşməncəsinə qarşılandı. Göründüyü kimi, 2002-2004-cü illərdə Rusiya və Polşa arasında iqtisadi münasibətlərdə canlanma dövrü qarşılıqlı inamsızlıq, süstlük dövrü ilə əvəz olundu ki, bu da 2005-ci ilin payızından Polşada hakimiyyətə anti-Rusiya mövqeyi ilə tanınan "Hüquq və Ədalət" partiyasının gəlməsi ilə bağlı idi. Ancaq 2007-ci ilin sonunda Polşada hakimiyyətə D.Tuskun rəhbərlik etdiyi hökumətin gəlişi ilə Polşanın Rusiya siyasəti praqmatik xarakter almağa başladı. Polşanın baş naziri D.Tusk Seymdə proqram nitqi ilə çıxış edən zaman demişdir: "Biz Rusiyanı necə var o cür də qəbul edirik və biz onunla dialoq qurmaq istəyirik" [16, s.172]. "Vətəndaş Platforması"nın Polşa hökumətinə rəhbərliyi dövründə, xüsusən də 2008-2013-cü illərdə Rusiya və Polşa arasında yaxşı münasibətlər bərqərar olmuşdur.

Ümumiyyətlə, XXI əsrin əvvəllərindən başlayaraq Rusiya Polşa üçün yalnız böyük bazara malik ticarət tərəfdaşı olaraq qalırdı, yəni qarşılıqlı iqtisadi münasibətlərdə Polşa hakim dairələri ticarət əlaqələri ilə kifayətlənirdilər və geniş iqtisadi əməkdaşlıq dəstəklənmirdi. Polşada iri Rusiya kapitalı üçün yaxşı sərmayə iqlimi yaradılmamışdı. Araşdırma göstərir ki, 2000-2010-cu illərdə Rusiya-Polşa münasibətlərində siyasi münasibətlərin vəziyyəti ilə ticarət münasibətlərinin vəziyyəti arasında birbaşa əlaqə müşahidə edilməmişdir, yəni siyasi münasibətlərin pisləşməsi artıq böyük hissəsini enerji daşıyıcıları ticarəti təşkil edən iqtisadi münasibətlərin pisləşməsinə gətirmirdi. Belə ki, 2005-ci ilin

oktyabrından 2007-ci ilin noyabrınadək Polşada hökumətə "Hüquq və Ədalət" partiyasının nümayəndələri rəhbərlik etdiyi zaman siyasi münasibətlərin pisləşməsinə baxmayaraq ticarət münasibətləri yetərincə uğurla inkişaf etmişdir. Ancaq bu, o demək deyil ki, iqtisadi münasibətlərdə siyasi amillərdən qaynaqlanan problemlər yaranmamışdır.

1998-ci ilin avqustunda Rusiyada baş verən maliyyə böhranından sonra qarşılıqlı münasibətlərdə "fasilə" yaransa da, 2000-ci ildən başlayaraq Rusiya və Polşa arasında əmtəə dövriyyəsi yenə artmağa başladı və bu sahədə artım 10 il ərzində, yəni 2009-cu ilə qədər davam etdi. 2008-ci ildə iki ölkə arasında mal dövriyyəsi rekord həddə – 29,46 milyard dollara çatdı [23, s.113]. 2010-cu ildə Rusiyanın xarici ticarət dövriyyəsində Polşanın çəkisi azaldı və 2006-cı ilin səviyyəsinə enərək 3,4% təşkil etdi [10, s.36], halbuki 2009-cu ildə bu göstərici 3,6% olmuşdur. Rusiyanın ixracatında Polşanın payı 2009-cu ildə 4,1%, 2010-cu ildə 2,8% və Rusiyanın idxalında Polşanın payı 2009-cu ildə 2,5% və 2010-cu ildə 2,6% olmuşdur [25, s.113]. Əgər 2009-cu ildə Rusiyanın ticarət tərəfdaşları arasında Polşa 10-cu ölkə idisə, 2010-cu ildə bir pillə geriləyərək 11-ci yerə enmişdir. Bütün 2000-ci ildən sonrakı dövr ərzində Rusiyanın Polşa ilə ticarətində müsbət saldo müşahidə edilmişdir. Belə ki, əgər 2000-ci ildə saldo 3 milyard 757 milyon dollar təşkil etmişdisə, 2010-cu ildə bu rəqəm 11,58 milyard dollar təşkil etmişdir. 2008-ci ildə ən yüksək müsbət saldo göstəricisi – 11,62 milyard dollar qeydə alınmışdır [23, s.113]. Polşa xarici ticarətinin toplam mənfi saldosunun 20%-i Rusiyanın payına düşür.

2000-2010-cu illərdə Rusiyanın Polşaya ixracatının tərkibində elə də əhəmiyyətli dəyişikliklər baş vermədi, yəni o, əvvəlki dövrlərdə olduğu kimi əsasən xammal xarakteri daşıyırdı. Rusiya Federasiyasının Polşadakı Ticarət Nümayəndəliyinin məlumatına əsasən, 2010-cu ildə Rusiyadan Polşaya ixracın tərkibində neft və neft məhsulları 67%, qaz 18% və beləliklə, enerji daşıyıcıları ümumilikdə 85% təşkil etmişdir [13]. Rusiya Federal Gömrük Xidmətinin məlumatına əsasən Rusiyadan Polşaya daşınan malların içində mineral xammal və yanacaq 2009-cu ildə 92,4% və 2010-cu ildə 90,9% təşkil etmişdir [13]. 2010-cu ildə ümumən Polşanın mineral xammal idxalında Rusiyadan idxal etdiyi mineral xammal artaraq 56,1%, yəni 13,19 milyarddan artıq təşkil etdi. Eyni zamanda bu, yenə də 2008-ci ilin səviyyəsindən 2,3% az demək idi [25, s.113].

Son illərdə Polşadan Rusiyaya ixrac olunan malların tərkibində əhəmiyyətli dəyişikliklər baş vermişdir. 2000-ci illərin ortalarından maşın, avadanlıq və nəqliyyat vasitələrinin ixracı birinci yerə çıxdı. Polşa statistikasının məlumatına görə adı çəkilən məhsulların Polşa ixracatında payı 2000-ci ildə 19%-dən 2010-cu ildə 29%-ə qədər yüksəldi və 2011-ci ilin ortalarında bu göstərici 37% təşkil etdi. 2009-cu ildə istehlak mallarının ixracı bütövlükdə 40%, sərmayə xarakterli malların ixracı isə demək olar ki,

yarıbayarı azaldı [20, s.31]. 2010-cu ildə maşınqayırma məhsullarının ixracı isə 53% artdı [25, s.136]. Polşanın Rusiyaya ixracatında həmçinin kimya sənayesi məhsulları da əhəmiyyətli yer tuturdu. Bura əsasən, dərman istehsalı sahəsini, kosmetika və plastmas istehsalını aid etmək olar. Qeyd edək ki, kimya sənayesi məhsulları ixracatda 20%, ağac emalı sənayesi məhsulları və kağız ixracı 8%, metallurgiya məhsullarının ixracı 8% və yüngül sənaye məhsullarının ixracı 5% təşkil edir [25, s.135-136].

Polşadan Rusiyaya həmçinin ərzaq ixrac edilir. Hələ 2000-2005-ci illərdə ərzaq malları qrupu ümumi ixracın 22-25%-ni təşkil edirdi. Bir sıra qadağaların və məhdudiyyətlərin qoyuluşundan sonra Polşadan Rusiyaya ərzaq ixracı kəskin surətdə aşağı düşdü və 2008-ci ildə 10,4% təşkil etdi. Bu məhdudiyyətlərin aradan qaldırılması nəticəsində Polşadan ərzaq ixracı bərpa edildi və öz əvvəlki mövqelərini tədricən bərpa etdi. 2009-cu ildə RF-nin FGX-nin məlumatlarına əsasən, Polşadan ərzaq ixracı ümumi ixracatın 19,7%-ni təşkil etmişdir [16, s.176].

Polşa statistikasının məlumatına görə, 2010-cu ildə kənd təsərrüfatı ərzaq malları ixracatda 15% təşkil etmişdir [25, s.135] və 2011-ci ildə bu göstərici artmaqda davam etmişdir [26, s.139]. 2010-cu ildə Polşa Rusiyaya təqribən 940,5 milyon həcmində kənd təsərrüfatı məhsulları ixrac etmişdir [25, s.135]. Polşa Rusiya bazarlarına əsasən, canlı heyvan, ət, süd məhsulları, şəkər və konditer məhsulları, həmçinin meyvə və tərəvəz ixrac etmişdir. Rusiya bazarlarına kənd təsərrüfatı məhsullarının ixracatı ilə məşğul olan Polşa şirkətlərinin sayı təqribən 150-yə yaxın idi. 2010-cu ildə Polşa Rusiyaya 32 min ton ət, o cümlədən 14,5 min ton mal əti, 9,8 min ton donuz əti və 7,6 min ton quş əti ixrac etmişdir. Polşa Rusiyaya 2009-cu ildə 89 mln. dollarlıq və 2010-cu ildə isə 177 mln. dollarlıq ət satmışdır. 2010-cu ildə Rusiya Polşa meyvələrinin, xüsusən də almanın əsas istehlak bazarı olaraq qalmaqda idi. 2010-cu ilin quraqlığına baxmayaraq Polşadan Rusiyaya 347 min ton alma və 73 min ton tərəvəz ixrac edilmişdir. 2010-cu ildə həmçinin Polşadan Rusiyaya konditer məhsullarının da ixracı iki dəfə artmışdır [16, s.177]. Rusiyanın veterinar və fitosanitar xidməti heyvandarlıq və bitkiçilik məhsullarının təhlükəsizliyinə böyük diqqət yetirirlər. Rusiya normaları Aİ-nın normalarından bir qədər fərqli olduğundan arabir bu zəmində münaqişə yaranır və Polşadan məhsulların idxalı müvəqqəti dayandırılır. Polşa ixracatçıları üçün ən vacib məsələ ixracat sertifikatları məsələsi idi, çünki təzə meyvə və tərəvəz kənd təsərrüfatı mallarının ixracında 40% təşkil edirdi [16, s.177]. 2000-2010-cu illərdə Polşa məhsullarının əsas idxalçıları Moskva şəhəri, Moskva vilayəti, Kalininqrad vilayəti, Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti, Rusiyadan Polşaya əsas mal ixrac edən bölgələr isə Moskva şəhəri, Çelyabinsk vilayəti, Sankt-Peterburq şəhəri, İrkutsk və Leninqrad vilayətləri olmuşdur.

2000-2010-cu illər ərzində Polşanın Rusiyadan idxal olunan enerji

daşıyıcılarından asılılığı qalmaqda idi. Hətta 2010-cu ildən sonrakı dövrdə bu asılılıq bir qədər də artmışdır. İndi Rusiyadan Polşaya müxtəlif növ enerji daşıyıcıları – təbii qaz, propanbutan, sıxılmış qaz, neft və daş kömür göndərilir.

2000-ci illərin sonlarından Rusiyadan Polşaya neft və qazın çatdırılması artmışdır. Belə ki, 2010-cu ildə Rusiyadan Polşaya 21,1 mln. ton, 2011-ci ildə 21,9 mln. ton, 2012-ci ildə 23,5 mln. ton neft göndərilmişdir ki, bu da ki 2009-cu ildəki səviyyədən 5,6 mln. ton çoxdur [17, s.109]. Bu Polşanın neftayırma zavodlarının emaletmə gücünün artması və bu zavodların texnoloji cəhətdən yenilənməsi ilə bağlıdır. Əvvəlki illərdə Rusiya və Polşa dispeçer xidmətlərinin fəaliyyətinin koordinasiya olunması haqqında müqavilə imzalanmışdı. Eyni zamanda 2005-ci ilin aprelində "AK Transneft" Açıq Səhmdar Cəmiyyəti ilə "Drujba" PERN Səhmdarlar Cəmiyyəti arasında Polşa Respublikası ərazisi ilə neftin nəqli üzrə əməkdaşlıq haqqında razılaşma imzalandı [12].

Rus qazını alan Mərkəzi Avropa ölkələri arasında Polşa dördüncü yeri tuturdu. Polşa 2010-cu ildə Rusiyadan 9,69 milyard kubmetr qaz idxal etmişdir ki, bu da 2009-cu ilə nisbətən 0,7 milyard kubmetr artım demək idi [16, s.178]. 2010-cu il oktyabrın 29-da Varşavada baş nazirin müavinləri – Rusiyadan İ.İ.Seçin və Polşadan V.Pavlyak hökumətlərarası iki protokol imzaladılar. Birinci protokol 25 avqust 1993-cü il müqaviləsinə, ikinci protokol isə 12 fevral 2003-cü il müqaviləsinə aid idi. Eyni zamanda ASC "Qazprom"un idarə heyətinin sədr müavini Aleksandr Medvedyev və Polşa Dövlət Neft və Qaz Kompaniyasının idarə heyətinin sədri Mixail Şubskiy arasında bir sıra sənədlər imzalandı. O cümlədən "Qazprom"la PGNiG arasında qazın Polşaya çatdırılması barədə 2022-ci ilədək müddətə Qaz Kontraktı bağlandı [2, s.158]. Kontrakta görə, 2011-ci ildə Polşaya 10,5 milyard kubmetr, 2012-2022-ci illərdə isə hər il 11 milyard kubmetr qaz çatdırılmalı idi. Bağlanmış kontrakta görə qazın qiymətində müəyyən güzəştlər sistemi nəzərdə tutulmuşdur, ancaq Polşa tərəfi bu güzəştləri yetərli saymadı və məsələ ilə bağlı 2011-ci ilin noyabrında PGNİG isklə Stolkholm Orbitraj Məhkəməsinə müraciət etdi [2, s.158].

2000-ci illərin ortalarından Polşanın enerji balansında Polşa daş kömüründən daha keyfiyyətli və daha ucuz Rusiyanın Kuzbas hövzəsindən gətirilən daş kömür böyük rol oynamağa başladı. 2005-ci ildə Polşaya 2,5 mln. ton, 2006-cı ildə 3 mln. ton, 2009-cu ildə 6,5 mln. ton, 2010-cu ildə 7,7 mln. ton daş kömür ixrac edilmişdir [2, s.161]. 1990-cı illərdən başlayaraq Polşanın Rusiyadan enerji asılılığının zəiflədilməsi ilə bağlı bir çox Polşa siyasiləri və ekspertləri fikirlər söyləsələr də, yalnız D.Tuskun rəhbərliyi dövründə hökumət bu istiqamətdə real addımlar atmağa başladı. 2011-ci ilin əvvəllərində Svinoustse limanında sıxılmış qazın qəbulu üçün dəniz terminalının tikintisinə başlanıldı. Onun tikintisinin 2014-cü ilin ortalarına təhvil verilməsi planlaşdırılırdı. İlk mərhələdə terminalın buraxılış qabiliyyəti 5 milyard

kubmetrə bərabər idi. Qətərlə ildə 1,5 milyard kubmetr sıxılmış qazın çatdırılmasına dair müqavilə imzalandı. Rusiyanın enerji xammalından asılılığı azaltmaq yolunda 2011-ci ildə Polşa hökuməti, həmçinin şist qazının çıxarılması məsələsini qaldırdı və 2014-cü ildən sənaye həcmində şist qazının hasilatına başlayacağını bəyan etdi. Amerikalı ixtisasçıların proqnozuna görə Polşada bu qazın ehtiyatları 5,3 trilyon kubmetrə bərabərdir.

2014-cü ildən "Qazprom" Polşa bazarında təbii qazın ixracında tam inhisarçı rolunu itirməyə başladı. Rusiya üçün onun enerji daşıyıcılarını nəql edən ölkə kimi Polşanın əhəmiyyəti ildən ilə azalırdı. 2011-ci ildə Polşanın idxal etdiyi qazın 85,5%-i Rusiyanın payına düşürdüsə, 2014-cü ildə bu rəqəm 75,8% [17, s.109], 2017-ci ildə 50% təşkil etmişdir [19].

1990-cı illərin ortalarından Polşa hakimiyyət orqanları elektrik enerjisi sahəsində və ilk növbədə, Rusiyadan elektrik enerjisinin Polşa ərazisi ilə Qərb dövlətlərinə idxalı məsələsində əməkdaşlıqdan imtina etmişlər. 2010-cu ildə bu məsələ yenidən gündəmə gətirildi və 2010-cu il oktyabrın sonunda Rusiya Baş nazirinin müavini İ.Seçin Polşaya səfəri zamanı Polşa hakimiyyət orqanlarına Kalininqrad vilayətində inşa edilən Baltika AES-nin tikintisində və elektrik enerjisinin birgə satışında iştirak etməyi təklif etdi [18, s.110]. Ancaq Polşa tərəfi maliyyə vəsaitinin çatışmazlığı səbəbindən Baltika AES-nin tikintisində iştirakdan imtina etdi.

Polşa Mərkəzi və Şərqi Avropada yeganə ölkədir ki, onun iqtisadiyyatında Rusiya kompaniyaları, o cümlədən elektrik enerjisi üzrə kompaniyalar fəaliyyət göstərmir. Yalnız "Qazprom" PGNİG ilə birlikdə Yamal qaz borusunun Polşa hissəsinin mülkiyyətçisidir. Rusiya statistika komitəsinin məlumatına görə 2010-cu ilin sonuna Polşada Rusiyanın qoyduğu sərmayə cəmi 47,2 mln. dollar olmuşdur [18, s.115].

Rusiyada 1998-ci ildə baş verən maliyyə böhranından sonra bir çox Polşa şirkətləri Rusiyada fəaliyyətini dayandırmışdı. 2002-2004-cü illərdə Polşada xüsusi proqram hazırlandı ki, o da Rusiya bazarında Polşa iş adamlarının itirilmiş mövqelərinin bərpasının reallaşdırmasına xidmət edirdi. Bu məqsədlə ixrac kreditlərinin sığortası korporasiyaları (KUKE) və banklar tərəfindən Rusiya Federasiyası ilə ixracat kontraktı bağlayan Polşalı kompaniyalara kredit zəmanəti və sığorta təklif olundu [16, s.182].

2011-ci ildə Rusiyadan Polşaya ixracın həcmi sürətlə artaraq 21 milyard 367 milyona çatdı [3, s.699]. Sonrakı illərdə bu rəqəm bir qədər düşsə də, ancaq yenə də Ukrayna böhranına qədər Rusiya ixracında Polşa mühüm yer tuturdu: 2012-ci ildə 19 milyard 878 mln. və 2013-cü ildə 19 milyard 582 mln. dəyərində mal Polşaya ixrac edilmişdir [4, s.605]. 2014-cü ildən başlayaraq iki ölkə arasında idxal-ixrac əməliyyatlarının həcmi kəskin şəkildə azalmağa başlamışdır və yalnız 2017-ci ildən azalma meyli dayanaraq artım qeydə alınmışdır [6, s.487-490].

Ukrayna hadisələrindən sonra Rusiyaya qarşı tətbiq edilən sanksiyaların nəticəsi olaraq Rusiyanın dünya ticarətində payı həm ixracatda, həm də idxalda azalmağa başlamışdır. Əğər 2014-cü ildə dünya ixracatında Rusiyanın payına 2,7% düşürdüsə, 2016-cı ildə bu rəqəm 1,8%-ə enmişdir və bu meyil davam etməkdədir. Eyni tendensiya həmçinin idxalda da müşahidə olunur – 2010-cu ildə dünya üzrə mal idxalında Rusiyanın payı 1,5% təşkil edirdisə, 2016-cı ildə bu göstərici 1,2% -ə enmişdir [5, s.668]. Qərb ölkələri tərəfindən Rusiyaya qarşı tətbiq edilən sanksiyaların nəticələri Rusiya-Polşa arasında iqtisadi münasibətlərə mənfi təsir göstərməkdə davam edir. 2010-cu ildən başlayaraq Rusiyanın xarici ticarətdə xidmət ixracının ümumi həcmi artaraq 2014-cü ildə 65 milyard 744 mln. ABŞ dollarına çatmışdır ki, müəllifin hesablamalarına görə, bu da Rusiyanın ümumi ixracının 13,2% demək idi [5, s.667-668]. 2014-cü ildən sonra həm Rusiyanın ümumi ixrac həcmi, həm də satılan xidmətin həcmi azalmışdır: 2016-cı ildə ümumi ixrac 182,3 milyard ABŞ dolları, satılan xidmət isə 50 milyard 554 mln. təşkil etmişdir [5, s.667-668]. Ancaq ümumi ixracda xidmət satışının payı artaraq təqribən 27,7%-ə çatmışdır. 2014-cü ildən Rusiyanın bir çox ölkələrə xidmət ixracında sabitlik davam etsə də, 2014-cü ildən sonra Rusiyanın Polşaya xidmət ixracı demək olar ki, yarıbarı azalaraq 1 milyard 115 milyondan 566 milyona enmişdir [5, s.667-668]. 2014-cü illə müqayisədə Rusiyanın dünya üzrə xidmət idxalının ümumi həcmi 2016-cı ildə 38,6% azaldığı halda, Polşadan xidmət idxalının nominal çəkisi 944 milyondan 537 milyona enmişdir, baxmayaraq ki, faiz etibarı ilə göstərici dəyişməyərək 0,8% qalmışdır [5, s.667-668].

Son illərdə Rusiya-Polşa ticarət əlaqələrində müsbət meyillər güclənməkdədir. 2014-cü ildə Polşadan idxal 7,1 milyard, 2017-ci ildə 4,9 milyard, 2018-ci ilin birinci yarısında isə 2,4 milyard olmuşdur. 2018-ci ilin birinci yarısının nəticələrini 2014-cü ilin müvafiq dövrü ilə müqayisə etsək, 31,5% azalmanın olduğunu, ancaq 2017-ci ilin birinci yarısı ilə müqayisədə (2,1 milyard) isə 14, 5% artım müşahidə olunur [15, s.14].

Son illər Polşa rəhbərliyinin ən çox diqqətində olan məsələ – Polşanın enerji təhlükəsizliyinin təmin olunmasıdır. Enerji təhlükəsizliyini təmin etmək üçün hökumət qarşısında elektrik xətləri tikintisinə sərmayə qoymaq, yeni elektrik stansiyaları inşa etmək; enerji resurslarının alınması mənbələrini effektli şəkildə diversifikasiya etmək və daş kömür sənayesi müəssisələrini modernləşdirmək kimi vəzifələr qoyulmuşdur. Bu tədbirlərin həyata keçirilməsi Polşanın enerji təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsinə xidmət etməli idi. Həmçinin, alternativ enerji mənbəyi kimi,Polşa ABŞ-dan neft və mayeləşdirilmiş qaz almağı da planlaşdırırdı. 2017-ci ilin məlumatına görə, Rusiyadan idxal olunan qaz Polşanın tələbatının 50%-ni ödəyir, xammal qazın 25%-ni Polşa özü hasil edir və yerdə qalan 25%-i isə müxtəlif satıcılardan alır [11].

Polşa üçün ən vacib məsələlərdən biri tarixi olaraq formalaşan enerji təchizatı məsələsində Rusiyadan asılılığı azaltmaqdır. Hələ V.Pavlyakın Polşanın İqtisadiyyat naziri işlədiyi dövrdə "Qazprom" qaz kontraktının daha 15 il, yəni 2037-ci ilədək uzadılmasını təklif etmişdi və bu təklifin qəbul edilməsi Polşanı uzun müddətə Rusiya qazından asılı vəziyyətə sala bilərdi. Ancaq prezident L.Kaçinskinin işə qarışması ilə kontraktın 2037-ci ilədək uzadılmasına imkan [8] verilməmişdir [11].

Enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə Polşa Baltik Qaz kəmərini çəkməyi planlaşdırır. Polşa ilə Danimarkanı və Norveçin neft-qaz yataqlarını birləşdirəcək bu proyektin 2022-ci ildə, yəni Rusiya ilə qaz kontraktının müddətinin bitməsinədək başa çatdırılması planlaşdırılmışdır. 2017-ci ildən tərəflər Baltik dənizində ekoloji tədqiqatlar aparılırlar və Danimarkanın "Energinet" və Polşanın "Qaz-System" kompaniyaları texniki məsələlərlə bağlı sıx əməkdaşlıq edirlər. Bu ölkələr arasında əməkdaşlıq həmçinin, siyasi səviyyədə də davam etdirilir.

Baltik Qaz boru kəmərinin inşası Polşanın enerji məsələsində Rusiyadan asılılığını bir qədər azaldacaqdır. Bu kəmərlə Polşaya ildə 10 mlrd. kub metr qazın çatdırılması planlaşdırılır. Polşanın enerji daşıyıcıları məsələsində yürütdüyü diversifikasiya siyasəti Rusiyadan enerji təhlükəsizliyi asılılığına qismən son qoymaq niyyətindən irəli gəlmişdir. Rusiyanın "Şimal Axını-2" proyekti Polşanın enerji təhlükəsizliyi sahəsində maraqlarına zidd olduğundan Polşa bu proyektin əleyhinə çıxış edir [11].

2014-2018-ci illərdə Rusiya-Polşa münasibətləri əsasən diplomatik sahəni əhatə etmişdir. Siyasi münasibətlər zəif olsa da, siyasətlə təması olmayan iqtisadi sahələr üzrə əlaqələr inkişaf etməkdədir.

Yekunda qeyd etmək lazımdır ki, Rusiya Polşa ticari-iqtisadi münasibətlərində subyektlərin qarşılıqlı fəaliyyətində asimmetriya mövcuddur. Belə ki, əgər Rusiya tərəfindən əsas korporativ kimi iri kompaniyalar və konsernlər çıxış edirlərsə, Polşa tərəfindən ticarətdə daha çox orta və kiçik müəssisələr iştirak edirlər. Bu bir sıra problemlər yaradır, çünki kənd təsərrüfatı məhsullarının emalında, ticarət şəbəkələrində məşğul olan bir çox Rusiylı idxalçılar üçün fəaliyyət çevrəsi məhdud olan kiçik Polşa müəssisələri maraq doğurmur. Regionlararası iqtisadi əlaqələrin inkişafına gəldikdə, Rusiya və Polşa arasında həcmdə, miqyasda və səriştədə mövcud olan asimmetriya elə də böyük əngəllər yaratmır. Məhz regionlar, onların dövlət və bələdiyyə orqanları, iş adamlarının regional birlikləri həm orta və kiçik müəssisələr səviyyəsində əlaqələrin fəallaşmasına, həm də qarşılıqlı sərmayə qoyuluşu, kənd təsərrüfatı, turizm, ekologiya sahələrində əməkdaşlığın inkişafına təsir göstərə bilərlər [9, s.60-61].

2010-cu illərdə Avropa İttifaqında baş verən maliyyə və iqtisadi böhran Rusiya-Polşa iqtisadi münasibətlərinə həm müsbət, həm mənfi münasibət

göstərdi. Polşa Rusiya bazarında öz ixracatını artırdı, hər iki ölkənin kiçik və orta müəssisələri arasında ticarət əlaqələrinin inkişafı üçün zəmin yarandı. İstisna deyil ki, Polşada və Aİ-də iqtisadi artımın və istehsal templərinin uzun müddətə aşağı düşməsi nəticəsində Polşada Rusiyadan ixracat azaldı, eyni zamanda Rusiyada Polşa ixracının artımı müşahidə olundu. 1990-cı illərdə olduğu kimi Rusiya-Polşa iqtisadi münasibətləri əsasən ticari münasibətlər olaraq qalırdı və belə bir şəraitdə iqtisadi əməkdaşlığın geniş miqyasda inkişafı gözlənilən deyildi.

Müasir dövrdə Polşanın və Rusiyanın bir-birinə ehtiyacı qalmaqdadır: Rusiya neftinin və qazının əhəmiyyətli hissəsi Polşa vasitəsi ilə Qərbə tranzit edilir, Rusiyanın idxalında Polşadan gətirilən sənaye və kənd təsərrüfatı malları önəmli çəkiyə malikdir. Qeyd etdiyimiz kimi, Polşanın da enerji xammalı məsələsində Rusiyadan asılılığı hələ yetərincədir. Qarşılıqlı asılılıq böyük olsa da, təəssüf ki, Rusiya-Polşa iqtisadi münasibətləri demək olar ki, ticarət əlaqələri çərçivəsindən kənara çıxmır. Bu da onu göstərir ki, iki ölkə arasında siyasi münasibətlərdə olan gərginlik iqtisadi münasibətlərə öz mənfi təsirini göstərməkdədir.

## ƏDƏBİYYAT


1. Арктика как регион диалога России и Польши. http://pro-arctic.ru/12/10/2018/gamers/34201
2. *Бухарин Н.И.* Россия-Польша: Опыт двадцатилетних отношений: 90-е гг. XX века – первое десятилетие XXI века. М., СПб.: Нестор-История, 2014, 204 с.
3. Внешняя торговля Российской Федерации со странами дальнего зарубежья / Российский статистический ежегодник. 2012: Стат.сб./Росстат. М., 2012, 786 с. // http://istmat.info/node/46365
4. Внешняя торговля Российской Федерации со странами дальнего зарубежья. / Российский статистический ежегодник. 2014: Стат.сб./Росстат. М., 2014, 693 с. // http://istmat.info/node/463667
5. Внешняя торговля Российской Федерации со странами дальнего зарубежья / Российский статистический ежегодник.. 2017: Стат.сб./Росстат. М., 2017, 686 с. // http://www.gks.ru/free_doc/doc_2017/year/year17.pdf
6. Внешняя торговля Российской Федерации со странами дальнего зарубежья. / Россия в цифрах. 2018: Крат.Стат.сб./Росстат. М., 2018, 522 с. // http://www.gks.ru/free_doc/doc_2018/rusfig/rus18.pdf
7. Выступление Президента Российской Федерации В.В. Путина на II Экономическом форуме «Польша — Россия». 17 января 2002 г. Познань // www.president.kremlin.ru
8. Газпром не выпускает из рук польского трубопровода. "https://inosmi.ru/europe/20101028/163904111.html
9. *Ершов А.П.* Симметрия и асимметрия в российско-польском торгово-

экономическом сотрудничестве. // Экономические указатели направления сотрудничества между Польшей и Россией (стимуляторы и детерминанты). Ополе: ИО Опольский ун-т, 2010.

10. *Кобрина И.А.* Внешняя торговля Росии в 2006 году // Российский внешнеэкономический вестник. Апрель, 2007, №5, с.35-50
11. Могут ли Польша и Россия поддерживать хорошие отношения? / "https://inosmi.ru/politic/20161215/238400774.html
12. ОАО «АК «Транснефть» и ПЭРН подписали Меморандум о взаимопонимании // https://www.transneft.ru/news/view/id/99
13. О российско-польском торгово-экономическом и инвестиционном сотрудничестве в 2010 г. и первом квартале 2011г. // www.rostorg.pl
14. *Офицеров-Бельский Д.В.* Россия и Польша: Неизбежное соседство? // Вестник МГИМО, Т.39, № 6 (2014), с.18-28.
15. Роль внешней торговли в структуре и динамике ВВП // Бюллетень о текущих тенденциях российской экономики. Выпуск №40, август 2018, с.1-20. // http://ac.gov.ru/files/publication/a/17665.pdf
16. Россия и Центрально-Восточная Европа: взаимоотношения в XXI веке / Под ред. к.г.н. Н.В. Куликовой, д.и.н., проф. И.И. Орлика, к.э.н. Н.В. Фейт. М.: ИЭ РАН, 2012, 350 с.
17. *Якимович Р.* Польско-российские экономические отношения в 2004-2016 годах // Современная Европа. Журнал общественно-политических исследований. Москва, 2016, № 6 (72), с.107-115
18. *Ярошенко В.* Польская линия // Вестник Европы, №42-43, 2015, с.17-25
19. Czy relacje Polski z Rosją mogą być dobre? Paweł Kowal dla Frondy. http://www.fronda.pl/a/dr-pawel-kowal-dla-f-rosja-chce-zaszkodzic-ue-przez-polske-kreuja-nas-na-zlego-chlopca,83637.html Gospodarka i handel zagraniczny Polski w 2009 roku. Warszawa, 2010 // https://stat.gov.pl/cps/rde/xbcr/gus/rocznik_statystyczny_handlu_zagranicznego_2009.pd.
20. Rocznik statystyczny handlu zagraniczego 2007 (wybrane tablice). Zakład wydawnictw statystycznych, Warszawa, 2007, 189 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2007-wybrane-tablice,9,1.html
21. Rocznik statystyczny handlu zagraniczego 2008 (wybrane tablice). Zakład wydawnictw statystycznych, Warszawa, 2008, 190 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2007-wybrane-tablice,9,1.html
22. Rocznik statystyczny handlu zagranicznego 2009.Zakład wydawnictw statystycznych, Warszawa, 2009, 743 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2007-wybrane-tablice,9,1.html (müraciət tarixi-10.01.2019).
23. Rocznik statystyczny handlu zagraniczego 2010 (wybrane tablice). Zakład

wydawnictw statystycznych, Warszawa, 2010, 207 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2007-wybrane-tablice,9,1.html
24. Rocznik statystyczny handlu zagraniczego 2011 (wybrane tablice). Zakład wydawnictw statystycznych, Warszawa, 2011, 248 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2007-wybrane-tablice,9,1.html
25. Rocznik statystyczny handlu zagranicznego 2012. Warszawa, 2012, 679 s. // https://stat.gov.pl/obszary-tematyczne/roczniki-statystyczne/roczniki-statystyczne/rocznik-statystyczny-handlu-zagranicznego-2012, 9,7.html

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 223-229
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 223-229
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 223-229

***UOT 94(479.24)***

***R.A.Alıyev***
*Sumqayıt Dövlət Universiteti*
*ramal.aliyev.314@mail.ru*

# XX ƏSRİN 70-ci İLLƏRİNİN İKİNCİ YARISINDA SUMQAYIT KİMYA SƏNAYESİNİN TARİXİ

***Açar sözlər:*** *Superfosfat zavodu, Sumqayıt "Üzvi Sintez" İstehsalat Birliyi, Aşqarlar zavodu, Sumqayıt kimya kompleksi, neft-kimya sənayesi*

Məqalədə "Superfosfat" zavodunun kimyaçılarının fəaliyyəti, on birinci beşillikdə kimya və neft-kimya sənayesində istehsalın artması, "Orqanik sintez" Sumqayıt Sənaye birliyinin yenidən qurulması, "Sumqayıt Kimya Sənaye təşkilatı" və Sumqayıt Aşqarlar zavodu haqqında bəhs edilir.

Heydər Əliyevin Sumqayıt Kimya kompleksinin Azərbaycan iqtisadiyyatındakı roluna böyük önəm verməsi, eyni zamanda Azərbaycanın neft-kimya sənayesinin yenidən qurulması və inkişafı ilə bağlı dövlət qərarlarının verilməsində o vaxtkı sovet hökumətinin rolu araşdırılır.

***Р.А.Алыев***

# ИСТОРИЯ ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ СУМГАИТА ВТОРОЙ ПОЛОВИНЫ 70-х ГОДОВ XX ВЕКА

***Ключевые слова:*** *завод «Суперфосфат», Сумгаитское производственное объединение «Органический синтез», завод Присадок, Сумгаитский химический комплекс, нефтехимическая промышленность*

В статье говорится о деятельности химиков завода «Суперфосфат», увеличении объема производства в химической и нефтехимической промышленности за одиннадцатую пятилетку, повышении производительности труда, переустройстве Сумгаитского производственного объединения «Органический синтез», о «Сумгаитской химико-промышленной организации» и Сумгаитском заводе присадок.

Рассматривается тот факт, что Гейдар Алиев придавал большое значение роли Сумгаитского химического комплекса в экономике Азербайджана, а также изучается роль тогдашних советских властей в принятии конкретных правительственных решений по развитию существенного переустройства в нефтехимической промышленности Азербайджана.

***R.A.Aliyev***

# THE HISTORY OF SUMGAYIT CHEMICAL INDUSTRY IN THE SECOND HALF OF THE 70'S OF THE XX CENTURY

***Keywords:*** *Superphosphate plant, Sumgayit Organic Synthesis Production Association, Additives factory, Sumgayit chemical complex, petrochemical industry*

The article deals with the activities of the Superphosphate plant chemists, increasing the volume of production in chemical and petrochemical industries during the eleventh five-year, increasing labor productivity, the reorganization of Sumgayit Organic Synthesis Production Association, Additives factory and Sumgayit Chemical Industry Enterprises Production Association.

As well as Heydar Aliyev's special importance giving to the role of Sumgayit Chemical Complex in Azerbaijani economy, the role of adoption of specific government decisions for the development of major reconstruction in petrochemical industry of Azerbaijan at that time of the Soviet authorities was studied.

XX əsrin 70-ci illərinin ikinci yarısında müasir texnologiyanın tətbiqi nəticəsində Sumqayıt kimya sənayesi xeyli dərəcədə inkişaf etmişdir. Sumqayıt kimya sənayesinin ən böyük müəssisələrindən biri olan Superfosfat zavodunun əməkçiləri 1976-cı il üçün məhsul istehsalının həcmini 24 faiz artırmağı, öhdəlik hesabına 680 min manatlıq gübrə satmağı planlaşdırmışlar. Bu zaman 15 min ton sadə, 10 min ton dənəvər, 5 min ton mikroelementli gübrələrin istehsalı nəzərdə tutulmuşdur. Cari ilin tədbirlər planında əmtəəlik məhsulun maya dəyərini 0,1 faiz aşağı salmaq nəzərdə tutulmuşdur [1].

Kimyaçılar 1976-cı ilin ilk üç ayı ərzində 40 ton sulfat turşusuna, 50 min kilovat saat elektrik enerjisinə, 15 ton anatitə, yüz metrlərlə süzgəc parçasına qənaət etmiş, texnoloji yeniliklər hesabına müəssisəyə 50 min manatdan çox gəlir gətirmişlər. Onuncu beşilliyin axırına kimi kimyaçılar gübrə istehsalının illik həcmini 1,2 milyon tona çatdırmağı qarşılarına məqsəd qoymuşlar [2].

Superfosfat kollektivinin əməkçiləri 1976-cı ildə yüksək göstəricilərə nail olmuşlar. Kimyaçılar öhdəlik hesabına 6 milyon 490 min manatlıq məhsul istehsal etmiş, onun 5 milyon 717 min manatlığını satışa vermişlər. Nəticədə, zavod Cənubi Qafqaz və Mərkəzi Asiya respublikalarının kolxoz və sovxozlarına plandan əlavə 37 min ton sadə, 115 min ton dənəvər superfosfat gübrəsi yola salmışdır.

Kollektiv 1977-ci il üçün yüksək sosialist öhdəlikləri qəbul etmişdir. Bu öhdəliyə əsasən 850 min ton sadə, 320 min ton dənəvər gübrə istehsal etməyi, ümumi məhsul üzrə 10 milyon manatlıq məhsul buraxmağı, sifarişçilərə 38 milyon manatlıq məhsul göndərmək planlaşdırılmışdır [3].

Onuncu beşilliyin birinci ili kimya birliyinin əməkçiləri üçün dönüş ili

olmuşdur. Burada çoxdan bəri davam edən geriliyə son qoyulmuş, həm məhsul buraxılışı, həm də məhsul satışı üzrə dövlət planına artıqlaması ilə əməl olunmuşdur. Birliyin müəssisələri sifarişçilərə planda nəzərdə tutulduğundan 2 milyon manatlıqdan artıq müxtəlif çeşidli kimyəvi məhsul göndərmişlər.

Birliyin bütün müəssisələrində sosializm yarışı yeni vüsət almışdır. 73 sex, 245 növbə, 223 briqada, 160 sahə, 10 şöbə sosializm yarışında iştirak etmişdir. Bununla yanaşı, bir çox istehsalatların gücündən tamamilə istifadə olunmamışdır. 32 adda kimya məhsulu istehsalı yerinə yetirilməmişdir. Onlarla istehsalat layihə gücündən xeyli aşağı səviyyədə işləmişdir. 7 istehsalat öz planını 70-90 faiz, 11 istehsalat isə öz gücünün 50-70 faizi gücündə məhsul vermişdir [4].

Superfosfat zavodunun kimyaçıları 1977-ci il oktyabrın 20 günü ərzində öhdəlik hesabına 4.700 min ton mineral gübrə istehsal etmişlər. İki saylı sulfat turşusu sexində də həmin müddət ərzində plandan əlavə 2 min tondan çox məhsul hazırlanmısdır [5].

Sadə superfosfatçılar 1977-ci ilin müvafiq dövrünə nisbətən məhsuldarlığı 4,2 faiz artırmışlar. Dənəvər superfosfat sexinin kimyaçılarının qazandıqları qələbə daha sevindirici olmuşdur. Sexin kimyaçıları ötən ilə nisbətən istehsalın həcmini 29,9 faiz artırmışlar. Ftorlu alüminium sexinin kollektivi də qarşıya qoyulmuş vəzifənin öhdəsindən layiqincə gəlmiş, yarımillik plana 106,5 faiz əməl etmişdir [6].

Superfosfat zavodunun kimyaçıları 1978-ci ilin sonuna kimi öhdəlikdən əlavə 1.300 ton sadə, 500 ton dənəvər superfosfat gübrəçi, 40 ton ftorlu alüminium, 500 ton sulfat turşusu və ümumiyyətlə, 100 min manatlıqdan çox məhsul istehsal etməyi öhdəlik olaraq öz üzərinə götürmüşlər [7].

1979-cu ilin əvvəlindən 114 min sadə, 118 min dənəvər gübrə istehsal edilərək sifarişçilərə göndərilmişdir. Zavodun ərazisində ikinci dənəvər superfosfat sexi yaradılmış, mövcud obyektlər yenidən qurulmuşdur. Kompleks 1980-ci ildə istifadəyə verildikdən sonra müəssisədə dənəvər gübrə istehsalının həcmi bir milyon yüz min tona çatdırılması nəzərdə tutulmuşdur.

Zavodun ixtiraçı və səmərələşdiriciləri bürosu faydalı tədbirlər həyata keçirmişlər. Yenilikçilər tərəfindən 1979-cu il ərzində 160 təklif verilməsi və 235 min manat iqtisadi səmərə əldə edilməsi nəzərdə tutulmuşdur. Dörd ay ərzində istehsalatın müxtəlif sahələrinə vəsiqə alan 37 təklif 50 min manat vəsaitə qənaət etməyə imkan vermişdir [8].

Superfosfatçılar on birinci beşillikdə 5 milyon 670 min ton sadə, o cümlədən 2 milyon 580 min ton dənəvər superfosfat istehsal etməyi öhdələrinə götürmüşlər. Bu proqramın öhdəsindən gəlmək üçün bol və keyfiyyətli gübrələrin buraxılışına yönəldilən bir sıra elmi-texniki tədbirlər həyata kecirməyi, istehsalın həcmini artırmaq, məhsulun keyfiyyətini yüksəltmək məqsədilə yeni sexlərin işə salınması nəzərdə tutulmuşdur [9].

Superfosfat zavodunun kimyaçıları 1981-ci ilin ilk üç ayı ərzində ümumi məhsul üzrə tapşırığa 102,4 faiz, satış üzrə isə 101 faiz əməl etmişlər. Üç aylıq planı 111,8 faiz yerinə yetirən dənəvər superfosfat istehsalçıları sifarişçilərə nəzərdə tutulduğundan 10.138 ton, sadə superfosfatçılar isə 4.690 ton çox məhsul göndərmişlər. Sulfat turşusu istehsalçıları planın 2,5 faiz həcmində əlavə məhsul tədarük etmişlər [10].

Superfosfat zavodunun kollektivi 1981-ci ilin birinci ilinin plan səviyyəsinə iyunun 25-də çatmağı qarşısına məqsəd qoymuşlar. Beş aylıq dəqiqləşdirilmiş rəqəmlər aşağıdakı kimidir: məhsul istehsalı planı 104,4, satış tapşırığı isə 102,1 faiz. Nəticədə, kənd təsərrüfatı üçün öhdəlik hesabına 771 min manatlıq məhsul tədarük edilmiş və bunun 361 min manatlığı sifarişçilərə göndərilmişdir. Sadə superfosfatçılar həmin müddətdə 6752 ton torpaq "vitamini", sulfat turşusu tədarükçüləri 6026 ton xammal ehtiyatı toplamış, dənəvər superfosfatçılar plan səviyyəsində işləmişlər [11].

On birinci beşillik ərzində kimya və neft-kimya sənayesində məhsul istehsalının həcmini 30-33 faiz artırmaq, əmək məhsuldarlığını 28,3 faiz yüksəltmək mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. Mayın 25-də aşqarlar zavodunun kimyaçıları beş aylıq plan səviyyəsinə çıxmış, qəbul etdikləri öhdəlikləri təmin etmişlər. "Münbitlik fabriki"nin kimyaçıları beş aylıq plandan əlavə istehsal etdikləri 437 min manatlıq ümumi məhsul, sifarişçilərə göndərdikləri 1 milyon 164 min manatlıq məhsul və 250 ton torpaq məhsulu olmuşdur. Kimya sənayesinin müəssisələri birinci kvartalda öhdəlikdən əlavə 10 dəfədən çox mineral gübrə, 7 dəfədən çox sulfanol, 2,5 dəfədən çox sintetik yuyucu vasitələr istehsal etmişlər [12].

On ilə yaxın bir müddətdə tikilən kimya kombinatının 1970-ci ildə Qazayırma, qazı fraksiyalara ayıran, yüngül yanan mayelər istehsalı, etilen, qliserin, epoksid qatranı kimi nəhəng sex və korpuslarının istehsal etdikləri məhsullar artıq sifarişçi təşkilatlara göndərilirdi. Bütün bunlar Kimya kombinatının cüzi bir hissəsini təşkil edirdi. Kombinatın birinci hissəsinə daxil olan istehsal güclərinin ölkəyə 40 növdən çox məhsul verməsi nəzərdə tutulurdu. 1970-ci ildə izobutilen, benzol polietilen komplekslərində tamamlama işləri gedirdi. Lakin sifarişçilərin, layihə təşkilatlarının və icraçıların günahı üzündən tikintinin təhvil verilməsi ləngimişdir [13].

1979-cu ildən zavod Sumqayıt "Üzvi Sintez" İstehsalat Birliyi şəklində yenidən təşkil edildi. Birlik plastik gübrələr və sintetik qətranlar – polietilen, epoksid və poliefir qətranlar istehsalı üzrə ixtisaslaşmışdır. Birlik həmçinin bu məhsulların monomerlərini – epixloridid, propilenoksid – üzvi-sintez və neft-kimya sintezi məhsulları – benzol, izobutilen, poliizobitilen, divinil, propilen qlikolda buraxırdı. Müəssisə 40 adda məhsul istehsal edirdi. Məhsulları ölkənin (SSRİ-nin) 200-dək şəhərinə, həmçinin xaricə də göndərilirdi [14, s.72].

Azərbaycan SSR-də neft emalı və neft kimyası sənayesi müəssisəsi

olaraq Aşqarlar zavodu aşqar istehsalına görə ən böyük zavod idi. BFK və İFP--101 markalı aşqarlar, sulfidalkilfenol və formalin istehsal edilirdi. 1957-ci ildə Sov. İKP XXII qurultayı adına Bakı neftayırma zavodu tərkibində Sumqayıtda aşqarlar istehsal edən AZNİİ-7 qurğusunun təməli qoyulmuşdur. Qurğu 1960-cı ildə ilk məhsulunu vermişdir. 1966-cı ildə həmin qurğu əsasında müstəqil Sumqayıt Aşqarlar zavodu yaradılmış, BFK-1 aşqar istehsal edən sex işə salınmışdır [15, s.72].

1974-cü ilin fevralı 28-də Respublika rəhbəri SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Tixonovla birlikdə Sumqayıta gəldi. Boruyayma zavodunu və İstehsalat Birliyinin səmərəli fəaliyyətini yüksək ranqlı qonağa yerindəcə nümayiş etdirən Heydər Əliyev məhz bu səfərin nəticəsi olaraq kimya sənayesində mühüm əhəmiyyət kəsb edən EP-300 qurğusunun Sumqayıtda yaradılması barədə razılıq almağa müvəffəq oldu. Təxminən bir il sonra İttifaq büdcəsindən qurğunun tikintisi üçün vəsait ayrılaraq hazırlıq işlərinə başlandı [16, s.3].

Aşqarlar zavodu Sumqayıtın kimya müəssisələri arasında mühüm yerlərdən birini tutur. Müəssisənin kimyaçıları onuncu beşilliyin sosialist öhdəliklərini qəbul etmişlər: öhdəlikdə il ərzində plandan əlavə 2 faiz məhsul istehsal etmək, sifarişçilərə planın bir faizi həcmindən çox məhsul satmaq, əmək məhsuldarlığını 1,6 faiz artırmaq və s. Zavodda 1977-ci ilin yarım ili üçün məhsul istehsalı planından əlavə 2,3 faiz aşqar hazırlanmış, öhdəlik hesabına planın 1,9 faizi qədər məhsul satılmışdır. Əmək məhsuldarlığının artırılması sayəsində də uğurlar əldə edilmişdir. Altı ay ərzində əmək məhsuldarlığı 2,6 faiz yüksəlmişdir ki, bu illik öhdəlikdə nəzərdə tutulduğundan çox idi. Daha bir yenilik: İXP-101 aşqarları istehsal sexində ADR-dən alınmış xüsusi cihaz quraşdırılmışdı. Həmin cihaz aşqarı avtomatik olaraq təmizləyirdi. Formalin sexində formalinə olan tələbata görə ikinci bir xətt istifadəyə hazırlanırdı. Həmin xəttin istifadəyə verilməsi istehsalın həcminin iki dəfə artmasına səbəb olmalı idi [17].

1966-cı ildə istifadəyə verilən Kimya kombinatı həmin dövrdə Avropada ən iri neft-kimya müəssisəsi hesab olunurdu. 70-80-ci illərdə həmin zavod tam gücü ilə işləmiş və keçmiş SSRİ-nin, demək olar ki, hər yerinə məhsul idxal etmişdir. Bu iqtisadi yüksəliş Sumqayıtın Azərbaycanın ən böyük şəhərlərindən birinə çevrilməsinə səbəb olmuşdur.

Doqquzuncu beşillik Sumqayıt Kimya Sənayesi Müəssisələri İstehsalat Birliyi üçün texniki tərəqqinin inkişafı dövrü olmuşdur. Həmin dövrdə İttifaq əhəmiyyətli obyektlər tikilib işə salınmış, yeni məhsulların texnologiyası mənimsənilmişdir. Beşilliyin əvvəlində xlor və kaustik soda kompleksinin birinci növbəsi, yekun ilində isə ikinci növbəsi məhsul ilinə başlamışdır [18].

1980-ci ildə Kimya Sənayesi İstehsalat Birliyinin civə üsullu xlor və kaustik soda kompleksində yenidənqurma işlərinin yeni mərhələsi başlanmışdır.

Bu məhsula getdikcə artan tələbatı ödəmək üçün burada 5 milyon layihə-smeta dəyəri olan yeni sex tikilməyə başlamışdır. Tikintinin başa çatdırılması ilin sonunadək nəzərdə tutulmuşdur. İstehsalatın mühüm sahələrindən biri də amin duzu sexidir. Bu herbisid də alaq otlarına qarşı istifadə olunur. Kollektiv 1980-ci ildə məhsul istehsalının həcmini 18 min tona çatdırmağı qərara almışdır. Yapışqanlı maddələrin və yuyucu tozların hazırlanmasında "KMC" mühüm xammaldır. Onun sulfanol istehsalında da rolu böyükdür. Sexin kimyaçıları nəzərdə tutulduğundan 300 ton çox məhsul hazırlamışlar [19].

Kimya İstehsalat Birliyindəki korroziyadan mühafizə sexi onuncu beşilliyin yekun ilinin əvvəlindən yüksək sürətlə işləyərək böyük nailiyyətlər qazanmışdır. Altı ay ərzində 208 min manatlıq əvəzinə 219 min manatlıq iş görən əməkçilər yarım illik plana 105,2 faiz əməl etmişlər ki, bu da nəzərdə tutulduğundan 11 min manat çoxdur [20].

"Üzvi Sintez" İstehsalat Birliyinin kollektivi 1980-ci ildə zərbəçi kimi işləmişdir. Müəssisədə istehsal olunan məhsulun 50 faizindən çoxu dövlət keyfiyyət nişanı ilə buraxılmışdır. Yüksək əmək nailiyyətlərinin qazanılmasında sadə poliefir sexi əməkçilərinin də payı vardır. Ötən il olduğu kimi, yekun ilinin altı ayında da kollektiv qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. 1980-ci ilin birinci yarısında xalq təsərrüfatı planına 105 faiz əməl edən sex kimyaçıları öhdəlik hesabına 43 min manatlıq məhsul satmışlar. Plandan əlavə istehsal olunan 127 ton məhsulun 120 tonu ən yüksək keyfiyyətlə hazırlanmışdır. İyun ayında aylıq plan 126,5 faiz yerinə yetirilmişdir. Burada hazırlanan "Laprol-3003" və "Laprol-5003" markalı məhsullar yüksək keyfiyyətlə istehsal olunurdu [21].

"Üzvi Sintez" İstehsalat Birliyinin aşqarlı polizobutilen sexi on birinci beşilliyin birinci ilində olduğu kimi, 1982-ci ildə də uğurlar qazandırmışdır. Məhz bu fəallıq onlara illik planı hələ noyabr ayının 25-də yerinə yetirmək imkanı vermişdir. Əmək məhsuldarlığı ötən ilə nisbətən 17,3 faiz artmışdır. Kimyaçılar ciddi rejimə əməl edərək ilin on ayı ərzində 146 ton etil-xlora, 16 ton kaustik sodaya qənaət etmişlər [22] .

Məhz Ümummilli lider Heydər Əliyev Azərbaycan iqtisadiyyatında kimya kompleksinin roluna xüsusi əhəmiyyət verdiyindən özünəməxsus müdriklik, qətiyyət və inadkarlıqla SSRİ-nin o vaxtkı rəhbər orqanlarında Azərbaycanın neftçıxarma və neft-kimya sənayesində əsaslı yenidənqurmanın inkişafı üçün xüsusi hökumət qərarlarının qəbul edilməsinə nail olmuşdu. Məhz respublika rəhbərinin təşəbbüsləri sayəsində 1970-80-ci illərdə Sumqayıtda kimya sənayesinin yenidən qurulması, yeni istehsalat sahələrinin, müəssisələrin yaradılması, daha səmərəli texnoloji qurğuların inşası, eyni zamanda mövcud istehsalatların rekonstruksiyası, müasirləşdirilməsi və yeniləşdirilməsi işləri geniş vüsət almışdı. Texnoloji proseslərin daim təkmilləşdirilməsi, daxili imkanlar hesabına məhsul buraxılışının artırılması üçün səmərələşdiricilər

durmadan texniki axtarışlar aparmışlar. 1974-cü ilin birinci kvartalında 253 səmərələşdirici təklifin həyata keçirilməsi sayəsində 300 min manatdan çox iqtisadi səmərə götürülmüşdür [23].

## ƏDƏBİYYAT


1. *Ağayev N.* Məsul vəzifələr qarşısında. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1976, 15 yanvar
2. *Tapdıqlı R.* Keyfiyyət və qənaət. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1976,15 aprel
3. *Ağayev H.* Superfosvatçılar əmək növbəsidə. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1977, 12 mart
4. Süleymanzadə C. Daxili ehtiyat mənbələrindən səmərəli istifadə etməli. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1977, 24 mart
5. *Rzayev F.* Kimya birliyindən xəbərlər. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1977, 22 oktyabr
6. *Ağayev N.* Zərbəci əmək növbəsində. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1978, 6 iyul
7. *Rəfiyev C.* Superfosfat zavodunun yeni tikintiləri. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1978, 15 avqust
8. *Ağayev N.* Gübrə bolluğu uğrunda. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1974, 24 may
9. *Sərdarlı R.* Gübrə bərəkət deməkdir. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1980, 10 yanvar
10. *Ağayev H.* Keyfiyyət nişanlı məhsul. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1981, 4 aprel
11. *Ağayev H.* Potensial qüvvə. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1981, 9 iyun
12. Sənayenin mühüm sahəsi. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1983, 28 may
13. Kimya kombinatı tikilir. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1970, 10 fevral, № 17
14. Sumqayıt "Üzvi Sintez" İstehsalat Birliyi. Azərbaycan Sovet Ensiklopediyası 10 clddə, IX c., s.77
15. *Səlimov Ş., Alıyev R.* Sumqayıt şəhər kimya sənayesinin yaranması və inkişaf tarixi // Sumqayıt, 2016, s.72
16. Sumqayıt, 2014, №3, s.8
17. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1977, 9 iyul
18. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1976, 24 fevral
19. *Zübayılov A., Bilalov B.* Daha bir qələbə. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1980, 24 may
20. *İbrahimova C.* 11 min manatlıq iş. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1980, 8 iyul
21. *Quliyev S.* Göstəricilər fərəhləndiricidir. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1980, 8 iyul
22. *Quliyev S.* Yaxşı iş üz ağardar. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1982, 22 noyabr
23. Kommunistlər və sosializm yarışı. "Sosialist Sumqayıtı" qəz., Bakı, 1974, 13 aprel

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 230-237
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 230-237
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 230-237

# Pedaqoji-psixoloji elmlər

*UOT 159.9*

***L.M.Əliyeva***
*Sumqayıt Dövlət Universiteti*
*honey.lala@mail.ru*

## PSİXOLOJİ TƏSİR VƏ YARADICI FƏALLIĞIN QARŞILIQLI ƏLAQƏSİ

***Açar sözlər:*** *psixoloji təsir, təsiretmə, yaradıcılıq, fəallıq, dəyişmə, fərdiyyət, subyekt, şəxsiyyət, ağlın gücü*

Məqalədə mühitin insana göstərdiyi psixoloji təsirdən və onun fəaliyyətdə yaratdığı dəyişmələrdən bəhs edilir. Müasir dövrdə insan çoxsaylı təsirlərlə üzləşir. Onlardan başlıcası qloballaşmanın mədəniyyətdə yaratdığı dəyişmələrdir. İnsan sağlam fiziki bədənlə doğulubsa, uşaqlıqda valideynlər fiziki bədənə mədəni qulluq göstəribsə, özünəxidmətə aid olan qulluq qaydaları üçün vərdişlər, bacarıqlar formalaşdırıblarsa, o, sağlam olur.

Müəllif məqalədə insanın fəallaşdırılması yolu kimi ona göstərilən təsirin sistem halında olmasını məqbul sayır. İnsana özünün bioloji varlığı ilə bərabər bütöv yanaşma hazırda insanla bağlı elmlər, o cümlədən də psixologiyanın qarşısında mühüm tələb kimi göstərilir.

***Л.М.Алиева***

## ВЗАИМОДЕЙСТВИЕ ПСИХОЛОГИЧЕСКИХ ЭФФЕКТОВ И ТВОРЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Ключевые слова:*** *психологическое воздействие, воздействие, творчество, активность, изменение, личность, субъект, личность, сила разума*

В статье обсуждается психологическое воздействие окружающей среды на людей и изменения, которые они произвели в жизни человека. В нынешнее время человек сталкивается с многочисленными влияниями. Наиболее важным из них является изменения в культуре, которых внес глобализация. Если человек рождается с физически здоровым телом, если родители в детстве правильно ухаживают за телом ребенка, сформируют навыки и привычки для самообслуживания, тогда он будет здоровым.

Автор считает разумным сказать, что воздействие, которое было оказано человеку как способ активизации носит системный характер. Наряду с его биологическим присутствием, изучается целостное отношение к нему, весь

жизненный цикл является важнейшим требованием перед науками о человеке, а также перед психологией.

***L.M.Aliyeva***

## PSYCHOLOGICAL EFFECTS AND INTERACTION OF CREATIVE ACTIVITY

***Keywords:*** *psychological impact, impact, creativity, activity, change, personality, subject, personality, power of mind*

The article deals with the psychological effects of the environment on human beings and the changes they have made in the activity. In modern times, man faces numerous influences. Majority of them are changes in the culture of globalization. If a human being is born with a healthy physical body and if the child has had a cultural care for the physical body and has shaped habits and skills for self-care care, it is safe.

The author considers it reasonable to have the effect on man as a way of activating human beings in the article. The whole approach is now regarded as an important requirement for human-related science in front of psychology with man's biological existence.

Təsir ətraf mühitin bu və digər obyektlərindəki əlamət və xüsusiyyətlərin insan tərəfindən qavranılması prosesidir. Təsiretmə halında başqasının psixikası, fərdiyyəti, şəxsiyyəti, xarakteri üçün səciyyəvi xüsusiyyətlərin gerçək motivləri təhlil edilmədən, müzakirə olunmadan təkrar edilir, köçürülərək qəbul olunur. Bu baxımdan psixoloji xidmət işində mühitin, başqa insanların (psixoloqun) təsirinin rolu xüsusi olaraq dəyərləndirilir. Təsir emosional sahəyə və dərketmə proseslərinə yönəldilərək bütövlükdə psixikada baş verir. Psixika bütün orqanizmlə əlaqəli şəkildə bu prosesi tənzimləyir. Bu zaman bütövlükdə orqanizm özü qarşılıqlı təsirin iştirakçısı kimi çıxış edir.

Ən prinisipial və tərəddüdlü fikirlərin təsir yolu ilə dəyişdirilməsi mümkündür. Çünki təsir zamanı iradə, mühakimə passivləşir. Psixikanın mühitlə bağlı ən zəif qıcıqları belə bizim qavrayışımıza, hafizəmizə, fikirlərimizə, düşüncələrimizə təsir göstərir. Bu zaman yalınz psixi fəaliyyət deyil, orqanizmin funksional dəyişmələri bütövlükdə köçürmə əməliyyatına cəlb olunur. Təsir edən səslər, sözlər, obrazlar insanın özünün xarakter əlamətləri ilə çulğalaşır. Onunla ahəngdarlıq yaradana qədər interiorizasiya edilir. Bu prosesdə təxəyyül üzərində iradənin hakim olması da çətinləşir. Uşaqlarda bu, tamamilə başqa prinsiplərlə işləyir. Belə ki, uşaqların fəaliyyəti bütövlükdə təsiretmə əməliyyatları üzərində qurulur. Yaşlılarda təsiretmə zamanı insanın həyati prinsipləri arxa plana keçir.

Necəliyindən asılı olmayaraq özünü kimə isə bənzətmək, onun kimi olmaq istəyən insanlar onunla bağlı olan hər şeyi: xarakteri, davranışı, nitqi,

hərəkətləri, jestləri, ifadələri, maneraları, vərdişləri ilə ona bənzəməyə, bütün bunları özündə təsir yolu ilə formalaşdırmağa çalışırlar. Bir qisim insanlar valideynlərinə, bəziləri müəllliminə, ədəbi qəhrəmanlara, ulduz müğənnilərə, idmançılara, xüsusilə futbolçulara xas olan xüsusiyyətləri özündə yaratmağa cəhd edərək çox zaman buna nail ola bilirlər.

İstənilən ictimai şəraitdə hər bir insanın inkişafı onun xeyirə, yaxud şərə doğru can atmasından, dünyanın yaranışının təkamülündə insan cəhdlərinin istiqamətindən asılıdır. İnsan fərdiyyətinin digər canlılardan fərqi də onun özünüinkişaf və özünüyaratma imkanına malik olması ilə əlaqələndirilir. Belə imkanlara malik olmaq dünyanın gerçəkliklərini düzgün, reallığa uyğun olaraq dərk etmək yolu ilə mümkün olur. Sağlam təfəkkür, sağlam düşüncə və sağlam münasibət bu halda yaranır. Həyat gücü də hər bir insan üçün vacib olan, fiziki və psixi qüvvələrin sıx əlaqəsi, bir-birini tamamlaması və inkişafetdirici təsiri sayəsində formalaşır. Buraya çoxsaylı faktorlar daxildir. Əlbəttə, ilk sırada sağlam fiziki bədən durur. İnsan sağlam fiziki bədənlə doğulubsa, uşaqlıqda valideynlər fiziki bədənə mədəni qulluq göstəribsə, özünəxidmətə aid olan qulluq qaydaları üçün vərdişlər, bacarıqlar formalaşdırıblarsa, o, sağlam olacaq. İş bununla bitmir. Fiziki bədənin sağlamlığı üçün həm də sağlam psixika gərəkdir. Psixika iki halda sağlam olur:

- psixikanın fizioloji və bioloji mənşəli prosesləri öz funksiyalarını normal qaydada yerinə yetirdikdə;
- insan sağlam düşüncə tərzinə, sosial-rol davranış mədəniyyətinə sahib olduqda, bu rollar üzrə əxlaqa və mənəviyyata yiyələnərək öz vəzifələrini düzgün yerinə yetirdikdə.

Müxtəlif orqanların natamamlığı insanın həyatında təsəvvür olunmaz uğurların səbəbi də ola bilir. Bu, həmin çatışmazlığın aradan qaldırılmasına qarşı yönələn həyat gücündən – enerjidən asılıdır. Şəxsiyyətin davamlı xüsusiyyətləri belə kamilliyə, nailiyyətə imkan yarada bilir. Bunlar insanda pozitiv enerji yükünü artırır.

Pozitiv enerji yükü orqanizmin özünə, onun münasibətlər sisteminə, məhsuldar, səmərəli, sağlamlaşdırıcı yaradıcı fəaliyyətə ciddi şəkildə təsir göstərir. Bu təsir somatik sistemin, emosional aləmin, mənəviyyatın, son nəticədə, fiziki bədənin psixoloji sağlamlığına zəmin yaradır. Əksinə, həyat fəallığının boğulması, fəaliyyətin digər istiqamətə yönəldilməsi, insanın iradəsinə göstərilən hər cür təzyiq, asanlıqla stress və aqressiyalarla, bəzən də ağır psixi pozuntularla nəticələnə bilir. Bu təsirlər fəaliyyətdə və ünsiyyətdə özünü büruzə verir. "Bir çox psixoloqlar insanın tərbiyəsinin dəyişməz olduğunu sübut etməyə çalışırlar. Göstərirlər ki, son 30 min il ərzində insanın təbiəti ya az dəyişib, ya da, ümumiyyətlə, dəyişməyib" (1, s.135)

Ə.Ə.Əliyevə görə, "müasir ictimai-siyasi mühit özünün bir sıra spesifik xüsusiyyətləri ilə əvvəlki dövrlərdən fərqlənir. Bunun səbəbi dünyada, ayrı-ayrı

cəmiyyətərdə gedən qlobal dəyişmələrlə bağlıdır. Dəyişmə yeniləşən, inkişaf edən hər bir cəmiyyətin uzləşdiyi, böhran vəziyyətindən yaranan siyasi-iqtisadi, sosial-mədəni sahələri əhatə edən qlobal hadisədir. Bu hadisə hər bir dövrdə eyni qanunlarla tənzimlənsə də, müxtəlif tərzdə, özünəməxsus məzmunda baş verir. Nəticədə, insanın özünü və dünyanı dərk etməsində, münasibətlərində, sosial əlaqələrində, nəhayət, bütün bunların nəticəsi olaraq psixoloji aləmində dəyişmələr baş verir" (2, s.21).

L.Ş.Əmrahlı bildirir ki, xarici mühit neqativ (orqanizmi dəyişməyə təhriketmə) təsir göstərdiyi zaman psixoloqlar sıxışdırılmanın daha çox estetik aləmdə baş verdiyini iddia edirlər. "Estetik aləm"də özünün bir çox maraqlarından yan keçərək inkisaf normal davranış səviyyəsində davam edir. Bu halda emosional-hissi sahəni əmələ gətirənlər kifayət qədər yetkinləşə, sabitləşə bilmir, ciddı təsirlərə qarşı davamsız olmaqla özünün əsas təbiətini asanlıqla büruzə verir. Eyni zamanda əxlaqi təsirlərin mənəviləşməsində də problemlər yaranır. Pozulmanın bu xarakteri intellektə aid edilmir, əksinə, onun dinamik olaraq yüksəlməsi mümkündür. Bu, bioloji tələbatların ödənilməsi zərurətindən yaranan özünüyaşatma instinktinin fəallaşması ilə izah edilir (3, s.32).

L.Ş.Əmrahlının yanaşmalarından belə məlum olur ki, psixoloji təsir yalnız psixikada deyil, bütövlükdə orqanizmin bioloji sistemində dəyişmələr yaradır. "Stivens, Maxmonson, Taşira, Cerard və b. tədqiqatları göstərmişdir ki, digər canlı hüceyrələr kimi əsəb hüceyrələri də öz fəaliyyətini "xüsusi proqramlar" vasitəsilə tənzimləyirlər. Əsəb hüceyrələrinin belə xüsusi proqramlar vasitəsilə təşkil olunmuş fəaliyyəti canlı orqanizmlərin yaşaması üçün lazım olan enerjinin istehsal mənbəyi hesab olunur. Canlı orqanizmlərin özünüyaşatma instinkti əsəb hüceyrələrinin vəziyyətinə fasiləsiz olaraq müdaxilə edir. Bu instinktlər enerjinin fasiləsiz qurulmasını təmin edən "molekul aləti"nin fəaliyyətini nizamlayır (3, s.18).

Psixoloji xidmət işində, məlum olduğu kimi, "təsir" effektindən geniş istifadə olunur. Xüsusilə, korreksiya, konsultasiya və terapiya zamanı psixoloq kliyentə müxtəlif vasitələrlə təsir göstərir. Burada bizim haqqında bəhs edəcəyimiz məsələ də həmin təsir sayəsində insan şəxsiyyətində, onun dəyərlərində, əxlaqi sistemində baş verə biləcək pozitiv dəyişmələrlə bağlıdır.

Hər bir normal psixikaya malik olan insan özünün yaşaması üçün müstəsna dərəcədə vacib olan həyat enerjisinin mahiyyətini, əhəmiyyətini yaxşı anlayır. Müasir sivilizasiya insanların etnomədəni müxtəlifliklərinə o qədər də ciddi əhəmiyyət vermir. Belə hesab olunur ki, insan sosial varlıq olduğundan düşdüyü şəraitə uyğunlaşır, həmin mühitin bir hissəsinə çevrilir. Ancaq son illərdə aparılan tədqiqatlar göstərir ki, insanın təbii quruluşunda onun etnik mənşəyi ilə bağlı olan komponentlər var. İnsanın yaşadığı təbii mühiti dəyişməsi onun sosial sahəsində olduğu kimi, fiziologiyasında da dəyişmələr əmələ gətirir. Bu dəyişmələr son nəticədə insanın şəxsiyyətində və

şəxsiyyətlərarası münasibətlərində, mikro və makro mühitdəki sosial mövqeyində, motivasiya sahəsində, empatiyada, psixomotorikada və s. dəyişmələrə səbəb olur (3, s.31).

Aydın məsələdir ki, həyat idealını qəti olaraq müəyyənləşdirmiş, mükəmməl dünyagörüşə malik olan insanlar özünütənzimetməyə müvəffəq ola bilirlər. Belə insanların müstəqillik cəhdinin boğulması sıxışdırılma, aqressiya kimi neqativ psixoloji hallar yaradır, lakin onların daxili aləmini tənzimləyən mübarizlik bu psixoloji gərginliklərə üstün gələrək fəallığa, öz ideallarını reallaşdırmaq üçün mümkün olan imkanlardan istifadəyə sövq edir. Onlarda cəhdetmə, təşəbbüskarlıq zəngin və tükənməz ruhi qüvvələrlə tənzimlənir. Yaradıcı güc qavrayışa, hafizəyə, təxəyyülə, fantaziyaya, arzulara təsir edir.

"Pozitiv azadlığın" mənbəyi onun fəallığındadır. Pozitiv azadlığa nail olmaq insandan həyatda artan fəallıq tələb edir. Artan fəallıq sosial norma və qadağalarla deyil, daxili təbiətinə uyğun olaraq hərəkət edən insanlarda olur. Daxili azadlıq olmadan pozitiv fəallıq baş vermir. Belə fəallıq yeni olanı yaratmağa qadirdir. Belə fəallıqla müşayiət olunan fəaliyyət – yaradıcı fəaliyyətdir.

Yaradıcı prosesdə intellektual fəaliyyət daha səmərəli qurulur. İntellektual imkanlar böyük həvəslə fəaliyyətə tətbiq edilir. Yaradıcı fəaliyyətin nəticələrinə görə hesabat verilir: "Mən kiməm?", "Mən nəyə qadirəm?", "Nəyi yarada bilirəm, yaxud nəyi yaratmaq istəyirəm?". İşgüzar və təşəbbüskar insanın mənlik şüurunun əsas konsepsiyasını bu fikirlər təşkil edir. Beləliklə, o, kamil şəxsiyyət səviyyəsinə qalxa bilir.

İnsan azadlığının əsas şərtlərindən biri də onun əməyə münasibətidir. Gənclik dövründə insanda artıq əməyə şüurlu münasibət formalaşır. Əmək artıq ayrı-ayrı tələbatlarla bağlı olaraq həyata keçirilən əlaqəsiz fəaliyyət növü deyil, özünüreallaşdırma tələbatını ödəmək üçün əsas fəaliyyətə çevrilir. Əməksevərlik insanları qarşılıqlı münasibətlərindəki uğurları ilə bağlayır. İnsan əmin olmalıdır ki, fərdi və ictimai məqsədlər seçməklə, bu məqsədlərə çatmaqla cəmiyyətə təsir göstərə bilər. Beləliklə, səriştəliliyin psixososial ölçüsü sosial həyatdakı səmərəli iştirakın əsasında durur.

İnsanın əmək fəaliyyətinə ən səmərəli təsir onun yaradıcı xarakteri olmasıdır. Bu sahədə başlıca məsələ özünəinam hissinin artırılması, fəaliyyətin arzuolunan nəticələrinə zəmin yaradılmasıdır. Həyatın ən aşağı pilləsindən ən yüksək pilləsinə qədər cəhd, enerji görmək mümkündür. Bu, təbiətin yaradıcı, qoruyucu, qidalandırıcı, kamilləşdirici formasıdır. Eyni zamanda yaradıcı iradə həyati proseslərin şəxsi iradədən, onun fərdi formalarından asılı olmayan tərəflərini ayırd edir. Ona həyatın şüurdan kənarda baş verən bütün hadisələri aiddir. Yaradıcı iradə arzu kimi xassəyə malikdir. Bu arzu həyatın bütün formalarında təzahür edir.

***Ağıl güclənir, yaradıcı fəallıq genişlənir.*** Yaradıcı fəaliyyət – fəaliyyətin daha keyfiyyətli, məhsuldar, fərd və cəmiyyət tərəfindən qiymətləndirilən formasıdır. Yaradıcılıq insanın psixikasının ən qiymətli tərəflərinə sirayət edir. Bunu yalnız fərdi-psixoloji imkan kimi dəyərləndirmək düzgün olmazdı. Yaradıcılıq mexanizminə, onun öyrənmə prosesinə sərf olunan enerji insani yaradıcılığın İlahi yaradıcılıqla bağlılığını üzə çıxarır. İnsanın energetik sahəsinin incə aləmlə bağlılığının xüsusiyyətlərini izah edir. Yaradıcılığın mənbəyinin ruhi aləmdə olduğunu göstərir. Məsələn, bədii yaradıcılıq özünüdərklə və həyat enerjisinin onunla uzlaşdırılması ilə bilavasitə bağlıdır. Müasir cəmiyyətin ən mühüm vəzifəsi insana dünyanın harmoniyasını özünün daxili aləmində yaratmaq, öz qabiliyyətlərinə inanmaq və onu inkişaf etdirmək yollarını öyrənməkdir.

Bu ideyanı təbliğ edən humanist, koqnitiv və transpersonal psixologiya insanın fizioloji, psixoloji və sosial problemlərinin həllini fəallığın yaradıcı fəaliyyətə, xüsusilə bədii və intellektual yaradıcılığa yönəldilməsində görür. İnsan əmin olmalıdır ki, yaradıcılıq – qabiliyyətin və istedadın ən mühüm şərtidir. Çünki yaradıcılıq iradəsi – proqressiv təkamül cəhdidir.

Yaradıcı insan üçün ən böyük ehtiyac özünüeffektivliyi dərk etməkdir. Özünüeffektivliyi dərk edən insanlar öz imkanlarına ciddi şübhə ilə yanaşan insanlardan daha çox mürəkkəb işlərin yerinə yetirilməsinə güc sərf edirlər. Effektivliyin daha mühüm mənbəyi keçmiş təcrübədəki müvəffəqiyyət və uğursuzluq ola bilər. Bu prosesdə 4 amil mühüm rol oynayır: davranışını qurmaq qabiliyyəti; geniş təcrübə; verbal əminlik; emosional əhval-ruhiyyənin olması.

Yaradıcı fəaliyyət – fəaliyyətin ümumi prinsiplərinə tabedir. Burada başlıca şərt motivasiyanın yaranmasıdır. Tədqiqedici fəaliyyətin nəticəsi ünsiyyətcilliyin və həvəskarlığın yaranmasına səbəb olur. Bəzən insanlar öz fəaliyyətində bilərəkdən disbalans yaradırlar. Yemək, yuxu və digər rahatlıqlardan imtina edərək dünyanı, əslində isə özünü fəth etməyə cəhd göstərirlər. Bütün bunlar son anda yaşanacaq həzzalma, doyumluluq, özünəarxayınlıq hisslərinə olan ehtiyacdan doğur. Ən adi emosional vəziyyətin yaşanmasına olan ehtiyac insanı yaradıcılıq, qəhrəmanlıq zirvəsinə qaldırır.

Yer dünyasındakı bütün səbəb əlaqələri ağıldan yaranır. Əgər hər şey ağıldan yaranırsa, bu ağlı yaratmaq imkanı Böyük Yaradana məxsusdursa, deməli, insan ağılı da ona məxsus olan ağıldır. Deməli, onun yaratdığı bizlər, insanlar da bu ağla can ataraq ona oxşar olanlara sahib ola, kamilləşə, müdrikləşə, fövqəlbəşər imkanlara qadir ola bilərik. İnsan özünün yaradıcı gücünü təfəkkürün köməyi ilə hərəkətə gətirir. Bu güc hər zaman insanın daxilində var, lakin onu hərəkətə gətirən ağıla qovuşana qədər, varlığı duyulmur, özünü büruzə vermir. Ona görə də ağıl və güc günəşin istisi yayılana qədər yumularaq özünü soyuqdan qoruyan çiçəklər kimi, torpağın altında

yumulub qalan buğda toxumu kimidir. Məhz günəşin işığı düşdükdə oyanır, hərəkətə gəlir, özünün varlığını aləmə göstərir. Ağıl bizi həm də özünəinamsızlıqdan qurtarır. Onun təsiri ilə yaranan bilmək istəyi sayəsində edəcəyimiz uğurlar haqqında düşünürük (bestlibrary.ru). Həyatın mənasını dərk edən, yaşamağın yollarını öyrənməyə çalışan hər bir insan öz psixikası ilə yanaşı, həm də orqanizmin daxili vəziyyətinə uyğun olaraq ətraf aləmlə qarşılıqlı təsirdə olur. Məhz psixi fəallığı sayəsində fəaliyyətini nizamlayır, nəticələrin yaxşı olması üçün səy göstərir. Ancaq bu həmişə mümkün deyil.

***Münasibətlər tənzimlənir.*** Digər yol insanlarla ünsiyyət və münasibətlərin düzgün tənzimlənməsidir. “Münasibət” – insanların bir-birini qavramasının və dərk etməsinin mühüm sahələrindən biridir. O, özündə fizioloji və sosial amillərlə yanaşı, daha çox psixoloji amilləri birləşdirir. Ünsiyyət vasitəsilə reallaşan münasibətlər “sosial persepsiya”nın köməyi ilə nizamlanır. “Münasibət” anlayışı psixologiyada mürəkkəbliyi ilə diqqəti cəlb edir. Xüsusən ictimai-iqtisadi münasibətlərin dəyişərək yeni istiqamətdə və yeni məzmunda inkişaf etdiyi bir şəraitdə bu mürəkkəblik daha da artır.

Münasibət anlayışı həm də ayrı-ayrı subyektlərin fərdi-psixoloji xüsusiyyətləri, sosial rolları, onların yaşadığı ictimai mühitdə mövcud olan iqtisadi münasibətlərin qarşılıqlı əlaqəsi və vəhdətini də özündə ifadə edir. Fərdi-psixoloji xüsusiyyətlər, tələbatlar, davranış tərzi, aural, mənəvi, fiziki təsir, motiv və məqsədlər, yönəlişlik qarşılıqlı münasibətlərin yaranmasının əsasında durur. Ona görə də insanlar arasındakı münasibətləri bir neçə istiqamətdə araşdırmaq məqsədəuyğundur.

***Seçim imkanları yaranır.*** İnsan şəxsiyyət olmaq üçün yaradılıb. Bunun üçün ona seçim haqqı verilib. Doğrudur, bir çox məsələlərlə bağlı insanlar özləri nəyi isə seçə bilmir: öz valideynlərini, millətini, irqini və s. Hər şeyi həyat, tale müəyyənləşdirir. Bu haqq yalnız təbiəyə verilib. Yalnız o müstəqil seçim edə bilir. Əgər O bizə Yer həyatı üçün “uğursuz”, “qismətsiz” adlandırdığımız bir həyat versəydi (əqli, fiziki və şikəstlik, ailə faciələri, məhrumiyyətlər və s.), xoşbəxt ola bilmək imkanlarından məhrum olmuş olardıq. İstər-istəməz yeriyə, müstəqil hərəkət edə bilməmək, başqalarından asılı olmaq, ailədə, cəmiyyətdə qəbul edilməmək vəziyyəti ilə barışmalı olardıq. O zaman, bəlkə də kamil şəxsiyyət, fərdiyyət, subyekt də ola bilməzdik.

Başqa bir məsələ də var. Bəzi insanlar ona verilən bütün imkanlara baxmayaraq öz potensialından lazımınca yararlanmağa maraq göstərmirlər. Bu da onun seçimidir. Hətta əgər biz: ”Mən heç bir seçim etmirəm” deyiriksə belə, əslində bu özü də seçimdir – tabe olmaq, seçim etməmək seçimi. İnsan elə yaradılıb ki, həyatın hər bir anında seçim etməli olur. Elə seçimə cəhd etmək lazımdır ki, həmişə həyatımızı doldursun. İnsan ruhu həmişə həyatını doldurmaq, mənalandırmaq üçün seçim etməyə meyillidir. O, həmişə məhəbbətə və gözəlliyə can atır. Əgər buna köklənə bilsək, kainatın yaradıcı enerjisi ilə

əlaqəyə girmiş oluruq. Bu, nə istədiyimizi, nəyi arzuladığımızı dəqiq bildiyimiz anda baş verir. Hər birimiz həm özümüzə, həm də başqalarına məxsus olan müxtəlif fikirlər atmosferi ilə əhatə olunaraq yaşayırıq. Yalnız özümüzə deyil, başqalarına məxsus olan fikirləri belə həmin fikirlərə münasibətimiz müəyyənləşdirir.

***Arzu reallığa çevrilir.*** Kainat fəallıqdan yaranıb və fəallıqla doludur. Hər yerdə hərəkət var. Heç nə heç zaman dayanmır. Bu fəallıq ağıldan gəlir. Gərək fəallıq qanunundan səmərəli istifadə edərək hərəkətə yol tapaq. Fəallıq barəsində düşünən hər kəs fikrini güclü, enerjili bildirir. Belə şəxs fikri hərəkətə gətirməkdən ötrü əməli işlər də görə bilir. Əksinə, fikrini sakit, cansız, danışmaq xatirinə danışmaq kimi görünən tərzdə ifadə edən adamın işi də cansıxıcı olacaqdır. Dünya hərəkəti, dəyişmələri sevir. Hərəkət özü – həyatdır. Hərəkət hazırlıq – işin başlanğıcıdır. Yeni işə başlamağa həmişə hazır olun. Elə hərəkət edin, sanki artıq hadisə baş verib. Həmişə işin və vasitələrin hərəkətliliyini təmin edin. Fəallıq-təbiətin insana ən böyük bəxşişidir. Fəal düşünən insan üçün düşünməkdən ötrü oturmağa gərək yoxdur. O, həm işləyir, həm də düşünür. Fəallıq haqqındakı düşüncələr də onunla birgə hərəkət edir. İnamı onu özünə əmin edir. Dünyanın enerji xəttinə qovuşaraq işində məna tapır. Gördüyü işin bəşəri mahiyyətini dəyərləndirərək ona bağlanır.

Son olaraq bunları qeyd edə bilərik ki, müasir elmlərin təmsilçiləri psixikada baş verən proseslərdə iştirak edən fenomenin bioloji təbiətə malik olması fikrindədirlər. Eyni zamanda insanın harmonik xüsusiyyətlərinin ən başlıcası onun biopsixoloji təbiəti ilə bağlı olanlardır. Ona görə də insana özünün bioloji varlığı ilə bərabər bütöv yanaşma hazırda insanla bağlı elmlər, o cümlədən də psixologiyanın qarşısında mühüm tələb kimi qoyulur. Çünki insan ətraf aləmlə yalnız sosial əlaqələr zəminində deyil, bioloji əlaqələr zəminində də təmasda olur. Bu yolla harmonik şəkildə inkişaf edir. Qeyd edək ki, belə yanaşma psixoprofilaktikanın vəzifələrini həyata keçirmək üçün daha vacibdir.

## ƏDƏBİYYAT


1. *Əliyev R.İ.* Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.
2. *Əliyev Ə.Ə.* Qloballaşma prosesinin milli xüsusiyyətlərlə qarşılıqlı təsirinin psixoloji xüsusiyyətləri. Psixol. üzrə fəl. dok. ... diss. Bakı, 2016, 145 s.
3. *Əmrahlı L.Ş.* Psixoprofilaktika. Bakı: Mütərcim, 2010, 204 s.
4. *Александрова Ю.И.* Психофизиология. СПб.: Питер, 2001, 490 с.
5. *Данилова А.Г.* Возможности исследования ценностных ориентаций в исторических обществах // Вопросы психологии, 2002, №3, с. 52-68
6. *Моносов Б.* Управление энергии. СПб: Невский проспект, 2003, 118 с.
7. Психотерапевтическая энциклопедия. СПб: Питер, 1999, 744 с.
8. http:// www.philconsc.wordpress.com
9. http://www.effecton.ru

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 238-246
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 238-246
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 238-246

*UOT 159.9*

***P.Z.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*pervin.eliyeva.1990@gmail.com*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ YENİYETMƏLƏRDƏ MİLLİ XARAKTERİN FORMALAŞMASI

***Açar sözlər:*** *yeniyetmə, qloballaşma, milli xarakter, əxlaqi dəyərlər, milli psixologiya*

Nəticə olaraq deyə bilərik ki, qloballaşma məlum ictimai-iqtisadi formasiyaların fonunda yeni formasiyadır, tarixi hadisədir və qaçılmazdır. Təhlükəlidir, həm də müsbət tərəfləri vardır. Təhlükəlidir ona görə ki, milli özünəməxsusluqları sıradan çıxarır. Müsbət tərəfi dünya xalqlarının bir-birinə yaxınlaşmasıdır. Lakin bu yaxınlaşma düzgün başa düşülməzsə, yenə milli yöndən ziyan gətirər. Yəni şüurlarda aşınma manqurtlaşma, mənəviyyatlarda aşınma öz kökündən ikrah, adət-ənənələrdən uzaqlaşıb simasızlaşma, məişətdə aşınma, cəmiyyətdə, ailədaxili ünsiyyətdə, geyim mədəniyyətində, milli mətbəxin süqutunda, milli musiqinin savadsız şoular yolu ilə əriyib getməsində, ana dilinə qarşı hörmətsizlikdə, ədəbiyyat və incəsənətdə, vulqar azadlıqda və s. digər kəsişən xətlərdə özünü göstərir. Əvvəl millilik, sonra bəşərilik. Milliliyin bir kənara qoyulub bəşəriliyin ardınca qaçıldığı şəraitdə milli sima itir.

Bütün bunları nəzərə alaraq hazırki şəraitdə böyüməkdə olan gənc nəslin tərbiyəsinə daha ciddi yanaşmaq, onları milli kökdə tərbiyə etmək lazımdır.

***П.З.Алиева***

# ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА ПОДРОСТКОВ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

***Ключевые слова***: *подросток, глобализация, национальный характер, моральные ценности, национальная психология*

В результате мы можем сказать, что глобализация является новой формой, историческим событием и неизбежной на фоне известных социально-экономических форм. Это и опасно, и имеет положительные стороны. Это опасно, потому что уничтожает национальную идентичность. Положительной стороной является близость народов мира. Однако, если этот подход не будет правильно понят, он все равно будет наносить ущерб национальному направлению. То есть изнашивание сознания, морали является следствием его коренной причины ненормальностей, неудовлетворенности традициями, размывания в семье, в обществе, в семейном общении, культуре одежды, упадке национальной кухни, расплавлении национальной музыки через неграмотность.

показывать, неуважение к родному языку, литературе и искусству вульгарной свободы и т. д. проявляет себя в других пересекающихся линиях. Сначало национализм, затем человечество. Национализм теряет свою национальную самобытность, когда его отбрасывают и убегают вслед за человечеством.

Ввиду всего этого необходимо более серьезно подходить к воспитанию молодого поколения в современных условиях, воспитывать его в национальных корнях.

***P.Z.Aliyeva***

## FORMATION OF NATIONAL CHARACTER OF TEENAGERS IN CONDITION OF GLOBALIZATION

***Keywords:*** *teenager, globalization, national character, moral values, national psychology*

As a result we can say that globalization is a new form, a historical event and inevitable in the background of known socio-economic forms. It's both dangerous and has positive aspects. It is dangerous because it eliminates national identity. The positive side is the closeness of the world's peoples. However, if this approach is not understood correctly, it will still be damaging to the national direction. That is, wear and tear of consciousness, morality is a result of its root cause of abnormalities, dissatisfaction with traditions, erosion in the household, in society, in family communication, clothing culture, decline of national cuisine, melting of national music through illiterate show, disrespect to mother tongue, literature and art vulgar freedom and so on. shows itself in other intersecting lines. First, nationalism, then humanity. Nationalism loses its national identity when it is discarded and run away after humanity.

In view of all this, it is necessary to take a more serious approach to the upbringing of the young generation in modern conditions, to educate it in national roots.

Fərdin bir şəxsiyyət kimi formalaşmasını müxtəlif təsir proseslərindən kənarda götürmək mümkün deyil. İnsanın şəxsiyyət kimi inkişafı prosesinə həm bioloji, həm də sosial amillər təsir göstərir. Bu baxımdan şəxsiyyətin formalaşmasını da bu cür təsirlərdən kənarda təsəvvür etmək mümkün deyil. Şəxsiyyətdə etnik-psixoloji xüsusiyyətlərin təzahürü, onun formalaşması, hər şeydən əvvəl, həmin insanların yaşadığı cəmiyyətdə mövcud olan normativ qaydaların, etalonların hansı səviyyədə olmasından çox asılıdır. Bu baxımdan son illərdə respublikamızın milli, mənəvi, sosial, iqtisadi həyatında ciddi dəyişikliklər baş vermişdir.

Yeniyetməlik yaşı əxlaqi dəyərlərin, təsəvvürlərin, əxlaqi prinsiplərin intensiv formalaşması mərhələsidir. Həm də nəzərdən qaçırmaq olmaz ki, bu yaş mərhələsi sadəcə olaraq əxlaqi dəyərlərin, təsəvvürlərin mənimsənilməsi ilə kifayətlənmir, həmçinin yeniyetmələr öz davranış və rəftarını da həmin

prinsiplər üzərində qurmağa, başqa sözlə, mövcud əxlaqi normalara uyğun olaraq hərəkət etməyə, davranmağa çalışırlar. Təbii ki, bu proses birdən-birə asanlıqla baş vermir. Burada ailə tərbiyəsi, məktəbdə təlim-tərbiyə işlərinin təşkilinin səmərəlilik dərəcəsi, eləcə də ətraf mühitin, qarşılıqlı münasibətlərin xarakteri də mühüm rol oynayır. Burada valideyn şəxsiyyəti, müəllim və tərbiyəçilərin nüfuzu ciddi əhəmiyyət kəsb edir. Çünki yeniyetmələrin mənəvi aləminin, əxlaqi davranışının formalaşmasında onların müsbət etalon kimi qəbul etdikləri və ya etalon saydıqları şəxsiyyətlərin təsiri həlledici rol oynayır. Ona görə də yeniyetmələr özlərinə əxlaqi və mənəviyyat etalonu seçdikdə öz davranışlarını həmin etalona müvafiq şəkildə tənzim etməyə çalışırlar. Bu cəhət yeniyetmələrin tərbiyəsində, formalaşmasında müsbət şəxsi nümunənin mühüm rol oynadığını göstərir.

Yeniyetməlik yaşı səciyyəvi olan cəhətlərdən biri də onlarda xarakterin təşəkkülü və formalaşmasıdır. Deməli, bu yaşda xarakterin formalaşması onların ümumi inkişafında mühüm yer tutur. Onlarda coşqun fəallıq, qaynar enerji, hər şeylə maraqlanma, təşəbbüskarlıq, optimizm, iradi keyfiyyətlərin inkişafı xarakterin formalaşması üçün əsaslı zəmin yaradır.

Yetişməkdə olan gənc nəsli bu soykökdən ayırmaq ağacı kökündən çıxarıb atmaq kimi bir şeydir. Azərbaycan xalqının soykökündə özünə möhkəm yer tutan bu əxlaqi sərvətləri tədqiq edib öyrənmək, uşaq və yeniyetmələri həmin ruhda tərbiyə baxımından böyük əhəmiyyətə malikdir. Məlumdur ki, indi sərhədlər açılıb, dünyaya inteqrasiya imkanı yaranıb, qloballaşma prosesinə qoşulmuşuq. Müasir qloballaşma dövründə gedən ictimai-siyasi, elmi-mədəni, sosial-iqtisadi, mənəvi-psixoloji proseslər, xüsusilə, mədəniyyətlərin bir-birinə inteqrasiyası yeniyetmələrin ictimai-siyasi münasibətlərinə, eləcə də onların özləri haqqında təsəvvürlərinin formalaşmasına mənfi və müsbət təsir göstərir. Bu neqativ yeniləşmələr yeniyetmələrin yalnız siyasi istiqamətini, onun tələbat və motivasiya sahəsini dəyişmir, həm də onun rəftarında, davranışında, milli dəyərlərimizə münasibətində də dəyişikliklər yaradır. Ən təhlükəli hal odur ki, yeni yaranan dəyərlər milli dəyərlərin qorunub saxlanmasına zərbə vurur. Yeniyetmələrin milli özünüdərkində ziddiyyətlər yaradır. Qloballaşma hazırda qarşısıalınmaz bir prosesə çevrilmişdir. Siyasi, sosial, iqtisadi, mədəni sahələrdəki qeyri-sabitlik fonunda baş verən bu proses artıq cəmiyyəti, mədəniyyətləri qayğılandıran başlıca amillərdən biridir. Bu narahatlıqların səbəbi psixologiyada insanın etnogenetik strukturunun dəyişmə təhlükəsindən, onun orqanizmə və psixikaya mənfi təsirlərindən irəli gəlir. Qloballaşma prosesində baş verən dəyişmələrdə milli xüsusiyyətlərin nəzərə alınması da bu baxımdan zəruridir. Əks halda isə onlarda inkişafa qarşı müqavimət artar, nəticədə, xalqın özü inkişafda ləngiyə bilər.

Əvvəla, onu qeyd edək ki, qloballaşma, inteqrasiya qaçılmaz, qarşısıalınmaz bir prosesdir. Təbii ki, bu proses həm təhlükəlidir, həm də

müsbət cəhətləri var. Təhlükəlidir ona görə ki, milli özünəməxsusluqlar sıradan çıxır. Müsbət cəhəti dünya xalqlarının bir-birinə yaxınlaşmasıdır. Amma bu yaxınlaşma düzgün başa düşülməzsə, yenə milli yöndən ziyan gətirər. Yəni şüurlarda aşınma manqurtlaşma, mənəviyyatlarda aşınma öz kökünsən ikrah, adət-ənənlərdən uzaqlaşıb simasızlaşma, məişətdə aşınma, cəmiyyətdə, ailədaxili ünsiyyətdə, geyim mədəniyyətində, milli mətbəxin süqutunda, milli musiqinin savadsız şoular yolu ilə əriyib getməsində, ana dilinə qarşı hörmətsizlikdə, ədəbiyyat və incəsənətdə vulqar azadlıqda və s. digər kəsişən xətlərdə özünü göstərir. Necə deyərlər: "Əvvəl evin içi, sonra çölü", yəni əvvəl millilik, sonra bəşərilik. Milliliyin bir kənara qoyulub bəşəriliyin ardınca qaçıldığı şəraitdə milli sima itir.

Bütün bunları nəzərə alaraq hazırki şəraitdə böyüməkdə olan gənc nəslin tərbiyəsinə daha ciddi yanaşmaq, onları milli kökün cazibəsində saxlayaraq reallıqlar zəminində dünya üçün yetişdirmək lazımdır ki, onlar vətəndən pərvazlanıb dünyanın fonunda öncə milli varlığımızı yüksəklərə qaldırsınlar. Demək inteqrasiyadan qaçmaq mümkün deyildir. Onun qarşısını almaq heç bir xalqın, heç bir dövlətin imkanı daxilində deyil. Artıq beynəlxalq əlaqələr, iqtisadi, siyasi, mədəni münasibətlər elə bir həddə çatıb ki, ona qarşı çıxmaq mümkün deyil. İndi bir ölkənin daxilində gedən proseslər tək o ölkəyə aid deyil, dünyanın problemidir. İndi elm, texnika, informasiya vasitələrinin inkişafı elə bir həddə çatıb ki, onların vasitəsilə istənilən ölkənin daxili işlərinə asanlıqla təsir etmək mümkün olur.

Müasir Azərbaycanlının milli xarakteri sürətlə qloballaşan dünyanın çağırışları kontekstində müxtəlif təsirlərə və bu təsirlərin nəticəsində funksional və struktur dəyişmələrinə məruz qalır. Qlobal dünyaya inteqrasiya xalqımızın min illər boyu yaratdığı və yaşatdığı bu günə qədər gəlib çatmış bir çox milli-mənəvi dəyərlərə, milli xarakterə ciddi zərbə vurur, yad mədəniyyətlərin təsiri altında milli dəyərlərimiz get-gedə öz təsir gücünü itirir.

Məlumdur ki, dünya 90-cı illərdən etibarən sürətli qloballaşma reallığını yaşamaqdadır. Bu gün təhsil qloballaşıb, mədəniyyətlər inteqrasiya olunur. Milli simalar tədricən itir və öz yerini dünya adamının yaranması prosesinə verir. Milli mənlik şüurları zəifləyir.

Qloballaşma dövründə əvvəllər mövcud olmayan yeni dəyərlər meydana gəlir. İnformasiya artdıqca yeniyetmələrin həmin informasiyaları alıb, yeni kontekstdə dövlətin, millətin, etnik milli hisslər istiqamətində təhlil edib özünün milli etnik baxımından istifadə etməsi bəzən yeniyetmələrin bəzilərinin idraki imkanlarından kənarda qalır. Məhz buna görə də maarifləndirmə işləri genişləndirilməli, bu istiqamətdə psixoloji tədqiqatlar aparılmalı, məktəblərdə, xüsusilə, ailələrdə uşaq və yeniyetmələrin, gənclərin mənəviyyatında humanist davranış toxumları səpilməlidir. Avropa ölkələrindən süzülüb gələn pozitiv psixoloji xüsusiyyətləri mənimsəməklə yanaşı, mentalitetimizə,

Azərbaycançılıq ideologiyamıza zidd olan meyil və davranışların qarşısı alınmalıdır.

Sosial şəbəkələrdə ABŞ istehsalı olan "melting pot" (əriyən qazan) adlı animasiya filmi nümayiş etdirilir. Tavanın qulpu tərəfdə dünyanın müxtəlif insanları dayanmışlar. Onlar bir-bir qulpun üzərinə çıxır və sürüşüb tavaya düşürlər. Orada əriyib yeni insana çevrilir və tavadan o biri üzə keçirlər. O biri üzdə eyni görkəmdə, eyni biçimli insanlar toplanır: onlar dünya adamıdır. Filmin ideyası millilikdən üz döndərərək əriyib, simasızlaşıb dünya adamına çevrilməyin "şərafət" və "gözəlliyini" təbliğ etməkdir. Ən təhlükəli mərhələ də elə bu nöqtədə başlayır. Çünki bəyənilən yaxşı və gözəl şeylərlə yanaşı, bir çox istənməyən və cəmiyyətlərin əsası və ənənəsi ilə uyğun olmayan adət və davranışlar da ötürülür. Bunları ayırd etmənin və ya bəyənilməyənlərin qarşısını almağın heç bir yolu yoxdur. Təəssüflər olsun ki, bu bəyənilməyənlərin əksəriyyəti də asan və tez alışılan xüsuslardır. Cəmiyyət və ya fərdlərin bunları təqlid etməsi modaya uymaq, bəyənilmək və ya ətrafa təsir etmək arzuları ilə üst-üstə gələrək yerli mədəniyyətdəki dəyərlərin yerini tutmağı bacarırlar. Bu dəyərləri ixrac edən ölkələr bu xüsusdan məmnun olmaqda və vəziyyəti təşviq etməkdədirlər. Belə hal onlar üçün öz təsir sahələrinin genişlənməsi və özlərinə yaxın qrupların artması mənasında qavranılır.

Bir ölkənin özünə xas və öz mədəniyyətini arxa plana atmağa, bəyənilməməyə və dəyişdirilməyə başlarsa, demək ki, o ölkənin özəyi çürüməyə başlamışdır. Buna qarşı çıxılmazsa, bu vəziyyət geri dönüşü olmayan bir erroziya və dəyişmə şəklinə gələr.

Hələ tam formalaşmamış, həyati reallıqları olduğu kimi dərk etməyən, valideyn nəzarətindən kənarda qalan, vaxtını komputer arxasında, internet klublarda keçirən yeniyetmələrə ən müxtəlif parametrlərdən yanaşaraq onlara "canıyananlıq" göstərən, "bədii zövq" aşılayan belə materiallar – filmlər, oyunlar, tanışlıqlar, informasiyalar çoxdur və milli simasızlıq sindromu törətdiyi üçün təhlükəlidir. Həm böyüməkdə olan nəsil üçün, həm də onun mənsub olduğu cəmiyyət üçün. Bu yöndən nüfuzlu siyasətçilərin fikirlərinə istinad edərək deyə bilərik ki, qloballaşma milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivəsinə salaraq sərt şəkildə məhdudlaşdırır. Milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir. Həyat təcrübəsi az olan, yaxud yaşı çox olsa da, məntiqi zəif olan bəzi adamlar "Avropada belə deyil" deyərək yaşı min illərə bərabər adət-ənənələrimizi, ailə institutumuzu tənqid edir, əvəzində kənardan nəyisə götürməyi lazım bilirlər. Böyüməkdə olan gənc nəslin şüuruna ötürülən bu "fikirlər" vətənpərvərlik deyil, mənəvi dayazlıqdır.

Hər hansı bir cəmiyyətin sosial-iqtisadi, ictimai, mənəvi-psixoloji inkişafı bu günün və gələcəyin ümid yeri olan gənclərin mənəvi, siyasi, psixoloji zənginliyindən, ağıl və düşüncəsindən, müstəqil mühakimə

yürütməsindən, qorxmaz, mərd mübarizəsindən çox asılıdır. Gənclər nə qədər xalqa, Vətənə sədaqət ruhunda tərbiyə olunsa, ölkəmiz üçün bir o qədər yararlı gənclər yetişər. Qloballaşma dövründə yeni-yeni problemlər meydana çıxır. Gənclərimiz bu çətin və mürəkkəb situasiyadan baş çıxarmaq yolunu öyrənməli, ölkəmizin tarixinə, onun maddi-mənəvi dəyərlərinə bələd olmalıdırlar. Gənclərimiz bu yolla hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşa bilərlər [5, s.9].

Çox maraqlıdır ki, hamı qloballaşma adı altında Qərbə, avropasayaqlığa, müasirliyə can atır. Əslində bu prosesdə hələ də bir çox problemlər, natamamlıqlar özünü göstərməkdədir. Məsələn, biz Qərb sivilizasiyası deyəndə, yalnız geyimi, rok-pop musiqisini, lüks həyatı anlayırıq. Amma nədənsə Avropa dəyərlərini, mədəniyyətini, etikasını, təhsilini, özünüdərkini, insana verdiyi dəyərini hələ də anlamamışıq və bəlkə də anlayırıq, amma qəbul etmək istəmirik.

Bu gün bəşərilik, qloballaşma məfhumu tam mənası ilə Qərbləşmə demək deyil. Qloballaşma bütün qütblərdən ibarət qlobal bir dünyanın, mədəniyyətin, elmin, texnologiyanın çuğlaşması deməkdir. Qloballaşma Avropalaşma demək deyil. Bəli, bu gün bu prosesin əsas nüvəsini Avropa təşkil edir. Çünki ideologiya ordan gəlir və dünyanı Qərb və ABŞ öz ardınca aparır. Lakin ideologiya, mənlik, tarixi köklər, mənəvi dəyərlər – sivilizasiya bunları inkar etmir. Əksinə bu proses mono yox universal şəkildə irəliləyir və inkar edən varsa bu millətlər və xalqların özüdür. Müasirlik milli kökləri, milli xüsusiyyətləri, xarakteri, adət-ənənəni, mədəniyyəti unutmaq demək deyil. Əsas məqsəd onun içərisində o unudulmaması gərəkən şeyi yaşada bilməkdir. Çünki mədəniyyət xalqın mövcudluq meyarıdır. Bu meyarı dünənini unutmadan bu günlə zənginləşdirərək sabaha doğru aparmaq hər kəsin ali borcudur.

Müəyyən olunmuşdur ki, yeniyetmələrə qloballaşmanın neqativ təsirləri daha çoxdur. Bu yaş dövründə onların dünyagörüşü, dəyərləri, sosial-əlaqələri hələ tam formalaşma mərhələsində olduğundan kənar təsirlərə daha çox məruz qalırlar. Təcrübələr göstərir ki, qloballaşma dövründə insanın psixoloji gərginlikləri əsasən onun etnik dəyərlərindən, milli kökdən uzaqlaşmaq məcburiyyətindən, qloballaşma zərurəti ilə üz-üzə qalmasından baş verir. Bu baxımdan dünyada gedən qloballaşma prosesinin insanın ruhi aləmində, davranış və təfəkküründə hansı problemləri yaratmasını təsəvvür etmək çətin deyildir. Belə nəticəyə gəlmək olar ki, psixikanın böhran vəziyyəti anlayışını yalnız ayrıca fərdə deyil, sosial qrupa, etnosa da şamil etmək mümkündür. Bu böhranlı vəziyyət cəmiyyətdə baş verən hər bir tarixi böhran şəraiti insanların yeniləşməsi, müasirləşməsi baxımından əlverişli yenidənqurulma proqramıdır.

Qloballaşmanın qarşısının alınması demək olar ki, mümkünsüzdür. İndi bir ölkə daxilində baş verənlər yalnız həmin ölkənin yox, həm də dünyanın problemi kimi nəzərdən keçirilir. İndi bir ölkənin sərvətləri yalnız həmin

ölkənin deyil, ümumbəşəri sərvətlər hesab olunur. Bununla belə, indi hər bir xalqın öz varlığını, öz mədəniyyətini təqdim və təsdiq etmək imkanı yaranmışdır. Kim bu iki, ilk baxışda bir-birilə ziddiyyət təşkil edən proseslərin vəhdətini qura bilsə, o ölkə, o xalq inkişaf edəcək. Əks halda ya qloballaşmanın qurbanına çevriləcək, ya da özünə qapanıb özünütəcridin qurbanı olacaq [6, s.59].

Kütləvi informasiya, internet şəbəkələri vasitəsi ilə çoxlu mənfi məlumatlar gəlir. Yeniyetmələri bu yad ünsürlərdən qorumaq bu gün valideynlərin, müəllimlərin və bütün ictimaiyyətin vəzifəsidir. Yeniyetmələrin xarakterində milli təəssübkeşlik, qayğıkeşlik, vətənə, onun bütün atributlarına sevgi ilə kök salmalıdır. Harada, hansı ölkədə olursa-olsun xarakterindəki millilik həmişə onun yol yoldaşı olsun. Çünki xarakter əlamətinə çevrilmiş hər hansı bir xüsusiyyət öz təsir qüvvəsini göstərir. Yeniyetmələrə hər hansı bir iş formalarını düzgün dərk etmək, onun daxili mahiyyətini üzə çıxarmaq yollarını öyrətmək zəruri məsələlərdən biridir. Deməli, inteqrasiyadan qaçmaq, onun qarşısını almaq yox, ona doğru getmək lazımdır. Lakin təbii ki, öz milli dəyərlərini, milli mentalitetini, mənəviyyatını qorumaq şərti ilə. İndi dövlətlər və xalqlar arasında əlaqə və münasibətlər elə bir həddə çatıb ki, bunsuz mümkün deyil. İnteqrasiyadan, qloballaşmadan qaçmaq özünütəcridə, «özünüintihara» bərabərdir, milli dəyərlərini, milli mənəviyyatını qoruya bilməmək də eyni dərəcədə təhlükəlidir. Milli mənəviyyatını, kimliyini, kökünü, etnik xüsusiyyətlərini qoruya bilməyən bir xalqın millət kimi formalaşması qeyri- mümkündür. Məhz buna görə də yeniyetmələrin tərbiyəsində ən mühüm faktor milli xarakter xüsusiyyətlərinin inkişaf etdirilməsidir.

Qloballaşma şəraitində şəxsiyyətin strukturunun qorunması, milli dəyərlərin, adət-ənənələrin, gərəkli stereotiplərin, milli xarakterin möhkəmləndirilməsi olduqca vacibdir. Qloballaşma şəraitində bu günlərdə daha maraqlı bir tendensiyanın şahidi oluruq. Belə ki, bir tərəfdən, bütün dünyada inteqrasiya prosesi güclənir, digər tərəfdən isə bu inteqrasiyanın təsiri ilə bağlı milli qürur hissinin kəskinləşməsi və bu zəmində də siyasi, hərbi və məişət münaqişələri baş verir. Bu, çox ciddi və paradoksal tendensiyadır. Zənnimizcə, həmin paradoksal vəziyyətin yaranması səbəblərinin aşkara çıxarılması da məhz mentallığa, onun mahiyyətinin müəyyən edilməsinə bağlı bir məsələdir. Qloballaşma prosesi ilə bağlı daha bir məqam diqqəti cəlb edir. Belə ki, qloballaşma prosesinin güclənməsi zəminində biz bu günlərdə daha tez-tez milli xarakter, milli ədəbiyyat, milli fikir və s. kimi ifadələr eşidirik. Təbii ki, bu ifadələrin konkret olaraq hansı məna və məzmun kəsb etməsi ilə bağlı məsələ hər kəsi düşündürür. Amma həmin ifadələrin məzmun və mahiyyəti ilə bağlı suala aydınlıq gətirmək o qədər də asan məsələ deyildir. Q.D.Qoçev yazırdı: “Xalqın milli xarakteri, fikri, ədəbiyyatı – çox “hiyləgər” və çətin dərk edilə

bilən "materiyadır". Onun mövcudluğunu hiss edirsən, lakin onu sözlərlə ifadə etməyə çalışdıqda sanki buxarlandığını, əhəmiyyətsiz şeylərdən danışdığını və ona aid etdiyin xüsusiyyətlərin yalnız ona deyil, bütün xalqlara aid olduğunu görürsən. Bu təhlükədən qaçmaq olmaz, yalnız onları daim yadda saxlamaq və onlara qalib gəlmək deyil, onlarla mübarizə aparmaq olar" [12, s.32].

Hər bir cəmiyyətin sosial mühitində milli-mənəvi dəyərlərin qorunması və milli ruhun yüksəldilməsi mexanizmləri vardır. Cəmiyyət özü bu sosial mexanizmlər vasitəsilə milli xüsusiyyətlərin lazımi şəkildə formalaşmasını tənzimləyir. Sosial mühit tarixi səciyyə daşıyır. Hər dövrün siyasi quruluşu, tarixən qəbul etdikləri dinlər, zaman-zaman ünsiyyətdə olduğu xalqlar və s. sosial mühitə də təsir edir və xalqın sosial-psixoloji özünəməxsusluğunu təmin edir. Hər bir etnos və millətin yaşadıqları mühitdəki sosial-psixoloji iqlimin başqa-başqa olması onların milli xarakterlərinin fərqli olmasını şərtləndirir.

Milli psixologiya, ideologiya, sosial münasibətlər, dil, ərazi birliyi, din və əqidə yaxınlığı, milli adətlər, ətraf mühitə ümumi münasibət ümumi milli xarakterin yaranmasına səbəb olmuşdur. Milli ənənələr, xarakter əlamətləri, müəyyən etnik ümumilik üzvlərin davranış və rəftarında üzə çıxır və bu ümumiliyin, həyat tərzinin, ictimai-iqtisadi, siyasi inkişafının xüsusiyyətlərini əks etdirir. Ümumiyyətlə, milli xarakterin formalaşmasında sosial amillərlə yanaşı, genetik amillərin də rolu böyükdür və bu prosesdə bu iki amil qarşılıqlı vəhdətdə iştirak və inkişaf edirlər.

Elmi-texniki tərəqqi nəticəsində dünyada ünsiyyət vasitələri çoxalmış və bu vasitələrlə insanların psixologiyasına təsir etmək daha asandır. Bunun həm müsbət, həm də mənfi tərəfləri var. Bu vasitələrdən düzgün istifadə milli xüsusiyyətlərin, adət-ənənələrin qorunub saxlanılması və yeni nəslə təbliğində yüksək nəticələr verə bilər. Bu vasitələrə nümunə olaraq interneti, televiziyanı, müxtəlif filmləri göstərmək olar. İnternetdən, sosial şəbəkələrdən düzgün istifadə dünyagörüşünü artırır və dünya xalqları ilə ünsiyyət imkanına malik olmaq, öz milli kimliyini dərk etmək, öz müsbət və mənfi cəhətlərini anlamaq, öz xalqına və digər xalqlara hörmət, müsbət xarakter əlamətlərini öz üzərində tətbiq etməyə çalışmaları baxımından çox faydalıdır. Bu təsirlər hər zaman müsbət istiqamətdə getməyə bilər. Daim nəzarət olunmalıdır.

Azərbaycanda yeniyetmələr bütün dünyada olduğu kimi, Avropa dəyərlərinə, sadələşmiş amerikasayağı həyat tərzinə, kütləvi mədəniyyətə doğru meyillənir, milli-mənəvi dəyərlər isə unudulur. Bir çox tədqiqatçılar göstərir ki, xalq yaradıcılığı, folklor nümunələrindən uşaqların tərbiyəsində istifadə etdikdə milli xüsusiyyətləri, milli xarakteri daha yaxşı mənimsəyirlər. Uşaq vaxtı doğma dilində uşağa layla çalınması həm uşaqların fiziki sağlamlığına, həm də mənəvi tərbiyəsinə müsbət təsir göstərir. Eyni zamanda uşaqların tərbiyəsinin daha düzgün təşkil edilməsi üçün valideynlərin özləri ilə pedaqoji maarifləndirmə işini gücləndirmək lazımdır.

Beləliklə, məsələnin ümumi mahiyyətindən aydın olur ki, qloballaşma şəraitində böyüyən gənc nəslin milli xarakter tərbiyəsi ümummilli mənafeyə xidmət edir. Qloballaşmanın informasiya-kommunikasiya texnologiyaları və miqrasiya vasitəsilə sürətli və güclü təsirinə tab gətirmək, milli simanı itirməmək, assimilyasiya olunaraq əriyib itməmək üçün milli xarakter tərbiyəsi vacibdir. O, ailədən başlayaraq sonradan bağçada və məktəbdə ciddi şəkildə davam etdirilməlidir.

## ƏDƏBİYYAT


1. *Ağayev İ.* Müasir şəraitdə Azərbaycanda milli etnik proseslər. Bakı: MBM, 2006, 180 s.
2. *Ağayev Ə.Ə.* Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 138 s
3. *Baxşəliyev Ə.T.* Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011, 272 s.
4. *Cabbarov R.V.* Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili. Bakı, 2004, 150 s
5. *Əlizadə Ə.Ə.* Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998, 368 s.
6. *Əliyev R.İ.* Etnopsixologiya, qloballaşma və millilik. Bakı, 2007, 215 s.
7. *Əliyev R.İ.* Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000, 285 s.
8. *Əliyev R.İ.* Mentalitet. Bakı: Elm və təhsil, 2009, 229 s.
9. *Əliyev P.* Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006, 263 s.
10. *Quliyev H.* Arxetipik azərilər: mentalitetin simaları. Bakı: Qanun, 2010, 342 s.
11. *Nəsirova N.R.* Müasir dövrdə gənclərin milli özünüdərkinin sosial-psixoloji xüsusiyyətləri. Psixol. üzrə fəls. dok. ... dis. Bakı, 2013, 138 s.
12. *Стефаненко Т.Г.* Этнопсихология. М.: Академический проект, 1999, 320 с.
13. *Robertson Roland.* Globalization: Social Theory and Global Culture. London, 1992, 211 p.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 247-253
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 247-253
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 247-253

***UOT 373:159.9***

***Ş.Q.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*aliyevashaxla@mail.ru*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA AQRESSİYA ƏLAMƏTLƏRİNİN QARŞISININ ALINMASI YOLLARI

***Açar sözlər***: məktəbəqədər, uşaq, aqressiya, sosial

Məqalədə hazırkı dövrdə çox aktual olan bir problem, məktəbəqədər yaşlı uşaqlarda aqressiyanın yaranmasının səbəbləri göstərilir. Məktəbəqədər yaşlı uşaqlarda aqressiyanın profilaktikasının və aradan qaldırılması yollarının öyrənilməsi problemi prioritet məsələdir. Bu səbəbdən məqalədə eyni zamanda məktəbəqədər yaşlı uşaqlarda aqressiya əlamətlərinin aradan qaldırılmasının müxtəlif yol, vasitə və metodları araşdırılmışdır.

***Ш.Г.Алиева***

## СПОСОБЫ ПРЕДОТВРАЩЕНИЯ СИМПТОМОВ АГРЕССИИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова***: дошкольный, ребенок, агрессия, социальный

В статье освещены актуальные проблемы и причины агрессии у дошкольников. Проблема обучения тому, как предотвратить и устранить агрессию у детей дошкольного возраста, является приоритетной задачей. По этой причине, в статье также изложены различные способы, средства и методы преодоления симптомов агрессии у детей дошкольного возраста.

***Sh.G.Aliyeva***

## WAYS TO PREVENT SYMPTOMS OF AGGRESSION AMONG PRESCHOOL CHILDREN

***Keywords:*** preschool, children, aggression, social

The article highlights the current problems and causes of aggression among preschoolers. Studies about preventing and eliminating aggression among preschool children are highly important. For this reason, the article also contains various ways, means and methods of overcoming the symptoms of aggression among preschool children.

Aqressiya ("aqressio" latın sözü olub, hücum, həmlə deməkdir) alimlər tərəfindən insanların cəmiyyətdə normalarla, qanunlarla yanaşmalarda zidd

olan, insanlara fiziki, psixi zərər vuran, onlarda mənfi emosiya, gərginlik, süstlük yaranmasına səbəb olan motivləşmiş deskrutiv davranış kimi baxılır.

Aqressiya deyəndə, bir çox xarici ölkə psixoloqları aqressiyanı özünütəsdiqə cəhd etməyə yaranan güclü fəallıq kimi xarakterizə edirlər. L.Brender aqressiya haqqında hər hansı bir obyektə yaxınlaşma və uzaqlaşma meyli kimi danışır. F.Allan isə aqressiyanı insana xarici qüvvələrə qarşı durmaq imkanı verən daxili qüvvə (mənbəyini izah etmədən) kimi təsvir edir [3, s.5].

Aqressiya başqa insan və obyektə zərər vuran ədavət, həmlə, ya da dağıdıcı hərəkət aktı kimi başa düşülür. X.Delqadoya görə, "insan aqressiyası şəxsiyyətə və cəmiyyətə ziyan vurmağa cəhd edən hər hansı gücün təzahüründən yaranan davranış reaksiyasıdır" [7, s.33]. Digər psixoloqlar isə, aqressiyanı başqasına zərər vurmağa motivləşmiş niyyət adlandırır, onu fiziki və simvolik davranış növü qəbul edirlər.

Hazırda məktəbəqədər yaşlı uşaqlar arasında müxtəlif xassəli normadankənar davranış əlamətlərinin proqressiyası müşahidə olunur. Uşaq aqressivliyi isə pedaqoq və valideynlər arasında xüsusilə narahatlıq doğurur.

Məktəbəqədər yaşlı uşaqlarda aqressivlik əlamətlərinin olması problemi bir çox psixoloqların (S.A.Zavrajin, M.V.Krasnova, Y.O.Smirnova, R.Beron, D.Riçardson, D.Fontana və b.) çoxsaylı tədqiqat mövzusudur. Uşaq tərbiyəsinin həm nəzəriyyəsi, həm də praktikasında "aqressiv davranış" anlayışı tətbiq olunur. Bu insanın kənardan gələn təhlükəyə reaksiya üsulu olaraq qiymətləndirilərək aqressiya və aqressivliyin doğurduğu hərəkətlərdə təzahür olunur. Məktəblilərin davranışında olan problemlər ilə bir çox Azərbaycan pedaqoq və psixoloqları məşğul olmuşlar (A.Mehrabov, Y.Kərimov, Ə.Əlizadə, R.Əliyev və b.).

Elmi konsepsiya olan frustasiya nəzəriyyəsi (frustasiya – istək və imkanların bir-birinə uyğun olmadığı zaman yaranan psixi haldır) və sosial öyrənmə nəzəriyyəsinə (konsepsiyanın əsasında sosiallaşma durur) əsasən, uşaqlar dünyaya gələndə aqressiv olmur. Onlar bu vəziyyətə neqativ faktorların təsiri altında gəlib çıxır ki, məhz bu amillər də məktəbəqədər yaş dövründə aqressiv davranışın ilkin əlamətlərini formalaşdırır. Bu vəziyyətdə uşağa kömək etmək üçün həmin reaksiyanı yaradan səbəbləri müəyyənləşdirmək lazımdır. Bu sahədə çoxsaylı tədqiqatların aparılmasına baxmayaraq problemdən yeganə çıxış yolu tapılmamışdır.

Psixoloq-alim K.Lorents iddia edir ki, aqressiya həm insanlar, həm də digər canlı varlıqlar üçün xarakterik olan anadangəlmə yaşamaq uğrunda mübarizə instinktindən irəli gəlir. Onun fikrinə əsasən, aqressiyanın əlamətlərini müxtəlif üsullarla zəiflətmək olar, sevgi və dostluq münasibətlərinin göstərişi isə açıq aqressiya ilə zidd olduğuna görə onun təzahür olunmasının qarşısını alacaqdır.

Psixoloq D.Dollardın frustasiya nəzəriyyəsinə əsasən, aqressiv davranış çoxalan və inkişaf edən deyil, situativ xarakter daşıyır. O, hesab edir ki, frustasiya hər zaman müəyyən formalı aqressiyaya gətirib çıxarır.

A.Banduranın sosial öyrənmə nəzəriyyəsinə əsasən, aqressiya – müşahidə və sosial təsdiqlənmə vasitəsilə sosiallaşma və davranış prosesində mənimsənilmiş müvafiq obrazın nəticəsidir. Aqressiv davranışın analizi zamanı (alimin fikrinə görə) aşağıdakıları nəzərə almaq lazımdır:

- bu cür hərəkətlərin mənimsənilmə yolları;
- onları yaradan faktorlar;
- onları möhkəmlədən şərait.

Bu nəzəriyyəyə əsasən, aqressiya sonradan qazanılan sosial davranış modeli olduğundan onu yaradan şərtlərin aradan qaldırılması nəticəsində zəifləyə bilər.

Hazırda sosial öyrənmə nəzəriyyəsi uşaqlarda aqressiv davranışın proqnozlaşdırılması və korreksiyası işində ən effektiv nəzəriyyə hesab olunur.

Alimlərin mövqeyinə əsasən, məktəbəqədər yaş dövründə neqativ faktorların təsiri altında formalaşan aqressiya yeni törəməyə başlayır və bu səbəbdən də müxtəlif sosial kənaraçıxmaların profilaktikasını məhz bu yaş dövründə aparmaq daha asandır. Bizim nöqteyi-nəzərimiz bu mövqe ilə tam üst-üstə düşür.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların aqressiv davranışının diaqnostikası, profilaktikası və korreksiyası ilə əksər hallarda psixoloqlar məşğul olur. Tərbiyəçilər həmin istiqamətdə aparılan məqsədyönlü profilaktik işlərdə peşəkarcasına iştirak etmək üçün səriştəsiz ola bilər. Bununla belə, dövlət standartlarına əsasən, uşaqların sosiomədəni normalara cəlb olunması onların səriştəsinə daxil olmalıdır. Uşağın yaxınları ilə, tərbiyəçi ilə, yaşıdları ilə ünsiyyətdə tez-tez aqressiya nümayiş etdirməsi sosial cəhətdən qəbul edilən davranışa ziddir və aqressivliyin şəxsi keyfiyyətə keçməsinə gətirib çıxara bilər. Bu səbəbdən də tədris prosesinin təşkili zamanı və onun gedişatında bu situasiyaya pedaqoji təsir yolunu tapmaq zəruridir.

Aqressiya əlamətlərinin profilaktikası üçün aqressiv davranışın, aqressivliyin, uşaqlarda onların təzahür formalarının mahiyyətini öyrənmək zəruridir, çünki onları bilməklə uşağın hərəkət və davranışında asosial istiqamətlənməni vaxtında müəyyənləşdirmək olar.

Aqressiv davranışın ənənəvi ifadə üsulları bunlardır: qışqırıq, neqativ emosiyaların üzə çıxması, təhqir, təhdid, tələb, fiziki qüvvənin tətbiq olunması (dişləmək, cırmaqlamaq, vurmaq).

Bu, yuxarı yaş qrupunda olan uşaqların cavablarında da təsdiq olunur. "Hirslənəndə nə etmək istəyirsən?" sualına "vurmaq, döymək", "qışqırmaq", "qaçıb getmək", "dişləmək", "oyuncağı sındırmaq" kimi tipik cavablar verilmişdir.

Göründüyü kimi, uşaqlarda neqativ emosiyaların aqressiya şəklində təzahürü üstünlük təşkil edir. Onları aqressiyaya vadar edən səbəbləri müəyyənləşdirmək üçün pedaqoq "Nəyə görə hirslənmisən?" sualından başlaya bilər.

Bir çox hallarda yuxarı yaş qrupunda məktəbəqədər yaşlı uşaqlar çox zaman "əlimdən oyuncağı aldılar", "mənə gülürlər", "məni birinci qoymadılar", "məni ələ salırlar", "nəsə alınmır" səbəbindən hirslənirlər.

Uşaq fikirlərinin analizi, onların davranışının müşahidəsi pedaqoqa aqressiv davranışın əsas məqsədini öyrənməyə imkan verir. Onların xarakteristikası digər elmi tədqiqatlarda da təqdim olunmuşdur:

- digər uşağı ağrıtmaq;
- hər şeydə və hər zaman birinci olmağa can atmaq;
- öz azadlığının qorumağa çalışmaq,
- ətrafdakıların diqqətini cəlb etmək;
- məqsədinə çatmaq yolunda maneələri aradan qaldırmaq;
- yaşıdları arasında hörmət qazanmaq.

Uşağın aqressiv davranışını qiymətləndirmək üçün həmin aqressiyanın kimə və ya nəyə istiqamətləndiyini də bilmək zəruridir. Əksər hallarda bu, uşağın yaxınları və yaxın qohumları, ailə üzvlərindən başqa ətrafında olan böyüklər, yaşıdları, heyvanlar, simvolik və uydurulmuş obyektlərdir.

Sadalanan obyektlərin aşkarlanması müşahidə prosesi vasitəsilə həyata keçirilə bilər. Məsələn, 6 yaşlı uşaq həyətdə oynayarkən başqa bir uşaq onun topunu götürsə, o, yaşıdını yumruqla vurur və dərhal topunu geri götürür. Tərbiyəçinin “öz yaşıdına qarşı belə etmək olmaz” - sözlərinə sakit reaksiya verməsinə baxmayaraq növbəti dəfə həmin davranışı təkrarlayır.

Aqressiya gizli formada olanda (ünsiyyət qurmaqdan imtina edir, ziyan vurmağa çalışır) müdafiə xarakteri daşıya bilər – belə halda aqressiv əlamətlər şəxsiyyətin normal reaksiyası hesab oluna bilər. Axı ən sakit təbiətli uşaq belə yaşıdları tərəfindən daim təhrik olunduğunda özündən çıxa bilər. Bu səbəbdən də pedaqoqdan münaqişəli situasiyalarda uşaqların emosional reaksiyasına qarşı diqqətli olmaq tələb olunur.

**İşin təşkili şərtləri**

1.Aqressiyanın yaş artdıqca dinamikası.

Əksər tədqiqatçıların (D.Fontana, Q.Lindenfild, A.A.Korniyenko, M.V.Krasnova, İ.A.Furmanov və b.) fikrinə əsasən, uşaqlarda aqressiv əlamətlər erkən yaşlardan təzahür olunmağa başlayır.

Ömrünün ilk illərində bu, impulsiv xarakter daşıyır və böyüklərin bacara bilmədiyi tərslik tutmaları ilə təzahür olunur: Əsaslanmamış qışqırıq, dalaşqanlıq, dişləmək və s. Körpə uşağın anasını vurmaq istəməsi normal hal hesab oluna bilər, lakin belə hərəkətlərin məktəbəqədər yaş dövründə baş verməsi böyükləri düşünməyə vadar etməlidir.

Körpədə sərbəstliyin artması onun davranışında müstəqilliyi formalaşdırır, bu səbəbdən də məşhur "Mən özüm!" ifadəsi valideynlərin istəyinə baxmayaraq öz bildiyini etmək cəhdlərində təzahür olunur. Uşaq anasının məhəbbətini itirmək istəmədiyindən öz qəzəbini daha zəif olana (məsələn, bacısına və ya qardaşına) yönəldir.

Böyüklər bilməlidir ki, uşaq bağçasına gedən uşaq stress hissi keçirir və bu, aqressiv əlamətlərlə müşayiət oluna bilər: uşaqlar dalaşır, başqalarına lağ edir, dişləyir və s., lakin həmin situasiyada və həmin yaş dövründə bu hərəkətlər impulsiv və qeyri-iradi xarakter daşıyır.

Bu yaşda aqressiyanın passiv əlamətləri bunlar hesab olunur: tərslik, neqativlik, dodaqları, dırnaqları dişləmək, böyüklərin tələblərini yerinə yetirməkdən imtina etmək. Bu cür davranışın pik nöqtəsi iki yaşına, aqressivliyin pik nöqtəsi isə üç yaşına təsadüf edir. Ümumilikdə, erkən yaşlarda başlayan uşaq aqressivliyi alimlər tərəfindən çoxsaylı qorxuları yaradan zəifliyin təzahürü kimi qiymətləndirilir.

Qorxularını aradan qaldırmaq üçün uşaq müdafiəli aqressiya davranışına əl atır. Qorxunu aradan qaldırmanın digər yolu – autoaqressiyadır (aqressiyanın özünə yönəlməsi).

Uşaq yaşlarında aqressiya valideynlərin uşağın davranışına olan reaksiyasından asılıdır. Zorakılıq aktına böyüklərin bir çox hərəkətlərini aid etmək olar.

S.A.Zavrajinin fikrinə əsasən, buraya şirniyyatdan təcrid etmə, oyuncaqların uşaqdan alınması, yüksək səs tonu da aiddir.

Alimlər iddia edir ki, beş-altı yaşına kimi uşaq aqressiyası onun hisslərinin ifadəsi hesab olunmur. Bu, eqosentrizm əlamətidir: o dərk etmir ki, ətrafdakılar da onun kimi hisslər keçirə bilər.

Altı-yeddi yaşlarında aqressiya formalarının əvəzlənməsi müşahidə olunur: fiziki aqressiya daha sosiallaşdırılmış aqressiya formaları ilə (təhqir, mübarizə) əvəzlənir

2. Pedaqoji fəaliyyətdə uşağın yaşına adekvat olaraq aqressiyanın profilaktikası və aradan qaldırılması.

Bunu bir neçə qrup şəklində təqdim etmək olar.

1. Sosial hiss və emosiyaların formalaşdırılması metodları.

- Uşaqların bədii əsərləri qavraması hisslərin tərbiyələndirilməsi metodu olaraq.
- Əxlaqi hisslərin və qiymətləndirmənin formalaşdırılması problemli situasiyaların yaradılması yolu ilə (sosial-əxlaqi tapşırıqlar, dramlaşdırılmış oyunlar).
- Həssaslığın tərbiyələndirilməsi (uşaqların diqqətinin qeyri-əlverişli emosional vəziyyətdə olan yaşıdlarına yönəltmək, özünün və başqaların mənfi emosiyalarını aradan qaldırmaq bacarığını formalaşdırmaq).

2. Uşaqlarda ictimai davranış təcrübəsinin toplanmasını təmin edən davranış vərdişlərinin formalaşdırılması metodları.

Kiçik məktəbəqədər yaş dövründə: hərəkətin göstərilməsi, ictimai davranışın müsbət formalarına cəlbetmə metodu, uşaqların müxtəlif praktik fəaliyyətə cəlb edən çalışmalar.

Orta və yuxarı məktəbəqədər yaş dövrlərində bu metodlara məqsədyönlü müşahidə, tapşırığın verilməsi, ictimai cəhətdən faydalı xarakter daşıyan fəaliyyət (kollektiv əmək: sahənin təmizlənməsi, kolların əkilməsi və s.) metodları əlavə olunur.

Mühüm rol oynayan metodlardan biri uşaq oyunları, xüsusilə də süjetli-rollu oyunlardır.

3. Davranışın korreksiyası metodları.

Aşağıdakı metodlar oyun prosesində uşaqların sosial bacarıqlarını (aqressiv əlamətlərin əvəzi olaraq) genişləndirməyə imkan verir:

- modelləşdirmə metodu uşaqlara adekvat davranış nümunələrinin göstərilməsini təklif edir;
- rollu oyunlar, oyun terapiyası və dramterapiya uşağa özünü kommunikativ bacarıqların reallaşdırılmasını tələb edən situasiyada təsəvvür etməsini təklif edir;
- cavab reaksiyanın yaradılması (yuxarıdakı iki metodla uyğunlaşdırıla bilər). Uşaqlar müsbət və adekvat sosial davranışa görə tərif və ya mükafat qazanır. Əksinə, onlar qəbuledilməz davranış modellərinə müraciət etdikdə, mənfi reaksiya ilə qarşılaşırlar. Oyun situasiyalarını daha rəngarəng etmək lazımdır ki, ümumiləşdirmə halları çoxalsın;
- etik mövzularda söhbətlər və nağıl terapiyası.
- əxlaqi təsəvvürlərin, düşüncələrin, tərbiyəçinin etik mövzularda apardığı söhbətləri qiymətləndirmənin formalaşdırılması metodları;
- bədii ədəbiyyatın oxunması;
- şəkillərin, illüstrasiyaların, diafilmlərin izlənməsi və müzakirəsi.

Aqressiyanın profilaktikası və aradan qaldırılması metodlarından istifadənin praktiki nümunələri "Xeyirxahlıq dərsləri" kompleks proqramında oyun-məşğələlərin konspekti şəklində verilmişdir.

Mövzunun aktuallığı: Uşaqların tərbiyə olunması problemini psixoloqlar və pedaqoqlar həll etməyə çalışır, beynəlxalq konfranslar və simpoziumlar keçirilir. Lakin hətta onlar belə təhsilin ən aktual problemlərini həll etməkdə çətinlik çəkirlər. Minlərlə mülahizələr irəli sürülmüş, lakin yeganə doğru cavab tapılmamışdır. Görəsən elm bizə nə təklif edə bilər?

Pedaqogika ailə tərbiyəsinin dörd növünü göstərir: diktat, liberallıq (qarışmamaq), hiperqayğı və əməkdaşlıq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Təhsil Nazirliyi, 10 iyul 2012-ci il
2. *Əliyev R.* Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2016, 196 s.
3. *Əliyeva S.* Yeniyetmə aqressiyasının psixoloji xüsusiyyətləri. Bakı, 2014, 163 s.
4. *Завражин С.А.* Социализация агрессивных дошкольников в условиях дошкольных образовательных учреждений // Вестник Мордовского госуниверситета, 2009, № 2, с.11
5. *Корниенко А.А.* Детская агрессия. Простые способы коррекции нежелательного поведения ребенка. М.: Рама паблишинг, 2012, 198 с.
6. *Краснова М.В.* О профилактике и коррекции агрессивности детей в дошкольныхучреждениях // Сб. трудов молодых ученых Владимирского гос. пед. ун-та. Владимир: ВГПУ, 2005, 205 с.
7. *Петрова Е.В.* Педагогические условия профилактики агрессивного поведения детей старшего дошкольного возраста // Молодой ученый, 2016, № 11, с.44
8. *Дельгадо Х.* Мозг и сознание. Мир, 1971, 251с.

**PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 254-258**
**ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 254-258**
**TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 254-258**

***УДК 37***

***Н.Г.Асадова***
*Бакинский славянский университет*
*nailya.bsu@gmail.com*

# ФАКТОРЫ, ВОЗДЕЙСТВУЮЩИЕ НА ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОЙ КУЛЬТУРЫ РОДИТЕЛЕЙ

***Ключевые слова:*** *факторы, педагогическая культура, формирование, родители, семья*

В статье перечисляются и раскрываются факторы, воздействующие на формирование педагогической культуры родителей. Среди них наиболее значимыми являются следующие факторы: экономика страны, информационная культура, традиции народной педагогики, внутрисемейные традиции, возраст, уровень образования и профессиональная принадлежность родителей, тип семьи, тип и стиль взаимоотношений в семье, социально-экономическое положение семьи. Помимо этого, современный ритм жизни, занятость родителей финансовыми проблемами семьи являются причиной их безответственного отношения к своей воспитательной функции и низкого уровня их психолого-педагогической культуры. Об отрицательном воздействии всего этого на воспитание детей и на детско-родительские отношения говорится в статье.

***N.Q.Əsədova***

## VALİDEYNLƏRİN PEDAQOJİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

***Açar sözlər:*** *faktorlar, pedaqoji mədəniyyət, formalaşma, valideynlər, ailə*

Məqalədə valideynlərin pedaqoji mədəniyyətinin formalaşmasına təsir göstərən faktorlar sadalanır və açıqlanır. Bu faktorlardan: ölkə iqtisadiyyatı, informasiya mədəniyyəti, xalq pedaqogikasının ənənələri, ailənin öz adət ənənələri, valideynlərin yaşı, təhsil səviyyəsi və peşə mənsubiyyəti, ailə növü, ailə münasibətlərinin növü və üslubu, onun sosial-iqtisadi durumu əsas faktorlar kimi göstərilir. Həmçinin müasir həyat ritmi, valideynlərin ailənin maddi problemləri ilə məşğulluğu onların tərbiyə funksiyalarının həyata keçirilməsinə məsuliyyətsiz yanaşmasına, psixoloji və pedaqoji mədəniyyətinin aşağı səviyyədə olmasına səbəb olur. Bunların öz növbəsində ailədə uşaqların tərbiyəsinə, valideynlərlə uşaqların münasibətlərinə mənfi təsirindən də məqalədə bəhs olunur.

***N.G.Asadova***

# FACTORS AFFECTING THE FORMATION OF PEDAGOGICAL CULTURE OF PARENTS

***Keywords:*** *factors, pedagogical culture, formation, parents, family*

The affected factors about formation pedagogical culture of parents are particularizing and explaning in this article. Factors such as: national economy, informationculture, traditions of folkpedagogics, family traditions, parents' age, education level and occupation, family type, type and style of family relations, and it's socioeconomic status are mentionedin the article as the basis. Furt hemore, ther hythm of modern life, the involvement of parents with financial problems in the family, contributes to their irresponsible approach to the implementation of the ireducational functions and the low level of psychological and pedagogical culture. Then egative effect sall of these on the upbringing of children and there lation ship between them and parents are discussed in the article.

Как известно, под педагогической культурой родителей понимается их достаточная подготовленность и зрелость как воспитателей детей в условиях семьи. Уровень педагогической культуры родителей зависит от уровня их общей культуры, образования, индивидуальных особенностей, уровня их собственной воспитанности, а также накопленного жизненного опыта. Кроме всего этого, есть большое количество факторов, оказывающих воздействие на формирование педагогической культуры родителей: экономика страны, информационная культура, нравственная культура, национальная культура (традиции народной педагогики), семейные традиции, тип семьи, возраст родителей, уровень образования и профессиональная принадлежность родителей, социально-экономическое положение семьи, тип и стиль взаимоотношений в семье.

Известно, что экономические преобразования, происходящие в стране оказывают влияние и на другие сферы: на сферу образования, культуры, социальную сферу, т.е. на социальное положение семьи. В частности, рост экономики в нашей стране за последние десять лет способствовал улучшению материального положения семьи, что дало родителям возможность приобретения компьютеров, книг, журналов, газет, посещения театров, музеев и т.д. и тем самым повысить свой уровень образования и культуры. Отсюда можно сделать вывод, что самообразование родителей также является фактором, повышающим их педагогическую культуру, поскольку сохранение физического и психологического здоровья детей, их обучение и воспитание, формирование гармоничной личности ребенка требует от родителей знания возрастных и индивидуальных особенностей, общих законов

развития ребенка, а также знания общих принципов педагогической тактики.

Важным преобразованием в сфере образования нашей страны стало официальное принятие 24 октября 2013 года «Государственной стратегии развития образования в Азербайджанской республике». В рамках этой стратегии предусмотрена программа «Компетентные родители», целью которой является повышение заинтересованности родителей в успеваемости своих детей, упрочение контактов родителей со школой, тесное сотрудничество с педагогами, вовлечение родителей в общественную жизнь школы и, как следствие, повышение их педагогической культуры.

Сформированность психолого-педагогической культуры воспитателей и педагогов является особым фактором повышения педагогической культуры родителей, по мнению А.В.Козловой. «Высокий профессионализм педагога и гуманистически ориентированная позиция по отношению к ребенку и его семье помогут разрешить уже возникшие педагогические проблемы в семье и предотвратить новые. В новых условиях сущность педагогического просвещения заключается в организации сотрудничества с семьей и детьми одновременно. Взаимодействие и тесное сотрудничество в системе «семья – педагог – ребенок» непременно даст положительные результаты и поможет активизировать процесс освоения знаний и выработки необходимых умений эффективной организации семейного воспитания родителями детей» (2, с.23).

Немаловажным фактором является возраст, уровень образования и профессиональная принадлежность родителей. По статистике, возраст современных родителей в среднем варьируется от 26 до 30 лет. Представители геронтологии полагают, что это наиболее оптимальное время для освоения педагогических навыков. В указанный возрастной диапазон личность, по мнению психологов, обладает достаточно высоким уровнем интеллекта. Вместе с тем, в данный возрастной период личность готова к осознанному и продуктивному освоению новых навыков. Сила или слабость педагогических позиций родителей в наибольшей мере определятся их интеллектуальным уровнем, одним из главных показателей которого является образование. Родители с более высоким уровнем образования могут глубже учитывать возрастные особенности детей, развивать их познавательные интересы и стремления, лучше осуществляют контроль за выполнением домашних заданий, целесообразнее используют в воспитательных целях книги, телевидение, радио и в целом эффективнее руководят их нравственным и трудовым воспитанием.

Однако интеллектуальная культура не является синонимом педагогической культуры. Не всегда высокий уровень образования родителей гарантирует успех в воспитании детей. В воспитательной практике много примеров полной педагогической беспомощности родителей, обладающих вузовскими и даже кандидатскими дипломами. И наоборот.

Как известно, семья – это первая общественная ступень в жизни человека, с раннего возраста направляющая сознание, волю, чувства детей. Являясь основным институтом воспитания человека, семья непосредственно воздействует на формирование и развитие личности ребенка. Так как большую часть своей жизни ребенок проводит в семье, именно здесь формируются основные черты характера, привычки, происходит физическое и интеллектуальное развитие, формируются духовно нравственные и волевые качества ребенка. В семье происходит процесс социализации ребенка. Он зависит от отношений между членами семьи, от возраста и образования родителей, особенностей их личности, их природосообразующих и культросообразующих истоков и традиций, их стилей воспитания.

Можно выделить 4 основных типа воспитания в семье, являющихся показателем уровня педагогической культуры родителей: диктат, опека, мирное сосуществование на основе невмешательства, сотрудничество.

В современных семьях, внешне кажущихся благополучными, чаще распространен такой тип воспитания как мирное сосуществование на основе невмешательства. В таких семьях родители, обычно занятые своими карьерными проблемами, принимают позицию невмешательства, т.е. возлагают обязанности по воспитанию детей на школу. Результатом такого типа воспитания является автономия, отчуждение родителей и детей.

В некоторых семьях воспитание детей осуществляется согласно традициям семьи, т.е. родители стремятся внедрять в своей семье методы и формы воспитания, применявшиеся в их семьях в период их детства, не учитывая современных условий. Особенно остро это ощущается в семьях, где есть бабушки и дедушки. Модель воспитания, воспринятая отцами и матерями от своих родителей, не может быть полностью реализована в молодой семье из-за изменившихся условий. В современных условиях в воспитании детей родителям необходимо ориентироваться на индивидуальность сына или дочери, тонко учитывать их возрастные особенности, творчески использовать имеющиеся у них знания и умения.

Таким образом, анализ современного общества и современной семьи показывает неспособность большинства родителей создать благоприятные условия для эффективной социализации ребенка. А это в

свою очередь приводит к обострению различных социальных проблем. Современный ритм жизни, занятость родителей финансовыми проблемами семьи, безответственное отношение родителей к выполнению своих воспитательных функций, низкий уровень их психолого-педагогической культуры, безграмотность в решении проблем семейного воспитания приводят к искажению детско-родительских отношений, что выражается в обеднении контактов родителей с детьми, дефиците теплоты и доверия друг к другу, потере совместных форм деятельности, и как результат, к формированию низкой самооценки ребенка, неуверенности в своих силах, задержкам психического и речевого развития, девиантном поведении ребенка, приобщении к современным порокам общества (наркомания, алкоголь, преступность, психические расстройства и т.д.).

Характерной особенностью современной ситуации является изменение структуры семьи как малой социальной группы: семьи уменьшились, появилось немало семей, сформировавшихся после повторного брака, матерей-одиночек. Дети, растущие в неблагополучных, конфликтных семьях, в семьях, где отсутствует нормальный психологический климат характеризуются широким спектром психических аномалий и отклонений в поведении.

Современные условия требуют повышения духовно-нравственной культуры родителей, культуры поведения и внешнего вида, культуры мышления и обучения, создания благоприятного климата в семье, доброжелательного отношения к детям. Поэтому необходимо научно-педагогическое просвещение родителей, вовлечение их в разнообразные дела по воспитанию детей, педагогическое самообразование.

## ЛИТЕРАТУРА


1. *Валанова Н.М.* Информация для родителей / Н.М.Валанова. Н.Новгород: Поволжье, 2008, 287 с.
2. *Козлова, А.В.* Работа ДОУ с семьей / А.В. Козлова, Р.П. Дешеулина. М.: Сфера, 2012, 120 с.
3. *Кокоева, А.Т.* Формирование педагогической культуры родителей: Автореферат дисс. … канд. пед. наук. Владикавказ, 2003, 170 с.
4. Valideyn səriştəsinin artırılması. Məqsəd və istiqamətlər, prinsip və formalar "Səriştəli valideynlər" Proqramı. Bakı: XXI Əsr Təhsil Mərkəzi İctimai Birliyi, 2016, 98 c.

*UOT 159.9*

***Z.N.Hüseynova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zekiyye.huseynova@gmail.com*

# İSTEDADLI UŞAQLARLA İŞDƏ MÜƏLLİMİN PEŞƏ VƏ ŞƏXSİ KEYFİYYƏTLƏRİNƏ VERİLƏN PSİXOLOJİ TƏLƏBLƏR

***Açar sözlər:*** *sosiomədəni tələblər, innovativlik, intellektual səriştəlilik, peşəkarlıq*

Məqalədə istedadlı uşaqların şəxsiyyətində müəllimin pozitiv "Mən konsepsiyası"nın mühüm rolundan bəhs edilir. Məqalədə müəllif tərəfindən istedadlı uşaqlarla işləyən müəllimin peşəkar keyfiyyətləri ardıcıllıqla şərh edilmişdir. Bunlarla yanaşı, məqalədə istedadlı uşaqlarla işləyən müəllimin şəxsi və peşə keyfiyyətlərinə verilən psixoloji tələblər tədqiq edilmişdir.

Məqalədə müəllif tərəfindən istedadlı uşaqlarla işləyən müəllim üçün mühüm olan keyfiyyətlər qrupu xarakterizə edilmişdir. Həmçinin müəllif istedadlı uşaqlarla bağlı müəllim fəaliyyətinin peşəkar məzmununu da öyrənmiş və buna münasibət bildirmişdir. Müəllif haqlı olaraq vurğulayır ki, müəllimin pedaqoji fəaliyyətində istedadlı uşaqlarla uğur qazanmaq, ilk növbədə, onun təlim prosesində düzgün seçdiyi strategiyalardan çox asılıdır.

***З.Н.Гусейнова***

# ПСИХОЛОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ, ПРЕДЪЯВЛЯЕМЫЕ К ПРОФЕССИОНАЛЬНЫМ И ЛИЧНОСТНЫМ КАЧЕСТВАМ УЧИТЕЛЯ В РАБОТЕ С ОДАРЕННЫМИ ДЕТЬМИ

***Ключевые слова:*** *социокультурные требования, инновационность, интеллектуальная компетентность, профессионализм*

В статье подчеркивается важная роль позитивной «концепции Я» учителя в личности одаренных детей. Автор описывает профессиональные качества учителя в работе с одаренными детьми. Кроме того, в статье исследуются психологические требования к личностным и профессиональным качествам учителя, работающего с одаренными детьми.

В статье автором характеризована группа качеств, необходимых для учителя, которому предстоит работать с одаренными детьми. Наряду с этим, автор изучил также профессиональное содержание деятельности учителя в связи с одаренными детьми и высказал свое отношение к этому. Автор справедливо подчеркивает, что в педагогической деятельности учителя успех с одаренными детьми, в первую очередь, очень зависит от стратегий, правильно выбранных им в процессе обучения.

***Z.N.Huseynova***

# PSYCHOLOGICAL REQUIREMENTS FOR PROFESSIONAL AND PERSONAL QUALITIES OF TEACHER IN WORK WITH TALENTED CHILDREN

***Keywords:*** *sociocultural requirements, innovation, intellectual competence, professionalism*

The article deals with giving special importance to positive "Ego conception" in personality of teacher working with talented children. Professional qualities of teacher working with talented children have been interpreted systematically by the author in the article. Additionally, psychological requirements for personal and professional qualities of teacher working with talented children are researched in the article.

Qualities group vital for teachers who has to work with talented children have been characterized by the author in the article. The author has also explored important professionalism composition of pedagogical activity related to talented children and expressed his opinion. The author deservedly notes that the achievement of the teacher in the pedagogical activity related to talented children much depends on his right chosen strategies in the training process.

Müasir dövrdə sosiomədəni tələblərə cavab verən təlim prosesinin yeni modeli psixoloji-pedaqoji biliklər əsasında qurulur. Bu da öz növbəsində istedadlı uşaqlarla işləyən müəllimlərin şəxsiyyətinə xüsusi tələblər verir. İstedadlı uşaqlarla işləyən müəllimlərin peşə – şəxsi kvalifikasiyanın təhlili də mühüm rol oynayır.

K.D.Uşinski müəllim şəxsiyyətində onun mənəvi simasına birinci dərəcəli əhəmiyyət verərək qeyd edirdi ki, "yalnız şəxsiyyət şəxsiyyəti təyin və inkişaf etdirə bilər, yalnız xarakter xarakteri təhsilləndirə bilər".

İstedadlı uşaqlarla işləyən müəllimin şəxsiyyətində onun pozitiv "Mən konsepsiyası"na xüsusi əhəmiyyət verilir. A.Combs, A.Kerslid və başqalarının fikrincə, müəllimin pozitiv "Mən konsepsiyası" onun xeyirxah münasibəti ilə bağlıdır. Müəllimlərin əksəriyyəti şəxsiyyət üçün yeni imkanlar yaradan "Mən konsepsiyası"nın mühüm əhəmiyyətini başa düşürlər.

C.Renzulli xüsusi olaraq qeyd edirdi ki, istedadlı uşaqlarla işləyən müəllim yaradıcı yanaşmaya və yüksək intellektə malik olmaqla təkidli, müəyyən məqsədi olan, şəraitə uyğun hərəkət etməyi bacaran bir şəxsiyyət olmalıdır. İstedadlı uşaqlarla işləyən müəllimin ən mühüm keyfiyyətlərindən biri pedaqoji yetkinlikdir.

Müəllimin növbəti şəxsi keyfiyyətləri aşağıdakılarla müəyyən olunur:

- istedadlı uşaqların maraq və tələbatları haqqında biliklərə yiyələnməklə onların psixoloji xüsusiyyətlərini fərqləndirməyi bacarmaq;
- pozitiv pedaqoji iş təcrübələrinin olması;

- intellektual inkişafın yüksək səviyyəsi;
- pedaqojidən əlavə könüllü olaraq hər hansı bir təhsilə yiyələnmək;
- aktiv xarakterə, optimistliyə, həyatsevərliliyə və yumor hissinə maliklik;
- möhkəm sağlamlığa və dözümlülüyə malik olmaq;
- yaradıcı imkanlara, çevikliyə, özünütəkmilləşdirməyə və baxışlarına yenidən nəzər salmağa hazır olmaq;
- ali məktəbi qurtarandan sonra istedadlı uşaqlarla işdə xüsusi hazırlığa və gələcəkdə yeni biliklər əldə etməyə hazır olmaq və s.

İstedadlı uşaqlar üçün uğurlu müəllim – öz fənnini dərindən bilən, onu yaxşı tədris edən, fənnini sevən, eksperimental, elmi və yaradıcı fəalliyyətə qabil olan, həmçinin istedadlı uşaqların fərdi-psixoloji xüsusiyyətlərinə yaxşı bələd olan gözəl müəllimdir. Odur ki, müəllim istedadlı uşaqlarla ünsiyyətdə zəruri müsbət keyfiyyətlərə yiyələnməlidir. İstedadlı uşaqlarla müəllimin birgə fəaliyyəti onların qabiliyyətinin optimal inkişafına istiqamətləndirilməlidir.

Bütün bunlarla yanaşı, müəllimin istedadlı uşaqlarla effektiv fəaliyyətinin şərtlərinə aşağıdakıların aid edilməsi nəzərdə tutulur:

- müəllimi şagirdlərin mühakimələrinin təhlilinə və onların yeni həlli yollarının axtarışına yönəltmək;
- şagirdlərin hərəkətlərini və bütünlükdə inkişaflarını proqnozlaşdırmaq;
- öz fəaliyyətini planlaşdırmaq və şagirdlərə planlaşdırmağı öyrətmək;
- şagirdlərin tədqiqatçılıq xarakterinin formalaşması və onu dərketmə yollarından biri – onun düzgün həllinin tapılması və qiymətləndirilməsidir [1].

İstedadlı uşaqlarla işləyən müəllim üçün tərtib olunmuş xarakteristikada onun təfəkkürünün aktivliyi, analitik və məntiqi funksiyalarının sürətli inkişafı, qavrama, habelə onun təlim-tərbiyə prosesində istedadlı uşaqların inkişafında uğurlara nail olmaq üçün düzgün istifadə öz əksini tapmışdır. Pedaqoji takt, həssaslıq, prinsipiallıq, obyektivlik, istənilən sualların həllində düzgünlük, öz işində sistemliliyə və qayda-qanuna riayət etmə, o cümlədən inkişafetdirici təlim proqramlarından düzgün istifadə, şagirdlərin müstəqilliyini və təşəbbüskarlığını dəyərləndirmək müəllimin peşə fəaliyyətində istedadlı uşaqların təlimi ilə bağlı işdə mühüm rol oynayır. Bunlarla yanaşı, istedadlı uşaqlarla təlim prosesində onların işlərinə nəzarət etmək, tələbat və maraqlarına diqqətlilik, səbirlilik və təmkinlilik nümayiş etdirmə müəllimin pedaqoji fəaliyyət üslubunun əsas cəhətlərindəndir.

Apardığımız psixoloji müşahidələr onu bir daha təsdiq edir ki, müəllim özü istedadlı uşaqların xarakterik cəhətlərini bilməli və zəruri bilgilərə malik olmalıdır. Belə ki, hər bir müəllim yaşından, təcrübəsindən asılı olmayaraq gündəlik oxumalı, öz iş üslubunu təkmilləşdirməli, təlim prosesində istedadlı uşaqlarla işdə rasional (idraki) və əyləncəli formalar düşünməlidir. O, uşaqlarla işləyərkən özünü və hisslərini idarə etməyi bacarmalı, mənəvi yetkinliyini təzahür etdirməlidir. İstedadlı uşaqlarla işdə rəğbətləndirmə tənqid,

stimullaşdırma isə tələbkarlıq üzərində üstünlük təşkil etməli, yəni dominant olmalıdır.

Zənnimizcə, istedadlı uşaqlarla işləyən müəllim qarşılıqlı münasibətlərdə komfortlu psixoloji iqlimi müdafiə etməlidir, əgər:

- uğurlu situasiya yaratmaqla orada qarşılıqlı kömək, xeyirxahlıq və müstəqillik özünü göstərərsə;
- bilik yarışında mümkün qədər rəqabət elementləri kənarlaşdırılarsa;
- şagirdlərin fəaliyyəti yüksək qiymətləndirilərsə;
- istedadlı uşaqların uğurlarına müəllimin sevindiyi və şəxsi entuaizmi nümayiş etdirilərsə;
- indiki və gələcək problemlərin həllinə şagirdlərin inamı formalaşdırılarsa;
- şagirdlərin müstəqilliyi və qayda-qanunlara riayət etmələri tənzimlənərsə və s.

Yuxarıda sadaladıqlarımızı əsas götürərək qeyd edə bilərik ki, istedadlı uşaqların təlimi ilə bağlı işdə müəllimin özünütəhliletmə qabiliyyətinə yiyələnməsi də vacib şərtlərdəndir. Bu keyfiyyətlərə yiyələnməklə müəllim təhliletmə bacarığını inkişaf etdirir, öz hisslərini, özünün şəxsi motivasiyasının güclü və zəif tərəflərini qiymətləndirmək bacarığını formalaşdırır.

T.Nevland müəllimin intellektinə mühüm əhəmiyyət vermişdir. Alimin fikrincə, istedadlı uşaqlarla işləyən müəllimin intellektual qabiliyyəti təhsil səviyyəsinə uyğunlaşdırılmalıdır: birincisi, müəllimlə istedadlı uşaqlar arasındakı ünsiyyətdə intellektual uyğunsuzluq hallarının yaranmasına yol verilməməlidir; ikincisi, müəllim özü intellektual qabiliyyətə malik olmalıdır; üçüncüsü, müəllim kifayət qədər psixoloji həssaslığa və intellektual səriştəliliyə yiyələnməlidir ki, uşağı inkişaf etdirmək qabiliyyətini dərk edə bilsin.

İstedadlı uşaqlarla işləyərkən yuxarıda sadalananlarla yanaşı, müəllimin davranış yanaşmasına da xüsusi diqqət yetirilməlidir. Tədqiqatçı alim P.M.Ovçinnikov müəllimin davranışına aşağıdakıları aid etmişdir:

- öz davranışını idarə etməyi bacarmaq;
- adi və qeyri-standart şagirdlərlə ünsiyyət və münasibət qurmağı öyrənmək;
- qeyri-verbal nitqə (intonasiya məharəti, nitqin ucalığı və tempinin tənzimlənməsi, jest və mimikaların ifadəliliyi) və öz hisslərini ifadəli şəkildə göstərmək üsullarına yiyələnmək;
- xarici əlamətlərə görə şagirdlərin vəziyyətini müəyyən etməyi bacarmaq;
- pedaqoji təsir və tələblərdə müəyyən ölçüdə hisslərə yiyələnmək [2].

Bunlarla yanaşı, müəllim istedadlı uşaqlarla pedaqoji fəaliyyətində vaxtı və gücünü düzgün bölməyi bacarmalıdır. Məlumdur ki, istedadlı uşaqlar həddindən artıq hər şeylə maraqlanan tipə aiddirlər. Onlar yüklənmədən daha

çox sabitlikdən, eynilikdən tez yorulurlar. Odur ki, müəllim iş prosesində istedadlı şagirdlər üçün yumoristik situasiya yaratmalı, onların gərginliyini azaltmağa çalışmalıdır. Eyni zamanda müəllim şagirdlərinə fəaliyyətlərini, gün rejimlərini düzgün planlaşdırmağı da öyrətməlidir.

İstedadlı uşaqlarla təlim prosesində buraxılan səhvlərdən biri də müstəqil işlərin düzgün qiymətləndirilməməsidir. Bir tərəfdən, müəllim müstəqil iş tapşırıqlarının düzgün seçməlidir. Digər tərəfdən isə onun fəaliyyət növlərinin düzgün təyinidir ki, bu zaman müəllim müstəqil iş üslubunun seçilməsində şagirdlərə köməkliyini göstərməlidir.

Pedaqoji fəaliyyətdə istedadlı uşaqlarla iş müəllimin innovasiyalı təfəkkürü ilə bağlıdır. İnnovasiya – yenilənmə, dəyişiklik mənasını ifadə edir. Pedaqoji innovasiya – pedaqoji fəaliyyətdə müəllimin inkişafına və təhsilin yaxşılaşmasına yönəlmiş dəyişiklikdir. Tədqiqatçı alim V.İ.Andreyevanın fikrincə, müəllimin innovasiyalı mədəniyyəti daha mürəkkəb innovasiyalı tapşırıq və problemlərin həllinə yönəldilmiş təhsil sferasında onun effektli innovasiyalı fəaliyyətə hazırlığının yüksək səviyyəsidir.

İnnovativ (yenilikçi) pedaqoji fəaliyyətə hazır olma müəllimdə peşə fəaliyyətinə motivasiya (həvəsləndirici) münasibətlərinin, məqsədlərə çatmağın səmərəli vasitə və üsullarından istifadə etmək bacarığının, o cümlədən yaradıcılıq və refleksiya qabiliyyətinin olmasını nəzərdə tutur.

İnnovativlik (latınca "innovatio" – "yeniləşmə", dəyişdirmə" deməkdir) təlim prosesində istedadlı uşaqlarla işləyən müəllimin və onun şagirdlərinin innovasiyalara, yeni fikir və ideyalara, habelə təcrübəyə həssaslığından fərqli olaraq yeniliyə qarşı emosional-qiymətləndirici münasibətidir.

İnnovativ pedaqoji fəaliyyət – praktiki pedaqoji təcrübənin dərk olunması əsasında yüksək nəticələrə nail olma məqsədilə təlim-tərbiyə prosesinin transformasiyasına və inkişafına, o cümlədən yeni biliyin əldə edilməsinə, keyfiyyətcə fərqli pedaqoji təcrübənin formalaşmasına istiqamətlənmiş məqsədyönlü pedaqoji fəaliyyətdir.

Pedaqoji fəaliyyətdə müəllimlər tərəfindən xüsusi olaraq təşkil olunmuş innovasiya tədrisi pedaqoji, didaktik və metodiki dəyişikliklərin köməyi ilə istedadlı uşaqların fərdi inkişafına və təliminə yönəldilir. Deməli, bu tədrisin başlıca məqsədi istedadlı uşaqlarla işləyən müəllimin təlim prosesində dəyişikliklərin özünə psixoloji hazırlığıdır.

V.D.Şadrikov peşəkar keyfiyyətləri subyektin fəaliyyətinin fərdi keyfiyyəti, onun effektiv və uğurlu həllinə təsiri kimi müəyyən etmişdir. Alimin fikrincə, peşəkar keyfiyyətlər müəllimin peşəsində inkişaf prosesinin nəticələrini, onun effektivliyinə birbaşa təsirini təyin edir [3].

Psixoloji hazırlıq müəllimin peşəkar mühüm keyfiyyətlərinin məcmusu kimi başa düşülür. Mühüm peşəkar keyfiyyətlər subyektin fəaliyyətinin fərdi xassəsi və onun normativ səviyyədə reallaşması üçün kifayət qədər zəruri

olmaqla etibarlılıq, səmərəlilik və keyfiyyət parametrlərinin əsas nəticələrini müsbət və əhəmiyyətli dərəcədə korrelyasiya edir.

İstedadlı uşaqlarla işləməli olan müəllimlər üçün zəruri olan keyfiyyətləri şərti olaraq iki qrupa ayırmaq olar:

1. Pedaqoji cəhətdən ümumi peşəkar hazırlığı – fənn, psixo-pedaqoji və metodik biliklər, bacarıqlar və vərdişlər.
2. Peşə nöqteyi-nəzərdən əhəmiyyətli olan şəxsiyyət keyfiyyətləri.

İstedadlı uşaqlarla bağlı müəllim fəaliyyətinin zəruri peşəkarlıq tərkibi aşağıdakılardan ibarətdir:

- istedadlı uşaqların psixoloji xüsusiyyətləri, onların yaş və fərdi inkişafı barədə bilgilər;
- istedadlı uşaqlarla işləyənlərin peşəkarlıq kvalifikasiyalarının xüsusiyyətləri barədə bilgilər;
- istedadlı uşaqlarla işin istiqamət və formaları barədə, onların təlim proqram və texnologiyalarının hazırlanmasının prinsip və strategiyaları barədə bilgilər;
- istedadlıq əlamətləri əsasında istedadlı uşaqların müəyyənləşdirilməsi metodlarının hazırlanması və tətbiqi sahəsində bacarıq və vərdişlər;
- şagirdlərin istedadının növü, xüsusiyyəti, kontingenti və konkret təlim şəraiti nəzərə alınmaqla istedadlıların təliminin didaktikası və metodikası sahəsində bacarıq və vərdişlər;
- istedadlı uşaqların, onların valideynlərinin və digər ailə üzvlərinin psixo-pedaqoji konsultasiyası sahəsində bacarıq və vərdişlər [4, s.111].

Apardığımız nəzəri təhlil göstərdi ki, "istedadlı uşaqlar üçün uğurlu müəllim"i tədqiqatçılar spesifik peşəkar bacarıqları reallaşdıran, müəyyən şəxsi keyfiyyətlərin daşıyıcısı kimi təsvir edirlər. Psixoloji-pedaqoji ədəbiyyatda qeyd olunan müəllimin peşəkar bacarıqlarını istedadlı uşaqların inkişafı vəzifəsindən çıxış edərək strukturlaşdırmağı məqsədəuyğun hesab edirik. Ona görə ki, o, əlavə peşəkar təhsildə psixoloji işin planlaşdırılmasının inkişafına və formalaşmasına imkan verir.

Mənəviyyatlılıq, humanistlik, yüksək yaradıcı potensiala, peşəkar xarizmaya malik olmaq qabiliyyəti müəllimə başqa adamların əhatəsində özünün intellektual, emosional, iradi və davranışı üstün olan bir şəxsiyyət kimi qabiliyyətlərini şərtləndirir. İstedadlı uşaqlarla işləyən müəllimin peşə fəaliyyətində pedaqoji texnikadan istifadə etməsi onun pedaqoji ustalığına, zəruri peşə keyfiyyətlərinin və intuisiyasının inkişafına gətirib çıxarır.

Təlim prosesində istedadlı uşaqlarla işləyən müəllimlərin şəxsi və əsas peşə keyfiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirməyi məqsədəuyğun hesab etdik:

- peşəkar özünüdərketmə;
- idraki və daxili peşəkarlıq motivasiyasının yüksək səviyyəsi;

- müəllimin pozitiv "Mən konsepsiyası";
- müəllim şəxsiyyətinin humanistliyə istiqamətlənməsi;
- yüksək və adekvat özünəqiymət;
- şəxsiyyət kimi inkişafa meylilik;
- uşaq istedadının inkişafına və onun uğurla aktivləşməsinə imkan verən müəllimin peşə və şəxsi mövqeyi;
- istedadlı uşaqlarla işləyən müəllimin peşə əhəmiyyətli və zəruri şəxsi keyfiyyətləri;
- şagirdlərini ruhlandırmaq və onların səmərəli yaradıcılığı üçün münasib şərait yaratmaq bacarığı;
- pedaqoji fəaliyyətdə müəllimin pedaqoji yetkinliyə, inadkarlığa, məqsəd aydınlığına, emosional stabilliyə, dəqiqliyə, xeyirxahlığa, düzgünlüyə, o cümlədən obyektivliyə, refleksiyaya, empatiyaya malik olması;

Bu peşəkar keyfiyyətlər sistem halında və müəllimin şagirdə yanaşması kimi vacib pedaqoji xüsusiyyətlərə tabe edildikdə səmərəli olur.

Beləliklə, dediklərimizi ümumiləşdirsək, belə nəticəyə gəlmək olar ki, məhz istedadlı uşaqlarla işləyən müəllimin özü sağlam psixoloji iqlim yaradır ki, bu da şagirdləri ruhlandırar və ya onların özlərinə inamını itirə bilər. Yaxud da müəllim öz şagirdlərini dəyərləndirir və ya onların maraqlarını nəzərə almır, qabiliyyətlərini inkişaf etdirmir.

## ƏDƏBİYYAT

1. *Суходимцева А.П.* Создание окружной системы сопровождения развития одаренных детей / А.П.Суходимцева// Вестн. Всерос. олимпиады школьников, 2012, № 2, с. 9-14
2. *Овчинников П.М.* Работа с одаренными учащимися // Молодой ученый, 2014, № 4, с.1055-1057
3. *Шадриков В.Д.* Проблемы профессиональных способностей / В.Д. Шадриков. М.: Инфра. 2002, 238 с.
4. *Bəylərov E.B.* İstedadlı uşaqların təliminin məzmununa dair // Psixologiya, 2009, №1, s 36-46

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 266-275
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 266-275
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 266-275

***UOT 37***

***F.N.İbrahimov, V.Ə.Abdurahmanov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*abdurahmanov_v@mail.ru*

# TƏDRİS FƏALİYYƏTİNİN ANALİTİK VƏ EVRİSTİK MƏNTİQLƏRƏ UYĞUN İDARƏ OLUNMASI

***Açar sözlər:*** *təlim, mənimsəmə, tədris fəaliyyəti, ictimai təcrübə, analitik və evristik fəaliyyətin strukturları, problem, motivasiya, intuisiya*

Məqalədə izah olunur ki, təlim prosesinin təhsilin məzmununa daxil edilməsini yeni pedaqoji təfəkkür konsepsiyasının işlənilməsi şərtləndirmişdir. Mənimsəmə və tədris fəaliyyəti mahiyyətcə müxtəlif hadisələrdir. Mənimsəmə təkcə təlim prosesinin deyil, hər bir fəaliyyət sahəsinin ayrılmaz tərəfidir. Tədris fəaliyyəti isə fəaliyyətin bir növüdür, şəxsiyyətin sosial aktivliyinin özünəməxsus formasıdır. Tədris əməliyyatlarının strukturunda fikri proseslərin xüsusi yeri vardır. Tədris fəaliyyətinin formalaşmasında təhsilalanın analitik və evristik fəaliyyətini layihələndirməsi və ondan özünənəzarət modeli kimi faydalana bilməsi vəhdət təşkil edin proseslərdir. Təhsilalana bu proseslərin strukturları mahiyyət etibarı ilə məlum olmalıdır və o, özfəaliyyətinin metodik sistemini formulə etməyi bacarmalıdır.

***Ф.Н.Ибрагимов, В.А.Абдурахманов***

# УПРАВЛЕНИЕ ПРОЦЕССА УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТЬЮ СОГЛАСНО АНАЛИТИЧЕСКОЙ И ЭВРИСТИЧЕСКОЙ ЛОГИКЕ

***Ключевые слова:*** *обучение, усвоение, учебная деятельность, общественная практика, структура аналитических и эвристических действий, проблема, мотивация, интуиция*

В статье объясняется, что включение процесса обучения в содержание образования обуславливает разработку образования новой концепции педагогического мышления. Усвоение и учебная деятельность по сущности являются разными событиями. Усвоение является неотъемлемой частью не только учебного процесса, а также каждых областей деятельности. Учебная деятельность является одним из видов деятельности, свойственной формой социальной активности личности. Умственные процессы имеют особое место в структуре учебного процесса. Проектирование аналитических и эврестических действий обучающих и получения пользы образца самоконтроля является единым процессом в формировании учебного процесса. Процессы структур по сути должны быть ясными и обучающий должен формилировать методическую систему своей деятельности.

***F.N.Ibrahimov, V.A.Abdurahmanov***

## MANAGEMENT OF LEARNING ACTIVITIES IN ACCORDANCE WITH ANALYTICAL AND EVRISTIC LOGIC

***Keywords:*** *training; adopt; educational activities; public practice; Structures of analytical and evolutionary activity; problem; motivation; intuition*

The article explains that the inclusion of the learning process into the content of education has led to the development of a new pedagogical thinking concept. Learning and teaching activities are essentially different events. Applying is not just a learning process, but an integral part of each field of action. Educational activities are a kind of activity, a specific form of personality activity. There is a special place in the structure of teaching operations. Processes are the process of designing analytical and anatomical activity in the formation of the educational activity and making use of it as a model of self-control. The trainee should be aware of the essence of these processes and should be able to formulate the methodology of his work.

"Təhsil", "tərbiyə" və "təlim" pedaqogikanın mühüm anlayışlarıdır. Uzun müddət təhsilalanın fəaliyyət və davranışını bəşəriyyətin ictimai təcrübəsini mənimsəməyə yönəldən fəal prosesin təlim adlandırılması, onun "təhsilalanlar tərəfindən müxtəlif fəaliyyətlərin mənimsənilməsi prosesi kimi təsviri" diskussiya predmeti olmamışdır. Pedaqoji psixologiya yaranmağa başladığı ilk gündən etibarən bu anlayışdan geniş istifadə etmiş və təlimin psixoloji problemlərini müxtəlif yönümdə araşdırmışdır. Təlim psixologiyasında "təhsilalanların təlim fəaliyyəti" anlayışı əmələ gəlib bərqərar olmuşdur. Danılmazdır ki, məktəb təcrübəsində də bu anlayış "vətəndaşlıq hüququ" qazanmışdır.

Subyektin öyrənmə məqsədinə malik spesifik fəaliyyət növü olan təlimə aşağıdakı alt sistemlər daxil edilmişdir: a) bu və ya digər ideal və praktik fəaliyyət növünün müvəffəqiyyətlə təşkil edilməsi üçün aləmin zəruri mühüm xassələri barədə məlumatın mənimsənilməsi; b) həmin fəaliyyət növlərini təşkil edən yolların və əməliyyatların mənimsənilməsi; c) məsələnin şərtlərinə və qarşıda duran məqsədə müvafiq olan yolları və əməliyyatları düzgün seçmək və onlara nəzarət etmək üçün qeyd olunan məlumatlardan istifadə qaydalarını mənimsəmək [2, s.193].

Təlim fəaliyyəti təkcə insanı müxtəlif ictimai-faydalı fəallıq növləri üçün zəruri olan bilik, bacarıq və vərdişlərlə silahlandırmır. O, eyni zamanda insanda özünün psixoloji proseslərini idarə etmək, həll ediləcək məsələ ilə əlaqədar özünün işlərini və əməliyyatlarını, vərdişlərini və təcrübəsini seçmək, təşkil etmək və istiqamətləndirmək bacarığı təşəkkül etdirir. Bununla da, təlim insanı digər zəruri fəaliyyət növlərinə və ümumiyyətlə, onun müstəqil həyatın yaradıcı şəxsiyyəti kimi formalaşmasında imkandaşıyıcılıq missiyası yerinə

yetirir.

Keçən əsrin 60-70-ci illərində, bir tərəfdən, yeni pedaqoji təfəkkürün bərqərar olması, digər tərəfdən, fəaliyyət konsepsiyası sahəsində əldə edilmiş uğurlar pedaqoji psixologiyada "tədris fəaliyyəti" anlayışının yaranmasını şərtləndirdi. Bir sıra elmi mənbələrdə şərh olundu ki, təlim tədris fəaliyyətinin mühüm xarakteristikası olsa da, onun bütün tərəflərini əhatə etmir [1, s.150]. "Mənimsəmə" və "tədris fəaliyyəti" mahiyyətcə müxtəlif hadisələrdir. Mənimsəmə təkcə təlim prosesinin deyil, hər bir fəaliyyət sahəsinin ayrılmaz tərəfidir. Tədris fəaliyyəti isə fəaliyyətin bir növüdür, şəxsiyyətin sosial aktivliyinin özünəməxsus formasıdır [1, s.150].

D.B.Elkonin, V.V.Davıdov və b. tərəfindən işlənilmiş "Tədris fəaliyyəti konsepsiyası"nda tədris fəaliyyətinin a) tədris situasiyası (və ya tədris tapşırıqları), b) tədris əməliyyatları, c) nəzarət və ç) qiymət kimi tərkib hissələri fərqləndirildi. Əqli fəaliyyətin formalaşdırılması nəzəriyyəsinin yaradıcılarından olan D.B.Elkonin və V.V.Davıdovun konsepsiyası digərlərindən onunla fərqlənir ki, bu tədqiqatçılar təhsilalanların əqli fəaliyyətinin inkişafında başlıca cəhəti təlim metodları ilə bağlamır, onu mənimsənilmiş biliklərin məzmununda görürlər (bu, təhsilin məzmununa təlim prosesinin daxil edilməsinə əsas yaradan yanaşmadır – F.İ, V.A). Konsepsiyanın müəllifləri müasir məktəbin qarşısında üç mühüm vəzifənin qoyulması mövqeyindən çıxış edirlər. Hansı ki, bu vəzifələrə onlar tərəfindən aid edilir: a) müəyyən həcmdə biliklərin mənimsənilməsi; b) əqli inkişaf; c) idrak motivlərinin yaradılması. Onların subyektiv qənaətlərinə görə, bu vəzifələrdən hər birinin öz həlli yolu vardır. Sözügedən vəzifələrdən (məsələlərdən, funksiyalardan) hər hansı birinin həlli digərlərinin həllinə səbəb olmur. Bunları yalnız eyni vaxtda, eyni yolla həll etmək olar. Həmin vəzifələrin həllində müəyyənedici, mərkəzi halqa mənimsənilməli biliklərin məzmununu adekvat tədris üsulları ilə əlaqələndirməkdən ibarətdir. Sözügedən konsepsiyanın müəllifləri hesab edirlər ki, təhsilin məzmununun təlim prosesinin daxil edilməsi əsasında dəyişdirilməsi əqli inkişaf və idrak motivlərinin formalaşması ilə bağlı məsələlərin həlli üçün əsas yaradır [7]

Elmi mənbələrdən də təlim üsullarının təlimin məqsədləri və ya təhsil məzmununun səviyyələri ilə bağlanması cəhdlərinin təzahürlərini görmək mümkündür. Bu xüsusda İ.Y.Lerner yazır ki, "...təlimin pedaqoji dillə ifadə olunan dörd məqsədi vardır. Bunlar da mədəniyyətin dörd elementinə müvafiqdir. Madam ki, təhsilin məzmunu ancaq mədəniyyətin məzmunu ilə müəyyənləşdirilə bilər, o, mütləq həmin məzmun növlərindən – bilik, bacarıq və vərdişlərdən, yaradıcı fəaliyyət təcrübəsindən və cəmiyyətə xas olan sərvətlər sisteminə yönəlmiş emosional tərbiyə normasından ibarət tərkibdə olmalıdır [4, s.104].

Bəzi müəlliflər haqlı olaraq pedaqoji ictimaiyyətin diqqətinə çatdırmağa

çalışırlar ki, təlim prosesi təhsilin məzmununa daxil edilirsə, onda təlimin fəaliyyətlə bağlı məzmununa daha geniş mənada baxmaq lazım gəlir. Belə yanaşmada fəaliyyət daha geniş məna daşıyaraq bilik, bacarıq və vərdişlərdən başqa, təlimin motivasiya, qiymətləndirmə və başqa aspektlərini də özündə ehtiva etmiş olur. Subyektiv anlamımıza görə, burada xüsusi olaraq vurğulamaq lazımdır ki, fəaliyyətin strukturu və məzmunu nə didaktikada, nə də başqa elm sahələrində birmənalı başa düşülmür. "Fəaliyyətin psixoloji nəzəriyyəsi"nə görə, ümumilikdə, fəaliyyət şəxsin fəaliyyətinə reduksiya olunur, onun atributu kimi izah edilir, yəni subyektin fəaliyyət göstəricisi kimi qəbul olunur. Sözügedən nöqteyi-nəzərdən təhsilə bir-birini əvəz edən fəaliyyətlər sistemi kimi baxılır və "bu halda fəaliyyətin özü tərkib hissələrinə ayrılır" qənaəti hasil olunur.

Hegelin və Marksın ideyalarına əsaslanan metodoloji yanaşmada (Q.P.Şedrovskiy tərəfindən işlənilmiş) fəaliyyətin daşıyıcısı ayrıca şəxs qəbul olunmur, fəaliyyət öz-özlüyündə substansiya (bütün əşya və hadisələrin ilk əsasını təşkil edən maddə) kimi qəbul olunur, təhsilalanı, öyrəncini təsir altına alaraq yenidən təkrarlanır və yenidən hasil edilir [3, s.60]

Təlim prosesinin təhsilin məzmununa daxil edilməsi təhsilalanın tədris fəaliyyətinin subyektinə çevrilməsini zəruri edir, o tədris situasiyasında imkandaşıyıcılıq funksiyasını yerinə yetirir, başqa sözlə, qarşılaşdığı tədris fəaliyyəti ilə bağlı tapşırığın icrasını reallaşdıran məxsusi xarakterə malik idrak məsələsini (yeninin hasilini şərtləndirən) həll etməli olur. Psixoloqlar aparmış olduqları elmi araşdırmalar sayəsində müəyyənləşdirmişlər ki, istənilən, o cümlədən tədris fəaliyyəti üzrə problemlərin həlli zamanı biliklərin mövcud sisteminə yeni informasiyanın daxil edilməsi və onun işlənilməsi ilə bağlı insanın yaradıcı əqli fəaliyyəti iki növ ola bilər: analitik və evristik. Yaradıcı təfəkkürün analitik və evristik növlərə bölünməsi problemin həlli zamanı təhsilalanların yalnız əqli əməliyyatların seçilməsini və tətbiqini yüngülləşdirməkdən ibarət olmayıb, eyni zamanda ayrı-ayrı əqli əməliyyatların həyata keçirilməsi nöqteyi-nəzərdən pedaqoji şəraitin yaradılması məqsədinə təhsilverənin praktik fəaliyyətinin yönəldilməsi baxımından da əhəmiyyətlidir. Problemin məzmunundan və digər amillərdən asılı olaraq bu və ya digər növə (məntiqə) yer verilir [5, s.69-70].

Əqli fəaliyyətin analitik növü problemin həlli zamanı əqli hərəkətlərin dəqiq ardıcıllığı, mövcud həll alqoritmi ilə bağlıdır. Analiz və sintez, ümumiləşdirmə, abstaktlaşdırma və konkretləşdirmə kimi əqli əməliyyatlar biri digərini izləyir, müəyyən ardıcıllıqla, etaplar üzrə, pillə-pillə, yüksələ-yüksələ problemin həllinə nail olur. Təfəkkürün istiqamətliliyi verilənlər ilə axtarılanlar arasında münasibətlərlə müəyyənləşir, həllin üsulu sınaq və səhvi rəddetmə yolu ilə tapılır. Müvafiq qaydalar düzgün seçiləndə təfəkkürün alqoritmik məntiqi gec-tez həllə gətirib çıxarır.

Ədalət naminə qeyd edək ki, psixologiyada intuitiv təfəkkürün analitik təfəkkürdən fərqinin spesifikasını C.Bruner açmağa çalışmışdır. O, analitik və intuitiv təfəkkürü müqayisə edərək göstərmişdir ki, analitik təfəkkür onunla xarakterizə olunur ki, onun ayrı-ayrı elementləri aydın təsəvvür edilir, nitqlə onu ifadə etmək mümkündür. Bu zaman insan fikrin gedişini və məzmununu anlaya bilir və təfəkkür mühakiməni "ümumidən xüsusiyə", "xüsusidən ümumiyə" keçmə formasında qəbul edə bilir. Əqli fəaliyyətin evristik növünün əsasında intuitiv təfəkkür durur. Praktikada təhsilalanın intuisiyası ideyanı tez qavramasında özünü göstərir. Təlim prosesində intuisiya – bu həm təsəvvüretmə, həm yaradıcı təxəyyül, həm sürətli nəticə çıxarmaq, həm də sağlam düşüncə qabiliyyətidir. O, zəngin həyat təcrübəsi ilə şərtlənir.

Rus tədqiqatçısı V.N.Puşkin yazır ki, bu və ya digər fəaliyyətin tələb və şərtləri arasındakı ziddiyyətin mövcudluğuna həyatda tez-tez rast gəlinir. İnsan bu və ya digər məsələni həll etməli olur, ancaq verilən şərt bu məsələnin həlli üsulunu açmağa əsas vermir, onun keçmiş təcrübəsində həllin sxemi yoxdur. Bu situasiyadan çıxmaq üçün insana yeni, onun həyat təcrübəsində olmayan fəaliyyət strategiyası yaratmaq lazım gəlir. Belə vəziyyət, psixi proses – "problemli vəziyyət" adlanır. Problemin həlli prosesi produktiv təfəkkür və ya evristik fəaliyyət adlanır. V.N.Puşkin evristik fəaliyyətin mahiyyətini aşağıdakılarda görür: a) elə fəaliyyətdir ki, tipik olmayan məsələlərin həllində istifadə olunur; b) məsələnin həlli gedişində formalaşan və şüurlu şəkildə digər məsələlərə köçürülə bilən priyomlar mövcud olur [6, s.21-22].

Əqli fəaliyyətin analitik növünün strukturu belədir: 1) çətinliyin dərki və problem situasiyasının təhlili; 2) əsas çətinliyin müəyyənləşdirilməsi; 3) məlum alqoritmlərin tətbiqi və ya analitik yollarla ilə həllin axtarılması; 4) həll və onun düzgünlüyünün yoxlanılması. Əqli fəaliyyətin evristik növünün strukturu prinsipcə müxtəlifdir. Onun ayrı-ayrı mərhələləri analitik növün ehtiva etdiyi mərhələlərə oxşardır, ancaq məxsusiliyi də vardır. Əqli fəaliyyətin evristik növünün strukturu belədir:

1) çətinliyin dərki və problem situasiyasının analizi;

2) əsas çətinliyin müəyyənləşdirilməsi və problemin formulәsi;

3) a) fərziyyə irəli sürmək yolu ilə həll üsullarının axtarışı və onların inkişaf etdirilməsi (yeni alqoritm tərtibi) və ya b) hipotez irəli sürmək və intuitiv yolla həllin tapılması;

4) əldə olunmuş nəticəni praktikaya tətbiq etmək yolu ilə hipotezin doğruluğunu yoxlamaq. Şübhəsiz ki, ikinci yol öyrənənin əqli qabiliyyətinin, tədris fəaliyyətinin inkişafı prosesinin idarə olunması praktikasını yaxşılaşdırır. [5, s.72].

Göründüyü kimi, istər analitik, istərsə də evristik məntiqə köklənən fikri prosesin başlanğıc momenti problemli vəziyyətdən ibarətdir. Danılmazdır ki, "...adamda nəyi isə anlamaq tələbatı əmələ gəldikdə o, düşünməyə başlayır.

Təfəkkür adətən problemdən və sualdan, təəccübdən və heyrətlənməkdən, təzaddan başlanır... problemli vəziyyət vasitəsilə şəxsiyyət təfəkkür prosesinə cəlb olunur, o, həmişə hər hansı bir məsələnin həllinə istiqamətləndirilir" [8, s.347]. Bu vəziyyətin əsasında da dialektik ziddiyyət durur, yəni, "problem situasiyası" dedikdə insanların praktiki və nəzəri fəaliyyətlərinin tələbləri haqqında biliklə, bu fəaliyyəti həyata keçirməyin yollarını, üsullarını(metodlarını) bilməmək arasında meydana çıxan ziddiyyət nəzərdə tutulur [9, s.131].

Elmi tədqiqatdan fərqli olaraq təlim prosesində (təhsilin məzmununa təlim prosesi daxil edilmiş olduğu halda tədris fəaliyyətində) problemli vəziyyət tədris tapşırıqlarının yerinə yetirilməsi tələbindən yaranır ki, burada həmin tapşırığın nəzəri və ya praktik yolla yerinə yetirilməsi üçün zəruri olan nə varsa, onlar bilavasitə təhsilalanın "yaxın inkişaf zonası"na aiddir. Təhsilalanın bu prosesdəki psixi vəziyyəti problem situasiyanı səciyyələndirir. Tapşırığın icrası üçün yenini müəyyənləşdirmək tələbatını ödəməyə istiqamətlənən təhsilalanın fikri fəaliyyətinin başlanğıc momenti problemli vəziyyətlə birbaşa bağlıdır. Bunu nəzərdə tutan A.M.Matyuşkin yazır ki, problemli vəziyyət, hər şeydən əvvəl, təlim tapşırığı olmayıb, təhsilalanın psixi vəziyyəti ilə səciyyələnir, təlim tapşırığını yerinə yetirərkən meydana çıxır. Bununla əlaqədar olaraq A.Nuruşov da qeyd edir ki, problem situasiya həlli axtarış tələb edən, dərk olunmuş çətinlikdir. Çətinlik yalnız dərk edilən olduqda, yəni təhsilalan onu həll üçün qəbul etmiş olduqda problem situasiya yaranır [5, s.132].

Bizim nöqteyi-nəzərimizcə, problem situasiyası vasitəsilə idrak tələbatı yaratmaqda aşağıdakı üç məqsəd güdülür ki, bunlar da həmin tələbatın təmin olunması ilə reallaşır: 1) yeni biliklər əldə etməyi, bununla yanaşı, qazanılmış bilikləri, mənimsənilmiş fəaliyyət növünü yeni, tanış olmayan situasiyada tətbiq etməyi öyrətmək; 2) bilikləri yaradıcı tətbiq şəraitində keyfiyyətlə mənimsətmək; 3) təhsilalanlarda elmin metodlarından özlərinin yaş və bilik səviyyələrinə uyğun istifadə mədəniyyəti formalaşdırmaq.

Bir cəhət də unudulmamalıdır ki, problem situasiyasının təhlili nəticəsində meydana çıxan problem özlüyündə psixoloji-didaktik kateqoriyadır, həm də psixoloji-didaktik kateqoriya kimi çıxış edən problem (müvafiq ziddiyyətləri həll etmək yolu ilə köhnə bilikdən yeni biliyə keçid forması) özündə yeni biliklər, həmin bilikləri mənimsəməyin yeni üsullarını daşıyır (həm proses, həm də nəticə) və dərketmə prosesinin (fikri fəaliyyət prosesinin) strukturunu təyin edir".

Məlumdur ki, insanın məqsədyönlü davranışının səbəblərini və mexanizmlərini araşdıranda motivasiya terminindən istifadə etməli oluruq. Elmi mənbələrdən əldə olunmuş aidiyyəti materialların təhlili göstərir ki, müxtəlif psixoloji məktəblərdə motivasiya fərqli yönümlərdə öyrənilmişdir və öyrənilir. Motivasiya sahəsinin strukturunu təşkil edən elementlərin qarşılıqlı əlaqəsi

tədris fəaliyyətinin səmərəliliyini şərtləndirir. Motivasiya sahəsinin tərkibinə aid edilir: tələbatlar; təlimin mənası; motivlər; məqsəd; emosiya və hisslər. Tələbatlar insanın konkret həyat şəraitindən asılılığını ifadə edən və onun bu şəraitdə aktivliyini şərtləndirən özünəməxsus halətdir. Tələbatlar ierarxik quruluşa malikdir və dinamik xarakter daşıyırlar. İnsanın fəaliyyət və ünsiyyət sahəsi genişləndikcə onlar dəyişir, təmin olunmuş hər hansı bir tələbatın zəminində yeni, daha yüksək tələbatlar formalaşır və inkişaf edir. Təlimə tələbat da bu prosesdə əmələ gəlir və özünəməxsus psixi halət kimi şagirdlərin tədris fəaliyyəti üçün şərait yaradır. İdrak tələbatı təlim prosesində inkişaf edərək təlim (və yaradıcılıq) tələbatına çevrilir [1, s.160].

Şeylərin obyektiv və subyektiv əhəmiyyətinin fərqləndirilməsi şəxsiyyətin motivlərini psixoloji baxımdan təhlil etməyə əsas yaradır. A.N.Leontyev şeylərin subyekt üçün əhəmiyyətini "şəxsi məna" termini ilə ifadə etməklə yanaşı, onun subyektin xalis həyati münasibətlərini bilavasitə əks etdirməsi və özündə yaşatması ideyasını da irəli sürmüşdür. Professor Ə.Ə.Əlizadə göstərirdi ki, şəxsi mənanın əmələ gəlməsi sayəsində motivasiyanın iki əsas funksiyasına (təhriketmə və istiqamətləndirmə) yalnız insana məxsus olan yeni bir funksiya – mənavermə, mənalandırma funksiyası əlavə olunur [1, s.162].

Təlimin mənası anlamı təhsialanın özünün tədris fəaliyyətinə münasibətini şəxsiyyət ölçüləri ilə səciyyələndirir.Təlim təhsialan üçün subyektiv cəhətdən əhəmiyyət kəsb etməlidir. O, təlimin özü(təhsilalan nəzərdə tutulur) üçün əhəmiyyətini təkcə ağıl məntiqilə deyil, həm də hiss məntiqilə "başa düşməlidir".Təhsilalanın tədris fəaliyyətində aktivliyin istiqaməti təlim motivləri ilə müəyyən olunur. Tədris fəaliyyətində təhsilalanın fəallığının konkret istiqaməti onun məqsədilə müəyyən olunur.Təlim motivi ilə məqsəd "tədris fəaliyyətinin vektoru"nu təşkil edir.

Tədris fəaliyyətində təhsilalanlara öz qarşılarına məqsəd qoymaq və onu həyata keçirmək yollarını öyrətmək lazımdır. Təhsilalan öz məqsədini dəqiq aydınlaşdırmalı, bir neçə məqsəddən daha səmərəli olanı seçməli, öz məqsədlərini həyata keçirməyin ardıcıllığını, bu zaman özünün imkanlarını və vaxt ehtiyatını, qarşıya çıxa biləcək çətinlikləri və onların aradan qaldırılması yollarını (əslində vurğulananlar cəm halında hərəkətin məntiqini – əqli fəaliyyətin növünü formalaşdırır) müəyyən etməli, öz məqsədini səylə həyata keçirməlidir.

Aydındır ki, problemin optimal qoyuluşu, burada sual qoymaq məsələsi dərhal və birbaşa həyata keçən proses deyildir. Problemin qoyuluşu prosesində iki faza vardır: 1) problemi "görmək", aşkara çıxarmaq; 2) problem sualın özünün qoyuluşu. Fəlsəfi ədəbiyyatda bu da göstərilir ki, istənilən bir problem "mərkəzi sual"dan və onun ətrafında qruplaşan suallardan ibarətdir. Mərkəzi sualın formulə olunmasından öncə və ondan sonra qoyulan suallar mövcud

olur. Birincilər problemin axtarışı prosesini, ikincilər isə problemin açılması prosesini xarakterizə edir.

Təbii ki, təhsilverənin və təhsialanın problemi formulə etməsi onun mürəkkəblilik dərəcəsindən, onun məzmununun dərinliyindən xeyli dərəcədə asılıdır. Problem təhsilalanın başında (daha doğrusu, "idrak aparatı"nda) situasiyanın tamamilə təhlilinin nəticəsi kimi yaranır, məlum və məchulların ayrılmasından asılı olur. Həllin özü isə tədris-idrak fəaliyyətinin mərhələsidir, bu mərhələ problemli öyrənmənin mürəkkəb elementlərindən biri hesab olunur və bir neçə alt mərhələ və həlqələrdən ibarətdir.

Həm təlim probleminin həlli məntiqi, həm də onun həll sxemi həll prosesi planının tərtibinin zəruriliyini göstərir. Problemin həlli planının tərtibinə həll variantlarının seçilməsi də daxildir. İnsanın intellektual fəaliyyətində planların əhəmiyyətini tədqiq edən müəlliflər planın iki növünü fərqləndirirlər: sistematik və evristik plan.

Sistematik planlar alqoritmlərlə eyniləşdirilir. Məsələ həllinin müvəffəqiyyəti üçün təminat verməsinə baxmayaraq insanlar həll axtarışında sistematik planlaşmadan həmişə istifadə etmir. Bu plan yeknəsək fəaliyyət, başqa sözlə, eyni cür hərəkət çoxluğu tələb edir, bəzən də çox vaxt alır. Həllin bu növünün alternativi, bir çox hallarda səmərəlisi məhz evristik axtarış yoludur. Evristik həll, bir qayda olaraq, fərziyyə irəli sürməkdən başlanır. Bir çox pedaqoqlar hesab edirlər ki, əgər təhsilalan fərziyyə söyləyirsə, o, artıq hipotez irəli sürmüşdür. Belə təsəvvür hipotezin təbiətinə uyğun deyildir. Hipotez əsaslandırılmış fərziyyədir. Tədris fəaliyyətində hipotez psixo-pedaqoji kateqoriyadır. O, təhsilalanın əqli fəaliyyətinin idarə olunması vasitəsi, təlim probleminin həlli prinsipi kimi çıxış edir.

Təhsilalanlar təlim materialında "başlıca"nı və ikinci dərəcəlini ayırmağı bacarmalıdır. İsbat, irəli sürülmüş hipotezin düzgünlüyünü yoxlamaq üçün təlim materialından əsas fakt və priyomu tapmaq bacarığı evristik yolla problemin müvəffəqiyyətli həllinin vacib şərtidir. Hipotez irəli sürmək, faktları təhlil etmək və onları isbat etmək üzrə şagirdlərin sistematik fəaliyyətlərinin təşkili yolu ilə bu bacarıqları formalaşdırmaq zəruridir. Burada təhsilverənin funksiyaları dəyərləndirilməlidir. Hipotezin isbatı gedişində bu funksiyalara aiddir: 1) analiz və mühakimə üçün zəruri faktlar haqqında təhsilalanlara məlumatın verilməsi; 2) onların fikrinin təhlilə, müqayisəyə və nəticələrə yönəldilməsi; 3) düzgün mühakimələrə, hipotezin əsaslandırılmasına və faktların tədqiqinə doğru təhsilalanların təhrik olunması.

Vacib şərtdir ki, hər bir təhsilalan, istər analitik, istərsə də evristik fəaliyyətə dayanmaqla tədris fəaliyyətini nizamlamağı, geriyə baxmağı, problemin daha aydın formulə etməyi, həllin daha rasional variantının müəyyənləşdirməyi bacarsın. Xüsusilə, səhvləri təhlil etmək, fikrin bütün gedişi (inkişafı) prosesini təshih etmək faydalıdır.

**Mövzunun aktuallığı**

Məlum olduğu kimi, ənənəvi didaktikada təlim prosesi təhsilalanlarda bilik, bacarıq və vərdişlərin formalaşdırılması kimi təqdim edilir, təlim prosesi təhsilin məzmununa daxil edilmir. Təlim prosesi təhsilin məzmununa daxil edilmədikdə sözügedən məzmun təhsilalana təhsilverən tərəfindən verilən özgəninkiləşdirilmiş material qismində olur.

Psixoloji və metodoloji yanaşmalar söyləməyə əsas verir ki, fəaliyyətin təhsilin məzmununda olan rolundan didaktik sistemin bütün səviyyələri, yəni təhsilin məzmunu və məqsədindən tutmuş öyrənənlərin onun nəticələri əsasında özünüdərk və özünüqiymətləndirməsinədək olan proseslər qidalana bilər. Təəssüf ki, praktik pedaqoqların fəaliyyətində başlıca cəhət bir qayda olaraq müəyyən proqram materialının öyrədilməsindən ibarətdir. Fənlərin mövcud tədrisi metodikaları da müəllimləri həmişə məhz buna istiqamətləndirib. Qabaqcıl metodistlər və müəllimlər təhsilalanlarda tədris əməliyyatlarının, özünənəzarət və özünüqiymətləndirmə bacarıqlarının formalaşmasına müəyyən dərəcədə əhəmiyyət versələr də, bu, sistemli xarakter daşımayıb. Odur ki, təqdim olunan bu məqalədə təlim prosesinin təhsilin məzmununa daxil edilməsi üçün çıxış yolu olaraq tədris fəaliyyətinə təhsil texnologiyası kimi yanaşılması, təhsilalanın tərəf kimi daxil olduğu prosesdə analitik və evristik məntiqlərin subyekti funksiyasını yerinə yetirməsi seçilmişdir. Mövzunun aktuallığı da məhz bu seçimlə, başqa sözlə, təlim prosesinin optimallaşdırılmasına yönələn sözügedən addımla şərtlənir.

**Nəticə**

Tədris əməliyyatlarının strukturunda fikri proseslərin xüsusi yeri vardır. Tədris fəaliyyətinin formalaşması təhsilalanın analitik və evristik fəaliyyətini layihələndirməsi və ondan özünənəzarət modeli kimi faydalana bilməsi vəhdət təşkil edin proseslərdir. Odur ki, təhsilalana bu proseslərin strukturları mahiyyət etibarı ilə məlum olmalıdır və özfəaliyyətinin metodik sistemini formulə etməyi bacarmalıdır. Bu halda təhsilalan, sözün əsl mənasında, öz fəaliyyətinin subyektinə çevrilmiş olur.

**Nəzəri əhəmiyyəti**

Məqalədə özünə yer alan mühakimələr fənlərin tədrisi metodikasının işlənilməsi baxımından axtarışları diqqət mərkəzinə çəkir, təhsilalanın öz fəaliyyətinin subyektinə çevrilməsinin variantı kimi analitik və evristik məntiqə istinad olunması yolu təqdim olunur. Bu isə tədris fəaliyyəti anlayışının dərk olunmasına, tədris fəaliyyətinin formalaşması ilə bağlı nəzəri məlumatların zənginləşməsinə xidmət kimi dəyərləndirilməlidir.

**Praktik əhəmiyyəti**

Məqalənin praktik əhəmiyyəti praktik pedaqoqa təhsilalanın tədris fəaliyyətinin subyektinə çevrilməsində idarəetmə (məxsusi olaraq fasilitatorluq,

təhriketmə və s. bu kimi) funksiyalarından düzgün istifadə yolunu göstərməsi ilə bağlıdır.

**ƏDƏBİYYAT**


1. *Əlizadə Ə.Ə.* Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004, 432 s.
2. Ümumi psixologiya: Dərs vəsaiti. (Azərbaycan dilinə tərcümə). Bakı: Maarif, 1982, 494 s.
3. *Mehrabov A.O.* Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.
4. *Mehdizadə M.M.* Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982, 383 s.
5. *İbrahimov F.N.* Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər. Bakı: Mütərcim,1998, 398 s.
6. *Пушкин В.Н.* К пониманию эвристической деятельности в кибернетике и психологии // Вопросы психологии, 1965, №1
7. Возрастные возможности усвоения знаний // Под. ред. Д.Б.Эльконина и В.В.Давыдова. М., 1966
8. *Рубинштейн С.Л.* Основы обшей психологии. Санкт-Петербург, Москва-Харьков-Минск: Питер, 2001, 720 с.
9. *Ракитов А.И.* Философские проблемы науки. М., 1977

*UOT 373.2*

***P.İ.İmanova***
*ADPU nəzdində Bakı Humanitar Kolleci*
*imanova.pervane@bk.ru*

# UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA TƏRBİYƏÇİ-UŞAQ MÜNASİBƏTLƏRİNİN GÖZLƏNİLMƏSİ

***Açar sözlər:*** *məktəbəqədər dövr, idrak fəaliyyəti, şəxsiyyət, ünsiyyət, vasitələr, sosial-mədəni prinsiplər, uyğunlaşma, əməkdaşlıq*

Hal-hazırda təhsil sisteminin əsas vəzifəsi təhsilli, mədəniyyətli, qlobal mövqeli uşaq şəxsiyyətini formalaşdırmaqdan ibarətdir. Uşaqların təhsili, demokratikləşmə və humanistləşmə şəxsiyyətin formalaşmasının əsas şərtləridir.

Ölkəmizin ictimai həyatındakı sosial-iqtisadi dəyişikliklər məqsədyönlü şəkildə çoxfunksiyalı olan məktəbəqədər təhsil sistemində müvafiq dəyişikliklər etmişdir. Məktəbəqədər yaşlı uşaqların idrak fəaliyyətinin inkişafında vacib istiqamətlərdən biri davamlı idrak maraqları, əqli fəaliyyət, qabiliyyət və bacarıqların, zehin keyfiyyətlərin və yaradıcı təşəbbüslərin formalaşması ilə əlaqəli uşaqların yüksək səviyyəli zehni inkişafını təmin edən şəraitin yaradılmasıdır.

***П.И.Иманова***

# СОБЛЮДЕНИЕ ОТНОШЕНИЙ ВОСПИТАТЕЛЯ И РЕБЁНКА В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ДЕТЕЙ

***Ключевые слова:*** *дошкольный этап, познавательная деятельность, личность, общение, средства, социально-культурные принципы, адаптация, сотрудничество*

В настоящее время главной задачей системы образования является образование, цивилизация, глобальные позиции, обновление и формирование личности детей. Детское образование, демократизация и гуманизация являются главными условиями для формирования личности.

Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению. Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, психических качеств, творческой инициативы.

**P.I.Imanova**

# COMPLIANCE WITH THE RELATIONS OF THE TEACHER AND CHILD IN THE FORMATION OF THE CHILD'S PERSONALITY

***Keywords:*** *preschool stage, informative activity, the person, communication, funds, socially- cultural principles, adaptation, cooperation*

At present, the main task of the educational system to the secularization of education, civility, global position, renewal and identity formation of children. Children's education, democratization and humanization is the main conditions for the formation of person.

Social and economic changes of public life of our country have brought respecttive alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with formation of steady informative interests, skills of cogitative activity, qualities of mind, the creative initiative acts.

Müasir dövrdə həyatımızın bütün sahələrində, o cümlədən, təhsil sahəsində baş verən dəyişikliklər insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri aşkara çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisəsi sosial dəyişikliklərdən asılı olmadan sosial inkişafa uyğun müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlənməlidir.

Şəxsiyyətin formalaşmasında məktəbəqədər uşaqlıq dövrünün rolu olduqca böyükdür. Bu dövrün xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Hər hansı xüsusi bilik, bacarıq, vərdişlərin əldə edilməsi və müxtəlif növ fəaliyyətin mənimsənilməsinin əsası məhz bu dövrdən başlayır və uşağın ümumi inkişafını təmin edir.

Professor Y.Kərimov insanın şəxsiyyət kimi formalaşmasında onun fəallığının mühüm rol oynadığını qeyd edərək şəxsiyyət adlanan mürəkkəb bütövdə üç əsas cəhəti fərqləndirməyin mümkünlüyünü göstərir:

1) Fəallıq idraka, ətraf aləmdəki dəyişikliyə, insanın şəxsi təbiətinin dəyişməsinə, psixi həyat tərzində baş verənlərin korrektəsinə (özünütərbiyəyə) yönəlmiş çoxtərəfli fəaliyyətdə özünü göstərir.

2) Şəxsiyyətin imkanları, onun fəaliyyətinin müvəffəqiyyətlərinin psixoloji şərtlərini (xüsusilə qabiliyyəti) əhatə edir.

3) Şəxsiyyətin davranış üslubu psixoloji xüsusiyyətləri (temperament və xarakter) əhatə edir. Fəallıq ətraf aləmlə qarşılıqlı fəaliyyət prosesində meydana çıxır [1].

Cəmiyyət insanların dünyasıdır. İnsan bu dünyada doğulur, burada

yaşayır, inkişaf edir, şəxsiyyətə çevrilir. Onun vasitəsilə müəyyən bilikləri, dəyərləri, davranış normalarını və s. mənimsəyir. İctimai həyatda insan fəaliyyətin müxtəlif növlərinə qoşulur, ətrafdakılarla qarşılıqlı təsirdə olur və müəyyən sosial mövqe qazanır.

Tərbiyəçi-uşaq münasibətləri yüksək pedaqoji ustalıqla qurulduqda, o, təlim-tərbiyə və inkişaf işlərinin əsl hərəkətverici qüvvəsinə çevrilir.

Tərbiyəçi-uşaq münasibəti ilk baxışda çox sadə anlaşıqlı görünsə də, onun məna çalarları həm geniş, həm də çoxsahəlidir. Ərəb sözü olan münasibət – uyğunluq, münasiblik, ahəngdarlıq, vasitə və s. anlaqları ifadə edir. İnsanın bir fəaliyyətində onun psixologiyası, dünyagörüşü, sosial mövqeyi, əxlaqi keyfiyyəti, bütövlükdə mənəvi və cismani aləmi öz əksini, inikasını bu və ya digər formada büruzə vermiş olur.

Azərbaycan Sovet Ensiklopediyasında yazılır: "Münasibət psixologiyada şəxsiyyətin fəaliyyətlərindən biri; obyektiv aləmin, cisimlərin, hadisələrin insan beynində subyektiv inikasıdır. İnikas fəaliyyətdə olan, dərk edən subyektin münasibəti kimi psixi fəaliyyəti də özünə daxil edir ki, bu da onun tələbatını ya təmin edə bilir, ya da həmin prosesə mane ola bilər" [2].

Şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biri də ünsiyyətdir. O, psixi inkişafın gedişində üzə çıxsa da, bilavasitə onu şərtləndirir, fəaliyyətin tərkib hissəsi kimi özünü göstərir. Böyüməkdə olan uşağın şəxsiyyətinin formalaşmasında bir çox digər psixoloji törəmələr kimi ünsiyyət tələbatı da aparıcı rola malikdir. Yaxşı ünsiyyət mühiti və tərəfdaş insanın fəallığını artırır, əhvalında gümrahlıq yaradır, hisslərini və zövqünü cilalayır. Ünsiyyət tələbatı insanın bütün həyatı boyu keyfiyyətcə daim dəyişən, dinamik və potensial olaraq zəngin psixi imkandır.

Məktəbəqədər yaşlı uşaqların ünsiyyət tələbatı öz başlanğıcını yaşlıların xoşniyyətli, xeyirxah təbəssüm və baxışlarından götürür, sonralar uşağın özünü təsdiq etməyə, müstəqilliyə, yaxın adamlarla ruhi-mənəvi bağlılığa çevrilir, onlar üçün darıxma həddinə qədər yüksəlmiş olur. Ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönümlü keyfiyyətidir, onun davamlı və bütöv bir sistem kimi özünü dərk etməsidir və fərdiyyətin əsasıdır.

Ünsiyyət mürəkkəb və çoxcəhətli bir proses olub, kiçikyaşlı uşaqlar arasında əlaqələrin yaranmasında, onların birgə fəaliyyətində, onların bir-birini anlamasında, başa düşməsində mühüm rol oynayır.

Yeni doğulan körpə potensial şəxsiyyət imkanlarına malikdir. Həyatın ilk aylarından başlayaraq özünün ən yaxın sosial əhatəsinə bağlılığı onun məhdud səviyyədə də olsa, emosional ünsiyyət imkanları ilə reallaşmağa başlayır.

Uşaq bağçasına daxil olan uşaqlarda şəxsiyyətlərarası münasibət və əlaqələr, sosial status, stereotiplər dəyişir və bu da psixikada dəyişikliyə səbəb olur. Yeni şəraitə necə adaptasiya olunmaqdan asılı olaraq uşaqlar təlim-

tərbiyədə müvəffəqiyyət qazanır və ya əksinə, uğursuzluğa düçar olurlar.

Yeni şəraitə adaptasiya olunmaq üçün kiçikyaşlı uşaqlar bir sıra çətinlikləri dəf etməli olur. Bunlar aşağıdakılardır:

- uşaq bağçası həyatına adaptasiya olunmaq üçün bağçanın norma, ənənə və qaydalarını mənimsəmək;
- intizam qaydalarına əməl etmək, tapşırılan tapşırıqlara məsuliyyətlə yanaşmaq;
- yoldaşları ilə münasibətdə onların maraq və meyillərini nəzərə almaq, onu öz istəkləri ilə uyğunlaşdırmaq;
- yoldaşları və tərbiyəçi ilə ünsiyyəti və birgə fəaliyyəti mənimsəmək və s.

Məktəbəqədər yaş dövründə uşaqlar bir-birləri ilə ünsiyyət prosesində özlərinin fikirlərini, gördüklərini danışırlar. Bu yaş dövründə hərəkət və əşyavi fəaliyyət ön plana keçir. Məktəbəqədər yaş dövründə şüurlu, davamlı seçim etmək qabiliyyəti özünü göstərir. Bu isə uşaqların özlərinə dost, yoldaş seçmələrinə imkan verir.

Bu gün yetişən nəslin, xüsusilə kiçikyaşlı uşaqların milli ləyaqət və milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda yüksək mənəvi keyfiyyətlərin formalaşdırılması, yeni fəaliyyət tərzi, yeni baxış, yeni düşüncə tərzi tələb edir. Təcrübə göstərir ki, uşaq bağçasına qədəm qoyan uşağın təlim-tərbiyə sahəsində uğurları tərbiyəçi-uşaq münasibətlərinin hansı keyfiyyət və istiqamətdə qurulmasından asılıdır.

Deməli, insanın psixi fəaliyyət sahəsi olan münasibətin düzgün qurulması inikas edənlə inikas olunanlar arasında uyğunluq, münasiblik, ləyaqətli olma və s. cəhətlərin gözlənilməsini tələb edir.

Pedaqoji ustalıqda fərqlənən bu cəhətləri diqqət mərkəzində saxlamaqla kiçikyaşlı uşaqlarla olan münasibətin daha insani və faydalı olmasına səy göstərirlər.

Tərbiyəçi-uşaq münasibətlərinin gözlənilməsində məktəbəqədər yaş dövrü xüsusi əhəmiyyət kəsb edir. Bu yaş dövründə bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif meyillər özünü göstərir.

Məktəbəqədər yaş dövründə uşaqların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişkənlikləri baş verir. Məktəbəqədər yaş dövründə uşaqların həmyaşıdları ilə ünsiyyəti hətta o dərəcədə əhəmiyyət kəsb edir ki, onunla müqayisədə təlim çox vaxt ikinci plana keçir, hətta doğma adamlarla: ata, ana, nənə, baba və başqaları ilə ünsiyyətin rolu xeyli azalır. Uşaq belə hesab edir ki, həmyaşıdları ilə münasibətlər onun şəxsi münasibətidir; heç kəsin buna qarışmağa haqqı yoxdur. Təsadüfi deyil ki, valideynlər və tərbiyəçilər uşaqların yoldaşlıq münasibətlərinə müdaxilə etdikdə onlar buna etiraz edirlər. Məhz buna görə də uşaqların yoldaşlıq münasibətlərinin inkişaf və tərbiyə olunması valideyn və tərbiyəçilərdən yüksək pedaqoji məharət tələb edir.

Tədqiqatlar göstərir ki, məktəbəqədər yaş dövründə ilk növbədə tərbiyəçi uşağın qəlbinə girməyi bacarmalı, onlardan köməyini əsirgəməməli, onların xüsusi inamını qazanmalıdır.

Tərbiyəçi-uşaq münasibətində tərbiyəçinin kamilliyi əsas məqsədlərdən biridir, yəni onun əsl hikmət sahibi olması vacibdir.

N.Tusi "Əxlaqi-Nasiri» əsərində göstərir ki, «Mərifət sahibləri arasında bir şeyi olduğu kimi dərk etməyə, hər işi lazımi kimi yerinə yetirməyə hikmət deyilir, bunun nəticəsində insanın mənəviyyatı mümkün qədər təkmilləşməli, arzu edilən səviyyəyə yüksəldilməlidir" [3].

Başqa sahələrdə olduğu kimi, tərbiyəçi-uşaq münasibətlərində də öz peşəsinin ustası olan tərbiyəçi yaxşı bilir ki, öyrətmək və öyrənmək sənətinin də öz ardıcıllığı vardır. Xüsusən kiçikyaşlı uşaqlarla iş apararkən səbrliliyi, iradəliliyi, ardıcıllığı heç vaxt tərbiyəçi unutmamalıdır. Uşağın qəlbində özünə isti yuva salmaq istəyən tərbiyəçi onun istər istək və arzularını, maraq və meylini, psixologiyasını hər cür münasibətlərində çətinlik çəkmədən nəzərə aldıqda uşağın etimadını qazanır.

Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilər, loqopedlər və uşaqları əhatə edən işçilər peşəkar olmalıdırlar. Onlar uşağın simasında şəxsiyyət, fərdi bir insan görməli, emosional bacarığa malik olmalı, uşaq anatomiyası və psixologiyasını bilməli, uşaqların problemlərini başa düşməli, nitqində, psixi inkişafında pozuntu olan uşaqlarla işləməyi bacarmalıdırlar. Tərbiyəçinin başlıca vəzifəsi idraki fəaliyyəti aktivləşdirməkdir. Məhz bu baxımdan idraki fəaliyyətin inkişafı üçün metodlar, uşaqların fəaliyyət motivlərini formalaşdıran müəyyən şərait yaradılmalıdır ki, fəaliyyət prosesinə maraq inkişaf etsin.

Tərbiyəçinin hazırlıq göstəriciləri müəyyən edilərkən onun pedaqoji qabiliyyəti, pedaqoji mədəniyyəti və peşəkarlığı – uşaqlara məhəbbəti, qayğısı, hörmətlə yanaşması, uşaq psixologiyasını bilməsi, təlimə maraq yaratması, təşkilatçılıq bacarığı, yaradıcılığı, mədəni davranış normalarına malik olması nəzərdə tutulmalıdır.

Fəaliyyətin, şüurun və şəxsiyyətin vahidliyi prinsipinə əsaslanaraq üç aspekt – şəxsiyyətyönümlü, fəaliyyətyönümlü və refleksiv (düşünülmüş) tərəflər əsas götürülərək aşağıdakı göstəricilər müəyyən edilmişdir:

1. Şəxsiyyətyönümlü hazırlıq:
   Pedaqoji təfəkkür (qnostik qabiliyyətlər);
   Tərbiyəçinin təşkilatçılıq qabiliyyətləri;
   Tərbiyəçinin pedaqoji istiqaməti (kommunikativ qabiliyyətlər);
2. Peşəkarlıq səviyyəsinin göstəriciləri:
   Pedaqoji takt (layihələndirmə qabiliyyəti);
3. Refleksiv hazırlığın göstəriciləri:
   Refleksiv qabiliyyətlər.

Bu göstəricilərə əsaslanaraq pedaqoji fəaliyyətin formalaşdırılmasında səviyyələr belə müəyyənləşdirilmişdir; pedaqoji fəaliyyəti səciyyələndirən əsas cəhət onun məhsuldarlığıdır: məhsuldarlığı aşağı olan səviyyə; məhsuldar (sistemli-modelləşdirilmiş səviyyə) və yüksək məhsuldarlığı (qlobal-modelləşdirilmiş) olan səviyyə.

Axırıncı iki səviyyə pedaqoji ustalığı xarakterizə edir.

Pedaqoji ustalığın mühüm komponentlərindən biri də pedaqoji ünsiyyətdir. Məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən təlim-tərbiyənin qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi xeyli dərəcədə tərbiyəçinin uşaqlarla ünsiyyətinin xarakterindən asılıdır.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşmasında pedaqoji ünsiyyət mühüm rol oynayır. Təlim-tərbiyə işi öz mahiyyəti etibarilə ünsiyyət prosesidir: tərbiyəçi və uşaqların davranış və fəaliyyəti, işə münasibəti, emosional vəziyyəti ünsiyyətin necə qurulmasından asılıdır. Ünsiyyətsiz heç bir fəaliyyət, o cümlədən pedaqoji fəaliyyət mümkün deyildir. Buna görə də məktəbəqədər təhsil müəssisələrində səmərəli ünsiyyətin qurulmasına xüsusi diqqət yetirilməlidir.

## ƏDƏBİYYAT

1. *Kərimov Y.Ş.* Şəxsiyyətin tamlığı // ARTPİ-nin Elmi əsərləri, 2010, № 4, s.20
2. ASE: 10 cilddə, II c., Bakı, 1978, 592 s.
3. *Tusi X.Ə.* Əxlaqi-nasiri. Bakı, 1989, 36 s.
4. *Həmzəyev M.Ə., Əmiraslanova S.F.* Ünsiyyətin psixologiyası: Dərs vəsaiti. Bakı: Nurlan, 2007, 180 s.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 282-289
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 282-289
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 282-289

*UOT 159.9*

***Z.M.İsayeva***
*Sumqayıt Dövlət Universiteti*
*zabite66@box.az*

# EMOSİONAL İNTELLEKT MODELLƏRİ VƏ KOMPONENTLƏRİNİN PSİXOLOJİ ƏSASLARI

***Açar sözlər:*** *emosional intellekt, emosional intellekt modelləri, identifikasiya, mental qabiliyyətlər, emosional komponentlər*

Məqalədə emosional intellektin psixoloji məzmunu açıqlanır. Burada deyilir ki, emosional intellekt mürəkkəb inteqrativ təhsil kimi koqnitiv davranışın və şəxsi emosional keyfiyyətlərin birliyidir. Məqalədə emosional intellektin modelləri araşdırılmışdır. Emosional intellektin qarışıq və qabiliyyətlər növünün elmi izahı verilir. Müəllif elmi məqalədə emosional intellektin komponentlərinin psixoloji aspektdə izahını verir. Məqalədə D.Qaulmenin emosional intellekt modeli, C.Mayerin, D.Karuzo, P.Seloveyin emosional intellekt modeli və D.V.Lyüsinin emosional intellekt modellərinin elmi şərhi verilmişdir. Müəllif emosional intellektin emosional, koqnitiv və davranış komponentlərini tədqiq etmişdir. Emosional intellekt strukturuna daxil olan emosional, koqnitiv və davranış komponentləri ayrılıqda müəllif tərəfindən xarakterizə edilmişdir. Məqalədə bunlarla yanaşı, müxtəlif müəlliflər tərəfindən işlənilmiş emosional intellekt modellərinin müqayisəli xarakteristikası da verilmişdir.

***З.М.Исаева***

# ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ МОДЕЛЕЙ И КОМПОНЕНТОВ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА

***Ключевые слова:*** *эмоциональный интеллект, модели эмоционального интеллекта, идентификация, ментальные способности, эмоциональные компоненты*

В статье раскрывается психологическое содержание эмоционального интеллекта. Здесь говорится о том, что эмоциональный интеллект как сложное интегративное образование является совокупностью когнитивного поведения и личных эмоциональных качеств. В статье исследованы модели эмоционального интеллекта. Дается научное объяснение смешанного вида и способностей эмоционального интеллекта. Автор в статье дает объяснение компонентов эмоционального интеллекта в психологическом аспекте. В статье дается научная интерпретация моделей эмоционального интеллекта Д.Гоулмана, Дж.Мэйера, Д.Крузо, П.Сэловея и Д.В.Люси. Автор исследовал эмоциональные, когнитивные и поведенческие компоненты эмоционального интеллекта. Эмоциональные, когнитивные и поведенческие компоненты, входящие в структуру эмоционального

интеллекта, в отдельности охарактеризованы автором. Наряду с этим, в статье дается сравнительная характеристика моделей эмоционального интеллекта, разработанная различными авторами.

***Z.M.Isayeva***

## PSYCHOLOGICAL BASICS OF EMOTIONAL INTELLIGENCE MODELS AND COMPONENTS

***Keywords:*** *emotional intelligence, emotional intelligence models, identification, mental abilities, emotional components*

The article describes the psychological content of emotional intelligence. It is said here that, emotional intelligence is a combination of cognitive behavior and personal emotional qualities, such as comprehensive integration education. The models of emotional intelligence were investigated in the article. A scientific explanation of the kind of mixed and abilities of emotional intelligence is given. The author explains psychological aspects of the components of emotional intelligence in the scientific article. The article gives a scientific description of the emotional intelligence model of D.Guinea, emotional intelligence models of J.Meyer, D.Caruso, P.Selovey and emotional intelligence model of D.V.Lyusi. The author investigated emotional, cognitive, and behavioral components of emotional intelligence. Emotional, cognitive and behavioral components included in the structure of emotional intelligence are characterized by the author separately. The article also presents the comparative characteristics of emotional intelligence models developed by different authors.

"Emosiya" sözü latın mənşəli olub "emovare" sözündən olub "hərəkət etmək" mənasını ifadə edir. *Emosional intellekt anlayışı* aşağıdakı şəkildə fərqləndirilir:

- öz hiss və istəklərini daxili vasitə kimi hərəkətə gətirmək qabiliyyəti;
- emosional sferada intellektual təhlil və tərkib əsasında şəxsiyyəti başa düşmək qabiliyyəti;
- emosiyalara effektiv şəkildə nəzarət etmək və onlardan təfəkkürün inkişafında istifadə etmək qabiliyyəti;
- emosional şəxsi və sosial qabiliyyətlərin ümumi qabiliyyətlərə təsirinin məcmuyu və ya ətrafdakıların təzyiqinin, habelə tələblərinin öhdəsindən gəlmək qabiliyyəti;
- emosional-intellektual fəaliyyət kimi.

D.Qaulmenə görə, emosional intellekt adı altında özünümotivləşdirmə, düşünmək qabiliyyəti, emosional partlayışa nəzarət, əhval-ruhiyyənin tənzimlənməsi, başqalarının dərdinə şərik olma kimi qabiliyyətlər başa düşülür.

Emosional intellektin iki ümumi alternativ modelini: *qarışıq və qabiliyyətlər modelini* fərqləndirirlər. *Qarışıq modellərə* koqnitiv, şəxsi və motivasiya xüsusiyyətlərini aid edirlər ki, onlar real həyatda adaptasiya ilə sıx surətdə

bağlıdırlar. Bu modellər emosional intellekti ölçmək üçün sorğuların və özünəhesabatın, habelə ənənəvi şəxsi sorğuların köməyini nəzərdə tutur. Tədqiqatçılar *qabiliyyətlər modelindən* emosional intellektin ölçülməsində testlərin köməyindən istifadə edirlər.

D.Qaulmenin emosional intellekt modelini nəzərdən keçirək. Alimin emosional intellekt modeli koqnitiv qabiliyyətlər və şəxsi xarakteristika kimi də şərh edilir. Odur ki, alim tədqiqatçı öz modelini koqnitiv qabiliyyətlər və şəxsi xarakteristika ilə birləşdirmişdir. D.Qaulmen emosional intellektin strukturuna aşağıdakı beş tərkibi daxil etmişdir:

- identifikasiya, emosional vəziyyətlər, emosiyalar arasındakı qarşılıqlı əlaqələr, təfəkkür və hərəkətlər;
- emosional vəziyyətlərin idarə olunması, emosiyalara nəzarət, arzuolunmayan adekvat emosional vəziyyətlərin əvəz edilməsi;
- emosional vəziyyətə daxil olma qabiliyyəti, uğurların qazanılmasına imkan yaratmaq;
- başqa adamların emosiyalarını oxumaq qabiliyyəti, onlara qarşı həssaslıq, başqasının emosiyalarını idarə etmək;
- başqa adamlarla məmnunedici şəxsiyyətlərarası münasibətlərə daxil olmaq və onları dəstəkləmək qabiliyyəti [5, s.153].

*Qabiliyyətlər modelinə* C.Mayer, D.Karuzo və P.Selovey tərəfindən təklif edilmiş emosional intellekt konsepsiyası aiddir.

Müəlliflər emosional intellekti emosional və intellektual inkişaf üçün rekleksiv şəkildə emosiyaları tənzim etmək, habelə emosiyaların köməyi ilə emosiyaları, emosional bilikləri başa düşmək, təfəkkürün effektivliyini yüksəltməklə emosiyaları duymaq qabiliyyəti kimi nəzərdən keçirmişlər. Müəlliflərin fikrincə, emosional intellektli insanlar qeyri-stabil emosional vəziyyətlərini həmişə düzəltməyə çalışmalıdırlar.

*C.Mayerin, P.Seloveyin və D.Karuzonun emosional intellekt modelini* nəzərdən keçirək:

*1. Qiymətlərin dəqiqliyi və emosiyaların ifadəsi.* Emosiyalar bizim üçün mühüm hadisələr haqqında siqnaldır. Yəni o, istər daxili, istərsə də xarici aləmdə baş verənlər haqqında bizi məlumatlandırır. İnsanın həm öz emosiyalarını, həm də başqalarının emosiyalarını başa düşməsi və onları sınaqdan keçirmələri üçün çox mühümdür. Bu bacarıqlar fiziki vəziyyətlər və fikirlər, eləcə də xarici görünüşcə davranışlar üzrə emosiyalarını müəyyən etmək qabiliyyətini özündə birləşdirir. Bundan əlavə buraya insanın özünün və başqa adamlarla bağlı emosiyalarını dəqiq ifadə etmək qabiliyyəti daxil edilir.

*2. Fikri fəaliyyətdə emosiyalardan istifadə.* Biz özümüzü necə hiss edirik, nə haqqında və necə fikirləşirik? Emosiyalar diqqətimizi mühüm hadisələrə yönəldir, fikri proseslərimizə təsir edir. Bu qabiliyyət insana öz emosiyalarından istifadə edib daha effektiv şəkildə düşünməyə, özünü və başqalarını başa düşməyə kömək edir.

Emosiyalarını idarə etməklə insan problemlərini daha effektiv şəkildə həll etməyə qadirdir.

*3. Emosiyaların anlaşılması.* Emosiyalar təsadüfi hadisə deyil. Onlar müəyyən qaydalarla dəyişir, onları müvafiq səbəblər yaradır. Bu qabiliyyət emosiyaların mənbəyini müəyyən etmək bacarığını əks etdirir, emosiyaları təsnifləşdirir, habelə simptomlar və emosiyalar arasındakı əlaqələri diaqnozlaşdırır, emosiyaların əhəmiyyətini interpretasiya edir. Bütün bunlarla yanaşı olaraq o, insana mürəkkəb hissləri başa düşməyə, bir emosiyadan digərinə keçidi dərk etməyə kömək edir, eləcə də emosiyaların gələcək inkişafını şərtləndirir.

*4. Emosiyalarla idarəetmə.* Emosiyalar informasiyaları saxlamaqla təfəkkürə təsir edir, müxtəlif tapşırıqların həllində məntiqi zəncirlərin qurulmasına, insana öz diqqətini yönəltməklə fikirləri başa düşməyə, öz davranışını seçməyə və qərar qəbul etməyə yönəldir. Bu qabiliyyət informasiyalardan istifadə etmək bacarığına aiddir. Həmçinin bu qabiliyyət insanların özünün və başqalarının emosiyalarını idarə etməklə onları məlumatlandırır [7].

Sxem 1-də emosional intellektin mental qabiliyyətləri təsvir edilmişdir:




**Sxem 1. Emosional intellektin mental qabiliyyətləri**

Emosional intellektin təkmilləşmiş modeli ilə razılaşsaq, oraya növbəti mental qabiliyyətləri aid edə bilərik:

1/Emosiyaların tənzim edilməsinin dərk edilməsi;
2/ Emosiyaların başa düşülməsi və dərk edilməsi;
3/ Təfəkkürdə emosiyaların assimilyasiyası;
4/ Emosiyaların fərqləndirilməsi və ifadə edilməsi.

N.Xoll *"Emosional intellekt" metodikasını* işləyib hazırlamışdır. Bu

metodika şəxsiyyətin münasibətlərini başa düşmək qabiliyyətini, qərarların qəbulu sferasında emosiyaları idarə etmək bacarığını aşkar etməyi nəzərdə tutur.

*Emosional intellekt* N.Xollin metodikasında beş şkala üzrə diaqnozlaşdırırlır:

* emosional məlumatlandırma;
* emosiyalarla idarəetmə (qeyri-rigidliyin emosiyası);
* özünümotivləşdirmə (öz emosiyalarını ixtiyari idarəetmə);
* empatiya;
* başqa adamların emosiyalarını diaqnozlaşdırmaq.

R.Bar-On emosional intellekt dedikdə, qeyri-koqnitiv qabiliyyət, bilik və səriştəlilik, habelə müxtəlif həyati situasiyalardan uğurla çıxmaq imkanlarını başa düşür. Müəllif səriştəliliyin beş sahəsini müəyyən etmişdir ki, onların köməyi ilə emosional intellektin beş mühüm sferası bir neçə subkomponentlərdən ibarətdir:

* *özünüdərketmə:* öz emosiyalarını dərketmə, özünəinam, özünəhörmət, özünüaktuallaşdırma, müstəqillik;
* *şəxsiyyətlərarası ünsiyyət vərdişləri*: empatiya, şəxsiyyətlərarası qarşılıqlı münasibətlər, sosializasiya, məsuliyyətlilik;
* *adaptasiya qabiliyyəti*: problemlərin həlli, reallıqla əlaqə, çeviklik;
* *stresli situasiyaları idarə etmək:* stressə qarşı davamlılıq, impulsivliyə nəzarət;
* *əhval-ruhiyyənin üstünlüyü*: optimizm, xoşbəxtlik.

*D.V.Lyüsinin emosional intellekt modelini* nəzərdən keçirək. Rus tədqiqatçısı D.V.Lyüsin emosional intellekt modelini təklif etmişdir. Alimin fikrincə, emosional intellekt dedikdə, insanın özünün və başqalarının emosiyalarını başa düşməsi və onu idarə etməsi başa düşülür.

***Emosiyaların başa düşülməsi qabiliyyəti*** onda ifadə olunur ki, *insan:*

* emosiyaları dərk edə bilir, özündə və ya başqalarında emosional təəssüratlara dair faktları toplayır;
* emosiyaları eyniləşdirə bilir, özünün və başqalarının hansı emosiyaları keçirdiklərini sınaqdan keçirir və onları sözlə ifadə etmək yollarını axtarır;
* müvafiq emosiyaları yaradan səbəbləri başa düşür.

***Emosiyaların idarə olunması qabiliyyəti*** onda ifadə olunur ki, *insan:*

* emosiyaların intensivliyinə nəzarət edə bilir, hər şeydən əvvəl kifayət qədər güclü emosiyaları azaldır;
* xaricdən ifadə edilmiş emosiyalara nəzarət edə bilir;
* bu və ya digər emosiyaları zəruri hallarda qəbul edir [3].

D.V.Lyüsin belə hesab edir ki, emosional intellekti ikili təbiətə malik konstrukt kimi təqdim etmək olar. Bir tərəfdən bu, konstrukt koqnitiv qabiliyyətlərlə, digər tərəfdən isə şəxsi qabiliyyətlərlə xarakterizə olunur [4]. Müəllif qeyd edir ki, emosional intellektin modeli qabaqlayıcı xarakter daşıyır və empirik əsaslandırmaya və dəqiqliyə ehtiyacı vardır.

Emosional intellekt modellərinin müqayisəli xarakteristikası müxtəlif

müəlliflər tərəfindən işlənilmişdir.

Cədvəl 1-də Emosional intellekt modellərinin müqayisəli təhlili öz əksini tapmışdır:

**Cədvəl 1. Emosional intellekt modellərinin müqayisəli təhlili**

| Müəlliflər | Komponentlər |
|---|---|
| **E.Mayer**<br>**P.Selovey**<br>**D.Karuzo** | * emosiyaların identifikasiyası və ifadəsi<br>* emosiyaların tənzimi<br>* təfəkkür və fəaliyyətdə emosiyalardan istfadə |
| **D.Qaulmen** | * özünüdərketmə<br>* özünənəzarət<br>* sosial həssaslıq<br>* münasibətlərin idarə olunması |
| **R.Bar-On** | * özünüdərk<br>* şəxsiyyətlərarası ünsiyyət vərdişləri<br>* adaptasiya qabiliyyəti<br>* stresli situasiyaların idarə olunması<br>* əhval-ruhiyyənin üstünlüyü |
| **D.V.Lyüsin** | * emosiyaları başa düşmək qabiliyyəti<br>* emosiyaları idarə etmək qabiliyyəti |
| **N.Xoll** | * emosional məlumatlandırma<br>* öz emosiyalarını idarəetmə<br>* özünümotivləşdirmə<br>* empatiya<br>*başqalarının emosiyalarının diaqnozlaşdırılması |

Göründüyü kimi, emosional intellekt modelləri bir çox mütəxəssislər tərəfindən (D.V.Lyüsin, D.Mayer, P.Selovey) araşdırılmışdır. *Emosional intellekt strukturuna* aşağıdakı komponentlər daxil edilmişdir:

**I -** ***Emosional komponentə*** aiddir:

- *empatiya* (başqalarının emosiyalarını duyub ünsiyyətdə tərəfdaşın hisslərini başa düşmək, habelə başqasının vəziyyətini anlamaq qabiliyyəti, maddi aləmi başqalarının gözü ilə təqdim etmək bacarığı);
- *"faydalı" həyəcanlılıq* (emosional dəqiqlik, emosional faktorlara qeyri-həssaslıq);
- *uğurlara nail olma motivasiyası;*
- *emosional həssaslıq* (müxtəlif təsirlərə tez reaksiya vermək qabiliyyəti).

**II - *Koqnitiv komponentə*** aiddir:

- *adekvat özünüqiymətləndirmə*;
- *emosional özünüdərk* (daxili emosiyalar ilə yaşamaq qabiliyyəti, ünsiyyətdə və işdə rolların yaxşı başa düşülməsi hissi);
- *emosional keyfiyyətlərə dair məlumatlandırma;*
- *refleksiya* (başqasının mövqeyindən öz daxili aləmini başa düşmək bacarığı).

***III - Davranış komponentinə* aiddir:**

- *öz emosiyaları ilə idarə etmək qabiliyyəti* (öz emosiyalarını qəbul etmək və nəzarət etmək bacarığı, qarşıya qoyulan məqsədə nail olmaq üçün emosiyalardan istifadə etmək imkanları);
- *səmərəli qarşılıqlı təsir* (kontakt və əlaqə yaratmaq bacarığı, ünsiyyət prosesinin nəticəsinə pozitiv təsir göstərmək qabiliyyəti);
- *münasibətlərin qurulması və uyğunluq psixologiyası* (müvafiq vəziyyətlərdə müxtəlif adamlarla dil tapmaq bacarığı, müvafiq mövqelərə, dəyərlərə, həyati obrazlara, baxışlara dözümlülük [6, s.114].

Bir sözlə, emosional intellekti yüksək səviyyədə inkişaf etmiş insanlar şəxsi emosiyalarını və başqa adamların emosiyalarını başa düşüb ifadə etməyə qadirdirlər, onlar öz emosional sferalarını idarə edə bilir, habelə ətrafdakılarla asanlıqla qarşılıqlı əlaqədə öz məqsədlərinə nail olurlar. Habelə emosional intellekt strukturuna daxil olan komponentlər tələbələrdə emosional komponentləri: empatik hissləri, uğurlara nail olma motivasiyasını, emosional həssaslığı, adekvat özünüqiymətləndirməni, o cümlədən refleksiyanı, qarşılıqlı təsiri, özünüdərki inkişaf etdirir. Əgər ümumi intellekt akademik uğurların əsas amili sayılırsa, emosional intellektin yüksək səviyyəsi peşəkarlığa və bütünlükdə həyati uğurlara çatmağa imkan yaradır. Emosional intellekt insanların rəftar və davranışlarına öz müsbət təsirini göstərir, müxtəlif insanlarla müxtəlif situasiyalarda münasibət qurmaq bacarığını formalaşdırmağa zəmin yaradır.

## ƏDƏBİYYAT


1. *Андреева И.Н.* Эмоциональный интеллект – исследования феномена // Вопросы психологии, 2006, № 3, с.78-85
2. *Андреева И.Н.* Об истории развития понятия «эмоциональный интеллект» // Вопросы психологии, 2008, № 5, с.83-95
3. *Люсин Д.В.* Современные представления об эмоциональном интеллекте // Социальный интеллект: Теория, измерение, исследования М.: Ин-т психологии РАН, 2004, с.29-36
4. *Люсин Д.В.* Новая методика для измерения эмоционального интеллекта: опросник ЭмИн // Психологическая диагностика, 2006, №4, с.3-22
5. *Мещерякова И.Н.* Формирование эмоционального интеллекта студентов-

психологов в процессе обучения в вузе // Вестник ТГУ, 2010, Вып.1, с.157-161

6. *Мещерякова И.Н.* Биологические и социальные предпосылки развития эмоционального интеллекта // Территория науки. В., 2008, № 9(10), с.110-115
7. *Mayer, J. D.* Mayer-Salovey-Caruso Emotional Intelligence Test MSCEIT Text / J. D. Mayer, P. Salovey, D. Caruso. User's Manual. Toronto, Canada: Multi-Health Systems, 2002

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 290-296
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 290-296
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 290-296

*UOT 37*

***A.T.Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*
*telmanaytekin_82@mail.ru*

# 1920-1931-ci İLLƏRDƏ AZƏRBAYCANDA İBTİDAİ MƏKTƏBLƏR ÜÇÜN TƏDRİS PROQRAMLARININ HAZIRLANMASI

***Açar sözlər:*** *ibtidai təhsil, tədris proqramı, tədris plan, məktəb, təhsilin məzmunu*

1920-ci ildə ibtidai məktəblər üçün yeni tədris proqramlarının hazırlanması zərurəti yarandı. Bu məqsədlə xüsusi komissiya yaradıldı. İbtidai məktəblər üçün yeni proqramlar hazırlandı. Bu proqramlar ənənəvi proqramları xatırladırdı və daha çox demokratik xarakter daşıyırdı. 1924-1925-ci tədris ilindən başlayaraq Azərbaycan ibtidai məktəblərində kompleks proqramlar tətbiq olunmağa başladı. İbtidai məktəblərdə ilboyu bir neçə mövzu öyrədilirdi. Məsələn, "Bizim şəhər", "Bizim kənd", "Kənddə payız", "Şəhərdə yaz", "Sağlamlığın mühafizəsi" və s. Bu mövzuların hər biri üç aspektdən (təbiət, əmək və cəmiyyət) öyrənilirdi. 1930-cu ildə "komplekslər" ləğv edildi və "kompleks-layihələr" tətbiq edildi.

***А.Т.Мамедова***

# РАЗРАБОТКА УЧЕБНЫХ ПЛАНОВ ДЛЯ НАЧАЛЬНЫХ ШКОЛ В АЗЕРБАЙДЖАНЕ В 1920-1931 гг.

***Ключевые слова:*** *начальное образование, программа обучения, учебный план, школа, содержание образования*

В 1920-х годах возникла необходимость разработки новых учебных программ для начальных школ. Для этой цели была создана специальная комиссия. Разработаны новые программы для начальных школ. Эта программа напоминала традиционные программы и была более демократичной. С 1924-1925 учебного года в начальных школах Азербайджана реализуются комплексные программы. В начальных школах в течение года преподавалось несколько предметов. Например, «Наш город», «Наша деревня», «Осень в деревне», «Весна в городе», «Здравоохранение» и т. д. Каждая из этих тем изучалась в трех аспектах (природа, труд и общество). В 1930-х годах «комплексы» были упразднены, а «комплексные теории» применены.

***A.T.Mammadova***

**DEVELOPMENT OF CURRICULA FOR PRIMARY SCHOOLS IN AZERBAIJAN IN 1920-1931 yy.**

***Keywords:*** *primary education, training program, syllabus, school, content of education*
In the 1920s, the need arose to develop new curricula for elementary schools. A special commission has been created for this purpose. New programs for elementary schools have been developed. This program resembled traditional programs and was more democratic. From the 1924-1925 academic year, comprehensive programs have been implemented in primary schools of Azerbaijan. In elementary schools, several subjects were taught during the year. For example, "Our city", "Our village", "Autumn in the village", "Spring in the city", "Health" and so on. Each of these topics was studied in three aspects (nature, labor and society). In the 1930s, "complexes" were abolished, and "complex theories" were applied.

1920-ci ilin payızında I-II dərəcəli məktəblər üçün tədris proqramlarının tərtibinə başlanıldı. Bu məqsədlə Xalq Maarif Komissarlığının nəzdində fənn proqramlarını hazırlayan komissiyalar yaradıldı. RSFSR I dərəcəli məktəb proqramlarından, həmçinin Bakı şəhər ibtidai məktəb müəllimlərinin proqram tərtibinə dair təcrübəsindən istifadə etməklə ibtidai məktəblər üçün yeni proqramlar hazırlandı. Bu işdə görkəmli pedaqoq və metodistlər iştirak edirdi. Azərbaycanın ibtidai məktəbləri üçün ilk proqram 1923-cü ildə nəşr olundu. Akademik M.Mehdizadə həmin proqramların nəşrini "məktəblərimizin tarixində mühüm pedaqoji hadisə" (1, s.51) kimi dəyərləndirmişdi. Həmin proqramlarda ibtidai məktəbdə tədris olunan fənlərin məzmunu qruplar (siniflər) üzrə sistemli şəkildə verilməklə yanaşı, hər bir fəninin (ana dili, təbiət, coğrafiya, rəsm, musiqi və nəğmə və s.) qarşısına qoyulan konkret təhsil-tərbiyə vəzifələrini həyata keçirmələri üçün müəllimlərə zəruri pedaqoji və metodik göstərişlər verilmişdi. Proqramlarda təhsil məqsədləri ilə yanaşı, uşaqları kollektivçilik ruhunda tərbiyə etmək ön plana çəkilir, bu vəzifəni bütün fənlərin tədrisində, xüsusilə də "ana dili, ictimaiyyət və coğrafiya tədrisində" (2, s.6) nəzərə almaq vacib hesab edilirdi. Bu proqramlar ayrı-ayrı fənlər üzrə ibtidai məktəb şagirdlərinə müəyyən bilik, bacarıq və vərdişlər aşılamağa əsaslanırdı. Proqramların tərtibi zamanı bir sıra pedaqoji tələblər nəzərə alınsa da, bəzi nöqsanlara da yol verilmişdir. Nöqsanlarına baxmayaraq ibtidai məktəb proqramları strukturuna və xarakterinə görə Moskva alimlərinin hazırladığı ibtidai məktəb proqramlarından üstünlükləri ilə fərqlənirdi. Proqram məktəblərimizə və müəllimlərimizə yad olan "komplekslər" üzrə deyil, ənənəvi qaydada, fənlər üzrə tərtib edilmişdi. Müxtəlif mövzular üzrə təşkil edilən proqramlara kompleks proqramlar deyilirdi. Dövlət Elm Şurasında kompleks

proqramlar hazırlayanların məqsədi müxtəlif fənlərin təlim materialı arasında təbii əlaqə yaratmaq idi. Kompleks proqramlar Rusiya məktəblərində kütləvi şəkildə tətbiq edilsə də, Azərbaycanda SSR-də yalnız Nuxa (Şəki) nümunə məktəbində və Qara şəhər (Bakı) ibtidai məktəbində 1923/24-cü tədris ilindən eksperiment kimi tətbiq edilməyə başlanmışdı. Milli pedaqoq və metodistlərin hazırladığı proqramda ənənəvilik qorunub saxlanılsa da, az da olsa kompleks təlim sisteminə meyil müşahidə olunurdu. Mövcud tədris planında ana dili və ədəbiyyat əvəzinə "Ana dili", mədəniyyət tarixi və siyasi iqtisad əvəzinə "İctimaiyyət" fənlərinin daxil edilməsi kompleks proqramların təsiri ilə baş vermişdi. İnteqrasiya baxımından fənlərin bu şəkildə verilməsi, fikrimizcə, o dövr üçün mütərəqqi hal idi.

Çatışmazlıqlara baxmayaraq ibtidai məktəblərin tələblərinə cavab verən bu proqramlar kiçikyaşlı şagirdlərin nitqinin inkişafında, onların sürətli oxu vərdişlərinə yiyələnmələrində, təbiət və cəmiyyət hadisələrini dərk etməkdə mühüm rol oynadı. Bu proqramlar ibtidai məktəblər üçün yaradılan ilk proqramlar olsa da, sistemliliyi və anlaşıqlığı ilə fərqləndi. Proqram şagirdlərin məktəbdə şəxsiyyət kimi formalaşmasına istiqamətlənmişdi. Məktəbin vəzifələri o qədər genişləndirilmişdi ki, hətta ailənin və cəmiyyətin yükü də məktəbin üzərinə qoyulmuşdu. P.P.Blonski cəmiyyətin inkişafında məktəbə xüsusi diqqət ayıraraq "Yeni xalq məktəblərinin vəzifələri və metodları" adlı əsərində yazırdı: "Xalq məktəbi xalq kütlələrinin tərbiyə olunduğu yer olmalıdır və onlara indi Rusiya üçün ən vacib olanlar verilməlidir ki, bunları nə ailə, nə də ətraf mühit verə bilmir" (3, s.134). İlk ibtidai məktəb proqramlarının yaranması daha çox ənənələrə və təcrübəyə əsaslanırdı. Bu səbəbdən də pedaqoqlar və bu sahədə müəyyən təcrübəsi olanlar proqramların quruluşu və prinsiplərini müəyyənləşdirməyə təşəbbüs göstərdilər.

20-ci illərdə ibtidai məktəblər üçün nəzərdə tutulan tədris planlarında və proqramlarında təbiət fənlərinə daha çox üstünlük verilirdi. Təlimin I pilləsində təbiət elmləri proqramının məzmununun öyrənilməsinə təbiətşünaslıq (dünyaşünaslıq) kursunun, "təbiət elmlərinin əlifbasının" öyrənilməsindən başlamaq nəzərdə tutulurdu. Bunlar özlüyündə təbiət-tarix fənlərinin inteqrasiya olunmuş siklidir ki, buraya da qeyri-üzvi təbiət, biologiya, coğrafiya haqqında elmlərin elementləri, maddi və mənəvi mədəniyyət məsələləri, elmi tədqiqatın ilkin üsulları ilə tanışlıq daxildir. İbtidai məktəblərdə ana dili və rus dili fənləri praktik xarakter daşıyırdı. Şagirdlər ana dilində oxumağı və yazmağı öyrənir, nitqlərini zənginləşdirir, öz fikirlərini izah etmək vərdişlərinə yiyələnirdilər. Riyaziyyat fənninin tədrisində şagirdlər kəmiyyət fərqlərini müəyyən edir, hesablama və ölçmə vərdişlərinə yiyələnir, tarix dərslərində həyati məsələləri öyrənir, elementar şəkildə tarixi hadisələrə münasibət bildirirlər. Əl əməyi dərslərində şagirdlər özünəxidmət, məişət, kənd təsərrüfatı əməyi ilə tanış olur, texniki və modelqayırma, kağız, karton və plastilin üzərində iş zamanı sadə

əmək vərdişləri qazanırdılar. Rəsm və nəğmə dərsləri şagirdlərin bədii zövqünü inkişaf etdirir, bədən tərbiyəsi dərslərində sistematik gimnastika ilə məşğul olur, düzgün yerimək, qaçmaq, tullanmaq və gigiyenaya aid ilk vərdişlər qazanırdılar. V sinifdən başlayaraq sistemli bilik almağa başlayırlar.

1924-1925-ci tədris ilindən başlayaraq Azərbaycan ibtidai məktəblərində müxtəlif təlim materialı arasında inteqrasiyanın yaradılmasına xidmət edən kompleks proqramlar tətbiq olunmağa başladı. Amerika pedaqogikasından götürülən, Moskvada Dövlət Elm Şurasının pedaqoji bölməsi tərəfindən məktəblərdə tətbiqinə icazə verilən kompleks proqramlar milliləşdirilmədən, milli şəraitə uyğunlaşdırılmadan mexaniki surətdə Azərbaycan məktəblərinə köçürüldü. 1925-1927-ci illərdə bəzi qəza mərkəzlərində və eyni zamanda dəmiryolu məktəblərində kompleks proqramlar tətbiq edildi. Kompleks proqramların hazırlanması texnologiyasının mürəkkəb olması onun kütləvi şəkildə tətbiqinə imkan vermirdi. Ona görə də ibtidai məktəblərdə sistematiklik prinsipi əsasında qurulan köhnə proqramlardan istifadə edilirdi. 1925-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən nəşr edilən "Birinci dərəcəli məktəblərin proqramları"nın "İzahat vərəqi"ndə yazılırdı: "İndiki halda QUS (Dövlət Elm Şurası – A.M.) proqramının Azərbaycan məktəblərinə tamamilə tətbiqi mümkün olmadığı üçün proqram və tədris planının islahına iki cəhətdən fikir verilmişdir: tədricən QUS proqramına yaxınlaşmaq, 1923-cü il tədris planları və proqramlarına istinad etmək" (4, s.6). Azərbaycanda kompleks proqramlara keçməklə bağlı müəyyən çağırışlar olsa da, bu ideya pedaqoqlar tərəfindən ciddi şəkildə dəstəklənmirdi. Ə.Hacızadə "QUS proqramına keçmək iddiası" (5, s.71) adlı məqaləsində RSFSR DEŞ-nin pedaqoji bölməsinin ənənəvi proqramlarla işləyən məktəblərin "həyatdan kənar olması", orada verilən biliklərin "mücərrəd olması" fikirlərini ehtiyatla tənqid edərək bildirirdi ki, məktəblərimiz heç də həyatdan kənarda deyil, öyrədilən biliklər mücərrəd xarakter daşımır, kompleks proqramlara keçməkdə tələsmək lazım deyil. O, yazırdı: "Təsərrüfatımızı elm və texnika əsasında yenidən qurduğumuz, texniki biliklərin öyrədilməsini həyatımızdan uzaq və bizim üçün yabançı saymaq doğru deyildir" (5, s.71). Ayrı-ayrı pedaqoqların və ibtidai məktəb müəllimlərinin kompleks proqramlara etirazı QUS (DEŞ) proqramlarına keçmək cəhdlərinin qarşısını ala bilmədi. Ciddi etirazlar fiziki cəhətdən məhv olmaya gətirib çıxara bilərdi. 1928/29-cu tədris ilində Azərbaycan SSR Xalq Maarif Komissarlığının Baş Tərbiyə İdarəsi bəyan etdi ki, kütləvi məktəblərimiz kompleks proqramlara keçə bilərlər. 1929-cu ildə respublikanın birinci və ikinci qrupları (sinifləri) üçün QUS (DEŞ) proqramları istifadəyə verildi. Nəşr edilən proqramlar ibtidai və yeddiillik məktəblərin birinci və ikinci qruplarını əhatə edirdi.

Kompleks proqramlarda şagirdlər cəmiyyət və təbiət hadisələrini ayrı-ayrı fənlər üzrə deyil, bütövlükdə kompleks şəklində öyrənirdi. İbtidai

məktəblərdə ilboyu bir neçə mövzu götürülürdü, pedaqoji proses onun əsasında qurulurdu. Məsələn, “Bizim şəhər”, “Bizim kənd”, “Kənddə payız”, “Şəhərdə yaz”, ”Sağlamlığın mühafizəsi” və s. Bu mövzuların hər biri üç aspektdən (təbiət, əmək və cəmiyyət) öyrənilirdi. “Təbiət” bölməsi üzrə əvvəlcə uşaqların müşahidəsi təşkil olunur, müsahibə aparılır, illüstrativ işlər görülür (təbiətə aid rəsm çəkilir), dərs kitablarından təbiətə aid hekayələr oxudulur, sonra mövzunun sistemli şəkildə öyrədilməsinə başlanılırdı. “Əmək” bölməsində işlər yenə eyni qayda ilə təşkil edilir, payız və yaz fəslində kənddə insanların gördükləri işlərlə bağlı şagirdlər material toplayır, bilavasitə ictimai-faydalı işlərdə iştirak edirdilər. “Cəmiyyət” bölməsində həmin vaxta təsadüf edən ictimai-siyasi və tarixi hadisələr öyrədilirdi. Nəticədə, şagirdlər bir mövzunu (məsələn, “Kənddə yaz”) kompleks (yəni hərtərəfli) öyrənmiş olurdular. Yazı, oxu və hesab bu mövzuların tədrisi zamanı öyrədilirdi. Birinci sinfin şagirdləri 16 saat müddətində havanın isinməsini, günün uzanmasını, quşların gəlməsini, ağacların düymələrinin böyüməsini, qarın ərimәsini, səmanın rəngini müşahidə etməklə qeydlər aparmalı, otaq şəraitində böyüdülən bitkinin boyunu ölçməli, rənginə diqqət etməli, torpaqdan çıxardıb köklərinə və toxumun vəziyyətinə baxmalı, hansı bitkinin daha tez böyüdüyünü müqayisə etməli idi. Bununla yanaşı, onlar peyinin torpağı qüvvətləndirməsini təcrübə etmək məqsədilə bir dibçəyə peyinli torpaq, digərinə peyinsiz torpaq töküb əkməli və nəticəni qeyd etməli idi. Sonra birinci qrup (sinif) üçün ayrılmış torpağı belləmək, peyinləmək, ləklərə bölmək, çiçək və bostan bitkiləri (günəbaxan, turp və s.) əkmək lazım gəlirdi. “Ana dili” dərsində 15 saat ərzində oxu və yazı ilə bağlı aşağıdakı tapşırıqlar icra edilməli idi. Birinci qrup şagirdlərə kitabdan aşağıdakı mövzuları oxumaları tövsiyə olunurdu: ”Bizim bostan” (45 s.), “Bağlar” (45 s.), ”Bağ” (46 s.), “Payız əkini” (53 s.), ”Ağaclar” (62 s.), “Barama qurdu” (112 s.), “Yağış” (129 s.), “Ala inək” (135 s.), “Qoyun” (117 s.), “İnək” (116 s.), “At” (116 s.), “Ala keçi” (120 s.). Təqvimlərin yazılması, bitkilər üzərində aparılan müşahidələrin və nəticələrin qeydə alınması yazı ilə bağlı görülən işlərə aid idi. Ekskursiyaların nəticələrinin lövhə və dəftərə yazmaq da tələb edilirdi.

Riyaziyyat dərsinə 14 saat ayrılmışdı. “Kompleks”də riyaziyyatla bağlı aşağıdakılar nəzərdə tutulmuşdu: “Kənd təsərrüfatı alətləri, qoşqu heyvanları, ev heyvanları, ev quşları və onların məhsulatı, tarlada, iməcilikdə çalışan dəstələr və dəstələrdə iştirak edənlərin sayı üzərində, şitillərin sayı, alaq işlərini aparan dəstələr və s. görülən işləri və alınan nəticələri üzə çıxardıqca rəqəmlər üzərində əvvəlcə 20 dairəsində dörd əməliyyata dair məsələlər tərtib və həll etmək, sonra isə 100 dairəsində 10-luqlar üzərində toplama, çıxma, vurma və bölməyə aid məsələlər tərtib və həll etmək. Proqramda verilən nümunəyə diqqət yetirək: “10-luqlar üzərində məsələ və misallar: zərərvericilərlə mübarizədə kolxoza yardım etmək üçün birinci qrupdan 30 tələbə hərəsi 3 qələmin qurdunu

təmizlədi, cəmi neçə qələmin qurdu təmizləndi? Cins toyuqlar 60, adi toyuqlar 30 yumurta yumurtaladılar. Cins toyuqlar neçə dəfə artıq yumurtaladılar" (6, s.33).

"Politexnik zəhmət" üçün 20 saat nəzərdə tutulmuşdu. Nəzərdə tutulan vaxt ərzində şagirdlər kağız, karton, gil, ağac, kənd təsərrüfatı işlərini öyrənməli, kənd təsərrüfatı ilə bağlı zəruri bacarıqlara (lək düzəldə bilmək, bel, dırmıq kimi alətlərlə işləmək, şitil köçürmək, toxumları əkmək, suvarmaq, alaq etmək, ev quşlarına, ev heyvanlarına qulluq etmək) yiyələnməli idilər. 7 saatlıq "Rəsm" dərslərində şitil və alaq etmək mənzərələri çəkmək, 8 saatlıq "Şərqi və idman" dərslərində yaza aid mənzum parçaların şərqi halında oxumaq, idman məşğələləri tərtib etmək, ictimai işlərdə (kolxoz və sovxozun tarlasını təmizləmə, alaqetmə, seyrəltmə işlərində iştirak etmək, dul və yoxsul qadınların əkin yerlərini zibil və daşlardan təmizləmək, suvarmaq, alaq etmək, ev quşları və ev heyvanlarını bəsləməkdə kolxozçulara və valideynlərə kömək etmək və s.) iştirak nəzərdə tutulurdu. Riyaziyyat dərsində yeni salınacaq yolun smetasını tutmaq, Gədəbəy mis mədənləri, Gəncə mahud fabriki, Bakı Lenin fabriki, Şəki ipək zavodunun məhsulları və onların qiymətləri ilə bağlı məsələlər tərtib etmək, Qaraçala, Trud-Saraca sovxozları və maldarlıq sovxozlarının mədaxil, məxariclərini və məhsullarını hesablamaq öyrədilirdi. Mövzuların (komplekslərin) öyrədilməsi zamanı diqqət şagirdlərin nəzəri biliklərinə deyil, daha çox mənimsəyə biləcəyi bacarıqlara verilirdi. Məktəb həyatın və cəmiyyətin bir hissəsi kimi fəaliyyət göstərirdi, kənd məktəblərinin özünün şəxsi təsərrüfatı var idi. Məktəbin əkin sahələrinə, quşçuluq və maldarlıq təsərrüfatlarına uşaqlar özləri qulluq edirdi. Bu da təbii ki, onlarda zəruri həyati bacarıqların yaranmasına kömək edirdi. Kompleks üzrə hər mövzunun təbiət, əmək və cəmiyyət nöqteyi-nəzərindən təhlil edilməsi onlarda mövzu ilə bağlı tam təsəvvür yaratmaqla bərabər, həm də dünyagörüşünün yaranmasına kömək edirdi. Burada maraqlı cəhət o idi ki, əmək fəaliyyəti, təbii-elmi və ictimai material kompleksləşdirilirdi. Eyni məsələ mümkün qədər müxtəlif yollarla öyrədilirdi: müstəqil müşahidə yolu ilə, müəllimin hekayəsi (nəqli – A.M.) vasitəsilə, əl əməyində, bədii obrazlarda, rəsmdə, hesablamada, ana dilində (sözdə və yazıda), gil işlərində, dramlaşdırmada, ekskursiyada və s. (7, s.4). Komplekslərin mahiyyəti həyatı həqiqi surətdə öyrənməkdən ibarət idi. Kompleksçilər hesab edirdi ki, öyrənmə prosesi həyat üzərində konkret, əyani olmalı, məktəblilər öyrənmə prosesinin fəal iştirakçıları olmalıdır.

1930-cu ildə söhbət xarakterli "komplekslər"in özünü doğrultmadığı üzə çıxdı, onun yerinə istehsal xarakteri daşıyan "kompleks-layihələr" tətbiq edildi. Bu yanaşma yeni olsa da, fənlərin sistemli öyrədilməsini kompleks proqramlarından daha artıq pozurdu."Kompleks-layihə"də də şagirdlərə fənlər üzrə sistemli bilik verilmir, şagirdlərin ictimai-faydalı işləri təlim prosesinin mərkəzinə qoyulurdu. Məsələn, "kompleks" proqramda olan "Kənddə yaz

işləri” və “Bizim fabrika” mövzularının əvəzinə “kompleks-layihə” proqramlarında “Kolxozun yaz işlərində iştirak edək”, “Fabrikanın planını yerinə yetirmək işinə kömək edək” kimi mövzular verilmişdi. Ayrı-ayrı fənlərlə bağlı alınan bilik ümumiləşdirilmirdi, şagirdlərin öyrənmə yeri (məktəbi) əmək tarlası, sexlər, zavodlar və fabriklər idi. Praktika nəzəriyyəni xeyli qabaqlamışdı. Elə bu səbəbdən də heç bir elmi əsası olmayan “məktəbin ölməsi” ideyası ortaya atılmışdı. Məktəb həyatındakı çatışmazlıqlar ÜİK(b)P MK-da ciddi müzakirə edilərək belə qərara gəlindi ki, “məktəbdəki təlim kifayət həcmdə ümumi təhsil biliyi vermir” (8, s.42). İbtidai məktəb qarşısına fənlərin sistemli öyrədilməsi vəzifəsi qoyuldu. İbtidai məktəb proqramları yenidən dəyişdirildi və fənn sistemini əsas tutan proqramlara keçildi. Kompleks proqramlar üzrə təlim təcrübəsi göstərdi ki, şagirdlərə sistemli şəkildə bilik və bacarıq verilmədiyindən məktəblilər sonrakı təhsil pilləsində uğur qazana bilmir. “Kompleks”lər tamam unuduldu. Sonrakı elmi ədəbiyyatlarda “kompleks proqramlar antielmi və antimarksist əsaslar üzərində qurulduğuna” (9, s.150) görə ciddi tənqid edildiyindən səmərəli cəhətləri də tamam unuduldu. İbtidai məktəbin sonrakı inkişafı göstərdi ki, ildən-ilə proqramlarda nəzəri baza praktik hissəni üstələdi.

## ƏDƏBİYYAT


1. *Mehdizadə M.* Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı: Azərnəşr, 1958, 328 s.
2. Birinci dərəcəli məktəblərin proqramları. Bakı: Azərnəşr, 1923, 82 s.
3. *Блонский П.П.* Избранные педагогические и психологические сочинения / Под ред. А. В. Петровского: в 2-х т. Т.1, М.: Педагогика, 1979, 304 с.
4. Birinci dərəcəli məktəblərin proqramları. Bakı, 1925, 99 s.
5. *Hacızadə Ə.* QUS proqramına keçmək iddiası // Yeni məktəb, 1927, №9, s.9-10, s.71-76
6. İbtidai məktəblərdə aparılacaq məşğələlərin nümunəlik işlənməsi // ”Müəllimə kömək” metodik məcmuə, 1931, №3(5), s. 31-48
7. *Богуславский М.В.* Концепция содержания общего образования НПС ГУСа: проблемы, идеи, практика реализации (1922-1931 гг.) // Историко-педагогические основания стратегии развития отечественного образования. М., 1994, с.26-34
8. Vahid əmək məktəblərinin proqramları və metodik qeydlər. Bakı: Azərb.XMK Baş tərbiyə İdarəsi, 1929, 48 s.
9. *Muradxanov M.* Pedaqogika. Bakı: Azərtədrisnəşr, 1964, 504 s.
10. *Esipov B.P., Qonçarov N.K.* Pedaqogika. Bakı: Azərnəşr,1941, 396 s.

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 297-302
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, T. 67, № 4, c. 297-302
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 297-302

***UOT 37***

***D.M.Musayev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*musayev_d@yahoo.com*

# TƏHSİL KOMPETENSİYALARININ FORMALAŞDIRILMASI – MÜASİR TƏLİMİN ƏSAS ŞƏRTİ

***Açar sözlər:*** *təhsil kompetensiyası, kommunikativ kompetensiya, koqnitiv (idrak) kompetensiya, kompetent yanaşma*

Məqalədə kompetensiya terminin ətraflı izahı verilmişdir, onun elmi dövriyyədə istifadə olunmasının tarixi araşdırılmış və təhlili aparılmışdır. Təhsilimizin qabaqcıl Qərb təhsil təcrübəsinə uyğun qurulmasının zəruriliyi baxımından problem araşdırılmış və respublikamızda təhsil sahəsində qəbul olunmuş qanun və qərarlarlarda təhsil kompetensiyalarının formalaşdırılmasının əhəmiyyəti qeyd olunmuşdur.

***Д.М.Мусаев***

## ФОРМИРОВАНИЕ ОБРАЗОВАТЕЛЬНЫХ КОМПЕТЕНЦИЙ – ОСНОВНОЕ УСЛОВИЕ СОВРЕМЕННОГО ОБУЧЕНИЯ

***Ключевые слова:*** *образовательная компетентность, коммуникативная компетентность, когнитивная (познавательная) компетентность, компетентностный подход*

В статье дано подробное объяснение термина компетенции, также исследованы и обобщены история ее включения в научный оборот. Проблема исследована с точки зрения необходимости ее соответствия западному опыту образования и отмечена важность формирования образовательных компетенций в законах и постановлениях об образовании в нашей республике.

**D.M.Musayev**

## FORMATION OF EDUCATION COMPETENCIES – A MAIN CONDITION FOR MODERN TRAINING

***Keywords:*** *education competence, communicative competence, cognitive competence, competence, competence approach*

The article thoroughly explains the term “competence”, studies and analyzes the history of its use in scientific circulation. The problem was analyzed with respect to necessity of developing our education system in line with the Western education experience. Importance of forming education competences which was set forth in laws and decisions on the education adopted by our Republic was noted.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra digər sahələrdə olduğu kimi, təhsildə də köklü islahatlar zərurəti ortaya çıxdı. Azərbaycan öz təhsil sistemini dünya standartlarına uyğunlaşdırmaq üçün beynəlxalq təşkilatlarla fəal əməkdaşlığa başlayıb. Ulu Öndər Heydər Əliyevin sözləri ilə desək, "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq".

15 iyun 1999-cu il tarixdə Ulu Öndər Heydər Əliyev tərəfindən qəbul olunmuş Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramına əsasən təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarə sistemi və iqtisadiyyatda köklü yeniləşmənin həyata keçirilməsi nəzərdə tutulur. İslahatın gedişində elmi tədqiqat işlərinin aparılması və onun nəticələrinin təhsil prosesinə tətbiqinə əlverişli şərait yaradılmasına, təhsil sistemi işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və təhsilalanların sağlamlığının və sanitar-gigiyenasının təşkilinə xüsusi diqqət yetirilməsi nəzərdə tutulur (13).

Ali təhsil sahəsində islahatlar əsasən Avropa strukturları ilə, Avropa İttifaqı, Avropa Komissiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Ali təhsil sahəsindəki islahatlarda Azərbaycanın Bolonya prosesinə qoşulmasının xüsusi rolu var. Avropada vahid ali təhsil məkanının yaranmasını nəzərdə tutan və 1999-cu ildə başlamış prosesə Azərbaycan 2005-ci ildə qoşulub. Azərbaycanın Bolonya prosesinə qoşulması ölkədə vahid Avropa standartlarına cavab verən ali təhsilə nail olmaq zərurətini meydana çıxarıb. 2005-ci ildən etibarən Azərbaycanda bu istiqamətdə islahatlar aparılır. Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən Tədbirlər Planı təsdiq edilmişdir. Ali təhsil islahatlarında ən mühüm mərhələ isə 2009-cu il mayın 22-də Azərbaycan prezidenti tərəfindən təsdiq edilmiş dövlət proqramının qəbul edilməsidir. “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır (12).

Daha sonra 25 iyun 2007-ci il tarixdə “Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası” Nazirlər Kabineti tərəfindən təsdiq edildi və müəllim hazırlığı sahəsində dövlət

siyasəti müəyyənləşdirildi. Sənədə əsasən "Təhsilin müasirləşməsi şəraitində müəllimin ənənəvi funksiyaları ilə (təlim, tərbiyə, inkişafa kömək, təlim nəticələrinin qiymətləndirilməsi, valideynlərlə iş və s.) yanaşı, həm məzmun cəhətdən, həm də prosesin təşkili baxımından təhsilin və sosial mədəni mühitin proqnozlaşdırılması, layihələşdirilməsi və təşkili kimi peşə funksiyaları aktuallaşır. İdarəçilik, iqtisadi, hüquqi, sosial və s. fəaliyyətlə əlaqədar olaraq müasir şəraitdə kommunikativ funksiyalara tələbat artır". Bu baxımdan gələcək müəllimlərin formalaşmasında təhsil kompetensiyaların rolu meydana çıxır.

Yeniliklərin həyata keçirilməsi üçün Təhsil Nazirliyi, eləcə də ali təhsil müəssisələri tərəfindən ciddi islahatlar aparılır və müasir tələblərə cavab verən elmi-metodiki işlər görülür. Azərbaycanda təhsil islahatlarının genişləndirilməsi və dünya standartlarına uyğunlaşdırılması siyasətini həyata keçirmək üçün yeni qanunvericilik bazasının formalaşdırılması da zəruri olmuşdur. Bu məqsədlə 2009-cu ilin 19 iyununda "Təhsil Haqqında" yeni qanun geniş ictimai müzakirələrdən sonra parlamentdə qəbul edildi və onun tətbiqinə başlandı. Təhsil islahatlarının davamı olaraq Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) (3 iyun 2010-cu il), eləcə də onlarla digər normativ-hüquqi sənədlər qəbul olunmuşdur.

Yeni Təhsil Qanununda müasir tələblərə cavab verən və yüksək pedaqoji təfəkkürə malik müəllim kadrlarının hazırlanmasına, pedaqoji kadrların attestasiya sisteminin yaradılmasına, yaradıcı, böyük ustalığa malik müəllimə ehtiyac olunduğu qeyd olundu. Burada təhsil kompetensiyalarının, eləcə də təhsilin qərb təcrübəsinə uyğun qurulmasının zəruriliyi qeyd olunur.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında qeyd olunur ki, qloballaşma prosesləri müxtəlif dövlətlərin təhsil sistemlərinin inteqrasiyasını şərtləndirir. Hədəflər kimi Avropa Şurası tərəfindən tövsiyə edilmiş kompetensiyalar qrupu əsas götürülür. Artan tələbə-müəllim mübadiləsi nəzərə alınaraq təhsil standartlarının unifikasiyası məqsədi daşıyan Bolonya prosesi sürətlənir.

"Kompetensiya" sözü latın mənşəli söz olub (yaranma tarixi təqribən 1585-1595-ci illər) mənası – şəxsə işdə və ya situasiyada effektiv davranmaq imkanı verən qabiliyyət, öhdəlik, bilik və bacarıqlar qrupu anlamına gəlir. Kompetensiya situasiyadan irəli gələn tələblərə cavab vermək üçün bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyətləri fəaliyyət meyarlarına müvafiq şəkildə tətbiq etmək kimi başa düşülür. Bəzən kompetensiya anlayışını "səriştə" ilə eynilışdirirlər. Lakin səriştə – təcrübə, bacarıq ilə izah olunduğu halda, kompetensiya daha geniş anlayış olaraq özündə biliklər, bacarıqlar, vərdişlər, keyfiyyətlər və dəyərləri birləşdirir (2, s.124). Kompetensiya geniş istifadə olunan anlayışdır. İlk dəfə təhsil kompetensiyası kimi 1965-ci ildə Massaçutes Universitetinin professoru N.Xomskiy tərəfindən təklif olunub. Daha sonra

təhsil kompetensiyalarını Edinburq Universitetinin professoru məşhur alim C.Raven tədqiq etmişdir (7, s. 266-269).

Bu sahədə tanınmış tədqiqatçı İ.A.Zimnaya kompetent yanaşmanın inkişafında üş mərhələ qeyd edir. Birinci mərhələni (1960-1970-ci illər) o, kompetensiya anlayışının elmi aparatının tərkibinə ‘kompetentlik’ anlayışının gəlməsi ilə xarakterizə edir.

İkinci mərhələdə (1970-1990-cı illər) kompetentlik anlayışının daha çox təhsil sahəsinə inteqrasiya etməsi ilə xarakterizə edir. C.Raven hətta tədqiqatlarında müasir cəmiyyətdə tələb olunan 37 növ kompetensiya qeyd edir.

Üçüncü mərhələ (1990-2001-ci illər) kompetent yanaşmanın təsdiqlənməsi və “təhsil kompetensiyası” kateqoriyasından istifadə edilməsi ilə xarakterizə edilir (5).

Avropa Şurasının 27-30 avqust 1996-ci il tarixində Berndə keçirilən toplantısında təhsil islahatları proqramı üçün əsas kompetensiyaların (key competencies) müəyyən olunmasının vacibliyi qeyd olundu. Daha sonra Avropa Təhsil Fondunun terminlər sözlüyündə (1997) təhsil kompetensiyasının tələbləri qeyd olundu (8, s. 8).

Düzdür, təhsil kompetensiyası problemi respublikamızda ayrıca tədqiqata hələ cəlb olunmamışdır, qısa arayış və məlumat xarakterli yazılara novator müəllimlər M.Aranlı, L.Bayramova, M.Əhməd və b. rast gəlmək olar. Lakin xarici pedaqoq və psixoloqlardan problemlə bağlı C.Raven, N.Xomskiy, A.Xutorskoy, İ.Zimnaya, B.Elkonin, O.Şabanov, V.Lebedev, Q.Koqan, E.Zeer, B.Braun, B.Biqqs, C.Vinterton, V.Hatmaçer və b. müxtəlif tədqiqatlar aparmışlar.

Müasir təhsil prosesinin məqsədi cəmiyyətdə uğurlu insan fəaliyyəti üçün vacib olan əsas kompetensiyaları formalaşdırmaqdan ibarətdir. Müasir pedaqogikada yeddi əsas təhsil kompetensiyası qeyd olunur. Bunlar koqnitiv, informativ, kommunikativ, ümummədəni, sosial-əmək, özünü inkişaf etdirən şəxsi kompetensiya və dəyər-mənalı kompetensiyalardır. Bütün kompetensiyaların tarix dərslərində formalaşdırılmasının mümkün olduğu qeyd olunur və səmərəli yolları göstərilir (11).

Tədqiqatçılar qeyd edir ki, müxtəlif kompetensiyaların cəmi metakompetensiyalar adlanır. Müqayisəli araşdırmalara əsasən müəyyən edilir ki, metakompetensiyalar əsasən tənqidi təfəkkür, yaradıcı yanaşma, təşəbbüskarlıq, problemlərin həlli, riskin qiymətləndirilməsi, qərarların qəbul edilməsi, hisslərin konstruktiv idarə edilməsi ilə müşayiət olunur (1, s.8-10).

Kompetensiya latın sözü ("competentia”) olub "mühakimə etməyə səlahiyyətli”, eləcə də "danışmağa hüququ olmaq” mənasını da verir. Kompetensiya müəyyən funksiyaların müvəffəqiyyətli icrası üçün zəruri olan bilik, bacarıq, müvafiq təcrübə və şəxsi keyfiyyətlərin toplusudur. Bu imkanlar isə tarixin interaktiv üsullarla tədris olunduğu zaman daha səmərəli həyata keçir

və təcrübədə yoxlanılır.

Müasir dövrdə elm və təhsilin əhəmiyyəti və rolu yeni biliklərin qazanılması və təcrübədə istifadə edilməsi imkanları çərçivəsindən kənara çıxır: "Dünya elminin inkişafı o qədər dinamikdir ki, təhsil sistemində tamamilə yeni təhsil kompetensiyaları tələb olunur. Elmi potensialın qorunub saxlanılması və gənc elmi kadrların hazırlanması da hər zaman dövlətin diqqət mərkəzindədir.

Təhsil kompetensiyası – təhsilin məzmununun səmərəli mənimsənilməsi ilə bağlı olan şagird şəxsiyyətinin inkişaf səviyyəsini nəzərdə tutur. Avropa Şurasının Təhsil Şurası XXI əsr üçün qlobal təhsil standartlarını müəyyən edərkən qeyd edilmişdir ki, gələcək müəllimlərə "nəyi öyrətməyi" deyil, "necə öyrətməli" və bunun üçün hansı kompetensiyalara yiyələnməli olduqları qeyd olunmuşdur. Tədrisin yeni keyfiyyətinin əsas prioriteti bu gün onun səmərəliliyinin göstəricisi olan təhsil kompetensiyaları olduğu göstərilir.

Müasir tədrisin əsas anlayışlarından olan kompetensiya və metokompetensiya özündə bir çox müsbət keyfiyyətləri ehtiva edir. Kompetentlik müəllim şəxsiyyətinin inteqral keyfiyətidir. Hər bir zamanın öz tələbləri var və zamanına uyğun olaraq bu tələblərdən irəli gələn bacarıqlar müəyyən olunur. Təhsil müəllim və şagirdin özünütərbiyəsi və özünütəsdiqi üçün imkan və şərait yaratmalıdır. Müəllim insanın mənəvi həyatının yaradıcısı, ruhlandırıcısı olmalıdır.

Yaşadığımız qlobal rəqəmsal dünyada XXI əsrin müasir müəlliminin kompetentliyi belədir:

– savadlıqlı (yeni pedaqoji texnologilardan və İKT-dən istifadə bacarığı; şagirdlərə öyrənməyi öyrətmək bacarığı, alınan biliyin həyatı biliklərə cevirmə bacarığı və s.);

– yaradıcı təfəkkür (bilikləri bir-biri ilə uzlaşdıraraq yeni bir bilik yaratma bacarığı);

– ünsiyyətli (komunikativ olaraq sosial biliklərə əsaslanaraq müəllim-şagird, şagird-şagird, şagird-müəllim-valideyn ünsiyyətini qurma bacarığı);

– nəticəyönümlü (hər görülən işin, aparılan dərsin nəticəsi olmalıdır).

Müəllimin peşəkar kompetentli inkişafının mexanizmləri:

– təlimlərdə, kurslarda iştirakı, özünətəhsil, yeni təlim metodlarından, İKT-dən istifadə;

– yaradıcı dərslərin verilməsi, yaradıcı hesabat, müsabiqələrdə iştirakı və s. (9).

Müəllimin kompetentliyi şagirdin kompetentli olmağının əsasıdır. Bu cür bilik və bacarığın sahibi olan hər bir müəllim yaxşı savad verməklə kifayətlənmir. Onlar şagirdlərdə İKT ilə işləmək və aldığı informasiyanı biliyə cevirib ondan daim istifadə etmək, ünsiyyətli olmağı, öz biliklərinə əsaslanaraq öyrənməyi öyrənmək bacarığını inkişaf etdirir. Yaradıcı müəllim yaradıcı təlim

prosesi quraraq bu prosesdə hər bir şagirdin təfəkkürünün inkişafına zəmin yaradır.

## ƏDƏBİYYAT


1. *Bayramova L.* Kurikulum və pedaqogika (izahlı və praktiki tövsiyələrlə). Bakı, 2019
2. *Məhərrəmli Q., İsmayılov R.* Məktəblinin alınma sözlər lüğəti, Altun kitab, 2014
3. *Болотов В.А., Сериков В.В.* Компетентностная модель: от идеи к образовательной программе // Педагогика, 2003, № 10
4. *Зеер Э.Ф., Павлова А.М., Сыманюк Э.Э.* Модернизация профессионального образования: компетентностный подход: Учеб. пособие. М.: МПСИ, 2005
5. *Зимняя И.А.* Компетентностный подход в образовании (методолого-теоретический аспект). Проблемы качества образования. Москва-Уфа, 2004
6. *Равен Дж.* Компетентность в современном обществе / Пер. с англ. М.: «Когито-Центр», 2002
7. *Разуваева Т.А.* Компетентностный подход к образованию: Краткий теоретический анализ // Вестник КГУ им. Н.А.Некрасова. Педагогика и психология, 2010, с. 266-269
8. *Сергеев А.Г.* Компетентность и компетенции в образовании. Владимир 2010
9. XXI əsrin müəlliminin kompetentliyi… / www.almazhasret.com/?p=2706
10. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / www.edu.gov.az/az/page/451/12574
11. Формирование образовательной компетентности учащихся www.edu-lider.ru/formirovanie-obrazovatelnoj-kompetentnosti-uchashhixsya/
12. Bolonya prosesi çərçivəsində ali təhsil sahəsində aparılan islahatlar haqqında / www.edu.gov.az/upload/file/bolonya-milli-hesabat.pdf
13. Azərbaycan Respublikasının Milli Hesabatı
14. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı / www.e-qanun.az/framework/5363,
15. “Ən yaxşı müəllim” necə olmalıdır? / www.idrak-m.com/?tag=kompetensiya

***UOT 37***

***G.Y.Orucova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gulshan_orucova@mail.ru*

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN HUMANİSTLƏŞDİRLMƏSİ MƏKTƏBDAXİLİ İDARƏERTMƏNİ HUMANİSTLƏŞDİRMƏNİN MÜHÜM ŞƏRTİ KİMİ

***Açar sözlər:*** *müəllim-şagird münasibətləri, ünsiyyət mədəniyyəti, kollektivin davamlı inkişafı, pedaqoji qabiliyyət, müəllimin şəxsi keyfiyyətləri*

Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsində müəllimin ünsiyyət mədəniyyətinin rolu böyükdür. Müəllimin digər insanlarla (məktəb direktoru, müəllim həmkarları, şagirdlər, valideynlər və b.) ünsiyyətini təmin edən davranışının spesifik üsulları ünsiyyət mədəniyyəti adlanır. Ümumtəhsil məktəblərində ünsiyyət prosesi elə qurulmalıdır ki, o, şagirdlərin mənəvi inkişafına təsir etsin. Pedaqoji prosesin uğurla nəticələnməsi müəllim-şagird ünsiyyətinin düzgün təşkilindən birbaşa asılıdır. Burada da istər-istəməz ağırlıq mərkəzi müəllim olduğundan o, zəruri kompetensiyalara malik olmalıdır. Məqalədə bu məsələlər şərh olunmuşdur.

***Г.Я.Оруджева***

# ГУМАНИЗАЦИЯ ОТНОШЕНИЙ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ КАК НЕОБХОДИМОЕ УСЛОВИЕ ГУМАНИЗАЦИИ ВНУТРИШКОЛЬНОГО УПРАВЛЕНИЯ

***Ключевые слова:*** *взаимоотношения учителя и ученика, культура общения, устойчивое развитие коллектива, педагогическая способность, личностные качества учителя*

Культура общения учителя играет важную роль в гуманизации отношений учителя и ученика. Конкретные способы, с помощью которых учитель общается с другими людьми (директор школы, коллеги учителя, ученики, родители и т.д.), называются культурой общения. Общение в школах должно быть структурировано так, чтобы оно могло влиять на духовное развитие учащихся. Успех педагогического процесса зависит от правильной организации преподавательско-ученического общения. Поскольку учитель является центром притяжения, он должен обладать необходимыми компетенциями. В статье объясняются эти вопросы.

***G.Y.Orujeva***

## HUMANIZATION OF TEACHER-PUPIL RELATIONS AS AN IMPORTANT CONDITION FOR THE HUMANIZATION OF INTRA-SCHOOL MANAGEMENT

***Keywords:*** *teacher-student relationship, communication culture, sustainable development of the team, pedagogical ability, personal qualities of the teacher*

The role of the teacher communication culture is enormous in the humanization of the teacher-pupil relationship. Specific methods of behavior that ensure the communication of the teacher with other people (the principal, fellow teachers, pupils, parents, etc.) are called the culture of communication. The process of communication in general schools should be structured in such away that it influences the moral development of pupils. The successful completion of the pedagogical process directly depends on the correct organization of communication between the teacher and the pupil. Since the teacher is the center of attraction, he must possess the necessary competencies. The article explains these issues.

Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsində müəllimin ünsiyyət mədəniyyətinin rolu böyükdür. Ümumtəhsil məktəblərində ünsiyyət prosesi elə qurulmalıdır ki, o, şagirdlərin mənəvi inkişafına təsir etsin. Təcrübə göstərir ki, bu gün müəllimlərin çoxu bu ziddiyyətin aradan qaldırılmasına sadəcə psixoloji cəhətdən hazır deyil. İlk növbədə, bu, məktəb idarəçiliyinin yüksək pilləsinə (direktor, direktor müavini) aiddir.

Bu gün məktəblə bağlı sosial sifarişin məzmunu dəyişdiyi kimi, məktəbdaxili idarəetmənin humanistləşdirmə ideyasını həyata keçirmək istəyən məktəb direktorlarına verilən tələblər də dəyişmişdir. Müasir məktəbə elə direktorlar tələb olunur ki, onlar təlimin keyfiyyətini yüksəltməyə çalışmaqla yanaşı, həm də müəllim kollektivinin səriştəliliyini və peşəkarlığını təmin edə bilsinlər.

Tədqiqatlar göstərir ki, ümumtəhsil məktəblərində direktorların pedaqoji kollektivə effektiv təsirinin mühüm şərtləri vardır. Belə ki, məktəb direktoru:

1) kollektivdə əlverişli mövqe tutmağa və onlarla sıx əməkdaşlıq etməyi;
2) müəllimlərin hörmətini, inamını, etimadını və simpatiyasını qazanmağı;
3) məktəbin qarşısında duran vəzifələrin həllində onların təşəbbüslərini və fəallıqlarını inkişaf etdirməyi;
4) kollektivdə nikbin əhvali-ruhiyyə yaratmağı;
5) kollektivdə davamlı inkişafı, səriştəliliyi və peşəkarlığı dəstəkləməyi bacarmalıdır.

Bunun üçün o, xüsusi sosial-psixoloji keyfiyyətlərə malik olmalıdır. Bu keyfiyyətlərə aşağıdakılar daxildir: 1) insanları tanımaq bacarığı; 2) mənəvi-kommunikativ keyfiyyətlər; 3) təşəbbüskarlıq; 4) təşviq etmək qabiliyyəti; 5) demokratizm, pedaqoji kollektivdə özünüidarəni aktivləşdirmə bacarığı.

Məktəb direktorunda bu keyfiyyətlərin yüksək səviyyədə inkişafı onu psixoloji cəhətdən cəlbedici, insanlara yaxın və başa düşülən etməklə yanaşı, şəxsiyyətlərarası münasibətlər sistemində onun mövqeyini möhkəmləndirir. Direktor müəllimlər tərəfindən yalnız administrator-pedaqoq kimi deyil, həm də pedaqoq-administrator kimi qəbul olunur. O, kollektivdə, hər şeydən əvvəl, vəzifəsinə görə deyil, mənəvi nüfuzuna və əməkdaşlıq bacarığına görə lider kimi qəbul olunur. Tədqiqatçılar sosial-psixoloji keyfiyyətləri həm də "liderlik keyfiyyətləri" [1, s.11] kimi şərh edirlər. Məktəb direktorunun liderlik keyfiyyəti pedaqoji kollektivdə öyrədici mühitin yaradılmasında, müəllim-şagird əməkdaşlığının humanistləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Müəllimin digər insanlarla (məktəb direktoru, müəllim həmkarları, şagirdlər, valideynlər və b.) ünsiyyətini təmin edən davranışının spesifik üsulları ünsiyyət mədəniyyəti adlanır. Bəzi elmi ədəbiyyatda ünsiyyət mədəniyyəti davranış mədəniyyəti ilə eyni mənada işlədilir, davranışın əxlaqi və estetik normalarının zahiri təcəssümünü əks etdirən insanın gündəlik davranış formalarının məcmusu kimi izah olunur. Fikrimizcə, davranış mədəniyyəti ünsiyyət mədəniyyətinə nisbətən daha geniş anlayışdır. Ünsiyyət mədəniyyətinə öz fikir və hisslərini ifadə etməklə yanaşı, söz, nitq, intonasiya, üzün ifadəsi, əda, jest, zahiri görünüş və s. daxildir. Bunların müəllimlər tərəfindən qəbul edilməsi, onların əhəmiyyətinin dərk edilməsi vacibdir. Müəllimlərdə ünsiyyət mədəniyyətinin olması şagirdlərdə estetik hiss, sağlam düşüncə, bədii zövqü inkişaf etdirməyə, gözəlliyin mahiyyətini dərk etməyə və aydınlaşdırmağa, bu gözəlliyə məhəbbət hissi aşılamağa kömək edir. Ümumiyyətlə, insanlar bir-biri ilə bilavasitə ünsiyyət prosesində yetkinləşir və formalaşır.

Məktəbdə fəaliyyət göstərən müəllimdə ünsiyyət mədəniyyəti yoxdursa, onu yenidən formalaşdırmaq çətin bir işdir. Ünsiyyətə yiyələnmənin birinci mərhələsində valideynlər, ümumtəhsil və ali məktəb müəllimləri, şəxsiyyəti əhatə edən sosial qrup, kütləvi informasiya vasitələri mühüm rol oynayırlar. İkinci mərhələdə tədricən ağırlıq mərkəzi şəxsiyyətin üzərinə düşür. Bu zaman şəxsiyyət praktik ünsiyyət prosesində, münaqişəli situasiyalardan keçməklə özünəməxsus ünsiyyət mədəniyyəti formalaşdırır. Ünsiyyət mədəniyyətinin təcrübənin sınağından çıxan əlamətləri şəxsiyyətin daimi keyfiyyətinə çevrilir. Müəllimlərin Azərbaycan cəmiyyətinin mənəvi dəyər kimi formalaşdırdığı ünsiyyət mədəniyyətinə yiyələnmələri üçün əvvəlcə, mövcud təcrübə ilə tanış olmalı, onun nəzəri elementləri mənimsənilməlidir. Elə buna görə də müəllim kadrları hazırlığını həyata keçirən ali pedaqoji məktəblərdə təhsilin məzmununda bu məsələ ciddiliyi ilə nəzərə alınmışdır. Nəşr olunan bütün "Pedaqogika" dərslik və dərs vəsaitində, müasir müəllim modeli ilə bağlı ayrı-ayrı elmi məqalələrdə, Təhsil Nazirliyinin təsdiq etdiyi "Müəllim peşəsinin professioqramı"nda, "Müəllimlərin etik davranış qaydaları"nda müəllimin kommunikativ qabiliyyəti təşkilatçılıq qabiliyyətindən sonra ikinci vacib qabiliyyət hesab olunur. Ali pedaqoji

məktəblərdə müəllimin funksiyaları kimi müəllimin peşə qabiliyyətləri də gələcək müəllimlərə öyrədilir. İkinci mərhələdə isə pedaqoji fəaliyyətə yeni başlayan müəllim ali pedaqoji məktəblərdə qazanmış olduğu nəzəri bilikləri praktik ünsiyyət prosesində realizə edir.

Pedaqoji prosesin uğurla nəticələnməsi müəllim-şagird ünsiyyətinin düzgün təşkilindən birbaşa asılıdır. Burada da istər-istəməz ağırlıq mərkəzi müəllim olduğundan o, aşağıdakı zəruri kompetensiyalara malik olmalıdır:

1) şagirdlərə və onlarla işləməyə maraq, ünsiyyətə tələbatın və ünsiyyətqurma bacarığının, kommunikativ keyfiyyətlərin olması; 2) emosional empatiya və şagirdləri dərketmə; 3) çeviklik, ünsiyyətin tez-tez vəziyyətində düzgün və çevik istiqamətlənmə, ünsiyyət situasiyasında və şagirdlərin fərdi xüsusiyyətlərindən asılı olaraq nitqin təsirinin dəyişməsini təmin edən operativ-yaradıcı təfəkkür; 4) ünsiyyətdə əks-əlaqəni hiss etmə və onu davamlı saxlama; 5) özünü, öz psixi vəziyyətini, bədənini, səsini, mimikasını, əhval-ruhiyyəsini, fikirlərini, düşüncəsini, hisslərini idarəetmə; 6) spontanlıq; 7) mümkün pedaqoji situasiyaları, öz təsirinin nəticələrini proqnozlaşdırma; 8) nitqin inkişafı, mühüm leksik ehtiyat, dil vasitələrindən seçmə və istifadə; 9) pedaqoji hisslərə malik olma, bunlar müəllimin təbii, həyati hisslərinin toplusudur ki, onlar məktəbliyə tələb olunan istiqamətdə təsir etməni nəzərdə tutur; 11) pedaqoji improvizasiya, müxtəlif təsir vasitələrini tətbiq etmə [2, s.97].

Müəllim nitqinin təsirinin səmərəliliyini artırmaq üçün aşağıdakı priyomlardan səmərəli istifadə etməlidir: 1) "uyğunlaşdırma" – bu, priyomlar sistemidir. Burada qəbuletmə, məsləhət, narazılıq, xahiş, mühakimə, yumor, ironiya, əmr, inam, arzu və s. vardır; 2) əvvəlki cümlə ilə müqayisədə səs tonunun gücləndirilməsi, söz təsiri üsullarının dəyişilməsi, mürəkkəbdən sadəyə keçid, sadədən mürəkkəbə keçid, cümlələrin nəzərəçarpacaq şəkildə fərqləndirilməsi, ünsiyyət üsullarının tez-tez dəyişilməsi.

Araşdırmalar göstərir ki, improvizasiya şəraitində müəllimlərdə aşağıdakı tip davranışlar mümkündür: 1) təbii tip: məhsuldar improvizasiya hərəkəti müəllimdə psixoloji və emosional çətinliklər yaratmır; 2) gərgin – yeniləşdirici tip: burada şəxsiyyətin bütün ehtiyatlarının səfərbərliyi gedir, ortaya çıxmış çətinliklər dəf edilir; 3) qeyri-müəyyən tip: müəllimin gözlənilməyən pedaqoji situasiyadan kənarlaşması; 4) qeyri-iradi – tormoz tipi: özünü itirmə, müəllimin fəaliyyətinin tam tormozlanması; 5) emosional çatışmazlıq: müəllim nəzarətsiz və sistemsiz fəaliyyət göstərir, ziddiyyəti dərinləşdirir, nə özünü, nə də öz hisslərini idarə edə bilmir; 6) qeyri-adekvat tip: müəllim hisslərini gizlətməyə çalışır, lakin pedaqoji məqsədəuyğun hiss və fəaliyyətini düzəltmək bacarığına malik deyildir.

Təlim prosesində müəllim-şagird əməkdaşlığında səmərəli pedaqoji ünsiyyətinin altı əsas funksiyası mövcuddur: 1) konstruktiv – biliklərin məzmununun və fənn üzrə praktik əhəmiyyətinin müzakirəsi və izahında qarşılıqlı pedaqoji fəaliyyət; 2) təşkilati – müəllimlə şagirdlərin birgə təlim fəaliyyətinin

təşkili, qarşılıqlı məlumatlılığı və təlim-tərbiyə fəaliyyətindəki müvəffəqiyyətə görə ümumi məsuliyyət; 3) kommunikativ – stimullaşdırıcı – idrak-təlim fəaliyyətin müxtəlif formalarının uyğunlaşdırılması, pedaqoji əməkdaşlıq məqsədilə qarşılıqlı yardımın təşkili, məktəblilərin dərslərdə nəyi başa düşmələri, öyrənmələri, nəyə qabil olmaları; 4) informasiyalı-ümumiləşdirici – tədris predmetinin həyatla əlaqəsinin göstərilməsi, məktəblinin düzgün dünyagörüşünün formalaşması, dünyanın dərki və orientasiyası, ictimai həyat hadisələrinə düzgün qiymət verilməsi; tədris məşğələlərində informasiya genişliyinin səviyyəsinin artması və tədris materialının emosional izahının tamlığının nəzərə alınması, məktəblilərin əyani-hissi sahələrinə daha çox əsaslanma; 5) emosional – korreksiyalaşdırıcı – təlim prosesində "açıq perspektivlər" prinsiplərinin reallaşması, təlim fəaliyyətinin bir növünün digər növü ilə müvəffəqiyyətlə əvəz olunması; müəllimlə şagirdlər arasında inamlı ünsiyyətin yaradılması; 6) nəzarət-qiymətləndirici – öyrədənin və öyrənənlərin bir-birinə qarşılıqlı nəzarətinin təşkili, özünənəzarət və özünüqiymətləndirmə vasitəsilə nəticələrin birgə ümumiləşdirilməsi.

Müəllim-şagird münasibətlərində münaqişələrin yaranması səbəbləri müxtəlifdir. Bu münaqişələrin yaranmasının obyektiv və subyektiv səbəbləri vardır. Təcrübə göstərir ki, müəllim-şagird ünsiyyətindəki narazılıqlar daha çox aşağıdakı hallarda yaranır:

1) müəllim şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almır, başa düşmür və buna heç can da atmır;

2) məktəbli öz müəllimini başa düşə bilmir, buna görə də onu böyük kimi, öz rəhbəri kimi qəbul edə bilmir;

3) müəllimin davranışı məktəblinin davranış motivlərinə, yaxud yaranmış situasiyaya müvafiq deyil;

4) müəllim özündən çox razıdır, məktəblinin qüruruna toxunmaq, onun ləyaqətini alçaltmaq istəyir;

5) məktəbli bilərəkdən və inadkarcasına müəllimin tələblərini qəbul etmir, yaxud kollektivin tələblərinə məhəl qoymaq istəmir.

Təlimdə geridə qalan şagirdi bəzi müəllimlər çox vaxt istedadsız şagird hesab etdiklərindən onlarla ciddi şəkildə maraqlanmır, onların istək və arzularını öyrənmir, yerli-yersiz onları qınaq obyektinə çevirir, intizamı şagirdlərin akademik uğurlarından üstün sayırlar. Şagirdin hər hansı bir fəndən uğursuz nəticələri onun şəxsiyyəti ilə eyniləşdirilir. Nəticədə də, şagirdlərdə özünütəsdiqetmə meyilləri ləngiyir. Müəllim-şagird münasibətlərində "çatlar" əmələ gəlir və getdikcə dərinləşir. Müəllimlər özləri də hiss etmədən pis oxuyan, bəzi fənlərdən "iki" qiymət alan şagirdlərin "uğursuz şagird" reputasiyasının yaranmasının səbəbkarı olurlar. Pedaqoji şurada, valideyn yığıncaqlarında həmin şagirdlər və onların valideynləri tənqid obyektinə çevrilir. Şagirdlərin tədricən özünə, müəlliminə, məktəbə və valideynlərinə münasibəti dəyişir. Müəyyən mənada onlar öz taleləri ilə barışmalı olur. Müasir humanist yanaşmalar bu fikrin yanlış olmasını sübut

edir. Həyati müşahidələr göstərir ki, məktəbdə nadincliyi, pis oxuması, dalaşqanlığı ilə yadda qalan şagirdlər çox hallarda həyatda daha uğurlu ailə və karyera sahibi olurlar, yaxşı sənətkar, iş adamı kimi ad-san qazanırlar. Hələ keçən əsrin 30-cu illərində P.Torransın yaradıcılıq qabiliyyətlərinin öyrənilməsi ilə bağlı araşdırmaları sübut etdi ki, pis oxuyan uşaqlar heç də qabiliyyətsiz, "uğursuz uşaqlar" deyil, sadəcə onlarda akademik qabiliyyət deyil, başqa yönümlü qabiliyyətlər vardır, onları üzə çıxarmaq və inkişafına nail olmaq lazımdır. Müasir humanist yanaşmaya görə, sinifdə şagirdlərin "yaxşılar"a və pislər"ə, "birincilər"ə və "zəiflər"ə bölünməsi yolverilməzdir. Sinifdə "hörmətli" (yəni əlaçı) şagirdlərin iddiası, yerli-yersiz atmacası, "2" qiymət aldıqlarına görə müəllimlər və valideynlər tərəfindən danlanması zəif oxuyan şagirdlərdə aqressiyanı gücləndirir, onlar özünütəsdiqə çalışdıqlarından sinif yoldaşları ilə dalaşır, müəllimlərlə mübahisə edir, nizam-intizamı pozmalı olur. Bu da onlarda müəyyən xəstəliklərin yaranmasına gətirib çıxardır.

Müəllim-şagird münasibətləri ikitərəfli mürəkkəb proses olsa da, onun uğurlu alınmasında müəllimin rolu mühüm yer tutur. Müəllim bu prosesin təcrübəli iştirakçısı kimi şagirdin şəxsiyyət kimi formalaşmasına və inkişafına təsir göstərir. Tədqiqatçıların fikrincə, müəllim-şagird münasibətlərinin inkişafı bir çox cəhətdən "məhz müəllimin bir şəxsiyyət kimi aktivliyindən asılıdır" [3, s.25].

Pedaqoji-psixoloji ədəbiyyatda sinifdə münasibətlərin humanistləşdirilməsində müəllimin rolu önə çəkilir və belə təsvir edilir:

- müəllim hər bir şagirdə hörmətlə yanaşır, onun insani məziyyətlərini yüksək dəyərləndirir;
- onların qabiliyyət və istedadına optimistcəsinə inanır;
- şagirdlərlə onların partnyoru kimi əməkdaşlıq edir;
- onları stimullaşdırmaq yolu ilə daxili motivlər yaradır;
- şagirdlərin nöqsanlarına dözümlüdür;
- ünsiyyət mədəniyyətinə malikdir [3, s.65].

Yeni humanist pedaqoji təfəkkürün formalaşması müəllim-şagird əməkdaşlığındakı ənənəvi paradiqmaları dəyişdi. Şagird təhsil prosesinin subyekti kimi dəyərləndirildi. Y.A.Komenskinin, J.J.Russonun, İ.Pestalossinin, A.S.Makarenkonun, V.A.Suxomlinskinin, K.Rocersin, A.Maslounun şəxsiyyətin özünütəyin etməsi və özünüaktuallaşdırması ilə bağlı ideyaları yenidən elmi dövriyyəyə daxil edildi.

Müasir pedaqogika və psixologiyada insanın fəaliyyətinin bir növü kimi ünsiyyətin nəzəri cəhətdən əsaslandırılması B.Q.Ananyevin, A.N.Leontyevin, N.A.Berezovinin, Ə.Əlizadənin, Ə.Bayramovun, M.Həmzəyevin, X.İbrahimovun əsərlərində verilmişdir. N.A.Berezovin [4] müəllimin və şagirdin ünsiyyət üslubunu müəllim və şagird kollektivinin qarşılıqlı fəaliyyəti zamanı yaranan yaradıcı proses kimi araşdırmışdır. A.A.Leontyev pedaqoji ünsiyyətin optimal üslubunu şərh etmişdir. O, V.V.Davıdov [5] kimi idarəetmənin 4 deyil, 3

üslubunun olması fikrini irəli sürür və onların məzmununu əsaslandırırdı. Müasir məktəbdə müəllim və şagirdlərin münasibətlərinin formalaşdırılması, pedaqoji stimullaşdırılmasının nəzəriyyəsi və praktikası A.Y.Qordin tərəfindən daha geniş tədqiq olunmuşlar. A.V.Mudrik [6] ünsiyyət probleminə şagirdlərin tərbiyə amili kimi yanaşmışdır. O, müxtəlif yaşlı məktəblilərin ünsiyyət növlərinin pedaqoji xarakteristikasını verir, uşaq kollektivində şəxsiyyətin formalaşdırılması prosesində ünsiyyətin rolunu açıqlayır.

Bununla yanaşı, həm praktikada, həm də nəzəriyyədə şagirdi hələ də pedaqoji prosesin obyekti kimi dəyərləndirənlər vardır. Əslində isə: 1) şagird bir şəxsiyyət kimi təhsil-tərbiyə prosesinin mərkəzi hadisəsidir; 2) təlimin məzmunu məqsəd deyil, şagird şəxsiyyətinin inkişafı üçün ancaq vasitədir; 3) müəllim şagirdin şəxsiyyət kimi məziyyətlərini görməli, ona hörmət etməli və inanmalıdır; 4) şagirdin özünüreallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyası yaradılmalıdır; 5) şəxsiyyətin pedaqoji-psixoloji diaqnostikasına xüsusi diqqət yetirilməli, onun maraqları, qabiliyyətləri, istiqaməti, "Mən" konsepsiyası, xarakter əlamətləri, idrak fəaliyyətinin xüsusiyyətləri öyrənilməlidir; 6) şəxsiyyətin inkişafı proqnozlaşdırılmalıdır; 7) fərdiləşdirmə təlim prosesi strategiyasının əsas istiqamətlərindən birinə çevrilməlidir.

Deməli, pedaqoji prosesdə müəllimin elmi-metodiki hazırlığı, erudisiyası, qabiliyyətləri, əxlaqi keyfiyyətləri, davranış üslubu mühüm rol oynayır. Müəllim öz peşə borcunu keyfiyyətlə icra etmək üçün cəmiyyət qarşısında məsuliyyət daşıyır. Müəllimlik peşəsi insan fəaliyyətinin mürəkkəb növünə aiddir. Bu sahədə uğur qazanmaq müəllimin pedaqoji funksiyanı dəqiq və vaxtında yerinə yetirməsi ilə sıx bağlıdır. Pedaqoji funksiya müəllimin peşə bilik və bacarıqlarını tətbiqi istiqamətini müəyyənləşdirir. Burada şagirdlərin təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşması prosesi baş verir. Müəllimin də əsas funksiyası bu prosesi peşəkar və səriştəli idarə etməkdir. Qədim yunan filosofu Sokrat peşəkar müəllimləri "fikrin mamaçaları" adlandırırdı. Onun fikrincə, müəllim təlim prosesində şagirdlərə hazır bilik verməməli, onların başında yeni ideyaların, fikirlərin yaranmasına kömək göstərməlidir. Təlim prosesi müəllim tərəfindən səmərəli idarə olunmalıdır. Təlim prosesinin diaqnostlaşdırılması, proqnozlaşdırılması, layihələşdirilməsi və icrası düzgün müəyyənləşdirilərsə, işin səmərəsi və keyfiyyəti yüksək olar. Bu məqsədin reallaşması isə hər müəllimin aşağıdakı ardıcıllığa əməl etməsindən asılıdır:

- məktəblilərin fiziki və psixi xüsusiyyətlərinin inkişafını, onların əqli hazırlıq və əxlaqi tərbiyəlilik səviyyəsini, sinifdə və ailədə təhsil-tərbiyə şəraitini müəyyənləşdirməkdən;
- öz işinin nəticələrini öncədən görməkdən, fəaliyyətinin strategiyasını qurmaqdan, mövcud potensialı dəyərləndirməkdən;
- gələcək fəaliyyətin modelini qurmaqdan, keyfiyyətli nəticələr əldə etmək məqsədilə səmərəli yollar, vasitələr seçməkdən;
- məqsədə nail olmaq üçün şagirdlərlə qarşılıqlı əməkdaşlığa hazır olmaqdan;

- şagirdlərə hazır bilik deyil, istiqamətverici informasiyalar çatdırmaqdan;
- təlim nailiyyətlərinin monitorinqini aparmaqdan, uğurlu cəhətlərlə yanaşı, uğursuzluqların səbəblərini müəyyənləşdirməkdən, stimullaşdırıcı tədbirlərlə yanaşı, korreksiya işləri görməkdən;
- layihəni dəyərləndirməkdən.

Məktəb həyatının humanistləşdirilməsində müəllimin zəruri peşə qabiliyyətlərinin olması mühüm rol oynayır. Pedaqoji qabiliyyətlər müəllimin şəxsi keyfiyyətləridir. Azərbaycan pedaqoji ədəbiyyatında onlar aşağıdakı kimi təsnif edilir: 1) təşkilatçılıq qabiliyyəti; 2) təlim (öyrətmə) qabiliyyəti; 3) perseptiv qabiliyyət; 4) kommunikativ qabiliyyət; 5) suqqestiv (təlqinedici) qabiliyyət; 6) tədqiqatçılıq qabiliyyəti; 7) elmi-idraki qabiliyyət [7, s.42].

Əgər keçən əsrdə müəllimlərin peşə professioqramında əməksevərlik, intizamlılıq, məsuliyyətlilik, mütəşəkkillik, qətiyyətlilik, öz peşə səviyyəsini, əməyinin keyfiyyətini sistematik və planauyğun yüksəltmək mühüm yer tuturdusa, 16 may 2014-cü ildə Təhsil Nazirliyinin təsdiq etdiyi "Müəllimlərin etik davranış qaydaları"nda [68] humanistlik, xeyirxahlıq, dözümlülük, ədalətlilik, obyektivlik, ünsiyyətcil olmaq, şagirdlərin həyatına maraq göstərmək, şagirdlərə inam, emosional mədəniyyəti önə çəkildi. Rusiyanın "Müəllim kodeksi"nə diqqət yetirsək görərik ki, müəllim etikasının prinsipləri içərisində birinci yerdə humanistlik, sonra qanunilik, demokratiya, ədalət, peşəkarlıq və qarşılıqlı hörmət dayanır [9]. Müasir müəllim üçün ən vacib əxlaqi keyfiyyət humanizmdir. Bu, ən yüksək dəyər olan insana münasibətdir, insani hisslərin ən yüksək ifadəsidir. Müəllim-şagird münasibətlərində humanizm müəllimin şagirdin iç dünyasına nüfuz etməsindən, onun vəziyyətinə şərik olmasından, istək və arzularını başa düşməsindən, fərqli fikirlərinə hörmətlə yanaşmasından, şəxsiyyətinin inkişafına qayğı göstərməsindən, hörmət və tələbkarlıq prinsipini bacarıqla uzlaşdırmasından ibarətdir. Müəllimlərin şagirdlərə humanist münasibəti şagirdlərin də müəllimlərinə xoş münasibəti ilə tamamlanmır. Bakı şəhəri, 6 saylı məktəbdə pedaqoji təcrübə keçən ADPU-nun Riyaziyyat müəllimliyi, Fizika müəllimliyi, Kimya müəllimliyi, Tarix müəllimliyi, İngilis dili müəllimliyi və Biologiya müəllimliyi ixtisaslarında təhsil alan IV tədris ili tələbələri arasında müəllimlik peşəsi ilə bağlı sorğu apararkən bir daha yəqin etdim ki, şagirdlərin peşə seçimində müəllimlərin təsiri böyükdür. Riyaziyyat müəllimliyi ixtisasının 27 nəfər tələbəsindən 16 nəfəri (59%), Fizika müəllimliyi ixtisasının 22 nəfər tələbəsindən 12 nəfəri (55%), Kimya müəllimliyi ixtisasının 33 nəfər tələbəsindən 19 nəfəri (58%), Tarix müəllimliyi ixtisasının 24 nəfər tələbəsindən 14 nəfəri (58%), İngilis dili müəllimliyi ixtisasının 30 nəfər tələbəsindən 13 nəfəri (43%) və Biologiya müəllimliyi ixtisasının 27 nəfər tələbəsindən 12 nəfəri (44%) müəllimlik peşəsini müəllimlərinə görə seçdiklərini bildirmişlər. Sorğuda iştirak edən tələbələr özləri də etiraf etmişlər ki, müəllimi sevmədən onun tədris etdiyi fənni seçmək çox çətindir, bəlkə də mümkün deyil.

Müəllim-şagird əməkdaşlığı prosesində şagirdə humanist və demokratik

yanaşma, onların fərqli fikir və baxışlarına hörmət etmək məktəbdə unikal şəxsiyyətin inkişafına kömək edir. Pedaqoji ünsiyyətin əhəmiyyətli bir hissəsini müəllim və şagird arasındakı əlaqə təşkil edir. Buna görə müəllim və şagird arasında əməkdaşlıq subyektlərin qarşılıqlı təsir və birgə fəaliyyəti kimi səciyyələndirilir. Bu sistem üçün ümumi məqsədin olması, fəaliyyətin təşkili və idarə edilməsi, vəzifələrin paylanması, müsbət şəxsiyyətlərarası münasibətlərin yaranması xarakterikdir. Müəllim və şagirdlər arasında əməkdaşlıq prosesində sabit və stabil kollektiv formalaşır. Bu zaman müxtəlif metodlar (müsahibə, diskussiya, müzakirə, problemli məsələlərə həll və s.) öyrənmə prosesinin təşkilinə kömək edir.

Pedaqoji kollektivdə psixoloji mühitin yaradılması müəllimlərin qarşılıqlı münasibətindən asılı olsa da, burada direktorun böyük rolu danılmazdır. Məktəbin direktoru müəllim kollektivinin psixoloji mühitinə necə təsir edə bilər? Direktor kimi uzunmüddətli təcrübəmə əsaslanaraq deyə bilərəm ki, məktəbdə müsbət emosiyanın olması, xoş əhval-ruhiyyənin hökm sürməsi, müəllimlərin peşə dayanıqlığı rəhbərin idarəetmə xüsusiyyətləri ilə bağlıdır ki, bunların da içərisində ikisini daha çox fərqləndirmək olar: direktorun müəllimlərə münasibəti və işdə kollegiallıq. Direktor müəllimlərin işini xeyirxahlıqla qiymətləndirməyi bacarmalı, məktəbin imicini qorumağa çalışdığı kimi, hər bir müəllimin təmiz adını və nüfuzunu qorumalı, onun fəaliyyətini dəstəkləməli, ünvanına deyilən irad və tənqidləri səmimi qəbul etməli, ayrı-ayrı müəllimləri stimullaşdırarkən kollektivin ümumi fikrini nəzərə almalıdır.

Beləliklə, müəllim-şagird ünsiyyəti üslubunun yaranması yeni pedaqoji problem deyil. Pedaqoji prosesin iştirakçılarının ünsiyyətinin xarakteri və üslubu təlim-tərbiyə prosesinin nəticə etibarı ilə səmərəliliyini müəyyən edir. Məktəbdə müəllimlərin və şagirdlərin ünsiyyəti idealda humanist olmalıdır, bu, prosesin subyektlərinin qarşılıqlı inamı və hörməti əsasında qurulmalıdır. O, onun effektivliyinin mənəvi etalonudur.

## ƏDƏBİYYAT


1. *Атаманчук Г.В.* Особенности процессов управления в развитом обществе. М., 1980, 13 с.
2. *Kərimova F.Y.* Məktəbdaxili idarəetmənin modernləşdirilməsi texnologiyası. Ped. üzrə fəls. dokt. ... diss. Bakı, 2014, 172 s.
3. *Əlizadə Ə.* Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, 2008, 442 s.
4. *Березовин Н.А.* Основы психологии и педагогики: учеб. Пособие. Мн.: Новое знание, 2004, 336 с.
5. *Давыдов В.В.* Актуальные проблемы общей, социальной и педагогической психологии. М.: АПН СССР, 1980, 159 с.
6. Мудрик А.В. Социальная педагогика. М.: Академия, 2013, 240 с.
7. *Paşayev Ə., Rüstəmov F.* Pedaqogika. Bakı: Elm və təhsil, 2012, 462 s.
8. *Rüstəmov F.* Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və təhsil, 2016
9. Кодекс учителя/https://www.novayagazeta.ru/articles/2010/02/25/4578-kodeks-uchitelya

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 312-318
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 312-318
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 312-318

*UOT 37*

***M.Ə.Verdiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*mehbanuverdiyeva@mail.ru*

# KEYFİYYƏTLİ TƏHSİLDƏ MÜƏLLİM SƏRİŞTƏLİLİYİNİN ROLU

***Açar sözlər:*** *səriştəlilik, keyfiyyətli təhsil, innovator, insan kapitalı, pedaqoji texnika*

Təhsilin keyfiyyəti birbaşa müəllimdən asılıdır və insandan biliyi tam inkişaf etdirməsini tələb edir. Bu gün təhsilin mürəkkəbliyi və təbiətin dəyişməsi müəllimlik peşəsinin inkişafı və təkmilləşməsi üçün əsas tələblər yaradır. Fəaliyyətimiz getdikcə müəllimlərin yaradıcılıq, axtarış nişanları, yeni texnologiyalara həvəs, daha az vaxt aparan proqramlaşdırma tapşırıqları və s. baxımdan böyük tələblər qoyur. Onların həlli tələbələrə yaradıcılıqlarını inkişaf etdirməyə kömək edə bilər. Nəticədə, respublikanın insan potensialı yüksəlir, elm sahələrində müasir tələblərə cavab verən milli kadrların səviyyəsi yüksəlir. Təhsil müəyyən səviyyələrdə qlobal tendensiyalara təsir göstərir. Təhsil sistemində sürətlə inkişaf edən inkişaf prosesləri müəllim heyətinin normativ fəaliyyəti ilə xarakterizə olunur. Yüksək keyfiyyətli təhsil respublikanın inkişafına zəmin yaradır.

***М.А.Вердиева***

# РОЛЬ КОМПЕТЕНТНОСТИ УЧИТЕЛЯ В КАЧЕСТВЕННОМ ОБУЧЕНИИ

***Ключевые слова:*** *компетентность, качественное образование, инноватор, человеческий капитал, педагогическая техника*

Качество образования напрямую зависит от учителя и требует от человека всестороннего развития знаний. В наше время сложность образования и изменение природы предъявляют фундаментальные требования к развитию и совершенствованию педагогической профессии. Наша функция все чаще состоит в том, чтобы обучать учителей с точки зрения творчества, поисковой вовлеченности, энтузиазма в отношении новых технологий, менее трудоемких программных задач и т. д., такие как выдвижение больших требований. Их решение может помочь развитию творческого потенциала студентов. В результате повышается человеческий потенциал республики, повышается уровень национальных кадров, отвечающих современным требованиям в областях науки. Образование влияет на тенденции мирового развития на определенных уровнях. Быстро развивающиеся процессы развития в системе образования характеризуются нормативной деятельностью преподавательского состава. Качественное образование создает основу для развития республики.

***M.A.Verdiyeva***

## THE ROLE OF TEACHER COMPETENCY IN QUALITY LEARNING

***Keywords:*** *competence, quality education, innovator, human capital, pedagogical technique*

Quality education depends directly on the teacher and requires the development of a comprehensive knowledge person. In our age, the complexity of education and the change of nature place fundamental demands on the development and improvement of the teaching profession. Increasingly, our function is to educate teachers in terms of creativity, search engagement, new technology enthusiasm, less time-consuming software tasks, and so on such as putting great demands. Their solution can help the development of students' creative potential. As a result, the human potential of the republic is rising, and the level of national cadres meeting the modern requirements for the fields of science is increasing. Education affects world development trends at certain levels. The rapidly evolving development processes in the education system are characterized by the normative activities of the teaching staff. Quality education creates the basis for the development of the republic.

İnsan kapitalının inkişafında müəllim əməyi böyük rol oynayır. Keyfiyyətli təhsil müəllimdən bilavasitə asılı olaraq onun qarşısında hərtərəfli biliyə malik şəxsiyyətin yetişdirilməsi tələbini qoyur.

Yaşadığımız dövrdə təhsilin mürəkkəbləşməsi və xarakterinin dəyişməsi müəllimlik peşəsinin inkişafında, təkmilləşməsində əsaslı tələblər qoyur. Funksiyası getdikcə artan təhsilimiz müəllimlər qarşısında kreativlik, axtarıcılıq, yeni texnologiya həvəsi, az zaman çərçivəsində proqram vəzifələrini yerinə yetirmə və s. kimi böyük vəzifələr qoyur. Bunların həlli şagirdlərin yaradıcı potensialının inkişafına yaxından kömək edə bilər. Nəticədə, respublikanın insan potensialı həqiqi mənada yüksələr, elmtutumlu sahələr üçün müasir tələblərə cavab verən milli kadrların səviyyəsi daha da artar.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov müəllim haqqında demişdir: "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Uşaq dəxi qabili-tərbiyə bir şey olduğuna görə, onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar.

Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır. Müəllimliyi özü üçün Sibir əzabı bilən müəllim, yaxşıdır özünü bu sənətdən kənar etməklə, zəhmətdən və cavabdehlikdən qurtarsın, qəlbində tərbiyə və təlimə bir şövq və həvəs yoxsa, heç bu işə girməsin və bu sənəti əhl adamlara tərk ilə özünə başqa bir kəşhi-ruzi vasitəsi axtarsın" (3, s.128).

Müəllimlik çətin sənətdir. Ona görə ki, o, eyni anda müxtəlif xarakterli insanlarla, uşaqlarla işləyir. Fərdi xüsusiyyətlərin nəzərə alınması, humanizm və tələbkarlıq, az vaxtda çox informasiya çatdırmaq, öyrənəni sadəcə öyrətmək yox, öyrənməyi və axtarışçı olmağı öyrətmək, məcburi yox, sevərək öyrətmək və sair kimi öhdəlikləri müəllim yerinə yetirməlidir. Müəllimlik məsuliyyətlidir, çünki biz cəmiyyətimizə yararlı, sağlam və hərtərəfli düşüncəyə malik vətənpərvər şəxsiyyətlər yetişdirməliyik. Səriştəli müəllim öz işinə vicdanla yanaşır və yüksək nəticələr əldə edir. Çox təəssüf ki, pedaqoji ixtisas üzrə təhsil alan, lakin digər peşə arzusu ilə yaşayan şəxslərin də sayı az deyildir. Və təbii haldır ki, belə vəziyyət gələcək müəllimlərin fəaliyyətində öz neqativ təsirlərini göstərəcəkdir. Bunun qarşısı yalnız uyğun yaş dövründə düzgün peşəseçiminə istiqamətlənməklə alına bilər ki, buna müəllimlər və valideynlər ciddi münasibət bəsləməlidir.

Təhsil dünyanın inkişaf meyillərinə müəyyən səviyyələrdə təsir göstərir. Təhsil sistemində sürətlə gedən inkişaf prosesləri professor-müəllim heyətinin normalara uyğun fəaliyyəti ilə səciyyələnir. Keyfiyyətli təhsil isə respublikanın inkişafına zəmin yaradır. Çin filosofu Konfutsi dediyi kimi: “ Elm və təhsildən faydalanmağı bacaran xalq həmişə firavan yaşayar ” (7).

Bilik, informasiya və bu informasiyanın daşıyıcısı olan insan informasiya cəmiyyətinin formalaşmasında əsas kapitaldır. İnsanlarda peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsi innovasiyanın inkişafı üçün zəmin yaradır. Məşhur alman şairi Yohann Volfqanq Höte demişdir: “Bəşəriyyəti bütün bəlalardan yalnız bir şey qurtara bilər ki, bu da elmdir” (7).

Müəllimlik, dünyanın hər yerində çətin bir öhdəlikdir. Bu öhdəliyin şərəflə yerinə yetirilməsi onun peşə fəaliyyətinin əsas məzmununu ifadə edir. ABŞ mərkəzi təhsil departamenti yaxşı müəllimin aşağıdakı 8 xüsusiyyətə malik olduğunu bildirmişdir:

**1. Həyat təcrübəsinə sahibdir**. Yaxşı bir müəllimin önəmli xüsusiyyətləri arasında həyat təcrübəsi çox əhəmiyyətli bir yerdə durur. Səyahət edən, başqa sahələrdə iş təcrübəsi olan, idman edən müəllimlər sinifdəki fəaliyyətlərdə daha yaradıcı olurlar. Digər müəllimlərdən fərqli bir baxışla məsələyə yanaşa bilirlər.

**2. Hər tələbənin nə ilə motivasiya olduğunu hiss edə bilir**. Tələbələrin eyni dərslərdə iştirak etmələrinə baxmayaraq onlar fərqli düşüncələrə, dolayısı ilə bir-birindən fərqli motivasiyalara malik olurlar. Çox tələbə tədris prosesinə maraq göstərsə də, çox təəssüf ki, bəziləri bunu bacarmırlar. Belə tələbələr tez bir zamanda dərsə maraqlarını itirə bilərlər. Belə vəziyyətlərdə yaxşı müəllim bu tələbələrin maraq dairələrini öyrənərək onlarda keçdiyi dərsə maraq oyatmaq üçün müxtəlif forma və metodlardan istifadə etməlidir.

**3. Bir qəhrəman deyil, insandır**. Bəli, bütün müəllimlər qəhrəman deyil. Lakin onların fəaliyyəti insanlığa xidmət edən bir fəaliyyətdir. Bəzi müəllimlər şam kimi yanaraq bilikləri ilə ətrafa işıq saçırlar. Səriştəli müəllim öz biliyini verməklə yanaşı, bilmədiyi bir problem haqqında yeri gəldikdə “Bu mövzuda sənin

sualına cavab verə biləcək bir fikrim yoxdur" deyə bilməlidir. Müəllimlər dünyadaki bütün biliklərə sahib olmadıqlarını qəbul etməlidir, lakin daim öz üzərində çalışmalıdır.

**4.Müasir texnologiyaya tam hakim olmasa da, öyrənməyə daim meyillidir**. Texnologiya belə surətlə inkişaf edərkən bir müəllimdən bu inkişafı yüksək səviyyədə mənimsəməyi gözləmək haqsızlıqdır. Lakin müəllim bilmədiyi məqamları daim araşdırmalı və bunun üçün həqiqi mənada addımlar ata bilməlidir.

**5. Tələbələrinə riskli olmağı öyrədə bilir.** Təhsilverənlər tələbələrini riskə getməyi bacaran insanlar olmasına cəsarətləndirir. Lakin çox müəllim asanlıqla risk edə bilmir. Tələbələrin incidilə biləcəyini düşünüb bundan uzaq dururlar. Nəticədə, istər uğurlu, istərsə uğursuz olsun, risk etmək müəllimlərin qətiyyən unutmayacağı bir təcrübədir. Yaxşı bir müəllim bu səbəblə risk etməyi öyrədə bilir.

**6. Rəhbərlik nə düşünəcəyi haqqında elə də çox narahat olmaz.** Yaxşı bir müəllim "Rəhbərlik mənim haqqımda nə deyər" mövzusunda düşünmədən öz işini vicdanla yerinə yetirər. Hətta sinifləri çox səs-küylü ola bilər. Lakin bu müəllimlər üçün tələbələrdə öyrənmə həyəcanını və diqqətini ortaya çıxara bilmək hər şeydən öndə gəlir. Belə müəllimlər həmçinin risk etməkdən də çəkinməzlər.

**7. Özünə güvəni olduğunu göstərə bilir.** Tədris prosesində bir müəllimin özünə inamlı olması çox məna kəsb edə bilər. Müəllim kimi işləmək çətin və çox vaxt stresli olur. Ancaq yaxşı bir müəllim bütün bunlara baxmayaraq özünə inamlı olduğunu tələbə, valideyn, rəhbərlik ilə birlikdə digər müəllimlərə göstərə bilməlidir.

**8. Önəmli olan hissələrə diqqətini yönəldə bilir.** Məktəbdə ilk baxışda çox önəmli görünən və bir müəllimin eyni zaman çərçivəsində diqqətini paylamaq üçün kifayət qədər vaxtının olmadığı çox işlər vardır. Yaxşı bir müəllim hansı hissəyə daha çox önəm verəcəyi arasında seçimi edə bilir. Buna görə də sıralama edir və diqqətini öncə prioritet olan hissələrdə toplaya bilir (6).

Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir (5). İnsanın şəxsiyyət kimi formalaşmasında, onun təhsil və inkişafında müəllimin rolu danılmazdır. Bütün dövrlərdə müəllim peşəsinin əhəmiyyəti, şərəfliliyi, yüksəkliyi barədə müdrik kəlamlar söyləyiblər. Platon müəllim haqqında demişdir: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir".

Təhsil prosesini yaxşı idarə etmək bir müəllim üçün gərəklidir, lakin bu kifayət etmir. Əsl bir müəllimin optimist, dürüst, humanist, tələbkar, obyektiv, ədalətli kimi bir sıra xüsusiyyətlərə malik olması vacibdir. Bunun üçün müəllim ən əsas öz peşəsini sevməlidir. Müəllim olmaq tədris prosesində öz bacarığından və nailiyyətlərindən həzz almaq, qarşılaşdığı hər bir çətinliyə qarşı dözümlü olmaq,

məktəbdaxili və məktəbdənkənar vəziyyətlərdə başqaları ilə ünsiyyətə girmək, öyrətmək problemlərini həll edə bilmək deməkdir. Müəllim hər zaman daha yaxşı müəllim ola bilmək arzusu ilə yaşamalıdır, yalnız o zaman özünütəhsil, özünütəkmilləşdirmə, axtarışçı və novator kimi keyfiyyətlər inkişaf edəcəkdir. Təhsil islahatının əsas ideyası olan yaradıcı və tənqidi təfəkkürə malik olan fəal vətəndaş hazırlaya bilmək üçün müəllim yalnız pedaqoji yox, həmçinin psixoloji biliklərə də malik olmalıdır. Şagirdin psixoloji xüsusiyyətlərini analiz edə bilməli və fərdi xüsusiyyətləri nəzərə almalıdır. Müəllimdə empatiya qura bilmə bacarığı inkişafın son həddinə çatmış formada öz təsdiqini tapmalıdır.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında müasir dövrümüzün əsas çağırışlarını şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

- sənayenin innovasiyalar əsasında inkişafı;
- elm və texnologiya potensialının gücləndirilməsi;
- təhsil imkanlarının genişləndirilməsi;
- qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq;
- iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq;
- onun innovasiya əsaslı irəliləyişini təmin etmək;
- ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin təmin olunması;
- insan kapitalının inkişaf etdirilməsi və s. (4)

Təhsilin məqsədi təhsil alanı yaşadığı cəmiyyətə və həmçinin cəmiyyətin bağlı olduğu müasir dünyaya uyğun bir vətəndaş halında formalaşdırmaqdır. Bunu reallaşdırmaq üçün isə təhsil təhsilalanı zamanın tələb etdiyi bilik və bacarıqlarla silahlandırmaq niyyətindədir. Yəni təhsilalan cəmiyyət və dünyadakı inkişaf və dəyişmələrlə ayaqlaşa bilməli və hətta cəmiyyətə lazım gəlincə öz töhfəsini vermək gücündə olmalıdır. Yaxşı bir təhsil sistemində səriştəli müəllim heyətinin olması mütləqdir. M.K.Atatürk demişdir: "Bir cəmiyyətin millət ola bilməsi üçün mütləq müəllimlərə ciddi ehtiyacı vardır, yalnız müəllimlər cəmiyyəti həqiqi bir millət halına gətirirlər" (7).

Rus psixoloqu Anton Rubinşteynin fikirləri çox maraqlıdır: "Əgər bircə gün öyrənmirəmsə – bunu özüm hiss edirəm, əgər iki gün öyrənmirəmsə, bunu mənə yaxın olanlar hiss edirlər, əgər üç gün öyrənmirəmsə – bunu hamı hiss edir". Müəllim özü üzərində hər zaman çalışmalı, bütün yeniliklərlə öncədən tanış olmalı və bunu özünə borc, vəzifə bilməli, öz öhdəliyi kimi qəbul etməlidir. Müəllimin əlindəki imkanlardan biri həyatı gerçəklikləri ilə dərk etmək və biliklərin əldə olunması yolunda öz şagirdi ilə yanaşı getmək, onunla bərabər öyrənmək və kamilləşməkdir. Səriştəli müəllim qarşısında müxtəlif pedaqoji vəzifələr vardır. Professor Müseyib İlyasov ali pedaqoji təhsil müəssisələrində fəaliyyətin reallaşdırılmasını əhəmiyyətli hesab edən istiqamətləri müəyyən etmişdir:

1. Tələbələrin peşə və ixtisas hazırlığının Avropa təhsil standartlarına uyğunlaşdırılması.
2. Pedaqogika və psixologiya fənlərinin tədrisinin təkmilləşdirilməsi.

3. Pedaqogika və psixologiya fənlərindən elmi-tədqiqat işlərinin gücləndirilməsi.
4. Pedaqogika fənni üzrə təhsil səviyyələri arasında varisliyin gözlənilməsi.
5. Tələbələrdə müəllim peşəsinə marağın formalaşdırılması.
6. Tələbələrin pedaqoji təcrübəsinə ayrılan vaxtın artırılması və təcrübəyə rəhbərliyin peşəkarlara tapşırılması (1, s.130).

Həmin vəzifələrin müvəffəqiyyətlə həll edilməsi üçün onun yol və vasitələrinin, tərzlərinin müəllim tərəfindən düzgün seçilməsi və tətbiq olunması vacibdir ki, buna da yalnız müəllim pedaqoji texnikaya yiyələnməklə nail ola bilər.

Pedaqoji texnika tərbiyəçinin təlim, təhsil, tərbiyə və inkişaf problemlərinin həlli zamanı nümayiş etdirdiyi yolların, üsulların məcmusudur (2, s.96). Pedaqoji texnika müəllimin fəaliyyətində uşağın şəxsiyyətinə, genetik imkanına uyğun ən keyfiyyətli peşə bacarıqlarını nümayiş etdirməyə kömək edir. Pedaqoji texnika tərbiyəçinin nitq və digər ünsiyyət vasitələrindən (əl-qol hərəkətləri, jest və mimikası, duruşu və s.) təzahür edir. Pedaqoji texnikada ünsiyyət texnologiyası və tərbiyəçinin nitqi mühüm tərbiyə vasitəsi kimi əhəmiyyətli rol oynayır. Bunlara müəllimin özünü idarə etməsi, öz vücudunu idarə etmə (mimika), hisslərini, əhval-ruhiyyəsini idarə edə bilmək (artıq psixi gərginliyi götürmək, yaradıcılıq əhval-ruhiyyəsi yaratmaq), sosial-psixi qabiliyyətlər (diqqət, müşahidə, mühakimə, təxəyyül), nitq texnikası (nəfəsalma, diksiya, nitq tempi, səsin düzgün qoyuluşu və s.), şəxsiyyətə və kollektivə təsir göstərmək bacarıqları aiddir. Bu zaman tərbiyəçi təlim-tərbiyə fəaliyyətinin texnoloji tərəfini açaraq didaktik, təşkilatçılıq, konstruktiv, kommunikativ və s. bacarıqlar, texnoloji fəndlər (tələb vermək, ünsiyyəti idarəetmə, kollektiv yaradıcılıq işlərinin təşkili fəndləri) kimi səriştəlilik nümayiş etdirməlidir.

Müasir cəmiyyətin inkişafı təhsilin demokratikləşdirilməsinə, dünya təhsil sisteminə inteqrasiyaya, yeni pedaqoji təhsilin formalaşmasına əsaslı tələblər qoyur və bununla da pedaqoji kadrların hərtərəfli və intellektual inkişafına şərait yaradır. Yeni pedaqoji təfəkkür müasir insan şəxsiyyətinin formalaşmasında köhnə stereotipləri qəbullanmır, təlim və tərbiyə prosesinə zamanın tələblərinə cavab verən metodlarla yanaşmağı tələb edir. Yeni pedaqoji təfəkkür varislik ənənələrinə sadiq qalmaqla pedaqoji prosesə yeni məzmun, yeni forma və yeni baxış verir.

Cəmiyyətimiz informasiyalaşdırma prosesinə qoşulmuşdur ki, bu da cəmiyyətimizin sosial-iqtisadi və elmi-texniki mənbəyi kimi gələcəyimizin inkişafında mühüm yer tutur. Buna görə də müasir müəllimin qarşısında qoyulan əsas tələblərdən biri onun İKT biliklərinə malik olmasıdır. 2008-2012-ci illəri əhatə edən "Təhsil sisteminin informasiyalaşdırılması Proqramı" bu işin vacibliyini təsdiq etmişdir. Tədris prosesində informasiya texnologiyalarının geniş tətbiqi müasir təlimin ən prioritet sahələrindən biridir. Bunun üçün əsaslı işlər görülür, müəllimlər İKT təlimlərində iştirak edir, avadanlıqlardan geniş istifadə bacarıqlarına yiyələnirlər.

**Nəticə**

Keyfiyyətli təhsil müəllimdən bilavasitə asılıdır və onun qarşısında hərtərəfli biliyə malik şəxsiyyətin yetişdirilməsi tələbini qoyur. Yaşadığımız dövrdə təhsilin mürəkkəbləşməsi və xarakterinin dəyişməsi müəllimlik peşəsinin inkişafında, təkmilləşməsində əsaslı tələblər qoyur. Funksiyası getdikcə artan təhsilimiz müəllimlər qarşısında kreativlik, axtarıcılıq, yeni texnologiya həvəsi, az zaman çərçivəsində proqram vəzifələrini yerinə yetirmə və s. kimi böyük tələblər qoyur. Bunların həlli şagirdlərin yaradıcı potensialının inkişafına yaxından kömək edə bilər. Nəticədə, respublikanın insan potensialı həqiqi mənada yüksələr, elmtutumlu sahələr üçün müasir tələblərə cavab verən milli kadrların səviyyəsi daha da artar. Təhsil dünyanın inkişaf meyillərinə müəyyən səviyyələrdə təsir göstərir. Təhsil sistemində sürətlə gedən inkişaf prosesləri professor-müəllim heyətinin normalara uyğun fəaliyyəti ilə səciyyələnir. Keyfiyyətli təhsil isə respublikanın inkişafına zəmin yaradır.

## ƏDƏBİYYAT

1. *İlyasov M.İ.* Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018, 130 s.
2. *İlyasov M.İ.* Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013, 96 s.
3. *Hacıbəyov Ü.* Seçilmiş əsərləri. Bakı, 1985, 128 s.
4. https://president.az/files/future_az.pdf
5. http://edu.gov.az/upload/file/tehsilin_inkisafi_uzre_dovlet_strategiyasi_fealiyyet_plani.pdf
6. file:///C:/Users/Toshiba/Downloads/%E2%80%98%C4%B0yi%20%C3%B6%C4%9Fretmen%E2%80%99in%208%20%C3%B6zelli%C4%9Fi%20-%20E%C4%9Fitim%20Haberleri.html
7. http://rafailfazil.blogspot.com/p/aforizmlr.html

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 319-323
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 319-323
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 319-323

*UOT 37*

***M.C.Abdulkərimov***
*Bakı Dövlət Universitetinin Qazax filialı*
*bsukazakh@bsu.edu.az*

# RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

***Açar sözlər:*** *interaktiv təlim, şagird, idrak*

Məqalədə interaktiv təlimin məqsədləri, interaktiv təlimin metod və priyomlarından istifadə strukturunun 8 mərhələsi, interaktiv təlimin təşkilinin əsas 6 qaydası şərh edilir. İnteraktiv təlim üsulları o zaman müsbət nəticə verə bilər ki, şagirdlər üçün müasir tələblərə cavab verən öyrədici mühit yaradılsın.

***М.Дж.Абдулкеримов***

## ИСПОЛЬЗОВАНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ ПО МАТЕМАТИКЕ

***Ключевые слова:*** *интерактивное обучение, ученик, познание*

В статье изложены цели интерактивного обучения, 8 этапов использования методов и руководств интерактивного обучения, а также шесть основных правил интерактивного обучения. Интерактивные методы обучения могут иметь положительный эффект только в том случае, если для учащихся создана учебная среда, отвечающая современным требованиям.

***M.J.Abdulkarimov***

## USE OF INTERACTIVE TEACHING METHODS IN LESSONS ON MATHEMATICS

***Keywords:*** *interactive learning, pupil, intellect*

The article outlines the objectives of interactive training, 8 stages of the use of interactive training methods and guidelines, and the six basic rules for interactive training. Interactive teaching methods can have a positive effect only if a learning environment that meets modern requirements is created for students.

"Təlim metodu – real həyatda olanları qeydə almır, əksinə olaraq, idraki prosesdə və praktik fəaliyyətində insanın necə hərəkət etməyidir" (2, s.63)

İnteraktiv təlim şəraitində riyaziyyat dərslərinə müəyyən tələblər verilir. İnteraktiv məşğələlər apararkən bütün şagirdlərin müstəqilliyinə şərait

yaradılmalıdır. Məşğələnin məqsədi aydın olmalıdır. Şagirdlər bu məşğələlərdə hansı bilik, bacarıq və vərdişlərə yiyələnəcəklərini əvvəlcədən bilməlidirlər. Məşğələdəki tapşırığın təlimatının dəqiq verilməsi də çox önəmlidir.

Respublikamızda interaktiv təlimlə bağlı Z.Veysovanın işlərini çox faydalı hesab edirik [1].

Təlimə müasir yanaşma həyat və fəaliyyətin inkişaf dinamikasına uyğun olaraq tədris prosesinə yeniliklərə istiqamətlənməlidir.

Pedaqogikada təlimin bir neçə modelini ayırd edirlər:

1) passiv – şagird "obyekt" rolunda çıxış edir (qulaq asır və baxır).

2) aktiv – şagird "subyekt" rolunda çıxış edir (müstəqil işlər, yaradıcı tapşırıqlar).

3) interaktiv – inter (qarşılıqlı), act (fəaliyyət). Təlim prosesi bütün şagirdlərin daim fəal, qarşılıqlı əlaqəsi şərti ilə həyata keçirilir. Müəllim və şagird təlimin bərabərhüquqlu subyektləridir.

İnteraktiv o deməkdir ki, kimləsə (insanla) və ya nə iləsə (məsələn, kompüterlə) dialoqda, qarşılıqlı əlaqədə olmaq bacarığıdır.

Təlim prosesinin təşkili zamanı tədris prosesində fəal və məşğələlərin keçirilməsinin interaktiv formalarından (işgüzar və rollu oyunlar, konkret situasiyaların araşdırılması, psixoloji treninqlər) istifadə nəzərdə tutulur. Tədris prosesində keçirilən məşğələlərin interaktiv formalarından istifadə olunması auditoriya məşğələlərinin 20%-dən az olmamalıdır.

Riyaziyyat dərslərində şagirdlərin öyrənmə prosesində, tədris materialının mənimsənilməsi prosesində birgə fəaliyyəti o deməkdir ki, hər bir şagird xüsusi fərdi bilik və bacarığını qoyur, biliklərin və ideyaların mübadiləsi gedir. Həm də bu qarşılıqlı dayaq, xeyirxahlıq mühitində baş verir. Bu isə təkcə yeni biliklər əldə etmək deyil, həm də idrak fəaliyyətini inkişaf etdirməyə və onu əməkdaşlığın daha yüksək formasına keçirməyə imkan verir.

İnteraktiv təlimin əsas xüsusiyyəti – subyektlərin qarşılıqlı əlaqəsinin yüksək səviyyəsidir.

Riyaziyyat dərslərində şagird interaktiv metod və priyomlardan istifadə etdikdə mənimsəmənin tamhüquqlu iştirakçısı olur, onun təcrübəsi tədris materalının dərk edilməsi üçün mənbə olur. Müəllim hazır biliklər vermir. O, şagirdləri bu bilikləri müstəqil əldə etməyə təhrik edir. Dərslərin ənənəvi formada keçirilməsi ilə müqayisədə interaktiv təlimdə müəllim və şagirdin qarşılıqlı əlaqəsi dəyişir: müəllimin aktivliyi şagirdlərin aktivliyinə keçir, müəllimin vəzifəsi isə şagirdlərin təşəbbüskarlığı üçün şəraitin yaradılmasından ibarətdir.

İnteraktiv təlim eyni zamanda üç məsələni həll edir:

- tədris-idrak;
- kommunaktiv-inkişafetdirici;
- sosial-yönəldilmiş.

Riyaziyyat dərslərində interaktiv təlimin mahiyyəti ondan ibarətdir ki, tədris prosesi elə təşkil olunur ki, praktiki olaraq bütün şagirdlər dərketmə prosesinə cəlb olunurlar, onlar bildikləri və düşündüklərini demək, təhlil etmək imkanına malik olurlar.

İnterakiv təlimin məqsədlərini aşağıdakı kimi qeyd etmək olar:

- şagirdlərdə marağın yaradılması;
- tədris materialının effektiv mənimsənilməsi;
-qoyulmuş tədris tapşırığının həlli yollarının şagirdlər tərəfindən müstəqil şəkildə axtarılması;
- şagirdlər arasında təsirin yaradılması, komandada işləməyə öyrətmək, istənilən məsələnin müzakirəsində dözümlülük göstərmək, hər bir şagirdin söz demək, fikir bildirməyinə hörmətlə yanaşmaq;
- şagirdlərdə mülahizə və münasibətlərin formalaşdırılması;
- həyati və tədris vərdişlərinin formalaşdırılması.

Riyaziyyat təliminin interaktiv metodları aşağıdakı tələblərə əməl olunmasını şərtləndirir:

- irəli sürülən ideyaların tənqid edilməsi qadağandır;
- problemin həll olunmaması haqqında mülahizələr söyləmək olmaz;
- nə qədər çox təklif irəli sürülsə, yeni və qiymətli ideyanın olması ehtimalı o qədər də çoxalır;
- "beyin həmləsi" vaxtı təklif olunmuş ideyalar alqışlanır;
- çətin həll olunan problemlərdə o, hissələrə parçalanır;
- rolların olması;
- yaradıcı mühitin olması;
- oyunun bütün iştirakçılarının aktiv qarşılıqlı əlaqəsi;
- rolların oyun iştirakçıları arasında paylanması;
- oyun iştirakçılarının müxtəlif maraqlarının olması;
- bütün iştirakçıların ümumi oyun məqsədləri;
- çevik vaxt miqyasından istifadə;
- hər bir iştirakçının və oyun komandalarının fəaliyyətinin qiymətləndirilməsi.

İnteraktiv təlimin metod və priyomlarından istifadə strukturu 8 mərhələdən ibarətdir.

1. Motivasiya. Bu mərhələnin təşkili zamanı hər dərsdə motivasiya üsullarını dəyişmək lazımdır.
2. Məqsədyönlülük. Məqsədlərin məlumat verilməsi sonrakı fəaliyyəti məqsədyönlü etməyə imkan verir. Müəllim şagirdlərə dərsin məqsədini qısa və dürüst deməyi öyrədir.
3. Yeni informasiyanın təqdim edilməsi. Bu mərhələ imkan verir ki, şagirdlərin nəyi bildiklərini və aydın olmayanları müəllim özü üçün aşkar etsin.

4. İnteraktiv metodlar və priyomlar. Bunlardan kiçik qruplarda istifadə olunur. Belə halda ən yaxşı variant hər qrupda müxtəlif səviyyəli, informasiyalı şagirdlərin olmasıdır ki, bu, şagirdlərə bir-birini tamamlamağa və biliklərlə zənginləşdirməyə imkan verir. Hər bir qrup konkret və daha dəqiq informasiyalı çıxış etməlidir.

5. Yeni məhsul. Şagirdlər tərəfindən mənimsənilmiş informasiyanın həcmini nəzərə alaraq onlara çıxardığı nəticəni və öz nöqteyi-nəzərini ifadə etməyə imkan verilir.

6. Refleksiya. Bu mərhələdə şagirdlərin gördükləri işə yekun vurulması nəzərdə tutulur. Bu mərhələ şagirdlərə imkan verir ki, yeni mənimsənilmiş bilikləri qeyd etsinlər və hansı hallarda onu tətbiq etməyi təyin etsinlər.

7. Qiymətləndirmə. Bu mərhələnin çətinliyi ondan ibarətdir ki, qiymətləndirmə şagirdləri sonrakı fəaliyyəti üçün stimullaşdırmalıdır.

8. Ev tapşırığı. İnteraktiv metodlardan istifadə edilməklə keçirilən dərslərdən sonra şagirdlərə evə öyrənilmiş materialın daha dərindən mənimsənilməsi üçün yaradıcı tapşırıqlar verilir.

İnteraktiv təlimin təşkilinin əsas qaydaları:

Birinci qayda. Öyrənməyə sinfin bütün şagirdləri cəlb olunmalıdır. Bu məqsədlə bütün iştirakçıları müzakirə prosesinə cəlb edən texnologiyalardan istifadə etmək faydalıdır.

İkinci qayda. İştirakçıların psixi hazırlığına diqqət yetirmək lazımdır. Dərsə gələn şagirdlərin bilavasitə bu və ya digər formada işə psixoloji hazır olub-olmaması önəmlidir. Bu məqsədlə fəaliyyətlərinə görə daimi tərif deyilməli, özlərini reallaşdırmaq üçün imkan yaradılmalıdır.

Üçüncü qayda. İnteraktiv texnologiyadan istifadə zamanı şagirdlərin sayı çox olmamalıdır. Bütün iştirakçıların sayının 25 olması daha optimaldır. Yalnız bu şərt daxilində kiçik qruplarda məhsuldar iş mümkündür.

Dördüncü qayda. İnteraktiv təlim üçün otağın hazırlanması. Otaq elə təşkil olunmalıdır ki, iştirakçılar böyük və kiçik qruplarda işləyərkən asan şəkildə yerlərini dəyişə bilsinlər. Öyrənənlər üçün fiziki rahatlıq yaradılmalıdır.

Beşinci qayda. Əvvəlcədən reqlament (qayda) qoyulmalı və onun pozulmamasına çalışmaq lazımdır.

Altıncı qayda. İştirakçıların qruplara bölünməsinə diqqətlə yanaşılmalıdır. Öncə bunu könüllülük əsasında, sonra isə təsadüfi seçim əsasında etmək lazımdır.

Riyaziyyat müəllimi aşağıdakı bacarıqlara malik olmalıdır:

- tədqiqat prosesini elə təşkil etməlidir ki, o, şagirdlər tərəfindən şəxsi təşəbbüs kimi qəbul olunsun;
- məqsədyönlü şəkildə şagirdlər üçün onları güclərini inteqarsiya etməyə ruhlandıran tədris situasiyaları yaratmalıdır;
- dərsdə tədris mühiti yaratmalı və şagirdlərə öz köməyini hissələrə

bölməlidir.

Riyaziyyat dərslərində interaktiv təlimin təşkilinə aşağıdakılar daxildir:

-dərs üçün problem formulənin tapılması;

-dialoqa aparan tədris mühitinin təşkili;

-təlim prosesində şagirdlərin və müəllimin motivasiya hazırlığının formalaşdırırlması;

-şagirdlər və müəllim üçün tədris əməkdaşlığının qaydalarının hazırlanması və qəbul edilməsi;

-ünsiyyət üçün üsullardan: konstruktiv sualların verilməsi və s. istifadə;

-birgə fəaliyyətin nəticəsinin qiymətləndirilməsinin optimallaşdırılması.

İnteraktiv məşğələlər şagirdlərin sosial və intellektual bacarıqlarının inkişafına kömək edir. Belə məşğələlərin əsasında müəllim-şagird əməkdaşlığı dayanır. Bu məşğələlərdə nəinki şagirdlərin, həmçinin müəllimlərin də fəallığının artması, bir-birindən qarşlıqlı öyrənmə, yaradıcı və məntiqi inkişafı baş verir.

**ƏDƏBİYYAT**

1. *Veysova Z.* Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. BMT Uşaq fondu, Bakı, 2007
2. *Гайдаржи Г.Х.* О роли задач при проблемном подходе к организации обучения математике / В сб. Избранные вопросы методики преподования математики. Москва: МГПИ, 1976

PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ – 2019, C. 67, № 4, s. 324-329
ИЗВЕСТИЯ ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА – 2019, Т. 67, № 4, с. 324-329
TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY – 2019, V. 67, № 4, pp. 324-329

## Sənətşünaslıq və memarlıq

*UOT 781*

***Ü.N.Niftiyeva***
*Bakı Musiqi Akademiyası*
*niftiyeva89@bk.ru*

# SÜLEYMAN ƏLƏSGƏROVUN "BİZİM VƏTƏN ÇÖRƏYİ" MAHNISININ MELODİK XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

***Açar sözlər:*** *Süleyman Ələsgərov, mahnı, vətən çörəyi, təhlil, məqam, ritmika, poetik forma*

Təqdim olunan məqalədə görkəmli bəstəkar S.Ələsgərovun əmək və hünər nəğmələri silsiləsindən "Bizim vətən çörəyi" adlı mahnısının nəzəri təhlili verilir. Məqalədə mahnının əsasını təşkil edən söz və musiqinin vəhdəti, onların qarşılıqlı əlaqəsi, musiqi forması, məqam, ritmika və melodik dilinin tədqiqi əsas təhlil obyektinə çevrilmişdir.

***У.Н.Нифтиева***

## ИССЛЕДОВАНИЕ МЕЛОДИЧЕСКИХ ХАРАКТЕРИСТИК ПЕСНИ «ХЛЕБ НАШЕЙ РОДИНЫ» С.АЛЕСКЕРОВА

***Ключевые слова:*** *Сулейман Алескеров, песня, хлеб родины, анализ, магам, ритмика, поэтическая форма*

В предлагаемом статье представлен теоретический анализ песни «Хлеб нашей Родины» из серии песен выдающегося композитора С. Алескерова, посвящённых труду и любви к родине. В статье основным объектом анализа является сочетание слов и музыки, которые составляют основу песни и их взаимодействие, форма музыкального языка, ритмика и мелодический язык музыки.

***U.N.Niftiyeva***

## STUDY MELODIK CHARACTERISTICS OF THE SONG "HOMELAND BREAD" BY S.ALESKEROV

***Keywords:*** *Suleiman Aleskerov, song, homeland bread, analysis, magam, rhythm, poetic form*

The proposed article presents a theoretical analysis of the song "Homeland bread" from a series of songs by the outstanding composer S. Aleskerov dedicated to

work and love music that form the basis of the song and their interaction, the form of the musical language, the rhythm and melodic language of music.

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli sənətkarlarından biri olan Süleyman Ələsgərov Azərbaycan musiqi salnaməsinə daima yaşar musiqi əsərləri bəxş etmişdir. Bəstəkarın yaradıcılığı xalq həyatının bütün sahələri ilə bağlı olmuşdur. Çünki bu əsərlər dövr və zamanla səsləşmiş, vətənin hər bir yaşam anı ilə üst-üstə düşmüşdür. Bütün əsərlərində musiqi sənətinin inkişafı əsas xətt olmuşdur.

Süleyman Ələsgərov 1924-cü il fevral ayının 22-də Şuşada anadan olmuşdur. Şəhərin musiqi həyatı uşaqlıqdan onda bu sənətə dərin maraq oyatmışdır. Cıdır düzündə qurulan məclislərdə məşhur xanəndələrimizdən Seyid Şuşinski, Xan Şuşinski və başqalarının oxuduqları ayrı-ayrı muğamları və təsnifləri heyranlıqla dinləyərdi [4]. Əvvəlcə o, Şuşada təşkil olunan musiqi texnikumunda tar sinfində təhsil almış, sonra isə təhsilini Azərbaycan Dövlət Konservatoriyasında davam etdirmişdir.

Müxtəlif janrlarda bəstələdiyi əsərlər ölkəmizin mədəni həyatında mühüm rol oynayaraq milli musiqi sənəti tarixinə parlaq səhifələr yazmışdır. Vokal musiqisinin məşhur janrı olan mahnı Süleyman Ələsgərovun yaradıcılığında mühüm yer tutur. Bəstəkarın mahnı janrında yaratdığı əsərləri öz gözəlliyi ilə milli mədəniyyətimizin inkişafında böyük rol oynayır. Çünki vokal musiqisinin sadə janrı olan mahnı xalq tərəfindən sevilə-sevilə dinlənilir və hətta dillər əzbəri olur. Bəstəkarın qəhrəmanları sadə zəhmət adamlarıdır. Əməyin tərənnümünə həsr olunmuş mahnıları sırasında "Yazın bayram nəğməsi" (sözləri Hikmət Ziyanındır), "Torpağın arzusu" (sözləri Tahir Taisoğlunundur), "Aida Hüseynova haqqında mahnı" (sözləri Hikmət Ziyanındır), "Nailə" (sözləri Rəhilə İsmayılovanındır), "Usta Məmməd" (sözləri Əjdər Ağayevindir), "Sabir Əhmədov haqqında mahnı" (sözləri Oktay Rzanındır), "Həqiqət Hüseynova haqqında mahnı" (sözləri Söhrab Tahirindir), "Aybəniz" (sözləri Rəfiq Zəkanindir), "Ərknaz" (sözləri Qüdrət Əzizindir), "Zərifə" (sözləri Məmməd Alimindir), "Talıstan qızı" (sözləri İsgəndər Coşğunundur) mahnısı və başqa bu səpkili nəğmələri ilə bəstəkar insan əməyini və hünərini musiqi sədası ilə rəğbətləndirərək zəhmətə, əməyə diqqətini, hörmətini daha gözəl nümayiş etdirmişdir [1]. Bu əsərləri dinlədikcə hər bir əmək adamı öz zəhmətinə və əməyinə olan münasibəti görür və bu musiqi hisslərindən daha da ruhlanaraq əməyinə bağlanır. Məhz buna görə də bəstəkarın yaradıcılığı xalq mənəviyyatının tərbiyəsinə, yüksəlişinə, əməksevərliyə, zəhmətin qiymətləndirilməsinə, yüksək əhval-ruhiyyə, qurub yaratmaq eşqinə, əmək fədakarlığına bir çağırışdir.

Vətən sevgisi, xalqa məhəbbəti bəstəkarın əsərlərində ana xətt kimi

keçir. Məhz buna görə də vətən sevgisi ilə yaşayan, onun hər bir nemətinin qədrini bilən S.Ələsgərov Əjdər Qiyaslının "Bizim vətən çörəyi" şerinə biganə qala bilməmişdir [1, s.8-11]. Bu şerin ruhu onu gözəl bir nəğmə bəstələməyə vadar etmişdir. Bəstəkar bütün nemətlərin tacı, ruzi-bərəkət rəmzi olan, öpüb alnımıza qoyduğumuz halal zəhmət ətirli çörəyi tərənnüm edən misraları musiqi dili ilə dinləndirərək xalqına gözəl bir sənət nümunəsi bəxş etmişdir. Çünki bu gözəl sətirləri insanların musiqi ruhuna axıtmaq və bizdə bu gözəl nemətə məhəbbəti və hörməti artırmaq, onu sevmək, ucalardan uca tutmaq bəstəkar üçün şərəfli və müqəddəs bir vəzifə olmuşdur. S.Ələsgərovun musiqi dili biz insanları çörəyin qədrini bilməyə çağırır. "Bizim vətən çörəyi" mahnısı bəstəkarın dirijorluğu altında Səid Rüstəmov adına Azərbaycan Dövlət xalq çalğı alətləri orkestrinin müşayiəti ilə Yaşar Səfərov tərəfindən ifa edilmişdir.

"Si bemol" mayeli şüştər məqamına əsaslanan mahnı moderato con moto tempində və 6/8 ölçüdə yazılmışdır. Mahnının sözləri ilə melodiyası həmahənglik təşkil edir. Kuplet-nəqərat formasında yazılan mahnı üç bənddən və nəqəratdan ibarətdir. Hər bənd və hər misrası yeddi heca ilə təqdim olunur. "Bizim vətən çörəyi" mahnısında şerin kuplet və nəqəratda həmqafiyəsi aşağıdakı kimi qruplaşdırılır [5].

**Kuplet:**

*Nemətlərin tacıdır, (a)*
*Ömürlərə dirəkdir, (a)*
*Müqəddəsdir, əzizdir, (a)*
*İnsanlara gərəkdir, (a)*
*Bizim vətən çörəyi. (b)*

**Nəqərat:**

*Uzaq, yaxın bilir ki, (b)*
*Halal zəhmət ətridir. (a)*
*Qədirbilən ellərin, (c)*
*Yenilməz hünəridir (a)*
*Bizim vətən çörəyi. (b)*

Hər iki bəndə və nəqərata nəzər salsaq, bəndin *aaaab*, nəqəratın *bacab* prinsipi üzrə qafiyələnməsinin şahidi oluruq.

Musiqi təhlilinə nəzər salsaq, bəstəkar mahnı üçün "si bemol" mayeli şüştəri seçmişdir [2]. İlk olaraq mahnı fortepianonun solo müşayiəti ilə səkkiz xanəli girişlə başlayır. Girişin hər iki cümləsində şüştər məqamının tamamlayıcı tonu (üçüncü pillə - fa) tonika orqan punktu vəzifəsini daşıyır. Həmin orqan punkt birinci cümlədə təksəsli şəkildə keçirilirsə, ikinci cümlədə "f" dinamik

işarəsi ilə oktava məsafəsində təqdim olunur. Girişin melodiyası mahnıda "leytcümlə" rolunu daşıyır. Çünki həmin melodiyanı biz həm kupletin, həm də nəqəratın sonunda eşidirik. Həmin melodiya kuplet və nəqəratda bağlayıcı rolunu oynayır.




Mahnının kupleti şüştər məqamının aralıq ladı olan tərkib ("do") üzərində qurulmuşdur (tərkib şöbəsi) [6, s.94]. Ümumilikdə, mahnı iki xanəli ibarələrə əsaslanır. Adətən ibarələr ya eyni, ya da variantlı şəkildə təkrar olunur. İbarələrin sonu şüştərin tərkib aralıq ladının yeddinci pilləsində ("do") bitir. Burada aşağıya doğru hərəkət edən sekvensiya prinsipinin də şahidi oluruq. Maraqlıdır ki, kuplet hissədən sonra nəqərata keçid vardır. Bu iki xanəli instrumental periodun verilişindən sonra biz nəqəratda adını çəkdiyimiz leytcümləni vokal instrumental şəkildə eşidirik.






Nəqərat hissə mahnıda işlənmə bölməsinin vəzifəsini daşıyır. Burada müxtəlif frazalar melodiyanın zil kulminasiyasından tədricən ilk tonika və tamamlayıcı tona çatdırılması əhəmiyyətini görür. Bu səbəbdən nəqərat hissənin cümlələrə deyil, məhz iki xanəli ibarələrə bölünməsi daha çox məqsədəmüvafiqdir. Kulminasiyadan ilk tonikaya qayıdış sanki muğam dəstgahında melodiyanın tonikaya enməsi ilə əlaqələndirilə bilər.









Nəqərat hissənin sonunda biz yenidən leytcümləni eşidirik. Həmin cümlə iki dəfə keçirilir. Birinci cümlə "p", ikinci cümlə sonluq kimi "f" dinamik işarəsi ilə səsləndirilir.

## ƏDƏBİYYAT


1. *Ələsgərov S.Ə.* Əmək və hünər nəğmələri. Bakı: İşıq, 1990, 94 s.
2. *Hacıbəyov Ü.Ə.* Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Yazıçı, 1985, 152 s.
3. *Qafarova M.* Bəstəkar Süleyman Ələsgərov və xalq çalğı alətləri orkestri. Bakı: ADPU, 2012, 227 s.
4. *Xəlilov V.C.* Bəstəkar Süleyman Ələsgərov. Bakı: İşıq, 1985, 72 s.
5. *Mahmudova C.E.* Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi. Bakı: Mars Print, 2009, 253 s.
6. *Şıxəliyev İ.* Azərbaycan musiqisinin lad nəzəriyyəsi. Bakı: Zərdabi-nəşriyyat poliqrafiya, 2015, 172 s.
7. *Təhmirazqızı S.* Süleyman Ələsgərov xatirələrdə. Bakı: Təfəkkür, 2002, 390 s.

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- "Humanitarian, social and pedagogical-psychological sciences" series of the periodic scientific journal "Transactions of Pedagogical University" accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal's electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmışdır: 24.04.2020.
Kağız formatı $70 \times 100^{1/16}$, 20,75 ç.v.
Sifariş 132. Sayı 200.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68